# AZƏRBAYCAN PROKURORLUĞU

Elmi-praktiki jurnal

XÜSUSİ BURAXILIŞ



# HEYDƏR ƏLİYEV
# və
# AZƏRBAYCAN PROKURORLUĞU

www.genprosecutor.gov.az


HEYDƏR ƏLİYEV
1923 - 2023
100 il
AZƏRBAYCAN RESPUBLİKASININ
BAŞ PROKURORLUĞU

# AZƏRBAYCAN PROKURORLUĞU

**Təsisçi:**
Azərbaycan Respublikasının
Baş Prokurorluğu

**REDAKSİYA HEYƏTİ**

**Baş redaktor:**
Heydər Məmmədov

**Baş redaktorun müavini:**
Mübariz Əhmədov

**Redaksiya heyətinin üzvləri:**
Tural Aslanov
Natiq Hüseynov
Aynur Osmanova
Erkin Əlixanov
Elnur Musayev
Vüqar Əliyev
Mahir Abbasov
Asəf Sarıkişiyev
Şəfahət İmranov

**Məsul katib:**
Talıb Cəfərov

**Redaksiyanın ünvanı:**

Bakı şəhəri, Binəqədi rayonu, Dərnəgül yaşayış sahəsi, 21-ci Dağlıq küçəsi, 3105-ci məhəllə.

**Tel. / Faks:** 361 14 02
**www.genprosecutor.gov.az**

*Elmi-praktiki jurnal*

*Xüsusi buraxılış*

“Kütləvi informasiya vasitələri haqqında” Azərbaycan Respublikası Qanununa müvafiq qaydada təsis edilmişdir.

Jurnal 2003-cü ildən etibarən rübdə bir dəfə dövriliklə dərc edilir.

Azərbaycan Respublikası Baş prokurorunun 19 may 2021-ci il tarixli, 09/06 nömrəli əmri ilə “Azərbaycan Prokurorluğu” elmi-praktiki jurnalının redaksiya heyətinin yeni tərkibi təsdiq edilmişdir. “Azərbaycan Prokurorluğu” elmi-praktiki jurnalının fəaliyyəti üçün məsul qurum Baş Prokurorluğun Elm-Tədris Mərkəzidir.

Yazılardakı məlumatların doğruluğuna jurnalın redaksiya heyəti məsuliyyət daşımır.

Jurnalda dərc edilmiş məlumatlardan istifadə zamanı jurnala istinad etmək vacibdir.

Azərbaycan Respublikası Baş Prokurorluğunun mətbəəsində səhifələnmiş və 350 nüsxə kağız, 150 nüsxə elektron daşıyıcıda çap edilmişdir.

*Xüsusi buraxılışın çapına məsul:* Rövşən Abdullayev
*Texniki heyət:* Samir Vahidov, Səttar Əliyev

Çapa imzalanmışdır: 20.06.2023
60x84 1/8 formatda 256 səhifə həcmdədir.

© “Azərbaycan Prokurorluğu”, 2023

# MÜNDƏRİCAT

## I SƏRƏNCAM


**5** "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 29 sentyabr 2022-ci il tarixli 3494 №-li Sərəncamı


## I ULU ÖNDƏR HEYDƏR ƏLİYEVIN PARLAQ VƏ UNUDULMAZ XATİRƏSİI


**7** Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə bağlı Baş Prokurorluq üzrə Tədbirlər planı


## I BAŞ PROKURORLUQDA


**9** Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar prokurorluq əməkdaşları tərəfindən ağacəkmə kampaniyası keçirilib

**11** Baş Prokurorluqda Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü qeyd edilib

**14** Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Baş Prokurorluq tərəfindən film ərsəyə gətirilib

**15** Baş Prokurorluğun rəhbərliyi Ulu Öndərin xatirəsini yad edib

**16** Qəbələ şəhərində Ulu Öndər Heydər Əliyevin 100 illiyinə həsr edilmiş Elmi-Məsləhət Şurasının xüsusi iclası keçirilib

**18** "Heydər Əliyev İli" elan edilməsinə təsadüf etdiyi Qəbələ rayon prokurorluğunun yeni inzibati binasının açılış mərasimində Ulu Öndərin xatirəsi yad edilib

**20** Baş Prokurorluqda Azərbaycan Gəncləri Gününə həsr olunmuş "Heydər Əliyev və Azərbaycan gəncliyi" adlı konfrans keçirilib

**23** Gənc prokurorluq əməkdaşları Heydər Əliyev Mərkəzini ziyarət edib

**24** "Heydər Əliyev və humanizm prinsipləri" mövzusunda elmi-praktik seminar keçirilib

**25** "Ümummilli Lider Heydər Əliyev Azərbaycanda konstitusion-hüquqi islahatların banisidir" mövzusunda elmi-praktiki konfrans keçirilib

**27** Baş Prokurorluğun əməkdaşları Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar keçirilən beynəlxalq elmi-praktik konfransda iştirak ediblər

**28** "Korrupsiya ilə mübarizədə Heydər Əliyev siyasi irsi" adlı konfrans keçirilib

**30** Prokurorluq əməkdaşları Heydər Əliyev Mərkəzində "Qarabağnamə" tamaşasını izləyib

**31** Baş Prokurorluğun əməkdaşları Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi tərəfindən Heydər Əliyevin 100 illik yubileyinə həsr edilən konfransda iştirak ediblər

**32** Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar prokurorluq işçiləri tərəfindən könüllü qanvermə aksiyası keçirilib

**33** Prokurorluq əməkdaşları uşaq və körpələr evlərini ziyarət ediblər

**34** "Heydər Əliyev və müasir Azərbaycan" mövzusunda keçirilmiş elmi-praktik konfransda Baş Prokurorluğun nümayəndəsi iştirak edib

**35** Baş Prokurorluğun əməkdaşları I və II Qarabağ müharibələrində iştirak etmiş şəhid və müharibə veteranlarının ailələri ilə görüşüblər

**36** Prokurorluq əməkdaşları "Bakı Marafonu – 2023"də iştirak edib

**37** Baş Prokurorluqda "Ulu Öndər Heydər Əliyev və hüquq elminin inkişafı" mövzusunda geniş tərkibli konfrans keçirilib


## I YUXARI PROKURORLUQLARDA


**40** Hərbi Prokurorluq xüsusi təyinatlılarla birlikdə "Heydər Əliyev İli" münasibətilə tədbir keçirib

**41** Müasir Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin 100 illik yubileyi münasibəti ilə Respublika Hərbi Prokurorluğunda tədbir keçirilib

**43** Hərbi Prokurorluq Vətən müharibəsi iştirakçıları ilə birlikdə "Heydər Əliyev İli" ilə bağlı tədbir keçirib

**44** Respublika Hərbi Prokurorluğunun və Müdafiə Nazirliyinin birgə təşkilatçılığı ilə Ulu Öndərin 100 illik yubileyi ilə bağlı tədbir keçirilib

**45** Ulu Öndər Heydər Əliyevin xatirəsi Qubadlıda anılıb.

**46** Respublika Hərbi Prokurorluğunun və Müdafiə Nazirliyinin birgə təşkilatçılığı ilə Heydər Əliyevin 100 illik yubileyi ilə bağlı Kəlbəcərdə tədbir keçirilib

**47** Naxçıvan Muxtar Respublikası Prokurorluğu tərəfindən "Heydər Əliyev İli" münasibətilə orta ümumtəhsil məktəblərində maarifləndirmə tədbirləri keçirilib

**48** "Müstəqil Azərbaycan vəkilliyinin banisi Heydər Əliyev" mövzusunda elmi-praktiki konfrans keçirilib

**49** Naxçıvan Muxtar Respublikası Prokurorluğunda Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş konfrans keçirilib

**50** Naxçıvan Muxtar Respublikası Prokurorluğu tərəfindən "Heydər Əliyev İli" münasibətilə təhsil müəssisələrində elmi-tədqiqat tədbirləri keçirilib

**51** Naxçıvan Muxtar Respublikası Prokurorluğunda Ümummilli Liderin anadan olmasının 100 illiyi ilə əlaqədar "Açıq qapı" günü keçirilib

**53** Naxçıvan Muxtar Respublikası Prokurorluğunun əməkdaşları Ümummilli Lider Heydər Əliyev Muzeyini ziyarət ediblər

**55** Naxçıvan Muxtar Respublikası Prokurorluğunun təşkilatçılığı ilə Naxçıvan Dövlət Texniki Kollecində "Heydər Əliyev İli"nə həsr edilmiş tədbir keçirilib

**56** Naxçıvan Muxtar Respublikasının prokurorluq orqanları arasında "Heydər Əliyev İli"nə həsr edilmiş futbol turniri keçirilib

**57** Şərur rayonunda Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş konfrans keçirilib

**58** Babək rayonunda Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş konfrans keçirilib

**59** Bakı şəhər prokurorluğunda Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi ilə əlaqədar konfrans keçirilib

# MÜNDƏRİCAT

## I TABE PROKURORLUQLARDA


**61** "Heydər Əliyev İli" ilə bağlı Yasamal rayon prokurorluğunda "Açıq qapı günü" keçirilib
**63** Neftçala rayon prokurorluğunun əməkdaşları Heydər Əliyev Mərkəzini ziyarət ediblər
**64** Gəncə şəhər prokurorluğunda Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş konfrans keçirilib
**65** Bərdə şəhərində "Heydər Əliyev İli" münasibətilə konfrans təşkil edilib
**67** Şəkidə Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş konfrans keçirilib
**68** "Heydər Əliyev İli" ilə bağlı Səbail rayon prokurorluğunda "Açıq qapı günü" keçirilib
**70** Kürdəmir şəhərində "Heydər Əliyev İli" münasibətilə konfrans təşkil edilib
**71** "Heydər Əliyev İli" münasibətilə növbəti konfrans Zaqatalada təşkil edilib
**73** Sumqayıt şəhərində Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş konfrans keçirilib
**76** Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə əlaqədar Füzuli rayon prokurorluğunda tədbir keçirilib
**77** Mingəçevir şəhərində Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş konfrans keçirilib
**78** Beyləqan şəhərində Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş konfrans keçirilib
**79** Sumqayıtda "Demokratik cəmiyyətdə prokurorluğun rolu" mövzusunda tədbir keçirilib
**80** Ağdamda "Azərbaycan Prokurorluğu və Heydər Əliyev" mövzusunda konfrans keçirilib


## I ÜMUMMİLLİ LİDER HEYDƏR ƏLİYEV ƏBƏDİ XATİRƏLƏRİMİZDƏ


**81** Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevin müsahibəsi
**90** Kamran Əliyev: "SSRİ rəhbərliyində Heydər Əliyev kimi xalq arasında sevilən ikinci dövlət xadimi yox idi"
**100** Türkiyə Respublikasının Ali Məhkəməsinin Baş prokuroru Bekir Şahin – Əzəli və əbədi Azərbaycan-Türkiyə qardaşlığı sarsılmazdır
**108** Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasının rektoru Şahin Əliyevin müsahibəsi
**113** Prokurorluğun veteranı Firdovsi Nemətlinin müsahibəsi


## I DAHİ LİDER HEYDƏR ƏLİYEVİN ZƏNGİN VƏ ÇOXŞAXƏLİ İRSİ HƏMKARLARIMIZIN FİKİRLƏRİNDƏ


**116** Heydər Məmmədov – Ulu Öndər Heylər Əliyevin əsasını qoyduğu müasir hüquq siyasətinin qayəsində ədalət, humanizm və insanpərvərlik dayanır
**124** Xanlar Vəliyev – Ulu Öndər Heydər Əliyevin qurduğu müasir Azərbaycan güvənli əllərdədir
**132** Anar Nəsibov – Ruhumuzda yaşayan ömür
**134** İsmayıl Qayıbov – Heydər Əliyev – insanların yaddaşlarında əbədi həkk olunmuş dahi şəxsiyyət
**137** Talıb Cəfərov – Elm və təhsilin inkişafında Heydər Əliyevin əvəzolunmaz xidmətləri
**143** İradə Xəlilova – Heydər Əliyev Azərbaycanda hüquq islahatlarının banisi və ideya müəllifidir
**154** Nisə Qasımova – Ümummilli Lider Heydər Əliyevin demokratik, hüquqi dövlət quruculuğu istiqamətində siyasi fəaliyyəti
**159** Ruslan Ağayev – Heydər Əliyev və ordu quruculuğu
**169** Rəşad Qasımov – Vətəndaş məmnunluğu – həyatının mənasını xalqa və dövlətə təmənnasız xidmətdə görən Ulu Öndərin fəaliyyət modelidir
**180** Rəfael Süleymanov – Azərbaycan dövlətçiliyinin formalaşmasında və möhkəmlənməsində Heydər Əliyevin rolu"
**183** Nail Əliyev – Heydər Əliyev cinayətkarlığa qarşı mübarizədə xilaskarlıq missiyasının banisi kimi
**190** Tural Nəbiyev – Azərbaycanın taleyini və siyasətini keçdiyi ömür yolu ilə dəyişən, şanlı tarix yazan, hüquqi və dünyəvi dövlət quran Heydər Əliyev
**196** Selcan Familzadə – Ulu Öndərin uzaqgörən siyasəti və zəngin idarəçilik təcrübəsi sayəsində ölkəmizin dövlətlər sırasında layiqli yeri
**202** Ramiq Babayev – Heydər Əliyev və xarici siyasət
**207** Elmir Süleymanlı – Ulu Öndərin prokurorluq orqanlarına diqqət və qayğısı
**209** Firad Əliyev – Azərbaycana bərq vuran sönməz günəş
**215** Emil Kərimov – Ümummilli Lider Heydər Əliyevin siyasi irsi, azərbaycançılıq ideologiyası
**218** Faiq Səfərov – Humanizm – Heydər Əliyev zirvəsi
**220** Mobil Şəfiyev – Ümummilli Lider Heydər Əliyev və hüquq-mühafizə sisteminin təkmilləşdirilməsi
**224** Sərdar İmanov – Örnək və ibratəmiz həyat yolu
**230** Həsən Hənifəyev – Naxçıvan Muxtar Respublikasının xilası və dirçəlişi Ulu Öndərin adı ilə bağlıdır
**234** Azad Qarayev – Gəncədə dövlətçiliyin bərpası və Heydər Əliyev
**238** Şöhrət Qəhrəmanov – Prokurorluğun uğurlarını şərtləndirən Ulu Öndər Heydər Əliyevin mükəmməl hüquq siyasəti
**240** Səadət Rüstəmova – Heydər Əliyev və hüquqi dövlətin Azərbaycan modeli
**243** Behruz İbrahimov – Heydər Əliyev şəxsiyyəti və onun əzəmətli ideyaları
**250** Əli Babayev – Dövlətçiliyin keşiyində durmaq, cəmiyyətdə qanun-qaydanın qorunmasını təmin etmək çox şərəfli vəzifədir
**254** Aytən Hacıyeva – Böyük ömrün 100 illik dastanı

**AZƏRBAYCAN RESPUBLİKASI PREZİDENTİNİN SƏRƏNCAMI**

## Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi haqqında

2023-cü il mayın 10-da Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 ili tamam olur.

Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir.

Azərbaycana rəhbərliyinin birinci dövründə Heydər Əliyev özünün qeyri-adi idarəçilik bacarığı, polad iradəsi və yüksək vətənpərvərliyi sayəsində, uzaqgörən və məqsədyönlü qərarları ilə çox qısa müddətdə respublikamızda sosial-iqtisadi, elmi-texniki və mədəni sahələrin inkişafında böyük sıçrayışa nail olmuşdur. Tariximizin gedişatının və həyatımızın ahənginin köklü surətdə dəyişdiyi, azadlıq və müstəqillik duyğularının milli düşüncəmizdə üstünlük təşkil etməyə başladığı bu illər Azərbaycanın quruculuq salnaməsinin ən parlaq səhifələridir. Ulu Öndərin xalqın yaradıcılıq enerjisini bir məqsədə yönəltməklə tarixi yaddaşın bərpası istiqamətində atdığı qətiyyətli addımlar o dövrdə milli ruhun canlanmasına xidmət göstərmiş, özünüdərki və soy-kökə qayıdışı təmin etmiş, müstəqil dövlət quruculuğuna aparan yolun təməl daşına çevrilmişdir.

Böyük siyasi iradəyə, sarsılmaz əqidəyə malik olan Heydər Əliyevin tükənməz dövlət idarəçiliyi istedadı onun SSRİ-nin rəhbərlərindən biri kimi çalışdığı və irimiqyaslı layihələr həyata keçirdiyi illərdə özünü bir daha parlaq surətdə təzahür etdirmişdir. Heydər Əliyev bütün varlığı ilə sevdiyi və canından əziz bildiyi doğma xalqının mənafelərini daim önə çəkmiş və respublikamızın inkişafı üçün malik olduğu bütün imkanlardan istifadə etmişdir.

Zamanın hökmü ilə ötən əsrin 90-cı illərində dövlət müstəqilliyini bərpa edən Azərbaycan Ermənistanın təcavüzü, xarici təzyiqlər və daxili çəkişmələr üzündən dünyanın siyasi xəritəsindən silinmək və dövlətçiliyini itirmək təhlükəsi ilə qarşılaşmışdır. Taleyimizin həll olunduğu ağır bir zamanda xalqın təkidli tələbinə səs verərək yenidən hakimiyyətə qayıdan Heydər Əliyev doğma Vətənin xilası naminə misilsiz fədakarlıq nümayiş etdirmiş, ölkəmizi ictimai-siyasi pərakəndəliyin və anarxiyanın məngənəsindən qurtarmış, bütün sahələrdə müşahidə olunan dərin tənəzzülün qarşısını almış, yenidən qurduğu və hər cür qəsdlərdən qoruduğu dövlətin dayanıqlı inkişaf yolunu müəyyən etmişdir. Heydər Əliyevin ölkəmizə rəhbərliyi illəri xalqımızın nadir tarixi imkandan faydalanaraq, böyük əziyyətlər bahasına öz müstəqilliyini əbədi və dönməz etdiyi taleyüklü mərhələdir.

Heydər Əliyevin zəngin həyat yolu və müstəsna fəaliyyətinin bütün mərhələləri bir-birini tamamlamış, öz xalqına sıx bağlılığın, milli dövlətçilik məfkurəsinə sadiqliyin canlı təcəssümü olmuşdur. Geniş bilik və dərin təfəkkür sahibi olan Heydər Əliyev düşünülmüş və cəsarətli qərarları

ilə təkcə müstəqillik dövründə deyil, bütün dövrlərdə Azərbaycan ictimaiyyətini ən ciddi şəkildə düşündürən məsələləri uğurla həll etmişdir. Ulu Öndər cəmiyyət həyatının müxtəlif sahələri arasında üzvi bağlılığı aydın görərək, müəllifi olduğu milli inkişaf strategiyasında ictimai, siyasi, sosial, iqtisadi, mədəni və digər sahələrdə qarşıda duran vəzifələri düzgün müəyyənləşdirmiş və məharətlə həyata keçirmişdir. Heydər Əliyevin milli neft strategiyasının uğurla reallaşdırılması nəticəsində xalqımız öz təbii sərvətlərinin tam sahibinə çevrilmiş və qısa müddətdə ölkəmizin inkişafına güclü təkan verən resurslar əldə edilmişdir. Azərbaycan Respublikasının ilk Konstitusiyasının qəbul olunması və bütün sferaları əhatə edən köklü islahatların həyata keçirilməsi, demokratik, hüquqi dövlət quruculuğu, nizami ordunun yaradılması Heydər Əliyevin Azərbaycan xalqı qarşısında müstəsna xidmətləridir. Xalqımızı vahid amal ətrafında birləşdirən azərbaycançılıq ideologiyasının formalaşdırılması, ana dilinin dövlət qayğısı ilə əhatə olunması, ictimai-siyasi, elmi və mədəni fikir tariximizin əlamətdar hadisələrinin müntəzəm qeyd edilməsi ənənəsinin yaradılması, Azərbaycanın çoxəsrlik mənəvi-mədəni irsə sahib qədim diyar və sivilizasiyaların qovşağında yerləşən tolerantlıq məkanı kimi geniş şöhrət qazanması Heydər Əliyevin mükəmməl quruculuq proqramının tərkib hissələri olmuşdur.

Dövrünün ən nüfuzlu siyasətçiləri ilə bir sırada duran Heydər Əliyev Azərbaycanın müasir simasının, xalqımızın zəngin dəyərlərinin tanıdılması və ölkəmizin beynəlxalq münasibətlər sistemində layiqli mövqe qazanmasında müstəsna rol oynamışdır. Ermənistan–Azərbaycan münaqişəsinin beynəlxalq hüququn norma və prinsipləri əsasında həlli Ulu Öndərin qarşıya qoyduğu başlıca vəzifə olmuş, ölkəmizin bütün resursları, xalqımızın potensialı tarixi ədalətin bərpası üçün səfərbər edilmişdir. Ulu Öndərin şah əsəri olan güclü Azərbaycan dövləti öz suverenliyini, müstəqilliyini qorumağa qadir olduğunu 44 günlük Vətən müharibəsində şanlı Zəfər qazanmaqla sübuta yetirmişdir.

Dövlətçilik salnaməmizdə silinməz izlər qoymuş, azərbaycanlı olması ilə ömür boyu fəxr etmiş, milli qürur və iftixar mənbəyimiz olan Heydər Əliyev bütün dünyada Azərbaycanın rəmzi kimi qəbul edilir. Xalqımız onun əziz xatirəsini həmişə uca tutur və minnətdarlıqla anır, yenidən hakimiyyətə gəldiyi günü Azərbaycan Respublikasının dövlət bayramı – Milli Qurtuluş Günü kimi qeyd edir.

Müstəqil Azərbaycan Ulu Öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir. Bu müqəddəs mirası qoruyub saxlamaq hər bir azərbaycanlının şərəfli vəzifəsidir.

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinin dövlət səviyyəsində qeyd olunmasını təmin etmək məqsədilə qərara alıram:

1. Azərbaycan Respublikasında 2023-cü il "Heydər Əliyev İli" elan edilsin.

2. Azərbaycan Respublikası Prezidentinin Administrasiyası Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə bağlı tədbirlər planına dair təkliflərini iki ay müddətində hazırlayıb Azərbaycan Respublikasının Prezidentinə təqdim etsin.

**İlham ƏLİYEV,**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, 29 sentyabr 2022-ci il
№ 3494

*Azərbaycan Respublikasının Baş prokuroru, I dərəcəli dövlət adliyyə müşaviri Kamran Əliyev tərəfindən 13.12.2022-ci il tarixdə təsdiq edilmişdir.*

## Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə bağlı Baş Prokurorluq üzrə

## TƏDBİRLƏR PLANI

| № | Plan tədbirinin adı | İcraçılar |
|---|---|---|
| 1. | Prokurorluqda fəaliyyətə yeni başlamış stajor və gənc prokurorluq əməkdaşlarının iştirakı ilə Fəxri Xiyabanda Ulu Öndər Heydər Əliyevin abidəsinə ziyarət və Heydər Əliyev Mərkəzinə ekskursiya təşkil edilməsi | Baş prokurorun müavini Heydər Məmmədov, Təşkilat və icraya nəzarət idarəsi (məsul), Kadrlar idarəsi, Maddi-texniki təminat şöbəsi |
| 2. | Mediada işıqlandırılması məqsədilə Azərbaycan Xalqının Ümummilli Lideri Heydər Əliyevin 100 illiyi ilə bağlı filmin çəkilməsi | Baş prokurorun müavini Heydər Məmmədov, Mətbuat xidməti (məsul), Maddi-texniki təminat şöbəsi |
| 3. | Ulu Öndər Heydər Əliyev və prokurorluq mövzusunda kitabın nəşr etdirilməsi | Baş prokurorun müavini Heydər Məmmədov, Hüquqi təminat və insan hüquqları məsələləri idarəsi (məsul), Elm-Tədris Mərkəzi, Maddi-texniki təminat şöbəsi |
| 4. | Prokurorluq işçiləri tərəfindən könüllülük əsasında qanvermə aksiyasının təşkil edilməsi | Baş prokurorun müavini Heydər Məmmədov, Təşkilat və icraya nəzarət idarəsi (məsul), Maddi-texniki təminat şöbəsi |
| 5. | Prokurorluq işçilərinin iştirakı ilə işğaldan azad olunmuş ərazilərdə Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş ağacəkmə aksiyasının keçirilməsi və abadlıq işlərinin aparılması | Baş prokurorun müavini Heydər Məmmədov, Təşkilat və icraya nəzarət idarəsi (məsul), Maddi-texniki təminat şöbəsi |
| 6. | Prokurorluq işçiləri və prokurorluğun veteranlarının iştirakı ilə Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş şahmat turnirinin keçirilməsi | Baş prokurorun müavini Heydər Məmmədov, Təşkilat və icraya nəzarət idarəsi (məsul), Kadrlar idarəsi, Maddi-texniki təminat şöbəsi |
| 7. | Azərbaycan Prokurorluğunun Tarix muzeyində Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş yeni guşənin təşkil edilməsi | Baş prokurorun müavini Heydər Məmmədov, Hüquqi təminat və insan hüquqları məsələləri idarəsi (məsul), Maddi-texniki təminat şöbəsi |
| 8. | Qəbələ rayon prokurorluğunun yeni inşa olunmuş inzibati binasının açılışı | Baş prokurorun müavini Heydər Məmmədov, Təşkilat və icraya nəzarət idarəsi, Maddi-texniki təminat şöbəsi (məsul) |
| 9. | 2023-cü ildə "Heydər Əliyev və Azərbaycan Prokurorluğu" adlı jurnalın nəşr edilməsi (Xüsusi buraxılış) | Baş prokurorun müavini Heydər Məmmədov, Elm-Tədris Mərkəzi (məsul), Hüquqi təminat və insan hüquqları məsələləri idarəsi, Maddi-texniki təminat şöbəsi |

| | | |
|---|---|---|
| 10. | Prokurorluq işçilərinin könüllü ianələri hesabına şəhid və qazi övladlarına, uşaq evləri və internat məktəblərinə ziyarətlərin təşkili, yardımlar edilməsi | Baş prokurorun müavini Heydər Məmmədov, Təşkilat və icraya nəzarət idarəsi (məsul), Mətbuat xidməti, Maddi-texniki təminat şöbəsi |
| 11. | "Müasir Azərbaycan Prokurorluğunun yaranması və inkişafında Ulu Öndər Heydər Əliyevin rolu" mövzusunda elmi-praktik konfransın keçirilməsi | Baş prokurorun müavini Heydər Məmmədov, Elm-Tədris Mərkəzi (məsul), Təşkilat və icraya nəzarət idarəsi, Maddi-texniki təminat şöbəsi |
| 12. | Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş beynəlxalq tədbirin keçirilməsi | Baş prokurorun müavini Heydər Məmmədov, Beynəlxalq hüquqi əməkdaşlıq idarəsi (məsul), Təşkilat və icraya nəzarət idarəsi, Maddi-texniki təminat şöbəsi |
| 13. | Vahid tədris planı əsasında hüquq-mühafizə orqanlarının təlim-tədris mərkəzlərində gənc əməkdaşlar üçün "Heydər Əliyev və hümanizm prinsipləri", "Hüquqi dövlət quruculuğunda H.Əliyev irsi", "Heydər Əliyev: Qoy ədalət zəfər çalsın" və "Təməli Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş 44 günlük Zəfər Yolu" mövzularında elmi-praktik seminarlar keçirilməsi | Elm-Tədris Mərkəzi (məsul), Təşkilat və icraya nəzarət idarəsi, Kadrlar idarəsi |
| 14. | İşğaldan azad olunmuş Ağdam şəhərində "Heydər Əliyevin müəllifi olduğu Konstitusiya hüquqi, demokratik və dünyəvi dövlətin inkişafının əsas təminatçısıdır" mövzusunda elmi-praktik konfransın keçirilməsi | Baş prokurorun müavini Heydər Məmmədov, Elm-Tədris Mərkəzi (məsul), Təşkilat və icraya nəzarət idarəsi, Maddi-texniki təminat şöbəsi |
| 15. | Prokurorluq işçiləri arasında ilin ən yaxşı dövlət ittihamçısı, müstəntiqi və gənc hüquqşünasının seçilməsi ilə bağlı müsabiqənin təşkil edilməsi | Baş prokurorun birinci müavini Elçin Məmmədov, Baş prokurorun müavini Heydər Məmmədov, Təşkilat və icraya nəzarət idarəsi, Prokurorluqda istintaqa nəzarət idarəsi, Dövlət ittihamının müdafiəsi üzrə idarə, Elm-Tədris Mərkəzi (məsul), Maddi-texniki təminat şöbəsi |
| 16. | Il ərzində xidməti fəaliyyətdə fərqlənmiş prokurorluq əməkdaşlarının mükafatlandırılması | Baş prokurorun müavini Heydər Məmmədov, Kadrlar idarəsi (məsul), Maddi-texniki təminat şöbəsi |
| 17. | Kinoteatrlarda və teatrlarda Ümummilli Lider Heydər Əliyevlə bağlı nümayiş etdiriləcək maarifləndirici film, kino və ya tamaşalara baxılmasında prokurorluq işçilərinin iştirakının təmin edilməsi | Baş prokurorun müavini Heydər Məmmədov, Təşkilat və icraya nəzarət idarəsi (məsul), Mətbuat xidməti, Maddi-texniki təminat şöbəsi |
| 18. | "Heydər Əliyev Ili" ilə əlaqədar Baş Prokurorluğun inzibati binalarında, Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin və Respublika Hərbi Prokurorluğunun inzibati binalarındakı monitorlarda videoçarxların nümayiş etdirilməsi | Baş prokurorun müavini Heydər Məmmədov, Mətbuat xidməti (məsul), Təşkilat və icraya nəzarət idarəsi, Kriminalistika və informasiya texnologiyaları idarəsi |

**Təşkilat və icraya nəzarət idarəsinin rəisi**
**baş ədliyyə müşaviri** **Tural Aslanov**

# Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar prokurorluq əməkdaşları tərəfindən ağacəkmə kampaniyası keçirilib





Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi, həmçinin, ölkə başçısının ekoloji mühitin, xüsusilə yaşıllıqların mühafizəsi ilə bağlı tapşırıq və tövsiyələri ilə əlaqədar cari ilin aprel ayının 29-da Baş Prokurorluq, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi, Hərbi Prokurorluq, Bakı şəhər və paytaxtın tabe rayon prokurorluqlarının əməkdaşları tərəfindən Ekologiya və Təbii Sərvətlər Nazirliyinin dəstəyi ilə növbəti ağacəkmə kampaniyası keçirilib.

Eyni zamanda ağacəkmə aksiyasına Naxçıvan Muxtar Respublikası Prokurorluğu, eləcə də Göygöl rayon prokurorluğu qoşulmuşlar.










Tədbir çərçivəsində Abşeron rayonu və Naxçıvan şəhəri ərazisində ümumilikdə 1.600-dən çox zeytun və şam ağacları əkilmişdir.

Abşeron yarımadasının iqliminə uyğun olaraq əkilən ağacların küləkdən qorunması üçün dirəklər basdırılıb və onların inkişafı üçün münbit torpaq və mineral gübrələrdən istifadə olunub.

Həmçinin, əkilən ağacların mühafizəsi və mütəmadi olaraq onlara qulluq göstərilməsi məqsədilə bütün zəruri tədbirlər görülüb.







# Baş Prokurorluqda Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü qeyd edilib





Cari ilin may ayının 6-da Azərbaycan Respublikasının Baş Prokurorluğunda müasir Azərbaycanın xilaskarı və qurucusu, müstəqil dövlətimizin banisi, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş "Azərbaycan Prokurorluğunun tarixində Heydər Əliyevin rolu" mövzusunda tədbir keçirilmişdir.

Tədbir iştirakçıları əvvəlcə Fəxri xiyabana gələrək xalqımızın Ümummilli Lideri Heydər Əliyevin məzarı önünə əklil və gül dəstələri qoymuş, əbədiyaşar liderin əziz xatirəsini dərin ehtiramla yad etmişlər.



Bundan sonra tədbir iştirakçıları Azərbaycan Prokurorluğunun tarix muzeyində Ümummilli Lider Heydər Əliyevə həsr olunan yeni guşənin açılışında iştirak etmişlər.

Tədbirdə çıxış edən Baş prokuror Kamran Əliyev dünya miqyaslı siyasi təfəkkürə, zəngin və qətiyyətli idarəçilik bacarığına, ən çətin vəziyyətlərdə belə tükənməz əzm və qüdrətə malik Ümummilli Lider Heydər Əliyevin xalqımız qarşısında misilsiz tarixi xidmətlərindən, şərəfli ömür yolundan və məharətli dövlətçilik təcrübəsindən bəhs etmiş, görkəmli dövlət xadiminin müəyyən etdiyi siyasi kursu uğurla davam etdirən Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə üçrəngli bayrağımızın ən yüksək zirvələrdə qürurla dalğalanmasını diqqətə çatdırmışdır.

Baş prokuror qeyd etmişdir ki, Azərbaycan xalqına və millətinə əvəzsiz xidməti həyatının məqsədi və mənası kimi qəbul edən, bu yolda mümkün olan bütün addımları atan Heydər Əliyev siyasi hakimiyyətdə olduğu bütün dövrlərdə müstəqil Azərbaycan dövlətçiliyinin, azərbaycançılıq məfkurəsinin formalaşdırılması və möhkəmləndirilməsi, eləcə də ölkəsinin rifahı uğrunda mübarizə meydanında olmuş və millətinə rəhbərlik etmişdir. Bu yolda çoxsaylı maneələrin yaradılması, dəfələrlə planlaşdırılan terror və sui-qəsd cəhdləri ilə üzləşməsinə baxmayaraq, Heydər Əliyev öz uzaqgörənliliyi, siyasi müdrikliyi, əyilməz iradəsi və qətiyyəti, ən əsası – milli ümumxalq həmrəyliyi nəticəsində müstəqil Azərbaycanı hazırki və gələcək nəsillər üçün qoruyub saxlamış və müasir inkişaf yoluna çıxarmışdır.

Bildirilmişdir ki, müstəqil Azərbaycan Respublikasının mühüm dövlət qurumlarından biri olan prokurorluq orqanlarının beynəlxalq tələblərə və standartlara uyğun formalaşaraq əhəmiyyətli statusunun müəyyən edilməsi və son nəticədə dövlətçiliyin maraqlarına xidmət edən bir təsisat kimi idarəçilik sistemində öz layiqli yerini tutması Heydər Əliyevin müdrik siyasəti, onun mütəmadi qayğı və dəstəyi nəticəsində mümkün olmuşdur.

Müstəqil Azərbaycan dövlətinin banisi Heydər Əliyevin 17 iyul 1998-ci il tarixli sərəncamı ilə oktyabr ayının 1-nin Respublikamızda prokurorluq orqanları əməkdaşlarının peşə bayramı günü elan olunmasının prokurorluq orqanlarının fəaliyyətinə verilən yüksək qiymətin təcəssümü kimi dəyərləndirildiyi, prokurorluğun kollektivinin fəaliyyətinə verilən yüksək diqqət və etimadı səmimi minnətdarlıq duyğuları ilə qarşıladığı, xalqımıza ləyaqətlə xidmət göstərdiyi qeyd edilmişdir.








Xüsusi vurğulanmışdır ki, Heydər Əliyevin doğma xalqına ən böyük xidməti ölkənin dinamik strateji inkişaf meyarlarını müəyyən etməklə yanaşı özündən sonra həmin konsepsiyanı müstəsna peşəkarlıqla həyata keçirməyə qadir, səmərəli fəaliyyəti nəticəsində ölkəmizi beynəlxalq arenada qabaqcıl dövlət olaraq tanınmasına nail olmuş, həyata keçirdiyi kompleks islahatlarla Respublikamızın daimi tərəqqisini təmin edən, Ulu Öndərin özü qədər inanıbgüvəndiyi görkəmli və qətiyyətli siyasi lider İlham Əliyev kimi davamçı hazırlaması olmuşdur.

Tədbirdə Milli Məclis sədrinin 1-ci müavini Əli Hüseynli, Milli Məclisin deputatları Nizami Səfərov, Məlahət İbrahimqızı və Kamal Cəfərov, Konstitusiya Araşdırmalar Fondunun rəhbəri Əliməmməd Nuriyev və digər şəxslər çıxış edərək dahi lider Heydər Əliyevin qətiyyətli mübarizəsi nəticəsində Azərbaycanın müstəqilliyi əldə olunmasından sonra ölkədə aparılan hərtərəfli iqtisadi, sosial, hüquqi dövlət quruculuğu və digər sahələrdəki islahatlardan, müstəqilliyimizin qorunub saxlanılmasında, dövlətçiliyimizin möhkəmləndirilməsində Ulu Öndərin əvəzsiz rolundan bəhs edib.

Daha sonra Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş prokurorluq əməkdaşları və prokurorluğun veteranları arasında keçirilmiş şahmat turnirinin qalibləri, həmçinin Gənclər və İdman Nazirliyi tərəfindən təşkil olunan Ulu Öndərin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş dövlət orqanları arasında mini futbol turnirində iştirak etmiş prokurorluq əməkdaşları təltif olunmuşlar.

Tədbirin işinə yekun vuran Baş prokuror Kamran Əliyev prokurorluğun kollektivi adından hər bir prokurorluq işçisinin daim Heydər Əliyev ideyalarına sadiq qalaraq onun unudulmaz xatirəsini əziz tutacağına və Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi altında yeni müstəvidə davam etdirilən islahatların həyata keçirilməsində öz xidmətlərini göstərəcəyinə əminliyini bildirmişdir.

Sonda Ümummilli Liderin xatirəsinə həsr olunmuş “Böyük şəxsiyyət...3 ştrixdə” adlı sənədli film nümayiş etdirilmişdir.



# Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Baş Prokurorluq tərəfindən film ərsəyə gətirilib

Sənədli filmin təqdimatı mayın 6-da Baş Prokurorluqda xalqımızın Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş təntənəli mərasimdə baş tutub.

Filmdə Baş prokuror Kamran Əliyev, o cümlədən Baş Prokurorluğun rəhbərliyi ilə yanaşı, xalq yazıçısı Çingiz Abdullayev, millət vəkilləri Eldar İbrahimov və Məlahət İbrahimqızının Ulu Öndər barədə təəssüratları yer alıb.

Dahi, islahatçı və humanist adlı ştrixlərdə təqdim olunan filmdə tarixi faktlar öz əksini tapıb.

Film Azərbaycan Televiziyasının efirində nümayiş olunub.

# Baş Prokurorluğun rəhbərliyi Ulu Öndərin xatirəsini yad edib

Cari ilin may ayının 10-da xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü münasibəti ilə Baş prokuror Kamran Əliyevin rəhbərliyi ilə prokurorluq əməkdaşları Fəxri xiyabanı ziyarət ediblər.





Prokurorluq əməkdaşları Ulu Öndərin məzarı önünə gül dəstələri qoyublar, xatirəsini dərin hörmət və ehtiramla yad ediblər.

Qeyd edək ki, səhər saatlarından başlayaraq Azərbaycan ictimaiyyətinin nümayəndələri axın-axın Fəxri xiyabana gəlmiş, Ümummilli Liderin məzarını ziyarət edərək və məzarı önünə tər çiçək dəstələri qoyaraq ruhuna dualar oxumuşlar.





Ziyarətdə ziyalılar, ictimai xadimlər, dövlət qulluqçuları, gənclər, Azərbaycanın müxtəlif rayon və şəhərlərində yaşayan vətəndaşlar, habelə xarici ölkələrin Azərbaycanda akkreditə olunmuş fövqəladə və səlahiyyətli səfirləri, diplomatik korpusun nümayəndələri, eləcə də xarici qonaqlar iştirak ediblər.

# Qəbələ şəhərində Ulu Öndər Heydər Əliyevin 100 illiyinə həsr edilmiş Elmi-Məsləhət Şurasının xüsusi iclası keçirilib






Cari ilin "Heydər Əliyev İli" elan edilməsi, müstəqil dövlətimizin qurucusu və memarı Ulu Öndər Heydər Əliyevin anadan olmasının yüz illik yubileyinin təntənəli şəkildə qeyd olunması ilə əlaqədar Baş Prokurorluq tərəfindən silsilə tədbirlər həyata keçirilməkdədir.

Bu tədbirlərin mühüm hissəsi ölkəmizin aparıcı ali təhsil, elm ocaqları, ixtisaslaşmış akademiyaları ilə birgə həm Bakı şəhərində, həmçinin bölgələrdə təşkil edilir.

Qeyd olunan tədbirlər çərçivəsində hüquq tətbiqi təcrübəsinə, eləcə də hüquq elminin inkişafına bir platforma kimi öz töhfəsini verən Azərbaycan Respublikasının Baş prokuroru yanında Elmi-Məsləhət Şurasının 14 iyun 2023-cü il tarixində Qəbələ şəhərində Ulu Öndər Heydər Əliyevin 100 illiyinə həsr edilmiş xüsusi iclası keçirilmişdir.

İclasa sədrlik edən Baş prokuror Kamran Əliyev tədbiri açaraq öz çıxışında bildirmişdir ki, ölkə başçısı cənab İlham Əliyevin rəhbərliyi və birinci vitse-prezident Mehriban xanım Əliyevanın yaxından iştirakı və dəstəyi ilə bölgələrimiz sürətlə inkişaf edir, bölgələrdə yerləşən şəhərlərin iqtisadi, sosial, mədəni və elm-təhsil potensialının gücləndirilməsi üçün olduqca əhəmiyyətli tədbirlər görülür. Məhz bu işlər nəticəsində ölkəmizin dilbər guşələrində müxtəlif, o cümlədən beynəlxalq səviyyəli mötəbər tədbirlərin keçirilməsi mümkün olur. Əlbəttə ki, belə şərait bütün sahələr kimi, elm və təhsilin inkişafına da öz töhfəsini verir.

Baş prokuror Kamran Əliyev daha sonra öz çıxışında Heydər Əliyevin ölkəmizin mövcudluğunda xilaskar rolu və əhəmiyyəti haqqında söhbət açmış, Ümummilli Liderin dərin zəkası və zəngin dövlət idarəçiliyi təcrübəsinə uyğun olaraq ölkədə həyata keçirdiyi dövlət quruculuğu işləri və hüquq siyasəti barədə iclas iştirakçılarını məlumatlandırmışdır.

Xüsusi olaraq vurğulanmışdır ki, Ulu Öndər Heydər Əliyevin müasir Azərbaycan Prokurorluğunun formalaşmasında rolu və əhəmiyyəti əvəzolunmazdır. Məhz Heydər Əliyevin təşəbbüsü ilə Konstitusiyaya prokurorluğun fəaliyyətini tənzimləyən ayrıca 133-cü maddə daxil edilməklə, prokurorluq orqanlarının dövlət








təsisatları sırasında və ümumilikdə cəmiyyətimizdə olan yeri müəyyənləşdirilərək dövlət səviyyəsində göstərilən hərtərəfli dəstək və qayğı nümayiş etdirilmişdir. Onun tövsiyə və tapşırıqlarına uyğun olaraq, prokurorluğa qanunvericilik təşəbbüsü hüququ verilmiş, bu qurumun fəaliyyəti ilə bağlı beynəlxalq, demokratik və sivil standartları əks etdirən qanunvericilik aktları hazırlanaraq qəbul edilmiş, yeni nəsil kadr siyasətinin, müsabiqə yolu ilə işə qəbulun istiqamətləri müəyyən olunmuş, prokurorluğun gələcək intellektual bazasının yaradılması üçün işə qəbul qaydaları dəyişdirilmiş, prokurorluq işçilərinin maddi-texniki təminatının yaxşılaşdırılması istiqamətində diqqət və qayğı artırılmaqla, peşə bayramı günü təsis edilmişdir.

İclasda fəxri qonaq kimi iştirak edən Qəbələ Rayon İcra Hakimiyyətinin başçısı Səbuhi Abdullayev çıxış edərək, Ulu Öndər Heydər Əliyevin Qəbələ rayonuna qayğısı, rayonun sosial-iqtisadi inkişafı, elm-təhsil, mədəni, turizm potensialının gücləndirilməsi istiqamətində həyata keçirilən müstəsna əhəmiyyətli işlər barədə tədbir iştirakçılarını məlumatlandırmışdır.

Daha sonra iclasda Azərbaycan Respublikası Milli Məclisinin deputatı Nizami Səfərov “Ümummilli Lider Heydər Əliyevin hüquqi islahatlar strategiyası və beynəlxalq hüquq sisteminə inteqrasiya”, “Konstitusiya” Araşdırmaları Fondunun prezidenti Əliməmməd Nuriyev “Qurtuluş məfkurəsi: Azərbaycan dövlətçiliyinin yeni tarixi mərhələsi” mövzularında çıxış etmişlər.

Maraqlı müzakirələr şəraitində keçirilən tədbir Baş Prokurorluğun təşəbbüsü ilə ərsəyə gəlmiş Ümummilli Liderin xatirəsinə həsr olunan “Böyük şəxsiyyət...3 ştrixdə” adlı sənədli filmin seyr edilməsi ilə yekunlaşmışdır.





# "Heydər Əliyev İli" elan edilməsinə təsadüf etdiyi Qəbələ rayon prokurorluğunun yeni inzibati binasının açılış mərasimində Ulu Öndərin xatirəsi yad edilib




Cari ilin iyun ayının 14-də Qəbələ rayon prokurorluğunun yeni inzibati binasının açılış mərasiminə Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev, Baş Prokurorluğun rəhbər işçiləri, eləcə də digər dövlət və hüquq mühafizə orqanlarının əməkdaşları qatılıb.

Əvvəlcə mərasim iştirakçıları yeni inzibati binanın foyesində Ulu Öndər Heydər Əliyevin büstü önünə gül dəstələri qoyaraq, dahi insanın unudulmaz xatirəsinə dərin hörmət və ehtiramlarını bildirib.

Tədbiri giriş sözü ilə açan Azərbaycan Respublikası Baş prokuroru Kamran Əliyev Ümummilli Lider Heydər Əliyev, eləcə də Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin prokurorluq orqanlarına göstərdikləri daimi diqqət və qayğıdan bəhs edib. Kamran Əliyev dövlətə, dövlətçiliyə sadiq olan prokurorluq orqanlarının fəaliyyətində qanunçuluğu rəhbər tutduğunu qeyd edib.

Bildirilib ki, Qəbələ rayon prokurorluğunun inzibati binasının istifadəyə verilməsi çox əlamətdar bir dövrə – müstəqil Azərbaycan dövlətinin qurucusu, dahi siyasətçi və qüdrətli dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə təsadüf edir.

Prokurorluq orqanlarının formalaşmasında Ümummilli Lider Heydər Əliyevin tarixi xidmətlərindən danışan Baş prokuror Azərbaycan prokurorluğunun keçdiyi şərəfli yol və hazırkı fəaliyyəti barədə bəhs edib. Kamran Əliyev prokurorluq orqanlarında aparılan kompleks islahatlar və sağlam iş mühitinin formalaşdırılması məqsədilə görülən məqsədyönlü tədbirlərdən söz açıb.



Yeni binanın istifadəyə verilməsini prokurorluq əməkdaşlarının əməyinə verilən yüksək qiymət kimi dəyərləndirən Baş prokuror Azərbaycan dövlətinin inkişafı naminə bundan sonra da böyük səylə çalışacaqlarını bildirərək kollektivə uğurlar arzu edib.

Daha sonra iştirakçılar Qəbələ rayon prokurorluğu üçün yeni ti-










kilmiş binada yaradılan şəraitlə tanış olub. Məlumat verilib ki, 2 mərtəbədən ibarət olan binada vətəndaşların qəbul otağı, prokuror, prokuror köməkçiləri, müstəntiq və inspektorlar üçün otaqlar, kriminalistika otaqları, kitabxana, dəftərxana və arxiv yaradılıb. Bildirilib ki, Qəbələ rayon prokurorluğu üçün müasir standartlara uyğun tikilmiş inzibati bina bütün zəruri avadanlıq, kompüter sistemi, kommunikasiyalar və mühəndis qurğuları ilə təchiz edilib, mebel və digər inventarlarla təmin olunub.



# Baş Prokurorluqda Azərbaycan Gəncləri Gününə həsr olunmuş "Heydər Əliyev və Azərbaycan gəncliyi" adlı konfrans keçirilib








Cari ilin mayın 10-da Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvəti olan, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 ili tamam olur.

Dövlətçilik salnaməmizdə silinməz izlər qoymuş, milli qürur və iftixar mənbəyimiz olan Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinin dövlət səviyyəsində qeyd olunmasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 29 sentyabr 2022-ci il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasında 2023-cü il "Heydər Əliyev İli" elan edilmişdir.

Cari ilin "Heydər Əliyev İli" elan edilməsi ilə bağlı Baş Prokurorluq tərəfindən silsilə tədbirlər həyata keçirilməkdədir. Bu tədbirlərin davamı olaraq, fevral 2-də məhz Ulu Öndər tərəfindən təsis edilmiş gənclər gününə həsr olunmuş "Heydər Əliyev və Azərbaycan gəncliyi" adlı konfrans keçirilmişdir.

Konfransda Bakı Dövlət və "ADA" universitetləri, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik, Milli Aviasiya, Dövlət Gömrük Akademiyalarının tələbələri, habelə Polis, Fövqəladə Hallar Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidməti və Dövlət Sərhəd Xidmətinin Akademiyalarının kursantları iştirak etmişlər. Həmçinin tədbirə internet üzərindən online rejimində Naxçıvan Dövlət Universitetinin tələbələri və müəllim heyəti qoşulmuşlar. Ümumilikdə konfransda 200 nəfərə yaxın şəxs iştirak etmişdir.

Tədbiri giriş sözü ilə açan Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin rəisi Mübariz Əhmədov konfrans iştirakçılarını salamlayaraq, gəncliyimizin yüksək intellektual biliyə, mənəvi və milli dəyərlərə sədaqət ruhunda tərbiyə edilməsinə xidmət edən ölkəmizin gənclərlə bağlı dövlət siyasətinin formalaşdırılmasında və həyata keçirilməsində Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin əvəzsiz xidmətləri barədə məlumat vermişdir.

Millət vəkili Nizami Səfərov "Heydər Əliyevin hüquqi islahatlar strategiyası və beynəlxalq hüquq sisteminə inteqrasiya" mövzusunda çıxışında dünyanın ən nüfuzlu siyasətçilərindən olan Ulu Öndər

Heydər Əliyevin ölkəmizin beynəlxalq münasibətlər sistemində layiqli mövqe qazanmasında, eləcə də müasir hüquq sistemimizin formalaşdırılmasında müstəsna rolu barədə ətraflı məlumat vermişdir.

Millət vəkili Kamal Cəfərov "Gənclərin intellektual, fiziki və mənəvi inkişafında Heydər Əliyevin rolu" mövzusunda çıxışında gənclərimizin həyatının bütün sahələrini əhatə edən Ümummilli Liderin gənclər siyasətinin müstəsna əhəmiyyəti barədə konfrans iştirakçılarını məlumatlandırmışdır.

Konfransda Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin rəis müavini Talıb Cəfərov "Elm və təhsilin inkişafında Heydər Əliyevin əvəzolunmaz rolu", şöbə rəisi Nigar Qələndərli "Heydər Əliyev-müasir gənclər siyasətinin banisi", böyük prokuroru İradə Xəlilova isə "Hüquqi dövlət quruculuğunda Heydər Əliyevin xüsusi rolu" mövzularında məruzə ilə təqdimatlar etmişlər.











Daha sonra "Konstitusiya" Araşdırmalar Fondunun prezidenti Əliməmməd Nuriyev "Heydər Əliyev və vətəndaş cəmiyyəti", Dövlət İdarəçilik Akademiyasının kafedra müdiri İsaxan Vəliyev "Heydər Əliyev müasir Azərbaycan dövlətinin memarı və qurucusu", "Azərbaycan Respublikası Prokurorluq Orqanlarının Veteran və Pensiyaya Çıxmış İşçiləri" İctimai Birliyinin idarə heyətinin rəhbəri Seyfulla Aslanov "Müasir prokurorluğun inkişafında Heydər Əliyevin irsi", birliyin idarə heyətinin üzvü Zahid Vəliyev "Gənclərin sosial rifahında Ümummilli Liderin müstəsna rolu" mövzularında çıxışlar etmişlər.

Konfransda gənc hüquqşünaslar tərəfindən də maraqlı çıxışlar edilmişdir. Belə ki, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının tələbəsi Azər Musayev "Dövlət başçısının səyi ilə cəmiyyətin müasir inkişaf mərhələsində gənclərin iştirakı" və Bakı Dövlət Universitetinin tələbəsi Həmidə Sadiqova "Ümummilli Liderin davamçısı cənab İlham Əliyevin gənclərə münasibəti" mövzularında olduqca maraqlı və məzmunlu çıxışlar etmişlər.




















Tədbir çərçivəsində “Heydər Əliyev və Azərbaycan gəncliyi” adlı videoçarx nümayiş etdirilmiş, Milli Aviasiya Akademiyasının istedadlı tələbələrindən ibarət özfəaliyyət qrupu tərəfindən milli vətənpərvərlik ruhunda mahnılar ifa edilmiş, yekununda xatirə fotoşəkilləri çəkilmişdir.

# Gənc prokurorluq əməkdaşları Heydər Əliyev Mərkəzini ziyarət edib





Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə əlaqədar həyata keçirilən silsilə tədbirlərin davamı olaraq, cari ilin fevral ayının 24-də gənc prokurorluq əməkdaşlarının Bakı şəhərində yerləşən Heydər Əliyev Mərkəzinə ziyarəti təşkil olunub.






Ziyarətdə əsas məqsəd Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyev irsinin tədqiqi və təbliği olub. Ekskursiyanın iştirakçılarına Ümummilli Liderin həyat yolu barədə maraqlı faktlar, foto və videomateriallar təqdim olunub.

Ulu Öndərin dövlətçilik fəlsəfəsinin, azərbaycançılıq məfkurəsinin öyrənilməsi, Heydər Əliyev irsinin tədqiqi və təbliği, həmçinin Azərbaycan tarixi və mədəniyyətinin, Azərbaycan dilinin və digər milli-mənəvi sərvətlərinin beynəlxalq aləmdə tanıdılmasına böyük imkanlar açan Heydər Əliyev Mərkəzindən ziyarətçilər zəngin təəssüratlarla ayrılıb.

Qeyd edək ki, Mərkəzin qeyri-adi, mürəkkəb quruluşlu binanın memarı dünya şöhrətli, Pritzker memarlıq mükafatının sahibi böyük britaniyalı arxitektor Zaha Hadid olmuşdur. Mərkəzin 2007-ci ildə inşasına başlanılmış binası 2012-ci il mayın 10-da, Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 89-cu ildönümündə istifadəyə verilib. Dünya memarlığının incilərindən sayılan Heydər Əliyev Mərkəzinin binası müasir Bakının rəmzlərindən biri hesab olunur. Mərkəzin binasının layihəsində düz xətlərdən istifadə olunmayıb. Binanın quruluşu – yerdən dalğavari şəkildə səmaya doğru yüksəlməsi, sonra isə süzülərək yenidən yerə qovuşması təkcə memarlığın postmodern tərzini deyil, eyni zamanda davamlılığı, sonsuzluğu təcəssüm etdirir. Binanın üzərindəki xətlər həm də keçmişlə gələcəyin bir-birinə bağlılığını yaradır.

Əsas bina üç bölmədən ibarətdir: Heydər Əliyev Muzeyi, 9 mərtəbədən ibarət sərgi zalları və 4 mərtəbəli olan auditorium bölməsi.

Binanın ağ rəngdə olması aydın gələcəyi simvolizə etməklə yanaşı, həm də buradakı xüsusi elementləri nəzərə çarpdırmaq məqsədi daşıyır. Ağ rəng sayəsində işıq şüaları binanın səthi üzərində hərəkət edərək layihənin seçilən hissələrini vurğulayır.

# "Heydər Əliyev və humanizm prinsipləri" mövzusunda elmi-praktik seminar keçirilib













"Heydər Əliyev İli" çərçivəsində Ümummilli Liderin zəngin irsinin tədqiqi və bu sahədə keçirilən elmi-praktiki tədbirlərin davamı olaraq cari ilin mart ayının 6-da Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin Akademiyasında Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin təşkilatçılığı ilə "Heydər Əliyev və humanizm prinsipləri" mövzusunda elmi-praktik seminar keçirilib.

Seminarı giriş sözü ilə açan Dövlət Gömrük Komitəsinin Akademiyasının rəisi, hüquq üzrə fəlsəfə doktoru Qulu Novruzov Ulu Öndər Heydər Əliyevin müstəqil dövlətimizin formalaşmasında tarixi rolu barədə məlumat verərək, dövlətçilik təsisatlarının təşəkkülü və möhkəmləndirilməsində Ümummilli Liderin əvəzsiz xidmətləri barədə çıxış edib.

Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin rəisi Mübariz Əhmədov çıxışında qayəsində humanizm və insanpərvərlik prinsiplərinin dayandığı Ulu Öndər Heydər Əliyevin hüquq siyasəti barədə tədbir iştirakçılarına məlumat verib.

Daha sonra prokurorluğun veteranı Zahid Vəliyev, Dövlət Gömrük Komitəsinin Akademiyasının və Elm-Tədris Mərkəzinin əməkdaşları tərəfindən "Azərbaycan Respublikasında demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunda Heydər Əliyevin irsi", "Heydər Əliyev və Azərbaycan Respublikası Konstitusiyası – İnsan hüquqları", "Heydər Əliyev və Azərbaycan hüququnda humanizm – ölüm hökmü", "Azərbaycan Respublikasında qadın hüquqlarının müdafiəsi və gender bərabərliyinin təmin edilməsi sahəsində Heydər Əliyevin rolu", "Heydər Əliyev və vətəndaş məmnunluğunun hüquqi dövlət quruculuğunda xüsusi rolu", "Heydər Əliyev beynəlxalq hüquq normalarının Azərbaycan Respublikasının qanunvericiliyinə implementasiyasının əsas müəllifidir", "Şərqdə ilk dəfə Azərbaycanda ölüm cəzasının ləğvi Ümummilli Lider Heydər Əliyev humanizminin təntənəsidir" mövzularında məruzə və təqdimatlarla çıxışlar edilib.

Tədbirin davamı olaraq seminar iştirakçıları Azərbaycan Gömrük Tarixi Muzeyi ilə yaxından tanış olub.

# "Ümummilli Lider Heydər Əliyev Azərbaycanda konstitusion-hüquqi islahatların banisidir" mövzusunda elmi-praktiki konfrans keçirilib



2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə əlaqədar həyata keçirilən tədbirlər çərçivəsində cari ilin mart ayının 10-da Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasında Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin birgə təşkilatçılığı ilə "Ümummilli Lider Heydər Əliyev Azərbaycanda konstitusion-hüquqi islahatların banisidir" mövzusunda elmi-praktiki konfrans keçirilib.



Tədbirdə açılış nitqi ilə çıxış edən Dövlət İdarəçilik Akademiyasının rektoru, akademik Urxan Ələkbərov və Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin rəisi Mübariz Əhmədov tərəfindən tədbir iştirakçılarına Ulu Öndərin müasir müstəqil dövlətimizin qurulmasında və inkişafında müstəsna xidmətləri, onun zəngin siyasi irsi, dövlət idarəçilik təcrübəsinin əhəmiyyəti, həmçinin Ümummilli Liderin müstəsna xidmətləri ilə əbədilik qazanan ömür yolu barədə ətraflı məlumat verildi.

Konfransda Dövlət Gömrük Komitəsinin Akademiyasının rəisi Qulu Novruzov "Ümummilli Lider Heydər Əliyevin Naxçıvan diplomatiyası", Milli Məclisin deputatı Bəhruz Məhərrəmov "Məhkəmə-hüquq islahatları və beynəlxalq standartlar: Heydər Əliyevin hüquq siyasəti kontekstində", Milli Məclisin deputatı Kamal Cəfərov





“Heydər Əliyev və milli təhlükəsizlik məsələləri”, Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyasının rəisi vəzifəsini icra edən Elşad Nəsirov “Azərbaycan Respublikasında hakimiyyət bölgüsü mexanizmlərinin formalaşmasında və inkişafında Ümummilli Lider Heydər Əliyevin rolu”, Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin şöbə rəisi Nigar Qələndərli “Heydər Əliyev və Azərbaycanda demokratik dövlət quruculuğu” mövzusunda çıxış ediblər.

Bundan başqa Bakı Dövlət Universitetinin Hüquq fakültəsinin dekanı Zaur Əliyevin “Ulu Öndər Heydər Əliyev və Azərbaycanda insan hüquqları”, Dövlət İdarəçilik Akademiyasının Hüquq kafedrasının müdiri İsaxan Vəliyevin “Milli təhlükəsizliyin konstitusion təminatı”, həmin kafedranın dosenti Samirə Babayevanın “Ulu Öndər Heydər Əliyevin hüquq siyasəti: cinayət hüququ elmi kontekstində”, kafedranın dosenti Fəxrəddin Nağıyevin “Ümummilli Lider Heydər Əliyevin konstitusiya dərsləri: konstitusiya komissiyasının fəaliyyəti müstəvisində”, Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin böyük prokuroru İradə Xəlilovanın “Ölüm hökmünün ləğvi yaşamaq hüququnun konstitusion-hüquqi təminatı kimi”, Mərkəzin prokuroru Rəşad Qasımovun “Vətəndaş məmnunluğunun hüquqi dövlət quruculuğunda rolu”, prokurorluğun veteranı Seyfulla Aslanovun “Cəmiyyətdə sosial ədalətin təmini Ümummilli Lider Heydər Əliyev siyasətinin prioritet istiqaməti kimi” mövzularında olan məruzələri də maraqla qarşılanıb.





# Baş Prokurorluğun əməkdaşları Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar keçirilən beynəlxalq elmi-praktik konfransda iştirak ediblər









Dövlətçilik salnaməmizdə silinməz izlər qoymuş, milli qürur və iftixar mənbəyimiz olan Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinin dövlət səviyyəsində qeyd olunmasını təmin etmək məqsədilə Azərbaycan Respublikasında 2023-cü il "Heydər Əliyev İli" elan edilmişdir. Elmi yaradıcılıq fəaliyyətinin inkişaf etdirilməsi məqsədi ilə elmi nailiyyətlərin inteqrasiyasına söykənən əlaqələrin genişləndirilməsi yüksək intellektual zəkaya əsaslanan peşəkarlığın aşılanmasına münbit zəmin yaradır.

Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi ilə əlaqədar həyata keçirilən silsilə tədbirlər çərçivəsində Daxili İşlər Nazirliyinin Polis Akademiyasında 17 aprel 2023-cü il tarixdə keçirilmiş "Yetkinlik yaşına çatmayan şəxslər tərəfindən törədilən cinayətlərin cinayət-hüquqi, cinayət-prosessual və kriminalistik problemləri" mövzusunda beynəlxalq elmi-praktik konfransda Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin rəis müavini Talıb Cəfərov və şöbə rəisi Nigar Qələndərli iştirak etmişlər.

Konfrans açıq elan etdikdən sonra, Polis Akademiyasının rəisi Canpolad Daanov, Milli Məclisin Ailə, Qadın və Uşaq məsələləri Komitəsinin sədri, professor Hicran Hüseynova, BDU-nun Hüquq fakültəsinin Cinayət prosesi kafedrasının müdiri, professor Firuzə Abbasova, Mediasiya Şurasının İdarə Heyətinin sədri Nadir Adilov və Ailə, Qadın və Uşaq Problemləri Dövlət Komitəsinin Hüquq təminat şöbəsinin müdiri Taliyə İbrahimova ilə yanaşı, giriş nitqi ilə çıxış edən Talıb Cəfərov Polis Akademiyasının formalaşmasında Ulu Öndər Heydər Əliyevin xüsusi rolunu vurğulamış, konfransın mövzusuna toxunmuş və təmsil etdiyi qurumla Akademiya arasında olan işgüzar əlaqələr barədə konfrans iştirakçılarını məlumatlandırmışdır.




Mövzu ətrafında Azərbaycan Respublikası Elm və Təhsil Nazirliyinin və Dövlət Gömrük Komitəsi Akademiyasının, Türkiyə Respublikası Təhlükəsizlik Elmləri İnstitutunun, Rusiya Federasiyası DİN-in Moskva Universitetinin və Voronej İnstitutunun, UNİCEF-in Azərbaycan Nümayəndəliyinin və Moldova Respublikası DİN-in Ştefan Çel Mare Akademiyasının nümayəndələrinin çıxışları dinlənilmişdir.

Çıxışlar və çıxışlar ətrafında müzakirələr zamanı yetkinlik yaşına çatmayan şəxslər tərəfindən törədilən cinayətlərin cinayət-hüquqi, cinayət-prosessual və kriminalistik problemlərinin həllinə yönəlmiş təkliflər irəli sürülmüşdür.

Tədbir çərçivəsində konfrans iştirakçılarına toplu şəklində konfransın materialları və sertifikatlar təqdim edilmiş, sonda konfransın bəyannaməsi qəbul olunmuşdur.

Tədbirin yekununda Ulu Öndər Heydər Əliyevin heykəli qarşısında xatirə fotoşəkili çəkilmişdir.

# “Korrupsiya ilə mübarizədə Heydər Əliyev siyasi irsi” adlı konfrans keçirilib







Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi ilə əlaqədar həyata keçirilən silsilə tədbirlərin davamı olaraq, cari ilin aprel ayının 18-də Sabirabad şəhərində “Korrupsiya ilə mübarizədə Heydər Əliyev siyasi irsi” adlı konfrans keçirilib.

Konfrans iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin Sabirabad şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edib.

Tədbir çərçivəsində, həmçinin, iştirakçılar Sabirabad rayon Heydər Əliyev Mərkəzinin muzey hissəsində Ulu Öndərin zəngin dövlətçilik irsini, həyat və fəaliyyətini özündə əks etdirən eksponat və fotostendlər ilə tanış olub.

Konfransın açılışında Ulu Öndərin və ölkəmizin ərazi bütövlüyü uğrunda qəhrəmancasına şəhid olmuş şəxslərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdə çıxış edən Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsinin rəis müavini Asəf Sarıkişiyev Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə korrupsiyaya qarşı aparılmış sistemli mübarizə, həyata keçirilmiş əsaslı islahatlar, görülmüş təşkilati və preventiv tədbirlər, habelə korrupsiyaya qarşı mübarizədə prokurorluq orqanlarının üzərinə düşən vəzifələr barədə ətraflı məlumat verib.



Konfrans zamanı çıxış edən Milli Məclisin deputatı, Baş Prokurorluğun Anti-Korrupsiya Təlim Mərkəzinin rəhbəri Kamal Cəfərov bildirib ki, korrupsiyaya qarşı mübarizə istiqamətində müasir və müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı Heydər Əliyevin qəti siyasi iradəsi Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən davam etdirilməklə həyata keçirilən mövcud siyasətin əsas istiqamətini təşkil edir.

Çıxış edən Sabirabad rayon İcra Hakimiyyətinin başçısı Siraqəddin Cabbarov mötəbər tədbirin Sabirabad şəhərində təşkilindən məmnunluğunu ifadə edərək tutduğu mövqedən və vəzifədən, maddi və digər imkanlarından, asılı olmayaraq ümummilli mənafelərə sadiqliyin, bu mənafelərin qorunmasının Ulu Öndər Heydər Əliyev üçün hər zaman başlıca prinsiplərdən biri olduğunu vurğulayıb.

Konfransda, həmçinin, Sabirabad rayon prokuroru Fəxrəddin Pənahov, Rayon Məhkəmə sədri Füzuli Pənahov, Baş Prokurorluğun Mətbuat xidmətinin böyük prokuroru Kənan Zeynalov, Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinin Müşahidə Şurasının üzvü Zaur İbrahimli və digərləri dahi lider Heydər Əliyevin korrupsiyaya qarşı konkret əməli addımlarla müşahidə olunan barışmaz siyasətinin digər fəaliyyət sferalarına müsbət təsirləri barədə çıxışlar edib.

Daha sonra dövlət qurumları ilə qeyri-hökumət təşkilatları və bölgə mediası arasında operativ və səmərəli əməkdaşlığın qurulması məqsədilə fikir mübadiləsi aparılıb.










# Prokurorluq əməkdaşları Heydər Əliyev Mərkəzində "Qarabağnamə" tamaşasını izləyib







Prokurorluq əməkdaşları Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr edilmiş "Heydər Əliyev və milli teatr sənəti" layihəsi çərçivəsində cari ilin aprel ayının 19-da Heydər Əliyev Mərkəzində yazıçı-dramaturq İlyas Əfəndiyevin "Hökmdar və qızı" pyesi əsasında hazırlanmış "Qarabağnamə" tamaşasını izləyiblər.

2 hissədən ibarət olan tamaşada, ümumilikdə 21 tanınmış aktyor iştirak edir. Səhnə əsərində XVIII əsrdə Qarabağ xanlığının mərkəzi olan Şuşada baş vermiş tarixi hadisələrdən və Qarabağ hökmdarı İbrahim xanın ictimai-siyasi, ailə həyatından bəhs olunur.

Qeyd edək ki, İlyas Əfəndiyevin "Hökmdar və qızı" əsəri əsasında tamaşa ilk dəfə 1996-cı ildə nümayiş olunub. Tamaşa böyük müvəffəqiyyət qazanıb və 1997-ci il sentyabrın 20-də Ümummilli Lider Heydər Əliyev Milli Dram Teatrının səhnəsində tamaşanı maraqla izləyib. Tamaşaya baxdıqdan sonra yaradıcı heyətlə görüşdə Heydər Əliyev əsəri yüksək qiymətləndirib, onun təbliğinin vacibliyini bildirib. Həm tariximizin, həm də xalqımızda, xüsusən də gənclərdə vətənpərvərlik, müstəqillik hisslərinin təbliği baxımından əhəmiyyətini qeyd edib. Ümummilli Lider elə həmin görüşdə bu pyes əsasında bədii filmin çəkilməsinin də vacibliyini qeyd edib. Əsərin motivləri əsasında çəkilmiş "Hökmdarın taleyi" adlı ikiseriyalı film 2008-ci ildə Ümummilli Lider Heydər Əliyevin 85 illik yubileyi çərçivəsində təqdim olunub.



# Baş Prokurorluğun əməkdaşları Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi tərəfindən Heydər Əliyevin 100 illik yubileyinə həsr edilən konfransda iştirak ediblər

2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə əlaqədar həyata keçirilən silsilə tədbirlər çərçivəsində cari ilin aprel ayının 19-da Azərbaycan Respublikanın Konstitusiya Məhkəməsi tərəfindən xalqımızın Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyinə həsr olunan "XXI əsrdə insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində müasir nəzəri və praktiki yanaşmalar" mövzusunda elmi-nəzəri konfrans keçirilib.








Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin sədri, sədr müavini, hakimləri və aparatının məsul əməkdaşları, Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman), Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının rektoru, Vəkillər Kollegiyasının sədri, Milli Məclisin deputatları, hüquq sahəsi üzrə bir sıra görkəmli alimlər, ictimai xadimlərin iştirak etdiyi bu tədbirdə Baş Prokurorluqdan Hüquqi təminat və insan hüquqları məsələləri idarəsinin rəis müavini Günay Əyyubova və böyük prokuroru Rəfael Həsənov, həmçinin Elm-Tədris Mərkəzinin Prokurorluq işçilərinin fəaliyyətinin qiymətləndirilməsi və peşə hazırlığının təşkili şöbəsinin rəisi Nigar Qələndərli təmsil olunublar.

Konfransda natiqlərin "Azərbaycanda Ombudsman təsisatının yaradılmasında Ulu Öndər Heydər Əliyevin rolu", "Heydər Əliyev Müstəqil Azərbaycan vəkilliyinin banisi kimi", "Heydər Əliyev və Azərbaycanda hüquqi dövlət quruculuğu", "Konstitusiyada təsbit edilmiş dəyərlərin inkişafında Azərbaycan Respublikası Konstitusiya Məhkəməsinin rolu", "Ümummilli Lider Heydər Əliyev və Müstəqil Azərbaycan" və digər hüquqi mövzular üzrə çıxışları dinlənilib.

Məruzələr zamanı müasir Azərbaycan dövlətinin qurucusu Ulu Öndər Heydər Əliyevin əvəzsiz xidmətlərindən, böyük xilaskarlıq rolundan danışılıb, ölkənin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni və bütün digər sahələrində əsaslı inkişafın, tərəqqinin, qazanılan uğurların Ümummilli Lider Heydər Əliyevin apardığı siyasətinin nəticəsi olduğu vurğulanıb, geniş fikir mübadiləsi aparılıb.

# Ümummilli lider Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar prokurorluq işçiləri tərəfindən könüllü qanvermə aksiyası keçirilib







Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar qan köçürülməsinə ehtiyac duyan vətəndaşlarımıza dəstək olmaq məqsədilə cari ilin aprel ayının 26-da Baş Prokurorluğun mərkəzi aparatında, Baş prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsində, Milli Hematologiya və Transfuziologiya Mərkəzinin Sumqayıt, Şirvan, Mingəçevir və Gəncə şəhərlərində, həmçinin Lənkəran, Quba, Bərdə və Şəki rayonlarında olan nümayəndəliklərində, eləcə də Naxçıvan Muxtar Respublikasının Mərkəzi Xəstəxanası Publik Hüquqi şəxsin Mərkəzi Qan Bankında könüllü qanvermə aksiyası keçirilmişdir.

Milli Hematologiya və Transfuziologiya Mərkəzinin Qan Bankının birgə təşkilatçılığı ilə reallaşdırılan bu aksiyada ümumilikdə 280 nəfər prokurorluq əməkdaşı iştirak edib.

Qeyd edək ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 23.12.2019-cu il tarixli Fərmanı ilə ölkədə qan, qan komponentlərinin donorluğu və qan xidməti sahəsində dövlət fəaliyyətinin səmərəliliyini daha da artırmaq və sistemliliyini təmin etmək, əhalinin qan, qan komponentlərinə olan tələbatını ödəmək, habelə qanın, qan komponentlərinin tədarükü, emalı, saxlanması və bölüşdürülməsi zamanı beynəlxalq standartların tətbiq edilməsi məqsədilə Səhiyyə Nazirliyinin tabeliyində olan Talassemiya Mərkəzi publik hüquqi şəxsin və B.Ə.Eyvazov adına Elmi-Tədqiqat Hematologiya və Transfuziologiya İnstitutunun birləşmə formasında yenidən təşkili yolu ilə "Tibbi Ərazi Bölmələrinin İdarəetmə Birliyi" publik hüquqi şəxsin (TƏBİB) tabeliyində publik hüquqi şəxs statuslu Milli Hematologiya və Transfuziologiya Mərkəzi yaradılmışdır.







# Prokurorluq əməkdaşları uşaq və körpələr evlərini ziyarət ediblər



Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar həyata keçirilən kompleks tədbirlərin davamı olaraq, cari ilin may ayının 2-də prokurorluq əməkdaşları paytaxtda yerləşən uşaq və körpələr evlərini ziyarət edib.

Görüşdə müasir müstəqil Azərbaycan dövlətinin qurucusu, Ulu Öndər Heydər Əliyevin hər zaman uşaqlara böyük qayğı ilə yanaşması barədə uşaqlara danışılıb.

Ziyarət çərçivəsində, prokurorluq əməkdaşları xüsusi qayğıya ehtiyacı olan, eləcə də valideyn himayəsindən məhrum olan uşaqların problemləri, onların təlim-tədris proqramı ilə maraqlanıb, uşaqlara hədiyyə və dərs ləvazimatları təqdim edib.

Aksiyanın gələcəkdə də davam etdirilməsi nəzərdə tutulur.











## “Heydər Əliyev və müasir Azərbaycan” mövzusunda keçirilmiş elmi-praktik konfransda Baş Prokurorluğun nümayəndəsi iştirak edib








Görkəmli dövlət və siyasi xadimi Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi ilə əlaqədar həyata keçirilən silsilə tədbirlər çərçivəsində Daxili İşlər Nazirliyinin Polis Akademiyasında cari ilin may ayının 3-də keçirilmiş “Heydər Əliyev və müasir Azərbaycan” mövzusunda elmi-praktik konfransda Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin şöbə rəisi Nigar Qələndərli iştirak etmişdir.

Konfransı başlamadan öncə qonaqların iştirakı ilə Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə əklil və gül dəstələri qoyulub. Daha sonra Azərbaycan torpaqlarının ərazi bütövlüyü uğrunda şəhid olan qəhrəmanlarımızın əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Konfransı Polis Akademiyasının rəisi Canpolad Daanov açıq etdikdən sonra, Vəkillər Kollegiyasının Rəyasət Heyətinin sədri Anar Bağırov, DİN-in Daxili Qoşunlarının Ali Hərbi Məktəbinin rəisi İlqar Məmmədov, Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyasının rəisi vəzifəsini icra edən Elşad Nəsirov, Mediasiya Şurasının İdarə Heyətinin sədri Nadir Adilov, Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin şöbə rəisi Nigar Qələndərli açılış nitqi ilə çıxış etdilər.

Tədbirin davamında Polis Akademiyasının kursantları tərəfindən hazırlanmış Ümummilli Liderə həsr olunmuş saytın təqdimatı keçirilib.

Daha sonra Ombudsman Aparatının, Bakı Dövlət Universitetinin, Azərbaycan Respublikası Prezidenti yanında Dövlət İdarəçilik, Fövqəladə Hallar Nazirliyinin, Dövlət Gömrük Komitəsinin və Ədliyyə akademiyalarının əməkdaşları Ulu Öndərin həyat və fəaliyyətini əks etdirən məruzələrlə çıxış ediblər. Heydər Əliyevlə canlı görüşlərin iştirakçısı olan qonaqlar isə öz xatirələrini konfrans iştirakçıları ilə bölüşüblər.




Tədbirdə görkəmli alimlər, professor-müəllim heyəti, kursantlar, tələbələr, habelə Polis Akademiyasının “Heydər Əliyev təqaüdü”nə layiq görülmüş məzunları da iştirak ediblər.

Keçirilən elmi-praktik konfransın sonunda Ümummilli Lider Heydər Əliyevin həyat və fəaliyyəti ilə bağlı videoçarx nümayiş etdirilib.



## Baş Prokurorluğun əməkdaşları I və II Qarabağ müharibələrində iştirak etmiş şəhid və müharibə veteranlarının ailələri ilə görüşüblər

Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyi ilə əlaqədar həyata keçirilən kompleks tədbirlərin davamı olaraq, cari ilin may ayının 3-də prokurorluq əməkdaşları Bakı şəhərinin Səbail, Yasamal, Binəqədi və Xətai rayonları ərazisində yaşayan I və II Qarabağ müharibələrində iştirak etmiş şəhid və müharibə veteranlarının ailələrini ziyarət edib.

Tədbirdə adları qeyd edilən Bakı şəhər rayonlarının İcra Hakimiyyətlərinin məsul şəxsləri, Baş Prokurorluğun və Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi tabeliyində Sosial Xidmətlər Agentliyinin nümayəndələri iştirak etmiş, tədbirdə Azərbaycan Respublikasının ərazi bütövlüyü uğrunda aparılan mübarizədə şəhid olmuş vətəndaşlarımızın hər zaman qürurla anıldığı, onların ailə üzvlərinin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin göstərişinə müvafiq olaraq daim diqqət və qayğı ilə əhatə olunduğu, bu tədbirlərin silsilə xarakter daşıdığı və gələcəkdə də Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən bu cür tədbirlərin keçiriləcəyi barədə görüş iştirakçılarına məlumat verilmişdir.











# Prokurorluq əməkdaşları “Bakı Marafonu – 2023” də iştirak edib








Cari ilin may ayının 8-i prokurorluq əməkdaşları Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümünə həsr olunmuş və Heydər Əliyev Fondunun təşəbbüsü ilə keçirilən “Bakı Marafonu - 2023”də iştirak edib.

2016-cı ildən təşkil olunan və “Küləyə qalib gəl” şüarı altında keçirilən sayca 6-cı Bakı marafonu idmanın inkişafına dəstək göstərmək, sağlam həyat tərzini təbliğ etmək məqsədi daşıyır.

Qeyd edək ki, Bakı Marafonu hər il kütləviliyi, yaşından asılı olmayaraq müxtəlif ölkələrdən iştirakçıları ətrafında toplamaqla seçilir. Budəfəki marafona 19.500 nəfər iştirakçı qeydiyyatdan keçib. Yarışda 18 yaşdan yuxarı şəxslər iştirak edib.

Azərbaycan vətəndaşları ilə yanaşı, ölkəmizdə yaşayıb çalışan əcnəbilər, eləcə də digər ölkələrdən iştirakçılar da marafona qeydiyyatdan keçib. Bunların sırasında bu il ABŞ, Belarus, Böyük Britaniya, Çin, Fransa, Gürcüstan, İran, İtaliya, Qazaxıstan, Qırğızıstan, Özbəkistan, Polşa, Rusiya, Türkiyə, Ukrayna və digər ölkələrdən iştirakçılar olub. Bakı Marafonunda bir sıra tanınmış şəxslər də fəxri iştirakçı kimi yarışıb. Yarışda, eyni zamanda Qarabağ qaziləri, fiziki imkanları məhdud olan şəxslər də iştirak edib.

Marafon birincilik uğrunda yarışla yanaşı, həm də iştirakçılarda yaratdığı gözəl əhvali-ruhiyyə ilə yaddaqalan olub. İştirakçılar, şəhər sakinləri və qonaqlar marafonun davam etdiyi müddətdə Dövlət Bayrağı Meydanında yaradılan əyləncə zonasında müxtəlif əyləncə proqramlarında, yarışlarda, interaktiv oyunlarda iştirak edib, konsert proqramlarını da izləyə biliblər.

Marafonda birinci start fiziki imkanları məhdud şəxslər və daun sindromlu uşaqlar üçün verilib. İkinci startda isə digər iştirakçılar yarışa qoşulub.

“Küləyə qalib gəl” şüarı altında keçirilən marafon 21 kilometr məsafəni əhatə edib. Start və finiş nöqtələri Dövlət Bayrağı Meydanında təşkil olunub, marşrut Dənizkənarı bulvar zonasından keçməklə şəhərin mərkəzi küçə və prospektlərini əhatə edib.








# Baş Prokurorluqda “Ulu Öndər Heydər Əliyev və hüquq elminin inkişafı” mövzusunda geniş tərkibli konfrans keçirilib



Cəmiyyətin tərəqqisinin vacib amilləri olan elm və mədəniyyətin, xalqın intellektual potensialının formalaşması onun təhsil sistemi ilə təmin edilir. Azərbaycan qədim sivilizasiya, mədəniyyət ocağı kimi hələ tarixin lap dərin qatlarında özünün təhsil sistemini formalaşdırmışdır. Bu gün Ümummilli Lider Heydər Əliyevin əvəzolunmaz xidmətləri hesabına ölkəmiz geniş şaxələnmiş təhsil sisteminə, hüquq elmləri, bilikləri, təcrübəni nəsildən nəslə ötürməyə əsas verən mükəmməl ali təhsil müəssisələri şəbəkəsinə malikdir.





Ulu Öndərin parlaq və çoxşaxəli fəaliyyəti Azərbaycan millətinin xatirəsinə həmişəlik həkk olunub, gördüyü qlobal işlər bəhrə verməkdə davam edir, vətəndaşlarımız, soydaşlarımız bundan faydalanır. Cari ilin “Heydər Əliyev İli” elan edilməsi bir daha keçmiş tarixə dönməyi-











mizə, yada salmağımıza təkan verir, Ulu Öndərin gördüyü işlər barədə məlumatların gənc nəsillərə ötürülməsini vacib edir.

Bu səbəbdən 2023-cü ilin iyun ayının 1-də Baş Prokurorluğun inzibati binalar kompleksində gənc hüquqşünaslar üçün keçirilmiş "Ulu Öndər Heydər Əliyev və hüquq elminin inkişafı" mövzusunda konfransda dahi şəxsiyyətin əvəzolunmaz xidmətləri barədə çoxsaylı çıxışlar edilib.

Tədbirdə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyasının, Bakı və Naxçıvan Dövlət Universitetlərinin, Milli Aviasiya Akademiyasının, "ADA" Universitetinin, eləcə də Dövlət Təhlükəsizliyi Xidmətinin Heydər Əliyev adına Akademiyasının, Daxili İşlər Nazirliyinin Polis Akademiyasının, Dövlət Gömrük Komitəsinin Akademiyasının, Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasının və digər tədris müəssisələrinin professor-müəllim heyəti və tələbələri iştirak edib.

Konfransa tanınmış ziyalıların, dövlət və qeyri-hökumət təşkilatlarının nümayəndələrinin, prokurorluğun veteranlarının və gənc prokurorluq işçilərinin qoşulması tədbiri daha da zəngin edib.

Ümummilli Lider Heydər Əliyevin büstünün önünə gül dəstələrinin düzülməsi ilə başlanan konfransda ilk öncə Ulu Öndərin və Şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib, sonra isə Azərbaycan Respublikasının Dövlət himni səsləndirilib.

Konfransı giriş sözü ilə açan Baş Prokurorluğun idarə rəisi Elnur Musayev iştirakçıların diqqətinə tədbirin məqsəd və vəzifələrini çatdıraraq "Heydər Əliyev və Azərbaycanda müasir hüquqi dövlətin əsaslarının qurulması" mövzusunda çıxış edib.

Azərbaycan Respublikasının xalq yazıçısı, Yazıçılar Birliyinin birinci katibi, hüquq üzrə elmlər doktoru Çingiz Abdullayevin "Ulu Öndər Heydər Əliyevin Azərbaycanda hüquq təhsilinin inkişafına olan misilsiz qayğısı" mövzusunda çıxışı böyük maraqla qarşılanıb.

Daha sonra konfransda Baş Prokurorluğun idarə rəisi Mahir Abbasovun “Ulu Öndər Heydər Əliyevin hüquq siyasəti cinayət-prosessual qanunvericiliyin kontekstində”, “Konstitusiya” Araşdırmalar Fondunun prezidenti Əliməmməd Nuriyevin “Heydər Əliyevin parlamentarizmin formalaşmasında rolu”, BDU-nun Hüquq fakültəsinin dekanı, hüquq üzrə fəlsəfə doktoru, dosent Zaur Əliyevin “Ulu Öndər Heydər Əliyevin hüquq elminin və təhsilinin inkişafında müstəsna xidmətləri”, DİA-nın kafedra müdiri, hüquq üzrə elmlər doktoru, professor İsaxan Vəliyevin “Heydər Əliyevin azad sahibkarlıq strategiyası hüquq elminin tədqiqat obyekti kimi”, MAA-nın İqtisadiyyat və hüquq fakültəsinin dekanı, hüquq üzrə elmlər doktoru Ayxan Rüstəmzadənin “Ümummilli Lider Heydər Əliyevin elmin inkişafına dair siyasətinin təməl prinsiplərinin müasir dövrdə hüquqşünas alimlərin hazırlanmasında rolu”, “ADA” Universitetinin Hüquq fakültəsinin dekanı, hüquq üzrə fəlsəfə doktoru Rəşad İbadovun “Müasir hüquq siyasətində Heydər Əliyevin yanaşması”, Naxçıvan Dövlət Universitetinin Hüquq fənləri kafedrasının müəllimi Əziz Qasımov “Ulu Öndər Heydər Əliyevin Naxçıvan fəaliyyəti” mövzusunda çıxış və təqdimatları dinlənilib.

Konfrans zamanı mövzu ətrafında prokurorluğun veteranları, ixtisaslaşmış ali təhsil ocaqların nümayəndələri və tələbələr də maraqlı çıxışlar ediblər.

Sonda Baş Prokurorluğun təşəbbüsü ilə ərsəyə gəlmiş Ümummilli Liderin xatirəsinə həsr olunan “Böyük şəxsiyyət...3 ştrixdə” adlı sənədli film seyr edilib.









# Hərbi Prokurorluq xüsusi təyinatlılarla birlikdə “Heydər Əliyev İli” münasibətilə tədbir keçirib













Xalqımızın Ümummilli Lideri Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü münasibətilə Azərbaycan Respublikası Hərbi Prokurorluğunun və Müdafiə Nazirliyinin Xüsusi Təyinatlı Qüvvələrinin cari ilin aprel ayının 6-da birgə tədbiri keçirilib.

Əvvəlcə Ulu Öndər Heydər Əliyevin büstü və şəhidlərin abidəsi önünə gül dəstələri düzülərək, əbədiyaşar liderin və qəhrəman Vətən övladlarının əziz xatirələrinə dərin ehtiram ifadə olunub. İştirakçılar dahi şəxsiyyətin və bütün şəhidlərimizin əziz xatirələrini bir dəqiqəlik sükutla yad edib, qazilərə şəfa diləyiblər.

Tədbirdə çıxış edənlər istiqlal yolumuzu və istiqbalımızı nurlandıran, millətini zamanın sərt sınaqlarından böyük məharətlə çıxararaq, hər bir çətin vəziyyətdən ən düzgün çıxış yolu tapan Ümummilli Lider Heydər Əliyevin şərəfli və mənalı ömür yolundan, çoxşaxəli fəaliyyətindən, ölkəmizin qüdrətlənməsində, xalqın rifahının yüksəldilməsində misilsiz xidmətlərindən və dünya siyasətinə verdiyi töhfələrdən bəhs ediblər.

Çıxışlarda, həmçinin Ulu Öndər Heydər Əliyevin Azərbaycanın işıqlı gələcəyinə hesablanmış mükəmməl siyasətini yeni müstəvidə dövrün tələblərinə uyğun şəkildə uğurla davam etdirən dövlətimizin başçısı İlham Əliyevin rəhbərliyi ilə son 20 ildə ölkəmizdə görülmüş müstəsna əhəmiyyətli işlərdən, həyata keçirilmiş hərtərəfli köklü islahatlardan, bütün sahələrdə əldə olunmuş misli görünməmiş uğurlardan, o cümlədən qüdrətli Silahlı Qüvvələrimizin formalaşmasından, bu uğurların qazanılmasında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın dəstəyindən və xalqımızın əzmkarlığından danışıblar.

Bundan başqa, Vətən müharibəsində Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılan şanlı Qələbə xüsusi vurğulanaraq, müharibə dövründə prokurorluğun, o cümlədən hərbi prokurorluğun Silahlı Qüvvələrlə qarşılıqlı səmərəli fəaliyyətindən bəhs edilib, qürur dolu 44 günün unudulmaz təəssüratları xatırlanıb.

# Müasir Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin 100 illik yubileyi münasibəti ilə Respublika Hərbi Prokurorluğunda tədbir keçirilib







Cari ilin may ayının 3-də Azərbaycan Respublikasının Hərbi Prokurorluğunda müasir Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin 100 illik yubileyi münasibəti ilə tədbir keçirilib.

Əvvəlcə Hərbi Prokurorluğun inzibati binasında yerləşən "Heydər Əliyev guşəsi"ndə Ulu Öndər Heydər Əliyevin büstü önünə gül dəstələri düzülərək, dahi şəxsiyyətin parlaq xatirəsinə dərin ehtiram ifadə olunub.

Tədbirdən öncə mərasim iştirakçıları dünya şöhrətli siyasətçinin və şəhidlərimizin əziz və unudulmaz xatirəsini bir dəqiqəlik sükutla yad edib, qazilərə şəfa diləyiblər.

Mərasimdə çıxış edən Azərbaycan Respublikası Baş prokurorunun müavini – Azərbaycan Respublikasının Hərbi prokuroru, ədliyyə general-leytenantı Xanlar Vəliyev qəlbi daim vətən eşqi ilə döyünən, bütün varlığı ilə xalqına bağlı olan, istiqlal yolumuzu və istiqbalımızı nurlandıran, millətini zamanın sərt sınaqlarından yüksək məharətlə çıxararaq, hər bir çətin vəziyyətdən ən düzgün çıxış yolu tapan müdrik lider Heydər Əliyevin Azərbaycan tarixindəki və beynəlxalq arenadakı rolundan, o cümlədən demokratik, hüquqi dövlət quruculuğunda, ölkəmizin qüdrətlənməsində, xalqın rifahının yüksəldilməsində misilsiz xidmətlərindən və dünya siyasətinə verdiyi töhfələrdən danışdı.

Nəhəng tarixi şəxsiyyət Heydər Əliyevin mənalı həyatından və çoxşaxəli fəaliyyətindən geniş bəhs etməklə çıxışını davam etdirən Hərbi prokuror Xanlar Vəliyev bildirdi ki, "şərəfli ömür yolunu ölkəmizin tərəqqisinə və millətimizin parlaq gələcəyinə həsr edən Ümummilli Lider dövlətçiliyin ideoloji-siyasi əsaslarını yaratmaqla, xalqı əsl müstəqilliyə qovuşduraraq hafizələrdə əbədiyaşarlıq qazanmışdır. Azərbaycanın gələcəkdə dövlət müstəqilliyinin elan edilməsi üçün real əsaslar, yeni suveren bir ölkə kimi qarşılaşa biləcəyi mühüm məsələlərin həlli üsulları hələ Ulu Öndər Heydər Əliyevin sovet hakimiyyəti illərində Respublikamıza birinci rəhbərliyi dövründə formalaşdırılmışdır". Ölkəmizin çox çətin bir durumunda yalnız dahi şəxsiyyət Heydər Əliyevin Azərbaycanın müasir tarixinin həlledici dönüş nöqtəsi hesab edilən böyük qayıdışından sonra hər şeyin müsbətə doğru dəyişdiyini vurğulayan Hərbi prokuror Xanlar Vəliyev qeyd etdi ki, "vətəndaş müharibəsinin, eləcə də müstəqilliyimizin itirilməsi təhlükəsinin qarşısı qətiyyətlə alındı, cinayətkar dəstələr zərərsizləşdirildi, separatçı meyillərə son qoyuldu, ölkənin iqtisadi və siyasi böhrandan xilasını təmin edən digər zəruri tədbirlər görüldü, bununla da Azərbaycan sürətli inkişaf yoluna qədəm qoydu".











Ulu Öndər Heydər Əliyevin Azərbaycanın işıqlı gələcəyinə hesablanmış mükəmməl siyasətini yeni müstəvidə dövrün tələblərinə uyğun şəkildə uğurla davam etdirən dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə son 20 il ərzində görülmüş müstəsna əhəmiyyətli işlərdən, düşmən tapdağında olan dədə-baba torpaqlarımızın hərbi və siyasi-diplomatik yolla işğaldan azad edilməsindən, Vətən müharibəsində Ali Baş Komandanın rəhbərliyi ilə hərbçilərimizin şanlı tarix yazmaqlarından, eləcə də ölkəmizdə həyata keçirilmiş hərtərəfli köklü islahatlardan, bütün sahələrdə əldə olunmuş misli görünməmiş uğurlardan, iqtisadiyyatımızın güclənməsindən bəhs edən Hərbi prokuror Xanlar Vəliyev, bütün bunların cənab Prezidentin dərin zəkası, yüksək erudisiyası, mükəmməl rəhbərliyi, qətiyyəti, yorulmaz fəaliyyəti, xalqın müdrikliyi və əzmkarlığı sayəsində, eləcə də hakimiyyətlə xalq arasında olan sıx bağlılığın nəticəsində mümkün olduğunu vurğulayaraq, dövlətimizin daha da qüdrətlənməsindən, beynəlxalq nüfuzunun hərtərəfli artaraq mövqeyinin dünya ölkələri sırasında möhkəmlənməsindən danışdı.





Ədliyyə general-leytenantı Xanlar Vəliyev xüsusi vurğuladı ki, “əldə olunan uğurlarda və dövlətimizin qüdrətlənməsində, eləcə də ölkəmizin beynəlxalq əlaqələrinin inkişaf etdirilməsində, mədəniyyətimizin bütün dünyaya tanıdılmasında hərtərəfli biliklərə, iti düşüncəyə və yüksək idarəçilik qabiliyyətinə malik olan, sadəliyi və səmimiliyi ilə seçilən Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyəti də mühüm əhəmiyyət kəsb etməkdədir”.

Bundan sonra, Millət vəkilləri Rauf Əliyev, İlham Məmmədov, Elman Nəsirov, general Yücel Karauz, xalq şairi Vahid Əziz və digər şəxslər də dünya şöhrətli siyasətçinin tarixdəki rolu, eləcə də vətəni və xalqı qarşısındakı misilsiz xidmətləri barədə çıxışlar etdilər.

Tədbir əbədiyaşar Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən filmin nümayişi ilə başa çatmışdır.

# Hərbi Prokurorluq Vətən müharibəsi iştirakçıları ilə birlikdə "Heydər Əliyev İli" ilə bağlı tədbir keçirib











Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi münasibətilə cari ilin may ayının 18-də Azərbaycan Respublikası Hərbi Prokurorluğunun və Müdafiə Nazirliyinin birgə təşkilatçılığı ilə Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi ilə bağlı tədbir keçirilib.

Əvvəlcə xalqımızın Ümummilli Lideri Heydər Əliyevin büstü və şəhidlərin abidəsi önünə gül dəstələri düzülərək, dahi şəxsiyyətin və qəhrəman Vətən övladlarının parlaq xatirələrinə dərin ehtiram ifadə olunub.

Tədbirdən əvvəl mərasim iştirakçıları dünya şöhrətli siyasətçinin və bütün şəhidlərimizin əziz xatirələrini bir dəqiqəlik sükutla yad edib, qazilərə şəfa diləyiblər.

Mərasimdə çıxış edən Azərbaycan Respublikası Hərbi prokurorunun böyük köməkçisi – Mətbuat xidmətinin rəhbəri Firad Əliyev, Sumqayıt hərbi prokuroru Raul Şahverdiyev və digər şəxslər müstəqillik yolumuzu və firavan gələcəyimizi nurlandıran, millətini zamanın sərt sınaqlarından yüksək məharətlə çıxararaq, hər bir çətin vəziyyətdən ən düzgün çıxış yolu tapan nəhəng tarixi şəxsiyyət Heydər Əliyevin şərəfli və mənalı ömründən, çoxşaxəli və zəngin fəaliyyətindən, ölkəmizin qüdrətlənməsində, xalqın rifahının yüksəldilməsində müstəsna xidmətlərindən və dünya siyasətinə verdiyi töhfələrdən bəhs ediblər.

Çıxışçılar, eyni zamanda Ulu Öndər Heydər Əliyevin Azərbaycanın işıqlı gələcəyinə hesablanmış mükəmməl siyasətini yeni müstəvidə dövrün tələblərinə uyğun şəkildə uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə son 20 ilə yaxın müddət ərzində ölkəmizdə görülmüş misilsiz işlərdən, həyata keçirilmiş hərtərəfli köklü islahatlardan, bütün sahələrdə əldə olunmuş misli görünməmiş uğurlardan, o cümlədən qüdrətli Silahlı Qüvvələrimizin formalaşmasından, bu uğurların əldə olunmasında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın dəstəyindən və xalqın əzmkarlığından danışdılar.

Çıxışlarda həmçinin Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə əldə olunan möhtəşəm qələbə xüsusi vurğulanmaqla, Vətən müharibəsindən, o dövrdə prokurorluğun, o cümlədən hərbi prokurorluğun Silahlı Qüvvələrlə qarşılıqlı səmərəli fəaliyyətindən bəhs edilib, qürur dolu 44 günün unudulmaz təəssüratları xatırlanıb.

# Respublika Hərbi Prokurorluğunun və Müdafiə Nazirliyinin birgə təşkilatçılığı ilə Ulu Öndərin 100 illik yubileyi ilə bağlı tədbir keçirilib

Respublika Hərbi Prokurorluğunun və Müdafiə Nazirliyinin birgə təşkilatçılığı ilə cari ilin may ayının 23-də keçirilən tədbirin əvvəlində Ümummilli Lider Heydər Əliyevin və şəhidlərin əziz və unudulmaz xatirələri bir dəqiqəlik sükutla yad edilib, Allahdan onlara rəhmət, qazilərə şəfa arzulanıb.







Mərasimdə çıxış edən Respublika Hərbi prokurorunun böyük köməkçisi, mətbuat xidmətinin rəhbəri Firad Əliyev və Respublika Hərbi Prokurorluğunun Kriminalistika və informasiya texnologiyaları idarəsinin rəisi Emil Kərimov əvvəlcə Baş prokuror Kamran Əliyevin və Hərbi prokuror Xanlar Vəliyevin salamlarını şəxsi heyətə çatdırıblar. Bundan sonra natiqlər, eləcə də general-mayor Münasib Babayev, Qubadlı hərbi prokuroru Elşən Mürsəlov və digər şəxslər müstəqillik yolumuzu və firavan gələcəyimizi nurlandıran, millətini zamanın sərt sınaqlarından yüksək məharətlə çıxararaq, hər bir çətin vəziyyətdən ən düzgün çıxış yolu tapan dahi tarixi şəxsiyyət Heydər Əliyevin şərəfli və mənalı ömründən, çoxşaxəli və zəngin fəaliyyətindən, ölkəmizin qüdrətlənməsində, xalqın rifahının yüksəldilməsində müstəsna xidmətlərindən və dünya siyasətinə verdiyi töhfələrdən bəhs ediblər.

Çıxışçılar, eyni zamanda, Ulu Öndər Heydər Əliyevin Azərbaycanın işıqlı gələcəyinə hesablanmış mükəmməl siyasətini yeni müstəvidə dövrün tələblərinə uyğun şəkildə uğurla davam etdirən Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə son 20 ilə yaxın müddətdə ölkəmizdə görülmüş misilsiz işlərdən, həyata keçirilmiş hərtərəfli köklü islahatlardan, bütün sahələrdə əldə olunmuş misli görünməmiş uğurlardan, o cümlədən Silahlı Qüvvələrimizin formalaşmasından, bu uğurların əldə olunmasında Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın dəstəyindən və xalqın əzmkarlığından danışıblar.

Çıxışlarda, həmçinin Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə əldə olunan möhtəşəm qələbə xüsusi vurğulanmaqla, Vətən müharibəsindən, o dövrdə prokurorluğun, o cümlədən hərbi prokurorluğun Silahlı Qüvvələrlə qarşılıqlı səmərəli fəaliyyətindən bəhs edilib, qürur dolu 44 günün unudulmaz təəssüratları xatırlanıb.

Sonda Ulu Öndərin həyat və fəaliyyətinə həsr edilmiş sənədli film nümayiş etdirilib.





# Ulu öndər Heydər Əliyevin xatirəsi Qubadlıda anılıb







Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Azərbaycan Respublikası Hərbi Prokurorluğunun və Dövlət Sərhəd Xidmətinin birgə təşkilatçılığı ilə cari ilin may ayının 24-də Qubadlı rayonunda tədbir keçirilib.

Tədbirdən əvvəl Ümummilli Lider Heydər Əliyevin və şəhidlərin əziz və unudulmaz xatirələri bir dəqiqəlik sükutla yad edilib, Allahdan onlara rəhmət, qazilərə şəfa arzulanıb.

Mərasimdə çıxış edən Respublika Hərbi prokurorun böyük köməkçisi, mətbuat xidmətinin rəhbəri Firad Əliyev və Respublika Hərbi Prokurorluğunun Kriminalistika və informasiya texnologiyaları idarəsinin rəisi Emil Kərimov əvvəlcə Baş prokuror Kamran Əliyevin və Hərbi prokuror Xanlar Vəliyevin salamlarını şəxsi heyətə çatdırıb. Bundan sonra, həmin şəxslər, eləcə də Qubadlı hərbi prokuroru Elşən Mürsəlov və digər şəxslər müstəqillik yolumuzu və firavan gələcəyimizi nurlandıran, millətini zamanın sərt sınaqlarından yüksək məharətlə çıxararaq, hər bir çətin vəziyyətdən ən düzgün çıxış yolu tapan nəhəng tarixi şəxsiyyət Heydər Əliyevin şərəfli və mənalı ömründən, çoxşaxəli və zəngin fəaliyyətindən, ölkəmizin qüdrətlənməsində, xalqın rifahının yüksəldilməsində müstəsna xidmətlərindən və dünya siyasətinə verdiyi töhfələrdən bəhs ediblər.

Çıxışçılar, eyni zamanda, Ulu Öndər Heydər Əliyevin Azərbaycanın işıqlı gələcəyinə hesablanmış mükəmməl siyasətini yeni müstəvidə dövrün tələblərinə uyğun şəkildə uğurla davam etdirən Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə son 20 ilə yaxın müddətdə ölkəmizdə görülmüş misilsiz işlərdən, həyata keçirilmiş hərtərəfli köklü islahatlardan, bütün sahələrdə əldə olunmuş misli görünməmiş uğurlardan, o cümlədən qüdrətli Silahlı Qüvvələrimizin formalaşmasından, bu uğurların əldə olunmasında Birinci vitse-prezident Mehriban xanım Əliyevanın dəstəyindən və xalqın əzmkarlığından danışıblar.

Çıxışlarda, həmçinin Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə əldə olunan möhtəşəm Qələbə xüsusi vurğulanmaqla, Vətən müharibəsindən, o dövrdə prokurorluğun, o cümlədən hərbi prokurorluğun Silahlı Qüvvələrlə qarşılıqlı səmərəli fəaliyyətindən bəhs edilib, qürur dolu 44 günün unudulmaz təəssüratları xatırlanıb.

# Respublika Hərbi Prokurorluğunun və Müdafiə Nazirliyinin birgə təşkilatçılığı ilə Heydər Əliyevin 100 illik yubileyi ilə bağlı Kəlbəcərdə tədbir keçirilib











Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi münasibətilə Azərbaycan Respublikası Hərbi Prokurorluğunun və Müdafiə Nazirliyinin birgə təşkilatçılığı ilə cari ilin iyun ayının 1-də Kəlbəcər rayonu ərazisində tədbir keçirilib.

Tədbirdən əvvəl Ümummilli Lider Heydər Əliyevin və şəhidlərin əziz və unudulmaz xatirələri bir dəqiqəlik sükutla anılıb, Allahdan onlara rəhmət, qazilərə şəfa arzulanıb.

Mərasimdə çıxış edən Respublika Hərbi prokurorunun böyük köməkçisi, mətbuat xidmətinin rəhbəri Firad Əliyev və Hərbi Prokurorluğun Sənədlərlə və müraciətlərlə işin təşkili şöbəsinin rəisi Şıxəliyev əvvəlcə Baş prokuror Kamran Əliyevin və Hərbi prokuror Xanlar Vəliyevin salamlarını şəxsi heyətə çatdırıblar. Bundan sonra həmin şəxslər, eləcə də Kəlbəcər hərbi prokuroru Mahir Bayramov, hərbçi Oruc Abdullayev, Anar Quliyev və digər şəxslər müstəqillik yolumuzu və firavan gələcəyimizi işıqlandıran, xalqını zamanın sərt sınaqlarından yüksək məharətlə çıxararaq, hər bir çətin vəziyyətdən ən düzgün çıxış yolu tapan nəhəng tarixi şəxsiyyət Heydər Əliyevin şərəfli və mənalı ömründən, çoxşaxəli və zəngin fəaliyyətindən, ölkəmizin qüdrətlənməsində, xalqın rifahının yüksəldilməsində müstəsna xidmətlərindən və dünya siyasətinə verdiyi töhfələrdən bəhs ediblər.

Çıxışçılar, eyni zamanda Ulu Öndər Heydər Əliyevin Azərbaycanın parlaq gələcəyinə hesablanmış mükəmməl siyasətini yeni müstəvidə zamanın tələblərinə uyğun şəkildə uğurla davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə son 20 ilə yaxın müddət ərzində ölkəmizdə görülmüş misilsiz işlərdən, həyata keçirilmiş hərtərəfli, köklü islahatlardan, bütün sahələrdə əldə olunmuş uğurlardan, o cümlədən qüdrətli Silahlı Qüvvələrimizin formalaşmasından, bu uğurların əldə olunmasında Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın dəstəyindən və xalqın əzmkarlığından danışıblar.

Həmçinin Müzəffər Ali Baş Komandanın rəhbərliyi ilə qazanılmış tarixi Qələbə xüsusi vurğulanmaqla, Vətən müharibəsindən, o dövrdə prokurorluğun, o cümlədən hərbi prokurorluğun Silahlı Qüvvələrlə qarşılıqlı səmərəli fəaliyyətindən bəhs edilib, qürur dolu 44 günün unudulmaz təəssüratları xatırlanıb.



# Naxçıvan Muxtar Respublikası Prokurorluğu tərəfindən "Heydər Əliyev İli" münasibətilə orta ümumtəhsil məktəblərində maarifləndirmə tədbirləri keçirilib

Ordubad rayon prokurorluğunun təşkilatçılığı ilə cari ilin fevral ayının 28-də rayonun Əndəmic kənd tam orta məktəbində "Ulu Öndər Heydər Əliyev və Azərbaycan gəncliyi" mövzusunda maarifləndirmə tədbiri keçirilib. Tədbirdə rayon prokurorluğunun işçiləri Fərid Orucəliyev, Amin Məmmədzadə və rayon Təhsil şöbəsinin əməkdaşı iştirak etmişlər. Şagirdlərlə görüş zamanı müstəqil Azərbaycan dövlətinin memarı Ulu Öndər Heydər Əliyev tərəfindən Azərbycan gənclıyinə göstərilən diqqət və qayğı, fevral ayının 2-nin ölkəmizdə Ulu Öndərin təşəbbüsü ilə "Gənclər günü" elan edilməsinin mahiyyəti qeyd olunmuş və suallar cavablandırılmışdır.







Şahbuz rayon prokurorluğunun təşkilatçılığı ilə mart ayının 2-də Şahbuz şəhər 2 nömrəli tam orta məktəbində "Ulu Öndər Heydər Əliyev və gənclər siyasəti" mövzusunda maarifləndirmə tədbiri keçirilib. Tədbirdə rayon prokurorluğunun əməkdaşı Əfqan İsmayılov 2023-cü ilin ölkəmizdə "Heydər Əliyev ili" elan edilməsi, Ulu Öndər tərəfindən həyata keçirilən milli dövlət quruculuğu, o cümlədən Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan və bu gün də uğurla davam etdirilən gənclər siyasəti barədə şagirdlərə ətraflı məlumat vermişdir.

Sədərək rayon prokurorluğunun təşkilatçılığı ilə isə mart ayının 2-də Sədərək rayon 1 nömrəli tam orta məktəbində "Azərbaycan gəncliyində Ulu Öndər Heydər Əliyevin rolu" mövzusunda maarifləndirmə tədbiri keçirilib. Tədbirdə rayon prokurorluğunun əməkdaşı Nurlan Əhmədli və rayon Təhsil şöbəsinin əməkdaşı müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı, xalqımızın Ümummilli Lider Heydər Əliyevin xalqımız və dövlətimiz qarşısındakı tarixi və misilsiz xidmətləri və Azərbaycan gəncliyinin inkişafındakı rolu barədə məlumat verərək qeyd etmişlər ki, çoxəsrlik dövlətçilik ənənələrinə malik olan ölkəmizin tarixində Ümummilli Lider Heydər Əliyev şəxsiyyəti, görkəmli dövlət xadiminin siyasi və idarəçilik fəaliyyəti müstəsna yer tutur. Xalqımız tarixboyu arzuladığı milli dövlətçilik amallarını məhz Heydər Əliyev epoxasında gerçəkləşdirərək dayanıqlı müstəqil Azərbaycan dövlətini qurmuşdur. Müasir Azərbaycan tarixinin 30 ildən artıq bir dövründə Respublikamıza rəhbərlik etmiş Ulu Öndər Heydər Əliyev dövlətçilik salnaməsində elə bir irs yaratmışdır ki, onun öyrənilməsinə, təbliğinə və tətbiqinə hələ uzun illər böyük ehtiyac olacaqdır.

# “Müstəqil Azərbaycan vəkilliyinin banisi Heydər Əliyev” mövzusunda elmi-praktiki konfrans keçirilib











Cari ilin mart ayının 10-da Naxçıvan Muxtar Respublikasında “Müstəqil Azərbaycan vəkilliyinin banisi Heydər Əliyev” mövzusunda elmi-praktiki konfrans keçirilib.

Konfransda digər qurumların nümayəndələri ilə yanaşı, Naxçıvan Muxtar Respublikası prokurorunun müavini Sənan Paşayev və Muxtar Respublika Prokurorluğunun əməkdaşları da iştirak ediblər.

Naxçıvan şəhərində baş tutan konfransda ilk olaraq Dövlət Himni və vəkil marşı səsləndirilib, şəhidlərimizin əziz xatirəsi yad edilib.

Tədbir zamanı konfrans iştirakçıları çıxışlarında Ümummilli Lider Heydər Əliyevin müstəqil Azərbaycanda apardığı hüquqi islahatlar çərçivəsində insan hüquq və azadlıqlarının müdafiəsinə, o cümlədən vəkilliyin təşkilinə önəm verdiyi, Ulu Öndərin bu institutun inkişafında əvəzolunmaz rolu xüsusi vurğulanıb.

Belə ki, Vəkillər Kollegiyasının sədri Anar Bağırov deyib ki, Azərbaycanda vəkilliyin müstəqil təsisat kimi formalaşması Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Ümummilli Liderin rəhbərliyi ilə bu sahədə aparılan islahatlar, qəbul edilən qanunlar vəkillik peşəsinin inkişafı üçün atılan çox önəmli addımlar idi.

Naxçıvan Muxtar Respublikasının Ombudsmanı Günay Rzayeva vurğulayıb ki, 1995 – 2003-cü illər ərzində Ümummilli Lider Heydər Əliyev tərəfindən ümumilikdə 3104 məhkuma şamil edilməklə, 32 əfv fərmanı və sərəncamı imzalanıb. Eyni zamanda, Ulu Öndər Heydər Əliyev Azərbaycanda amnistiya aktlarının qəbulunu da mütərəqqi ənənəyə çevirmiş və onun təşəbbüsü ilə 77 mindən artıq insana şamil olunmuş 7 amnistiya aktı qəbul edilib.

Konfrans çərçivəsində çıxış etmiş Sənan Paşayev Naxçıvan Muxtar Respublikası Prokurorluğu ilə Muxtar Respublikada fəaliyyət göstərən vəkil qurumları arasında səmərəli və işgüzar münasibətlərin qurulmasının vacibliyini qeyd edərək, ibtidai araşdırma zamanı şəxslərə vaxtında və keyfiyyətli hüquqi yardımın göstərilməsi məqsədilə Muxtar Respublikada fəaliyyət göstərən vəkillərin sayının artırılması, bir sıra rayon mərkəzlərində vəkil bürolarının təsis edilməsi ilə bağlı təkliflər irəli sürüb.

Çıxışlardan sonra Azərbaycan Respublikası Vəkillər Kollegiyasının beş illik fəaliyyəti barədə hesabat filmi nümayiş olunub, tədbirdən sonra isə Vəkillər Kollegiyasının inzibati binasında pulsuz hüquqi yardım aksiyası keçirilib.

# Naxçıvan Muxtar Respublikası Prokurorluğunda Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş konfrans keçirilib

Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev ili" elan edilməsi ilə əlaqədar cari ilin mart ayının 17-də Naxçıvan Muxtar Respublikası Prokurorluğunun təşkilatçılığı ilə Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş konfrans keçirilib.





Konfransda Naxçıvan Muxtar Respublikası Prokurorluğunun, tabe rayon (şəhər) prokurorluqlarının və Naxçıvan Muxtar Respublikası Hərbi Prokurorluğunun əməkdaşları, prokurorluğun veteranları, Milli Elmlər Akademiyasının Naxçıvan bölməsinin nümayəndələri, eləcə də Naxçıvan Dövlət Universitetinin müəllim heyəti və tələbələri iştirak edib.

Konfrans iştirakçıları əvvəlcə Ulu Öndər Heydər Əliyevin Naxçıvan şəhərindəki abidəsi önünə gül dəstələri qoyub, unudulmaz xatirəsini ehtiramla yad edib.

Konfransın açılışında ölkəmizin ərazi bütövlüyü uğrunda qəhrəmancasına şəhid olmuş şəxslərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra Naxçıvan Muxtar Respublikası prokurorunun müavini Sənan Paşayev müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, Ümummilli Lider Heydər Əliyevin xalqımız qarşısındakı tarixi xidmətləri, hüquqi dövlət quruculuğu istiqamətində həyata keçirdiyi uğurlu siyasət barədə çıxış edib.







Daha sonra Naxçıvan Muxtar Respublikası hərbi prokuroru Yaşar Həsənov, prokurorluğun veteranı Ələddin Məmmədov, Muxtar Respublika Prokurorluğunun şöbə rəisi Faiq Səfərov, Azərbaycan Milli Elmlər Akademiyasının müxbir üzvü Vəli Baxşəliyev və Naxçıvan Dövlət Universitetinin hüquq fənləri kafedrasının müəllimi Əziz Qasımov Ümummilli Liderin prokurorluq orqanlarına diqqət və qayğısı, dövlətçiliyin qorunması, gənclər siyasəti, Respublikamızın bütün sahələrdə inkişafı sahəsində misilsiz xidmətləri barədə çıxışları dinlənilib.

Konfransın yekununda Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevin ideya müəllifi olduğu "Heydər Əliyev Salnaməsi – Qanun naminə" adlı film nümayiş etdirilib.



# Naxçıvan Muxtar Respublikası Prokurorluğu tərəfindən “Heydər Əliyev İli” münasibətilə təhsil müəssisələrində elmi-tədqiqat tədbirləri keçirilib






2023-cü ilin aprel ayının 6-da Naxçıvan Müəllimlər İnstitutunda “Ulu Öndər Heydər Əliyev və hüquqi dövlət quruculuğu” mövzusunda tədbir keçirilib.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və insan hüquqları məsələləri şöbəsinin rəisi Faiq Səfərov “Ulu Öndər Heydər Əliyev Azərbaycanda hüquqi islahatların memarıdır” mövzusunda çıxış edib. Vurğulanıb ki, Ümummilli Lider Heydər Əliyevin Azərbaycanın milli dövlətçiliyinin inkişafına verdiyi töhfələr misilsizdir və onun irsi bu gün də etibarlı bünövrə kimi çıxış edir. Azərbaycanda hüquqi dövlət quruculuğu Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Məhz Ulu Öndərin rəhbərliyi ilə həyata keçirilən köklü islahatların nəticəsidir ki, Azərbaycanda müasir hüquq sisteminin inkişafı davamlı prosesə çevrilib. Ümummilli Lider Heydər Əliyevin başladığı dövlət quruculuğu prosesi məhz demokratik, hüquqi dövlət və vətəndaş cəmiyyətinin formalaşmasına yönəlmiş, hazırda isə həmin proses Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən ardıcıl surətdə davam etdirilir.

Tədbirdə Azərbaycan Televiziyasının hazırladığı “Ulu Öndər Heydər Əliyevin tarixi xidməti “Tarixin izi ilə” filmi nümayiş etdirilib.

***

Cari ilin aprel ayının 20-də isə “Naxçıvan” Universitetində “Ümummilli Lider Heydər Əliyev Azərbaycan Respublikasında hüquqi dövlət quruculuğunun banisidir” mövzusunda tədbir keçirilib.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və insan hüquqları məsələləri şöbəsinin rəisi Faiq Səfərov “Ulu Öndər Heydər Əliyev Azərbaycanda hüquqi islahatların memarıdır” mövzusunda çıxış edərək müəllifi olduğu və Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə ithaf etdiyi “Qanunçuluq və hüquq düşüncəsi” adlı kitabını Universitetin elmi kitabxanasına hədiyyə edib.

“Qanunçuluq və hüquq düşüncəsi” adlı kitabda Ulu Öndərin milli dövlət quruculuğundakı misilsiz xidmətləri, Azərbaycanda hüquq islahatlarının memarı kimi titanik fəaliyyəti, insani dəyərlərə verdiyi önəm, uzaqgörən və humanist siyasətinin uğurları, prokurorluq orqanlarına qayğısı, ölkəmizdə insan və vətəndaş hüquq və azadlıqlarının qanunvericilik yolu ilə müdafiəsinin hüquqi mexanizmlərinin təsbit olunması geniş işıqlandırılıb.

# Naxçıvan Muxtar Respublikası Prokurorluğunda Ümummilli Liderin anadan olmasının 100 illiyi ilə əlaqədar "Açıq qapı" günü keçirilib



Cari ilin aprel ayının 19-da Naxçıvan Muxtar Respublikası Prokurorluğunda Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illiyi ilə əlaqədar "Açıq qapı" günü keçirilib. Tədbirdə Naxçıvan Dövlət Universitetinin Hüquqşünaslıq ixtisası üzrə IV kurs tələbələri iştirak ediblər.

Əvvəlcə tələbələr buradakı kitabxana ilə tanış olub, prokurorluq orqanlarında müraciətlərin baxılması qaydaları haqqında məlumatlar alıblar. Sonra onlara prokurorluğun kriminalistik avtomaşınının iş prinsipi izah olunub, cinayət işinin istintaqı zamanı aparılan istintaq hərəkətləri, o cümlədən cinayət işinin başlanması, təqsirləndirilən şəxs qismində cəlbetmə, ittihamı elanetmə qaydaları, dindirmə və üzləşdirmə məsələləri, ittihamın müdafiəsi, istintaq hərəkətlərinin sənədləşdirilməsi haqqında danışılıb, mövzu ilə bağlı slaydlar nümayiş etdirilib.

Prokurorluğun iclas zalında keçirilən tədbirdə çıxışlardan əvvəl Ulu Öndər Heydər Əliyevin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Prokurorluğunun şöbə rəisi, baş ədliyyə müşaviri Pərviz Zülfüqarov, Prokuror köməkçisi, ədliyyə müşaviri İsfəndiyar Qasımov, Prokurorluğun şöbə prokurorları kiçik ədliyyə Qumral Yusifova və ki-






çik ədliyyə müşaviri Taryel İsmayılov prokurorluq orqanlarının dövlət təsisatları sistemindəki yeri, prokurorluğa Ulu Öndər Heydər Əliyev qayğısı və prokurorluqda həyata keçirilən mütərəqqi islahatlar barədə danışıblar.

Sonda Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və insan hüquqları məsələləri şöbəsinin rəisi, baş ədliyyə müşaviri Faiq Səfərov müəllifi olduğu və Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə ithaf etdiyi "Qanunçuluq və hüquq düşüncəsi" adlı kitabını tələbələrə hədiyyə edib.







# Naxçıvan Muxtar Respublikası Prokurorluğunun əməkdaşları Ümummilli lider Heydər Əliyevin Muzeyini ziyarət ediblər





Naxçıvan Muxtar Respublikası Prokurorluğu və Naxçıvan Muxtar Respublikası Hərbi prokurorluğunun əməkdaşları Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev ili" elan edilməsi ilə əlaqədar cari ilin aprel ayının 27-də Naxçıvan şəhərində yerləşən Heydər Əliyev Muzeyini ziyarət edib.

Heydər Əliyev Muzeyi – Naxçıvan şəhərində Azərbaycan Respublikasının Ümummilli Lideri Heydər Əliyevin həyat və fəaliyyətini, zəngin dövlətçilik irsini özündə təcəssüm etdirən muzeydir.

Muzeydə dahi liderin həyat və fəaliyyətini, zəngin dövlətçilik irsini özündə təcəssüm etdirən materiallarla yanaşı, Ümummilli Liderə məxsus şəxsi əşyalar və digər mühüm eksponatlarla tanış olublar.

Qeyd edək ki, bu Muzey Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sərəncamına əsasən yaradılaraq 10.05.1999-cu ildən etibarən fəaliyyətə başlamışdır. Muzeydə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin ailəsinə, onun uşaqlıq və gənclik illərinə həsr olunmuş stendlər nümayiş etdirilir. Həmçinin Naxçıvan MR Ali Məclisinin sədri (1991 – 1993) işlədiyi dövrdə gördüyü işlər, həyata keçirdiyi tədbirlər, qəbul etdiyi mühüm əhəmiyyətli qərarlar, sərəncamlar, sənədlər, fotolar, filmlər, albomlar öz əksini tapmışdır. Habelə muzeydə Türkiyə Cümhuriyyəti və İran İslam Respublikası ilə əməkdaşlıq sahəsində imzaladığı müqavilələrin surətləri, Azərbaycan Respublikasının müxtəlif bölgələrində yaşayan vətəndaşların müraciətləri toplanmışdır. Muzeyin fondunda Ümummilli Lider Heydər Əliyevin həyat və fəaliyyətini özündə əks etdirən 4807 eksponat toplanmışdır. Həmçinin muzeyin kitabxanasında Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən jurnal, albom və kitablar saxlanılır.







# Naxçıvan Muxtar Respublikası Prokurorluğunun təşkilatçılığı ilə Naxçıvan Dövlət Texniki Kollecində "Heydər Əliyev İli"nə həsr edilmiş tədbir keçirilib






Naxçıvan Muxtar Respublikası Prokurorluğunun təşkilatçılığı ilə cari ilin may ayının 23-də Naxçıvan Dövlət Texniki Kollecində Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş "Ümummilli Lider Heydər Əliyev Azərbaycan Respublikasında hüquqi dövlət quruculuğunun banisidir" adlı tədbir keçirilib.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyevin və Vətən uğrunda canlarından keçmiş şəhidlərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Tədbiri giriş sözü ilə açan Naxçıvan Dövlət Texniki Kollecinin direktoru Asəf Ruşanov bildirib ki, müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı, Ulu Öndər Heydər Əliyevin Vətən və xalq qarşısında misilsiz xidmətləri bütün dünya azərbaycanlılarının yüksək ehtiramı ilə ölkəmizin hər yerində, həmçinin onun hüdudlarından kənarda geniş şəkildə qeyd olunur.

Tədbirdə Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və insan hüquqları məsələləri şöbəsinin rəisi Faiq Səfərov "Ulu Öndər Heydər Əliyev Azərbaycanda hüquqi islahatların memarıdır" mövzusunda çıxış edərək bildirib ki, Azərbaycanın hüquq sisteminin müxtəlif aspektlərinin, o cümlədən konstitusiya hüququ institutunun inkişafı, insan hüquqlarının müdafiəsi, demokratik ədalət mühakiməsi prinsiplərinə əsaslanan yeni məhkəmə sisteminin formalaşması, milli qanunvericiliyin təkmilləşməsi, Avropa standartlarına cavab verən yeni qanunların qəbul edilməsi prosesi Ümummilli Liderin genişmiqyaslı hüquqi islahatlarının tərkib hissəsi olmuşdur.

Tədbir çərçivəsində Naxçıvan Muxtar Respublikası Prokurorluğunun şöbə rəisi Faiq Səfərovun müəllifi olduğu və Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə ithaf etdiyi "Qanunçuluq və hüquq düşüncəsi" adlı kitabın təqdimatı keçirilərək, kollecin kitabxana fonduna ianə edilib.

Sonda Ulu Öndər Heydər Əliyevin parlaq həyatına və zəngin fəaliyyətinə həsr edilmiş sənədli film nümayiş olunub.





# Naxçıvan Muxtar Respublikasının prokurorluq orqanları arasında "Heydər Əliyev İli"nə həsr edilmiş futbol turniri keçirilib








Naxçıvan Muxtar Respublikası Prokurorluğunun təşkilatçılığı ilə cari ilin iyun ayının 6-da prokurorluq əməkdaşları arasında Ümummilli lider Heydər Əliyevin anadan olmasının 100-cü il dönümünə həsr olunmuş futbol turnirinin final oyunu keçirilib.

Finalda Naxçıvan Muxtar Respublikası Prokurorluğunun mərkəzi aparatının 2-ci komandası ilə Babək və Şahbuz rayon prokurorluqlarının birgə komandası qarşılaşıb

Oyunda Babək və Şahbuz rayon prokurorluqlarının birgə komandası qalib gəlib.

Sonda 1-ci və 2-ci yerə çıxan komandalar Naxçıvan Muxtar Respublikasının prokuroru Sənan Paşayev və Muxtar Respublikanın Gənclər və idman naziri Ramil Hacı tərəfindən mükafatlandırılıb.



# Şərur rayonunda Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş konfrans keçirilib

Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev ili" elan edilməsi ilə əlaqədar həyata keçirilən silsilə tədbirlərin davamı olaraq cari ilin aprel ayının 17-də Naxçıvan Muxtar Respublikasının Şərur rayonunda Ulu Öndər Heydər Əliyevin 100 illiyinə həsr olunmuş konfrans keçirilib.



Konfransda Şərur, Kəngərli və Sədərək rayon prokurorluqlarının əməkdaşları, hüquq mühafizə və digər dövlət hakimiyyəti orqanlarının nümayəndələri iştirak edib.

Konfrans iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyaraq, unudulmaz xatirəsini ehtiramla yad edib.



Tədbir başlamazdan öncə Ulu Öndər Heydər Əliyev və vətənimizin azadlığı uğrunda canlarını qurban verən şəhidlərimizin əziz xatirəsi konfrans iştirakçıları tərəfindən bir dəqiqəlik sükutla yad olunub, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdə Şərur rayon prokuroru Xalid Ağayev Ümummilli Lider Heydər Əliyevin xalqımız qarşısındakı tarixi xidmətlərinə dair "Heydər Əliyev – müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı" mövzusunda çıxış edib.



Konfransda Kəngərli rayon prokuroru Talıb Məmmədov "Ulu Öndər Heydər Əliyevin irsi milli sərvətimizdir", Sədərək rayon prokuroru Vahid Mustafayev "Azərbaycan gəncliyində Ulu Öndər Heydər Əliyevin rolu" və Yeni Azərbaycan Partiyası Şərur rayon təşkilatının sədri Əmir Babayev "Ulu Öndər Heydər Əliyev müasir gənclər siyasətinin banisidir" mövzularında çıxış ediblər.

Tədbir iştirakçıları Azərbaycan Respublikasının Baş Prokurorluğunun təşəbbüsü ilə hazırlanmış "Heydər Əliyev salnaməsi – Qanun naminə" adlı filmə baxıb.

Sonda xatirə fotoşəkili çəkilib.



# Babək rayonunda Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş konfrans keçirilib










Cari ilin aprel ayının 28-də Babək şəhərində Babək rayon prokurorluğunun təşkilatçılığı ilə Babək, Culfa, Ordubad və Şahbuz rayon prokurorluğu əməkdaşlarının iştirakı ilə Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş konfrans keçirilib. Tədbir iştirakçıları əvvəlcə Ulu Öndərin Babək şəhərində ucalan abidəsini ziyarət ediblər. Tədbir başlamazdan öncə Ulu Öndər Heydər Əliyevin və şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdə Babək rayon prokuroru Tural Məmmədov, Babək Rayon İcra Hakimiyyətinin başçısı Rasim Hüseynov, Culfa rayon prokuroru Qalib İsmayılov və Yeni Azərbaycan Partiyası Babək rayon təşkilatının sədri İsa Məmmədov Ulu Öndər Heydər Əliyevin milli dövlətçiliyimizin qorunması və inkişafı sahəsində misilsiz xidmətləri, prokurorluq orqanlarına diqqət və qayğısı barədə çıxış ediblər.



Tədbirin sonunda Azərbaycan Respublikasının Baş Prokurorluğunun təşəbbüsü ilə hazırlanan "Heydər Əliyev Salnaməsi – Qanun naminə" adlı film nümayiş etdirilib.

# Bakı şəhər prokurorluğunda Ulu öndər Heydər Əliyevin anadan olmasının 100 illiyi ilə əlaqədar konfrans keçirilib





Bakı şəhər və tabe rayon prokurorluqlarının əməkdaşlarının iştirakı ilə cari ilin fevral ayının 21-də "Azərbaycan dövlətçiliyinin xilasında Ulu Öndər Heydər Əliyevin rolu" mövzusunda konfrans keçirilib.

Tədbir başlamazdan əvvəl konfrans iştirakçıları dövlət xadimi Heydər Əliyevin büstü önünə gül dəstələri düzərək onun əziz və unudulmaz xatirəsini yad ediblər.

Bakı şəhər prokuroru Elşən Abbasov konfransı açıq elan edərək, müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın və dövlətimizin xilaskarı, Ümummilli Lider Heydər Əliyevin ölkəmizə rəhbərliyi dövründə respublikamızın tərəqqisinin təmin olunması, xalqın rifah halının daha da yaxşılaşdırılması və digər istiqamətlərdə Azərbaycan xalqı və dövləti qarşısındakı tarixi əhəmiyyətə malik xidmətlərinin misilsiz olmasını konfrans iştirakçılarının diqqətinə çatdırmışdır.

Elşən Abbasov həmçinin çıxışında Ümummilli Lider Heydər Əliyevin xarici siyasət fəaliyyətində Ermənistan-Azərbaycan münaqişəsinin dinc vasitələrlə nizama salınmasının mühüm yer tutması, Ermənistanın ərazi iddiaları və hərbi təcavüzü məsələsini beynəlxalq aləmə çıxarması istiqamətində atmış olduğu addımlarını xüsusi vurğulamışdır.

Eyni zamanda şəhər prokuroru Elşən Abbasov Ulu Öndər Heydər Əliyevin siyasi kursunu bütün sahələrdə uğurla davam etdirən Zəfərimizin memarı, Müzəffər Ali Baş Komandan İlham Əliyevin həyata keçirdiyi məqsədyönlü fəaliyyəti nəticəsində 30 ilədək işğal altında olan torpaqlarımızın 44 gün ərzində ordumuz tərəfindən düşmən tapdağından azad edib xalqın arzularını gercəkləşdirməsi barədə bildirmişdir.





Tarixi qəhrəmanlıq salnamələri ilə zəngin olan Azərbaycan xalqı Vətən müharibəsini də qalibiyyətlə başa vuraraq zəngin irsinə yeni şərəfli səhifə yazması, xalqımızın milli həmrəyliyinin, öz haqqı uğrunda mübarizə aparmaq əzminin nümayişi, habelə bu qalibiyyətin Azərbaycanda Ulu Öndər Heydər Əliyev tərəfindən başladılan, cənab Prezident İlham Əliyev tərəfindən ən müasir çağırışlar səviyyəsində həyata keçirilən ordu quruculuğunun mühüm nəticəsi kimi tarixə yazılması diqqətə çatdırılmışdır.

Daha sonra Bakı şəhər prokurorunun müavini Mobil Şəfiyev çıxışında fenomenal şəxsiyyət, dahi lider Heydər Əliyevin qətiyyətli mübarizəsi nəticəsində Azərbaycanın müstəqilliyinin əldə olunmasından sonra ölkədə aparılan hərtərəfli məhkəmə-hüquq islahatları, o cümlədən prokurorluq orqanlarının mahiyyət və struktur baxımından yenidən qurulmasını, yüksək nəzəri biliyə və peşəkarlığa malik kadrlarla komplektləşdirilməsini, fəaliyyətin beynəlxalq standartlara uyğun formalaşdırılmaqla müasir dövlət təsisatına çevrilməsini bildirmişdir.

Konfransda çıxış edən Nəsimi rayon prokuroru Həsən Hənifəyev ötən əsrin 90-cı illərinin əvvəllərində Azərbaycanın düşdüyü ağır vəziyyət, ölkəyə rəhbərlik edənlərin səriştəsizliyi və düşünülməmiş siyasəti Azərbaycanı beynəlxalq münasibətlər sisteminin subyektindən uzaqlaşdıraraq özünütəcrid vəziyyətinə gətirib çıxarması, ölkəmizdə sabitliyin pozulması, torpaqlarımızın 20 faizinin işğal olunması, Naxçıvan Muxtar Respublikasının isə tam blokada vəziyyətinə salınmasını diqqətə çatdırmaqla Ulu Öndər Heydər Əliyevin blokada və işğal təhlükəsi qarşısında olan Naxçıvanda böyük xilaskarlıq missiyasına başlaması və Ümummilli Liderin uzaqgörən siyasətinin nəticəsi olaraq Naxçıvanda müstəqilliyin və milli dövlətçiliyin bərpası tədbirləri barədə ətraflı məlumat vermişdir.

Həmçinin tədbirdə Nizami rayon prokuroru Pərviz İbayev çıxış edərək Azərbaycan tarixinin ən şanlı səhifələrini yazmış Ulu Öndər Heydər Əliyevin keçdiyi həyat yolu, bizə və gələcək nəsillərə miras qoyduğu mənəvi irsi barədə bildirmiş, eyni zamanda təkcə Azərbaycan xalqının deyil, bütün türk dünyasının fəxri olan böyük insanın gördüyü işlər, söylədiyi fikirlər haqqında, habelə hər bir azərbaycanlıya həmişə canlı nümunə olması və gələcəkdə də mükəmməl örnək olacağını konfrans iştirakçılarının diqqətinə çatdırmışdır.

Daha sonra mövzu ətrafında fikir mübadiləsi aparılmış və iştirakçıların Ümummilli Liderin dövlətçiliyin qorunması, iqtisadiyyatın inkişafı, prokurorluq orqanlarına qayğısı, məhkəmə-hüquq islahatları barədə çıxışları dinlənilmişdir.

# “Heydər Əliyev İli” ilə bağlı Yasamal rayon prokurorluğunda “Açıq qapı” günü keçirilib








Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi ilə əlaqədar həyata keçirilən silsilə tədbirlərin davamı, o cümlədən gənc hüquqşünasların prokurorluq orqanlarının fəaliyyətinə olan marağı nəzərə alınaraq cari ilin fevral ayının 20-də prokurorluq orqanlarında növbəti “Açıq qapı” günü keçirilib.

Yasamal rayon prokurorluğunun inzibati binasında baş tutmuş tədbirdə məqsəd Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin siyasi irsi barədə gənc hüquqşünasları məlumatlandırmaq, eyni zamanda onları prokurorluğun fəaliyyət istiqamətləri ilə bağlı tanış etmək olub.

Tədbirdə Bakı Dövlət və “ADA” universitetlərinin, Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik, Milli Aviasiya, Dövlət Gömrük Komitəsi akademiyalarının hüquq fakültələrində təhsil alan tələbələri iştirak edib.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyev, vətən uğrunda canından keçən şəhidlər və qardaş Türkiyədə baş vermiş

zəlzələ qurbanlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.



Daha sonra Yasamal rayon prokuroru Elman Süleymanov, rayon prokurorunun müavini Rəşadət Orucov, Baş Prokurorluğun Mətbuat xidmətinin böyük prokuroru Kənan Zeynalov, Bakı şəhər prokurorunun köməkçisi Famil Axundov və rayon prokurorluğunun əməkdaşları “Heydər Əliyev məfkurəsi və müasir dövlət quruculuğu”, “Prokurorluq orqanlarında həyata keçirilən islahatlar”, “İstintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına prokuror nəzarəti”, “Prokurorluq orqanlarında istintaq” və digər mövzularda çıxış ediblər.




Çıxışlardan sonra prokurorluq orqanları tərəfindən 2022-ci il ərzində görülmüş işlərlə bağlı videoçarx və “Valideynimin peşəsi” adlı qısa metrajlı film izləndikdən sonra gənc hüquqşünaslarla fikir mübadiləsi aparılıb, prokurorluq orqanlarının fəaliyyəti ilə bağlı onları maraqlandıran suallar cavablandırılıb.




Tələbələr rayon prokurorluğunun inzibati binası, istifadədə olan kriminalistik texnika, habelə yaradılmış iş şəraiti ilə əyani olaraq tanış olub.

Sonda xatirə fotoşəkili çəkilib.

# Neftçala rayon prokurorluğunun əməkdaşları Heydər Əliyev Mərkəzini ziyarət ediblər







Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə əlaqədar, eləcə də Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin zəngin irsinin tədqiqi və təbliği məqsədilə 24 fevral 2023-cü il tarixdə Neftçala rayon prokurorluğunun əməkdaşları rayonda yerləşən Heydər Əliyev Mərkəzini ziyarət etmişlər.

Heydər Əliyev Mərkəzində rayon prokurorluğunun əməkdaşlarına Ümummilli Liderin həyat yolu barədə maraqlı faktlar, foto, videomateriallar və kitablar təqdim olunmuş, Neftçala rayon prokuroru tərəfindən Ulu Öndərin dövlətçilik fəlsəfəsi, azərbaycançılıq məfkurəsi ilə bağlı çıxış edilmiş, Heydər Əliyev irsinin tədqiqi və təbliğinin hər kəs üçün vətəndaşlıq borcu olması bildirilmişdir. Çıxış zamanı rayon prokurorluğunun əməkdaşlarına və tədbir iştirakçılarına Heydər Əliyevin şərəfli həyat yolu, gərgin iş rejimi, yüksək ali dövlət vəzifələrində işlədiyi bütün dövrdə ölkənin hüquq mühafizə orqanlarının savadlı kadrlarla zənginləşdirməsi, gərəkli, müdrik islahatlar aparması haqqında məlumatlar verilmişdir. Ulu Öndərin Azərbaycan Respublikası Prokurorluğuna, prokurorluq əməkdaşlarına olan inamı və onun "Azərbaycan Prokurorluğunun inkişaf etməsində dövlət qayğısı bu gün də, gələcəkdə də olacaqdır. Buna əmin ola bilərsiniz. Azərbaycan Prezidenti kimi, mən Azərbaycan Prokurorluğuna inanıram, güvənirəm və arxalanıram" kəlamı böyük ruh yüksəkliyi ilə xatırlanmışdır.

Bildirildi ki, Ulu Öndər daxili və xarici qüvvələrin təxribat cəhdlərinə baxmayaraq gecəli-gündüzlü fədakar əməyi hesabına müstəqil Azərbaycan dövlətini qurdu və möhkəmlətdi. Heydər Əliyev demokratik hüquqi dövlət qurmaq, köklü islahatlar aparmaq üçün ilk növbədə ölkədə sabitliyi, qanunçuluğu bərqərar etdi, o dövrdə hökm sürən özbaşınalığa son qoydu. Ulu Öndərin 1994-cü ildə imzaladığı cinayətkarlıqla mübarizəyə yönəlmiş tarixi fərmanı qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsində əsaslı dönüş yaratdı.

Tədbirdə Azərbaycanın 44 günlük şanlı zəfər tarixinin, rəşadətli, müzəffər ordusunun əsasını qoyması, Azərbaycanın əzəli və əbədi dilbər guşəsi olan Qarabağın azad edilməsi məsələsinə də toxunulmuşdur.

Bu gün fəxarət hissi ilə deyə bilərik ki, Azərbaycan dövləti özünün yeni müasir inkişaf dövrünü yaşayır. Hər birimiz Heydər Əliyevin dövlətçilik ideyalarına sadiq qalaraq Ulu Öndərin yüksək ideyalarını yaşatmalı və inkişaf etdirməli, möhtərəm Prezidentimiz, müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin ətrafında sıx birləşərək, əlimizdən gələni əsirgəməməli, ölkəmizin tərəqqisi üçün öz vəzifələrimizi layiqincə yerinə yetirməli və daha da əzmlə çalışmalıyıq.

# Gəncə şəhər prokurorluğunda Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş konfrans keçirilib







Cari ilin fevral ayının 28-də Gəncə şəhər prokurorluğunda Azərbaycan dövlətinin qurucusu Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş "Gəncədə dövlətçiliyin bərpası və Heydər Əliyev" mövzusunda geniş konfrans keçirilmişdir.

Konfransda Gəncə şəhər, Gəncə və Kəlbəcər hərbi, Daşkəsən, Goranboy, Göygöl, Kəlbəcər və Samux rayon prokurorluqlarının əməkdaşları, hüquq-mühafizə orqanları, icra və təhsil müəssisələri və şəhər ictimaiyyətinin nümayəndələri iştirak etmişdir.

Konfrans iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin şəhər prokurorluğunun inzibati binasındakı büstü önünə əklil və gül dəstələri qoymuş, unudulmaz xatirəsini ehtiramla yad etmişlər.

Gəncə şəhər prokuroru Azad Qarayev müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, siyasi xadim Heydər Əliyevin xalqımız qarşısındakı tarixi xidmətləri, hüquqi dövlət quruculuğu istiqamətində həyata keçirdiyi uğurlu siyasət və Gəncə şəhərində dövlətçiliyin bərpasında Ulu Öndər Heydər Əliyevin rolu barədə çıxış etmişdir.

Daha sonra konfrans iştirakçıları hər biri ayrı-ayrılıqda Ümummilli Liderin dövlətçiliyin qorunması, iqtisadiyyatın inkişafı, prokurorluq orqanlarına qayğısı, məhkəmə-hüquq islahatları, Ulu Öndərin respublikamıza, xüsusilə Gəncə şəhərinə diqqət və qayğısı barədə çıxışları dinlənilmişdir.

Konfransda Ulu Öndərin siyasi kursunu davam etdirməklə möhtərəm Prezidentimiz İlham Əliyev və Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva tərəfindən həyata keçirilən daxili və xarici siyasət nəticəsində ərazi bütövlüyünün bərpa olunması, dövlət müstəqilliyimizin, ictimai-siyasi sabitliyin və əmin-amanlığın qorunması, əhalinin sosial rifahının yüksəldilməsi xüsusi vurğulanmaqla, bundan sonra da cənab İlham Əliyevin rəhbərliyi ilə şanlı səhifələrin yazılacağı, daha yüksək zirvələr fəth ediləcəyi qeyd edilmişdir.

Konfransın yekununda Ulu Öndər Heydər Əliyevin Gəncə şəhərinə səfərlərini və bunun nəticəsində şəhərin inkişafını əks etdirən hazırlanmış videoçarx nümayiş etdirilmişdir.







# Bərdə şəhərində "Heydər Əliyev İli" münasibətilə konfrans təşkil edilib





Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə əlaqədar həyata keçirilən silsilə tədbirlərin davamı olaraq, cari ilin mart ayının 3-də Bərdə şəhərində "Heydər Əliyev və hüquqi dövlət quruculuğu" adlı işgüzar konfrans keçirilib.

Konfrans iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin Bərdə şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edib, daha sonra Bərdə rayon Heydər Əliyev Mərkəzində olub.

Konfransın açılışında Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra tədbirdə çıxış edən Baş Prokurorluğun idarə rəisi Natiq Abdullayev fenomenal şəxsiyyət, dahi lider Heydər Əliyevin qətiyyətli mübarizəsi nəticəsində Azərbaycanın müstəqilliyini əldə olunmasından sonra ölkədə aparılan hərtərəfli məhkəmə-hüquq islahatlarını, o cümlədən prokurorluq orqanlarının mahiyyət və struktur baxımından yenidən qurulmasını, yüksək nəzəri biliyə və peşəkarlığa malik kadrlarla komplektləşdirilməsini, fəaliyyətin beynəlxalq standartlara uyğun formalaşdırılmaqla müasir dövlət təsisatına çevrilməsini diqqətə çatdırıb.

Konfrans zamanı çıxış edən Bərdə rayon İcra Hakimiyyətinin başçısı Vidadi İsayev mötəbər tədbirin Bərdə şəhərində təşkilindən məmnunluğunu ifadə edərək, ölkəmizdə ictimai-siyasi sabitliyə məhz Ümummilli Lider Heydər Əliyevin hakimiyyətə yenidən qayıdışından sonra nail olunduğunu, Ulu Öndərin dövlətimizin möhkəmlənməsində və Azərbaycan dövlətçiliyinə yönəlmiş qəsdlərin qarşısının alınmasında böyük rol oynadığını diqqətə çatdırıb.

Konfransda, həmçinin, Bərdə rayon prokuroru Rəşad İsgəndərov, Baş Prokurorluğun Mətbuat xidmətinin böyük prokuroru Kənan Zeynalov, Daxili İşlər Nazirliyinin şöbə rəisi Elşad Hacıyev, Müdafiə Nazirliyinin Mətbuat Xidmətinin rəisi Anar Eyvazov, Ombudsman Aparatında sektor müdiri Müqalib Mahmudov, QHT sədri Ceyhun







Musayev, Bərdə rayon Ağsaqqallar Şurasının sədri Yaşar Zamanov Ümummilli Lider Heydər Əliyevin gənclər siyasəti, ordu quruculuğu və insan hüquqlarına verilən dəyər, Ulu Öndərin xilaskarlıq missiyası və zəngin dövlətçilik irsi mövzularında çıxış ediblər.

Tədbir iştirakçıları Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevin ideya müəllifliyi əsasında ərsəyə gəlmiş Ümummilli Liderin xatirəsinə həsr olunmuş "Qanun naminə – Heydər Əliyev salnaməsi" adlı sənədli filmə baxıb.

Daha sonra dövlət qurumları ilə qeyri-hökumət təşkilatları və bölgə mediası arasında operativ və səmərəli əməkdaşlığın qurulması məqsədilə fikir mübadiləsi aparılıb.

Sonda xatirə fotoşəkili çəkilib.



# Şəkidə Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş konfrans keçirilib















Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev ili" elan edilməsi ilə əlaqədar həyata keçirilən tədbirlərin davamı olaraq, cari ilin mart ayının 9-da Şəki şəhərində Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş konfrans keçirilib.

Konfransda Şəki, Qəbələ, Oğuz, Qax, Balakən, Zaqatala rayon və Zaqatala hərbi prokurorluqlarının əməkdaşları, hüquq-mühafizə orqanları, icra hakimiyyəti və şəhər ictimaiyyətinin nümayəndələri iştirak edib.

Konfrans iştirakçıları əvvəlcə Şəki Heydər Əliyev Mərkəzinin qarşısında ucaldılmış Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyub, unudulmaz xatirəsini ehtiramla yad edib.

Daha sonra konfrans iştirakçıları Şəki rayon Heydər Əliyev Mərkəzində olub, Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən muzeylə tanış olub, onlara Ulu Öndərin həyat yolu barədə məlumatlar təqdim olunub.

Konfransın açılışında Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən və ölkəmizin ərazi bütövlüyü uğrunda qəhrəmancasına şəhid olmuş şəxslərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra Şəki rayon prokuroru Mehman Xankişiyev müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, Ümummilli Lider Heydər Əliyevin xalqımız qarşısındakı tarixi xidmətləri, hüquqi dövlət quruculuğu istiqamətində həyata keçirdiyi uğurlu siyasət barədə çıxış edib.

Daha sonra Şəki rayon İcra Hakimiyyəti Başçısı Elxan Usubov, Zaqatala rayon prokuroru Rasim Musayev, Zaqatala hərbi prokuroru Elşən Əli-Məmmədov, Qax rayon prokuroru Rəşad Bəşirov, Balakən rayon prokuroru Qoşqar Əhmədov, Oğuz rayon prokuroru Emil Kərimovun Ümummilli Liderin dövlətçiliyin qorunması, iqtisadiyyatın inkişafı, prokurorluq orqanlarına qayğısı, gənclər siyasəti, respublikamıza, xüsusilə Şəki rayonuna diqqət və qayğısı barədə çıxışları dinlənilib.

Konfransın yekununda Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən videoçarx nümayiş etdirilib.

# "Heydər Əliyev İli" ilə bağlı Səbail rayon prokurorluğunda "Açıq qapı" günü keçirilib







Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə əlaqədar həyata keçirilən silsilə tədbirlərin davamı olaraq, cari ilin mart ayının 16-da prokurorluq orqanlarında növbəti "Açıq qapı" günü keçirilib.

Səbail rayon prokurorluğunun inzibati binasında keçirilmiş tədbirdə məqsəd Azərbaycan dövlətinin memarı və qurucusu Heydər Əliyevin siyasi irsi barədə tədbir iştirakçılarını məlumatlandırmaq, eyni zamanda onları prokurorluğun fəaliyyət istiqamətləri ilə tanış etmək olub.

Tədbirdə müxtəlif vətəndaş cəmiyyəti institutları və qeyri-hökumət təşkilatlarının nümayəndələri iştirak edib.

Əvvəlcə Ümummilli Lider Heydər Əliyev, vətən uğrunda canından keçən şəhidlər və qardaş Türkiyədə baş vermiş zəlzələ qurbanlarının əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib.

Qonaqları salamlayan Səbail rayon prokuroru Natiq Əsədov xalqımızın Ümummilli Lideri Heydər Əliyevin hüquqi dövlət quruculuğu ilə bağlı apardığı islahatlar barədə danışıb.

Daha sonra Bakı şəhər prokurorunun köməkçisi Famil Axundov, Baş Prokurorluğun Mətbuat xidmətinin böyük prokuroru Kənan Zeynalov, Səbail rayon prokurorunun müavini Ədalət Aslanov və prokurorluğun əməkdaşları "Heydər Əliyev və milli mübarizə tariximiz", "Prokurorluq orqanlarının fəaliyyətində şəffaflıq", "Qanunların icrasına pro-

kuror nəzarəti", "İstintaq təcrübəsi" və digər mövzularda çıxış ediblər.

Çıxışlardan sonra prokurorluq orqanları tərəfindən 2022-ci il ərzində görülmüş işlərlə bağlı videoçarx və "Valideynimin peşəsi" adlı qısa metrajlı film izləndikdən sonra tədbir iştirakçıları ilə fikir mübadiləsi aparılıb, prokurorluq orqanlarının fəaliyyəti ilə bağlı onları maraqlandıran suallar cavablandırılıb.

Vətəndaş cəmiyyəti institutları və qeyri-hökumət təşkilatlarının nümayəndələri rayon prokurorluğunun inzibati binası, istifadədə olan kriminalistik texnika, habelə yaradılmış iş şəraiti ilə əyani olaraq tanış olub.

Sonda xatirə fotoşəkili çəkilib.







# Kürdəmir şəhərində “Heydər Əliyev İli” münasibətilə konfrans təşkil edilib








Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev ili” elan edilməsi ilə əlaqədar həyata keçirilən tədbirlərin davamı olaraq, cari ilin mart ayının 29-da Kürdəmir şəhərində Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinə həsr olunmuş konfrans keçirilib.

Konfransda Kürdəmir, Ucar və Zərdab rayon prokurorluqlarının əməkdaşları, hüquq-mühafizə orqanları, icra hakimiyyəti və şəhər ictimaiyyətinin nümayəndələri iştirak edib.

Konfrans iştirakçıları əvvəlcə Kürdəmir Heydər Əliyev Mərkəzinin qarşısında ucaldılmış Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyub, unudulmaz xatirəsini ehtiramla yad edib.

Daha sonra konfrans iştirakçıları Kürdəmir rayon Heydər Əliyev Mərkəzində olub, Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən muzeylə tanış olub, onlara Ulu Öndərin həyat yolu barədə maraqlı faktlar təqdim olunub.

Konfransın açılışında Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən və ölkəmizin ərazi bütövlüyü uğrunda qəhrəmancasına şəhid olmuş şəxslərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra, Kürdəmir rayon prokuroru Tural İbrahimov müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, Ümummilli Lider Heydər Əliyevin xalqımız qarşısındakı tarixi xidmətləri, hüquqi dövlət quruculuğu istiqamətində həyata keçirdiyi uğurlu siyasət barədə çıxış edib.

Kürdəmir rayon İcra Hakimiyyəti başçısı Elxan İbrahimov, Kürdəmir Rayon Məhkəməsinin sədri Müseyib Bayramov, Zərdab rayon prokuroru Zaur Əliyev, Ucar rayon prokurorunun böyük köməkçisi Seymur Əsgərov və Kürdəmir rayon prokurorluğunun müstəntiqi Mehran Mustafayevin Ümummilli Liderin dövlətçiliyin qorunması, iqtisadiyyatın inkişafı, prokurorluq orqanlarına qayğısı, gənclər siyasəti, respublikamıza, xüsusilə Kürdəmir rayonuna diqqət və qayğısı barədə çıxışları dinlənilib.

Konfransın yekununda Ulu Öndər Heydər Əliyevin həyat və fəaliyyətindən bəhs edən videoçarx nümayiş etdirilib.

# “Heydər Əliyev İli” münasibətilə növbəti konfrans Zaqatalada təşkil edilib





Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi ilə əlaqədar həyata keçirilən silsilə tədbirlərin davamı olaraq, cari ilin aprel ayının 4-də Zaqatala şəhərində “Heydər Əliyev və şanlı Zəfər tariximiz” adlı işgüzar konfrans keçirilib.

Konfrans iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin Zaqatala şəhərinin mərkəzində ucaldılmış abidəsini ziyarət edib. Tədbir çərçivəsində, həmçinin, “Zəfər kompleksi” abidəsi önünə gül dəstələri düzülüb.

İştirakçılar Zaqatala rayon Heydər Əliyev Mərkəzinin muzey hissəsində Ulu Öndərin zəngin dövlətçilik irsini, həyat və fəaliyyətini özündə əks etdirən eksponat və fotostendlər ilə tanış olub.

Tədbir başlamazdan öncə Ulu Öndər Heydər Əliyev və vətənimizin azadlığı uğrunda canlarını qurban verən şəhidlərimizin əziz xatirəsi konfrans iştirakçıları tərəfindən bir dəqiqəlik sükutla yad olunub, Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdə çıxış edən Baş Prokurorluğun idarə rəisi Erkin Əlixanov Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə Vətən müharibəsində əldə olunmuş Zəfərin Ulu Öndər Heydər Əliyevin müstəqil dövlətçilik ideallarının böyük təntənəsi olduğunu qeyd edib.

Dahi lider Heydər Əliyevin rəhbərliyi ilə aparılmış hüquqi islahatlar barədə danışan Erkin Əlixanov uğurlu siyasətin bu gün də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən davam etdirildiyini qeyd edib, fəaliyyətini beynəlxalq standartlara uyğun formalaşdırmaqla müasir dövlət təsisatına çevrilmiş prokurorluq orqanlarına göstərilən diqqət və qayğıdan bəhs edib.









Konfrans zamanı çıxış edən Zaqatala rayon İcra Hakimiyyətinin başçısı Mübariz Əhmədzadə işgüzar tədbirin Zaqatala şəhərində təşkilindən məmnunluğunu ifadə edib.

Konfransda, həmçinin, Zaqatala rayon prokuroru Rasim Musayev, Baş Prokurorluğun Mətbuat xidmətinin böyük prokuroru Kənan Zeynalov, Müdafiə Nazirliyinin Mətbuat xidmətinin rəisi Anar Eyvazov, Yeni Azərbaycan Partiyasının Zaqatala rayon təşkilatının sədri Habil Qurbanov və digərləri fenomenal şəxsiyyət Heydər Əliyevin gənclər siyasəti, ordu quruculuğu və insan hüquqlarına verilən dəyər, Ulu Öndərin xilaskarlıq missiyası və zəngin dövlətçilik irsi mövzularında çıxış edib.



Tədbir iştirakçıları “Heydər Əliyev və 44 günlük Zəfər yolu” sənədli filminə baxıb.

Daha sonra dövlət qurumları ilə qeyri-hökumət təşkilatları və bölgə mediası arasında operativ və səmərəli əməkdaşlığın qurulması məqsədilə fikir mübadiləsi aparılıb.

Sonda xatirə fotoşəkili çəkilib.



# Sumqayıt şəhərində Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş konfrans keçirilib







Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev ili" elan edilməsi ilə əlaqədar həyata keçirilən silsilə tədbirlərin davamı olaraq Sumqayıt şəhərində 11 aprel 2023-cü il tarixdə Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 illiyinə həsr olunmuş konfrans keçirilmişdir.

Konfransda Sumqayıt şəhər, Sumqayıt hərbi və Abşeron, Qubadlı, Xızı, Zəngilan rayon prokurorluqlarının əməkdaşları, hüquq mühafizə və digər dövlət hakimiyyəti orqanlarının nümayəndələri iştirak etmişdir.

Prokurorluq əməkdaşları əvvəlcə Heydər Əliyev Mərkəzinin qarşısında ucaldılmış Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoymuş, unudulmaz xatirəsini ehtiramla yad etmişlər. Daha sonra Heydər Əliyev Mərkəzində dahi liderin həyat və fəaliyyətini əks etdirən muzeylə tanış olmuş, onlara Ulu Öndərin həyat yolu barədə maraqlı faktlar təqdim olunmuşdur.

Konfransın açılışında Ulu Öndərin və ölkəmizin ərazi bütövlüyü uğrunda qəhrəmancasına şəhid olmuş şəxslərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən və Azərbaycan Respublikasının Dövlət Himni səsləndirildikdən sonra Sumqayıt şəhər prokuroru Mürvət Həsənov Azərbaycan dövlətinin memarı və qurucusu, Ümummilli Lider Heydər Əliyevin xalqımız qarşısındakı tarixi xidmətlərinə dair "Heydər Əliyev və Azərbaycanda hüquqi dövlət quruculuğu" mövzusunda çıxış etmiş, xalqımızın azadlıq və istiqlaliyyət tarixində xilaskar rolunu oynayan Heydər Əliyevin mənalı və şərəfli həyat yolu, Azərbaycanın suverenliyi və müstəqilliyi, ərazi bütövlüyü və təhlükəsizliyi üçün, onun bayrağı, dili, milli və dini dəyərləri üçün mübarizəsi, dövlətçiliyə qarşı yönələn qəsdlərin qarşısının alınmasında əvəzsiz rolu, dövlətçiliyin qo-

runması, iqtisadiyyatın inkişafı, məhkəmə-hüquq islahatları və bütün sferaları əhatə edən köklü islahatların həyata keçirilməsi nəticəsində demokratik, hüquqi və dünyəvi dövlət qurulması, milli prokurorluq orqanlarının təşəkkülündəki xidmətləri barədə bəhs etmişdir.



Konfransda həmçinin Abşeron rayon prokuroru Qabil Qasımov “Heydər Əliyev və liderlik” mövzusunda çıxış etmiş, tədbirin əhəmiyyətini vurğulayaraq, Ulu Öndərin liderlik tarixi, Azərbaycan tarixindəki əvəzsiz rolu, gənclərə göstərdiyi diqqət və qayğı, Sovet dövründəki məlum çətinliklərə baxmayaraq Ümummilli Liderin Azərbaycan gənclərinin hərbi təhsilə cəlb edilməsi uğrunda mübarizəsi, məhz Heydər Əliyevin prinsipial mövqeyi nəticəsində ali məktəblərimizdəki nüfuzlu fakültələrə, xüsusən hüquq fakültəsinə istedadlı uşaqların, sadə fəhlə-kəndli övladlarının rahat şəkildə qəbul olunmasının mümkün olması barədə bəhs etmişdir.



Sumqayıt Dövlət Universitetinin Tarix və Coğrafiya fakültəsinin dekanı, tarix elmləri doktoru, professor, əməkdar müəllim Adil Baxşəliyev isə “Heydər Əliyev və Azərbaycan dövlətçiliyi” mövzusunda çıxış edərək, Ulu Öndərin ölkəyə rəhbərlik etdiyi əvvəlki dövrlərdə olduğu kimi, müstəqil Azərbaycanda da elmin, təhsilin hamisinə çevrilməsi, konkret statistik göstəricilərə istinad etməklə məhz Heydər Əliyevin təhsil və elm sahəsinə diqqəti sayəsində ölkədə ali və orta məktəblərin sayının əhəmiyyətli dərəcədə artması, onun təhsil və elm sahəsində imzaladığı mühüm tarixi fərman və sərəncamlar barədə məlumat vermişdir.



Konfransda Sumqayıt şəhər prokurorunun köməkçisi Sevinc Qasımova “Heydər Əliyev və Azərbaycanda gender bərabərliyi” mövzusunda çıxış edərək, Heydər Əliyevin gender siyasəti nəticəsində qadınların cəmiyyətdəki rolunun artırmasının təmin edilməsi, yüzlərlə qadınlarımızın Ulu Öndərin yaratdığı əlverişli şərait nəticəsində fərdi bacarıqlarını nümayiş etdirməsi, müxtəlif idarəetmə orqanlarında rəhbər vəzifələrdə çalışması, öz işində, ictimai fəaliyyətində fərqlənən qadınlara fəxri adların verilməsi, qadınların orden-medallarla təltif olunması, cənab Prezidentimiz İlham Əliyevin ölkənin ictimai-siyasi









həyatında qadınların fəal iştirakına çox böyük diqqət yetirməsi, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Mehriban xanım Əliyevanın öz geniş fəaliyyəti ilə beynəlxalq aləmdə Azərbaycan qadının nüfuzunu daha da yüksəklərə qaldırmasından bəhs etmişdir.

Sumqayıt şəhər prokurorluğunun müstəntiqi Xalıq Dadaşzadə “Heydər Əliyevdən bizə miras qalmış də-yərlər” mövzusunda çıxış edərək, Heydər Əliyevin şəxsi liderlik xüsusiyyətləri, siyasi karyerası, olduqca gərgin siyasi şəraitdə Azərbaycan üçün fədakarlığı, siyasət meydanında öz gücünü ortaya qoyması nəticəsində Azərbaycanın dünya enerji bazarında möhkəmlənməsi, onun zəngin dövlət təcrübəsi, fəaliyyətində həmişə vətənpərvərliyə, milli mənəvi dəyərlərimizə və sosial ədalətə xüsusi diqqət yetirməsi, dövlətçilik prinsiplərini, Azərbaycanın milli maraqlarını hər şeydən üstün tutması, dövlətlərarası rəsmi görüşlərdən sonra digər dövlət başçılarının, eləcə də beynəlxalq təşkilatların rəhbərlərinin Ümummilli Liderimizin şəxsiyyəti və siyasəti ilə əlaqədar söylədikləri tərif dolu fikirlər barədə məlumat vermişdir.

Konfransda Sumqayıt şəhər İcra Hakimiyyətinin başçısı Zakir Fərəcov çıxış edərək Ümummilli Lider Heydər Əliyev fenomeninin xalqımızın milli sərvəti olması, çoxəsrlik tariximizin ən böyük nailiyyətlərinin Heydər Əliyev siyasəti ilə bağlı olması, Ulu Öndərin Azərbaycan xalqı və dövləti qarşısındakı əvəzedilməz xidmətləri, Ümummilli Liderin həm keçmiş ittifaq dövründə, həm də müstəqillik illərində ölkəmizə rəhbərlik etdiyi dönəmdə gördüyü işlərin respublikamızın qüdrətinin artmasına, Azərbaycanın əhəmiyyətli nailiyyətlər qazanmasına xidmət etməsi, Heydər Əliyevin siyasi kursunun layiqli davamçısı cənab Prezidentimiz İlham Əliyevin dövlətçiliyin qorunması, iqtisadiyyatın inkişafı sahəsində fəaliyyəti, Sumqayıt şəhərinə diqqət və qayğısı barədə ətraflı məlumat vermişdir.

Tədbir iştirakçıları Baş Prokuror Kamran Əliyevin ideya müəllifliyi ilə Azərbaycan Respublikasının Baş Prokurorluğu tərəfindən hazırlanmış “Heydər Əliyev salnaməsi” adlı filmə baxmışlar.

# Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi ilə əlaqədar Füzuli rayon prokurorluğunda tədbir keçirilib

Azərbaycan Respublikası Prezidentinin 29 sentyabr 2022-ci il tarixli Sərəncamı ilə Azərbaycan Respublikasında 2023-cü il “Heydər Əliyev İli” elan edilmişdir. Bununla bağlı 14 aprel 2023-cü il tarixdə Füzuli rayon prokurorluğunun inzibati binasında rayon prokurorluğunun əməliyyat işçilərinin və dövlət qulluqçusunun iştirakı ilə tədbir keçirilmişdir.

Tədbirə başlamazdan əvvəl Azərbaycanın xalqının xilaskarı və Ümummilli Lideri Əliyev Heydər Əlirza oğlunun, eləcə də Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda canlarından keçmiş bütün şəhidlərimizin əziz xatirələri bir dəqiqəlik sükutla yad edilmişdir.

Tədbiri giriş sözü ilə açan Füzuli rayon prokuroru, ədliyyə müşaviri Rüstəmov Elnur Rəşid oğlu Ümummilli Lider Heydər Əliyevin həyatı və xalqımız qarşısında etdiyi fəaliyyəti barədə geniş məlumat verərək Ulu Öndərin Azərbaycan Prokurorluğuna olan diqqət və qayğısını iclas iştirakçılarının nəzərinə çatdırdı. Elnur Rüstəmov çıxışını dahi şəxsiyyət Heydər Əliyevin 28 noyabr 1998-ci il tarixdə Prokurorluq orqanlarının 80 illik yubileyinə həsr olunmuş təntənəli yığıncaqda prokurorluq orqanlarına yüksək qiymət verərək dediyi “Azərbaycan Prezidenti kimi mən Azərbaycan prokurorluğuna inanıram, güvənirəm və arxalanıram” sözləri ilə yekunlaşdırdı.

Çıxış üçün söz alan Füzuli rayon prokurorunun köməkçisi, III dərəcəli hüquqşünas Cəfərov Rəhman Zakir oğlu Ümummilli Lider Heydər Əliyevin həyat və fəaliyyətinə həsr edilmiş şəkil və illüstrasiyalarla zəngin olan rayon prokurorluğu tərəfindən hazırlanmış məqalə barəsində geniş məlumat verdi. Rəhman Cəfərov sonda Ümummilli Lider Heydər Əliyevin 26 aprel 2000-ci il tarixdə Azərbaycan Respublikasının prokurorluq orqanlarının əməkdaşları ilə görüşü zamanı söylədiyi “Mən prokurorluqda işləyən insanların əksəriyyətini sədaqətli və peşəkar işçi hesab edirəm. Təbiidir ki, belə adamlara etimad göstərmək, etibar etmək lazımdır” rəhbər tutulacaq nitqini iclas iştirakçılarının nəzərinə çatdırdı.









# Mingəçevir şəhərində Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş konfrans keçirilib













Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə əlaqədar həyata keçirilən silsilə tədbirlərin davamı olaraq, cari ilin aprel ayının 20-də Mingəçevir şəhərində Ulu Öndər Heydər Əliyevin 100 illiyinə həsr olunmuş konfrans keçirilib.

Tədbirdə Mingəçevir şəhər, Yevlax, Ağdaş və Göyçay rayon prokurorluqlarının əməkdaşları, hüquq mühafizə və digər dövlət hakimiyyəti orqanlarının nümayəndələri iştirak ediblər.

Konfrans iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyaraq, unudulmaz xatirəsini ehtiramla yad ediblər.

Daha sonra, tədbir iştirakçıları Mingəçevir şəhər Heydər Əliyev Mərkəzində Ulu Öndərin zəngin dövlətçilik irsini, həyat və fəaliyyətini özündə əks etdirən eksponat və fotostendlərlə tanış olublar.

Konfransın açılışında Ulu Öndərin və ölkəmizin ərazi bütövlüyü uğrunda qəhrəmancasına şəhid olmuş şəxslərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edildikdən sonra Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdə Mingəçevir şəhər prokuroru Qabil Səfərov müstəqil Azərbaycan dövlətinin qurucusu və memarı Ümummilli Lider Heydər Əliyevin xalqımız qarşısındakı tarixi xidmətləri, hüquqi dövlət quruculuğu mövzusunda çıxış edib.

Konfransda Mingəçevir şəhər İcra Hakimiyyətinin başçısı İlham İsmayılov və Milli Məclisin deputatı Məzahir Əfəndiyev Ulu Öndər Heydər Əliyevin zəngin siyasi və dövlət quruculuğu sahəsində əvəzolunmaz fəaliyyəti mövzularında çıxış ediblər.

Tədbirdə çıxış edən Ağdaş rayon prokuroru Anar Əliyev və Göyçay rayon prokuroru Ramin Hüseynov Ulu Öndər Heydər Əliyev həyat və fəaliyyətindən, həmçinin gənclərə olan qayğısından bəhs edən çıxışlar ediblər.

Konfrans iştirakçıları Azərbaycan Respublikasının Baş Prokurorluğunun təşəbbüsü ilə hazırlanmış "Heydər Əliyev salnaməsi – Qanun naminə" adlı filmə baxıblar.



# Beyləqan şəhərində Ümummilli Lider Heydər Əliyevin 100 illiyinə həsr olunmuş konfrans keçirilib







Azərbaycan Respublikasında 2023-cü ilin “Heydər Əliyev İli” elan edilməsi ilə əlaqədar həyata keçirilən silsilə tədbirlərin davamı olaraq, cari ilin may ayının 5-də Beyləqan şəhərində Ulu Öndər Heydər Əliyevin 100 illiyinə həsr olunmuş konfrans keçirilib.

Konfransda Beyləqan, Füzuli, İmişli, Cəbrayıl rayon və Füzuli, Qubadlı hərbi prokurorluqlarının əməkdaşları, hüquq mühafizə, rayon icra hakimiyyəti və digər dövlət hakimiyyəti orqanlarının nümayəndələri, həmçinin rayon fəalları iştirak edib.

Konfrans iştirakçıları əvvəlcə Ümummilli Lider Heydər Əliyevin abidəsi önünə gül dəstələri qoyaraq unudulmaz xatirəsini ehtiramla yad edib.

Daha sonra, tədbir iştirakçıları Heydər Əliyev Mərkəzində dahi liderin zəngin dövlətçilik irsini, həyat və fəaliyyətini özündə əks etdirən muzeydə eksponat və fotostendlərlə tanış olub, onlara Ulu Öndərin həyat yolu barədə maraqlı faktlar təqdim edilib.

Konfransın açılışında Ulu Öndərin və ölkəmizin ərazi bütövlüyü uğrunda qəhrəmancasına şəhid olmuş şəxslərin əziz xatirəsi bir dəqiqəlik sükutla yad edilib və Azərbaycan Respublikasının Dövlət Himni səsləndirilib.

Tədbirdə çıxış edən Beyləqan rayon prokuroru Ramazan Hadıyev Azərbaycan dövlətinin memarı və qurucusu, Ümummilli Lider Heydər Əliyevin xalqımız qarşısındakı tarixi xidmətləri, dövlətçiliyin qorunması, hüquqi dövlət quruculuğu mövzusunda çıxış edib.

Tədbirdə Beyləqan rayon İcra Hakimiyyətinin başçısı Asif Ağayev, Beyləqan rayon Ağsaqqallar Şurasının sədri Etibar İmanov, Beyləqan rayon Təhsil sektorunun müdiri Elvin Abbasov, İmişli rayon prokuroru Valeh Səmədov, Füzuli rayon prokuroru Elnur Rüstəmov və Füzuli hərbi prokuroru Elçin Hacıyev Ulu Öndər Heydər Əliyevin zəngin siyasi və dövlət quruculuğu sahəsində əvəzolunmaz fəaliyyəti mövzularında çıxışlar ediblər.





# Sumqayıtda “Demokratik cəmiyyətdə prokurorluğun rolu” mövzusunda tədbir keçirilib















Müasir Azərbaycanın qurucusu və memarı Ulu Öndər Heydər Əliyevin 100 illiyinin qeyd olunması ilə əlaqədar cari ilin may ayının 17-də Sumqayıt Dövlət Universitetində “Demokratik cəmiyyətdə prokurorluğun rolu” mövzusunda keçirilmiş tədbirdə Sumqayıt şəhər prokurorluğunun əməkdaşları iştirak edib.

Tədbir Sumqayıt Dövlət Universitetinin rəhbərliyinin, professor-müəllim və tələbə heyətinin iştirakı ilə keçirilib. Tədbirdən əvvəl Universitetin rektoru, professor Elxan Hüseynov və şəhər prokuroru Mürvət Həsənov Ümummilli Lider Heydər Əliyevin universitetin foyesində ucaldılmış büstü önünə gül dəstələri düzərək xatirəsini ehtiramla yad edib.

Açılış nitqində dünya şöhrətli siyasi xadim Heydər Əliyevin xalqımız qarşısında misilsiz tarixi xidmətləri, şərəfli ömür yolu və məharətli dövlətçilik təcrübəsindən bəhs edən Elxan Hüseynov Azərbaycan dövlətçiliyinin




möhkəmləndirilməsində, qanunçuluğun təmin edilməsində, cinayətkarlıqla mübarizədə prokurorluq orqanlarının rolunun yüksək olduğunu vurğulayıb.

Tədbirdə çıxış edən Sumqayıt şəhər prokuroru Mürvət Həsənov prokurorluq orqanlarının yaranma tarixi, onun inkişafının əsas mərhələləri, qazandığı uğurlar, qanunçuluğun qorunmasında səmərəli fəaliyyəti və bütövlükdə respublikamızda hüquqi dövlətin qurulmasında və hüquq sisteminin möhkəmləndirilməsində artan rolu barədə ətraflı məlumat verib.

Vurğulanıb ki, Ulu Öndərin gərgin səyləri nəticəsində hüquqi, demokratik və dünyəvi dövlət quruculuğu yolu ilə irəliləyən müstəqil respublikamızda vətəndaş cəmiyyətinin formalaşdırılması, insanların azad və sərbəst yaşaması, qanunun aliliyinin təmin edilməsi üçün ən yüksək tələblərə cavab verən normativ-hüquqi baza yaradılıb, hüquqa və ədalətə söykənən vətəndaş cəmiyyətinin əsası qoyulub.

Tədbir zamanı tələbələrlə səmimi fikir mübadiləsi aparılmaqla yanaşı, onların prokurorluq orqanlarının fəaliyyəti ilə bağlı sualları cavablandırılıb.

# Ağdamda “Azərbaycan Prokurorluğu və Heydər Əliyev” mövzusunda konfrans keçirilib













Ağdam Rayon Heydər Əliyev Mərkəzində cari ilin may ayının 23-də “Azərbaycan Prokurorluğu və Heydər Əliyev” mövzusunda konfrans keçirilib.

Konfransda Ağdam, Laçın, Xocalı, Xocavənd rayon prokurorları, Ağdam hərbi prokuroru ilə yanaşı, Ağdam Rayon İcra Hakimiyyətinin başçısı, YAP Ağdam Rayon Təşkilatının sədri, prokurorluq əməkdaşları, hüquq mühafizə orqanlarının rəhbərləri və ictimaiyyət nümayəndələri iştirak edib.

Tədbir iştirakçıları əvvəlcə Ulu Öndər Heydər Əliyevin abidəsini ziyarət edərək önünə gül dəstələri düzüb, Ağdam Rayon Heydər Əliyev Mərkəzində Ümummilli Lider Heydər Əliyevin fəaliyyətinin müxtəlif dövrlərini əks etdirən foto və digər eksponatlarla tanış olub.

Tədbir başlamazdan öncə Dövlət Himni səsləndirilib, daha sonra Ulu Öndər Heydər Əliyev və torpaqlarımızın azadlığı uğrunda şəhid olmuş Vətən övladlarının əziz xatirəsi yad edilib.

Tədbirdə Ağdam rayon prokuroru Vasif Süleymanov, rayon icra hakimiyyətinin başçısı Vaqif Həsənov və digər natiqlər çıxış edərək Azərbaycan Prokurorluğunun Ulu Öndərin rəhbərliyi ilə yeni inkişaf dövrünə qədəm qoymasından, hakimiyyətin bölünməsi prinsipinə əsaslanmaqla məhkəmə hakimiyyətində təmsil olunan müasir, sivil dövlət təsisatı kimi formalaşmasından bəhs edib.

Tədbir zamanı səmərəli fikir mübadiləsi aparılıb, iştirakçılar Ulu Öndər Heydər Əliyevlə bağlı xatirələrini bölüşüb.



# Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevin müsahibəsi






**Sual: Sadəcə yaşadığı dövrün deyil, özündən sonrakı tarixin də müəllifinə çevrilmiş Heydər Əliyev barədə nə deyə bilərsiniz?**

Heydər Əliyevin zaman və məkan anlayışına sığmayan bənzərsiz və mənalı ömür yolunun hər anı, hər səhifəsi bugünkü və gələcək nəsillərə nümunə olacaq canlı və unudulmaz tarixdir.

Zəmanəmizin ən böyük azərbaycanlısının vətəni, milləti qarşısında qurtuluş və inkişaf missiyası, unikal dövlətçilik fəaliyyətinin nəticəsidir ki, bu gün Ulu Öndər Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi ölkəmizin hər yerində və onun hüdudlarından kənarda hər bir azərbaycanlının yüksək ehtiramı və dərin minnətdarlıq hissi ilə geniş qeyd olunur.



Sadə, zəhmətkeş bir ailədə dünyaya göz açan bu böyük insan hələ gənc yaşlarından fitri istedadı, bacarığı və ən əsası xarakterində və fəaliyyətində doğma xalqına, onun milli-mənəvi dəyərlərinə bağlılığı və təəssübkeşliyi, qeyri-adi müsbət cəhətləri ilə diqqət cəlb edir, onu tanıyan hər bir kəsin rəğbətini qazanırdı.

Geniş dünyagörüşü, ali əxlaqi keyfiyyətləri, peşə biliklərini mükəmməl qavraması, təşəbbüskarlığı, mübarizliyi, nümunəvi xidməti və prinsipiallığı 1969-cu il iyulun 14-də ilk dəfə ölkəmizdə hakimiyyət sükanına doğma xalqının taleyinə tam sahib çıxmaq iqtidarında olan qətiyyətli və işgüzar Vətən oğlunun yüksəlməsi ilə Azərbaycanın həyatında həlledici və şərəfli bir mərhələnin başlanğıcını qoymuşdur.

Keçmiş SSRİ-nin geridə qalmış respublikalarından biri sayılan, əhalisinin yaşayış səviyyəsi digər müttəfiq respublikaları ilə müqayisədə aşağı olan Azərbaycanda Heydər Əliyevin ölkə rəhbərliyinə gəlişi cəmiyyətin həyat ritmini büsbütün dəyişmiş, ölkədə görünməmiş canlanma və yüksəliş uzun illər boyu yığılıb qalmış sosial-iqtisadi problemlərin aradan qaldırılması ilə nəticələnmişdir.

Zəngin dövlətçilik ənənələri olan xalqımıza və gələcək nəsillərimizə tarixin və tanrının bəxşişi olan Heydər Əliyevin ölkəyə rəhbərliyi ilə bugünkü dövlət müstəqilliyimizin möhkəm təməli qoyulmaqla milli ruh, azərbaycançılıq məfkurəsi yüksəlməyə başladı, kosmopolit ruhlu kadr korpusunun milliləşdirilməsi istiqamətində qətiyyətli addımlar atılaraq minlərlə gənc mühüm, o cümlədən hərbi ixtisaslara yiyələnmək üçün SSRİ-nin ən qabaqcıl ali məktəblərinə göndərildi, azərbaycanlılar önəmli dövlət vəzifələrinə irəli çəkildilər.

Ulu Öndər öz çıxışlarında həmin dövrə münasibət bildirərkən demişdir: “Bütün bunların hamısı o vaxtlar Azərbaycanın gələcəyi üçün yeni-yeni mütəxəssislər hazırlamaq məqsədi daşımışdır. Bu işə biz hələ 1970-ci ildən başlamışdıq. Mən bu gün çox böyük məmnuniyyət hissi ilə qeyd edirəm ki, bu, mənim təşəbbüsümlə olmuşdur. Mən hələ o vaxtdan ölkəmizin gələcəyi barəsində düşünmüşəm, həmin illərdən başlayaraq gələcəyimiz haqqında düşünürdüm”.

**Sual: Ədalətli cəmiyyətin qurulması və onun inkişafı ilə bağlı Heydər Əliyevin xidmətlərini necə qiymətləndirirsiniz?**

Özünün təkmil dövlətçilik konsepsiyasında qanunun aliliyini və hüquq qaydalarının təminatını önə çəkən, “ədaləti ədalətsizliklə bərpa etmək olmaz” deyən Ümum-

milli Liderin hələ Sovet dövründə başlatdığı cinayətkarlığa, rüşvətxorluğa qarşı barışmaz münasibəti və mübarizəsi, yüksək çinli məmurların cinayət məsuliyyətinə cəlb edilərək cəzalandırılması İttifaq səviyyəsində böyük əks-səda doğurmuşdur.

Qədim Çin filosofu və islahatçısı Van Anşi yazırdı ki, şəxsiyyətin dahiliyi çoxluğun görmədiyi həqiqəti iti fəhmi, bəsirət gözü ilə dərk etməsindədir. Heydər Əliyev məhz belə dahi şəxsiyyətlərdən biri idi.

Zamanın fövqündə yaşayan liderin Sovet dövründə "Literaturnaya qazeta"ya verdiyi 18 noyabr 1981-ci il tarixli "Qoy ədalət zəfər çalsın" adlı müsahibəsi əbədiyaşar rəhbərin bütün işlərinin mahiyyətini nümayiş etdirməklə həmin dövrdə SSRİ-də bütün hüquqşünaslar üçün proqram xarakterli sənəd kimi qəbul olunmuş, zamanın ictimai postulatına çevrilməklə cəmiyyətin mənəvi-psixoloji mühitini müəyyən etmişdir.

Böyük strateqin rəhbərliyə gəlişi eyni zamanda hüquqi münasibətlər sisteminin xarakterində pozitiv dəyişikliklərə səbəb olmuş, hüquqi təfəkkürün, düşüncə tərzinin, ümumilikdə, hüquq elminin inkişafının keyfiyyətcə yeni mərhələsi başlanmışdır.

Sovetlər dövründə hüquq sahəsində ümumittifaq xarakterli bütün aparıcı dövlət tədbirləri və elmi praktiki konfransların məhz Bakı şəhərində keçirilməsi müdrik rəhbərin hansı dərəcədə hüquq-mühafizə orqanları və prokurorluğun fəaliyyətinə önəm verməsinin bariz nümunəsi idi.

İctimai-siyasi sabitliyin və davamlı inkişafın təminatında dövlətin hüquq-mühafizə orqanlarının peşəkarcasına fəaliyyət göstərməsini daim diqqət mərkəzində saxlayan Ulu Öndər hüquqşünas kadrların hazırlanmasında da yaranmış durğunluq və geriləməni, cəmiyyətdə hökm sürən hüquqi nihilizmi uzaqgörənliyi və qətiyyəti hesabına aradan qaldırmışdır.

Xüsusən "imtiyazlı" təbəqənin inhisarında olan Hüquq fakültəsinə qəbul zamanı yol verilən nöqsanların qarşısı alınmaqla bilik yeganə meyar kimi qorunmuş, sadə ailələrdən çıxan istedadlı gənclərin yolunu bağlayan sədlər aradan qaldırılmışdır.

Böyük öndərin 1970 – 1980-ci illərdə minlərlə gəncin respublikamızın hüdudlarından kənarda yüksək hüquq təhsili almasına göstərdiyi qayğı sayəsində peşəkar hüquqşünas kimi hazırda respublikamızda hüquqi dövlət, vətəndaş cəmiyyəti quruculuğu, insan hüquq və azadlıqlarının təminatı işinə töhfəsini verən insanlar öz talelərinə, peşə və karyeralarına görə məhz Heydər Əliyevə minnətdarlıqlarını ifadə edirlər.

Ümummilli Lider həmin hüquqşünasların, xüsusən prokurorluq orqanları işçilərinin müstəqil dövlətçiliyimizə ləyaqətlə xidmət etməsi faktına sonralar münasibətini belə bildirmişdir: "Mən xüsusi qeyd etmək istəyirəm ki, 1960, 1970, 1980-ci illərdə Azərbaycanda milli prokuror kadrları hazırlandı, yetişdi və bu gün Azərbaycan prokurorluğunun əsasını təşkil edən kadrlar yüksək peşəkarlığa, hüquqi təhsilə malik olan və öz vəzifələrini yerinə yetirə bilən kadrlardan ibarətdir".

**Sual: Heydər Əliyevin liderlik qabiliyyəti barədə nə deyə bilərsiniz?**

Heydər Əliyevin həyata keçirdiyi möhtəşəm quruculuq işləri, müstəsna idarəçilik qabiliyyəti və rəhbər işçi kimi böyük potensiala malik olması həmin vaxt İttifaqa rəhbərlik edənlərin diqqətini cəlb etməyə bilməzdi.

Fitri istedad sahibinin SSRİ kimi nəhəng dövlətin rəhbərliyində Siyasi Büronun üzvü, Nazirlər Soveti sədrinin birinci müavini kimi yüksək mövqe və vəzifə tutması xalqımızın üçün də qürurverici və önəm daşıyan hadisə olmuşdur.

Dahi şəxsiyyət bu vəzifədə işlədiyi müddətdə İttifaqda mövcud olan ən problemli sahələrlə dərindən məşğul olaraq artıq SSRİ-nin bütün bölgələrində bacarıqlı və işgüzar rəhbər kimi tanınır, beynəlxalq aləmdə böyük nüfuz sahibi olaraq Sovet nümayəndə heyətinin başçısı qismində çoxsaylı ölkələrə xarici səfərlərə gedir, qlobal miqyasda böyük hörmətlə qarşılanırdı.

Dünyanın fövqəlgüc dövlətində siyasi elitanın zirvəsinə yüksələn, ümumittifaq miqyaslı nəhəng yükü öz çiyinləri üzərinə götürmüş Ulu Öndər doğma xalqına bağlılıq və təəssübkeşliyi burada da göstərmiş, artan nüfuzunun imkanlarından istifadə edərək, İttifaq büdcəsindən Azərbaycana daha çox vəsait ayrılmasına, bir sıra ittifaqmiqyaslı layihələrin Bakıya yönəldilməklə Azərbaycanın keçmiş ittifaqın qabaqcıl respublikalarından birinə çevrilməsinə nail olmuşdur.

Yeni vəzifənin öhdəsindən xüsusi peşəkarlıqla gələn görkəmli dövlət xadiminin uğurları, getdikcə möhkəmlənən mövqeyi ölkə rəhbərliyinin yüksək eşelonunda əyləşənlərin ona qarşı qısqanclıq hisslərini gücləndirir, nəticədə gizli və məkrli planların, dahi şəxsiyyəti gözdən salmaq üçün haqsız və əsassız proseslərin, böhtançı təbliğat işinin həyata keçirilməsinə başlanılır.

Məhz həmin dövrdə Ulu Öndərin hakimiyyət strukturlarından uzaqlaşdırması xalqımızın ağır və məhrumiyyətli günlərlə, dövlətçiliyimizin itirilməsi təhlükəsi ilə üzbəüz qalmasına, əzəli torpaqlarımıza yönələn absurd və uydurma ərazi iddialarının meydana atılmasına səbəb olmuşdur.

Siyasi fəaliyyətinə qadağa qoyulduğu, cəmiyyətdən təcrid edildiyi, qarayaxma və təqiblərə məruz qaldığı dövrdə belə Heydər Əliyevin öz xalqına, xalqının isə Heydər Əliyevə inamı, etimadı və etibarı daha da artmışdır.

Bu baxımdan xalqımızın böyük oğlunun sovet qoşunlarının Bakıda dinc əhaliyə qarşı törətdiyi qanlı yanvar faciəsinin ertəsi günü oğlu İlham Əliyevlə birlikdə həyatlarını təhlükədə qoyub Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gedərək xalqımızın kədərini bölüşməsi və sovet hakimiyyətinin ölkəmizdə həyata keçirdiyi qanlı aksiyanı ifşa etməsi xalqımıza bir dayaq, bir təsəlli olmuşdur.

**Sual: Müstəqil dövlətçiliyimizi məhv olmaqdan xilas etmək kimi çox çətin və şərəfli bir missiyanı öz üzərinə götürmüş Heydər Əliyevin gördüyü işlər barədə nə deyə bilərsiniz?**

Azərbaycana qayıdışına ciddi maneələr törədilməsinə baxmayaraq Vətənin ağır günlərinə biganə qala bilməyən Heydər Əliyev Respublika rəhbərliyinin xəyanətkarlığı və üzüdönüklüyündən Bakıda yaşamaq imkanı tapma-



xalqımızın yaddaşında bütöv və milli şəxsiyyət kimi təcəssüm olunan Heydər Əliyev tarixi sınaq anında üzərinə düşən missiyanın öhdəsindən uğurla gələrək sözün həqiqi mənasında Milli Qurtuluşa nail olmuşdur.

Təsadüfi deyildi ki, Böyük Britaniyanın sabiq baş naziri Toni Bleyer deyirdi ki, "Heydər Əliyev Azərbaycanın böyük lideri idi. O, böhranlar dövründə öz ölkəsinə sabitlik gətirdi. Azərbaycan xalqı onun qoyduğu irs ilə fəxr edə bilər". Bəli, dahilik və əbədilik simvolu olan Heydər Əliyev dünyanın nadir tarixi şəxsiyyətlərdəndir ki, olduqca mürəkkəb siyasi şəraitdə öz dövlətinə sabitlik, xalqına isə əmin-amanlıq gətirdi.

yaraq Naxçıvana – doğmalarının və həmyerlilərinin yanına qayıtmağa məcbur oldu.

Ulu Öndərin burada gerçəkləşdirdiyi misli görünməmiş tədbirlərlə blokada şəraitində yaşayan Naxçıvan işğaldan xilas edildi, mühüm imperiya strukturlarının fəaliyyəti dayandırıldı və ilk dəfə olaraq sovet qoşun hissələri Muxtar Respublikadan çıxarıldı.

Xüsusi qeyd edilməlidir ki, böyük siyasi qrossmeysterin Naxçıvana rəhbərliyi dövründə Azərbaycanın üçrəngli dövlət bayrağının, digər milli rəmzlərin dövlət atributları kimi qəbul edilməsi, ordu quruculuğuna başlanılması milli dövlətçiliyimizin formalaşdırılmasında və inkişafında müstəsna əhəmiyyətə malik olmuşdur.

Müstəqilliyin bərpasının ilk illərində siyasi hakimiyyətdə təmsil olunan şəxslərin səriştəsiz və qətiyyətsiz rəhbərliyi nəticəsində ölkənin hərtərəfli tənəzzülə məruz qalaraq parçalanma təhlükəsi ilə üz-üzə qaldığı, ictimai-siyasi həyatın bütün sahələrində hərc-mərcliyin geniş vüsət aldığı dəhşətli siyasi kataklizmlər yaşanırdı.

Dövlətçiliyin itirilməsi təhlükəsinin kulminasiya nöqtəsinə çatdığı bir dövrdə Heydər Əliyev xalqın təkidli tələbi ilə rəhbərliyi üzərinə götürərək, öz qətiyyəti və müdrikliyi sayəsində ölkəni həmin vaxt real olan hissələrə bölünmək təhlükəsindən qorumaqla Azərbaycanda dövlət quruculuğu prosesini uğurla həyata keçirməyə başlamışdır.

Heydər Əliyevin "ömrümün qalan hissəsini də xalqıma bağışlayıram" deyib öz həyatını belə təhlükəyə ataraq meydana atılan böyük ürəkli Vətən oğlunun xalqı və dövləti qarşısında misilsiz fədakarlığı idi.

Ölkəmizin olduğu belə bir dövrdə Heydər Əliyevin qarşısında daxili siyasət sahəsində xeyli mürəkkəb və ağır vəzifələri həll etmək dayanırdı: dövləti dağılmaqdan, ölkəni xaricdən dəstəklənən separatçılıqdan xilas etmək, milli birliyi bərpa etmək, iflic olmuş dövlət orqanlarını işlək hala gətirmək, cinayətkarlığa şərait yaradan ayrı-ayrı dəstələrin tərksilah olunmaqla insanların sakit və təhlükəsiz yaşayışını təmin etmək.

Ümummilli Liderin hakimiyyətə qayıdışından sonra Azərbaycanda əldə edilmiş milli birlik Respublikamızın ən qiymətli mənəvi-ideoloji sərvətlərindən biri olmaqla

Yaxın keçmişimizdə baş verən hadisələrə qiymət verməyi bacaran hər bir insan dərk edir ki, çoxillik idarəçilik səriştəsini əsirgəmədən xalqının firavanlığı və dövlətinin müstəqilliyi yolunda fədakarcasına çalışaraq qardaş qırğınının, vətəndaş müharibəsinin qarşısını alan müasir Azərbaycanın banisi Heydər Əliyev daxili və xarici qüvvələrin dövlət çevrilişi, sui-qəsd və təxribat cəhdlərinə baxmayaraq müstəqil dövlətimizi qurdu və möhkəmlətdi.

**Sual: Heydər Əliyevin dövlətçiliyinin möhkəm təməl prinsipləri və dövlətimizin müasir inkişaf strategiyasının müəllifi olması ilə bağlı fikirləriniz maraqlıdır. Bu barədə nə deyə bilərsiniz?**

Məşhur fransız mütəfəkkiri Volterin "dövlətin xilası üçün bir dahi insan kifayətdir" kəlamının ən uğurlu nümunəsi hesab edə biləcəyimiz Ümummilli Liderin tarixə "sabitliyə və inkişafa nail olunma" dövrü kimi düşən 1993 – 2003-cü illər ərzindəki müdrik fəaliyyəti Heydər Əliyevin Azərbaycan xalqının yaddaşında qurucu və xilaskar dövlət xadimi, milli lider və xalq məhəbbətini qazanan öndər kimi əbədilik qazanması ilə nəticələnmişdir.

Ulu Öndərin müstəqilliyimizin möhkəmləndirilməsi istiqamətində qətiyyətli, prinsipial mövqeyi və dəmir iradəsi sayəsində ölkədə əvvəllər baş alıb gedən özbaşınalıqlara, hərc-mərcliyə və xaosa birdəfəlik son qoyulmaqla ictimai-siyasi sabitlik tam bərqərar edildi.

Müharibədən yenicə çıxmış, humanitar böhranla üz-üzə qalmış ölkəmizin iqtisadi inkişafında müstəsna rolu olan, Ulu Öndərin bugünkü və sabahkı nəsillər qarşısında tarixi xidmətlərindən biri kimi qiymətləndirilən "Əsrin müqaviləsi" adlandırılan neft müqaviləsinin imzalanması Heydər Əliyev dühasının düşünülmüş və uzaqgörən diplomatiyasının parlaq uğuru idi.

Vaxtında atılan bu addımlarla bazar münasibətlərinə əsaslanan iqtisadi islahatların həyata keçirilməsi, sahibkarlığın inkişafının stimullaşdırılması ölkə iqtisadiyyatına xarici sərmayələrin axınını reallaşdırmış, qeyri-neft sektoru sürətlə inkişaf etməyə başlamış, özəlləşdirmə proqramı həyata keçirilmişdir.

Ümumdünya iqtisadi məkanına qətiyyətlə inteqrasiya edən ölkə xammal ixracatçısından istehsal sənayesini

qüdrətləndirən və əmtəə ixrac edən əlverişli tərəfdaşa çevrilmiş, ölkədə aqrar islahatlar aparılmış, torpaq kəndlilərin mülkiyyətinə verilmişdir.

Şübhəsiz ki, bunu yalnız Heydər Əliyev kimi güclü iradəyə, böyük dövlətçilik bacarığına və xalqın sonsuz dəstəyinə malik fenomen şəxsiyyət, qüdrətli lider bacara bilərdi.

Məhz onun fəal və praqmatik daxili və xarici siyasəti nəticəsində Azərbaycan transmilli layihələrə qoşuldu, qlobal və regional layihələrin, Bakı-Tbilisi-Ceyhan neft boru kəmərinin reallaşdırılmasına nail olundu.

Dünya şöhrətli böyük qırğız yazıçısı və diplomat Çingiz Aytmatov çox haqlı olaraq qeyd edirdi ki: "Heydər Əlirza oğlu XX əsrin ən böyük liderlərindəndir. O, müasir demokratik Avrasiyanın yeni tarixinin bugünkü yaradıcılarından biridir".

Fitri istedadı və yüksək intellekti hesabına müstəqilliyimizin möhkəmləndirilməsinin qarantı, qurucusu və memarı olan Heydər Əliyev öz parlaq siyasi zəkası və müstəsna idarəçilik qabiliyyəti sayəsində dövlətin və cəmiyyətin resurslarını ümummilli məqsədlər naminə böyük ustalıqla səfərbər edərək ölkəmizin 10 il ərzində əsrə bərabər inkişaf yolu keçməsinə nail olmuşdur.

Məhz bu dövrdə sosial-iqtisadi inkişaf üçün əsaslı islahatlara başlandı, görülmüş kompleks tədbirlərlə makroiqtisadi göstəricilərdə əldə edilən nəzərəçarpan artım, iqtisadiyyata milyardlarla dollar investisiya cəlb edilməklə ümumi daxili məhsulun 22 dəfə artması respublikamızı hərtərəfli tərəqqi yoluna çıxardı.

Milli potensialı doğru yönləndirməyi bacaran böyük təşkilatçı kimi bir çoxları üçün əlçatmaz, hətta mümkünsüz görünən layihələri, strateji inkişaf proqramlarını reallığa çevirən Ulu Öndər yeni Azərbaycanı, onun bugünkü gerçəkliklərini yaratmış və ideal gələcəyə aparan kursu müəyyən etmişdir.




**Sual: 44 günlük müharibə zamanı Zəfərin əldə olunması üçün Ulu Öndər Heydər Əliyev tərəfindən atılmış strateji addımlar barədə nə deyə bilərsiniz?**

Ulu Öndərin dərin və mənalı ömür yoluna nəzər saldıqda, xalqımızın və tariximizin müdriklik zəkasından qaynaqlanan Heydər Əliyev ideyalarının dövlətçilik və azərbaycançılıq prinsiplərini ifadə edərək milli mentalitetimizin bütün atributlarını və prioritet məsələlərini əhatə etdiyini görərik.

Əbəs yerə deyil ki, xalqımızın elə bir müqəddəs arzusu və niyyəti, azadlıq mübarizəsi yoxdur ki, bir amil kimi Heydər Əliyevin zəngin dövlətçilik fəaliyyətində əbədiləşməsin.

Tarixi hadisələrin sonrakı gedişi də sübut etdi ki, Heydər Əliyevin istər sovetlər dönəmində, istərsə də müstəqillik illərində gördüyü işlər sonralar Azərbaycanın milli dövlətçilik ideyalarının aparıcı qüvvəyə çevrilməsi və cəmiyyətin bu ideya ətrafında səfərbər olması üçün şərait yaratdı.

Xüsusən ordu quruculuğunda keyfiyyətli hərbi təhsilin formalaşdırılmasının və ixtisaslı gənc hərbi kadrların hazırlanmasının son dərəcə strateji əhəmiyyətli məsələ olduğunu hər zaman vurğulayan Ulu Öndər, bu sahəni də daim diqqət mərkəzində saxlayırdı.

Sovet hökumətinin ən sərt dövründə müdrik rəhbərin böyük hünər tələb edən təşəbbüsü nəticəsində gənclərimizin hərbi vətənpərvərlik hisslərinin yüksəldilməsi, onların bu istiqamətdə hazırlanması üçün son dərəcə vacib olan Hərbi Liseyin yaradılması dahi şəxsiyyətin uzaqgörənliyinin parlaq sübutu idi.

Məhz bu məktəbin müdavimi olmuş bir çox zabit müstəqillik dövründə Milli Ordumuzun formalaşmasında mühüm rol oynamış, torpaqlarımızın müdafiəsi uğrunda mübarizədə qəhrəmanlıqlar göstərmişlər və bu gün də Silahlı Qüvvələrimizin özəyini təşkil edirlər.

Qüdrətli dövlət xadiminin suverenliyin bərpasından dərhal sonra inkişafa, intibaha, tərəqqiyə və qələbəyə hədəflənən siyasi kursu Azərbaycanın iqtisadi müstəqilliyini tam təmin etməklə ölkənin maliyyə imkanlarının genişlənməsinə və paralel olaraq ordu quruculuğu strategiyasının müvəffəqiyyətlə icra olunmasına gətirib çıxardı.

Böyük siyasətin sirlərinə dərindən bələd olan Ulu Öndər bilirdi ki, tarixi ədaləti və ölkəmizin ərazi bütövlüyünü bərpa etmək, Azərbaycanın dövlət müstəqilliyini möhkəmləndirmək və hər cür təhdidlərə cavab vermək üçün ordu quruculuğunda köklü islahatların aparılması, müasir standartlara cavab verə bilən güclü Silahlı Qüvvələrin yaradılması lazımdır.

Bu məqsədlə, yeni yanaşmalar əsasında Silahlı Qüvvələrin döyüş qabiliyyətinin, hərbi hazırlıq səviyyəsinin artırılması, maddi-texniki təchizatının gücləndirilməsi və hərbi-sənaye kompleksinin qurulmasına start verildi.

Böyük dövlətçilik təcrübəsinə, yüksək təşkilatçılıq qabiliyyətinə və dəmir iradəyə malik Heydər Əliyevin vahid komandanlığı altında nizami ordu quruculuğuna başlanmaqla ordumuz tez bir zamanda müharibənin gedişində dönüş yarada bildi, Ali Baş Komandanının rəhbərliyi altında əks-hücum əməliyyatları keçirərək düşmənə ağır zərbələr endirdi.

Sürətlə möhkəmlənməkdə olan Silahlı Qüvvələrimizin gücünün açıq-aşkar artmasından və işğal olunmuş torpaqları geri qaytarmaq üçün keçirdiyi ilk uğurlu əməliyyatlar Ermənistan ordusunu atəşi dayandırmağa məcbur etməklə atəşkəs müqaviləsinin imzalanmasına imkan verdi.

Atəşkəs sonralar Azərbaycanın görünməmiş sürətlə inkişafı, qüdrətli dövlətə çevrilməsi və İkinci Qarabağ savaşında möhtəşəm qələbəsi üçün müstəsna önəmə malik olmaqla, zaman bir daha Heydər Əliyevin nə qədər böyük siyasətçi, strateq, uzaqgörən və tədbirli dövlət başçısı olduğunu tarixi zəfərimizlə sübuta yetirdi.

Bu məqamda Türkiyənin tanınmış dövlət xadimi Bülənt Ecevitin siyasət nəhəngi Heydər Əliyevin yalnız Azərbaycan xalqı deyil, bütün türk dünyası qarşısında xidmətlərini qiymətləndirərkən böyük fəxrlə dediyi "Qüdrətli öndərsiz bir millət heç nəyə nail ola bilməz. Heydər Əlirza oğlu Atatürk qədər qüdrətli bir türkdür. Heydər Əlirza oğlu min ildən bir yetişən dahilərdəndir" kəlmələri taleyüklü məsələləri həll etmək bacarığına, yenilməz iradəyə və genişmiqyaslı təfəkkürə malik Ulu Öndərin "siyasi portreti"nin əsas cizgisini təcəssüm etdirir.




**Sual: Heydər Əliyevin beynəlxalq münasibətlərin möhkəmlənməsi sahəsində rolu barədə nə deyə bilərsiniz?**

Ümummilli Lider Heydər Əliyev yenidən hakimiyyətə qayıtdıqdan sonra Azərbaycanın xarici siyasət kursunda mövcud reallıqları nəzərə alan və ölkəmizin milli mənafelərinin qorunmasına yönəlmiş əməli dəyişikliklər edildi.

Çağdaş tariximizin yaradıcısı özünün zəngin dövlətçilik təcrübəsinə əsaslanaraq bir sıra ən mühüm və təxirəsalınmaz vəzifələrin yerinə yetirilməsini Azərbaycan diplomatiyasının qarşısında məqsəd kimi qoymuşdu.

Həmin vəzifələrdən biri və ən əsası Azərbaycanı beynəlxalq aləmdəki təcrid vəziyyətindən çıxartmaq, ölkəmiz haqqında yaradılmış mənfi ictimai rəyi dağıtmaq və xalqımızın haqq işini dünya ictimaiyyətinə olduğu kimi çatdıraraq beynəlxalq aləmin dəstəyini qazanmaqdan və informasiya blokadasını yarmaqdan ibarət idi.

Ona görə də yeni siyasi kursu həyata keçirmək üçün hər şeydən əvvəl müharibəni dayandırmaq və dinc şərait təmin edilməli idi. Atəşkəsə nail olunması, qanunsuz hərbi birləşmələrin buraxılması və ölkə daxilində sabitlik yaratmaq yolunda atılan addımlar sayəsində yeni siyasi kursun ardıcıllıqla həyata keçirilməsi üçün lazım olan əlverişli mühit yarandı.

Ümummilli Liderin bənzərsiz diplomatik bacarığı, qətiyyəti, əzmkarlığı və gərgin fəaliyyəti sayəsində bütün beynəlxalq platformalarda Azərbaycanın ərazi bütövlüyü təsdiq edilmiş, o cümlədən ATƏT-in üzvü olan ölkələrin dövlət başçılarının Budapeşt, Lissabon və İstanbul görüşlərində Azərbaycanın ərazi bütövlüyünün tanınması və bərpası istiqamətində mühüm qərarlar qəbul edilmişdir.

Qarışıq və təlatümlü dünyada və eləcə də həddindən artıq mürəkkəb Qafqaz regionunda tutduğu yerin, oynadığı rolun, həmçinin ölkəmizin dünya üçün strateji önəminin düzgün müəyyənləşdirilməsinin mühüm əhəmiyyət kəsb etdiyi bir şəraitdə olduqca çevik və müxtəlif gedişli xarici siyasət kursu yeridən Heydər Əliyevin strategiyası Azərbaycana beynəlxalq aləmdə nüfuz və hörmət qazandırmışdır.

Xüsusən eyni kökdən gələn türkdilli dövlətlərlə əlaqələrin gücləndirilməsi, türk dünyasının etnik-mədəni birliyinin siyasi birlik səviyyəsinə yüksəldilməsi diqqət mərkəzində saxlanılmış, İslam ölkələri, Avropa İttifaqı və digər mötəbər təşkilatlarla əməkdaşlıq inkişaf etdirilmişdir.

Ümumilikdə Ulu Öndər Heydər Əliyev böyük siyasət üçün yaranan, təkcə bir ölkə miqyasında yox, dünya əhəmiyyətli qlobal məsələlərin həllində qətiyyətli sözünü deyə bilən nadir siyasətçi idi. Onun bu sahədəki fitri istedadı və fövqəladə qabiliyyəti, hadisələrin və tarixin gedişatını öncədən görmək məharəti siyasət aləminə qədəm qoyduğu ilk günlərdən özünü büruzə vermişdir.

Təsadüfi deyildir ki, Ümummilli Liderin atdığı addımlar, irəli sürdüyü problemlər, qəbul etdiyi qərarlar, söylədiyi fikirlər öz aktuallığı, düzgünlüyü və obyektivliyi də hər cəhətdən ölçülüb-biçildiyindən ətrafdakıları heyrətləndirmiş, görkəmli dövlət xadimləri Ulu Öndərin siyasi fəaliyyətini, dövlət idarəçiliyindəki zəngin təcrübəsini, diplomatik uğurlarını çox yüksək qiymətləndirmişlər.

Amerika Birləşmiş Ştatlarının sabiq prezidenti Corc Buşun Heydər Əliyev haqqında danışarkən onu "uzun illər cənubi Qafqaz kimi mürəkkəb regionun ən əsas siyasətçisi" adlandırması, Böyük Britaniyanın sabiq Baş naziri, dəmir ledi Marqaret Tetçerin "müasir zamanəmizin görkəmli siyasi xadimi", Fransanın sabiq Prezidenti Jak Şirakın "Qeyri-adi şəxsiyyət" kimi xarakterizə etdikləri Ulu Öndərin hadisələrin fövqündə dayanmış siyasi lider imicini bir daha nümayiş etdirir.

**Sual: Heydər Əliyev fəaliyyətinin 1993 – 2003-cü illərini necə qiymətləndirmək olar?**

İctimai-siyasi sabitliyi bərqərar edilmiş, iqtisadiyyatı yenicə tərəqqiyə başlamış Azərbaycan 1995-ci ildən sonra daha dinamik inkişaf yoluna qədəm qoymağa başladı ki, bunun da ilk rəsmi ifadəsi müstəqilliyinin əsas atributlarından olan Azərbaycan Respublikasının Konstitusiyası hesab edilə bilər.



Həqiqi liderlərə xas ən ali keyfiyyətlərə malik böyük dövlət xadiminin təşəbbüsü və rəhbərliyi ilə qabaqcıl dövlətlərin mütərəqqi təcrübəsi əsasında hazırlanan müstəqil dövlətin ilk milli Konstitusiyası dövlətçiliyimizin inkişafında yeni mərhələnin əsasını qoymuşdur.

Hüquqi dövlətin bütün baza prinsiplərini – qanunun aliliyi, insan hüquqlarının müdafiəsi, hakimiyyət bölgüsü, konstitusiya nəzarətinin təsbit olunduğu, insan haqlarının təmininin dövlətin ali məqsədi kimi bəyan edildiyi bu ali sənəd məhv olmaqdan xilas edilmiş, qurtulmuş Azərbaycanın "yeni vəsiqə"si idi.

Yüksək erudisiyaya malik müdrik siyasi xadimin şah əsəri olan, Azərbaycan xalqı və dövlətinin gələcəyi ilə bağlı fundamental məsələləri təsbit edən, tarixə Heydər Əliyev Konstitusiyası kimi daxil olmuş əsas qanunun qəbulu müstəqil ölkənin iqtisadi əsaslarını gücləndirmək, dövlətin iqtisadi qüdrətini artırmaq üçün ciddi islahatlara, liberal iqtisadiyyata transformasiya proseslərinə də təkan verdi.

Tarixi proseslərin təhlili də belə qənaətə gəlməyə əsas verir ki, Heydər Əliyev üçün müstəqil Azərbaycan fəlsəfəsinin təməlində azadlıq, demokratiya, iqtisadi tərəqqi, sosial ədalət və rifah dururdu.

Hakimiyyətin bölünmə prinsipinin təsbit olunması, hüquq normalarının və qanunvericilik bazasının beynəlxalq standartlara uyğunlaşdırılması, müasir idarəetmə üsullarının bərqərar olması və müvafiq dövlət qurumlarının formalaşdırılması Ümummilli Liderin rəhbərliyi ilə gerçəkləşən genişmiqyaslı quruculuq proqramının tərkib hissələri olmuşdur.

1998-ci il oktyabrın 11-də Ulu Öndərin yenidən yekdilliklə Azərbaycan Respublikasının Prezidenti seçilməsi xalqımızın qəlbində əbədi heykəlini qoyduğu liderinə olan sonsuz etimadı, məhəbbəti və inamını bir daha sübut edirdi.

Əminliklə deyə bilərik ki, Heydər Əliyevin fəaliyyətinin 1993 – 2003-cü illəri bir ömrün qızıl salnaməsi olmaqla Azərbaycanda müasir, demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu, vətəndaş cəmiyyətinin təşəkkülü, milli-mənəvi dəyərlərə qayıdış və elmin, təhsilin, mədəniyyətin inkişafı əbədi surətdə dahi şəxsiyyətin adı ilə bağlıdır.

**Sual: Heydər Əliyevin rəhbərliyi ilə həm də insan hüquq və azadlıqlarının qorunmasında yeni mərhələyə keçid olundu. Bu barədə fikirlərinizi bilmək olarmı?**

Milli Konstitusiyamızın qəbul olunması Azərbaycanda dövlət müstəqilliyinin daimi olmasını bir daha dünyaya sübut etməklə demokratik vətəndaş cəmiyyəti quruculuğuna, insanların azad və sərbəst yaşamalarına, insan haqları və hüquqlarının genişlənməsinə əlverişli şərait yaratdı.

Əsas Qanunun qəbulu ölkədə bütün sahələrdə, o cümlədən hüquqi islahatların hərtərəfli və kompleks həyata keçirilməsinə rəvac vermişdir ki, hüquq sisteminə müstəsna əhəmiyyət verən Ümummilli Lider Heydər Əliyev Hüquqi İslahat Komissiyasına rəhbərliyi bilavasitə öz üzərinə götürərək islahatların qısa müddətdə və mütəşəkkil aparılmasını təmin etdi.

Gərgin fəaliyyət nəticəsində ölkəmizin bu günü və gələcəyi naminə son dərəcə vacib və əhəmiyyətli, habelə hüquq sisteminin mahiyyətini müəyyən edən tam yeni mütərəqqi qanunvericilik aktları qəbul edilməklə beynəlxalq səviyyəli mütəxəssislər tərəfindən də yüksək dəyərləndirildi.

Eyni zamanda, ölkəmizdə ictimai təşkilatların, siyasi partiyaların azad fəaliyyəti, senzuranın ləğvi, mətbuat orqanlarının azad nəşrinə, özəl radio və televiziya kanallarının sərbəst yayımlanmasına geniş meydan verilməsi siyasi plüralizmin, azad fikrin, demokratiyanın və vətəndaş cəmiyyətinin inkişafına böyük təkan verdi.

İnsan haqlarının etibarlı qorunması dövlətin prioriteti kimi müəyyən edilərək respublikamız insan hüquq və azadlıqlarının təminatı sahəsində bütün əsas beynəlxalq konvensiyalara qoşuldu, 1993-cü ildən ölüm cəzasının icrasına veto qoyuldu, 1998-ci ildə isə Şərqdə ilk dəfə olaraq Azərbaycanda bu cəza növü tamamilə ləğv edildi, əfv və amnistiya institutları geniş tətbiq edilməyə başlandı.

Eyni zamanda, insan haqlarının qorunmasına, yeni müdafiə mexanizmlərinə dair mühüm normativ aktlar, eləcə də xüsusi Dövlət Proqramı hazırlanaraq qəbul olunmuş, bu sahədə dövlət strukturları ilə vətəndaş

cəmiyyəti arasında mühüm əlaqələndirmə funksiyasını həyata keçirən İnsan hüquqları üzrə müvəkkil (Ombudsman) institutu təsis edilmişdir.

Qeyd edilməlidir ki, demokratik hüquqi dövlətin təməl daşlarından biri hesab olunan müasir müstəqil məhkəmə hakimiyyətinin bərqərar olması da məhz Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır.

Ümummilli Liderin rəhbərliyi ilə aparılan çoxşaxəli hüquq islahatları nəticəsində keçmiş sovet məhkəmə sistemi ləğv edilərək 2000-ci ildən yeni, insan haqlarının müdafiəsinə daha etibarlı təminat verən üçpilləli müstəqil məhkəmə sistemi fəaliyyətə başladı.



Beləliklə də, ölkəmizin hüquq sistemi beynəlxalq səviyyədə sınaqdan çıxmış mütərəqqi sistemlərə uyğunlaşdırıldı və son nəticədə ədalət mühakiməsinə etimadın artması və insan hüquq və azadlıqlarının daha etibarlı təmini üçün zəmin yarandı.

**Sual: Məlumdur ki, Ulu Öndər Heydər Əliyev hüquq-mühafizə, o cümlədən prokurorluq orqanlarının fəaliyyətinə dərindən bələd olmuş və bu sahədə köklü islahatlar aparılmışdır. Prokurorluq orqanlarına bu islahatların təzahürü necə olmuşdur?**

Ulu Öndər Heydər Əliyev cəmiyyətdə hüquq qaydalarının bərqərar olmasını daim diqqət mərkəzində saxlamışdır. Onun “Dövlət iki şeydən sarsıla bilər: günahkar cəzasız qalanda və günahsıza cəza veriləndə” kəlamı dahi liderin bu sahəyə nə qədər həssas yanaşdığının bariz nümunələrindən biridir.

Bu baxımdan müstəqil Azərbaycana rəhbərliyinin ilk dövrlərindən, eləcə də müstəqilliyini, suverenliyini itirmək təhlükəsi olan Azərbaycana qayıdışından sonra Ulu Öndər onun üçün son dərəcə vacib olan hüquq-mühafizə orqanlarının fəaliyyətinin səmərəliliyinin artırılması prioritet məsələlərdən olmuşdur.

Tarixi şəxsiyyətin 1994-cü ildə imzaladığı cinayətkarlıqla mübarizəyə yönəlmiş tarixi fərmanı qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsində əsaslı dönüş yaratmış, eyni zamanda hüquq-mühafizə orqanlarının bu istiqamətdə uzunmüddətli dövr üçün fəaliyyət proqramını müəyyənləşdirmişdir.

Dövlət quruculuğu prosesində bütün məsələlərə xüsusi diqqətlə yanaşaraq hər bir strukturun fəaliyyətinə və inkişafına böyük önəm verən Ümummilli Liderin prokurorluq orqanlarının da təkmilləşməsində müstəsna rolu olmuş, qurumun fəaliyyətində səmərəliliyin artırılması, əməkdaşlarının sosial vəziyyətinin yaxşılaşdırılması məsələləri daim diqqət mərkəzində saxlanılmışdır.

Prokurorluq orqanlarının ölkədə bərqərar olmuş ictimai-siyasi sabitliyin qorunması, qanunçuluğun təmini, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində fəaliyyətini daim yüksək qiymətləndirən Ulu Öndərin “Respublika prokurorluğu və Baş prokuroru Azərbaycan dövlətçiliyinin əsas sütunlarından biridir” sözləri prokurorluğa ali səviyyədə olan diqqət və önəmin bariz nümunəsi hesab edilmişdir.

Təsadüfi deyil ki, 1995-ci il Konstitusiyasında prokurorluğa xüsusi maddə həsr edilərək dövlət idarəetmə sistemində bu təsisatın yeri məhkəmə hakimiyyəti orqanları sırasında müəyyənləşdirilməklə prokurorluq orqanlarına ilk dəfə olaraq konstitusion status verilmişdir.

Dahi rəhbərin oktyabr ayının 1-ni Respublikamızda prokurorluq işçilərinin peşə bayramı günü elan etməsi, şəxsi təşəbbüsü və rəhbərliyi altında qurumun yaradılmasının 80 illik yubileyinin təntənəli şəkildə qeyd edilməklə həmin tədbirdə “Azərbaycan Prezidenti kimi mən Azərbaycan Prokurorluğuna inanıram, güvənirəm və arxalanıram” sözləri bu gün də hər bir prokurorluq işçisi tərəfindən böyük iftixar hissi ilə yad edilir.

Ulu Öndər Heydər Əliyevin təşəbbüsü əsasında beynəlxalq hüquq norma və prinsiplərinə uyğun hazırlanmış “Prokurorluq haqqında” Qanun və Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi prokurorluğun fəaliyyət istiqamətlərinin demokratik dəyərlərə uyğunlaşdırılmaqla qanunun aliliyinin real təminatçısına çevrilməsini təmin etdi.

Xüsusi qeyd edilməlidir ki, Ümummilli Lider Heydər Əliyevin prokurorluq orqanlarının rəhbər işçiləri ilə 26 aprel 2000-ci il tarixdə keçirdiyi müstəsna əhəmiyyətə malik görüşü Azərbaycan Prokurorluğunun demokratik məzmunda yenilənməsinə və qanunla nəzərdə tutulmuş fəaliyyət istiqamətləri üzrə işlərin səmərəli təşkilinə təminat yaratmışdır.

Həmin müşavirədəki nitqində müdrik və uzaqgörən rəhbərin “Sağlam mənəviyyat hər bir prokurorluq işçisi



üçün, qanun keşiyində duran hər bir məmurumuz üçün əsas meyar olmalıdır. Əgər bu yoxdursa, o insan nə qədər yaxşı işləyirsə-işləsin, bizim tələblərimizə cavab verə bilməyəcəkdir. Bizim tələblərimiz isə qanundur, qanunun aliliyidir" sözləri ilə ehtiva olunan tələb və tövsiyəsi hər bir prokurorluq işçisi üçün həyat və fəaliyyət meyarı olmuşdur.

Prokurorluq orqanlarının yenilənməsi istiqamətində gənclərin potensialının lazımınca qiymətləndirilməsini önə çəkən Ulu Öndərin fərmanı ilə hüquq-mühafizə orqanları arasında ilk dəfə məhz prokurorluqda müsabiqə yolu ilə işə qəbulun həyata keçirilməsi kadr tərkibinin şəffaf prosedurlar əsasında hərtərəfli biliyə və yüksək mənəvi keyfiyyətlərə malik, dövlətçilik ideyalarına sədaqətləri ilə seçilən gənc mütəxəssislər hesabına komplektləşdirilməsinə şərait yaratmışdır.

Sadalananları ümumiləşdirməklə qeyd etmək olar ki, Ümummilli Liderin rəhbərliyi ilə həyata keçirilən ardıcıl və sistemli islahatlar çərçivəsində prokurorluq orqanlarının fəaliyyətini tənzim edən, beynəlxalq standartlara və demokratik prinsiplərə, milli dövlətçilik maraqlarına əsaslanan qanunverici, eləcə də institusional islahatların reallaşdırılması Azərbaycan Respublikası Konstitusiyası və qanunları ilə prokurorluğun üzərinə qoyulan vəzifələrin icrası istiqamətində əsaslı dönüşə səbəb olmuşdur.

Prokurorluğa olan xüsusi diqqət və qayğının təzahürüdür ki, bu gün Heydər Əliyev prokurorluq orqanlarında aparılmış mütərəqqi islahatların banisi kimi hər bir prokurorluq əməkdaşının, təqaüddə olan veteranlarımızın qəlbində yaşayır, xüsusi minnətdarlıq və dərin rəğbətlə yad edilir.

Ulu Öndərin anadan olmasının 100 illik yubileyi münasibətilə Azərbaycan Prokurorluğu tərəfindən silsilə tədbirlər keçirilir, prokurorluq işçiləri tərəfindən konfranslar, dəyirmi masalar keçirilir, elmi-praktiki mövzular tədris edilir, mediada çıxışlar edilir, idman yarışları, xeyriyyə tədbirləri, qanvermə, ağacəkmə aksiyaları təşkil edilməklə ölməz liderin əziz xatirəsinə əbədi ehtiram ifadə olunur.

**Sual: Ulu Öndər Heydər Əliyev özündən sonra müstəqil Azərbaycanın siyasi varisliyini uğurla təmin etmək üçün nələr etdi?**

Yüksək mənəvi insani keyfiyyətləri və dəyərləri özündə birləşdirən gözəl ailə başçısı həm də Azərbaycan tarixində ən görkəmli dövlət xadimi kimi əbədi bir milli sərvət – Heydər Əliyev dövlətçilik məktəbini yaratdı.

Canından artıq sevdiyi xalqına müraciətində müəyyənləşdirdiyi siyasəti davam etdirə biləcək dəqiq ünvanı göstərən Ümummilli Liderin "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm" sözlərinə hər bir vətəndaşın tərəddüd etmədən dəstək verməsi həm də qurtuluşdan başlanan möhtəşəm zəfər yolunun uğurla davam etdirilməsi anlamına gəlirdi.

Çağdaş tariximizin ictimai-siyasi və dövlətçilik tarixinin varislik əlaqəsi baxımından araşdırılması bir daha onu sübut edir ki, müstəqilliyimizin möhkəmləndirilməsi, suverenliyin bərpası istiqamətində bir çox yarımçıq qalmış məsələlər Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilmişdir.

Dünya miqyaslı siyasət xadiminin ən böyük istəyi, mübarizəsinin baş hədəfi və fəaliyyətinin əsas məqsədi hansı yolla olursa-olsun əzəli-əbədi torpaqlarımızın işğaldan azad olması idi.

Ümummilli Liderin ömrü bu arzunun gerçəkləşməsinə vəfa etməsə də, alternativsiz siyasi varisi, layiqli və sadiq davamçısı, Müzəffər Sərkərdə, yeni dövrün yeni lideri cənab İlham Əliyevin həyata keçirdiyi möhtəşəm daxili və xarici siyasət ata vəsiyyətinə çevrilmiş bu istəyi yerinə yetirdi.

Ali Baş Komandanın "Xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim... Şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır" sözləri Heydər Əliyev məktəbinin ən istedadlı yetirməsinə olan inamının və uzaqgörən seçiminin nə qədər düzgün olduğunu əyani şəkildə təsdiq edir.

Bu gün qlobal enerji və nəqliyyat layihələrinin bilavasitə təşəbbüskarı olan ölkəmizin Avropada etibarlı tərəfdaş, regionda lider dövlət kimi qəbul edilməsi, İlham Əliyevin siyasi varislik missiyasının təntənəsini nümayiş etdirən amillərdəndir.

Respublikamızın ən mötəbər tədbirlərə, o cümlədən humanitar, siyasi, iqtisadi, mədəni forumlara, möhtəşəm idman yarışlarına uğurla ev sahibliyi etməsi dövlətimizin dünyada yüksək nüfuzunu təcəssüm etdirir.

Ölkəmizin qazandığı uğurlardan danışarkən xüsusilə Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Ulu Öndərin adını daşıyan Heydər Əliyev Fondunun prezidenti



Mehriban xanım Əliyevanın ölkədə həyata keçirilən çoxşaxəli islahatlara dəyərli töhfələri, xeyirxahlıq, sülh, insanpərvərlik kimi bəşəri amallar uğrunda nəcib fəaliyyəti mütləq qeyd olunmalıdır.

Məhz Mehriban xanım müstəqil Azərbaycan dövlətində birinci xanım institutunu yaratdı, formalaşdırdı və mühüm dövlətçilik atributuna çevirdi.

Əminliklə deyə bilərik ki, Azərbaycan xalqı Ulu Öndərin siyasi kursunu davam etdirməklə möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə bundan sonra da öz tarixinin yeni, şanlı səhifələrini yazacaq, daha yüksək zirvələr fəth edəcəkdir.

**Sual: Heydər Əliyevin əbədiyyət zirvəsi Azərbaycanın milli və dövlət tarixində hansı yerə malikdir?**

Azərbaycançılıq məfkurəsinin parlaq daşıyıcısı olmaqla Azərbaycanın çağdaş dövrünün yeni intibah mərhələsinin banisi olan Heydər Əliyev dönməz əqidəsi və tarixi uzaqgörənliyi sayəsində milli dövlətçilik ideyasının gerçəkləşdirilməsinə, müasir Azərbaycan dövlətinin qurulmasına və xalqımızın müstəqillik arzusuna çatmasına nail olmuşdur.

Məhz Heydər Əliyevin fəaliyyəti nəticəsində Azərbaycan özünün geostrateji, iqtisadi və mədəni potensialından istifadə edərək Şərqlə Qərbi birləşdirən etibarlı körpü rolunu oynamağa başlamış və dünyanın ən dinamik inkişaf edən ölkələrindən birinə çevrilmişdir.

Ulu Öndərin 100 iliyini qeyd edərkən biz hamımız dünyamiqyaslı nəhəng siyasətçinin, görkəmli dövlət xadiminin, böyük nurlu insanın, dahi şəxsiyyətin zəngin irsinə, nəsillərə örnək olan həyat yoluna nəzər salaraq əziz xatirəsini ehtiramla yad edir, onun xalqı və vətəni üçün gördüyü nəhəng işlərin, misilsiz xidmətlərinin mühüm əhəmiyyətini hədsiz minnətdarlıq hissi ilə dərk edirik.

Dövr və zaman keçdikcə bu anlam daha da güclənir, Heydər Əliyev irsinin, onun ideya və tövsiyələrinin xalqımızın və ölkəmizin bu günü və gələcəyi üçün dəyəri və əhəmiyyəti yüksəlir.

Heydər Əliyevin misli olmayan dahiliyi eyni zamanda özünü onda göstərmişdir ki, o, həm sovetlər dönəmində, həm də ki, müstəqillik dövründə Azərbaycana rəhbərlik edərək xalqın əbədi yaddaşına xilaskar və qurucu dövlət xadimi, tarixin inkişafını öncədən görərək ona təsir edə bilən görkəmli şəxsiyyət, insanları inandırmağı bacarmaqla onları düzgün istiqamətləndirən və işıqlı gələcəyə aparan şəksiz lider kimi birdəfəlik həkk olunmuşdur.

Şübhə yoxdur ki, xalqımız hələ sağlığında əfsanələşən, siyasi olimpin zirvəsini fəth etmiş nadir şəxsiyyət, bütün




həyatı və fəaliyyəti tariximizə qızıl hərflərlə həkk olunmuş Heydər Əliyevi qəlbində əbədi yaşadacaq, onun əziz və unudulmaz xatirəsini həmişə yüksək ehtiramla yad edəcəkdir.

**“Azərbaycan Prokurorluğu” elmi-praktiki jurnalının redaksiya heyəti**

## *Kamran ƏLİYEV:*
# “SSRİ rəhbərliyində Heydər Əliyev kimi xalq arasında sevilən ikinci dövlət xadimi yox idi”



***“Xalq qəzeti”nin “Heydər Əliyev xatirələr işığında” layihəsinin növbəti qonağı Azərbaycan Respublikasının Baş prokuroru, I dərəcəli dövlət ədliyyə müşaviri Kamran Əliyevdir. Bu müsahibədə Sovet İttifaqı məkanında ötən əsrin 60-70-ci illərinin gənclərinin Heydər Əliyev fenomeninə baxışı və epoxanın liderinin ictimai-siyasi fəaliyyətinin yetişməkdə olan yeni nəslə, xüsusilə dövlətçilikdə mühüm rol oynayan hüquqşünas kadrlara təsirindən söhbət açmışıq.***



**– Kamran müəllim, Heydər Əliyev şəxsiyyəti və fenomeni ilə ilk dəfə nə vaxt qarşılaşmısınız? Ümumiyyətlə, xalqımızın Ümummilli Lideri haqqında diqqətinizi ilk çəkən nə olub?**

– Əvvəla, qəzetinizin istər sovet dövrü Azərbaycanının, istər müstəqil Azərbaycanın həyatında müstəsna xidmətləri olan Ümummilli Lider Heydər Əliyev irsinin tədqiqinə xidmət edən belə bir layihə ilə çıxış etməsini, artıq xalqımızın çox qiymətli milli-mənəvi dəyərinə çevrilmiş Ulu Öndərin irsinə böyük töhfə kimi dəyərləndirirəm. Çünki bu elə bir dəyərli irsdir ki, o uzun illər müstəqil dövlətçiliyimizin keşiyində duracaq, onun inkişafına xidmət edəcək nəsillərin formalaşmasında çox böyük rol oynayacaq.

Qaldı Heydər Əliyev fenomeni ilə ilk tanışlığıma, bu tanışlıq özümü dərk edəndən bugünə qədər davam etməkdədir. Ümummilli Lider Heydər Əliyevin həyat və fəaliyyətinin miqyası o qədər geniş və zəngindir ki, onu hələ uzun illər öyrənəcək və heyrət edəcəyik.

Hələ Gəncədə orta məktəbdə oxuduğum dönəmdə, ötən əsrin 70-ci illərinin sonu, 80-ci illərinin əvvəllərində daim valideynlərimin, yaxın çevrəmizi təşkil edən insanların respublika rəhbəri kimi Heydər Əliyevin cəmiyyətdə, gündəlik həyatda yaratdığı canlanma, inkişaf və tərəqqi naminə atılan addımları barədə söhbətləri, onun haqqında yaranan əfsanələr diqqətimi cəlb etməyə bilməzdi. Tək mən yox, dövrün bütün gənc nəsli Heydər Əliyevin xüsusilə ölkədə qanunçuluğun və ədalətin bərpası, milli irsimizin dirçəldilməsi və qorunması, ədəbiyyatımızın, incəsənətimizin inkişafı, tariximizin öyrənilməsi, ali təhsil məktəblərində ədalətli imtahan qəbulu kampaniyalarını daim diqqətdə saxlaması bir çox sahələrdə həyata keçirdiyi işlər haqqında dolaşan heyrətamiz söhbətlərdən qürur hissi keçirirdi.

Məhz Ulu Öndərin rəhbərliyi illərində respublikamızın qabaqcıllar sırasında hər il SSRİ-nin Keçici Qırmızı Bayrağına layiq görülməsi ilə bağlı təntənəli yığıncaqlarda, rayonlarda təşkil edilən məhsul bayramlarındakı iştirakı, bölgələrə səfərləri, respublikamiqyaslı tədbirlərdə doğma Azərbaycan dilində sərrast və məntiqli çıxışları, istər qarşısında çıxış etdiyi auditoriya, istərsə də bizim kimi televiziya izləyiciləri tərəfindən xüsusi maraqla dinlənilirdi. Onun bölgələrə, o cümlədən mənim böyüyüb boya-başa çatdığım Gəncəyə səfərləri, respublikamızın ikinci böyük şəhərinə olan diqqəti və qayğısı, xüsusilə tarixi və mənəvi abidələrimizin – Nizami Gəncəvinin məqbərəsinin, onlarla məscid və mədrəsənin bərpa olunması şəhər sakinləri tərəfindən böyük rəğbət və sevinclə qarşılanırdı. Dövlət rəhbərinin Gəncədə iştirak etdiyi tədbirlərdən birində tarixi şəxsiyyəti görmək mənə də nəsib olmuş, qeyri-adi zəkaya malik liderimizin cəsarətli və qətiyyətli çıxışı, tədbir iştirakçılarını heyran qoyan Azərbaycan dilində qeyri-adi natiqlik bacarığı diqqətimi ilk çəkən xüsusiyyətlərindən olmuş, həmin anlar yeniyetmə kimi məndə dərin və unudulmaz təəssüratlar yaratmışdı.

**– Siz ali hüquq təhsilinizi də, hüquqşünaslıq sahəsində aspirantura təhsilinizi də Rusiya Fe-**

**derasiyasında almısınız. Həmin illərdə Heydər Əliyevin SSRİ rəhbərlərindən biri kimi 1982-1987-ci illərdə bu ölkədə fəaliyyəti ilə bağlı yaşadığınız mühitdə hansısa bir söhbətin, xoş bir xatirənin şahidi olmuşdunuzmu? Onun haqqında eşitdiyiniz fikirlər sizdə hansı hisslər doğururdu?**



– Heydər Əliyevin Moskva dövrü fəaliyyətinin təkcə məndə yox, həmin illərdə Rusiyada yaşayan bütün azərbaycanlılarda yaratdığı hissləri Azərbaycanda olan insanlar yaşaya bilməzdi. Ulu Öndərin SSRİ rəhbərliyinin yüksək postda təmsil olunması, xüsusilə Rusiyada yaşayan millətimizin nümayəndələrində çox fərqli bir assosiasiya yaradırdı. Təsəvvür edin, o nəhəng Sovet İttifaqında hara gedirdiksə, Azərbaycandan olduğumuzu biləndə dərhal "Heydər Əliyevin yerlisisiniz" deyə xüsusi bir hörmətlə diqqət göstərirdilər. Təbii ki, bu bizi qürurlandırmaya bilməzdi.

Həmin vaxtadək artıq İttifaq səviyyəsində böyük nüfuza və xüsusi siyasi çəkiyə malik Heydər Əliyevin 22 noyabr 1982-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosunun üzvü seçilməsi, SSRİ Nazirlər Soveti sədrinin birinci müavini təyin edildikdən sonra Sovetlər Birliyinin 12 nazirlik və 20 komitəsinin onun bilavasitə nəzarətində olması, Nazirlər Sovetinin Operativ Məsələlər Komissiyasına rəhbərlik, əlbəttə onun şəxsiyyətinin miqyasını göstərən bir fakt idi. Əminliklə deyə bilərik ki, Heydər Əliyev hələ Azərbaycan KP MK-nın birinci katibi işlədiyi illərdə öz fəaliyyəti və nüfuzu ilə respublikanın çərçivəsindən çıxmışdı.

Konkret bir fakta diqqət çəkmək istərdim. Ümummilli Liderin hələ respublika rəhbəri olduğu vaxtlarda "Literaturnaya qazeta"nın 18 noyabr 1981-ci il tarixli sayında onun "Qoy ədalət zəfər çalsın" adlı müsahibəsi dərc edildi. Bu müsahibə nəinki qəzetin oxucuları, həmçinin SSRİ-də həmin dövr üçün hüquqşünas alimlər və tələbələr tərəfindən də maraqla qarşılanmış, görkəmli siyasətçiyə xüsusi rəğbət qazandırmışdır. Çünki Heydər Əliyev bu müsahibəsində ədalət mühakiməsinin həmçinin hüquq-mühafizə orqanları işçilərinin vəzifələrinin nədən ibarət olduğunu elə dərindən və mükəmməl təhlil edir ki, adam heyran qalır. Müsahibədə deyirdi ki, hüquq-mühafizə orqanlarına geniş səlahiyyətlər verilib, amma onlar unutmamalıdırlar ki, insan taleyini həll edirlər. Ona görə də hüquqşünas kadrların hazırlığı universitet dövründən bu kriteriyalar əsasında aparılmalıdır.

Tale elə gətirmişdi ki, həmin illərdə mən Rusiyada universitetdə hüquq fakültəsində təhsil alırdım və bizim müəllim-professor heyəti bu müsahibəyə çox tez-tez müraciət edir, müzakirələr açırdılar. Sevinirdim ki, məhz azərbaycanlı olduğumu bilib tez-tez Heydər Əliyevlə bağlı mənə suallar verir, onun şəxsiyyəti, fəaliyyəti haqqında daha çox məlumat almaq istəyirdilər.

Ulu Öndər artıq Moskvada çalışanda, əlbəttə, əslən azərbaycanlı müsəlman bir dövlət xadiminin nəhəng imperiyada belə yüksək mənsəbə yüksəlməsi onun həmvətənləri, xüsusən ölkə xaricində olanlar üçün son dərəcə qürurverici hadisə idi. Bundan sonra ittifaqın elə bir guşəsi yox idi ki, Heydər Əliyev şəxsiyyəti, onun fenomenal keyfiyyətləri ilə maraqlanmasınlar. Ulu Öndərə iki aspektdən böyük maraq var idi. Birinci, SSRİ-nin dövlət rəhbərlərindən biri kimi, ikinci xarizmatik bir şəxsiyyət kimi. Çünki Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində çalışmağa başlayandan az bir müddət sonra onun nüfuzu sürətlə artırdı. Siyasi Büroda, SSRİ rəhbərliyində onun kimi xalq arasında sevilən ikinci bir rəhbər şəxs yox idi. Bu gerçəyi biz daha aydın görürdük.

Bu böyük insanın, böyük dövlət rəhbərinin Vətəni Azərbaycana sevgisinə bələd olan bir tələbə kimi mən də həmin dövrdə artıq SSRİ xalqlarının sevimlisinə çevrilmiş Heydər Əliyevin siyasi karyerasını çox böyük maraq və sevgi ilə izləyir, bir azərbaycanlı kimi onun sovet cəmiyyətinin ən vacib sahələrində yorulmaz fəaliyyətini, əldə etdiyi nailiyyətləri böyük fəxrlə qarşılayırdım.

İrkutsk Dövlət Universitetində təhsil aldığım 1982-1987-ci illəri xatırlayarkən professor-müəllim heyətinin, digər tələbə yoldaşlarımın da zəngin dövlətçilik təcrübəsinə malik böyük siyasət ustasının gördüyü işlərin, keçirdiyi görüşlərin və Sovet İttifaqı adından nüma-




yəndə heyətlərinin rəhbəri kimi xarici ölkələrə səfərlərinin böyük maraqla qarşılandığını, müzakirələrə səbəb olduğunu sevinclə müşahidə edirdim.

Şərqi Sibirdə təhsil aldığım dövrə təsadüf etdiyi üçün yaxşı xatirimdədir ki, Heydər Əliyev Sovet İttifaqı üçün həm iqtisadi, həm də hərbi-strateji əhəmiyyət daşıyan və miqyasına görə dünyada analoqu olmayan Baykal-Amur Magistralının (BAM) tikintisi üzrə yüksək səviyyəli komissiyaya rəhbərlik edirdi. 1984-cü ildə Ulu Öndər tikinti aparılan bölgələrə səfərlər edirdi. Maraqlıdır ki, bütün səfərlərində BAM-da çalışan azərbaycanlılarla ayrıca görüşür, onların sosial-məişət problemləri ilə yaxından maraqlanırdı. Onun bu görüşləri ətraf bölgələrdə yaşayan həmvətənlərimizdə böyük ruh yüksəkliyinə səbəb olurdu.

Bu yerdə Azərbaycan Prezidenti cənab İlham Əliyevin bu yaxınlarda Heydər Əliyevin 100 illiyi ilə bağlı Şuşada səsləndirdiyi bir fikri yada salmaq istəyirəm. Cənab Prezident qeyd etdi ki, Ümummilli Liderin adı, şəxsiyyəti SSRİ-nin müxtəlif regionlarında yaşayan bütün azərbaycanlılar üçün bir çətir idi. Bunu Vətəndən kənarda təhsil alan bir azərbaycanlı kimi mən də həmişə hiss etmişəm. Hətta Heydər Əliyev Qorbaçovun təzyiqlərindən sonra öz vəzifəsindən istefa verəndən sonra belə onun nüfuzu, onun şəxsiyyətinə olan ehtiram daim bizə himayədarlıq edib.

Mən 1987-90-cı illərdə Rusiyada prokurorluq orqanlarında müstəntiq vəzifəsində çalışmışam. 1990-93-cü illərdə də Moskvada aspirantura təhsili almışam. Bütün bu illər ərzində Ulu Öndərin adı, şəxsiyyəti və nüfuzu mənə dəstək olub və mən bundan daim qürur duymuşam.

**– Azərbaycan prokurorluq orqanlarında fəaliyyətə, yəqin ki, Heydər Əliyevin artıq müstəqil respublikaya rəhbərlik etdiyi illərdə başlamısınız. Ulu Öndərin müstəqil Azərbaycanın hüquqi dövlət quruculuğu strategiyasında prokurorluq orqanları qarşısında qoyduğu vəzifələrin icrası gənc hüquqşünas Kamran Əliyev üçün nə qədər əhəmiyyətli görünürdü ki, Vətənə dönüb bu işlərdə iştirakını vacib saydı?**

– 1990-93-cü illər Azərbaycanın çox ağır, taleyinin həll olunduğu günlər idi. Həmin illərdə, demək olar ki, dövlət institutları anarxiyaya təslim olmuşdu, ölkə xaosa sürüklənirdi. Azərbaycan müstəqilliyini itirmək təhlükəsi qarşısında idi. Təbii ki, mən kənarda yaşasam da, Vətənimdə baş verən bütün prosesləri ürək ağrısı ilə izləyirdim. Açıq etiraf edim ki, "nədən Heydər Əliyevi hakimiyyətə dəvət etmirlər" fikri düşüncəmi məşğul edən ən aktual suala çevrilmişdi. Axı o insanın bütün ömrü bu ölkənin inkişafına, qurulmasına, rifahının yüksəlişinə xidmətdə və Azərbaycanı ən yaxşı şəkildə idarə etməkdə keçmişdi. Mənim kimi düşünən yüz minlərlə, milyonlarla azərbaycanlı var idi. Biz Moskvada bunu öz dostlarımız və diaspor nümayəndələri arasında çox müzakirə edirdik.

Məhz həmin gün, 15 iyun 1993-cü ildə sanki Allah ona üz tutan insanların səsini eşitdi. Nə yaxşı ki, Heydər Əliyev öz xalqının xahişini qəbul edib doğma Azərbaycanını xilas etməyə razılıq verdi. Bunu ona görə deyirəm ki, Heydər Əliyev hakimiyyətdən gedəndən sonra ona qarşı çox böyük ədalətsizliklər olmuşdu. Azərbaycanın o zamankı rəhbərliyi hətta ona məxsus olan mənzili belə əlindən almış və əşyalarını boşaltmışdı. Azərbaycanı qurub-yaradan insana qarşı bundan böyük ədalətsizlik ola bilərdimi? Amma Heydər Əliyev bu ədalətsizliyi unutdu və Azərbaycanı xilas etmək üçün hakimiyyətə qayıtdı.

Ona görə də Heydər Əliyev Bakıya gələndə xalq artıq gördü ki, Azərbaycana dövlət qayıtdı, Azərbaycana dövlətçilik, dövlət atributları qayıtdı və Azərbaycana lider, dövləti yetərincə idarə edəcək şəxsiyyət qayıtdı. Xalqın gələcəyə inamı, ümidi də özünə qayıtdı. Əlbəttə heç kim bilmirdi ki, dövləti və dövlətçiliyi necə, hansı yolla xilas etmək olacaq? Azərbaycanın müstəqilliyini hansı vasitələrlə qorumaq mümkün olacaq? Amma xalq bir şeyi bilirdi ki, bütün bu sualların cavabını Heydər Əliyev tapacaq. Zaman da bu etimadı, inamı təsdiqlədi.

Təbii ki, mən də bir azərbaycanlı gənc hüquqşünas kimi istəyirdim gəlib, qürur duyduğum insanın rəhbərliyi altında öz ölkəmin dövlətçiliyinin möhkəmlənməsində yaxından iştirak edim. Ona görə də 1993-cü ildə mən Rusiya Federasiyası Prokurorluğundan köçürülmə



qaydasında Azərbaycan Respublikası Prokurorluğu orqanlarına işə qəbul olundum və xidməti fəaliyyətimi burada davam etdirməyə başladım. 1990-93-cü illərdə ölkədə cərəyan edən mürəkkəb və ziddiyyətli proseslər, müstəqilliyin itirilməsi təhlükəsi, vətəndaş qarşıdurması meyillərinin güclənməsi, xaos və anarxiyanın tüğyan etməsi fonunda prokurorluqda da rəhbərliyin tez-tez dəyişməsi qurumun fəaliyyətinə öz mənfi təsirini göstərməyə bilməzdi.

90-cı illərin ortalarından Baş Prokurorluğun Ağır Cinayətlərə Dair işlər üzrə istintaq idarəsində müstəntiq kimi fəaliyyət göstərdiyim zaman ölkədəki hərc-mərcliyin, itaətsizliyin, daxili çəkişmələrin alətinə çevrilmiş, ayrı-ayrı qrupların nəzarətində olan cinayətkar dəstələrin qanunsuz əməlləri ilə bağlı apardığım cinayət işlərinin istintaqı zamanı bir daha müdrik dövlət xadiminin prokurorluğa olan diqqət və qayğısının, aktual cinayət işlərinin istintaqı ilə yaxından maraqlanmasının və dəstəyinin şahidi oldum.

**– 2007-ci ildə Azərbaycan Respublikasının Baş prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə İdarəsinin rəisi vəzifəsinə təyin olunmusunuz. Elə bilirəm ki, bu təyinatdan sonra ola bilməzdi ki, siz Heydər Əliyevin 1969-cu ildə Azərbaycana rəhbərliyə başladığı gündən bir ay sonra avqust plenumunda qəbul etdiyi respublikada korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizə tədbirləri haqqında qərarı ilə maraqlanmayasınız. Zaman fərqi olsa da, dövlətçilik üçün təhlükəli olan bu bəla ilə Heydər Əliyevin o vaxt qarşıya qoyduğu vəzifələr müstəqillik illərində qarşıda duran vəzifələrdən çox fərqlənirmi?**

– Bütün dövrlərdə və istənilən quruluşda korrupsiyanın mahiyyəti eynidir: dövlət institutlarının səmərəsiz fəaliyyəti, rüşvətxorluq, vətəndaşların hüquqlarının pozulması. Maraqlıdır ki, 60-cı illərin sonu, – 70-ci illərin əvvəllərində Sovet İttifaqı miqyasında korrupsiyaya qarşı mübarizə terminini gündəmə gətirən ilk dövlət adamı Heydər Əliyev olub. Ona qədər SSRİ-də kimsə bunu nəinki açıq bəyan etmirdi, heç dilə belə gətirmirdi. Heydər Əliyev Azərbaycan KP MK-nın birinci katibi seçiləndən cəmi iki ay sonra – 1969-cu il avqustun 5-də keçirilmiş plenumda Azərbaycanda və Sovet İttifaqında korrupsiya var və iqtisadiyyatda, idarəetmədə belə neqativ halların aradan qaldırılması yollarına dair proqramını bəyan etmişdir. Həmin dövrdən də Azərbaycanda korrupsiyaya qarşı mübarizə başlamışdı.

Respublikamızda korrupsiyaya qarşı mübarizə gücləndikcə, korrupsiya üçün meydan daraldıqca, bu cinayətlərin qarşısı sürətlə alındıqca Azərbaycanda iqtisadi inkişaf başladı. Respublikaya sosial-iqtisadi tərəqqi gəldi, insanlar daha ədalətli cəmiyyətdə yaşamağa başladılar, qanunçuluq möhkəmləndi.

Burada bir incə məqamı qeyd edim ki, Ulu Öndər dünyada hələ sonralar sosial bəla hesab ediləcək korrupsiyanın onilliklər öncə fəsadlarını görmüşdür. Baxın, Heydər Əliyev korrupsiya ilə mübarizəyə 1969-cu ildə başlayır, amma BMT yalnız 2003-cü il oktyabrın 31-də Korrupsiyaya qarşı Konvensiya (UNCAC) qəbul edir. Buradan görürük ki, XXI əsrdə korrupsiya bəşəriyyətin qarşısında duran ən ağır problemlərdən biridir. Korrupsiya XIX əsrin müstəmləkə siyasəti, XX əsrin "soyuq müharibə" problemi ilə bərabər tutulur. Aydın görünür ki, Heydər Əliyev nə qədər uzaqgörən bir dövlət xadimi, fenomen şəxsiyyət olub.

Əslində korrupsiyaya qarşı mübarizənin mahiyyəti eyni olsa da, müxtəlif cəmiyyətlərdə, müxtəlif formasiyalarda onun metod və vasitələri dəyişir. Amma sovet dövründən, Heydər Əliyevin proqram xarakterli o zamankı qərarından sonra Azərbaycanda korrupsiyaya qarşı mübarizə təcrübəsi formalaşmışdı və bu da müstəqillik dönəmində bizim hüquq-mühafizə orqanlarına korrupsiyaya qarşı mübarizə siyasətini kifayət qədər uğurlu aparmağa imkan yaratdı.

Qeyd etdiyiniz 1969-cu ilin avqust plenumunun sənədləri ilə tanış olan bir hüquqşünas kimi qətiyyətlə deyə bilərəm ki, Heydər Əliyevin çıxışında sovet təbliğat maşını tərəfindən formalaşdırılan yanlış təsəvvürün tamam əksi vurğulanmışdı və mövcud problemlər konkret şəkildə önə çəkilərək dövlət idarəçiliyi sistemində formalaşmış regionçuluq, bürokratiya və korrupsiya kimi neqativ tendensiyaların yolverilməzliyi diqqətə çatdırılmışdı.

1993-cü il iyunun 15-də Heydər Əliyev xalqın tə-

kidli tələbi ilə hakimiyyətə qayıtdıqdan sonra da sovetlər dönəmində başlatdığı korrupsiya və rüşvətxorluğa qarşı mübarizəni eyni əzm və qətiyyətlə davam etdirilməsini fəaliyyətinin prioritet istiqaməti kimi müəyyənləşdirmişdir. Ulu Öndər bunu Azərbaycan Respublikası Prokurorluq orqanlarının 80 illiyinə həsr olunmuş təntənəli yığıncaqda söylədiyi nitqində belə qeyd edir: *"Bu gün bizim qarşımızda duran vəzifələrdən biri ölkəmizdə korrupsiya ilə, rüşvətxorluqla mübarizəni gücləndirmək və korrupsiya, rüşvətxorluq hallarının aradan qaldırılmasına nail olmaqdan ibarətdir. Bu mübarizə yeni bir mübarizə deyildir. Bu, keçmiş dövrlərdə də aparılmışdır".*

**– Kamran müəllim, bu gün Heydər Əliyevin milli təhlükəsizlik orqanlarının milliləşdirilməsindən çox danışılır, amma araşdırmalar göstərir ki, respublikamıza rəhbərlik etdiyi 14 illik sovet dönəmində Ulu Öndər Azərbaycanın prokurorluq, ümumiyyətlə, hüquq-mühafizə orqanlarında işləyəcək milli kadrların hazırlanması və dövlətçilik üçün vacib olan bu orqanın milliləşdirilməsində də müstəsna rol oynayıb. Necə bilirsiniz, bu fikrimdə mən nə qədər haqlıyam?**



– Əlbəttə, Ulu Öndərin milli təhlükəsizlik orqanlarının milliləşdirilməsi faktı ona görə tez-tez xatırlanır ki, o məhz həmin qurumda fəaliyyətə başlamış, uzun müddət bu qurumda səmərəli fəaliyyət göstərmiş və bu quruma rəhbərlik etmişdir. Ona görə bu, haqlı olaraq xüsusi vurğulanır. Amma sizin o fikrinizlə də razıyam ki, Heydər Əliyev yalnız milli təhlükəsizlik orqanları üçün deyil, Azərbaycanın bütün dövlət qurumları, iqtisadi-texniki, ictimai-siyasi sahələri, eləcə də hüquq-mühafizə orqanları və onun tərkib hissəsi olan prokurorluq orqanları üçün milli mütəxəssislərin hazırlanmasında və peşəkarların yetişməsində müstəsna rol oynamışdır. Məsələn, onun hakimiyyətə gəldiyi dövrə qədər olan 1950-60-cı illərə və hakimiyyətdə olduğu 1969-80-ci illərə nəzər salanda aydın görürük ki, prokurorluq orqanlarında milliləşmə necə böyük sürətlə getmişdir.

Ümumiyyətlə, bu böyük siyasət ustadının spesifik idarəçilik metodunun üstün cəhətlərindən biri məhz kadr seçimində sosial ədalətsizliyin aradan qaldırılması - daha çox yüksək mənəvi-əxlaqi keyfiyyətləri, intellektual səviyyəsi və yüksək biliyi ilə fərqlənən milli gənclərə üstünlük verilməsi olmuşdur. 1970-ci illərin əvvəllərindən etibarən Heydər Əliyevin peşəkar hüquqşünas kadrların hazırlanması işinin keyfiyyətini birbaşa nəzarətə götürməsi bunu bir daha təsdiqləyir. Məsələn, həmin illərdə azərbaycanlı gənclərin İttifaqın tanınmış və nüfuzlu ali məktəblərinin hüquq fakültələrinə təhsil almağa göndərilməsi bunun bariz nümunəsidir.

Həmin illərdə xalqın alqışına layiq olan digər bir məsələ isə Ulu Öndərin təşəbbüsü ilə respublikadakı ali məktəblərin hüquq fakültəsinə qəbulla bağlı aparılan islahat nəticəsində sadə ailələrdən olan bilikli və istedadlı gənclərin hüquqşünas ixtisasına yiyələnməsinin önə çəkilməsidir. Məsələ bununla da bitməmiş və daha savadlı, hazırlıqlı hüquqşünas məzunlar hüquq-mühafizə sistemində, o cümlədən prokurorluq orqanlarında işə qəbul edilmiş və yüksək vəzifələrə irəli çəkilmişlər.

Sovet dönəmində milli prokurorluq orqanlarında işləməsəm də, Vətənə qayıtdıqdan sonra həmin dövrdə çalışmış həmkarlarımla söhbətlərdə böyük şəxsiyyətin tapşırığı ilə milli kadrların öncül təhsil müəssisələrinə göndərilməsindən, onların ixtisaslarının və peşəkarlıqlarının artırılmasından, Azərbaycanda hüquq elminin inkişafı naminə çoxsaylı elmi-praktik konfransların, o cümlədən beynəlxalq tədbirlərin keçirilməsinə böyük diqqət yetirdiyini çox eşitmişəm.

Sonralar Ümummilli Lider həmin hüquqşünasların müstəqil dövlətçiliyimizə ləyaqətlə xidmət etməsi faktına münasibətini bildirərək deyirdi: *"1960, 1970, 1980-ci illərdə Azərbaycanda milli prokuror kadrları hazırlandı, yetişdi və bu gün Azərbaycan prokurorluğunun əsasını təşkil edən kadrlar yüksək peşəkarlığa, hüquqi təhsilə malik olan və öz vəzifələrini yerinə yetirə bilən kadrlardan ibarətdir. Bunlar hamısı bir gündə, bir ildə hazırlana bilməzdi. Azərbaycanda prokurorluq orqanları on illər ərzində təşkil olunmuş, formalaşmış, inkişaf etmiş və bugünkü yüksək peşəkar səviyyəyə çatmışdır".* Heydər Əliyev bu sözləri ilə əslində hələ o zamanlar hüquq sistemində prokurorluğun dövlətçilik üçün nə qədər böyük əhəmiyyətə malik olmasını və onun bu sahəyə xüsusi diqqət göstərdiyini nümayiş etdirir.

**– Heydər Əliyev 1993-cü ildə hakimiyyətə qayıdandan sonra xarici televiziyalardan birinə verdiyi müsahibədə qeyd edir ki, SSRİ rəhbərliyi, xüsusilə Qorbaçov onun Azərbaycanda rəhbər olduğu 1969–1982-ci illər dövrünün araşdırılması və fəaliyyətində cinayət tərkibi tapmaqda çox maraqlı olub. Bizim prokurorluğun arxivlərində Qorbaçovun əlaltılarının ədalətsiz və qondarma işləri ilə bağlı hər hansı məlumat varmı?**

– Çox maraqlı məqamlara toxundunuz. Bu məsələləri konkret bir müsahibədə açıqlamağa xeyli vaxt

# Heydər Əliyev qüdrətli Azərbaycanın banisidir

lazımdır. Söhbətimizin əvvəlində də qeyd etdim ki, SSRİ məkanında Heydər Əliyevin nüfuzu, siyasi çəkisi çox böyük idi. Ulu Öndər Moskvada çalışdığı qısa müddət ərzində bütün Sovet İttifaqında öz prinsipiallığı, işgüzarlığı, qayğıkeşliyi ilə insanların böyük rəğbət və sevgisini qazanmışdı. Həmin dövrün bir çox görkəmli dövlət xadimlərinin, dünyanın məşhur siyasətçilərinin, onunla ünsiyyətdə olmuş ziyalıların xatirələrində dahi rəhbərin zəngin erudisiyası, qeyri-adi yaddaşı, siyasətin, iqtisadiyyatın, sənayenin ən müxtəlif sahələrinə nüfuz etmək bacarığı, xarizması heyranlıqla qələmə alınmışdır. Heydər Əliyev qeyri-adi zəkası, kreativliyi, başladığı işin nəticəsini öncədən görə bilməsi, yüksək idarəçilik məharəti, təşkilatçılıq qabiliyyəti və bir çox üstün şəxsi keyfiyyətləri ilə Siyasi Büronun bütün üzvlərindən seçilirdi. Təbii ki, bütün bunlar Kremlin bəzi "sakinlərində" ona qarşı paxıllıq, həsəd oyadırdı.

Həmin illərdə mən Rusiyada tələbə idim və yaxşı bilirsiniz ki, tələbələr bütün dövrlərdə cəmiyyətin ən aktiv təbəqəsi hesab ediliblər. Biz aydın görürdük ki, xalq, ittifaqın ziyalı ictimaiyyəti Andropovdan sonra SSRİ rəhbərliyində Heydər Əliyevi görmək istəyirdi. Əlbəttə Kremldə özünü Baş katib postu kürsüsündə görən Siyasi Büronun bir çox üzvləri də bunu yaxşı bilirdilər və bu da onlarda qıcıq yaradırdı. Xüsusilə Çernenkonun ölümündən sonra özünü Kremlin sahibi kimi görən Mixail Qorbaçov Heydər Əliyevə olan paxıllığını, həsədini gizlədə bilmirdi.

Qorbaçov hakimiyyətə gələndən sonra belə, Baş katib olmasına baxmayaraq, yenə Heydər Əliyevin kölgəsindən çıxa bilmirdi. Heydər Əliyevin xarizması, nüfuzu və ona olan xalq sevgisi Qorbaçovu rahat buraxmırdı. İkinci tərəfdən, Heydər Əliyev bir çox məsələlərdə Siyasi Büronun toplantılarında Qorbaçovun verdiyi qərarların düzgün olmadığını açıq bəyan edir və onlarla razı olmadığını söyləyirdi. Bu da Qorbaçovun sərbəst hərəkət etməsinə mane olurdu. Ona görə də onun diktəsilə Heydər Əliyevə təzyiqlər başladı. Açıq deyək ki, müsəlman-türk dünyasının lideri kimi beynəlxalq aləmdə nüfuzu getdikcə artan Heydər Əliyevə qarşı bütün bu ədalətsizliklər, nəhayət, onun 1987-ci il oktyabr plenumunda öz ərizəsilə istefaya getməsinə səbəb oldu.

Hakimiyyətdən gedəndən sonra ona qarşı başlayan çirkin kampaniyaların başlaması da təsadüfi deyildi. Bilirsiniz ki, Mixail Qorbaçov karyerasının ən böyük strateji səhvinə yol verdi və Bakıya ordu hissələri yeridib yüzlərlə vətəndaşımızın qanını tökdü. Siyasi Büroda heç kim Qorbaçovun bu qanlı aksiyasına etiraz edib kəskin fikir söyləməyə cəsarət etmirdi. Belə bir məqamda Qorbaçov hakimiyyətinin təqibi altında olan Heydər Əliyev yenidən meydana çıxdı. Xalqın faciəsinə biganə qala bilməyən Ulu Öndər ailə üzvləri – oğlu, Prezidentimiz cənab İlham Əliyev və qızı Sevil xanımla birgə Moskvadakı Azərbaycan nümayəndiliyinə gələrək Qorbaçovun göstərişi ilə Bakıda törədilmiş kütləvi qırğına tarixi qiymət verdi, faciənin əsl səbəbkarlarını və təşkilatçılarını sərt ittiham etdi. Ulu Öndərin məhz bu cəsarətli addımı Qorbaçov və onun əlaltılarının Heydər Əliyevə qarşı yenidən çirkin böhtan kampaniyasına başlamalarına səbəb oldu. Ulu Öndər özü bunu sonralar çıxışlarının birində belə açıqlamışdı: *"1990-cı ildə Azərbaycana qarşı bir təcavüz edildi. Mən o vaxt Moskvada bununla əlaqədar keçirilən mitinqə getdim. Orada Qorbaçovun, Kommunist Partiyasının, Sovetlər Birliyinin əleyhinə sözlər dedim. Onları məhkum etdim ki, siz Azərbaycana qarşı ədalətsizlik, təcavüz etmisiniz, insanlar şəhid olub, qan tökmüsünüz, siz cinayətkarsınız. Bundan sonra məni həbs etməyə çalışdılar, qəzetlərdə mənim əleyhimə yazılar yazdılar..."*

Bu hadisədən iki həftə sonra qırmızı imperiyanın ruporu olan "Pravda" qəzetinin 1990-cı il 4 fevral tarixli sayında "Əliyevçilik, yaxud xoş əyyamların xiffəti" çirkin məqaləsilə Heydər Əliyevə qarşı siyasi təqiblər başlandı. Çox ürəkağrıdan faktlardan biri də o idi ki, Qorbaçov komandasının bu çirkin kampaniyasına Azərbaycanın o vaxtkı rəhbərliyi də qoşuldu və yerli mətbuatda Ulu Öndərə qarşı qərəzli məqalələr dərc edildi.

Siz düz deyirsiniz ki, Heydər Əliyevi ləkələmək üçün çox ciddi cəhdlər oldu. Amma eldə bir məsəl var, deyir, "Günəş ləkə götürməz". Mərkəzdən gələn sifarişli tapşırığın tezliklə icrası məqsədilə Heydər Əliyevin ölkəyə rəhbərlik etdiyi dövrün sənədlərini az qala mikroskop altında təhqiq etməyə başlayıblar. Hətta xüsusi tapşırıqla Bakıya gələn SSRİ-nin o vaxtkı hüquq-mühafizə orqanlarının bir qrupu nə qədər dəridən-qabıqdan çıxsalar da Heydər Əliyevin Azərbaycandakı fəaliyyətindən bircə mənfi fakt belə aşkar edə bilməyiblər. Heç bir fitnə-fəsad, qara piar və uydurma ittihamlar Ulu Öndərin haqq yolunu bağlaya bilməmiş, həyatını xalqının firavan gələcəyinə həsr etmiş dahi şəxsiyyətin xidmətləri qarşısında bütün cəhdlər iflasa uğramışdır.

**– Heydər Əliyev respublika prokurorluğunun 80 illik yubileyində qeyd edib ki, bu qurum hüquq-mühafizə orqanları içərisində xüsusi yer tutur. Ümummilli Lider prokurorluq orqanlarının fəaliyyətinə nəyə görə belə mühüm əhəmiyyət verirdi?**

– Azərbaycan Milli Prokurorluğu fəaliyyətə başladığı ötən bir əsrdən artıq müddətdə çətin və mürəkkəb, eyni zamanda, şərəfli inkişaf yolu keçmiş, millətə və

dövlətçilik ideyalarına sədaqət nümayiş etdirmiş, qanunçuluğun möhkəmləndirilməsi, habelə cinayətkarlığa qarşı mübarizədə müstəsna xidmətlər göstərmişdir.

Dövlət müstəqilliyinin yenidən bərpasından sonra da dövrün səriştəsiz hakimiyyətinin ölkəni anarxiya və xaosa sürüklədiyi çətin məqamlarda Vətənə, dövlətə sədaqətlə xidmət edən bir çox prokurorluq işçisi milli mənafeyin qorunması, böyük vüsət alan cinayətkarlığın, insanların hüquq və azadlıqlarının kütləvi pozulması hallarının qarşısının alınması naminə şərəflə üzərlərinə düşən vəzifələri yerinə yetirmişlər.




Hüquq-mühafizə, o cümlədən, prokurorluq orqanlarının fəaliyyətinə dərindən bələd olan Ulu Öndər daim prokurorluq orqanlarının ölkədəki ictimai-siyasi sabitliyin qorunması, ibtidai istintaq və prosessual rəhbərlik sahəsində fəaliyyətini yüksək qiymətləndirərək deyirdi: *"Respublika prokurorluğu və Baş prokuroru Azərbaycan dövlətçiliyinin əsas sütunlarından biridir".* Bu prokurorluq orqanlarına, Baş prokurora etimad, həm də üzərimizə qoyulmuş böyük məsuliyyətdir.

1994–1995-ci illərdə ölkəmizin Şimal-Qərb regionunda Azərbaycanın 1992–1993-cü illərin yaratdığı hakimiyyət strukturlarındakı boşluqdan istifadə edən cinayətkar ünsürlər aktivləşmişdi. Həmin cinayətkar ünsürlərin qanunsuz əməlləri ilə bağlı rəhbərlik etdiyim istintaq qrupu təhqiqat aparırdı. İstintaq qrupumuzun müstəntiqi araşdırdığımız cinayət işində adları keçən cinayətkar silahlı dəstələr tərəfindən qəflətən girov götürülmüşdü. Həmin müstəntiqin azad edilməsi üçün şəxsən Ulu Öndərin atdığı qətiyyətli addımlar gənc müstəntiq kimi mənim və həmkarlarımın yaddaşında silinməz izlər buraxdı. O vaxt bir daha müdrik rəhbərin qurumun fəaliyyətinə verdiyi önəmin, hər bir əməkdaşa olan qayğısının canlı şahidi olduq.

Ulu Öndər prokurorluğun hüquq-mühafizə sistemindəki xüsusi yerinə, istintaq, əməliyyat-axtarış və məhkəmə orqanları ilə qarşılıqlı əlaqəsinin özünəməxsusluğuna ən gözəl qiyməti məhz elə qeyd etdiyiniz yubiley tədbirində vermişdi: *"Prokurorluq hüquq-mühafizə orqanları sistemində demək olar ki, məhkəmə ilə polis orqanları, daxili işlər orqanları, milli təhlükəsizlik orqanları arasında duran bir orqandır. Ona görə də prokurorluğun işindən çox şey asılıdır. Yəni onun keyfiyyətindən, işin ədalətliliyindən, peşəkarlığından çox şey asılıdır".*

**– Ulu Öndərin müstəqillik dönəmində Azərbaycan prokurorluğunun dövlətçilikdəki yerinin möhkəmləndirilməsi və nüfuzunun artırılması üçün həyata keçirdiyi işlər haqqında nə deyə bilərsiniz? Etiraf etmək lazımdır ki, müstəqilliyin ilk illərində yaranmış xaosda prokurorluq orqanları da, müəyyən mənada, öz üzərlərinə düşən vəzifələri layiqincə yerinə yetirə bilmirdilər. Dahi lider bunu bir neçə çıxışında xüsusi vurğulayıb...**

– Əlbəttə, ölkəmiz müstəqilliyini bərpa etdikdən sonra dövlətimizin üzləşdiyi siyasi və iqtisadi tənəzzül, vətəndaş müharibəsi təhlükəsi prokurorluq orqanlarının da fəaliyyətinə təsirsiz ötüşməmişdi. Etiraf etmək lazımdır ki, bu dövrdə cinayətkarlığın, insan hüquq və azadlıqlarının kütləvi şəkildə pozulması halları geniş vüsət almışdı. Amma bunlarla bərabər, bir neçə prokurorluq əməkdaşının daxili böhranın yaratdığı vətəndaş itaətsizliyi, qeyri-stabil şəraitdə yer alan cinayətkarlıqla mübarizə zamanı xidməti vəzifələrini icra edərkən şəhid olması da dövrün gerçəklərindəndir.

Heydər Əliyevin 1993-cü ilin çox mürəkkəb və gərgin bir dönəmində hakimiyyətə qayıdışı, dövlətçiliyin əsas sütunları olan strukturlarda qısa vaxtda apardığı islahatlar və çevik idarəetmə metodları tədricən ölkədə qanunçuluğun və ədalətin bərpasına yol açdı. Əlbəttə prokurorluq orqanlarında yer alan neqativ hallara qarşı da çox sərt tədbirlər görüldü. Azərbaycan Prokurorluğunun dövlətçilikdəki yerinin möhkəmləndirilməsi və nüfuzunun artırılması üçün həyata keçirilən işlərdən danışarkən, ilk növbədə, müstəqilliyin əsas atributlarından olan, bilavasitə Ulu Öndərin təşəbbüsü və rəhbərliyi ilə hazırlanaraq qəbul edilən Azərbaycan Respublikasının Konstitusiyası və bu mühüm sənəddə prokurorluğa dair xüsusi müddəalar təsbit edilərək

ona konstitusion statusun verilməsi xüsusi qeyd edilməlidir.

Bundan başqa, görkəmli dövlət xadiminin təşəbbüsü əsasında beynəlxalq hüquq normalarına və mütərəqqi prinsiplərə uyğun hazırlanmış 7 dekabr 1999-cu il tarixli "Prokurorluq haqqında" Azərbaycan Respublikasının Qanunu və 1 sentyabr 2000-ci ildən qüvvəyə minmiş Azərbaycan Respublikasının Cinayət-Prosessual Məcəlləsi ilə prokurorluğun artıq çağdaş dövrün tələblərinə uyğun qanunun aliliyinin real təminatçısına çevrilməsini müşahidə etmiş oluruq.

2002-ci il sentyabrın 19-dan qüvvəyə minmiş "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" referendum aktına əsasən isə prokurorluğa qanunvericilik təşəbbüsü hüququnun verilməsi qurumun nəinki hüquq sistemində, o cümlədən, Azərbaycan dövlətçiliyindəki yerini və rolunu daha da gücləndirmişdir.

**– Kamran müəllim, Heydər Əliyevin prokurorluq orqanlarının rəhbər heyəti ilə 26 aprel 2000-ci ildə keçirdiyi müşavirəni nə səbəbə Azərbaycan Prokurorluğunun tarixində dönüş nöqtəsi adlandırırlar?**

– Sovetlər dönəmində prokurorluq orqanları son dərəcə fövqəladə sayılacaq "ümumi nəzarət" adlandırılan səlahiyyətə malik idi. Prokurorluq bütün vətəndaşların, müəssisə, idarə və təşkilatların, habelə ictimai və dövlət orqanlarının və onların vəzifəli şəxslərinin fəaliyyətində qanunların icra olunmasına nəzarəti həyata keçirirdi.

Müdrik rəhbərin hüquq sistemində baş ladığı islahatların mahiyyətinə nəzər yetirsək, sosialist ictimai-iqtisadi formasiyasından yeni formasiyaya keçid dövründə belə müstəsna səlahiyyətlərə malik ali nəzarətedici orqanın fəaliyyət dairəsinin sərhədlərinin yenidən müəyyən edilməsi, prokurorluğun funksiya və statusuna baxılması zərurətinin yarandığını görmüş olarıq. 1993-cü ildə hakimiyyətə gəldikdən sonra Heydər Əliyev artıq sosialist mülkiyyət münasibətlərinin bazar iqtisadi münasibətləri ilə ziddiyyət təşkil etdiyini, bu ziddiyyətlərin sosial-iqtisadi inkişafı ləngitdiyini çox aydın görürdü. Ona görə də müstəqil Azərbaycanda iqtisadi, siyasi böhrandan xilas olub, inkişaf və tərəqqi yoluna qədəm qoyulması üçün yeni ictimai münasibətlərin tənzimlənməsini, hüquqi islahatların aparılmasını çox vacib hesab etdi.

Bu məramla da Ümummilli Lider Heydər Əliyevin prokurorluq orqanlarının rəhbər işçiləri ilə qeyd etdiyiniz müstəsna əhəmiyyətə malik görüşü, həmin tədbirdəki proqram xarakterli çıxışı prokurorluqda reallaşdırılan müasir məzmunlu islahatların əsasını təşkil etdiyindən və qanunla nəzərdə tutulmuş fəaliyyət istiqamətləri üzrə işlərin səmərəli təşkilinə təminat yaratdığından qurumun tarixində dönüş nöqtəsi hesab edilməkdədir.

Prokurorluğun həyatında yeni mərhələnin başlandığı həmin müşavirədə müdrik liderin söylədiyi – *"Azərbaycan Prokurorluğunda sağlam mənəvi mühit yaratmaq lazımdır. Sağlam mənəviyyat ... yoxdursa, o insan nə qədər yaxşı işləyirsə-işləsin, bizim tələblərimizə cavab verə bilməyəcəkdir. Bizim tələblərimiz isə qanundur, qanunun aliliyidir. Mənəviyyatın da hamısı*



*qanunun içərisindədir"* sözləri bu gün də prokurorluğun fəaliyyətində əsas meyardır.

**– Müstəqil Azərbaycanda Prokurorluğun yaranmasında və inkişafında Heydər Əliyevin xidmətləri nədən ibarətdir?**

– Əminliklə deyə bilərik ki, Azərbaycan Prokurorluğunun dövlətçiliyimizin maraqlarına, qanunun aliliyinin təmin olunmasına, cinayətkarlıqla mübarizəyə, qanunçuluğun və hüquq qaydasının qorunmasına xidmət etməsi, onun fəaliyyətinin hərtərəfli təminatı üçün qanunvericilik və maddi-sosial bazanın yaradılması zəmanəmizin ən böyük azərbaycanlısı Heydər Əliyevin dövlətçilik siyasəti, yüksək qayğısı və dəstəyi nəticəsində mümkün olmuşdur.

Böyük və qurucu dövlət xadiminin prokurorluğa olan diqqət və qayğısı onun 17 iyul 1998-ci il tarixli sərəncamla özünü parlaq şəkildə göstərir. Bu sərəncama əsasən hər il oktyabrın 1-nin respublikamızda prokurorluq işçilərinin peşə bayramı günü kimi qeyd olunması, Ulu Öndərin prokurorluq orqanlarının yaradılmasının 80 illik yubileyində şəxsən iştirakı və

"Azərbaycan Prezidenti kimi mən Azərbaycan Prokurorluğuna inanıram, güvənirəm və arxalanıram" fikrini səsləndirməsi bu gün də Azərbaycan prokurorluq orqanlarının kollektivi tərəfindən dərin minnətdarlıq hissi ilə yad edilir.

Prokurorluq orqanlarında yüksək bilikli və peşəkar kadrların çalışmasının əhəmiyyətini gözəl bilən uzaqgörən liderin ilk dəfə məhz prokurorluqda müsabiqə yolu ilə işə qəbulun həyata keçirilməsinə dair fərmanı xüsusi qeyd edilməlidir. Bu gün də davam etdirilən bu müsabiqələr qurumun kadr tərkibinin şəffaf prosedurlar əsasında, yüksək biliyə və mənəvi keyfiyyətlərə malik, dövlətçilik ideyalarına sədaqətləri ilə seçilən gənc mütəxəssislər hesabına komplektləşdirilməsinə şərait yaratmışdır.

Məhz Ulu Öndərin göstərdiyi siyasi xəttə sədaqətin nümunəsidir ki, 2002-ci ilədək prokurorluq orqanlarında qulluq keçən 30 yaşınadək işçilərin sayı prokurorluq əməkdaşlarının ümumi sayının 3 faizinə bərabər olduğu halda, həmin ildən sonrakı dövrdə müsabiqə yolu ilə işə qəbul edilmiş gənc prokurorluq işçilərinin sayı əhəmiyyətli dərəcədə artaraq hazırda kadr korpusunun 80 faizindən çoxunu təşkil edir. Onların da əksəriyyəti hazırda rəhbər vəzifələrdə çalışırlar.

**– Cənab Baş prokuror, Heydər Əliyevin prokurorluq qarşısında qoyduğu əsas vəzifələrdən biri də ötən əsrin 90-cı illərində Azərbaycan dövlətinə, ərazi bütövlüyünə, xalqa qarşı cinayətlərin araşdırılıb hüquqi qiymət verilməsi, cinayətkarların cəzalandırılmasıdır. Bu sahədə Ulu Öndərin qarşıya qoyduğu vəzifələr necə yerinə yetirilir? Fikrimcə, böyük Zəfərdən sonra bu işləri həyata keçirmək daha real görünür...**

– Müasir müstəqil Azərbaycanın banisinin ölkəmizin ərazi bütövlüyünə, həmvətənlərimizin təhlükəsizliyi əleyhinə yönəlmiş cinayət əməllərini törədənlərin ədalət mühakiməsi qarşısına çıxarılması ilə bağlı hüquq-mühafizə, o cümlədən, prokurorluq orqanları qarşısında qoyduğu vəzifələri 3 istiqamət üzrə ayıra bilərik.

Birinci istiqamət, xarici xüsusi xidmət orqanlarının dəstəyi ilə daxildən ölkəni parçalamaq məqsədilə təşkil edilmiş, süni milli-etnik münaqişə fonunda separatçılığa meyl edən hərbiləşmiş dəstələrin cinayətkar əməllərinin ifşa edilməsi; ikinci istiqamət, bildirdiyiniz kateqoriyadan olan sülh və insanlıq əleyhinə müharibə cinayətləri törətmiş Ermənistan silahlı qüvvələrinin mənsublarının məsuliyyətə cəlb edilməsi, üçüncü istiqamət isə erməni və digər xarici xüsusi xidmət orqanları tərəfindən ölkə daxilində dinc əhaliyə qarşı törədilmiş terror aktlarının qarşısının alınması ilə bağlı olmuşdur.

Hər üç istiqamət hüquq-mühafizə orqanları tərəfindən prioritet qəbul edilməklə kompleks tədbirlər həyata keçirilmiş, ilk öncə daxildə separatçı dəstələr tam zərərsizləşdirilmiş, xarici dairələrin ölkədə gedən ictimai-siyasi proseslərə təsiri minimuma endirilməklə sabitlik bərqərar edilmişdir.

Möhtərəm Prezidentimiz, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin müzəffər Ali Baş Komandanı cənab İlham Əliyevin rəhbərliyi ilə 44 günlük haqq savaşında əzəli torpaqlarımızın işğaldan azad edilməsi həm tarixi ədalətin bərpasına, həm də Ulu Öndər tərəfindən qarşımızda qoyulan vəzifələrin icrasına son dərəcə böyük imkanlar açmışdır.

44 günlük İkinci Qarabağ müharibəsində aparılan hərbi əməliyyatlar zamanı cəmiyyətimizlə bərabər səfərbər olan prokurorluq orqanları da aidiyyəti dövlət qurumları ilə əlaqəli şəkildə fəaliyyət göstərərək, müharibənin gedişində törədilmiş hər bir cinayət faktı üzrə döyüş əməliyyatlarının aparıldığı şəraitdə mümkün istintaq hərəkətləri həyata keçirmişlər. Bu müddətdə hərbi qulluqçularımızın istintaqa təhvil verdikləri Birinci Qarabağ müharibəsi zamanı törətmiş olduğu cinayət əməllərinə görə təqsirləndirilən "Yerkrapa" silahlı birləşməsinin üzvləri Lüdvik Mkrtiçyan və Alyoşa Xosrovyan məhkəmə məsuliyyətinə cəlb edilmişdir. Bundan başqa Xocalı, Qaradağlı, Bağanıs-Ayrım, Meşəli, Kərkicahan soyqırımı ilə yanaşı, digər sülh və insanlıq əleyhinə, habelə müharibə cinayətlərini törətməkdə təqsirləndirilən 297 şəxsin beynəlxalq hüquq normaları çərçivəsində məsuliyyətə cəlb edilərək cəzalandırılmalarını təmin etmək məqsədilə istintaq və əməliyyat-axtarış tədbirlərinin icrası davam etdirilir.

Bunlarla bərabər, Ermənistan üçün təslimçilik aktı olan üçtərəfli Bəyanatın imzalanmasından dərhal sonra prokurorluq orqanları tərəfindən təxirə salınmadan işğaldan azad edilmiş ərazilərdə erməni vandalizmi nəticəsində talan edilmiş, dağıdılmış yaşayış məntəqələrinə, tarixi, dini-mədəni abidələrə və digər əmlaklara dəymiş ziyanın müəyyən edilməklə beynəlxalq məhkəmələrə müraciət olunması istiqamətində digər qurumlarla əlaqəli şəkildə müvafiq işlər həyata keçirilir.

**– Kamran müəllim, bu gün tam əminliklə demək olarmı, Azərbaycan Prokurorluğu Ümummilli Liderin arzuladığı keyfiyyətdə, milli mənafeyə uyğun, yüksək peşəkarlıqla fəaliyyət göstərən və cəmiyyətin ən layiqli adamlarındandır"?**

– Əvvəldə qeyd etdiyim kimi, Azərbaycan Prokurorluğunun öz xalqının və müstəqil dövlətçiliyin maraqlarına xidmət edən, konstitusion statuslu, yüksək dünya standartlarına uyğun təsisat kimi formalaşmasında Ulu Öndərin müstəsna xidmətləri var. Heydər Əliyevin həyata keçirdiyi islahatlar bu gün onun layiqli varisi, yeni dövrün yeni lideri cənab İlham Əliyev tərəfindən müasir çağırışlar nəzərə alınmaqla uğurla

davam etdirilməkdə və Ulu Öndərin hüquqi dövlət quruculuğu konsepsiyası əzmlə gerçəkləşdirilməkdədir. Dövlət başçısının dəstəyi ilə prokurorluqda şəffaflığın təmin edilməsi, elmi-texniki nailiyyətlərin tətbiqi, maddi-texniki bazanın və əməkdaşların sosial müdafiəsinin gücləndirilməsi, işin səmərəliliyini artırmağa, mövcud çatışmazlıqları təxirə salınmadan aradan qaldırmağa təminat verən icra-nəzarət mexanizminin yaradılması daim önə çəkilmişdir.

Ulu Öndərin prokurorluq orqanları qarşısında qoyduğu tələblər, eləcə də dövlət başçısı cənab İlham Əliyevin rəhbər göstərişləri və müdrik tövsiyələrindən irəli gələn vəzifələrin yerinə yetirilməsi, prokurorluq fəaliyyətində səmərəliliyin artırılması və müasir iş metodlarını tətbiq etməyə qadir kadr korpusunun formalaşdırılması prosesi bu gün də intensiv şəkildə davam etməkdədir.

Ölkəmizdə mövcud dayanıqlı ictimai-siyasi sabitlik, dövlətimizin qüdrətinin artması hüquq-mühafizə, xüsusən də prokurorluq orqanları əməkdaşlarının gündəlik fəaliyyətlərini daha səmərəli təşkil etməyə, böyük əzm və vicdanla işləməyə, qanunun aliliyinin təmin edilməsində peşəkar, hərtərəfli və qətiyyətli olmağa sövq edir. Müasir dövrün yüksək texnoloji tendensiyalarına, rəqəmsal xidmətlərin artmasına baxmayaraq, prokurorluq işçisi üçün ən vacib amillərdən biri onun müsbət şəxsi keyfiyyətlərə malik olmasıdır.

Bu, Ulu Öndərin yüksək dəyər verdiyi ən mühüm keyfiyyətlərdir: *"Sağlam mənəviyyat hər bir prokurorluq işçisi üçün, qanun keşiyində duran bizim hər bir məmurumuz üçün əsas meyar olmalıdır"*. Heydər Əliyevin bu sözləri fəaliyyətimizin əsas meyarına çevrilmişdir. Ona görə də prokurorluq işçiləri üzərlərinə düşən məsuliyyəti dərk edərək Ulu Öndərin göstərdiyi etibarı və Prezident cənab İlham Əliyevin yüksək etimadı dövlətçilik ideyalarına sədaqətlə, xidməti vəzifələrinin icrasına daim vicdanlı münasibət bəsləməklə doğrultmağa çalışırlar.

**– Baş prokuror yox, sadəcə Azərbaycan vətəndaşı olan Kamran Əliyev üçün Heydər Əliyev kimdir – dahi, müstəqil Azərbaycan dövlətinin qurucusu, Ulu Öndər, yoxsa, epoxanın lideri?**

– Bütün dahilərin qiymətini zaman verir. Heydər Əliyev yaşadığı ömürdən ötən illər də göstərir ki, bu dahi şəxsiyyət dünya siyasət olimpində öz adını əməlləri və xidmətləri ilə əbədiləşdirib. Təkcə hakimiyyətə qayıdışından sonrakı dövrdə onun xidmətlərinin miqyasının çərçivəsini tam əhatə etmək mümkün olmur. Zaman göstərdi ki, hakimiyyətinin 10 ilində Ulu Öndərin apardığı siyasət son dərəcə mükəmməl və düzgün siyasət olub. Mən bunu bircə 2020-ci ildə, 44 günlük müharibədə işğalçı Ermənistan üzərində qazandığımız qələbə ilə əlaqələndirmək istəyirəm.



Bu qələbə Ümummilli Liderin başladığı quruculuq siyasətinin və bu siyasi xəttin Prezidentimiz cənab İlham Əliyev tərəfindən ən mükəmməl şəkildə davam etdirilməsinin parlaq nəticəsi oldu. Bu zəfərin təməl daşları – milli müstəqil dövlətçiliyin yaradılması, Milli Ordunun formalaşdırılması, hüquq-mühafizə orqanlarının ədalət prinsipləri əsasında saflaşdırılması, vətəndaş cəmiyyətinin formalaşması, xalqın azərbaycançılıq və milli həmrəylik ideyası ətrafında birləşmək kimi mühüm təməllər Heydər Əliyev tərəfindən qoyuldu. Prezident İlham Əliyev müasir qlobal çağırışları nəzərə almaqla bunları ən yüksək formada və müdrikliklə davam etdirərək Zəfərə nail oldu. Politoloqların, tədqiqatçıların yanaşmaları göstərir ki, bu qələbə təkcə hərbi qələbə deyildi. Bu Azərbaycanın düşmən üzərində diplomatik, iqtisadi, mədəni, mənəvi və humanitar qələbəsi idi. Onların hər birində Heydər Əliyevin özünəməxsus dəstixətti, izi var.

Ona görə də Heydər Əliyev mənim üçün zamanın fövqündə dayanan fenomenal insan, böyük düha sahibi, xalqa xidməti ilə zirvələri fəth edən, bütün zamanların ən qüdrətli Azərbaycanın banisidir. Heydər Əliyev ölkə, qitə miqyasını aşan, dünya şöhrətli siyasətçi, əbədiyaşar lider, polad iradəli görkəmli dövlət xadimi, bir sözlə... bəşəriyyətin tarixə bəxş etdiyi dahi azərbaycanlıdır.

**Söhbəti qələmə aldı:**
**İlqar RÜSTƏMOV,**
**"Xalq qəzeti"**

**Türkiyə Respublikasının Ali Məhkəməsinin Baş prokuroru Bekir Şahin**



# Əzəli və əbədi Azərbaycan-Türkiyə qardaşlığı sarsılmazdır

*Mən bu gün, həqiqətən, qeyd etmək istəyirəm ki, bizim xalqlarımız əsrlər boyu bir-birinə yaxın dost olmuşlar. Biz bir kökdənik, biz birdilli xalqlarıq. Bizim milli ənənələrimiz çox yaxındır, bir-birinə bənzərdir, oxşardır. Ona görə də bunların hamısı, Azərbaycan xalqının müstəqil olmadığı, əsarət altında yaşadığı vaxtda da bir-birimizdən ayırmayıb, bir-birimizə bağlayıb, bir-birimizlə daha sıx əlaqədə saxlayıb. İndi isə xalqlarımız öz müstəqilliyini əldə edəndən sonra, müstəqil dövlət kimi dünyada tanınandan sonra biz tarixi ənənələr əsasında, həmin fundamental əsaslar üzərində bundan sonra da irəliyə getməliyik, inkişaf etməliyik.*

**Heydər Əliyev**

Dünyada Azərbaycan və Türkiyə qədər bir-birinə yaxın, dost münasibətlərinə malik digər ölkələr tapmaq mümkün deyil. İki ölkə çətin gündə də, xoş gündə də daim bir-birinin yanında olub. Getdikcə bu dostluq, qardaşlıq münasibətləri daha da möhkəmlənməkdədir. Tarixi köklərə dayanan Azərbaycan-Türkiyə münasibətləri hər zaman dövrün siyasi reallıqları əsasında formalaşıb. Azərbaycan dövləti ilə Türkiyə arasındakı qarşılıqlı əlaqələr XX və XXI əsrdə daha geniş şəkildə müsbət tempdə inkişaf edib, həm iqtisadi, həm siyasi, həm də hərbi baxımdan müttəfiqlik səviyyəsinə qalxıb. Bu münasibətlər istər türk birliyi çərçivəsində, istərsə də Cənubi Qafqazda sülh və təhlükəsizliyin təminində hər iki dövlətin birlikdə siyasi iradə nümayiş etdirdiyini göstərir. Bu əlaqələrin dərin tarixi kökləri sübut edir ki, hər iki ölkə arasında qarşılıqlı münasibətlər təkcə strateji maraqlar çərçivəsində deyil, həm də soykökə bağlılıqdan, eyni milli-mənəvi dəyərlərə malik olmaqdan irəli gəlir. Məhz elə bunun nəticəsi idi ki, XX yüzilliyin əvvəllərindən başlayaraq dünyada gedən geosiyasi proseslər Cənubi Qafqazda yaşayan xalqların da gələcək həyatlarının qurulmasına təsirsiz ötüşmədi.

Bölgənin ən böyük etnik birliyi olan Azərbaycan türklərinin rus çarizminin imperializm məngənəsində bir millət kimi zülmə məruz qalması, istibdad rejiminə qarşı təkbaşına mübarizə aparmağın çətin və mümkünsüz olduğunu ortaya çıxardı. Bu, o dövr idi ki, altı əsrlik mövcudluğu dövrünün ən çətin məqamlarını yaşayan Osmanlı dövlətini imperialist qüvvələr separatçı ünsürlər vasitəsilə birdəfəlik məhv etməyi planlaşdırırdı. Tarixdə "Balkan müharibələri" kimi iz qoyan və Osmanlı dövlətinə ciddi zərbələr vuran qanlı toqquşmalarda yerli türk və digər xalqlar müharibənin acı nəticələrinə qatlaşmalı oldular. 1912 – 1913-cü illərdə baş vermiş hadisələrdə müharibə dəhşətlərindən əziyyət çəkən Osmanlı dövlətinin dinc əhalisi bu çətin zamanlarda qardaş Azərbaycan türkləri tərəfindən maddi yardımlarla təchiz edildi. Həmin vaxtlarda Bakıda fəaliyyət göstərən Müsəlman Xeyriyyə Cəmiyyətinin üzvləri ən azı 100 min manat qardaş Türkiyəyə yardımlar göndərib və müharibə bitənə qədər yardımların göndəriləcəyi qərarını verмişdilər.

1915-ci ildə uğursuzluqla nəticələnmiş Sarıqamış əməliyyatı zamanı əsir götürülmüş türk zabit və əsgərləri, eləcə də Qars, Ərzurum və Anadolunun digər bölgələrindən əsir götürülmüş mülki əhali Rusiyanın ayrı-ayrı vilayətlərinə göndərilib. Rusiya hökuməti əsir götürdüyü türk əhalinin böyük bir qismini Bakı yaxınlığındakı "Cəhənnəm adası" olan Narginə gətirilməsi barədə göstəriş verib. 7 mindən çox əsgər və mülki əhalidən ibarət olan türk əsirlər həddən artıq çətin və dözülməz şəraitdə olan Nargin həbsxanasında ölümlə üz-üzə qalıblar. Həmin dövrün sənədlərinə əsasən hər gün ən azı 30 nəfər insan həlak olub. Belə bir vaxtda Azərbaycanda fəaliyyət göstərən müsəlman cəmiyyətləri türk qardaşlarına hər cür yardım göstərmiş, əsirlərin gizli yolla qaçırılmasını, onların öz evlərində və dükanlarında saxlanmasını təşkil etmişdirlər.

Şərqdə demokratik əsasları olan ilk türk-müsəlman dövlətini – Azərbaycan Xalq Cumhuriyyətini yaratmış Azərbaycan milləti istər daxili, istərsə də xarici təsirlərə qarşı duruş gətirmək üçün Osmanlı dövləti ilə daha da yaxınlaşmaqla daxili sabitliyi bərpa edib, ordu quruculuğu işini möhkəmləndirib. Azərbaycan Xalq Cumhuriyyətini rəsmən tanıyan dövlət də məhz Osmanlı Türkiyəsi olub. Hələ müstəqilliyin elan edilməsi ərəfəsində formalaşdırılmasına başlanmış Müsəlman korpusunun hissə və bölmələri bolşevik-daşnak qoşunlarının və Stepan Şaumyanın dəstəklədiyi Andronikin qoşunlarının müqavimətini qırmaq üçün kifayət qədər hərbi gücə malik deyildi. Belə bir vəziyyətdə Azərbaycan hökuməti yardım üçün

Osmanlı dövlətinə müraciət edib, soyqırıma məruz qalmış Azərbaycan xalqının köməyinə gəlmiş türk hərbi hissələri ilə milli tərkibli qoşun hissələrinin əsasında Qafqaz İslam Ordusu yaradılıb. Həmin ordunun komandanı isə Nuru Paşa təyin edilib. Məhz həmin ordunun bilavasitə iştirakı ilə Bakı və ətraf ərazilər daşnak-bolşevik qüvvələrindən azad edilib. Azərbaycanla Türkiyə arasında qarşılıqlı əlaqələr Azərbaycan sovetləşdikdən sonra da davam edib. Belə ki, Türkiyənin istiqlalının ilk illərində Azərbaycandan Türkiyəyə maddi dəstək olaraq pul, qızıl, neft və neft məhsulları göndərilib.

Azərbaycan-Türkiyə münasibətləri özünü tarixi Azərbaycan ərazilərinin Ermənistan tərəfindən ilhaq edilməsinin qarşısının alınmasında da göstərib. Belə ki, sovet rəhbərliyi Azərbaycanın Zəngəzur və Naxçıvan əyalətlərini, habelə Qarabağı Ermənistana birləşdirməyə, Azərbaycan ərazisi hesabına ermənilərin “Böyük



Ermənistan” xəyallarını gerçəkləşdirməsinə yardım etməkdə idilər. 1920-ci ildə Zəngəzurun Ermənistana verilməsindən sonra Naxçıvanın taleyinin həlli istiqamətində iş aparıldığı bir vaxtda Türkiyə sovet rəhbərliyi ilə danışıqlar aparmaqla bu məsələnin Azərbaycanın ərazi bütövlüyü çərçivəsində birdəfəlik həllində müstəsna rol oynadı. 1921-ci ildə imzalanmış Moskva və Qars müqavilələri ilə Naxçıvanın Azərbaycanın himayəsinə verilməsi, ərazisinin muxtariyyət statusu çərçivəsində Azərbaycan tərəfdən heç bir dövlətə güzəştə gedilməməsi öz təsdiqini tapdı.

“Azərbaycanın sevinci bizim sevincimiz, kədəri bizim kədərimizdir. Azərbaycan bizim qardaşımızdır. Heç nəyə baxmayaraq ona yardım etmək borcumuzdur” kəlamının müəllifi isə böyük Mustafa Kamal Paşa Atatürkdür.

Türk dünyasının birliyi strategiyası: Heydər Əliyevdən – İlham Əliyevə, Süleyman Dəmirəldən – Rəcəb Tayyib Erdoğana...

Azərbaycan müstəqilliyini əldə etdikdən sonra Türkiyə Respublikası XX əsrin əvvəllərində olduğu kimi yenə Azərbaycanın yanında yer aldı. Türkiyə Azərbaycanı ilk olaraq 1991-ci ilin 9 noyabr tarixində müstəqil dövlət kimi tanıdı. 14 yanvar 1992-ci ildən Türkiyə ilə Azərbaycan arasında diplomatik əlaqələr yaradıldı.

Tarix boyu Türkiyə və Azərbaycan arasında sarsılmaz dostluq və qardaşlıq münasibətləri mövcud olub. Hər iki xalqlar istər xoş günlərdə, istərsə də çətin vaxtlarda



birlik nümayiş etdirib, bir-birinin sevincini və kədərini bölüşüb. Dövlətlərimiz və xalqlarımız aralarındakı doğma münasibətləri bütün məqamlarda izhar ediblər.

Heydər Əliyev hələ sovet hakimiyyətinin Türkiyə Cümhuriyyəti ilə əlaqələrinin ən çətin və gərgin olduğu XX əsrin yetmişinci illərində Türkiyənin doqquzuncu prezidenti Süleyman Dəmirəllə ünsiyyət yaratmış və dostluq münasibətlərini çətin də olsa davam etdirmişdir. Çətin günlərin dostluğu Azərbaycanın dar günlərində yenidən üzə çıxmış, ilk növbədə, Naxçıvan Muxtar Respublikasının erməni işğalından xilas edilməsində və Qarabağ məsələsinin həlli proseslərində Azərbaycan üçün son dərəcə faydalı olmuşdur. Türkiyə Cümhuriyyətinin Cümhur başqanı Süleyman Dəmirəlin özünün xüsusi təyyarəsi ilə Naxçıvana gəlib, burada böyük və etibarlı dostu Heydər Əliyevlə birlikdə işğalçı Ermənistana sərt bəyanatlar səsləndirməsi XX əsrin doxsanıncı illərinin mürəkkəb dövründə Azərbaycan üçün xüsusi əhəmiyyət kəsb etmişdir.

Türkiyə ilə Naxçıvan Muxtar Respublikası arasında Araz çayı üzərində salınmış Ümid körpüsünün açılışı mərasimində Türkiyənin 9-cu Prezidenti Süleyman Dəmirəlin Heydər Əliyevlə birlikdə iştirak etməsi və nitq söyləməsi təkcə Azərbaycan üçün yox, türk dünyasından ötrü son dərəcədə əhəmiyyətli hadisə idi. Türk dünyasının iki nəhəng liderinin 28 may 1992-ci il tarixdə Araz çayı üzərində açdıqları Sədərək-Dilucu Ümid körpüsü yalnız Azərbaycanla deyil, bütün türk dünyası ilə Türkiyəyə əhəmiyyətli bir qapının açılması deməkdir. Vaxtilə Mustafa Kamal Atatürkün qızıl pula aldığı Aralıq Dilucundakı 11 kilometrlik quru sərhəd ərazisi təxminən 70 ildən sonra həm Türkiyə və türk dünyası və həm də Azərbaycan-Naxçıvan üçün mühüm strateji əhəmiyyətə malik bir faktora çevrilmişdir. Ümumiyyətlə, Heydər Əliyev-Süleyman Dəmirəl münasibətləri Azərbaycan-Türkiyə əlaqələrində xüsusi bir mərhələ təşkil edir.

Türkiyənin 9-cu prezidenti Süleyman Dəmirəl “Azərbaycan Prezidenti, qardaşım Heydər Əliyev” adlı məqaləsində (2003) Azərbaycan xalqının milli liderinin tarixi xidmətlərini dünyanın böyük dövlət adamlarının öz xalqları qarşısındakı tarixi xidmətləri ilə müqayisə edib göstərir ki, Çörçilin 1940-cı, Ruzveltin 1942-ci, Adenaurun 1946-cı, De Qollun 1958-ci ildə gördükləri

işləri Heydər Əliyev 1993-cü ildə gördü. Heydər Əliyevin "intəhasız təcrübəsi, qətiyyəti, əzmi, uzaqgörənliyi, sülhsevərliyi, Azərbaycana və Azərbaycan xalqına olan sonsuz məhəbbəti, türk tarixinə, mədəniyyətinə və türklüyə bağlılığı, vətənpərvərliyi hər cür tərifdən yüksəkdə dayanır". Heydər Əliyevlə dostluğundan hər zaman fəxrlə söz açan Türkiyənin doqquzuncu prezidenti Süleyman Dəmirəlin sözləri yaddaşımıza həkk olunmuşdur: "Azərbaycan xalqının bəxti onda gətirib ki, onun Heydər Əliyev kimi lideri var".

Ümummilli Azərbaycan lideri Türkiyə Cümhuriyyəti ilə əlaqələrə xüsusi fikir verirdi. O, qardaş ölkənin qurucusu M.K.Atatürkü dünyada XX əsrin ən böyük şəxsiyyətlərindən biri adlandıraraq deyirdi: "Ölümündən sonra da Türkiyə xalqı onun qoyduğu yol ilə gedir. Görün yol nə qədər doğru-düzgün qurulub ki, o yoldan nə sağa, nə sola dönmək mümkün deyil. Bu, Mustafa Kamal Atatürkün müdrikliyini göstərir".

Biz hamımız yaxşı bilirik ki, türk dünyasının bu iki dahi şəxsiyyəti türk xalqlarının birlik və həmrəylinin möhkəmlənməsinə fədakarlıqla xidmət etmişlər. Heydər Əliyev demişdir: "Atatürkün şəxsiyyəti, onun yaratdığı Türkiyə Cümhuriyyəti mənim üçün örnəkdir". Mustafa Kamal öz ömrünü böyük türk millətinin istiqlalına həsr etdiyi kimi, Heydər Əliyev də həyatını Azərbaycanın müstəqillik və azadlığının dönməzliyinin təmin olunmasına həsr etmişdir. Ulu Öndər xarici siyasətdə ilk gündən Türkiyə ilə əməkdaşlığı önə çəkmişdir. Türkiyə Cümhu-



riyyətinin qurucusu Mustafa Kamal Atatürkə dərin hörmət və ehtiram bəsləyən Heydər Əliyev türk xalqları arasında öz dövrünün Atatürkü kimi tanınmışdır.

Türk dünyasının fəxri Heydər Əliyevin Azərbaycan və Türkiyə münasibətləri və bütün türk dünyası üçün xüsusi əhəmiyyət kəsb edən Böyük Millət Məclisində səsləndirdiyi "Bir millət, iki dövlət" düsturu üzərində dayanmağı zəruri hesab edirəm. Əlbəttə, "Bir millət, iki dövlət" gerçəkliyi, hər şeydən əvvəl, Azərbaycan-Türkiyə münasibətlərinin tarixini və müasir əhəmiyyətini çox dəqiq ifadə edən, atalar sözü kimi səslənən müdrik bir aforizmdir. Heydər Əliyevin "Bir millət, iki dövlət" kəlamı qısa vaxtda inkişaf edərək Azərbaycan-Türkiyə münasibətlərində strateji xarakterli müttəfiqliyə qədərki bütün istiqamətləri əhatə edən bir düstura çevrilmişdir. Ulu Öndərin "Azərbaycan-Türkiyə: bir millət – iki dövlət" şüarı bu gün də iki qardaş dövlətin qarşılıqlı etimada əsaslanan sıx əlaqələrinin leytmotividir.

Qürur doğuran odur ki, Azərbaycanın milli liderinin türk dünyasının qarşılıqlı əlaqələri, yüksəlişi strategiyasını Azərbaycan Prezidenti İlham Əliyev Azərbaycana rəhbərlik etdiyi elə ilk aylardan uğurla davam və daha da inkişaf etdirməkdədir. Milli lider Heydər Əliyevin layiqli varisi olan İlham Əliyev Prezident kimi Türkiyəyə ilk rəsmi səfəri ərəfəsində demişdi: "Biz öz siyasətimizi müstəqil şəkildə aparmalıyıq ki, xalqlarımız, millətimiz daha da güclənsin, qüdrətlənsin, möhkəmlənsin. Bizim gücümüz də birlikdədir". Ankara görüşlərində həm Azərbaycanın, həm də Türkiyənin xüsusi beynəlxalq problemlərinin həllində hər iki dövlətin başçılarının prinsipial mövqe nümayiş etdirməsi həmin "güc birliyi"nin siyasi reallıq olduğunu bütün dünyaya bir daha nümayiş etdirdi.

Azərbaycan Respublikasının ən ağrılı problemi olan Qarabağ məsələsində də Türkiyə qardaş ölkə Azərbaycanın yanında olub, onun haqlı mövqeyini beynəlxalq arenalarda dəstəkləyib. Azərbaycan ordusu istər Türkiyədə, istərsə də Azərbaycanda müxtəlif təlimlərdə əldə etdiyi döyüş qabiliyyətləri hesabına 2016-cı ildə Lələtəpə yüksəkliyinin alınmasında, 2018-ci ilin Günnüt zəfərində misilsiz rəşadət nümayiş etdirib. Azərbaycan tarixinə qızıl hərflərlə yazılan 2020-ci ilin sentyabrın 27-da səhər saatlarında Ermənistan silahlı qüvvələrinin genişmiqyaslı təxribat törədərək cəbhə boyu zonada Azərbaycan Ordusunun mövqelərini və yaşayış məntəqələrini iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutması Azərbaycan ordusu mənfur düşmənin layiqli cavabını verməyə sövq etdiyindən Azərbaycan Silahlı Qüvvələri əks-hücum əməliyyatları həyata keçirdi və bununla da İkinci Qarabağ müharibəsi başladı. Müdrik rəhbər, qətiyyətli sərkərdə Prezident İlham Əliyevin rəhbərliyi ilə mübariz azərbaycan xalqı və rəşadətli ordusu düşmən üzərində parlaq qələbə qazandı. Otuz ilə yaxın müddətdə işğal altında olan dədə-baba torpaqları bu qələbə nəticəsində hərbi və siyasi-diplomatik yolla azad edildi, ölkələrinin ərazi bütövlüyü bərpa olundu.

2020-ci ilin sentyabr ayının 27-də Ermənistan silahlı qüvvələrinin Azərbaycana qarşı törədilən genişmiqyaslı hərbi təxribatını pisləyən Türkiyə Respublikası hər zaman Azərbaycanın yanında olacağını bəyan edib. Azərbaycan Respublikasına bütün vasitələrlə dəstək olmağa hazır olduğunu deyən Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan dünyada erməni diasporuna, erməni lobbilərinin bir növ əsirinə çevrilən dövlətlərə öz bəyanatı ilə mesaj vermiş oldu. Türkiyənin iqtidar və müxalifətinin, həmçinin mediasının Azərbaycanın haqq savaşında yanında olması İkinci Qarabağ müharibəsində Azərbaycanın qələbə əldə etməsində, Azərbaycana qarşı Ermənistanın işğalçı mövqeyinin ifşa olunmasında mühüm rol oynadı. Türkiyə Respublikasından alınmış ən müasir hərbi texnikaların, xüsusilə Bayraktar pilotsuz uçuş aparatlarının Azərbaycan əsgərinin yanında olması qələbənin təminatında çox böyük rol oynadı. Xüsusilə Azərbaycan mediası ilə birgə Qarabağ həqiqətlərinin

işıqlandırılmasında rolu olan Türkiyə telekanallarının, xəbər portallarının, qəzetlərin, sosial şəbəkələrin müstəsna rolu tarixi Zəfərin qazanılmasında öz bəhrəsini verdi. Türkiyə müharibədən sonra Qarabağda təhlükəsizliyin təmin olunması və nəzarətdə saxlanılması prosesinə də dəstəyini verir.



Şanlı Qələbənin şərəfinə 2020-ci ilin dekabrın 10-da Azərbaycan Prezidenti İlham Əliyevin və Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın iştirakı ilə Bakının ən böyük meydanı olan "Azadlıq meydanı"nda möhtəşəm Zəfər Paradı keçirildi. Xüsusi vurğulamaq lazımdır ki, Rəcəb Tayyib Ərdoğanın Bakıda Azadlıq meydanında keçirilən Zəfər Paradında Prezident İlham Əliyev ilə çiyin-çiyinə dayanması ölkələrimizin birliyini, xalqlarımızın qardaşlığını bir daha bütün dünyaya nümayiş etdirdi. Düşmənin ələ keçirilən silah-sursat və texnika ilə yanaşı, cənab İlham Əliyevin 2018-ci ildə keçirilən paradda dediyi kimi, işğaldan azad olunan ərazilərdə qaldırılan dövlət bayraqları da Zəfər Paradında nümayiş etdirildi.

Bakıda keçirilən tarixi Zəfər paradında hər iki ölkənin Prezidenti bir daha bu münasibətlərin bundan sonra daha sıx, daha şaxəli olacağının mesajını verdi. O şərəfli günlərdə hər iki ölkə şərəflə Ulu Öndər Heydər Əliyevin "Bir millət, iki dövlət", böyük öndər Mustafa Kamal Atatürkün "Azərbaycanın sevinci sevincimiz, kədəri kədərimizdir" tarixi sözlərinin həqiqətini dünyaya nümayiş etdirdilər. Azərbaycan və Türkiyə arasında əlaqələrin belə səviyyədə inkişafı təkcə bu dövlətlərin yox, həm də regionun ümumi tərəqqisinə, sabitliyin bərqərar olmasına mühüm töhfələr verir.



Bundan öncə də həmin meydanda bir neçə möhtəşəm parad keçirilib. Bakının azad edilməsinin 100 illiyi münasibətilə 2018-ci il sentyabrın 15-də keçirilmiş paradda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə birlikdə Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan da iştirak etmişdi. Ancaq Zəfər Paradının əvvəlkilərdən fərqi ondan ibarət idi ki, həmin gün meydandan düşmən ordusunu darmadağın etməklə ərazi bütövlüyünü təmin etmiş Müzəffər Ordunun hərbçiləri qələbə əhval-ruhiyyəsi ilə addımlayırdılar. Hər birimizi hədsiz qürurlandıran və hələ də təəssüratlarının təsiri altında olduğumuz bu parad müstəqil Azərbaycanın ilk Zəfər Paradı idi. Eyni zamanda, Türkiyə-Azərbaycan əbədi qardaşlığının növbəti təzahürü olan bu hərbi parad həm də Azərbaycanı sevməyən ermənipərəst dövlətlər üçün ciddi bir siyasi eyham oldu. Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan da geniş məzmunlu, qardaşlıq, birlik bağlarımıza əsaslanan nitqində vurğuladı ki, "Türkiyə olaraq Azərbaycanla münasibətlərimizdə hər zaman Ulu Öndər Heydər Əliyevin "bir millət, iki dövlət" şüarını rəhbər tutduq. Qazi Mustafa Kamal Atatürkün əziz ifadəsi ilə Azərbaycanın kədərini kədərimiz, sevincini sevincimiz bildik. Qarabağın 30 il işğalda qalmasını qəlbimizdə yara bildik. Bu gün də Qarabağın azad edilməsini birlikdə qeyd edirik".

Biz İkinci Qarabağ müharibəsində "Bir millət, iki dövlət" prinsipinin nə qədər böyük əhəmiyyətə malik olduğunu əyani şəkildə görə bildik. "Bir millət, iki dövlət" düsturu Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevlə Türkiyə Cümhuriyyətinin Prezidenti Tayyib Ərdoğanın 15 iyun 2021-ci ildə işğaldan azad olunmuş Şuşa şəhərində imzaladıqları məşhur "Şuşa Bəyannaməsi" ilə dövlətlərarası münasibətlərin inkişafını tənzimləyən və istiqamətləndirən beynəlxalq əhəmiyyətə malik olan diplomatik hadisə səviyyəsinə yüksəldilmişdir. "Şuşa Bəyannaməsi"ndə Azərbaycan Respublikası və Türkiyə Respublikası müstəqillik, suverenlik, ərazi bütövlüyü, beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı, dövlətlərin daxili işlərinə qarışmamaq prinsiplərini rəhbər tutduqları təsbit edilir. Tərəflərin regional və beynəlxalq miqyasda sabitlik və rifah vasitəsilə sülh, dostluq və mehriban qonşuluğa əsaslanan beynəlxalq münasibətlərin inkişaf etdirilməsi, eləcə də münaqişələrin və regional və qlobal təhlükəsizlik və sabitlik məsələlərinin həlli istiqamətində birgə səylər göstərdikləri qeyd edilir. Həmçinin Tərəflərdən hər hansı birinin onun müstəqilliyinə, suverenliyinə, ərazi bütövlüyünə, beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığına və ya təhlükəsizliyinə qarşı üçüncü dövlət və ya dövlətlər tərəfindən təhdid və ya təcavüz edildiyi təqdirdə, Tərəflər birgə məsləhətləşmələr aparararaq və bu təhdid və ya təcavüzün aradan qaldırılması məqsədilə BMT Nizamnaməsinin məqsəd və prinsiplərinə müvafiq təşəbbüs həyata keçirəcəklərini, bir-birinə BMT Nizamnaməsinə uyğun zəruri yardım göstərəcəklərini öhdələrinə götürmüşlər. Türkiyə və Azərbaycan qarşılıqlı maraq doğuran beynəlxalq məsələlər üzrə həmrəylik və qarşılıqlı dəstək nümayiş etdirərək eyni mövqedən çıxış etməklə ikitərəfli əməkdaşlığın dərinləşdirilməsi ilə yanaşı, BMT, ATƏT, Avropa Şurası, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, İslam Əməkdaşlıq Təşkilatı daxil olmaqla, beynəlxalq və regional qurumlar çərçivəsində də bir-birinə qarşılıqlı dəstək verəcəklər.

Şuşa Bəyannaməsində qardaş dövlətlərin Silahlı Qüvvələrinin müasir tələblərə uyğun olaraq yenidən formalaşdırılması və modernləşdirilməsi istiqamətində birgə səylərin göstərilməsi, müdafiə qabiliyyətinin və hərbi təhlükəsizliyin möhkəmləndirilməsinə yönələn tədbirlərin həyata keçirilməsi, iki ölkənin silahlı qüvvələrinin birlikdə fəaliyyət qabiliyyətinin artırılması, müasir texnologiyalara əsaslanan silah-sursatın idarə olunmasında sıx əməkdaşlığı və bu məqsədlə səlahiyyətli struktur və qurumların əlaqəli fəaliyyətinin təmin edilməsi vurğulanır. Buraya, həmçinin hər iki ölkənin Təhlükəsizlik şuralarının milli təhlükəsizlik məsələləri üzrə müntəzəm olaraq birgə iclaslarının keçirilməsi və bu iclaslarda milli mənafelərə, ölkələrin maraqlarına toxunan regional və beynəlxalq təhlükəsizlik məsələlərinin müzakirəsinin aparılması da daxildir. Ticarət-iqtisadi münasibətlərə gəlincə, milli iqtisadiyyatların və ixracın şaxələndirilməsi üzrə səylərin artırılması, malların sərbəst hərəkətinin təşkili mexanizmlərinin yaradılması istiqamətində zəruri tədbirlərin görülməsi, Cənub Qaz Dəhlizinin səmərəli şəkildə istifadə olunmasına və daha da inkişaf etdirilməsinə yönəldilmiş səylərin əlaqələndirilmiş şəkildə davam etdirilməsi, intellektual nəqliyyat sistemləri texnologiyalarından istifadə etməklə beynəlxalq nəqliyyat dəhlizlərinin Azərbaycan-Türkiyə hissələrində tranzit-nəqliyyat potensialının daha da inkişafı, Azərbaycan və Türkiyəni birləşdirən Zəngəzur dəhlizinin açılması, regionda nəqliyyat-kommunikasiya əlaqələrinin bərpası, beynəlxalq nəqliyyat dəhlizlərinin inkişafının təşviqi kimi son dərəcə mühüm məsələlər də yer alır. Göründüyü kimi, bu mühüm tarixi sənəd özündə hər iki dövlətin və xalqın milli mənafelərinə, beynəlxalq birliyin, o cümlədən regionun sabitliyinə, sülhə, rifaha və digər maraqlarına hesablanmış olduqca önəmli məsələlər barədə müddəaları özündə cəmləşdirib. Bu da qlobal və regional sülhü, rifahı, inkişafı, eləcə də iki qardaş ölkənin uğurlarını şərtləndirəcək.

Müasir dövrdə İlham Əliyev-Rəcəb Tayyib Ərdoğanın birliyi və həmrəyliyi türk dünyasının böyük gələcəyinin əsas təminatı deməkdir. Artıq Heydər Əliyevin böyük uzaqgörənliklə ifadə etdiyi “Bir millət, iki dövlət” gerçəkliyi türk dünyasında sürətlə genişlənməkdə olan inteqrasiyanın nəticəsində “Bir millət, iki dövlət”ə doğru inkişaf etməkdədir.



Azərbaycan Prezident İlham Əliyevin Avropa İttifaqının “Şərq tərəfdaşlığı” Proqramının sammitindəki çıxışı zamanı “Bu masa arxasında Türkiyə nümayəndələri yoxdur. Ancaq mən buradayam” deməsi, dünyanın əksər ölkələrinin planetimizin ən böyük ədalətsizliklərindən birinə – erməni işğalına reaksiya vermədiyi dövrlərdə Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğanın “Qarabağ Azərbaycan qədər bizim də məsələmizdir” bəyanatı, Azərbaycana rəsmi səfəri çərçivəsində Milli Məclisdə söylədiyi nitqində “Bu gün də Azərbaycanın yanındayıq və bütün dünya bilsin ki, daim Azərbaycanın yanında olacağıq. Necə ki, Çanaqqalada azərbaycanlı gənclər Anadolu gəncləri ilə birlikdə şəhadətə yürüyüb qələbə qazanmışdılarsa, necə ki, Nuru Paşanın aslanları 1918-ci ildə Azərbaycanın köməyinə gəlmişdilərsə, biz də bu gün və gələcəkdə bərabər olacağıq” deməklə konkret mövqe ortaya qoyması Azərbaycan-Türkiyə qardaşlığının sarsılmazlığının bariz nümunələridir.

Qeyd etmək lazımdır ki, Azərbaycan-Türkiyə müttəfiqliyini, birliyini və qardaşlığını, bir-birinə verdiyi güclü dəstəyi dünya təkcə Bakı-Tbilisi-Ceyhan, Bakı-Tbilisi-Ərzurum neft və qaz kəmərləri, Bakı-Tbilisi-Qars dəmir yolu xətti, TANAP və TAP kimi böyük iqtisadi layihələrin reallaşır. Sirr deyil ki, bu gün Türkiyə gündən-günə güclənməklə dünyada çox fəal və önəmli müsbət rol oynayır. Bölgədə gedən proseslərdə də Türkiyənin təsir imkanları artır. Bu da təbii olaraq bizi çox sevindirir. Çünki Türkiyə nə qədər güclü olarsa, Azərbaycan da o qədər güclü olacaq. Türkiyə ilə Azərbaycan arasında əlaqələr çoxşaxəli və genişdir. Əlbəttə ki, bu əlaqələr çox möhkəm tarixi və mədəni köklər əsasında qurulub. Xalqlarımız arasındakı doğmalıq, dostluq, qardaşlıq duyğuları bu əlaqələri daha da möhkəmləndirir. Eyni zamanda, istər nəqliyyat, istər energetika, istər mədəniyyət sahələrində, istərsə də humanitar sahədə birgə reallaşdırdığımız layihələr, birlikdə atılan addımlar bizi bir-birimizə daha da yaxınlaşdırır. Qeyd etmək lazımdır ki, Türkiyə ilə Azərbaycan arasında sıx əlaqələr təkcə xalqlarımız, ölkələrimiz üçün deyil, bölgə və dünya üçün də mühüm əhəmiyyət kəsb edir. Türkiyə-Azərbaycan əlaqələri regional əməkdaşlıq üçün də başlıca şərtdir. Hazırda Qafqaz regionunda sabitliyin və təhlükəsizliyin möhkəmləndirilməsi, bütün iqtisadi və nəqliyyat əlaqələrinin bərpası, eləcə də region dövlətləri arasında münasibətlərin normallaşdırılması və uzunmüddətli sülhün təmin edilməsi istiqamətində ölkələrimizin birgə təşəbbüsləri bunun təcəssümüdür. Yeri gəlmişkən, Qarabağda Türkiyə-Rusiya Birgə Mərkəzinin fəaliyyəti də regionda sülhün bərqərar olmasının səmərəli mexanizmi kimi diqqəti cəlb edir.

Fərəh və iftixar hisləri ilə vurğulanmalıdır ki, Azərbaycan-Türkiyə münasibətləri hazırda özünün ən yüksək zirvəsinə ucalıb. Otuz illik işğala son qoyulmasında və Azərbaycanın ərazi bütövlüyünün bərpasında Türkiyənin mənəvi-siyasi dəstəyini dövlətimiz və xalqımız yüksək qiymətləndirməklə heç vaxt unutmayacaq. Eyni soykökə, dilə, dinə, mədəniyyətə və bir çox digər qarşılıqlı tarixi bağlara malik olmağımız ölkələrimizi daha da yaxınlaşdırır və xalqlarımızın sevincli, kədərli günlərdə hər zaman bir-birinin yanında olmalarını şərtləndirir.



Qeyd etmək istərdim ki, 2023-cü ilin fevral ayında Türkiyədə baş verən təbii fəlakətin ağır nəticələrini aradan qaldırmaq məqsədilə Azərbaycanın dövlət qurumları səfərbər olaraq köməyə tələsdilər. Prezident İlham Əliyevin göstərişinə əsasən, fəlakət zonasına ilk olaraq Azərbaycanın xilasedicilər çataraq dağıntılar altında qalan insanları çıxarmağa başladılar. Azərbaycandan göndərilən 669 xilasedici Hatay, Antakiya, Kahramanmaraş, Adıyaman və digər şəhərlərdə xilasetmə əməliyyatlarında fəal iştirak edib. Azərbaycanlı xilasedicilər 53 nəfəri xilas edib, dağıntılar altından 780 cəsədi çıxararaq yaxınlarına veriblər. Fəlakət bölgəsinə 121 həkim və tibbi personal, 150 könüllü gedərək qardaş xalqın dərdinə şərik olub və səmərəli fəaliyyət göstərib. Azərbaycanın hərbi həkimləri 3123 nəfər tibbi xidmət göstərib, ağır yara alanları müalicə edərək sağaldıblar. Azərbaycanın dövlət qurumları tərəfindən Türkiyəyə 6665 çadır, 145 konteyner tipli mobil ev göndərilib, 2 səhra hospitalı və 4 səhra mətbəxi qurularaq zəlzələdən zərər çəkən insanlara xidmət edib. Heydər Əliyev Fondunun Türkiyədə baş verən zəlzələyə ilk reaksiya verən təşkilatlardan biri olduğunu xüsusilə vurğulamaq lazımdır. Azərbaycanın Birinci vitse-prezidenti, Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyevanın təşkilatçılığı ilə Türkiyədəki zəlzələ bölgəsinə 2518 çadır, 135 elektrik generatoru, 19 min 894 ədəd yataq və yataq ləvazimatı, 404 min 58 adda dərman və tibbi ləvazimat, 143 min 955 dəst isti geyim, 2653 qızdırıcı avadanlıq, 6603 qutu ərzaq və qida məhsulu və digər zəruri əşyalar alınaraq göndərilmişdir. Bütün bunlarla yanaşı qardaş Azərbaycan milyonlarla dollar məbləğində pulu birbaşa maliyyə yardımı kimi göndərməklə ən ağır vaxtlarımızda bizə inanılmaz köməkdarlıq etmişdilər.



Azərbaycan Prokurorluğu ilə ikitərəfli və regional, eləcə də beynəlxalq əməkdaşlıq formatında keçirilən çoxsaylı faydalı və səmərəli görüşlər iki ölkənin prokurorluq orqanları arasında qarşılıqlı münasibətləri daha da zənginləşdirir.

Qeyd etmək lazımdır ki, Azərbaycan və Türkiyə prokurorluqları arasında da hər zaman sıx işgüzar əlaqələr və səmimi münasibətlər mövcud olub. Dəvətimlə Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyevin rəhbərlik etdiyi nümayəndə heyətinin Türkiyə və Baş prokuror Kamran Əliyevin dəvəti ilə Türkiyə prokurorluğunun nümayəndə heyəti Bakıda və Azərbaycanın müxtəlif bölgələrində rəsmi səfərlərdə olub. Belə sıx əlaqələr bu münasibətlərin yeni müstəvidə uğurla davam etməsinə, daha da möhkəmləndirilməsinə və dərinləşdirilməsinə rəvac verir.

Azərbaycan Respublikasının Baş prokuroru cənab Kamran Əliyevin mənim dəvətimlə 14 – 17 fevral 2021-ci il tarixlərində Ankara şəhərinə səfərinin əhəmiyyəti və konkret nəticələri təqdirəlayiqdir. Bu, Azərbaycanın Dağlıq Qarabağda qələbə qazanmasından sonra cənab Kamran Əliyevin ilk rəsmi səfəri idi. Səfər çərçivəsində keçirilən görüşlərdə iki dost və qardaş ölkə arasında “Bir millət, iki dövlət” şüarı əsasında mövcud hüquqi əməkdaşlığın daha da möhkəmləndirilməsi qiymətləndirilib, fikir mübadiləsi aparılmışdır. Azərbaycan Baş Prokurorluğu ilə Türkiyənin Ali Məhkəməsinin Baş Prokurorluğu arasında əməkdaşlığın gücləndirilməsi və təcrübə mübadiləsinin aparılması məqsədi ilə 2015-ci il martın 16-da imzalanmış Razılıq Memorandumu çərçivəsində hüquqi əməkdaşlığın gələcək inkişafı qiymətləndirilib. O cümlədən, bu səfər çərçivəsində keçirilən görüşlər zamanı iki mühüm qərar qəbul edilib və həyata keçirilib. Bunlardan birincisi, Türk Dövlətləri Təşkilatının Baş Prokurorlar Şurasının yaradılmasına səy göstərilməsi, digəri isə Beynəlxalq Prokurorlar İttifaqının (IAP) çətiri altında Ali Apellyasiya Məhkəməsi Baş Prokurorluğunun ev sahibliyi etdiyi İAP Regional Konfransının İstanbulda təşkili üzrə lazımi işlərin yerinə yetirilməsidir. Respublikamızın qurulmasının 100-cü illik yubileyi olan 2023-cü ildə, IAP Avropa Regional Konferansının Türkiyədə keçirilməsinin tarixi əhəmiyyət kəsb etdiyi razılaşdırılmışdır.

Regionumuzda baş verən çağırışlara və təhdidlərə qarşı mübarizədə, mövcud potensialın inkişafında və qarşılıqlı təcrübə mübadiləsində qardaş və dost türkdilli ölkələrin prokurorluq orqanları ilə əlaqələrin yeni formatda təşkili cinayətkarlığa qarşı mübarizə üzrə birgə səylərin gücləndirilməsinə və daha effektiv təşkili üçün mühüm amil hesab edilmişdir.

2021-ci ilin may ayında Azərbaycan Respublikasının Baş Prokuroru Kamran Əliyevin dəvəti ilə qardaş ölkəyə rəsmi səfəri çox gözəl xatırlayıram.

Vəzifəyə gəldikdən sonra mənim ilk rəsmi xarici səfərimin Azərbaycana olması bizim ürək bağlarımızın dərinliyindən xəbər verir. Səfər çərçivəsində aparılan danışıqlar zamanı Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə Türkiyənin Ali Məhkəməsinin Baş Prokurorluğu arasında əməkdaşlığın və təcrübə mübadiləsinin artırılması məqsədilə 16 mart 2015-ci il tarixli Razılıq

Memorandumunu əvəz edən 31 may 2021-ci il tarixdə yeni Razılıq Memorandumu imzalanmışdır. Azərbaycan Respublikasının Baş Prokurorluğu ilə güclü əməkdaşlıq və dostluq münasibətlərinin əlaməti olaraq həmkarım cənab Kamran Əliyev tərəfindən medala layiq görülmək xoşbəxtliyi xatirələrimdə öz gözəl yerini qoruyub saxlayır.

Bu səfər zamanı, həmçinin Türkiyə Respublikası Ali Məhkəməsi Baş Prokurorluğu və Azərbaycan Respublikası Baş Prokurorluğunun birgə təşəbbüsü ilə Türkdilli Ölkələrin Əməkdaşlıq Şurasına üzv olan ölkələrin Baş Prokurorluqları arasında əməkdaşlığı inkişaf etdirmək və gücləndirmək üçün Türk Dövlətləri Təşkilatının üzv ölkələrinin Baş Prokurorluqlar arasında daimi məsləhətləşmə və iş imkanı yaratmaq məqsədilə Türkdilli Dövlətlərin Baş Prokurorları Şurasının təsis sənədi layihəsinin mətni üzərində danışıqlar apararaq konkret addımların atılması, Ankarada qəbul edilən qərarları həyata keçirmək əzminin göstəricisi oldu.

Səfər zamanı mənim və nümayəndə heyətimin Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən qəbul edilməsi, tariximizdən gələn köklü bağlarla gələcəyə doğru addımlarda qətiyyətin nə qədər güclü olduğunu bizə də dərindən hiss etdirmiş və xatirələrimdə öz məxsusi yerini tutmuşdur. Xüsusən də "Zəngəzur" dəhlizinin açılışı ilə bağlı qarşılıqlı ruh yüksəkliyi və həyəcan bölüşülmüşdür.



Gəncəyə təşkil olunan səfərimiz zamanı 44 gün davam edən Qarabağ müharibəsi zamanı ermənilər tərəfindən guya hərbi obyekt olması iddiası ilə 2020-ci ilin oktyabr ayında 4 dəfə ballistik raket hücumlarının həyata keçirildiyi və bu hücumlar nəticəsində 26 mülki vətəndaşın həlak olduğu, 142 nəfərin yaralandığı yerlərin, "Gəncə şəhərinin mərkəzindəki mülki yaşayış məntəqəsi" olduğu müşahidə edilmişdir. Gəncədə ermənilərin bombaladığı yaşayış məntəqələrinin dağıntıları arasında görünən uşaq oyuncaqları faciənin miqyasının ağır olduğunu dərindən hiss etmişdir.

Bu səfər zamanı yaddaşımda dərin izlər qoyan başqa bir yer isə Bakı şəhərindəki "Hərbi Qənimətlər Parkı Muzeyi" olmuşdur. Azərbaycan ordusunun, II Qarabağ müharibəsində Azərbaycan ordusunun Ermənistan ordusundan əsir götürdüyü silah və zirehli texnikanın nümayiş olunduğu açıq səma altındakı muzeyin hər an yaddaşlarda yer alan yaxın tarixin unudulmaması, xüsusilə də gənclərin və uşaqların vizual yaddaşına təsiri baxımından çox təsir edici olduğunu qeyd etməliyəm.

Digər tərəfdən, Gəncəyə səfərim zamanı az qala cənnət guşəsi olan Göygölün və Maral gölünün təbii gözəlliyi məni valeh etdiyini səmimi etiraf edirəm.

Azərbaycan Respublikasının Baş Prokurorluğunda keçirilən ikitərəfli görüş zamanı dövlətlərimiz arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafının dövlət başçıları cənab İlham Əliyev və cənab Rəcəb Tayyib Ərdoğanın birgə ciddi səyləri və sarsılmaz siyasi iradələri sayəsində strateji tərəfdaşlıq səviyyəsinə yüksəldiyi, ikitərəfli münasibətlərin bir çox istiqamətlərdə uğurla inkişaf etdiyi xüsusilə qeyd olunaraq, tarixən xalqlarımızın milli köklərə söykənən bu münasibətlərin gələcək dövrdə də uğurla inkişaf etdiriləcəyi vurğulanmışdır. Bu görüşdə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanda həyata keçirilən məhkəmə-hüquq islahatları çərçivəsində prokurorluğun fəaliyyəti üçün zəruri normativ-hüquqi bazanın gücləndirilməsi, prokurorluq orqanlarının fəaliyyətinin hərtərəfli müasirləşdirilməsi, prokurorluğun strukturunun daha da təkmilləşdirilməsi, kadr korpusunun tamamilə yenidən formalaşdırılması istiqamətində aparılan köklü islahatlar, vətəndaşların hüquq və azadlıqlarının təmin edilməsi məqsədilə digər hüquq mühafizə orqanları ilə qarşılıqlı səmərəli əlaqələrin qurulması, həmçinin müasir dövrdə qarşıda duran digər vəzifələr barədə ətraflı məlumatlar əldə etmiş olduq. Görüşdə hüquqi sahədə əməkdaşlıq üzrə faydalı fikir mübadiləsi aparılaraq, qarşılıqlı səmərəli fəaliyyətin bundan sonra da uğurla davam etdiriləcəyinə əminlik ifadə edilmişdir. Qeyd olunan tədbirdə ölkələrimiz arasında beynəlxalq hüquqi əməkdaşlığın gücləndirilməsi, mövcud əlaqələrin gələcəkdə daha da intensivləşdirilməsi, hüquqi əlaqələrin dərinləşdirilməsi məqsədilə anlaşma memorandumu imzalanmış, ölkələr arasında beynəlxalq hüquqi əməkdaşlıq, ekstradisiya, prokurorların təlimi və digər əhəmiyyətli sahələrdə əlaqələrin bundan sonra da uğurla davam etdiriləcəyinə əminlik ifadə edilmişdir.

3 oktyabr 2009-cu il tarixdə Türkdilli ölkələrin dövlət başçılarının Naxçıvan şəhərində keçirilən 9-cu zirvə toplantısında türkdilli ölkələr arasında ortaq tarix, dil, mənsubiyyət və mədəniyyətə əsaslanan qarşılıqlı maraqları və münasibətləri daha da inkişaf etdirmək və həmrəyliyi gücləndirmək məqsədilə təməli qoyulmuş Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası çərçivəsində üzv ölkələrin Baş Prokurorları Şurasının təsis edilməsi qərara alınmışdır. 2021-ci ilin noyabrın 1-də Bakıda Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasına üzv Dövlətlərin Baş Prokurorları Şurasının ilk iclası keçirilmişdir. Yüksək səviyyəli iclasa Türkiyə, Özbəkistan, Qazaxıstan və Qırğız Respublikalarının Baş Prokurorları, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının baş katibinin müavini, Beynəlxalq Prokurorlar Assosiasiyasının Prezidenti və



digər nümayəndələri qatılıblar. Tədbirdə, həmçinin iştirakçı dövlətlərin və Macarıstanın Azərbaycanda fövqəladə və səlahiyyətli səfirləri də iştirak etmişdirlər.

İclasda Azərbaycan Respublikasının Baş prokuroru Kamran Əliyev böyük coğrafiyanı əhatə edən türk dünyasının hüquq-mühafizə orqanları arasında qarşılıqlı və səmərəli əməkdaşlığın genişləndirilməsinin əhəmiyyətini diqqətə çatdırmaqla dostluq və qardaşlıq təməlləri əsasında yaradılacaq Şuranın regional təhlükəsizlik, sülhə və sabitliyə yeni, daha təhlükəli təhdidlər üçün çağırışlara tutarlı cavab verməyə xidmət edəcəyini, mövcud potensialın inkişafında və qarşılıqlı fəaliyyətin əlaqələndirilməsində səmərəli vasitə olacağını bildirmişdir.

Bu tarixi iclasda eləcə də qeyd etmişdir ki, Türkdilli Dövlətlərin üzv Dövlətlərin Baş Prokurorları Şurasının təsis edilməsi ölkələrimiz arasında möhkəm təməllər üzərində qurulmuş, dərin tarixi köklərə əsaslanan yüksək səviyyəli dostluq və qardaşlıq münasibətlərinin inkişafına yeni impuls verməklə əməkdaşlığın keyfiyyətcə yeni, qarşılıqlı əlverişli olan səviyyəyə yüksəlməsinə xidmət edəcək, müasir çağırışlara adekvat şəkildə, sistemli yanaşmalar əsasında cavab verməklə cinayətkarlığa qarşı mübarizənin, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsinə mühüm töhfə olacaqdır.



Yüksək səviyyəli tədbirdə Türkiyə Cümhuriyyətinin Prezidenti cənab Rəcəb Tayyib Ərdoğanın iclas iştirakçılarına ünvanlanmış videomüraciəti nümayiş olunmuşdur.

Türk Dövlətləri Təşkilatının Baş Prokurorları Şurasının Bakıda keçirilmiş ilk iclası çərçivəsində Azərbaycanın Baş prokuroru, Beynəlxalq Prokurorlar Assosiasiyasının vitse-prezidenti həmkarım Kamran Əliyevin təşəbbüsü ilə Azərbaycan-Türkiyə-Beynəlxalq Prokurorlar Assosiasiyası formatında üçtərəfli görüş keçirilib. Formatın səmərəliliyi nəzərə alınaraq 2022-ci ilin iyulun 20-də növbəti görüş İstanbulda keçirilib. Azərbaycanın Baş prokurorun müavini Heydər Məmmədovun rəhbərlik etdiyi nümayəndə heyəti görüşdə iştirak etmişdir. Hər bir tədbirdə ölkələrimizin prokurorluq orqanları arasında da əməkdaşlığın yüksək səviyyədə olduğu xüsusilə qeyd olunmuşdur.

Ümumiyyətlə Azərbaycan Prokurorluğu ilə istər ikitərəfli, istərsə də regional əməkdaşlıq çərçivəsində, həmçinin 170-dən çox dövlətin üzvü olduğu dünya prokurorlarının ilk və yeganə qlobal təşkilatı olan Beynəlxalq Prokurorlar Assosiasiyası ilə səmərəli qarşılıqlı əməkdaşlığı formatında keçirilən çoxsaylı görüşlərdə hüquqi sahədə əməkdaşlıq üzrə faydalı fikir mübadiləsi aparılmış, həm ikitərəfli, həm də çoxtərəfli səviyyələrdə, beynəlxalq təşkilatlar çərçivəsində qarşılıqlı fəaliyyətin səmərəliliyindən, tərəfləri maraqlandıran məsələlər müzakirə edilərək, iki ölkənin prokurorluq orqanları arasında qarşılıqlı münasibətlərin bundan sonra da uğurla davam etdiriləcəyinə əminlik ifadə olunur. Bu əməkdaşlığın dairəsinə eləcə də Azərbaycan Prokurorluğu ilə Türkiyə Respublikasının Hakimlər və Prokurorlar Şurası arasında olan səmərəli əlaqələri də daxil etmək istərdim.

IAP çətiri altında Ali Məhkəmənin Baş Prokurorluğunun ev sahibliyi ilə 2-5 may 2023-cü il tarixləri arasında İstanbulda təşkil olunan "Rəqəmsallaşma dövründə effektiv araşdırma" mövzusunda I Avropa Regional Konferansının iki il davam edən hazırlıq prosesinin hər bir mərhələsində güclü dəstəyini dərindən hiss etdiyim İAP-ın vitse-prezidenti və həmkarım olan cənab Kamran Əliyevə səmimi təşəkkürümü bildirməyi özümə borc bilirəm.

Digər tərəfdən, Türkdilli Dövlətlərinin Baş Prokurorluqları arasında əməkdaşlığın inkişafı və gücləndirilməsi məqsədilə daimi məsləhətləşmələrin və iş mexanizminin yaradılmasının vacibliyi barədə eyni fikrə sahib olan Türk Dövlətləri Baş Prokurorluqları arasında 1 noyabr 2021-ci il tarixində Bakı şəhərində imzalanan Türk Dövlətləri Təşkilatı Baş Prokurorları Şurasının Təsis Sənədi çərçivəsində Cümhuriyyətimizin yüzilliyini qeyd etdiyimiz 2023-cü ildə Türk Dövlətləri Təşkilatının II Prokurorlar Şurasının iclasının 1 – 5 noyabr 2023-cü il tarixləri arasında Ankarada keçirilməsindən çox məmnun olduğumu xüsusilə qeyd etmək istəyirəm.

Qürurverici və sevindirici haldır ki, Türkiyə-Azərbaycan birliyi, dostluğu və qardaşlığı bu gün də uğurla davam edir, xalqlarımız arasındakı saf, səmimi və doğma münasibətlər daha da dərinləşərək yeni mərhələyə qədəm qoyur. Bütün bunlar onu göstərir ki, əbədi və əzəli Azərbaycan-Türkiyə birliyi, dostluğu və qardaşlığı sarsılmazdır və yüksələn xətlə inkişaf edəcəkdir.

Əziz azərbaycanlı qardaşlarıma sülh, əmin-amanlıq və firavanlıq arzularımı çatdırıram.

# Ədliyyə Nazirliyinin Ədliyyə Akademiyasının rektoru Şahin Əliyevin müsahibəsi



**Sual: Şahin müəllim, ilk əvvəl jurnalımızın redaksiya heyəti adından müsahibə verməyə razılıq verdiyiniz üçün Sizə dərin təşəkkürümüzü bildiririk. Bildiyiniz kimi, bu il ölkəmizin memarı və qurucusu, Ulu Öndər Heydər Əliyevin 100 ili tamam olur. Uzun illər bilavasitə Ulu Öndərin komandasında işləyən şəxs kimi onunla ilk görüşünüzü necə xatırlayırsınız?**

Ulu Öndərimizlə ilk görüşüm 1993-cü ilin avqust ayında baş tutmuşdur. Tariyel Ağayev zəng edəndə dedi ki, Şahin, kişi səni çağırır (cənab Prezidentə o vaxtı hamımız "kişi" deyirdik). Ağayev Tariyel o vaxtı Ali Sovetin sədrinin köməkçisi idi və Ulu Öndər Heydər Əliyev Ali Sovetin sədri seçilmişdir, mən də Prezident Aparatında Qanunvericilik və hüquqi ekspertiza şöbəsinin müdiri idim (1991-ci ilin dekabr ayında təyin olunmuşdum). Mən Ağayev Tariyeli çoxdan tanıyırdım, və Prezident Administrasiyasına (o vaxt Prezident Aparatı adlanırdı) gəlməzdən əvvəl Milli Məclisinin Hüquq şöbəsinin müdirinin birinci müavini vəzifəsində çalışırdım. Hüquq şöbəsinin müdiri, çox tanınmış hüquqşünas Azərbaycanın Ali Məhkəməsinin keçmiş sədri İbrahimov Abdulla Hacı oğlu idi və o hüquqşünaslar arasında böyük hörmət qazanmışdır. Çox yüksək insani keyfiyyətlər var idi o insanda. Durdum getdim Milli Məclisə. O yay çox isti idi. Əynimdə gödəkqol köynək idi, qalstuk yox idi, pencək yox idi. 33 yaşım var idi o vaxtı. Tariyel müəllim dedi ki, "sən onun yanına belə girə bilmərsən". Öz qalstuk və pencəyini verdi. Boyumuz təxmini eyni idi. Heydər Əliyevlə ilk görüşümüz o vaxt baş tutdu. Müəyyən tapşırıqlar verdi ki, müəyyən layihələri hazırlamaq lazım idi, ona görə ki, Ali Sovetin sədri kimi, o, həmçinin Prezident səlahiyyətlərini icra edirdi və prezidentin aktlarına imza atmaq hüququna malik idi. Birinci görüş bu oldu.

Təəssüratım barədə dedikdə, Heydər Əliyev barəsində uşaqlıq dövrümdən çox eşitmişdim. O, vaxtı ilə 1971-ci ildə mənim atamı Ədliyyə nazirinin birinci müavini vəzifəsinə təyin etmiş və atam onun haqqında evdə həmişə danışırdı. Xüsusən də müşavirələrdə iştirak edəndə onun çıxışları haqqında, onun Respublikamızın inkişafı üçün gördüyü işlər barədə, onun dahi şəxsiyyəti haqqında. Ona görə də məndə onun barəsində ilk təəssürat yarana bilməzdi, çünki bu təəssürat artıq var idi və onun barəsində artıq olan fikirlərim demək olar ki, on qat təsdiqləndi. O cür insan hələ mənim həyatımda rast gəlinməmişdir. O, unikal şəxsiyyət idi və deyə bilərəm ki, o tarixin paradoksu idi. Azərbaycan xalqı bəxtəvər idi ki, o vaxtı – faktiki olaraq vətəndaş müharibəsinin astanasında belə bir insan ölkənin tale yükünü üzərinə götürdü.

Heydər Əliyev Naxçıvandan Bakıya gəlmək istəmirdi. Çünki, Naxçıvan həmin dövr çox çətin vəziyyətdə idi, erməni təcavüzü davam edirdi, Naxçıvan faktiki blokadada olduğundan ərzaq və yanacaq qıtlığı var idi. Muxtar Respublikanın xilaskarı olan Heydər Əliyev Naxçıvanın Ali Məclisinin sədri seçilən kimi Naxçıvan üçün beynəlxalq təsisatlardan 200 milyon dollar kredit ala bildi və Naxçıvana humanitar yardımlar gətirdi. Ulu Öndər Naxçıvanın Ali Məclisində etdiyi ilk çıxışında belə bir sözlər demişdir: "vəziyyətimiz ağırdır, biz məhv olma qarşısındayıq, ölməli olsaq, mən də sizinlə öləcəm!" Ara verdikdən sonra demişdir: "Amma fikirləşirəm ki, belə olmayacaq".

Naxçıvanı bu vəziyyətdə o idarə etdi, ermənilərlə atəşkəs barədə şifahi sövdələşmə bağladı. Atəşkəs oldu. Naxçıvanın sərhədlərində müharibə demək olar ki, dayandı və camaatı aclıqdan, soyuqdan və qıtlıqdan qurtardı. O fikirləşirdi ki, Naxçıvandan getsə, yenə əvvəlki vəziyyət, bilavasitə ermənilər tərəfindən müharibə əməliyyatları yenə başlaya bilər. Lakin, Süleyman Dəmirəl ilə məsləhətləşmədən sonra qərara gəldi ki, Bakıya gəlsin.

O Bakıya gələndən sonra çox dramatik hadisələr baş verdi. 1993-cü ilin aprelində, Heydər Əliyev qayıtmazdan əvvəl Kəlbəcər artıq işğal edilmişdir və yadınıza salmaq istəyirəm ki, o vaxtı Əbülfəz Elçibəy Ali Baş Komandan deyildi. Ali Baş Komandan funksiyasını Xalq Cəbhəsinin üzvlərindən ibarət Milli Məclisin Dövlət Müdafiə Komitəsi həyata keçirirdi. O cür müharibədə komandanlıq kollegial aparılırdı. Bu isə hərbin hərfinə tamamilə ziddir. Kəlbəcərin işğalından və Qarabağa bütün yollar açılandan sonra müharibənin uduzulduğunu görən Milli Məclis Əbülfəz Elçibəyi Ali Baş Komandan elan etdi. Odur ki, Ulu Öndər Bakıya qayıtdığı dövrdə Azərbaycan artıq çox acınacaqlı vəziyyətdə idi.

Həmçinin bu zaman yüksək vəzifələrindən azad edilmiş şimal cəbhəsinin komandanı olan polkovnik Surət Hüseynov "cəbhəçilərə" qarşı mübarizəyə qalxmışdı. Surət Hüseynov intiqamını almaq üçün şimal cəbhəsindən bütün qoşunları çıxararaq Bakı tərəfə gətirirdi. Bunun müqabilində Xalq Cəbhəsi hərbi təyyarələri qaldırmışdır ki, Gəncəni bombardman etsinlər. Həmin dövr Xalq Cəbhəsinin yüksək vəzifəli bir funksioneri Surətlə danışıqlar



aparmaq üçün Gəncəyə getmək təklifinə Əbülfəz Elçibəy bildirmişdir ki: "Mən ora getsəm, məni öldürəcəklər". Buna cavab olaraq ona "o zaman sən şəhid kimi xalqın yadında qalacaqsan" deyildiyinə baxmayaraq, Elçibəy Gəncəyə getməkdən çəkinmişdir.

Heydər Əliyev isə Bakıya qayıtdıqdan sonra, hələ Milli Məclisə sədr seçilməzdən əvvəl, 1993-cü ilin iyun ayının 13-də parlamentdə çıxış edərək Xalq Cəbhəsindən olan deputatlara demişdir ki: "Bu siyasi oyunları qurtarın. Mən gedirəm Gəncəyə Surətlə danışmağa. Tək gedirəm. Mən qayıdandan sonra bu müzakirələrə davam edərik".

Əbülfəz Elçibəy Gəncəyə getmədi, baxmayaraq ki, onun Prezident kimi bütün mühafizə imkanları və güclü şəxsi mühafizəsi var idi. Heydər Əliyevin isə şəxsi mühafizəsi yox idi, yalnız jurnalistlərlə bir yerdə Gəncəyə yola düşdü. Ulu Öndər Surət Hüseynovla danışandan sonra, sonuncu qoşunları Bakıdan çəkdi. O vaxta qədər qoşunlar Bakının yanında, daha konkret desək Dərnəgül tərəfdə idilər və Bakını toplarla atəşə tuta bilərdilər. Heydər Əliyev tək başına belə çətin vəziyyəti həll etdi.

O həm dahi, həm də çox mərd şəxsiyyət idi. O ölümdən qorxmurdu. Onun həyatına 4 dəfə sui-qəsd olunmuşdur. Birinci sui-qəsd Moskvada olub. O Sovet İttifaqı Kommunist Partiyası Politbürosunun üzvü olanda geniş infarkt keçirmişdir və o infarkt süni təbiətli idi. 1992-ci ildə fransızlar SSRİ-nin məxfi bioloji silahları barədə film çəkmişlər və həmin filmin konsultantı (məşvərətçisi) DTK-nin axırıncı sədri Vadim Bakatin idi. Filmdə həmçinin məşhur sovet kardioloqu, miokard infarktı üzrə mütəxəssis, professor Aleksey Vinoqradovun sadə, lakin dəhşətli olan yeni tibbi silahın işlənib hazırlanmasında "nailiyyət"indən də bəhs edilir. O portativ kardioqraf idi. Mikronaqillər (elektrodlar) paltarın hər bir yerinə bərkidilə bilirdi. Bunu geyinən insana psixoloji təsir başlayırdı, telefonla və ya şəxsi danışıqlarla. Sonra elektrokardioqramla baxırdılar ki, işemiya, yəni ürəyin oksigenlə qidalanması hansı dərəcədədir. Bu bir dəfəyə olmurdu. Bir dəfə – beş dəfə və nəhayət qatillər öz arzularına çatırdılar. İnsan infarkt olurdu. Heydər Əliyev infarkt olub xəstəxanada müalicə olunanda SSRİ-nin ən görkəmli kardioloqları açıq-aşkar deyirdilər: "Sənin ömrünün 5 ili qalıb. Ərizəni yaz çıx. Yaşamaq istəyirsənsə çıx işdən. Lap çıxsan da, 5 ildən artıq yaşamayacaqsan". Xəstə adamla bu cür danışırdılar. Heydər Əliyev bundan sonra Azərbaycana uzun müddət rəhbərlik etdi və onların arzularını gözlərində qoydu, Azərbaycanı nəinki bu bəladan çıxartdı, hətta Azərbaycanı çox surətlə inkişaf elətdirdi, hər bir cəhətdən: iqtisadi, hərbi, sosial...

Çox maraqlıdır ki, 1994-cü ildə Bişkekdə atəşkəs imzalanmamışdan əvvəl Azərbaycan ordusu Ali Baş Komandan Heydər Əliyevin əmri ilə bütün gücünü Horadizə yönəltmişdir və son əməliyyat nəticəsində məhz Horadiz Azərbaycana qaytarıldı. İkinci Qarabağ Müharibəsində də əsas hücum məhz oradan başlandı. O da cənab Prezidentin Heydər Əliyevin strateji düşüncəsinin nəticəsidir.

**Sual: Sizin görkəmli dövlət xadimi, nüfuzlu hüquqşünas kimi formalaşmağınızda Ümummilli Lider Heydər Əliyevin hansı xidmətləri olmuşdur?**

Mən dövlət xadimi deyiləm, mən yalnız hüquqşünasam. 1991-ci ilin fevralında Ayaz Mütəllibov tərəfindən yeni Konstitusiyanın hazırlanması üçün 74



nəfərdən ibarət komissiya yaradılmışdır. O komissiya heç nə eləmədi. Sonra Rəsul Quliyev Parlamentin spikeri seçildi, onun tərəfindən 1993-cü ilin dekabr ayında 24 nəfərdən ibarət komissiya yaradıldı. Bu komissiya da heç nə eləmədi. 1994-cü ilin mayında o komissiyanın tərkibi daha da genişləndirildi, lakin yenə də bir layihə ortalığa qoya bilmədilər.

Və nəhayət 1994-cü ilin oktyabr ayında Ulu Öndər yeni Konstitusiya layihəsinin hazırlanması haqqında mənə tapşırıq verdi. Həmin layihə hazırlandı və cənab Prezidentə təqdim edildi. Ulu Öndərin tövsiyə və tapşırıqlarına əsasən bu layihəyə dəfələrlə düzəlişlər edildi. Bütün onun fikirləri həmin Konstitusiyada öz əksini tapdı. 1995-ci ilin mayında artıq Konstitusiya layihəsi ortalığa çıxarıldı. Layihə hazırlanandan sonra Konstitusiya komissiyası yaradıldı, onun sədri Heydər Əliyev idi, işçi qrupu yaradıldı və layihə ictimaiyyətə açıqlandı, qəzetlərdə müzakirə üçün dərc edildi, təkliflər gəldi, bir qismi nəzərə alındı, bir qismi nəzərə alınmadı.

Maraqlı məqamların biri dövlət dili ilə bağlı idı. Yəqin hamı bilir ki, Xalq Cəbhəsi dövründə Azərbaycanın dili dəyişdirilmişdir. Azərbaycan SSRİ-nin Konstitusiyasında dövlət dili kimi Azərbaycan dili göstərilmişdir və o maddə dəyişməmişdir. Lakin Xalq Cəbhəsi hakimiyyətə gələn kimi 1992-ci ildə qanun qəbul edərək dövlət dilini türk dili elan etdilər. Bununla da müəyyən narazılıqlar başladı. Xüsusi ilə də Bakı kəndlərində. Bu problem Azərbaycan dilinin incəliyi ilə bağlıdır, ona görə ki, ingiliscə iki ifadə var “turkish” və “turkic”, rusca da iki ifadə var “тюркский” və “турецкий”, Azərbaycan dilində hər iki söz eyni deyilir –“türk” və incəlik də buradadır. Misal üçün, polyaklar slavyandır, çexlər slavyandır. Onlar öz Konstitusiyasında slavyan dilini dövlət dili kimi yazmırlar və bir dildən başqa dilə lüğət varsa, deməli onlar ayrı-ayrı dillərdir. Azərbaycanca-türkcə lüğət mövcuddur. Ulu Öndər 1978-ci ilin Konstitusiyasına o müddəanı çox böyük əziyyətlə saldırmışdır. Ona görə ki, hətta Baltikyanı ölkələrdə dövlət dili söhbəti yox idi. Dövlət dili məsələsini 1977-ci ildə Brejnev hakimiyyəti yalnız Gürcüstan və Ermənistan üçün nəzərdə tuturdu. Ulu Öndərin səyləri nəticəsində Azərbaycanın Konstitusiyasına da o salınmışdır. Və dil məsələsi ilə əlaqədar Prezident Administrasiyasının 12-ci mərtəbəsində Ulu Öndər çox geniş müşavirə çağırmışdır, ziyalıları, yazıçıları dəvət eləmişdir. Müşavirədə həmçinin deputatlar və Administrasiyanın şöbə müdirləri də iştirak etdilər. O müşavirədən əvvəl mən Ulu Öndərə bir kitab tapıb vermişdim, o Kazım Bəyin kitabı idi. 1864-cü ildə dərc olunmuş kitabın adı belə idi “Сравнительная грамматика наречий Османлы и Адербиджанлы”, “Азербайджанлы” yox məhz “Адербиджанлы”.

Ulu Öndər bu müşavirədə də çıxış elədi və təklif etdi ki, Konstitusiyada dövlət dili Azərbaycan dili göstərilsin. Çox qəribədir ki, buna etiraz edə bilən Azərbaycanın bir neçə yazıçısı olub, adlarını çəkmək istəmirəm. O vaxtı Türkiyə əhalisi 50 milyondan artıq idi və onlar daha geniş auditoriyaya malik idilər. Bizim yazıçılar düşünürdülər ki, Türkiyədə dərc olunan kitabların oxunması bizim auditoriya üçün də səmərəli ola bilər. Ancaq bu məsələyə görə çox geniş müşavirə çağırmış Ulu Öndər qərara gəldi ki, Azərbaycan Respublikasının dövlət dili məhz Azərbaycan dili olmalıdır. Bu misalla demək istəyirəm ki, Ümummilli Lider bu və ya digər məsələləri həll edərkən, məsələyə dərindən yanaşırdı, onu fundamental kökündən və həmişəlik həll edirdi.

Konstitusiya ilə bağlı bir Rusiya müxbiri Ulu Öndərə “Nəyə görə Azərbaycanın Konstitusiyası 1993-cü ildə yox 1995-ci ildə işlənmişdir?” sualı vermişdir. Ulu Öndərin də cavabı belə olmuşdur: “Hər şeyi qaydasına salmaq üçün mənə iki il yarım lazım oldu”. Yəni ac və qorxu içində yaşayan insandan referendumda səs vermək tələb etmək mümkündürmü? Qeyri-mümkündür. O əvvəlcə fundamental məsələləri həll elədi, Azərbaycanı vətəndaş müharibəsindən qurtardı, ondan sonra digər fundamental məsələləri həll etməyə başladı.

**Sual: Ulu Öndər Heydər Əliyev dünya şöhrətli siyasətçi, dahi lider olmaqla yanaşı, savadlı hüquqşünas idi. Məlum olduğu kimi, o, müstəqil dövlətimizin hazırki qanunvericilik sisteminə daxil olan bir çox müstəsna əhəmiyyətli qanunvericilik aktlarının bilavasitə təşəbbüskarı və ideya müəllifi olmuşdur. Onun iştirakı ilə olan müzakirələri necə xatırlayırsınız?**

Ulu Öndərin iştirakı ilə çox müzakirələr olmuşdur. Birinci deyim, Heydər Əliyevin Konstitusiyadan sonra ilk tapşırığı Mülki Məcəllənin hazırlanması olub. Ona görə ki, köhnə SSRİ-nin Mülki Məcəlləsi artıq Azərbaycanda qüvvəsini itirmişdir. Orada özəl mülkiyyət yox idi, bütün mülkü qanunvericiliyin əsası sıfırdan yazılmalı idi və Mülki Məcəllə bizim keçmiş şöbə tərəfindən alman hüquqşünası, mərhum Eqbert Traumann köməkliyi ilə Almaniyanın Mülki Məcəlləsi əsasında hazırlanmışdır. Onun üzərində iş 4 il getdi, sonra baxılması üçün Milli Məclisə göndərilmişdir.

Bu məsələ ilə bağlı Milli Məclisə Bakı Dövlət Universitetinin hüquq fakültəsinin mülki qanunvericilik sahəsində professorları və ekspertləri dəvət edilmişlər, onlardan bir neçəsi MDB üzv ölkələrinin Model Mülki Məcəlləsinin layihəsinin hazırlanmasında iştirak etmişlər. Onlar çalışdılar ki, əvvəlcədən irəli sürdükləri ideyaları Azərbaycanın Mülki Məcəlləsinin layihəsində də həyata keçirsinlər. Nəticədə çox qəribə bir simbioz alındı: yarı alman sistemi, yarı MDB-nin Model Məcəlləsi. Odur ki, bugünkü Mülki Məcəllə üzərində yenidən işlər aparılmalıdır.

Heydər Əliyev dəfələrlə şəxsən Konstitusiya layihəsinin müzakirələrində iştirak etmişdir və mən ona Konstitusiyanın hazırlanması prosesi ilə əlaqədar dəfələrlə məruzə etmişdim. Axırıncı məruzə 1994-cü ilin aprel ayında Prezidentin rezidensiyasında baş tutmuşdur. Gecə saat 11 idi və o müzakirə gecə saat 1-ə qədər davam etmişdir. O müzakirədə hazırkı Prezidentimiz cənab İlham Əliyev də iştirak etmişdir. Bu müzakirə zamanı Ulu Öndərin fikirləri xüsusən dövlət quruluşuna, onun sistemində prezidentlik institutuna aid idi. Çünki layihə müzakirə olunarkən Milli Məclisin keçmiş sədri Rəsul Quliyev bu layihəni yaxşı qarşılamamışdır. Səbəb ondan ibarət idi ki, 1978-ci ilin Konstitusiyasına görə bütün nazirlər Milli Məclisin razılığı ilə təyin edilirdi. Milli Məclisin ixtiyarı var idi ki, hər bir nazirliyin işinə bilavasitə qarışsın, naziri çağırsın Milli Məclisə, ondan hesabat tələb etsin. Mərkəzi Bankın (o vaxt Milli Bank) sədri ona hesabat verirdi və tapşırıqlar alırdı. Vəziyyət belə idi ki, həmin Konstitusiyaya görə dövlət prezidentli respublika hesab oluna bilməzdi. O heç yarım prezidentli respublika da deyildi. Hakimiyyət səlahiyyətinin 75 % Milli Məclisdə, yəni Xalq Cəbhəsində idi. Milli Məclisin sədri kimi Rəsul Quliyev bu səlahiyyətləri vermək istəmirdi. Hətta Milli Məclisdə Konstitusiya layihəsinin növbəti müzakirəsi zamanı Rəsul Quliyev mənimlə təhqiredici formada müraciət etdiyi üçün mən tərbiyəm imkan verdiyi qədər ona cavab verərək, qapını çırparaq, Milli Məclisi tərk etmişdim. Rəsul Quliyevin bu hərəkəti həmçinin Ulu Öndərin də əsəbləşməsinə səbəb olmuşdur.



**Sual: Ümummilli Lider Heydər Əliyev prinsipial və qətiyyətli rəhbər olmaqla yanaşı, çox humanist və insanpərvər şəxs kimi əbədi yaddaşımızda qalmışdır. Onun bu keyfiyyətləri barədə bizimlə bölüşə bilərsinizmi?**

Xalq Cəbhəsi hakimiyyətə gələndən bir ay sonra ilk addımlarından biri kimi Bayıl təcridxanasında saxlanılan və ölüm hökmü ilə mühakimə edilmiş nəfərin güllələnməsi olmuşdur. Heydər Əliyevin ilk addımlarından biri isə ondan ibarət oldu ki, o, Azərbaycanda ölüm hökmünü ləğv etdi və bununla da postsovet dövlətlər sırasında bu məsələdə öndə gedən ölkəmiz oldu. Bundan artıq humanizm heç kimin ağlına gələ də bilməz, Ulu Öndər çox uzaqgörən şəxsiyyət idi.

**Sual: Müstəqil dövlətimizin mövcudluğunun, demək olar ki, ən çətin dövrləri olan 1994-cü ilin oktyabr və 1995-ci ilin mart hadisələri zamanı Siz Prezident Administrasiyasının məsul əməkdaşı kimi xidmət başında olmuşunuz. Həmin çətin günləri necə xatırlayırsınız?**

Nəinki mən, bütün Prezident Aparatı o gecələri yatmırdı. Evdən şöbə müdirləri yorğan-döşək götürmüşlər, otaqlarda o vaxt divan yox idi, 4 oturacaq düzülürdü və gecə həmin oturacaqlarda yatılırdı. Cənab Prezident də Administrasiyanın binasında idi. Xüsusi polis qüvvələrinin dəstələri Administrasiya istiqamətində hərəkətə başlayanda cənab Prezidentin bir çıxışı ilə Administrasiyanın ətrafına yüz minə qədər insanlar yığılmışdır. Cənab Prezident çıxdı onların qarşısına, balaca bir körpəni götürdü qucağına, qaldırdı öpdü və həmin qüvvələr o insanların arasından keçə bilmədi. Yəni Administrasiyaya hücum buna görə mümkün olmadı. O tək başına bir dəstə silahlı adamların qarşısına çıxmışdır ki, o adamların əlində zirehli texnika var idi. Bir çox nazirlərdə, baş nazir müavinlərində belə bir cəhət var idi ki, onlar heç vaxt birmənalı mövqe bildirmirdilər, qorxurdular ki, olmaz elə, olar belə... Ulu Öndər də hirslə əlini masaya vuraraq deyirdi: "Mövqeyinizi bildirin!" Onunda gur səsi var idi ki, məcbur edirdi ki, düz danışsınlar. O vaxtlar elə idi. Nazirlərə əsəbiləşəndə deyirdi: "Hamınız çıxıb gedə bilərsiniz! Mənə mənim köməkçimdən başqa heç kim lazım deyil!" O Azərbaycanı faktiki təkbaşına idarə edirdi. Bir çox adamlar ona kömək etməkdənsə, problemlər yaradırdı.

**Sual: Ümummilli Lider Heydər Əliyevin və Sizin iştirakınızla olan hansı maraqlı hadisələri bizimlə bölüşmək istərdiniz?**

Bir maraqlı hadisə haqqında Elmira Axundovaya da danışmışam, sizə də danışaram. Çox maraqlı idi.

Deməli 1994-cü il idi, Gömrük Komitəsinin sədri Tahir Əliyevi işdən çıxarırdılar. Mənə tapşırıldı ki, məsələ ilə bağlı çıxış edim. Mən də təəccübləndim ona görə ki, məndə nə gömrük statistikası, nə gömrük işçilərinin cinayət məsuliyyətinə cəlb olunması barədə göstəricilər, onların gəlirləri və sair məsələlər barədə heç bir məlumat yox idi. Bizim şöbə Qanunvericilik və hüquqi ekspertizası şöbəsi adlanırdı və fəaliyyət spesifikasına görə belə məlumatlar şöbəyə ötürülmürdü. Fikirləşdim ki, mən öz məruzəmi nəzəri əsaslarla qurum. Əvvəlcə korrupsiyanın qədim dövrlərdən bəri mövcud olduğunu, rüşvəti aradan qaldırmaq məqsədilə hətta ondan rüsum götürüldüyü

belə bu bəladan yaxa qurtarmaq mümkün olmadığını müşavirə iştirakçılarının diqqətinə çatdırım, sonra isə çıxışımda qanunvericiliyə konkret dəyişikliklər təklif edim.

Kürsüyə dəvət olunanda məruzəmi onunla başladım ki: "Rüşvət bəşəriyyətin köhnə bəlasıdır, orta əsrlərdə Fransada rüşvətdən hətta rüsum da tuturdular". Ulu Öndər əlini vurdu stola: "Sən bizi hansı yola dəvət edirsən?!Otur!", getdim oturdum yerimə. Müşavirədən sonra Ulu Öndər məni yanına çağırdı və soruşdu: "Nə danışırdın?". Dedim: "Cənab Prezident, nəzəri sürətdə çıxış eləmək istəyirdim, əlimdə də heç bir materialım yox idi". Heydər Əliyev dedi: "Sənin yerində başqası olsaydı, mən onu öldürərdim, get". Çıxdım getdim.

Məsələn, Xalq Cəbhəsi o zamanənin bəhrəsidir. Ona görə ki, Azərbaycançılıq, vətənpərvərlik, milli ruh məhz Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə başladı. Ədəbiyyat jurnallarında onun ziyalılara, yazıçılara, şairlərə dəstəyi, Azərbaycan incəsənətinin inkişafı, Azərbaycan tarixinin öyrənilməsi 1969-cu ilə qədər çox aşağı səviyyədə idi və milli ruhu Heydər Əliyev qaldırdı. Bu cür milli ruhun qalxması XIX əsrin ortalarında olub. Bu milli ruh görkəmli Azərbaycanlı alimlər və siyasətçilər pleyadasının səyləri ilə, 100-150 görkəmli ziyalılarımızın əməyi ilə formalaşmışdır, ancaq 1970-ci illərdə Azərbaycanda o işi bir nəfər gördü– Heydər Əliyev. Ulu Öndər ancaq və ancaq Azərbaycançılıq ideologiyasının inkişafı naminə çox adamlara köməklik göstərib, təəssüflər



olsun ki, tarixçilər tərəfindən hələ də o dövr tam araşdırılmayıb. Bunun barəsində mən rus dilində 2020-ci ildə Sankt-Peterburq şəhərində işıq üzü görən "Парадоксы Конституционализма" adlı kitabımda bəhs etmişəm.

Televiziya vasitəsi ilə həmin müşavirə, o cümlədən mənim çıxışım nümayiş etdirilmişdir. Ona görə də tanımadığım, lakin rüşvətə meylliliyi hiss olunan şəxslər məni görəndə, yaxınlaşıb, əlimi sıxıb deyirdilər "kişi kimi çıxış elədin, yaxşı təklif idi".

**Sual: Ulu Öndərin həyat və fəaliyyəti olduqca maraqlı, zəngin və çox şaxəlidir. Bir müsahibədə dahi rəhbər haqqında olan suallarımızı əlbəttə ki əhatə etmək mümkün deyil. Ümummilli Lider Heydər Əliyev haqqında Sizə vermədiyimiz, lakin eşitmək istədiyiniz hansı sualı cavablandırmaq istərdiniz?**

Mən ona sual deməzdim, sadəcə Azərbaycan Tarixinin bir maraqlı məqamı var, o məqam heç bir yerdə açıqlanmayıb. Bu paradoksal məqamdır. Paradoks da ondan ibarətdir ki, Heydər Əliyev Azərbaycanın rəhbəri olmasaydı, SSRİ-nin vaxtında birinci katibi olmasaydı, müstəqillik tələb edən demokratik qüvvələr də olmazdı.

**Sual: Ümummilli Lider Heydər Əliyevin hansı müdrik kəlamı Sizin üçün həmişəlik yaddaşda qalan olub?**

"Mən həmişə fəxr etmişəm ki, mən Azərbaycanlıyam!" O sözlərdən sonra insan Azərbaycan naminə ölümə də gedər. Allah Ulu Öndərimizə rəhmət eləsin.

**Sual: Ümummilli Lider Heydər Əliyevi bugün görsəydiniz ona nə demək istərdiniz?**

Mən deyərdim ki, Sizin işinizin bu bəhrələri nəticədə Azərbaycan xalqını bu xoşbəxt günə gətirib çıxartdı. O tarixin paradoksu idi.

**"Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalının redaksiya heyəti**

# Prokurorluğun veteranı Firdovsi Nemətlinin "Azərbaycan Prokurorluğu" elmi-praktiki jurnalının "Heydər Əliyev və Azərbaycan Prokurorluğu" adlı xüsusi buraxılışı üçün müsahibəsi



*Nemətli Firdovsi İlyas oğlu 1989-cu ildə hazırkı Bakı Dövlət Universitetinin hüquq fakültəsini fərqlənmə diplomu ilə bitirərək və Bakı nəqliyyat prokurorunun köməkçisi vəzifəsi üzrə stajor kimi xidmətə başlayaraq 5 il nəqliyyat prokurorluğu sistemində işləmişdir. 1994-cü ildən 2002-ci ilədək Baş Prokurorluqda müxtəlif vəzifələrdə, 2002-ci ildən 2022-ci ilədək Xanlar (indiki Göygöl), Yevlax və Salyan rayon prokuroru vəzifələrində, 2022-ci ilin mart ayından isə Baş Prokurorluğun Prokurorluqda istintaqa nəzarət idarəsinin prokuroru vəzifəsində çalışaraq, qulluqda olmanın son yaş həddinə çatdığına görə həmin ilin sentyabr ayında baş ədliyyə müşaviri rütbəsində təqaüdə çıxmışdır.*

*Prokurorluqda işlədiyi müddət ərzində xidməti vəzifələrini nümunəvi icra etdiyi üçün ona dəfələrlə təşəkkür elan edilmiş və qiymətli hədiyyə ilə həvəsləndirilmiş, qanunçuluq və hüquq qaydasının möhkəmləndirilməsində peşəkarlıq göstərdiyinə görə o, "Azərbaycan Respublikası Prokurorluğunun Fəxri fərmanı", "Prokurorluğun Fəxri işçisi" döş nişanı və "Azərbaycan Prokurorluğunun 100 illiyi" yubiley medalı ilə təltif edilmişdir. Azərbaycan Respublikası Prezidentinin 2020-ci il 30 dekabr tarixli 2404 nömrəli Sərəncamı ilə Firdovsi Nemətli "Dövlət qulluğunda fərqlənməyə görə" medalı ilə təltif olunmuşdur.*




**Sual: İlk növbədə jurnalımıza müsahibə verməyə razılıq verdiyiniz üçün Sizə təşəkkürümüzü bildiririk. Firdovsi müəllim, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin rəhbərliyi dövründə prokurorluq orqanlarında xidmət illərinizi necə xatırlayırsınız?**

Universitetə qəbul ola bilmədiyim illərdə kənddə kolxozçu, əsgərlik illərində Baykonurda kosmodromun inşaatında, sonra Bakıda zavodda fəhlə işləsəm də, nəhayət universiteti bitirib hüquqşünas ixtisası aldıqdan sonra bütün əmək fəaliyyətim, karyeram, həyat yolum prokurorluqda keçib. Buna görə də 33 il fasiləsiz xidmət etdiyim prokurorluq kimi onun orqanı olan bu jurnal da mənə çox əziz və doğmadır. Daimi oxucusu olduğum jurnalın artıq təqaüddə olan bir veteranı yada salması, fikirlərimi oxucularınıza çatdırmaq üçün belə yüksək tribuna verməsi mənim üçün böyük şərəfdir. Buna görə Sizə və jurnalın redaksiya heyətinə dərin təşəkkürümü bildirirəm.

1989-cu ildə prokurorluqda xidmətə başlayanda hələ SSRİ dövləti yaşasa da, Qarabağda erməni bandalarının azğın cinayətləri, mərkəzi hakimiyyətin erməniпərəst siyasəti, xalqımızın qanuni mənafelərinin tapdalanması fonunda artıq milli-azadlıq hərəkatı geniş vüsət almışdı, dövlət strukturlarında iş iflic olmuşdu, Respublikanın zəif iradəli, qətiyyətsiz rəhbərliyi kələfin ucunu itirmişdi. Məhz belə proseslərin nəticəsində 20 Yanvar qırğını törədildi, cənnət Qarabağ xain quldurlar tərəfindən addım-addım işğal edildi, bir milyona yaxın azərbaycanlı həm Qərbi Azərbaycanda, həm də Qarabağdakı ana yurdlarından didərgin salındı. Kortəbii formalaşan başıpozuq silahlı dəstələr vətənin müdafiəsindən yayınıb, hakimiyyət davasına girişdilər, xaos və anarxiya təzəcə bərpa etdiyimiz müstəqilliyimizin itirilməsi təhlükəsini yaratdı. Bu uçurumun kənarından dövlətçiliyi xilas edən Ulu Öndər qanunsuz silahlı dəstələrin çevriliş cəhdləri, birbaşa dövlət başçısının həyatına sui-qəsdləri ilə üzləşsə də geri çəkilmədi, sarsılmaz qətiyyət və cəsarətlə siyasi həyatı "çevrilişçi polkovniklər" və qanunsuz silahlı dəstələrdən təmizlədikdən sonra yeni dövlət quruculuğu işinə başladı. Bu tarixi prosesdə prokurorluğun rolu barədə çox yazılıb. Həmin illərdə mən Baş Prokurorluqda işləyirdim. 1994-cü ildə Baş Nazir Surət Hüseynovun rəhbərliyi ilə dövlət çevrilişinə cəhddən dərhal sonra Gəncəyə, sonra isə Yevlaxa ezam olunmuşdum. Çevriliş cəhdində iştirak etmiş şəxslərin dairəsinin, mütəşəkkil cinayət birliklərinin qanunsuz maliyyələşmə mənbələrinin müəyyən edilməsi, bilavasitə

cinayət əməllərinin planlaşdırıldığı, təşkil və icra edildiyi yerlərdə ilkin yoxlama hərəkətlərinin və ibtidai araşdırmanın aparılmasında iştirak edirdim. Harınlamış və gözü qızmış silahlı şəxslərin, onların komandir və rəhbərlərinin hədə-qorxularına, hətta silahsız olduğumuz halda üstümüzə silah çəkmələrinə baxmadan vəzifə cinayətləri və dövlət əmlakının mənimsənilməsi faktlarının vaxtında və yerində aşkar edilib cinayət işlərinin başlanması, təqsirli şəxslərin cinayət məsuliyyətinə cəlb edilməsi təmin edildi. Sonrakı müddətdə Xanlar, Samux, Qobustan və digər rayonlarda rayon rəhbərləri barəsində apardığımız yoxlamalar nəticəsində tərəfimizdən cinayət işləri başlandı. Həmin cinayət işlərinin istintaqı nəticəsində bir neçə rayon rəhbəri və digər vəzifəli şəxslər həbs edildi, müvafiq cəzalara məhkum edildilər. Bir neçə rayonda kollektiv şikayətlər üzrə apardığımız yoxlamalar nəticəsində aqrar islahatların aparılması zamanı ciddi qanun pozuntularının törədildiyi, külli miqdarda dövlət əmlakının talan olunduğu müəyyən edildi, tərəfimizdən toplanmış materiallar əsasında həmin faktlara görə də cinayət işləri başlandı. Oxucuları çox yormaq istəmirəm, ancaq dövlətimizin taleyi üçün o mühüm məqamlarda prokurorluğun hüquq qaydasının və qanunçuluğun təmini sahəsində atdığı addımları məhz Ulu Öndərin qətiyyətli mövqeyi hesabına mümkün olmuşdur.



**Sual: Sizcə Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi inkişaf strategiyasının müasir Azərbaycan Prokurorluğunun bu günü və gələcəyi üçün əhəmiyyəti nədən ibarətdir?**

Ulu Öndər həm müasir demokratik dövlət quruculuğunun hüquqi əsasının yaradılması, həm sistemli və davamlı hüquqi islahatların aparılması, həm də keyfiyyətcə yeni prokurorluğun qurulması və inkişafında müstəsna bir liderlik nümayiş etdirib, daim diqqət göstərib və nəzarət edibdir. Yeni dövlət quruculuğunun Ana Qanunu olan Konstitusiyamıza prokurorluğun statusunu müəyyən edən ayrıca normanın daxil edilməsi də, Azərbaycanın tarixində ilk dəfə "Prokurorluq haqqında" qanunun qəbul edilməsi də, 1998-ci ildə Prokurorluğun 80 illik yubileyinin keçirilməsi və peşə bayramımızın təsis edilməsi də, 2000-ci ildə prokurorluqda köklü dəyişiklik və islahatlar prosesinin başlanması da məhz onun təşəbbüsü və liderliyi ilə baş tutubdur. Möhtərəm Prezidentimiz tərəfindən bu siyasətin uğurla davam etdirilməsi nəticəsində son illərdə prokurorluq orqanlarında aparılan sürətli yenilənmə və köklü islahatlar həm bu günkü, həm də gələcəkdəki uğurlarımızın möhkəm zəminini yaradıb. Baş Prokurorluğun yeni rəhbərliyinin dövlətçilik məsələlərində qətiyyəti, Vətən Müharibəsindəki bütün cəmiyyətin təqdirini toplayan yorulmaz fəaliyyəti, qanunçuluq və hüquq qaydasının təmini sahəsində görülən sistemli işlər, aparılan islahat və yeni yanaşmalar, digər dövlət orqanları, geniş ictimaiyyət və beynəlxalq təşkilatlarla qarşılıqlı faydalı əməkdaşlığın genişləndirilməsi prokurorluğun dövlət orqanları arasındakı mövqeyini gücləndirib və cəmiyyətdəki nüfuzunu xeyli artırıb. Ulu Öndərin əsasını qoyduğu yolda dövlətimizin inamla irəliləməsi gələcəkdə daha böyük uğurlar qazanacağımıza əminlik yaradır.

**Sual: Ümummilli Liderin daxildə ictimai-siyasi sabitliyin təmin edilməsi, ölkədə vətəndaş müharibəsi, xaosun qarşısını almaq üçün atdığı addımlar hansı zərurətdən irəli gəlirdi. Bu istiqamətdə nələri söyləmək olar?**

Sovet imperiyasının çökməsi, vətən torpaqlarının işğal edilməsi, Respublika rəhbərliyinin yarıtmaz fəaliyyəti, hətta fəaliyyətsizliyi, qanunsuz silahlı dəstələrin özbaşınalığı nəticəsində cinayətkarlığın geniş vüsət alması elə bir dözülməz vəziyyət yaratmışdı ki, bu problemlər həll olunmadan nə dövlət quruculuğundan, nə də iqtisadi inkişafdan danışmaq mümkün deyildi. Bu metastaz vermiş xərçəng yaraları kəsilib atılmalıydı ki, quruculuq və inkişaf proseslərinə başlansın. Elə ağır vəziyyətdə isə bu işi ancaq Ulu Öndər kimi böyük dövlət adamı, qətiyyətli siyasətçi və geniş dünyagörüşü olan bir strateq görə bilərdi. O illərdən uzaqlaşdıqca görülən işin miqyasını daha yaxşı anlayırıq.

**Sual: Ölkəmizin dövlət quruculuğunun möhkəmlənməsi məqsədilə Ulu Öndər Heydər Əliyev tərəfindən görülmüş böyük miqyaslı və hüdudsuz işlərdən hansını ən vacib hesab edirsiniz?**

Məncə, hər şeydən vacibi separatizmin kökünün kəsilməsi, qanunsuz silahlı dəstələrin tərksilah edilməsi, dövlət orqanlarının normal fəaliyyətinin bərpası, cinayətkarlığın cilovlanması, qanunçuluq və hüquq qaydasının təmin olunması idi.

**Sual: Firdovsi müəllim, Ümummilli Lider Heydər Əliyevin hansı müdrik kəlamı Sizin üçün həmişəlik yaddaşda qalan olub?**

Bu sualı eşidəndə ağlımdan çox kəlamları keçdi. Ancaq ən çox qürur duyduğum, hər iş günü yada saldığım və heç vaxt unutmayacağım kəlamı Ulu Öndər Prokurorluğun 80 illik yubileyi ilə əlaqədar keçirilən, mənim də iştirak etdiyim təntənəli mərasimdə dedi:



“Azərbaycan Prezidenti kimi mən Azərbaycan Prokurorluğuna inanıram, güvənirəm və arxalanıram!”

**Sual: Bildiyimizə görə Ulu Öndər Heydər Əliyevlə şəxsən təmasda olmusunuz. Bu görüşün təfərrüatları ilə oxucularla bölüşə bilərsinizmi?**

Böyük məmnuniyyətlə. 1991-ci ilin avqust ayında Ulu Öndərlə görüşmək mənə qismət olub. Tələbə yoldaşım və dostum olan Namiq Məmmədov onun qohumu idi, mənimlə yataqxanada bir otaqda qalırdı. 1989-cu ildə biz Universiteti bitirəndən sonra məni təyinatla Bakı nəqliyyat prokurorluğuna göndərmişdilər, Namiq isə Naxçıvanda işləyirdi. Ulu Öndər Moskvadan Naxçıvana qayıdandan sonra Namiqgilin evində qalırdı. Namiq Ulu Öndərlə evdə söhbət edərkən mənim haqqımda bir neçə dəfə ona danışmış və tərifləmişdi. O da təklif etmişdir ki, Naxçıvana gələndə məni onunla görüşdürsün. Məzuniyyət dövründə Naxçıvanda yaşayan valideynimə baş çəkmək üçün getmişdim. Həmin vaxt Namiqin vasitəsilə çay masası ətrafında Ulu Öndərlə görüşümüz baş tutdu. Ulu Öndər məndən universitetə necə qəbul olunduğumu, harada və kimlərlə işlədiyimi, Bakıda vəziyyətin necə olduğunu və digər məsələləri soruşdu. Onsuz da Namiqin söhbətlərindən bunların hamısını bilsə də, mənim ətraflı cavablarımı, ölkədə yaranmış ağır vəziyyət və mənim ağlımca çıxış yolları haqqında fikir və mülahizələrimi səbirlə, diqqətlə dinlədi. Bir saata yaxın müddətdə səmimi söhbət elədi, yorulduğunu qətiyyən bildirmədi, halbuki əvvəlcədən Namiq bu görüşün cəmi 15 dəqiqəlik olacağını xəbərdar etmişdir. Söhbətin sonunda ağsaqqal məsləhətlərini və tövsiyələrini verdi. O söhbətdən aldığım təəssürat və dərsləri uzun müddət yaşadım, ömrümün axırına qədər də unutmayacağam. Ona qədər çox sevdiyim tarixi həmişə kitablardan oxumuşdum, həmin gün isə tarixi yaradan bir dahi ilə canlı ünsiyyətdə olmuşdum. Həyatımın ən yaddaqalan bir görüşünü yaşamışdım. Buna görə özümü çox xoşbəxt hesab edirəm.

**Sual: Sonda Firdovsi müəllim, Sizə ənənəvi sualımızı vermək istərdik. Fəaliyyətlərinin düzgün qurulması üçün gənc prokurorluq işçilərinə nəyi məsləhət görərdiniz?**

Xatırlayıram, Yevlaxda işləyərkən yerli televiziyaya müsahibəmdə jurnalist məndən prokuror üçün ən əsas hansı keyfiyyətin olduğunu soruşmuşdu. Onda da demişdim, indi də inanıram ki, bir prokuror üçün ən əsas keyfiyyət ədalətli olmaqdır. Nəzəri hazırlıq da, geniş dünyagörüşü də, yüksək əxlaq və peşəkarlıq da, prinsipial məsələlərdə cəsarət və qətiyyət də, daim öz üzərində işləmək və hər gün inkişaf etmək də vacibdir. Ancaq mənə görə, hamısından daha vacibi hər gün qarşısına çıxan məsələlər üzrə qərar verərkən ədalət tərəzisini göz önündə tutmaq, haqsız iş tutmamaq, ədalətli olmaqdır. Gənclərin bizdən daha savadlı, daha bacarıqlı, geniş dünyagörüşlü olduqlarını görüb çox sevinirəm. Qoy gənclərimiz prokurorluğun elitar bir orqan olduğunu, ən birinci pillədə xidmətə başlayan prokurorluq işçisinin də artıq bir zabit olduğunu, çiyinlərində daşıdıqları ulduzların məsuliyyətini hər addımda ağıllarında tutsunlar, qürurlu, amma təvazökar olsunlar.

**“Azərbaycan Prokurorluğu” elmi-praktiki jurnalının redaksiya heyəti**



*Azərbaycan prokurorluğunun inkişaf etməsinə dövlət qayğısı bu gün də, gələcəkdə də olacaqdır. Buna əmin ola bilərsiniz.*

***Heydər Əliyev***

# Ulu Öndər Heylər Əliyevin əsasını qoyduğu müasir hüquq siyasətinin qayəsində ədalət, humanizm və insanpərvərlik dayanır

Müdrik və uzaqgörən zəkaya, uzunmüddətli dövlətçilik təcrübəsinə və analitik düşüncəyə malik Ulu Öndərin *"Müstəqilliyin əldə olunması nə qədər çətindirsə, onun saxlanılması, daimi və əbədi olması bundan da çətindir"* deyə səsləndirdiyi sitatı onun layiqli bir dövlət başçısı və siyasi xadim, eyni zamanda hüquqi təfəkkürü təcəssüm etdirən lider olmasını təsdiqləyir.

Dahi strateq gözəl bilirdi ki, dövlətin qurulması prosesində olduğu kimi inkişaf prosesində də qəti addımlar vacibdir. Bu addımlar əzmli olmaqla yanaşı fundamental prinsiplərin tətbiqinə yönəlməli idi. Odur ki, Ulu Öndər tərəfindən bütün sahələrdə reallaşdırılan islahatların ana xəttini ilk növbədə demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunu ehtiva edən fəaliyyət təşkil edirdi.

Bu istiqamətdə ilk növbədə Konstitusiya qəbul edildi. Dövlət quruluşunu, əsas hüquq, azadlıq və vəzifələri, hakimiyyət bölgüsünü müəyyən edən Konstitusiyanın hazırlanmasında bilavasitə iştirak edən Ulu Öndərin baxış bucağında Əsas Qanun ümumbəşəri dəyərlərin, demokratik dövlətlərin əldə etdiyi nailiyyət və təcrübələrin tarixi keçmişimizlə birləşdirilmiş inikası idi. Bu barədə Ulu Öndər özü belə demişdi: *"Komissiyanın sədri kimi mən bu böyük tarixi sənədin hazırlanmasında öz şəxsi məsuliyyətimi daim dərk etmişəm, bu gün də dərk edirəm. Ona görə də bu sənədin hazırlanmasına xeyli vaxt sərf etmişəm. Haqqım var deyəm ki, çox zəhmət çəkmişəm. Hər bir kəlmənin, hər bir sözün mənasını dəfələrlə araşdırmışam, onun bu gün üçün, gələcək üçün nə qədər əsaslı olmasını dəfələrlə təhlil etmişəm. Mən çox rahatlıq hissi ilə bu layihənin altından imza atıram və bu layihəyə görə tam cavabdeh olduğumu bu gün bəyan edirəm. Hesab edirəm ki, biz Azərbaycanın bu günü, gələcəyi üçün çox böyük bir sənəd – siyasi, hüquqi sənəd yaratmışıq".*

Konstitusiyanın üçdə bir hissəsində təsbit edilmiş insan hüquq və azadlıqlarının qorunması vətəndaş məmnunluğunu təmin edir ki, bu da dövlət hakimiyyətinin yeganə mənbəyi olan xalqın dövlətə etimadının əsasını təşkil edir. Məhz bu etimadın yaranmasında, qorunmasında və zədələnməməsində dövlət hakimiyyətini təmsil edən orqanlar birbaşa rola malikdir, çünki dövlət hakimiyyətini təmsil edərkən hakimiyyət qollarına həvalə edilmiş hüquq və vəzifələr üzrə həyata keçirilən fəaliyyətlə dövlətə olan inam arasında səbəbli əlaqə mövcuddur.

Hüquq siyasətini müəyyən edən baza normalar Konstitusiya ilə müəyyənləşdirildi ki, bu istiqamətdə əvvəlki dövrlərlə müqayisədə məhkəmə hakimiyyətinə yeni status verildi, ədalət mühakiməsi müstəqilliklə səciyyələndi. Ədalət mühakiməsinə aid edilmiş təyinat və funksiyalar ilk növbədə insanların hüquq və azadlıqlarının və dövlətin mənafeyinin təmin edilməsinə yönəlməklə insanlarda dövlətə olan inamın artırılmasını hədəfləyirdi.

Konstitusiyanın 127-ci maddəsi ilə ədalət mühakiməsinin həyata keçirilməsinin yeni xüsusiyyətləri müəyyən edilmişdir. Hakimlərin Konstitusiyaya və qanunlara tabeçiliyi, işlərə qərəzsiz, ədalətlə, tərəflərin hüquq bərabərliyinə, faktlara əsasən və qanuna müvafiq baxılması, qapalı məhkəmə iclaslarının şərtləri, qanunda nəzərdə tutulmuş hallar istisna olmaqla qiyabi məhkəmə icraatının yolverilməzliyi, müdafiə hüququnun təminatının genişləndirilməsi, məhkəmə icraatının təqsirsizlik prezumpsiyasının və çəkişmə prinsipinin əsasında həyata keçirilməsinin nəzərdə tutulması ədalət mühakiməsinin mütərəqqi ideyalar əsasında yenidən qurulmasının göstəricisi idi.

Bu prinsiplər əsasında cinayət məhkəmə icraatında Azərbaycan Respublikasının Prokurorluğunun və müdafiə tərəfinin iştirakı təsbit edildi. Həmçinin qeyd etmək vacibdir ki, Əsas Qanunla ilk dəfə prokurorluq orqanlarına konstitusion status verildi, yəni prokurorluq orqanlarına dövlətin hüquq siyasətinin və dövlət hakimiyyətinin həyata keçirilməsi istiqamətində bir sıra müstəsna səlahiyyətlər aid edildi.

Əsas prinsip və şərtləri müəyyən edən Konstitusiyanın qəbulundan sonra Ulu Öndərin 21 fevral 1996-cı il tarixli Sərəncamı ilə yaradılmış Hüquq İslahatları Komissiyası milli ənənələri qorumaqla yanaşı beynəlxalq təcrübəni də öyrənərək bəşəri-demokratik dəyərlərə uyğun qanunvericilik bazasının yaradılmasında əvəzsiz rol oynadı. İslahatların pərakəndə formada deyil, bir xətt üzrə həyata keçirilməsinə diqqət göstərən Ulu Öndər tərəfindən yaradılmış Komissiya ədalət mühakiməsi ilə birbaşa əlaqəli olan Cinayət, Cinayət-Prosessual, Cəzaların İcrası, İnzibati Xətalar, Mülki, Mülki-Prosessual məcəllələri, "Məhkəmələr və hakimlər haqqında", "Prokurorluq haqqında", "Vəkillər və vəkillik fəaliyyəti haqqında", "Məhkəmə nəzarətçiləri və məhkəmə icraçıları haqqında", "İcra haqqında", "İcra məmurları haqqında" qanunları hazırlayaraq hüquqi təminatlar yaratdı.



Komissiya tərəfindən hazırlanmış "Məhkəmələr və hakimlər haqqında" Qanun məhkəmə hakimiyyətinin baza elementlərini, ədalət mühakiməsinin həyata keçirilməsi üzrə prinsip və şərtləri, məhkəmə sisteminə daxil olan məhkəmələrin təşkili qaydalarını və təminat məsələlərini, hakimlərin statusu, hüquq və vəzifələri, səlahiyyətləri və təyinatı məsələlərini, eləcə də maddi və sosial təminat, həvəsləndirmə və məsuliyyət məsələlərini müəyyən etdi.

Qanunun əsas məqsədi isə ədalət mühakiməsinin həyata keçirilməsində ehtiva olunur, yəni məhkəmələr Konstitusiyada təsbit edilmiş insan və vətəndaş hüquq və azadlıqlarını, mülkiyyət formasından asılı olmayaraq bütün müəssisə, idarə və təşkilatların, siyasi partiyaların, ictimai birliklərin, digər hüquqi şəxslərin hüquqlarını və qanuni mənafelərini hər cür qəsdlərdən və qanun pozuntularından müdafiə edir. Konstitusiyanın 125.2-ci maddəsinə əsasən, məhkəmə hakimiyyətini Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsi, Ali Məhkəməsi, apellyasiya məhkəmələri, ümumi məhkəmələri və digər ixtisaslaşdırılmış məhkəmələri həyata keçirirlər.

Hüquqi əsaslarını Konstitusiyadan alan "Məhkəmələr və hakimlər haqqında" Qanunda məhkəmələrin növləri dəqiqləşdirildi. Rayon (şəhər), ağır cinayətlər, hərbi və Naxçıvan Muxtar Respublikasının ağır cinayətlər məhkəməsi birinci instansiyaya, apellyasiya məhkəmələri və Naxçıvan Muxtar Respublikasının Ali Məhkəməsi apellyasiya instansiyasına, Azərbaycan Respublikasının Ali Məhkəməsi isə kassasiya instansiyasına aid edildi. Beləliklə, üç pilləli məhkəmə sisteminin əsası qoyuldu. Yeni üç pilləli məhkəmə sisteminin yaradılması ilk növbədə insan hüquq və azadlıqlarının təmin olunmasına yönəlmişdi. Çünki ilkin instansiya məhkəmələrində yol verilmiş səhvlərin vətəndaşın şikayəti və ya prokurorun protesti əsasında yuxarı instansiya məhkəmələrində aradan qaldırılmasına hüquqi şərait yaranmışdı. Yaranmış hüquqi şəraitdə həqiqətin müəyyən edilməsi və ədalətin təşəkkül tapması ədalət mühakiməsinin açar nöqtəsi idi.

Ədalət mühakiməsinin fəlsəfəsini anlamaq üçün ədalət mühakiməsinin rəsmi emblemini təhlil etmək labüddür. Ədalət mühakiməsinin rəsmi emblemi Azərbaycan Respublikası bayrağının üçrəngli rəmzi təsvir olunmuş Azərbaycan Respublikasının xəritəsinin fonunda ayaq üstə gözü bağlı, sağ əlində tərəzi, sol əlində isə üzü aşağı qılınc tutmuş qadın təsvirindən ibarətdir. Qadının gözünün bağlı olması tərəfsizliyini, əlində tərəzi tutması ədaləti və ədalətin nizamlı şəkildə bütün hallara sirayət etməsini, qılınc isə ədalətsizliyə qarşı cəzanı təsvir edir. Təsvir çevrə daxilində yerləşdirilmiş və çevrə aşağı tərəflərdən postamentin içərisindən yuxarı istiqamətə doğru möhkəmlik, sarsılmazlıq, dözümlülük: güc və şöhrət rəmzi olan palıd ağacının yaşıl rəngli budaqları ilə əhatə edilmişdir. Çevrənin yuxarı hissəsində qızılı fonda "Azərbaycan Respublikası" sözləri yazılmışdır. Postament üstündə dayanmış qadının təsviri monoxrom rənglə işlənmişdir. Qızılı rəngdə olan postamentin üzərində "ədalət mühakiməsi" sözləri yazılmışdır. Qadının başı üzərində günəş şüaları təsvir edilmişdir. Günəş şüalarının əks olunması ədalət şəfəqinə işarədir. Emblemin arxa tərəfində postamentin üzərində yazılmış "1999-cu il" sözləri "Ədalət mühakiməsinin rəsmi emblemi haqqında" 689-IQ nömrəli 22 iyun 1999-cu il tarixli Qanundan qaynaqlanır ki, bu da Ulu Öndərin, Dahi Liderin adı ilə bağlıdır.

Ulu Öndərin mütərəqqi ideyaları əsasında həyata keçirilən məhkəmə islahatlarından biri də Ali Məhkəmənin statusu ilə bağlı oldu. Ali Məhkəmə işlərə birinci instansiya məhkəməsi qismində baxmaqdan azad olunmaqla üçpilləli məhkəmə sistemində yeri kassasiya instansiyası qismində müəyyən olundu və onun səlahiyyətinə ən yüksək instansiya məhkəməsi kimi ədalət mühakiməsinin həyata keçirilməsi aid edildi.

Həmçinin qanunvericiliyin tətbiqi ilə bağlı məhkəmə təcrübəsini ümumiləşdirilərək hüquq tətbiqi ilə bağlı məsələlərə dair izahlar verilməsinin Ali Məhkəmənin səlahiyyətinə aid edilməsi ona üstün mövqe qazandırdı və bu gün hüquq ictimaiyyəti üçün önəmli məsələlərdən olan vahid məhkəmə təcrübəsinin əsasını qoydu.

Ali Məhkəmənin səlahiyyətlərini müəyyən edən hüquq və vəzifələr daha geniş kontekstdə – hakimlərin vəzifədən kənarlaşdırılması barədə Prezidentin sorğusuna baxılması və rəy hazırlanması, qanunvericilik təşəbbüsü ilə müraciət etmək barədə məsələlərə baxılması və qərar qəbul edilməsi, Konstitusiya Məhkəməsinə sorğu verilməsi, əlavə kassasiya işlərinə, yaxud hüquq və azadlıqların pozulması ilə bağlı yeni hallar və yeni açılmış hallar üzrə işlərə baxılması ilə bağlı və digər məsələləri əhatə edir.

Kompleks məhkəmə-hüquq islahatları zamanı Konstitusiya Məhkəməsi ali konstitusiya məhkəmə orqanı qismində təsis edildi. Bu məhkəmə sistemində tətbiq edilən yeniliklərdən biri idi. Konstitusiya Məhkəməsinin təyinatını onun qanunla nəzərdə tutulmuş məqsədi müəyyən edir. Konstitusiya Məhkəməsinin məqsədi Konstitusiyanın aliliyini qorumaqdır.

Konstitusiya Məhkəməsinin mühüm səlahiyyətlərindən biri qanunların rəsmi təfsiri hüququdur. Azərbaycan Respublikası Konstitusiyasının və digər qanunlarının təfsiri cinayət prosesi iştirakçılarına o halda məcburidir ki, bu təfsir Azərbaycan Respublikasının Konstitusiya Məhkəməsinin qərarında verilmiş olsun. Məhz bu səlahiyyət Konstitusiya Məhkəməsinin hüquq müəyyən etmədə yerini xüsusilə fərqləndirmişdir.

Konstitusiya Məhkəməsinin səlahiyyətlərini müəyyən edən digər hüquq və vəzifələr daha geniş kontekstdə Konstitusiyanın 130-cu maddəsində və aidiyyəti qanunvericilik aktlarında nəzərdə tutulmuşdur.

"Məhkəmələr və hakimlər" haqqında Qanun eyni zamanda yeni bir funksiyanı – məhkəmə nəzarəti funksiyasını yaratdı ki, bu funksiyanı ehtiva edən səlahiyyətlər Cinayət-Prosessual Məcəllə ilə konkretləşdirildi.

Məhkəmə nəzarəti əsasən prosessual məcburiyyət tədbirlərinin tətbiqinin məhkəmə qərarı əsasında həyata keçirilməsi şərtində ehtiva olundu. Bununla yanaşı, məhkəmə nəzarəti insanların azadlıq, mənzil toxunulmazlığı, şəxsi toxunulmazlıq, mülkiyyət hüquqlarını, eləcə də şəxsi sirrinin saxlanılması hüququnu məhdudlaşdıran, həmçinin dövlət, peşə və ya kommersiya sirrini özündə əks etdirən məlumatlarla bağlı istintaq hərəkətlərinin məcburi qaydada aparılmasına və əməliyyat-axtarış tədbirlərinin həyata keçirilməsinə dair vəsatət və təqdimatlara baxılmasında ehtiva olundu.

Cinayət prosesini həyata keçirən orqanın prosessual hərəkət və qərarlarından şikayət hüququnun müəyyən edilməsi isə cinayət təqibi sahəsində məhkəmə nəzarətini ehtiva edən əlamətdir. Sadalanan səlahiyyətlərə malik məhkəmə nəzarəti institutu demokratik prinsiplərə və beynəlxalq standartlara uyğunlaşdırılmış yeni hüquq konsepsiyasına əsaslanırdı.

Məhz bu konsepsiya əsasında yaradılmış cinayət təqibinə dair anlayışlar və xüsusiyyətlər Azərbaycan Respublikasının cinayət-prosessual qanununda öz əksini tapdı. 2000-ci ildə cinayət mühakimə icraatının əsas prinsip və şərtləri müəyyən olundu, müdafiə hüququ xeyli genişləndirildi, vəkillik institutu gücləndirildi, bu da cinayət təqibində tərəflərin çəkişməsinin inkişafına rəvac verdi. Çəkişmə prinsipi hər bir tərəfin məhkəmədə təmsil olunmasını və öz mövqeyini müdafiə edə bilmə imkanını hədəfləyirdi. Bu tərəflərdən biri olan prokurorun məhkəmə prosesində əsas vəzifəsi dövlət ittihamının müdafiəsidir. İlk öncə qeyd etmək vacibdir ki, aparılan islahatların miqyasına varmaq üçün 2000-ci ilədək qüvvədə olan cinayət-prosessual qanunvericiliklə sonrakı qanunvericiliyin və bu qanunvericilik əsasında yaradıla bilən mexanizmlərin müqayisəsi yetərlidir. Belə ki, dövlət ittihamının əsasını təşkil edən sübutetmə institutuna yeni qanunvericilikdə geniş yer verildi. Müəyyən edildi ki, sübutetmə ittihamın qanuni, əsaslı və ədalətli həlli üçün əhəmiyyət kəsb edən halların müəyyən edilməsi məqsədi ilə sübutların əldə edilməsindən, yoxlanılmasından və qiymətləndirilməsindən ibarətdir. Yeni qanunvericiliklə həmçinin bəzi sübutlar əsasında müəyyən edilən hallar, sübutsuz müəyyən edilən hallar, preyudisiya fərqləndirildi.

Dövlət ittihamının müdafiəsi nəyi ehtiva edir? Dövlət ittihamı pozulmuş hüquqların müdafiəsi və bərpası istiqamətində dövlətin resursları hesabına yaradılaraq həm insanların, həm də dövlətin maraqlarını müdafiə mexanizmidir. Cinayətkarın məhkəmə qarşısında ifşa edilməsini, ədalətli cəzanın təyin edilməsi üçün bütün üsul və vasitələrdən istifadəni, zəruri hallarda isə şəxsin barəsində tibbi və ya tərbiyəvi xarakterli məcburi tədbirlərin tətbiqini ehtiva edir.

Dövlət ittihamının müdafiəsinin əhəmiyyəti ədalətli və qanuni cəzanın təyininə nail olmaqla cəzasızlığın və xaosun aradan qaldırılmasında, dövlətə olan etimadın möhkəmləndirilməsində ifadə olunur.

Cinayət qanunvericiliyinə əsasən, cəza məhkəmə hökmü ilə təyin edilən cinayət-hüquqi xarakterli tədbir olmaqla, sosial ədalətin bərpası, məhkumun islah edilməsi, həm məhkumlar, həm də başqa şəxslər tərəfindən yeni cinayətlərin törədilməsinin qarşısını alınması məqsədi ilə tətbiq edilir. Cəzanın məqsədi insanları, cəmiyyəti və dövləti cinayətkar qəsdlərdən qorumaqdır.

Məhkəmədə ittiham tərəfi təmsil edən prokurorun obyektivliyi və qərəzsizliyi, sübutların təqdim edilməsində və tədqiqində peşəkarlığı cinayətə görə

cəzanın təyin olunmasında əsas şərtdir, çünki cəza prokuror tərəfindən irəli sürülən ittihamın sübutu ilə mümkündür, yəni cinayətkarın cəzasız qalmamasında və ədalətin bərpasında prokuror əsas fiqurdur və dövlətin cəza siyasətinin formalaşmasında əhəmiyyət kəsb edir.

Məhkəmədə cinayət işlərinə baxılmasında tərəf kimi iştirak edərək dövlət ittihamının müdafiə edilməsi ilə yanaşı məhkəmə qərarlarından protest verilməsi "Prokurorluq haqqında Qanunun" 4-cü maddəsində təsbit edilmiş fəaliyyət istiqamətlərinə daxildir.

Protest – dövlət ittihamçısının iştirak etdiyi cinayət işi və ya cinayət təqibi ilə bağlı digər material üzrə hökmdən və ya məhkəmənin digər qərarından prokurorun yuxarı məhkəməyə verilən şikayətidir. Protest hüququ isə iş üzrə maddi və prosessual hüquq normalarının qorunması istiqamətində dövlətin prokurora etimadının göstəricisidir. Bu, eyni zamanda ədalət mühakiməsinin həyata keçirilməsi zamanı bütün üsul və vasitələrdən – protest, vəsatət, şikayət – istifadə etməklə insan hüquq və azadlıqlarının qorunmasında ifadə olunan mexanizmin formalaşdırılmasına, bununla da həm dövlət quruculuğunda, həm də hüquq siyasətində Ulu Öndərin ən ümdə arzusu olan dünyəvi, demokratik və hüquqi dövlətin qurulmasına və inkişafına xidmət edir.

Yeni hüquq konsepsiyasına əsasən, fəaliyyət istiqamətlərinin xüsusiyyətləri qanunçuluq, hər kəsin qanun qarşısında hüquq bərabərliyi, fiziki şəxslərin hüquq və azadlıqlarına, hüquqi şəxslərin hüquqlarına əməl və hörmət edilməsi, obyektivlik, qərəzsizlik və faktlara əsaslanma, vahidlik və mərkəzləşdirmə, ərazi və ixtisaslaşdırılmış prokurorların Azərbaycan Respublikasının Baş prokuroruna tabe olması, siyasi bitərəflik prinsiplərinə uyğunlaşdırılmışdır. Odur ki, bu prinsiplərin elementləri ilə uyğunluq təşkil etməyən prokurorluğun hüquq və vəzifələrinin bir hissəsi islahatlar çərçivəsində ləğv edildi, bir hissəsi isə digər hakimiyyət qollarına verildi.

Bu proseslər prokurorluğu yeni dünyanın təsisatına çevirməyi hesablamışdı. Bu istiqamətdə hazırlanmış yeni hüquq konsepsiyasının əsasını beynəlxalq standartlara uyğun demokratik prinsiplər əsasında formalaşan prokurorluq orqanlarının yaradılması təşkil edirdi.

Cinayət təqibi zamanı "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın müddəalarının və İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququnun prokurorluq orqanlarında nəzərə alınması da bu istiqamətdə atılan addımların və ümumbəşəri dəyərlərin prokurorluq orqanlarında tətbiqinin mühüm göstəricisidir.

Konvensiyada təsbit edilmiş yaşamaq, işgəncələrin qadağan olunması, azadlıq və toxunulmazlıq, ədalətli məhkəmə araşdırması, şəxsi həyata və ailə həyatına hörmət hüquqlarının Azərbaycan Respublikasının Konstitusiyasında, həmçinin cinayət və cinayət prosessual qanunvericiliyində təsbit edilməsi Azərbaycanda hüquqi təminatların mütərəqqiliyini ifadə edir. Xüsusən, Konvensiyanın 6-cı maddəsində nəzərdə tutulmuş ədalətli məhkəmə hüququnu səciyyələndirən əlamətlərin – *"cinayət törədilməsində ittiham olunan şəxsə qarşı irəli sürülmüş ittihamın xarakteri və əsasları haqqında məlumatlandırılması,*



*öz müdafiəsini hazırlamaq üçün ona kifayət qədər vaxtın və imkanın yaradılması, şəxsən və ya özünün seçdiyi müdafiəçi vasitəsi ilə müdafiə olunması, həmçinin müdafiəçinin xidmətini ödəmək üçün vəsaiti kifayət etmədikdə ədalət mühakiməsinin maraqları naminə müdafiədən pulsuz istifadə imkanının yaradılması, əleyhinə ifadə vermiş şahidlər üçün eyni olan şərtlərlə lehinə olan şahidlərin dindirilməsi hüququnun təmin edilməsi; məhkəmədə istifadə olunan dili başa düşmürsə və ya bu dildə danışa bilmirsə, tərcüməçinin pulsuz köməyindən istifadə edilməsi"* – Cinayət-Prosessual Məcəllədə təsbiti Ulu Öndər tərəfindən yaradılan Hüquq İslahatları Komissiyasının fəaliyyətinin hüquq siyasətində önəmini ifadə edir. Göründüyü kimi, bu Komissiya milli ənənələri qorumaqla yanaşı mütərəqqi beynəlxalq hüquq təcrübəsini də öyrənərək tətbiq etmişdir.

Ümummilli Lider Heydər Əliyev Komissiyanın 4 may 1996-cı il tarixli iclasında demişdir: *"Məhkəmə, hüquq-mühafizə orqanlarının islahatı ilə əlaqədar qanunların hazırlanması, qəbul olunması çox mühüm*

*əhəmiyyət kəsb edir. İndi mən vaxt deyə bilmərəm, bir il, iki il, hər halda müəyyən bir zaman ərzində nail olmalıyıq ki, bütün sahələr üzrə müstəqil Azərbaycan* dövlətinin qanunları olsun".

Heydər Əliyevin Hüquq İslahatları Komissiyasındakı bu nitqi milli dəyərlərə və beynəlxalq standartlara uyğun hüquqi bazanın formalaşdırılmasının əsasını qoydu və bu istiqamətdə prokurorluq orqanlarında da xeyli işlər görüldü. Prokurorluğun rolu və fəaliyyət istiqamətləri ilə bağlı Konstitusiyada təsbit edilmiş hüquq və vəzifələr, həmçinin qulluq keçmə qaydaları ilə bağlı tənzimləmə məsələləri də "Prokurorluq haqqında", "Prokurorluq orqanlarında qulluq keçmə haqqında", "Prokurorluq işçilərinin xidməti vəsiqəsi haqqında", "Prokurorluq orqanları işçilərinin fərqlənmə nişanları və xüsusi geyim forması haqqında", "Prokurorluğun rəsmi emblemi haqqında", "Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında" qanunvericilik aktları ilə dəqiqləşdirildi.

Ulu Öndərin prokurorluq işçilərinə böyük inam və etimadının nəticəsi olaraq ölkənin hüquq siyasətini müəyyən edən normayaratma üzrə prokurorluq orqanlarına qanunvericilik təşəbbüsü hüququ, həmçinin Konstitusiya Məhkəməsinə sorğu verilməsi hüququ verildi. Bu səlahiyyətlər prokurorluğun hüquq sistemində rolunu dövlət səviyyəsində daha da gücləndirməklə normayaratma prosesində söz sahibinə çevirdi.

Müəyyən edilmiş hüquq və azadlıqların tətbiqi istiqamətində mexanizmin müəyyən edilməsi, həmçinin vəzifələrin bölgüsü üzrə prokurorluq orqanlarında bir sıra tədbirlər həyata keçirilmişdir. Prokurorluq orqanları hər zaman çalışırlar ki, öz nailiyyətləri ilə Ulu Öndər tərəfindən səsləndirilmiş *"Azərbaycan Prezidenti kimi mən Azərbaycan Prokurorluğuna inanıram, güvənirəm və arxalanıram"* sitatının əbəs yerə ifadə edilmədiyini təsdiq etsinlər.

Azərbaycanın 2001-ci ildə Avropa Şurasına tamhüquqlu üzv qəbul edilməsi məhkəmə sisteminin, o cümlədən prokurorluq orqanlarının fəaliyyətində mütərəqqi dəyişikliklərin baş verməsinə səbəb olmuşdur. Xatırlatmaq istərdim ki, Avropa Şurasının əsas tələbi o idi ki, hüquq normalarının məqsəd və funksiyaları genişlənsin, ictimai münasibətlərin nizama salınmasında hüquq normalarının tənzimləyici rolu artırılsın və hüquq mədəniyyəti yüksəldilsin. Bunun nəticəsidir ki, aparılmış islahatlar nəticəsində çəkişmə prinsipi əsasında həyata keçirilən cinayət-mühakimə icraatında prokurorun hüquqi statusunda əsaslı dəyişikliklər baş vermiş və bütövlükdə cinayət təqibinin, həmçinin, ədalət mühakiməsinin həyata keçirilməsində prokurorun iştirakı həlledici amillərdən birinə çevrilmişdir.

Ulu Öndər Heydər Əliyevin prokurorluq orqanları qarşısında qoyulmuş tələblərdən irəli gələn vəzifələrə uyğun olaraq, həmin dövrdə prokurorluq orqanlarının fəaliyyətinin səmərəliliyinin artırılmasını nəzərdə tutan bir sıra tədbirlər görülmüşdür. Cinayət-mühakimə icraatında dövlət ittihamının müdafiəsi üzrə prokurorluğun əsas vəzifələri barədə Baş Prokurorluq üzrə 09.03.2001-ci il tarixli (02/46 nömrəli) əmrlə




cinayət mühakimə icraatında dövlət ittihamçıları qarşısında qoyulmuş vəzifələrin qanunvericiliyin tələblərinə uyğun daha səmərəli həyata keçirilməsi təmin edilmişdir. Bildiyiniz kimi məhkəmədə ittiham tərəfini təmsil edən prokurorun peşəkarlığı, obyektivliyi və qərəzsizliyi sübutların təqdim edilməsi və onların tədqiqində fəallığı cinayətə görə cəzanın təmin olunmasında əsas meyarlardır.

Həmçinin, qeyd etmək istərdim ki, Ümummilli Lider hakimiyyətə gəldikdən sonra demokratik hüquqi dövlət quruculuğunun inkişafı ilə bərabər yeni iqtisadi sistemin formalaşması prosesi başlanılmışdır. Bu məqsədlə ölkəmizdə müvafiq hüquqi baza yaradılmaqla torpaq islahatı və dövlət əmlakının özəlləşdirilməsi həyata keçirilmişdir. Bundan başqa maliyyə-bank sistemi və sahibkarlığın inkişafına aid mühüm addımlar atılmışdır. Məhz bu inkişafın nəticəsində Azərbaycan Respublikasının mülki-prosessual qanunvericiliyində dövlət idarə və təşkilatların və ya təsisçisi dövlət idarə və təşkilatlarının və ya dövlət idarəsi, yaxud təşkilatı olan hüquqi şəxslərin müvafiq müraciətləri olduqda dövlət mənafeyinin müdafiəsi üçün prokurorun iddia qaldırmaq və xüsusi icraat qaydasında ərizə vermək hüququ təsbit edilmişdir. Bununla əlaqədar Baş Prokurorluq üzrə 29.03.2001-ci il tarixli (02/58 nömrəli) əmrlə dövlət mənafeyinin mülki-hüquqi vasitələrlə müdafiəsi və mülki mühakimə icraatında iştirakı ilə bağlı prokurorun vəzifələri müəyyən edilmişdir.

Azərbaycan Respublikası Konstitusiyasının 129-cu maddəsinin tələbinə görə məhkəmənin qəbul etdiyi qərarlar dövlətin adından çıxarılır və onların icrası məcburi xarakter daşıyır. Cinayət qanunvericiliyinə əsasən, cəza məhkəmə hökmü ilə təyin edilən cinayət-hüquqi xarakterli tədbir olmaqla, cinayət törətməkdə təqsirli hesab edilən şəxsə tətbiq olunur. Cəza sosial ədalətin bərpası, məhkumun islah edilməsi, həm məhkumlar, həmçinin, başqa şəxslər tərəfindən yeni cinayətlərin törədilməsinin qarşısını almaq məqsədi ilə tətbiq edilir. Məhkəmələr tərəfindən təyin edilmiş cəzaların qanunla müəyyən edilmiş məqsədlərinə nail olunmasında prokurorluğun iştirakı "Prokurorluq haqqında" Azərbaycan Respublikasının Qanununun 4-cü maddəsində təsbit olunmuşdur. Prokurorluğun bu istiqamət üzrə fəaliyyətinin əsasları Azərbaycan Respublikasının Cinayət, Cəzaların İcrası və Cinayət-Prosessual Məcəllələrində müəyyən edilmişdir.

Məhz məhkəmədə ittiham tərəfini təmsil edən prokurorun fəaliyyəti nəticəsində cinayət törətməkdə təqsirli hesab edilən şəxslərə qanunvericiliyə uyğun cəzalar tətbiq olunur. Qeyd edilməlidir ki, prokurorluğun məhkəmələrdə dövlət ittihamının müdafiəsi fəaliyyətinin təkmilləşdirilməsinin zəruriliyi ilə əlaqədar Baş Prokurorluq üzrə 27.01.2005-ci il tarixli (08/8-09/2s nömrəli) əmrlə cinayət mühakimə icraatında ictimai və ictimai-xüsusi ittihamın müdafiəsi üzrə prokurorluğun fəaliyyətinin təşkilinin təkmilləşdirilməsi məqsədilə müvafiq tədbirlər nəzərdə tutulmuşdur. Həmin əmrlə Azərbaycan Respublikası Baş Prokurorluğunda Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin strukturu yenidən formalaşdırılmaqla tərkibində birinci instansiya məhkəmələrində dövlət ittihamının müdafiəsi üzrə şöbə, ağır cinayətlər məhkəmələrində dövlət ittihamının müdafiəsi üzrə şöbə və apellyasiya və kassasiya instansiyası məhkəmələrində dövlət ittihamının müdafiəsi üzrə şöbə yaradılmışdır. Həmçinin, Azərbaycan Respublikası Hərbi Prokurorluğunda Dövlət ittihamının müdafiəsi üzrə şöbə, Naxçıvan Muxtar Respublikası Prokurorluğunda Dövlət ittihamının müdafiəsi üzrə şöbə, Bakı şəhər prokurorluğunda Dövlət ittihamının müdafiəsi üzrə şöbə və Naxçıvan Muxtar Respublikası Hərbi Prokurorluğunda Dövlət ittihamının müdafiəsi üzrə şöbənin strukturu yenidən formalaşdırılmışdır. Bildirmək istərdim ki, bundan öncə dövlət ittihamı qeyd edilən struktur qurumlar ilə bərabər rayon (şəhər) prokurorluqlarının dövlət ittihamını müdafiə edən prokurorları tərəfindən də müdafiə edilirdi.

Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin strukturunda dəyişikliklər aparılması barədə bundan sonrakı əmr Baş Prokurorluq üzrə 16.07.2007-ci il tarixli (10/59-11/176k) əmr olmuşdur. Bu əmrlə idarənin ağır cinayətlər məhkəmələrində dövlət ittihamının müdafiəsi üzrə şöbəsi ləğv edilmiş, lakin, "Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin strukturunun təkmilləşdirilməsi və məhkəmələrdə dövlət ittihamının müdafiəsinin səmərəliliyinin daha da artırılması tədbirləri haqqında" 24.12.2010-cu il tarixli (10/117-11/15s) nömrəli əmrlə yenidən Ağır cinayətlər məhkəmələrində dövlət ittihamının müdafiəsi üzrə şöbə yaradılaraq şöbənin ştat vahidi müəyyən edilmişdir.

Vacib məqam kimi qeyd etmək lazımdır ki, Azərbaycan Respublikası 2001-ci ildən Avropa Şurasının üzvü olmaqla, ölkə parlamenti "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Avropa Konvensiyasını (bundan sonra – Konvensiya) ratifikasiya etmiş, 15 aprel 2002-ci il tarixdən Konvensiyanın hüquqi qüvvəsi Azərbaycan Respublikasının ərazisinə şamil edilmişdir.

Bununla Azərbaycan Respublikasının yurisdiksiyası altında olan hər şəxsin İnsan Hüquqları üzrə Avropa Məhkəməsinə müraciət etmək hüququ yaranmışdır. Xüsusilə qeyd edilməlidir ki, cənab Kamran Əliyev 2005 – 2007-ci illərdə Dövlət ittihamının müdafiəsi üzrə idarənin rəisi vəzifəsində işlədiyi dövrdə məhkəmədə dövlət ittihamının müdafiəsi üzrə Avropa Konvensiyasının müddəalarına əməl edilməsi, insan hüquqlarının müdafiəsi, bu sahədə İnsan Hüquqları üzrə Avropa Məhkəməsinin təcrübəsinin öyrənilməsi və Avropa İnsan Hüquqları Məhkəməsinin presedentlərinin nəzərə alınması istiqamətində mühüm işlər görülmüşdür.

Ümummilli Lider Heydər Əliyev tərəfindən başlanılan və bu gün Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən yeni müstəvidə uğurla davam etdirilən məhkəmə-hüquq islahatları gedişində ardıcıl şəkildə həyata keçirilən məqsədyönlü tədbirlər ölkəmizdə ədalət mühakiməsinin səmərəliliyinin daha da artırılması və bu sahənin beynəlxalq təcrübəyə uyğun inkişafı üçün hərtərəfli zəmin yaratmışdır. Cənab Prezidentin rəhbərliyi ilə hüquq sisteminin həyata keçirilmiş uğurlu islahatlar nəticəsində respublikamızda qanunun aliliyi təmin edilmiş və ədalət mühakiməsinin inkişafı istiqamətində mühüm addımlar atılmışdır. Dövlət başçısının 27 sentyabr 2008-ci il tarixli sərəncamına əsasən həyata keçirilən "Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair 2009-2011-ci illər üçün Dövlət Proqramı" prokurorluq orqanlarının fəaliyyətinin və strukturunun təkmilləşdirilməsi, kadr potensialının gücləndirilməsi, peşəkarlığının artırılması, habelə prokurorluğun maddi-texniki bazasının möhkəmləndirilməklə işçilərin sosial müdafiəsinin yüksəldilməsinə təkan vermişdir.

Həmçinin, 2019-cu il aprelin 3-də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən imzalanmış "Məhkəmə-hüquq sistemində islahatların dərinləşdirilməsi haqqında" Fərmanda məhkəmələrin işinin müasir tələblərə uyğun qurulması, məhkəmələrin fəaliyyətində şəffaflıq və açıqlıq prin-

siplərinin rəhbər tutulması, infrastrukturun təkmilləşdirilməsi, məhkəmə qərarlarının icra mexanizmlərinin müasirləşdirilməsi, hakim və məhkəmə aparatı işçilərinin sosial müdafiəsinin yaxşılaşdırılması istiqamətində müvafiq tövsiyə və tapşırıqlar verilmişdir. Fərmanda həmçinin, cəza siyasətinin humanistləşdirilməsi və cinayətlərin dekriminallaşdırılması, vahid məhkəmə təcrübəsinin formalaşdırılması, məhkəmələrdə dövlət ittihamının müdafiəsi və protest verilməsi təcrübəsinin mütəmadi təhlil edilməsi və bu fəaliyyətin keyfiyyətinin artırılması üçün zəruri tədbirlərin görülməsi, müasir informasiya texnologiyalarının tətbiqindən hərtərəfli istifadə edilməsinin zərurəti, kommersiya məhkəmələrinin təşkili və digər məsələlərlə bağlı Azərbaycan Respublikasının Baş Prokurorluğuna, Ədliyyə Nazirliyinə, Ali Məhkəməyə, Məhkəmə-Hüquq Şurasına və digər aidiyyəti qurumlara müvafiq tapşırıq və tövsiyələr verilib.



Bildirmək istərdim ki, bu Fərmanı cənab Prezidentin siyasi iradəsinin nəticəsi və ölkəmizdə aparılan fundamental islahatların davamı olaraq məhkəmə-hüquq sistemi üçün “yol xəritəsi” də adlandırmaq olar. Fərmanın icrasına təxirə salınmadan başlanılmış və qısa müddətdə kompleks qanunvericilik, institusional və praktiki tədbirlər görülmüşdür. İlkin mərhələdə prokurorluq orqanlarında Fərmandan irəli gələn vəzifələrin icrası ilə əlaqədar olaraq dövlət ittihamı sahəsində fəaliyyətin təkmilləşdirilməsi, həmçinin müəyyən çatışmazlıqların aradan qaldırılması məqsədilə 9 aprel 2019-cu il tarixdə Azərbaycan Respublikasının Baş prokuroru tərəfindən sərəncamına əsasən Bakı şəhər prokurorluğunun Dövlət ittihamının müdafiəsi üzrə şöbəsinin mövcud vəzifələri yüksək nəzəri bilik və peşə hazırlığı ilə fərqlənən təcrübəli prokurorluq işçiləri hesabına elan edilmiş müsabiqə əsasında komplektləşdirilmişdir. 2020-ci ilin müvafiq dövründə isə bu komplektləşdirilmə işləri ümumilikdə Dövlət ittihamının müdafiəsi üzrə idarədə davam etdirildi.

Hüquqi islahatların dərinləşdirilməsini nəzərdə tutan bu Fərman məhkəmə-hüquq sisteminin daha da inkişafını və bu sahədə ən demokratik ənənələrin bərqərar olması baxımından mühüm tarixi sənəddir. Fərman vətəndaşların hüquqlarının məhkəmə müdafiəsinin daha etibarlı təmin olunmasına, ədalət mühakiməsinə ictimai etimadın yüksəlməsinə xidmət etməklə bərabər məhkəmə hakimiyyətinin müstəqilliyinin möhkəmlənməsinə, məhkəmələrə kənar müdaxilələrin qarşısının alınmasına, qeyri-prosessual münasibətlərin, süründürməçiliyin və digər neqativ halların yolverilməzliyinə, əhaliyə daha çevik, asan və alternativ xidmətlərin göstərilməsinə imkan yaratmışdır.

Baş Prokurorluq üzrə 23.04.2020-ci il tarixdə təsdiq edilmiş “Azərbaycan Respublikası Baş Prokurorluğunun Dövlət ittihamının müdafiəsi üzrə idarəsi haqqında Əsasnamə”yə əsasən idarənin tərkibində İttihamın təşkili və təhlili, Kassasiya instansiyası məhkəməsində dövlət ittihamının müdafiəsi üzrə, həmçinin Bakı, Gəncə, Sumqayıt, Şirvan və Şəki şöbələri müəyyən edilmişdir. Həmin şöbələr Əsasnaməyə uyğun olaraq birinci, apellyasiya və kassasiya instansiyası məhkəmələrində dövlət ittihamının müdafiəsini həyata keçirirdilər. Lakin idarənin bu formada fəaliyyəti lazımi səmərə vermədiyindən, bu struktur qısa müddət fəaliyyət göstərdi.

2020-ci ilin may ayından başlayaraq, Ölkə Başçısı cənab İlham Əliyevin prokurorluq orqanları qarşısında qoyulan müasir dövrün tələblərindən irəli gələn müstəsna əhəmiyyətlə vəzifələrə uyğun olaraq, Azərbaycan Respublikasının Baş prokuror cənab Kamran Əliyev tərəfindən həyata keçirilən islahatlar prokurorluğun bütün fəaliyyət istiqamətləri ilə yanaşı, ən mühüm fəaliyyət istiqamətlərindən hesab edilən məhkəmələrdə dövlət ittihamının müdafiəsi işini də əhatə etmişdir.

Bu islahatlar prokurorluğun fəaliyyətini tənzimləyən normativ-hüquqi bazanın təkmilləşdirilməsi ilə yanaşı, strukturuna da əhatə etmişdir.

Məhz bu islahatlar nəticəsində idarənin tərkibində rayon (şəhər) məhkəmələrində dövlət ittihamının müdafiəsi üzrə şöbə, Bakı şəhərinin rayon məhkəmələrində dövlət ittihamının müdafiəsi üzrə şöbə, Ağır cinayətlər məhkəmələrində dövlət ittihamının müdafiəsi üzrə şöbə, apellyasiya instansiyası məhkəmələrində dövlət ittihamının müdafiəsi üzrə şöbə, kassasiya instansiyası məhkəməsində dövlət ittihamının müdafiəsi və analitik təhlil şöbəsi yaradılmışdır. Həmçinin, Azərbaycan Respublikası Hərbi, Naxçıvan Muxtar Respublikası və Naxçıvan Muxtar Respublikası Hərbi prokurorluqlarının Dövlət ittihamının müdafiəsi üzrə şöbələri də öz fəaliyyətlərinin əsas istiqamətlərini Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsi ilə razılaşdırmaqla həyata keçirirlər.

Son üç ildə həyata keçirilən islahatlar Dövlət ittihamının müdafiəsi idarəsinin strukturunun təkmilləşdirilməsi ilə yanaşı, idarənin funksional fəaliyyətində, iş və vəzifə bölgüsündə, idarəetmə təcrübəsində, təhlil işinin keyfiyyətində, dövlət ittihamçılarının peşə hazırlığı, nəzəri bilik səviyyəsi, əmək məhsuldarlığı

və praktiki vərdişlərində ciddi müsbət dəyişikliklərə səbəb olmuşdur.

Dövlət ittihamçıları həm ölkə daxili, həm də xarici tərəfdaşlarla birgə təşkil edilən cinayətkarlığa qarşı mübarizə, hüquq tətbiq etmə fəaliyyətinin müxtəlif aktual sahələrini əhatə edən çoxsaylı təlimlərə və digər tədbirlərə cəlb edilir.



Dövlət ittihamçılarının qarşısında məhkəmədə dövlət ittihamının müdafiəsi ilə yanaşı, qanun qarşısında ədalətin bərpası kimi ümdə vəzifələr müəyyən edilmişdir.

Hər bir dövlət ittihamçısı dərk edir ki, dövlətin və cəmiyyətin maraqlarından irəli gələrək ittihamı dürüst və ədalətli müəyyən etməli, cinayət törətmiş şəxsə əməlin ictimai təhlükəlilik dərəcəsi və xarakteri, habelə şəxsiyyəti və ailəsinin həyat şəraiti nəzərə alınmaqla qanunvericiliyin tələblərinə uyğun həddə cəza verilməsini, təqsirsizin isə cinayət məsuliyyətindən azad olunmasını təmin etməlidir.

Eyni zamanda xüsusi olaraq qeyd etmək istərdim ki, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın milli adət-ənənələrin qorunub saxlanılması, mərhəmət və ləyaqət üzərində gördüyü işlərə və verdiyi tövsiyələrə uyğun olaraq, dövlət ittihamçılarının, digər prokurorluq işçiləri ilə yanaşı milli incəsənət, mədəniyyət dəyərlərinə sevgi ruhunda inkişafına xüsusi önəm verilir.



Bu gün Azərbaycan prokurorluğu tərəfindən digər hüquq-mühafizə orqanları ilə əlaqəli şəkildə ölkədə ictimai-siyasi sabitliyin qorunması, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində zəruri tədbirlərin həyata keçirilməsi təmin olunur.

Yuxarıda qeyd etdiyim kimi, hüquq sisteminin aparıcı qolu olan prokurorluğa bu gün də Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyev tərəfindən daim diqqət və qayğı göstərilməklə əməkdaşların maddi-sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində müvafiq tədbirlər görülür. Müntəzəm olaraq prokurorluq əməkdaşları yüksək dövlət mükafatlarına, ali xüsusi rütbələrə layiq görülür. Həmçinin, prokurorluğun strukturunun daha da təkmilləşdirilməsi, maddi-texniki bazanın daha da möhkəmləndirilməsi istiqamətində mühüm addımlar atılır. Bundan əlavə müntəzəm olaraq gənc kadrlar işə qəbul edilir, vəzifədə irəli çəkilir.

Baş prokuror cənab Kamran Əliyevin rəhbərliyi ilə prokurorluq orqanlarında sağlam iş mühitinin yaradılması, düzgün kadr siyasətinin həyata keçirilməsi təmin edilməklə fəaliyyətimiz dövründə qanunçuluq və dövlətçilik prinsipləri hər zaman öndə gedir. Məhz son dövrlərdə keçirilmiş islahatların nəticəsi olaraq cəmiyyətimizdə prokurorluq orqanlarına inam və etimad daha da yüksəlmiş, prokurorluğun ictimai nüfuzu daha da artmışdır.

Sonda qeyd edə bilərəm ki, Ümummilli Lider Heydər Əliyev tərəfindən aparılmış məhkəmə-hüquq islahatlarının, həmçinin, yaradılmış qanunvericilik bazasının nəticəsidir ki, bu gün ölkəmizdə hər bir sahədə qanunun aliliyi prinsipi rəhbər tutulur. Əminliklə deyə bilərəm ki, prokurorluq orqanlarında aparılan islahatların müsbət nəticəsi kimi prokurorluğun hər bir əməkdaşı prokurorluğun fəaliyyət istiqamətlərinə uyğun olaraq vəzifələrinin icrası zamanı bundan sonra da böyük istəklə çalışacaq, qanunçuluğun möhkəmləndirilməsi istiqamətində yorulmadan fəaliyyət göstərərək cinayətkarlığa qarşı mübarizədə barışmaz mövqe tutmaqla dövlətçiliyimizin daha da möhkəmləndirilməsi prosesində qanunla üzərlərinə düşən bütün vəzifələri ləyaqətlə yerinə yetirəcəklər.

**Heydər Məmmədov**
**Azərbaycan Respublikası Baş prokurorunun müavini, II dərəcəli dövlət ədliyyə müşaviri**

# Ulu Öndər Heydər Əliyevin qurduğu müasir Azərbaycan güvənli əllərdədir

*Azərbaycan həm tam müstəqil demokratik bir dövlət olacaq, həm də bizim cəmiyyətimiz tam demokratik hüquqi, ümumbəşəri dəyərlərin əsasında qurulan demokratik bir cəmiyyət olacaq.*

**Heydər Əliyev**
**Azərbaycan xalqının**
**Ümummilli Lideri**

*Məhz 1993 – 2003-cü illərdə qoyulmuş möhkəm təməl, başlanmış islahatlar, irəli sürülmüş təşəbbüslər bugünkü reallığı mümkün edibdir.*

**İlham Əliyev**
**Azərbaycan Respublikasının**
**Prezidenti**
**Müzəffər Ali Baş Komandan**

### Qürur dolu həyat yolu

Uca Allahın xalqımıza ən böyük inayəti olaraq əta etdiyi, fitri istedadı, davranışı, nəzəri bilikləri, səlis nitqi, cəsarəti ilə həmyaşıdlarından seçilən Heydər Əliyev hələ gənc yaşlarından cəmiyyətdə öz layiqli yerini tutur, bütün bunlarla bərabər istiqanlılığı, mehribanlığı, səmimiliyi, dürüstlüyü kimi ali insani keyfiyyətləri isə onu böyükdən-kiçiyə hər kəsə sevdirirdi. Sadalanan müsbət cəhətlər Heydər Əliyevi kamil insan, dəyərli vətəndaş, ziyalı, bir sözlə əsl şəxsiyyət kimi formalaşdırır və onun cəmiyyətdəki rolunu getdikcə daha da artırırdı. Gənc olmasına baxmayaraq, hərtərəfli püxtələşmiş fenomenal insan Heydər Əliyev 1944-cü ildə çoxlarının arzusunda olduğu, lakin hər insanın müvəffəq ola bilmədiyi, yalnız yüksək intellektli, əzmkar və bacarıqlı şəxslərin əldə edə biləcəyi uğuru qazanmaqla dövlət təhlükəsizliyi orqanlarına qulluğa qəbul edilməyə nail olur və şərəfli ömrünün demək olar ki, üçdə bir hissəsini həmin orqanda ləyaqətlə qulluq keçir.



Zəngin elmi, geniş dünyagörüşü, yüksək mənəvi-əxlaqi keyfiyyətləri, mübarizliyi, prinsipiallığı, peşə biliklərini mükəmməl qavraması və nümunəvi xidməti Heydər Əliyevin uğurlarının davamlılığını şərtləndirir, müxtəlif mükafatlarla təltif olunan, eləcə də ardıcıl olaraq vəzifədə irəli çəkilən Ulu Öndər 1967-ci ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizliyi Komitəsinin sədri vəzifəsinə qədər yüksəlir.

Heydər Əliyevin sözügedən vəzifəyə gəlişi bu orqana yeni abu-hava gətirməklə mütərəqqi bir dövrün başlanğıcı oldu. Bu təyinat hər şeydən əvvəl Azərbaycan SSR DTK-nın uğuru idi, çünki bundan sonra adıçəkilən quruma səriştəli, təcrübəli və peşəkar əks-kəşfiyyatçı, təhlükəsizlik sisteminin daxili iş mexanizmini, əməliyyat həyatinin qarşısında duran vəzifələri dərindən bilən, ən başlıcası isə xalqının milli maraqlarının təminatçısı olan azərbaycanlı rəhbərlik edəcəkdi. Sirr deyil ki, XX əsrin 20 – 30-cu illərində qeyri millətlərin antiazərbaycan nümayəndələrinin və ermənilərin kök saldığı, xalqımıza qarşı qanlı repressiyalar hazırlayıb həyata keçirmiş dövlət təhlükəsizlik orqanlarının millətimizin düşmənlərindən təmizlənməsi və milliləşdirilməsi kimi son dərəcə çətin və şərəfli missiyaya ilk dəfə hələ sovet rejiminin ən qüdrətli vaxtlarında məhz Heydər Əliyev başlamışdır. Milli kökə və yaddaşa bağlı olan Ümummilli Lider əsasını qoyduğu azərbaycanlılaşdırma prosesini yeni səlahiyyətləri çərçivəsində daha da intensivləşdirdi. Məhz onun sayəsində təhlükəsizlik orqanlarında azərbaycanlı kadrların sayı əhəmiyyətli dərəcədə artdı və bununla da, milli əhval-ruhiyyəli və vətənpərvər ziyalı kadrlar Dövlət Təhlü-

kəsizlik Komitəsinə qulluğa qəbul etdirilməklə, həm orqan milliləşdi, həm də əsassız təqiblərə və repressiyalara məruz qalmış xalqımızın qeyrətli övladları onlara qarşı gözlənilən növbəti təhdidlərdən sığortalandılar.

Qeyd etmək lazımdır ki, təhlükəsizlik orqanlarında işlədiyi müddətdə tale onu bir neçə sınağa, o cümlədən şəxsi həyatı ilə bağlı da çətin sınağa çəkmişdir. Belə ki, dilemma qarşısında qalan cəsarətli insan məhəbbəti uğrunda əzmlə mübarizə apararaq sevgisinə qovuşmaq, qəlbinə yaxın bir insanla ailə həyatı qurmaq, ən əsası əhdinə sadiq olmaq üçün çalışdığı Dövlət Təhlükəsizlik Orqanlarının rəhbərliyinin mövqeyinə qarşı çıxmaqdan, buna görə hətta tutduğu vəzifəni itirməklə gələcək karyerasını təhlükəyə atmaqdan belə çəkinməyərək, öz haqlı inadından dönməmiş və onun Zərifə xanım ilə nikaha girməsinə heç kim və heç nə mane ola bilməmişdir. Yeri gəlmişkən, bu il həm də ibrətamiz həyat fəlsəfəsi, zəngin mənəvi dünyası, oftalmologiya elminin inkişafındakı misilsiz xidmətləri olan mərhum akademik Zərifə xanım Əliyevanın 100 illik yubileyi xalq tərəfindən böyük sevinc hissləri ilə keçirilmişdir. Zərifə xanımın tibbi, elmi və pedaqoji fəaliyyəti, saf və təvazökar insan kimi yaşadığı mənalı ömrü, keçdiyi şərəfli həyat yolu hər bir ziyalı, həkim və müəllim üçün mənəviyyat məktəbidir. Vurğulanmalıdır ki, qətiyyətli insan Heydər Əliyev ülvi hisslər uğrundakı mübarizədən qalib çıxmaqla bərabər, yüksək peşə qabiliyyətinə və ali insani keyfiyyətlərinə görə çalışdığı qurumdakı mövqeyini də itirməmişdir. Göründüyü kimi, bütün sınaqlardan məharətlə "üzü ağ" çıxan müdrik şəxsiyyət, bu sınaqdan da "alnı açıq" çıxmış və bununla da gələcək nəsillərə örnək olan gərəkli peşəkar işçi nümunəsi və mənəviyyat tariximizdə əbədi qalacaq məhəbbət dastanı yaratmağa müvəffəq olmuşdur.



### İstiqlala və firavan istiqbala gedən yol

XX əsrin 60-cı illərinin əvvəllərində ölkəmizin əksər göstəriciləri aşağı, həmçinin sənaye potensialı zəif olduğu üçün, Azərbaycan Sovet İttifaqında geridə qalmış kənd təsərrüfatı respublikası kimi qəbul edilirdi. Vətəni böhran vəziyyətdən çıxarmaq üçün xalqa əsl rəhbər ola biləcək şəxsiyyətə böyük ehtiyac yaranmışdır. Belə bir məqamda Tanrı xalqımıza vətənpərvər insan göndərdi. 14 iyul 1969-cu il tarixdə Azərbaycanda siyasi hakimiyyətə gələn Heydər Əliyev ilk gündən hər cür ideoloji-siyasi və digər maneələrə sinə gərərək millətin milli özünüdərki üçün bütün mümkün tədbirləri həyata keçirməyə başladı. Xalqın şanlı keçmişini, soykökünü qaytarmaq, milli adət-ənənələrini yaşatmaq, habelə zəngin mədəniyyətini, incəsənətini, eləcə də ana dilini inkişaf etdirmək üçün ölçüyəsığmaz işlər görən böyük şəxsiyyət ictimai şüurdakı qorxunu, tərəddüdü aradan qaldırmağa, cəmiyyəti bütün sahələr üzrə inkişafa ruhlandırmağa, azərbaycançılıq məfkurəsinin rejimin ideoloji repressiya burulğanında boğulmasının qarşısını qətiyyətlə almağa müvəffəq oldu. Azərbaycan dilini azərbaycançılığın başlanğıc məqamı, ən mühüm cəhəti, təməl prinsipi hesab edən Ümummilli Lider Heydər Əliyev kosmopolit ideyaların hökm sürdüyü bir dövrdə milli məfkurənin qorunub saxlanılması istiqamətindəki fəaliyyətində ana dilinin inkişaf etdirilməsi sahəsində də bir sıra mühüm işlər gördü. Müdrik lider yəqin bilirdi ki, xalqa milli-mənəvi dəyərləri aşılamaq üçün ona ilk növbədə öz dilini qaytarmaq və sevdirmək lazımdır. Rus dilinin dövlət dili olmasına rəğmən, rəsmi çıxışlarının əksəriyyətində Azərbaycan dilində nitq söyləyən Ulu Öndər, bütün rəhbər vəzifəlilərdən də bunu tələb edirdi. Onun rəsmi partiya tədbirlərində ana dilində nitqləri həmin vaxtadək heç vaxt işlənməmiş milli siyasi ədəbi dil üslubunu yaratmaqla bərabər, böyük tarixi məna kəsb edirdi. Fədakar insanın ilk dəfə hakimiyyətə gəlişi ilə başlanan milliləşmə prosesini məhz həmin nitqlərin təsiri daha da sürətləndirirdi. 1978-ci ildə Azərbaycan SSR-in Konstitusiya layihəsi qəbul edilərkən, müxtəlif ciddi maneələrə baxmayaraq, Azərbaycan dilinin bu ali hüquqi aktda ana dili kimi təsbit olunması da cəsarətli liderin qətiyyətli mübarizəsinin nəticəsi idi. Bundan sonra, hüquqi əsas yarandığı üçün ana dilini inkişaf etdirmək, bu dildə elmi və bədii yaradıcılığı genişləndirmək, televiziya, mətbuat, radio, kino, teatr quruculuğunda milli dilin tətbiqini genişləndirmək daha asan oldu. Məhz Ümummilli Liderin təşəbbüsü və onun himayəsi ilə xalqımızın tarixini, adət-ənənələrini, qəhrəmanlıq keçmişini və s. əks etdirən mövzularda filmlər çəkilməyə başlanıldı. Təsadüfi deyildir ki, "Nəsimi", "Babək", "Dəli Kür" və sair bu kimi filmlər gənclərin milli ruhda tərbiyəsində, gələcəkdə onların kütləvi surətdə müstəqillik hərəkatına qoşulmasında böyük rol oynadı. Bununla da, Heydər Əliyev xalqımızın milli mənlik şüurunun alovlanmasına təkan verməklə bərabər, məqsədyönlü tədbirlər

görməklə, hərtərəfli islahatlar həyata keçirməklə, respublikamızı qısa müddətdə sürətlə inkişaf etdirdi və bütün bunların nəticəsində Azərbaycan geridə qalmış kənd təsərrüfatı respublikasından aqrar-sənaye respublikasına çevrilərək, bir çox cəhətdən özünü tam təmin edən və ümumittifaq büdcəsinə töhfələr verən iki respublikadan biri olmaqla, Sovet İttifaqında ön sıraya keçərək öz layiqli yerini tutdu. Əzmkar insanın böyük zəhmətlər hesabına ardıcıl olaraq zirvələri fəth etməsi, yüksək vəzifələr tutması, ali dövlət mükafatlarına layiq görülməsi, habelə bilavasitə onun sayəsində xalqımızın çoxsaylı elm, mədəniyyət, incəsənət xadimlərinə və digər ziyalılarına Sovetlər İttifaqının fəxri adlarının və mükafatlarının verilməsi millətimizi nə qədər qürurlandırırdısa, tarixi düşmənlərimiz olan erməniləri bir o qədər mütəəssir edir və qıcıqlandırırdı. Bununla belə, mənfur düşmənlər ilk vaxtlar bunu büruzə vermir, özlərinə xas olan riyakarlıqla vəziyyətdən çıxırdılar. 1982-ci ildə Ulu Öndərimizin ittifaq rəhbərliyinin ən yüksək postlarından birinə – SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə irəli çəkilməsi və Mərkəzi Komitənin Siyasi Bürosuna üzv seçilməsi isə ermənilər üçün növbəti sarsıdıcı zərbə olmaqla, onları daha da hiddətləndirdi. Yeni vəzifənin də öhdəsindən məharətlə gələn dahi lider Heydər Əliyevin şöhrəti artdıqca, ölkə rəhbərliyinin yüksək eşelonunda əyləşənlərin də ona qarşı qısqanclıq hissləri güclənirdi və bu ermənipərəst Qorbaçovun hakimiyyətə gəlişindən sonra özünü daha aydın biruzə verirdi. Münbit məqamdan istifadə edən ermənilər onun vəzifədən uzaqlaşdırılması planını işə salaraq, bu prosesə erməni lobbisini də cəlb etdi. Təlatümlü həyatı ilə vətənimizə və xalqımıza rifah bəxş edən Heydər Əliyev, belə bir məqamda doğma Azərbaycanlılar sırasında xalq, vətən təəssübkeşli mütərəqqi insanların rəğbəti və ehtiramı ilə bərabər, əfsuslar olsun ki, xəbis, cılız, paxıl, riyakar insanların iftiraları ilə də üzləşdi. Belə vəziyyət isə Heydər Əliyevi məyus etməklə, ruhdan saldı və O, 1987-ci ilin oktyabrında vəzifədən istefa vermək qərarını qəbul etdi.




**Azərbaycana doğan günəş**

Ulu Öndərin rəhbərlikdən getməsindən istifadə edən erməni millətçiləri bir neçə gündən sonra Azərbaycanın əzəli torpağı olan Dağlıq Qarabağı Ermənistana birləşdirmək məsələsini qaldırdılar. Ardınca Ermənistanda və Xankəndində fasiləsiz mitinqlər başladı. Azərbaycanın o zamankı rəhbərliyi bu təxribatların qarşısını almaqda aciz olduğundan öz qətiyyətli mövqeyini ortaya qoya bilmədiyi üçün, sözügedən məsələ böyük bir problemə çevrildi. Bir tərəfdən ölkədə yaranmış özbaşınalıq, anarxiya, xaos, hakimiyyət zəifliyi, xalq ilə iqtidar arasında olan inamsızlıq, digər tərəfdən isə Ermənistanın Azərbaycana qarşı əsassız ərazi iddiaları ölkəmiz üçün ciddi çətinliklər yaradırdı. Bütün bunlar isə “Qanlı yanvar” qırğınına və xalqımızın soyqırımı ilə müşayiət olunan tarixi torpaqlarımızın işğal olunmasına yol açdı. Sözsüz ki, o dövrdə Ümummilli Lider hakimiyyətdə olsaydı bu hadisələrin heç biri baş verməzdi. Hər kəsə məlumdur ki, həmin faciə baş verənə qədər Heydər Əliyevin yenidən fəal siyasətlə məşğul olmaq fikri yox idi. Ancaq baş verənlərə biganə qala bilməyən vətənpərvər şəxsiyyət sağlamlığını və hətta həyatını belə təhlükəyə ataraq, heç nədən və heç kəsdən çəkinmədən 1990-cı ilin sərt qış günlərində Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gedərək, respublikada “20 Yanvar” faciəsini törətmiş Sovet İttifaqı rəhbərliyini kəskin şəkildə ittiham edən son dərəcə cəsarətli və qətiyyətli bəyanatla çıxış etməklə, Azərbaycan xalqının yanında olduğunu bildirdi. Məntiqi olaraq bundan sonra ona qarşı təzyiqlər, təxribatlar kompaniyası vüsət aldı və həmin kompaniya daxilində hətta onu həbs etmək belə istəsələr də, o buna məhəl qoymadan Azərbaycana üz tutdu. Bakıda yaşamağına imkan verilmədiyini və doğulub boya-başa çatdığı Naxçıvanın təhlükədə olduğunu görən Heydər Əliyev ora gedərək, Naxçıvanı və əhalisini qorudu. Belə ki, həmin vaxt məkirli niyyətləri, həmçinin Naxçıvanın işğalına yönələn ermənilərin bu çirkin istəklərini ürəklərində qoyan aqil rəhbər Naxçıvanı və Naxçıvanlıları müdafiə edir və ardınca müstəqilliyin əldə edilməsi üçün həlledici addımlar atmağa başlayır. SSRİ-nin mövcud olduğu bir dövrdə Naxçıvan Muxtar Respublikası Ali Sovetinin Ulu Öndərin sədrliyi ilə keçən 17 noyabr 1990-cı il tarixli sessiyasında cümhuriyyət ideyalarına sədaqət nümayiş etdirilərək, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli bayrağı Naxçıvan Ali Məclisində dövlət rəmzi elan olunur və Naxçıvan Muxtar Respublikası Ali Məclisinin vəsatəti əsasında Azərbaycan Respublikasının Ali Soveti 5 fevral 1991-ci ildə üçrəngli bayrağın Azərbaycanın dövlət bayrağı kimi qəbul olunması haqqında qərar qəbul edir. Bununla bərabər, Naxçıvan

Muxtar Sovet Sosialist Respublikasının adından "Sovet Sosialist" sözləri çıxarılır. Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə 1992-ci ilin noyabrında siyasi platforması Azərbaycanın rifahından, firavan gələcəyindən xəbər verən Yeni Azərbaycan Partiyası yaradılır. Müxalifət partiyası kimi yaradılmış Yeni Azərbaycan Partiyası düzgün fəaliyyəti, bilavasitə milli maraqlara və xalqa xidməti ilə qısa zamanda iqtidar partiyasına çevrilir. Zaman göstərdi ki, Ulu Öndər Heydər Əliyev təkcə Yeni Azərbaycan Partiyasını yaratmadı, sözün əsl mənasında Yeni Azərbaycanın özünü yaratmağa müvəffəq oldu.

Ümummilli Liderin 15 iyun 1993-cü il tarixdə xalqın israrlı tələbi ilə hakimiyyətə qayıdışından sonra Azərbaycanda ictimai-siyasi sabitliyin bərqərar olunması iqtisadi inkişafın davamlılığına və yeni hədəflərə rəvac verməklə yanaşı, tərəfdaşlar qazanılmasını da şərtləndirdi. Ulu Öndərin növbəti dəfə respublikamıza rəhbərliyinin ilk illərində ölkəmiz vətəndaş müharibəsindən yenicə qurtulduğu, atəşkəs rejimini təzəcə əldə etdiyi üçün, həmin dövrdə investorları Azərbaycana sərmayə qoymaq üçün həvəsləndirmək, onların etimadını qazanmaq həddindən artıq çətin, demək olar ki, mümkünsüz bir məsələ idi. Bununla belə, peşəkar siyasətçi 1994-cü ilin sentyabr ayında ölkəmizin qüdrətlənməsində mühüm əhəmiyyəti olan, Azərbaycanın Dövlət Neft Şirkəti ilə dünyanın 11 böyük neft şirkəti arasında Xəzər dənizinin Azərbaycan sektorundakı "Azəri-Çıraq-Günəşli" yataqlarının istifadə edilməsi barədə "Əsrin müqaviləsi" kimi möhtəşəm bir müqavilənin bağlanılmasına nail oldu. Sözsüz ki, Azərbaycan neftinin dünya bazarlarına çıxmasında müstəsna rolu olan Bakı-Tbilisi-Ceyhan neft kəmərinin ərsəyə gəlməsi, Azərbaycanı dünyada böyük qaz potensialına malik olan bir dövlət kimi tanıdan "Şahdəniz"in reallaşması da bu böyük şəxsiyyətin misilsiz xidmətlərinin nəticəsi idi. Xüsusi vurğulamaq lazımdır ki, türk dünyasının bir-biri ilə, eləcə də bütün dünya ilə birləşdirilməsinə xidmət edən tarixi "İpək Yolu" layihəsində də Heydər Əliyevin təşəbbüsü ilə görülən böyük işlər müstəsna əhəmiyyət kəsb etmişdir. Əsas məqsədi Orta Asiya və Qafqaz ölkələrinin dünya iqtisadiyyatına fəal qoşulmasını təmin etməkdən ibarət olan bu böyük layihənin reallaşdırılmasında Bakı-Tbilisi-Ceyhan boru xəttinin mühüm əhəmiyyətini nəzərə alan müdrik rəhbər, bu səbəbdən əvvəlcə bütün qüvvəsini həmin xətt layihəsinə yönəltmişdir. Tarix onun növbəti uzaqgörənliyini təsdiq etdi və göstərdi ki, Bakı-Tbilisi-Ceyhan əsas ixrac boru xəttinin, Şərq-Qərb nəqliyyat dəhlizinin, Bakı-Tbilisi-Qars dəmir yolunun inşası və qədim "İpək Yolu"nun bərpası Heydər Əliyevin Azərbaycan iqtisadiyyatının qüdrətlənməsinə yönələn mütərəqqi ideyası olmaqla bərabər, həm də türk dünyasının birləşdirilməsinə hesablanmışdır. Sadalananlar qəti əminliklə onu deməyə əsas verir ki, müasir şəraitdə dövlət müstəqilliyimiz üçün vacib olan iqtisadi potensialımızın əsası Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi illərdə qoyulmuşdur.

### Prokurorluq Ulu Öndərin diqqət və qayğısı ilə əhatə olunmuşdur

Hər şeydən əvvəl qeyd edilməlidir ki, Azərbaycan Prokurorluğu 80 il ərzində dövlətin etibarlı sütunlarından biri kimi fəaliyyət göstərsə də, prokurorluq işçilərinin peşə bayramının qeyd edilməsinə dövlət tərəfindən heç bir təşəbbüs göstərilməmiş, bununla əlaqədar



hər hansı rəsmi tədbir görülməmişdir. Qürurvericidir ki, məhz Ulu Öndər Heydər Əliyevin imzaladığı 17 iyul 1998-ci il tarixli Sərəncam ilə "1 oktyabr-Prokurorluq işçilərinin peşə bayramı günü" təsis edilmiş, bu isə tarixi ədalətin bərpa olunması ilə yanaşı, hakimiyyət orqanları sırasında xüsusi yeri olan prokurorluğa qayğının ifadəsi, onun roluna rəsmi münasibətin dövlət səviyyəsində təzahürü olmuşdur.

Sirr deyil ki, Azərbaycan Respublikası Prokurorluğunun dövlətçiliyin maraqlarına, qanunun aliliyinin, insan və vətəndaş hüquqlarının müdafiəsinə xidmət edən sivil bir qurum kimi formalaşması, onun fəaliy-

yətinin hərtərəfli təminatı üçün qanunverici, maddi və sosial bazanın yaradılması, ölkəmizdə həyata keçirilən möhtəşəm islahatların, o cümlədən məhkəmə-hüquq islahatlarının memarı – Ümummilli Lider Heydər Əliyevin böyük qayğı və dəstəyi sayəsində mümkün olmuşdur. Müstəqil Respublikamızın Ali Qanununda ilk dəfə olaraq ölkəmizin dövlət quruluşu sistemində prokurorluğun layiqli yerinin müəyyənləşdirilməsi, məhkəmə hakimiyyəti sisteminə daxil olan prokurorluq orqanlarının statusu, təşkili və fəaliyyət prinsipləri, səlahiyyət dairəsi və vəzifələrinin qanunvericilik qaydasında təsbit edilməsi Heydər Əliyevin bilavasitə tapşırıq və göstərişlərinin icrasının nəticəsi idi. Ulu Öndər Heydər Əliyevin təşəbbüsü əsasında qəbul edilmiş “Prokurorluq haqqında” Azərbaycan Respublikasının 7 dekabr 1999-cu il tarixli Qanunu qarşıda duran bu və ya digər vəzifələrin uğurla həyata keçirilməsinə imkan yaratmaqla, prokurorluq orqanlarının daha da demokratikləşdirilməsini, onun qanunçuluğun və insan hüquqlarının aliliyinin real təminatçısına çevrilməsini təmin etdi. Ardınca beynəlxalq hüquq normalarına və demokratik prinsiplərə uyğun hazırlanmış “Prokurorluq orqanlarında qulluq keçmə haqqında”, “Prokurorluq işçilərinin xidməti vəsiqəsi haqqında”, “Prokurorluq orqanları işçilərinin fərqlənmə nişanları və xüsusi geyim forması haqqında”, “Prokurorluğun rəsmi emblemi haqqında” Azərbaycan Respublikası Qanunlarının və digər hüquqi aktların qəbul edilməsi nəticəsində prokurorluğun fəaliyyətinin hüquqi tənzimlənməsi prosesi dövrün tələblərinə və beynəlxalq standartlara cavab verən səviyyəyə çatdırıldı. 19 sentyabr 2002-ci il tarixdə qüvvəyə minmiş “Azərbaycan Respublikasının Konstitusiyasına dəyişikliklər edilməsi haqqında” referendum aktı ilə prokurorluğa qanunvericilik təşəbbüsü hüququnun verilməsi isə dövlətdə və cəmiyyətdə prokurorluğun rolunu daha da artırdı. Həyata keçirilən möhtəşəm islahatlar çərçivəsində görülən nəhəng işlər sayəsində və təməl prinsiplərin mövcud tələblərlə uzlaşdırılması ilə hazırlanmış hüquqi baza əsasında Azərbaycan Prokurorluğu struktur və mahiyyət baxımından tamamilə yenidən qurularaq, yüksək nəzəri bilikli və peşəkar kadrlarla komplektləşdirilməklə, səlahiyyətləri, vəzifələri və fəaliyyəti beynəlxalq standartlara uyğun formalaşdırılmış müasir dövlət təsisatına çevirildi. Ümummilli Liderin prokurorluq işçilərinin rifahına xidmət edən “Azərbaycan Respublikası Prokurorluq orqanları işçilərinin maddi və sosial təminatı haqqında” 8 oktyabr 2002-ci il tarixli Sərəncamı isə prokurorluq işçiləri tərəfindən sonsuz sevinc hissləri ilə qarşılanmaqla, onlarda böyük ruh yüksəkliyi yaratmışdır. Ulu Öndər Heydər Əliyevin prokurorluğun, özü dediyi kimi, çətin və şərəfli işini, həmçinin dövlətçiliyə olan sədaqətini dəyərləndirməklə, onun fəaliyyətinə yüksək qiymət verməsi bizi qürurlandırmaqla bərabər, hər birimizin üzərinə daha böyük məsuliyyət qoymuşdur.

### Heydər Əliyev və ordu quruculuğu

Ümummilli Liderin zəngin və çoxşaxəli fəaliyyətinin prioritet istiqamətlərindən birini də Azərbaycanın təhlükəsiz gələcəyinə təminat, müstəqilliyinə zəmanət verən ordu quruculuğu təşkil edirdi. Azərbaycan Xalq Cümhuriyyətinin süqutundan sonra ölkəmizdə bu sahədə yaranmış tənəzzül, Ulu Öndərin birinci dəfə hakimiyyətə gəlişindən sonra aradan qaldırıldı. Azərbaycanda SSRİ müdafiə sənayesinin on bir böyük zavodunun tikilməsi, bu zavodlarda o dövrün ən müasir texnologiyalarının tətbiq olunması Azərbaycan Respublikasının müdafiə sənayesi istehsalında keyfiyyətli



məhsulların həcmini dəfələrlə artırırdı ki, bu da müstəqilliyə doğru gedən yolda vacib amillərdən idi. Bununla yanaşı, milli hərbi kadrların hazırlanması prosesi də vüsət aldı. Müxtəlif sahələrdə, o cümlədən hərbi sahədə ixtisaslı milli mütəxəssislərin hazırlanması istiqamətində Heydər Əliyevin gördüyü böyük işlər bu müdrik şəxsiyyətin uzaqgörənliyinin parlaq sübutu idi. Ordu quruculuğunda keyfiyyətli hərbi təhsilin formalaşdırılmasının və ixtisaslı gənc hərbi kadrların hazırlanmasının son dərəcə strateji əhəmiyyətli məsələ olduğunu hər zaman vurğulayan Ulu Öndər, bu sahəni də daim diqqət mərkəzində saxlayırdı. Qeyd olunan məsələnin vacibliyini nəzərə alan Ümummilli Lider Heydər Əliyev hələ Sovetlər dönəmində, SSRİ-nin iflas təhlükəsi heç kimin ağlına gəlmədiyi bir vaxtda milli kadrların, xüsusilə peşəkar hərbçilərin hazırlanması istiqamətində misilsiz işlər görürdü. Belə ki, o, azərbaycanlı gənclərin hərtərəfli formalaşması üçün onların ali təhsil, o cümlədən xaricdə təhsil almalarına

xüsusi önəm verməklə yüzlərlə şəxsin müxtəlif dövlətlərin ali təhsil müəssisələrində, həmçinin ali hərbi məktəblərində təhsil almaları istiqamətində əməli tədbirlər həyata keçirirdi. Bununla da, Ümummilli Liderin şəxsi müdaxiləsi və qayğısı ilə ötən əsrin 70-ci illərindən başlayaraq ali hərbi məktəblərə qəbul olunan gənclərin sırasında azərbaycanlıların sayı intensiv şəkildə artmağa başladı və bu sahədə də milliləşdirmə prosesi sürətləndi. Digər istiqamət isə ölkə daxilində milli təhsil müəssisələrinin təkmilləşdirilməsi və yeni təhsil ocaqlarının yaradılması idi. Müttəfiq respublikalar arasında ilk dəfə və yalnız Bakıda hərbi məktəbin açılmasına mərkəzi hakimiyyətdən icazə almaq çox çətin olsa da, Ulu Öndər buna nail oldu və məhz onun əzmi sayəsində 19 iyul 1971-ci il tarixdə Silahlı Qüvvələrin peşəkar milli hərbçi heyəti ilə komplektləşdirilməsində müstəsna əhəmiyyəti olan Cəmşid Naxçıvanski adına Hərbi Lisey yaradıldı. Sözügedən hərbi məktəbin fəaliyyətə başlaması Azərbaycanda hərb sahəsinə marağın daha da güclənməsinə təkan verdi.



Böyük şəxsiyyət Heydər Əliyev növbəti dəfə Azərbaycana rəhbərlik etdiyi dövrdə ölkəmizdə bütün sahələrdə olduğu kimi, ordu quruculuğunda da köklü islahatlar həyata keçirildi. Silahlı Qüvvələrin beynəlxalq əlaqələrinin genişləndirilməsini də hər zaman diqqətində saxlayan Ali Baş Komandan Heydər Əliyev, onu müasirləşdirmək üçün sovet hərb sistemini dəyişib, NATO standartlarını tətbiq etməyin zəruriliyini, Şimali Atlantika Alyansının isə beynəlxalq münasibətlər sistemində yeri və rolunu nəzərə alaraq, ölkəmizin NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramına qoşulması barədə qətiyyətli qərar verdi və 4 may 1994-cü ildə Brüsseldə təşkilatın çərçivə sazişini imzaladı. Bundan sonra, digər ölkələrin qanunvericiliyindən və təcrübəsindən bəhrələnilməklə, eləcə də hərb tariximizə əsaslanılmaqla mükəmməl hərbi qanunvericilik bazası yaradılması prosesi başladı, həyata keçirilən mühüm tədbirlər sayəsində çağırış və səfərbərlik işi də xeyli təkmilləşdirildi, həmçinin hərbi hissələrdə intizam möhkəmləndi və qanunun aliliyi prinsipi bərqərar oldu. Bütün bunlar və müzəffər Ali Baş Komandanın mükəmməl ordu quruculuğu siyasəti hərbçilər arasında nizam-intizamı daha da möhkəmləndirdi, döyüş ruhunu və qabiliyyətini artırdı, bir sözlə qüdrətli Silahlı Qüvvələr formalaşdırdı ki, bu da Vətən müharibəsindəki qələbəmizi şərtləndirdi.

**Ulu Öndər Heydər Əliyev dühasının müasir Azərbaycanı möhtərəm Prezident cənab İlham Əliyevin sayəsində daha da qüdrətlənir**

Fərəhləndirici haldır ki, dünyada gedən mürəkkəb proseslərə, ümumbəşəri ciddi və problemlərə, çoxsaylı qlobal çətinliklərə, eləcə də müharibədən yeni çıxmış ölkə olmasına, həmçinin postpandemiya dövrünü yaşamasına rağmən, nəhəng tarixi şəxsiyyət Heydər Əliyevin layiqli davamçısı möhtərəm Prezident cənab İlham Əliyevin rəhbərliyi ilə bu gün də Respublikamızda iqtisadiyyat güclənir, bütün sahələrdə mütəmadi olaraq mütərəqqi islahatlar həyata keçirilir, regionların tarazlı inkişafının davamlılığı təmin olunur, hər bir istiqamət üzrə ardıcıl uğurlar əldə edilir ki, nəticədə doğma Azərbaycanımız daha da qüdrətlənir. Ölkəmizdə həyata keçirilən mükəmməl siyasət nəticəsində nəhəng layihələr reallaşdırılır, qeyri-neft məhsullarının istehsalının və ixracının artırılması üzrə kompleks tədbirlər görülür, dövlət-sahibkar münasibətlərinin və biznes-investisiya mühitinin daha da sağlamlaşdırılması, özəl sektorda təşviq alətlərinin tətbiqi, aqrar sektora, kiçik və orta sahibkarlığa dövlət dəstəyi daim diqqət mərkəzində saxlanılır. Milli iqtisadiyyat və onun əsas sektorları üzrə strateji yol xəritələri, konsepsiyalar və digər dövlət proqramları çərçivəsində müəyyən olunmuş tədbirlərin icrası uğurla həyata keçirilir.

Dövlətlərarası münasibətlər sistemində bərabərhüquqlu əməkdaşlığı dəstəkləyən və təbliğ edən Azərbaycanın mövqeyi beynəlxalq arenada da möhkəmlənmişdir. Təsadüfi deyil ki, 120 üzvlə BMT-dən sonra ikinci ən böyük təsisat olan Qoşulmama hərəkatına üzv dövlətlərin hamısı hər dəfə böyük etimad göstərərək ölkəmizin sədrlik müddətini yekdilliklə daha bir il uzadırlar. Azərbaycan Türk şurasına sədrliyini də uğurla başa vurmuşdur. İslam Əməkdaşlıq Təşkilatı ənənəvi olaraq ölkəmizin haqlı mövqeyini müdafiə edir. Dövlətimiz NATO tərəfindən də dəstəklənir. Digər dövlətlərlə, xüsusən də qonşu ölkələrlə qurulmuş mükəmməl əlaqələrin davamlılığı da uğurla təmin olunur, daim təmaslar və fikir mübadiləsi əsnasında dostluq və tərəfdaşlıq əlaqələri inkişaf edir. Qeyd olunmalıdır ki, Türkiyə ilə qardaşlıq münasibətləri, Türkiyə-Azərbaycan əlaqələri 15 iyun 2021-ci il tarixdə "Azərbaycan Respublikası ilə Türkiyə Respublikası

arasında müttəfiqlik münasibətləri haqqında Şuşa Bəyannaməsi"nin imzalanması ilə keyfiyyətcə yeni mərhələyə qədəm qoyaraq rəsmən müttəfiqlik səviyyəsinə yüksəlmişdir.

Dövlət başçısının ölkəyə rəhbərlik etdiyi möhtəşəm 20 ilə yaxın müddət ərzində əldə edilən uğurlardan bəhs edərkən, Azərbaycanın nəinki müasir dövrünün, ümumilikdə öz şərəfli tarixinin ən böyük nailiyyətlərindən biri olan 44 günlük Vətən müharibəsində qazanılmış tarixi qələbə xüsusi vurğulanmalıdır. Müzəffər Ali Baş Komandanın mükəmməl siyasətinin və sarsılmaz qətiyyətinin, dövlətimizin qüdrətinin, Silahlı Qüvvələrimizin gücünün, hərbi qulluqçularımızın şücaətinin və xalqımızın qəhrəmanlığının vəhdəti nəticəsində böyük zəfər qazanılmış və bu tarixi uğur isə millətimizin ruhunu dəyişmiş, vüqarını və qürurunu daha da artırmış, alnını açıq, üzünü ağ, başını uca etmiş, milli məğrurluğumuzu daha da möhkəmləndirmişdir. Ermənistanın hər növbəti təxribatlarının qarşısı alınarkən müşahidə etdiyimiz Silahlı Qüvvələrimizin rəşadəti və hərbçilərimizin qəhrəmanlığı bir daha sübut edir ki, cənab Prezidentin dediyi kimi: *"Dəmir yumruq yerindədir"*. Aprel ayının 23-də Laçın-Xankəndi yolunda nəzarət-buraxılış məntəqəsinin yaradılması müdrik siyasətin növbəti qələbəsi olmaqla, hər bir azərbaycanlını daha da qürurlandırdı. Fürsətdən istifadə edib, uca Allahdan bütün şəhidlərimizə rəhmət, yaralılarımıza isə şəfa diləyirəm.

Böyük sevinc hissləri ilə qeyd edilməlidir ki, Respublikamızın digər bölgələri ilə bərabər, işğaldan azad edilmiş vaxtilə ermənilər tərəfindən viran qoyulmuş kənd və şəhərlərimizdə sürətli abadlıq-quruculuq işləri aparılır və həyata keçirdiyi siyasətin prioritet istiqamətlərindən olan bu proses dövlət başçısının şəxsi nəzarəti ilə uğurla reallaşdırılır ki, bunun da nəticəsində Vətənin hər bir guşəsi gülüstana çevrilir və Azərbaycan durmadan çiçəklənir. Hazırda geniş tikinti-quruculuq meydanına çevrilən Qarabağ və Şərqi Zəngəzurda dövlət başçısının tapşırıqları və tövsiyələri əsasında "ağıllı şəhər" və "ağıllı kənd" konsepsiyalarının reallaşdırılması, bütün infrastrukturların yenidən qurulması, avtomobil və dəmir yollarının, elektrik, su və qaz xətlərinin çəkilməsi, hava limanlarının, tunellərin, körpülərin, müasir yaşayış komplekslərinin, məktəblərin, xəstəxanaların, su-elektrik stansiyalarının tikilməsi prosesi uğurla davam etdirilir ki, bu da dünya iqtisadiyyatında böyük problemlərin yarandığı bir dövrdə Respublikamızın qüdrətini və iqtisadi gücünü sübut edən növbəti bariz nümunədir.

**Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva ölkəmizin uğurlarına misilsiz töhfələr verməkdədir**



Qeyd etmək zəruridir ki, ölkəmizin hərtərəfli qüdrətlənməsində və əldə olunan uğurlarda, eləcə də dövlətimizin beynəlxalq əlaqələrinin inkişaf etdirilməsində, milli-mənəvi dəyərlərimizin və mədəniyyətimizin bütün dünyaya tanıdılmasında Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın zəngin və yorulmaz fəaliyyəti mühüm əhəmiyyət kəsb etməkdədir. Onun Respublikamızda təhsilin, elmin, səhiyyənin, mədəniyyətin, idmanın və digər sahələrin inkişafında misilsiz xidmətləri, milli-mənəvi dəyərlərin qorunması və beynəlxalq səviyyədə geniş təbliği istiqamətində gördüyü böyük işlər dövlətimizin daha da qüdrətlənməsinə və xalqın rifahının hərtərəfli yaxşılaşdırılmasına töhfələr verməkdədir. Sadalananlar, eləcə də sadəliyi, təvazökarlığı, səmimiliyi, vətənpərvərliyi, insanlığın təntənəsinə xidmət edən təşəbbüsləri və saysız-hesabsız xeyirxah əməlləri Mehriban xanıma sonsuz xalq məhəbbəti qazandırmışdır. Onun bəşər mədəniyyətinin inkişafı istiqamətindəki səriştəli fəaliyyəti, dövlətlərarası dialoq prosesinə verdiyi töhfələr və dünyanın müxtəlif yerlərində həyata keçirdiyi humanitar tədbirlər isə Birinci xanıma Azərbaycan xalqının sevgisi ilə bərabər, bir sıra xarici ölkə vətəndaşlarının da rəğbətini qazandırmışdır. Fərəhləndiricidir ki, Mehriban xanımın xüsusən də Şərqlə Qərb arasında mədəni dialoqa nail olmaq, fərqli sivilizasiyaları ümumbəşəri maraqlar naminə bir araya gətirmək, dini tolerantlığı, multikulturalizmi gücləndirmək, gender bərabərliyini təmin etmək istiqamətindəki fədakar fəaliyyəti beynəlxalq səviyyədə yüksək dəyərləndirilir. Təsadüfi deyil ki, şöhrəti respublikamızın hüdudlarından kənara çıxan Birinci vitse-prezidentin gördüyü böyük işlərin sədası dünyanın ən nüfuzlu kütləvi informasiya vasitələrindən

gəlir və O, səmərəli fəaliyyətinə görə digər ölkələr tərəfindən də ali dövlət mükafatları ilə təltif edilir.

Qeyd etmək zəruridir ki, cənab Prezidentin ən sadiq silahdaşı Mehriban xanım Əliyevanın yorulmaz fəaliyyəti Vətən müharibəsi zamanı da diqqət cəlb etmişdir. Birinci vitse-prezident ölkəmizin ədalətli mübarizəsi barədə həqiqətlərin beynəlxalq ictimaiyyətə çatdırılması üçün vətənpərvər çağırışları ilə hər bir azərbaycanlını informasiya platformalarında mübarizəyə səfərbər etməyi uğurla bacardı. Cəbhədə döyüşən qəhrəman hərbçilərimizə, eləcə də yaralılarımıza hərtərəfli dəstəyi və duaları ilə yardımçı olan, şəhidlərimizin əzizlərinin ağrı-acısına şərik çıxaraq bir ana, bir bacı, bir övlad kimi doğma və qayğılı münasibəti ilə onları ovunduran, hər bir məqamda dövlət başçısının yanında olan Mehriban xanım xalqımıza və ölkə rəhbərinə böyük dəstək verdi.

Sirr deyil ki, Birinci vitse-prezident dövlət başçısı ilə birlikdə bir neçə dəfə işğaldan azad olunmuş tarixi ərazilərimizə səfər edərək, yenidənqurma işləri ilə şəxsən tanış olmuş, bir neçə müxtəlif infrastruktur layihələrinin təməlqoyma və açılış mərasimlərində iştirak etmiş, bununla əlaqədar öz dəyərli məsləhətlərini vermişdir. Mehriban xanım Əliyevanın təşəbbüsü ilə rəhbəri olduğu və Ulu Öndərin xeyirxah ideyalarını layiqincə davam etdirən Heydər Əliyev Fondu tərəfindən tarixi-mədəni və dini abidələrimizin bərpa edilməsi də bu istiqamətdə görülən böyük işlərdəndir. Birinci xanımın ölkə rəhbəri və ailə üzvləri ilə birlikdə işğaldan azad olunmuş ərazilərə çoxsaylı səfərləri, səfər boyu sevinc və qürur dolu davranışları, səmimi paylaşımları bu vətənpərvər insanların torpağa, yurda, vətənə və xalqa bağlılığının izharıdır.

**Ulu Öndər Heydər Əliyev daim xatırlanacaq və əziz xatirəsi yüksək ehtiramla yad olunacaqdır**

Göründüyü kimi, böyük tarixi şəxsiyyət Heydər Əliyevin uzaqgörən siyasəti bu gün də millətimizə və dövlətimizə fayda verməkdədir. Müdrik siyasəti zamanın tələbləri ilə uzlaşdıraraq uğurla davam etdirən möhtərəm Prezident cənab İlham Əliyevin digər dövlət başçılarına örnək olan mükəmməl rəhbərliyi sayəsində Azərbaycan daha da qüdrətlənir və xalqın rifahının hərtərəfli yaxşılaşdırılır.

Bu gün dövlət başçısına ünvanlanan minnətdarlıq məktublarının səngiməməsi, Mehriban xanımın saysız-hesabsız xeyirxah təşəbbüslərinə görə insanların məmnunluq hissləri ilə dolu təşəkkürlərini ifadə edən müraciətlərinin ardı-arasının kəsilməməsi əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş milli maraqlara xidmət edən siyasətin qədirbilən xalq tərəfindən dəyərləndirilməsinin və dəstəklənilməsinin təzahürü, Ümummilli Liderə, eləcə də ölkə rəhbərinə və Birinci vitse-prezidentə olan sonsuz xalq sevgisinin təcəssümüdür.

Ulu Öndərin uzaqgörən mükəmməl siyasi strategiyasının, ölməz ideyalarının və dəyərli tövsiyələrinin Vətənin və xalqın taleyində bundan sonra da misilsiz rol oynayacağına, dövlət başçısının rəhbərliyi ilə Respublikamızda həyata keçirilən hərtərəfli islahatlara, görülən nəhəng işlərə böyük töhfələr, ölkənin sürətli



və davamlı inkişafına ciddi dəstək verəcəyinə hər kəs əmindir.

Odur ki, xalqımızın və vətənimizin taleyində müstəsna rolu olan, istiqlalımızın və firavan istiqbalımızın müəllifi, müasir Azərbaycanın memarı və qurucusu Ulu Öndər Heydər Əliyev daim dərin məhəbbətlə xatırlanacaq, nəhəng tarixi şəxsiyyətin doğum günü hər il respublikamızda, eləcə də ölkə hüdudlarından xeyli uzaqlarda böyük təntənə ilə qeyd ediləcək, əbədiyaşar liderimizin əziz və unudulmaz xatirəsi həmişə yüksək ehtiramla yad olunacaqdır.

**Xanlar Vəliyev**
**Azərbaycan Respublikası Baş prokurorunun müavini – Respublikanın Hərbi prokuroru, ədliyyə general-leytenantı, Respublikanın əməkdar hüquqşünası, hüquq elmləri üzrə fəlsəfə doktoru**




# Ruhumuzda yaşayan ömür

*Mən burada çıxış etmək üçün deyiləm.*

***Qabriel Qarsiya Markes***

Sizə XX əsrin 90-cı illərin əvvəllərindən danışmaq istəyirəm. O dövrdən ki, insanlar banka əmanət qoyub əvəzində aylıq un, düyü, makaron alırdılar. Bir müddət sonra isə məlum oldu ki, fırıldaqçılara rast gəliblər və bütün pulları bankda batmışdı. O dövrdən ki, polis küçə alveri ilə məşğul olan balıq satanı insanların gözü qarşısında saatlarla döymüşdü. Küçəmizin başında qırmızı "Volvo" maşınında dayanan hərbçilər isə çox vahiməli görünürdülər. Bunlar hamısı mənim uşaqlıq dövrü yaddaşımdan qalan xatirələrdir.

Dostlarımla səs-küylü, dava-dalaşlı çörək növbələrinə baş vurub çörək almaq nə qədər əyləncəli idisə, bunu bacarmayıb evdəkiləri gün ərzində ac qoymağın daxili iztirabı bir o qədər acınacaqlı idi. Bəlkə də, gələcək həyatımda valideynlərimi heç vaxt məyus etməməyə çalışmağımın əsas səbəbi evimizdən bir neçə kilometr aralıya dükan-dükan düşüb çörək axtararaq "yoxdur" sözünü eşidib, əliboş evə qayıdanda onların təəssüfləndiklərinə görə uşaqlıq yaddaşıma həkk olunan utanc hissinin nəticəsidir.

Qonşularla vedrədə su daşıdığımız günlər bizə suyun dəyərini indiki nəsildən daha yaxşı izah edib. Bütün uşaqlar öz kəndlərinə gedərkən, Naxçıvan blokadada, bizim kənd isə ermənilərdə olduğundan naxçıvanlı qonşu yoldaşımla Bakıda qalıb gölməçədə yarpaqlardan gəmi düzəldib oynamağımız bizim ən darıxdırıcı, çarəsiz yay tətilimiz idi.

Uşaq olsaq da, o vaxtkı Ali Sovetdə deputatların bir-biri ilə dalaşması, prezidentlərin tez-tez dəyişməsi, hər yeni gələn rəhbərin vədlər verməsinə baxmayaraq, ölkənin vəziyyətinin daha da gərginləşməsi, torpaqlarımızın işğal olunmasını gözəl başa düşürdük. Sadaladığım anlar həmin dövrdə Azərbaycanın iqtisadi, hərbi-siyasi sahədə mövcud olduğu acınacaqlı vəziyyətinin mənim uşaqlıq yaddaşıma yansımış xatirələridir.

Bir anı da gözəl xatırlayıram. Ulu Öndər Heydər Əliyevin Ali Sovetin sədri seçilərkən valideynlərimin televizor qarşısında sevinci, atamın *"Əla, bundan sonra hər şey qaydasına düşəcək"* sözləri ürəyimi o qədər fərəhləndirdi ki, məndə gələcəyə inam yarandı.



Bu inam tək məndə yox, bütün insanlarda, xüsusən də böyük nəslin nümayəndələrində yaranmışdı. Onlar başa düşürdülər ki, Heydər Əliyevin quruculuq

siyasətinin fəlsəfəsini insanların layiqli həyat səviyyəsinin təmin edilməsi təşkil edirdi.

Biz o vaxt uşaq idik və bunun səbəbini dərinliyi ilə başa düşmürdük. Mən indi anlayıram ki, insanların Ulu Öndərə inamının əsas səbəbi onun xalqın içindən çıxması, gənc yaşlarından böyük zəhmət hesabına irəliləməsi, əvvəl rəhbərlik etdiyi dövrdə Azərbaycanı inkişaf etdirməsi və ən nəhayət ruhlandırıcı həyat hekayəsi olmuşdu. O, hər bir məsələni xalqla bölüşür, insanlarda ruh yüksəkliyi və gələcəyə inam yaradırdı. Məhz bunun sayəsində ilk dəfə idi ki, vətəndaşlar hakimiyyətin onların hər birinə məxsus olduğuna inanırdılar.

Həmin vaxtlar eyni ətrafda yaşadığımız həmyaşıdlarımla qazandığımız ilk böyük nailiyyət, bəlkə də həyatımızın dönüş nöqtəsi bizim rayonda yeni açılmış məktəb-liseyə qəbul olunmağımız oldu. Həyatımda bu addımın atılmasında valideynlərimin böyük rolu var idi. Onların bu addımı atmalarının səbəbi isə Ulu Öndər hakimiyyətə gəldikdən sonra gələcəyə inamlarının artması ilə bağlı idi. Başa düşürdülər ki, artıq insanların öz güclərinə yeni həyat qurmaq imkanları yaranmışdı. Məktəb yoldaşlarım, dostlarım hamısı məqsədyönlü şəkildə ali məktəblərə qəbul olunmaq, özlərinə yaxşı həyat qurmaq uğrunda çalışırdılar. Artıq biz nə su daşımırdıq, nə çörək dərdi çəkmirdik.



Ali təhsil müəssisələrinə imtahanların test üsulunda aparılması, bizdən yuxarı siniflərin yüksək ballarla ali məktəblərə daxil olması, artıq sadə ailədən çıxan bir gəncin hüquq fakültəsinə qəbul olmaq imkanına skeptik yanaşmamı darmadağın etmişdi...

**Azərbaycan Respublikasının Prezident Aparatında Ulu Öndərlə görüş 1999-cu il**

17-18 yaşlı gənclər xalqın Ümummilli Lideri ilə görüşə çağırılmışdılar. Ali təhsil ocaqlarına qəbul olan tələbələrin elitasında yer alaraq Ulu Öndərlə görüş haqqı qazanmaqdan xüsusi qürur hissi keçirirdik. Həm də qazandığım nailiyyətə görə ona borclu olduğumu anlayırdım.

Görüşdə Ümummilli Lider Heydər Əliyevin gənclərə verdiyi dəyər, ölkənin inkişafında vəzifələrimiz, milli kimliyimizin qorunması, özünü inkişaf strategiyası ilə bağlı qarşımızda qoyduğu hədəflər bizi sanki vahid bir missiyanın icraçılarına çevirmişdi. Tədbirdən çıxanda hamımız liderindən yeni tapşırıqlar almış komandanın üzvləri kimi özümüzü hiss edirdik. Həm də öz ağsaqqalından məsləhətlər almış eyni bir ailənin övladları idik biz!

Ulu Öndər Heydər Əliyevin parlaq şəxsiyyəti, müdrik siyasəti və hüquqi dövlət quruculuğu istiqamətində gördüyü işlər haqqında tarixi faktlar ortaya qoymaqla tədqiqatlar aparmaq, böyük elmi əsərlər yazmaq olar və bunu edənlər də çox olubdur. Gələcək nəslimiz üçün bu əsərlərin əhəmiyyəti əlbəttə ki, böyükdür.

Mən isə burada yazdıqlarımla Ulu Öndər haqqında özümün xatirələrimi və onun mənim kimi milyonlarla insanın həyat yolunda buraxdığı əvəzolunmaz izi vurğulamağa çalışdım.

**Anar Nəsibov**
**Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin rəis müavini – Kassasiya instansiyası məhkəməsində dövlət ittihamının müdafiəsi və analitik təhlil şöbəsinin rəisi, baş ədliyyə müşaviri**

# Heydər Əliyev – insanların yaddaşlarında əbədi həkk olunmuş dahi şəxsiyyət



1969-cu il iyulun 14-də Bakıda Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin plenumu keçirildi. Respublika Dövlət Təhlükəsizliyi Komitəsinin sədri işləmiş Heydər Əlirza oğlu Əliyevin namizədliyi Mərkəzi Komitənin Birinci katibi vəzifəsinə irəli sürülərək yekdilliklə bu vəzifəyə seçilmişdir. Seçki nəticələri elan edildikdən dərhal sonra çıxış edən Heydər Əliyev plenum iştirakçılarına demişdir: *"Mən bu vəzifənin öhdəsindən gəlməyimlə bağlı məsuliyyəti dərk edirəm, qarşımda duran vəzifələrin mürəkkəbliyini və çətinliyini başa düşürəm və sizi əmin etmək istəyirəm ki, məqsədlərimizə nail olmaq üçün bütün varlığımı tətbiq edəcəyəm...".*



Həmin gün Respublikamızın yeni rəhbəri çiyinlərinə böyük bir məsuliyyət yükünü götürmüşdür. Sonralar Heydər Əliyev bu günün 1789-ci ildə Fransada Bastiliya qalasının alınması günü ilə üst-üstə düşdüyünə görə özünün "şəxsi Bastiliyanın alınması günü" adlandırırdı.

Körpə yaşında olduğum üçün mən bu tarixi hadisənin şahidi olmamışam, lakin boya-başa çatdıqca valideynlərimdən, doğmalarımdan dəfələrlə eşitmişəm ki, bu təyinatı xalqımız, bütün düz və vicdanlı insanlar böyük bir sevinc hissi ilə qarşılamışlar.

Bundan başqa, məktəb illərim indi rəğbətlə Ulu Öndər deyərək andığımız, o vaxtlar isə heç də bundan az olmayan hörmət və ehtiramla Heydər Əliyeviç adlandırdığımız bu böyük və unudulmaz şəxsiyyətin ölkəmizin rəhbəri olduğu dövrə təsadüf etmişdir.

Ümummilli Lider Heydər Əliyevi yaxından görmək həyatımda mənə üç dəfə nəsib olub və bu məqalə çərçivəsində məndə olan təəssüratlarla sizinlə bölüşmək istərdim.

İlk dəfə bu 1970-ci illərin əvvəllərində Beynəlxalq Əmək Günü olan "1 May bayramı" münasibətilə keçirilən nümayiş zamanı baş vermişdir. Atam – müstəqil Azərbaycan Respublikasının ilk Baş prokuroru, şəhid İsmət Qayıbov o vaxt Respublika Komsomolunun (Kommunist Gənclər İttifaqı) Mərkəzi Komitəsində məsul vəzifədə çalışmış və işdə ona mükafatlandırma qaydasında Lenin (hazırda Azadlıq) meydanındakı tribunanın ətrafında yerləşən fəxri qonaqlar üçün

nəzərdə tutulmuş oturacaq yerlərinə buraxılış verilmişdir. Atam məni həmin tədbirə özü ilə apardı, orada hamı bayram əhvali-ruhiyyəsində idi. Ölkəmizin adlı-sanlı zəhmətkeş kollektivləri meydanda şüarlarla qarşımızdan keçir, Heydər Əliyev başda olmaqla tribunada duran rəhbər şəxslər onları əl ilə salamlayırdılar. Bir zaman Heydər Əliyeviç tribunanın sol tərəfinə gəldi və ani olaraq onunla baxışlarımız toqquşdu. Aramızda ən çoxu dörd-beş metr məsafə



olardı. Orada məndən başqa uşaq yox idi, məni gördükdə onun üzündəki təbəssüm daha da genişləndi və o, məni əl ilə salamladı.

Ulu Öndəri növbəti dəfə görmək mənə 1981-ci ildə qismət olmuşdur. Həmin ilin noyabr ayında İsmayıllı rayonunda güclü zəlzələ baş vermişdir. Atam o zaman rayonun prokuroru vəzifəsində işləyirdi və bizim ailə orada yaşayırdı. Fəlakət nəticəsində çoxlu köhnə evlər uçmuş və ya qismən dağılmış, yüzlərlə binaların, o cümlədən bizim yaşadığımız xidməti evin divarlarında iri çatlar əmələ gəlmişdir, əhali arasında yüngül xəsarət alanlar olsa da, xoşbəxtlikdən həyatını itirən bir nəfər də olmamışdır.

Hadisədən bir-iki gün sonra rayona Heydər Əliyevin rəhbərlik etdiyi dövlət komissiyası gəldi. Atamın xatirələrindən bilirəm ki, maşından düşərkən Heydər Əliyeviç bir müddət danışmadan dağıntılara baxdı, xeyli sonra neçə nəfərin həlak olduğunu soruşdu, güman edirdi ki, bu qədər dağıntı olduğu halda, yəqin insan tələfatı da qaçılmazdı. Eşidəndə ki, insan itkisi yoxdur, ona elə bil əlavə güc gəldi, eyni açıldı və o, "qollarını çırmalayıb" işə başladı.

Komissiya heyəti rayonun ucqar kəndlərindən başlayaraq, bütün uçmuş və zədələnmiş evlərə baxmış, Heydər Əliyev zərər çəkmiş insanlarla şəxsən söhbət edərək onları ruhlandırmış, yerindəcə Azərbaycan SSR Nazirlər Soveti sədrinin müavini, ondan qabaq uzun illər Bakı şəhərinin "meri" işləmiş əfsanəvi Əliş Ləmbəranskiyə zəlzələnin vurduğu ziyan aradan qaldırılana qədər İsmayıllıda qalmağı tapşırmış, rayon partiya komitəsinin birinci katibi, çox ziyalı və məsuliyyətli insan Qəşəm Aslanova rəhbər göstərişlərini vermişdir.

Sonra komissiya rayon mərkəzinə gəlmiş, oradakı dağıntılara baxış keçirərək oxuduğum İsmayıllı şəhər 1 №-li orta məktəbə də baş çəkmişdir. Rayonda bu qədər böyük bir təbii fəlakət baş verdiyinə baxmayaraq, bütün müəllim və şagird heyəti bir nəfər kimi yerində idi. Heydər Əliyev biz məktəblilərə ürək-dirək vermək üçün sual verdi:

– *Uşaqlar, zəlzələdən qorxmadınız ki?*

Və dərhal da gülümsəyərək özü yerimizə cavab verdi:

– *Yox, axı siz heç də qorxan uşaqlara oxşamırsız!*

Hər gün televiziyada rəsmi şəraitdə gördüyümüz bu ciddi, qətiyyətli və tələbkar dövlət xadiminin bizimlə belə mehriban və



qayğı ilə davranması əlbəttə ki, bizi heyran etməyə bilməzdi.

XX əsrin sonunda xalqımızın çətinliklə olsa da qazandığı ən böyük nailiyyəti müstəqil Azərbaycan dövlətinin bərpa olunması oldu. Öz müstəqilliyini bərpa edən Respublikamız bundan sonra demokratik, hüquqi, heç zaman sarsılmayacaq bir dövlətin təməlini qoydu.

Heydər Əliyev müstəqilliyimizin ilk illərində onun əvəzsiz bir sərvət olduğunu böyük qürur hissi ilə




bəyan edərək demişdir: *"Azərbaycanın dövlət müstəqilliyi əbədidir, daimidir, dönməzdir və bizim borcumuz dövlət müstəqilliyini, əldə etdiyimiz milli azadlığı daim qoruyub saxlamaqdır. Bizim vəzifəmiz bu müstəqilliyi möhkəmləndirməkdən və gələcək nəsillərə müstəqil, qüdrətli Azərbaycan dövləti yaratmaqdan ibarətdir".*

Lakin müstəqilliyin ilk illərində ölkəmiz olduqca ağır və çətin sınaqlardan keçdi, müharibə, ölkə daxilindəki qeyri-sabitlik və bir çox başqa səbəblər gənc dövlətimizi hər an məhv olmaq təhlükəsi qarşısında qoyurdu.

Ümummilli Liderimiz ölkə rəhbərliyinə qayıdışından sonra ölkəni gözləyən bütün təhlükələri aradan qaldırmaqla Azərbaycanımızın müstəqilliyinin möhkəm təməlini qoydu, dövlət və dövlətçilik konsepsiyasının əsasını yaratdı. Heydər Əliyev öz yenilməz dühası ilə Azərbaycan tarixinin yeni mərhələsində xalqı səfərbər edərək ilk növbədə hakimiyyətdə olan boşluğu aradan qaldırdı, hüquq mühafizə orqanlarını gücləndirdi.

Böyük iftixarla xatırlayıram ki, bu parlaq şəxsiyyəti mən əyani olaraq üçüncü və axırıncı dəfə 28 noyabr 1998-ci il tarixində Azərbaycan Respublikası Prokurorluğunun 80 illik yubileyinə həsr olunmuş təntənəli yığıncaqda görmüşəm.

Həmin tədbirdə Heydər Əliyev geniş nitqlə çıxış edərək prokurorluq haqqında belə sözlər demişdir: *"Mən hesab edirəm ki, Respublikamızda prokurorluq müstəqil Azərbaycanın dövlət quruluşu sistemində öz yerini tutubdur və ölkəmizin müstəqilliyinə layiqli xidmət edir. Buna görə də biz 1995-ci ildə qəbul etdiyimiz ilk Konstitusiyada prokurorluğun yerini, səlahiyyətlərini və vəzifəsini müəyyən etmişik. Belə bir dövrdə Azərbaycan Prokurorluğu Konstitusiyada müəyyən olunmuş səlahiyyətlərini həyata keçirərək ölkəmizin dövlətçiliyinin qorunmasına və möhkəmlənməsinə xidmət etməlidir, qanunun aliliyini təmin etməli və qanunun aliliyinə riayət etməlidir, Azərbaycan vətəndaşlarının hüquq və azadlıqlarının keşiyində durmalıdır. Bütün bunlar hamısı Konstitusiyada öz əksini tapıbdır. Məmnuniyyətlə qeyd edirəm ki, Azərbaycan prokurorluğu son illərdə bu vəzifələri uğurla yerinə yetirir.*

*Prokurorluğun işindən çox şey asılıdır. Yəni onun keyfiyyətindən, işin ədalətliliyindən, peşəkarlığından çox şey asılıdır. Ümid edirəm ki, Azərbaycan prokurorları öz üzərinə düşən bu məsuliyyəti dərk edirlər və bundan sonra öz işlərini daha da mütəşəkkil aparacaqlar.".*

Sonra fikrini inkişaf etdirərək prokurorluğun cəmiyyətimizdə rolu barədə belə sözlər səslənmişdir: "Hüquq-mühafizə orqanlarının əməkdaşları çox ağır bir peşə sahibləridir. Bu sahədə işə başlayan hər bir adam dərk etməlidir ki, bütün başqa sahələrə nisbətən öz üzərinə ağır bir iş götürür. Amma eyni zamanda, bu peşə həm də şərəfli bir peşədir. Dövlətçiliyin keşiyində durmaq, insanların hüquqlarını qorumaq, cəmiyyətdə qanun-qaydanın saxlanılmasını təmin etmək və insanların rahat yaşamasına xidmət etmək – bu, çox şərəfli vəzifədir.

Prokuror olmaq, şübhəsiz ki, böyük intellekt tələb edir. Hüquq-mühafizə orqanlarının cürbəcür təşkilatları vardır, hər təşkilatın özünəməxsus xüsusiyyəti vardır. Ancaq prokurorluq işi yüksək intellekt tələb edən işdir, yüksək peşəkarlıq tələb edən işdir, yüksək hüquqi bilik, hüquqi təhsil tələb edən işdir.

Qarşıda bizim çox böyük vəzifələrimiz var. Bu vəzifələrin həyata keçirilməsində Azərbaycan prokurorluğunun da özünəməxsus yeri var. Ümidvar olduğumu bildirmək istəyirəm ki, Azərbaycan prokurorluğu bundan sonra da Azərbaycan dövlətçiliyinə sadiq olacaq, Azərbaycanın müstəqilliyinin möhkəmlənməsi və inkişaf etməsi prosesində fəal iştirak edəcək və Azərbaycanda qanunun aliliyinin təmin olunmasında öz xidmətlərini göstərəcəkdir.

Azərbaycan Prezidenti kimi mən Azərbaycan prokurorluğuna inanıram, güvənirəm və arxalanıram."

Şübhəsiz ki, bu qururverici sözlər və yüksək qiymət hər bir prokurorluq işçisinin, xüsusilə də cavan nəslin nümayəndələrinin şüurunda daimi həkk olunmalı və gündəlik fəaliyyətimizin səmərəliliyinin artırılması üçün istiqamət göstəricisi kimi yadda saxlanılmalıdır.

**İsmayıl Qayıbov**
**Baş Prokurorluğun Xüsusi müsadirə məsələlərinin əlaqələndirilməsi idarəsinin rəis müavini, baş ədliyyə müşaviri**




*Təhsil sahəsi nə sənayedir,*
*nə kənd təsərrüfatıdır, nə ticarətdir.*
*Bu, cəmiyyətin xüsusi, intellektual*
*cəhətini əks etdirən bir sahədir.*
*Belə halda təhsil sisteminə*
*çox diqqətlə yanaşmaq lazımdır*
*və bu sistemə münasibət*
*çox hassas olmalıdır.*

**Heydər Əliyev**

# Elm və təhsilin inkişafında Heydər Əliyevin əvəzolunmaz xidmətləri

**Cəmiyyətin tərəqqisinin vacib amilləri olan elm və mədəniyyətin, xalqın intellektual potensialının formalaşması onun təhsil sistemi ilə təmin edilir. Azərbaycan qədim sivilizasiya, mədəniyyət ocağı kimi hələ tarixin lap dərin qatlarında özünün təhsil sistemini formalaşdırmışdır. Bu gün Ümummilli Lider Heydər Əliyevin əvəzolunmaz xidmətləri hesabına ölkəmiz geniş şaxələnmiş təhsil sisteminə, elmləri, bilikləri, təcrübəni nəsildən-nəslə ötürməyə əsas verən mükəmməl ali, orta ixtisas və orta təhsil məktəbləri şəbəkəsinə malikdir.**

Azərbaycanı inkişaf etdirmək, şöhrətləndirmək, xalqın tükənməz elmi və təhsil potensialını üzə çıxarmaq Heydər Əliyevin ən böyük amalı idi. Bu dahi insan düşüncələri zəngin olduğu qədər də tükənməz enerjiyə malik idi. Heydər Əliyevi minlərdən, milyonlardan fərqləndirən üstün cəhəti onunla bağlı idi ki, o, məmləkətin inkişafı üçün zəruri olan məqamları görə bilirdi, qarşıya konkret məqsədlər qoyurdu və insanları bu məqsədlər naminə səfərbər edirdi, qüvvələri səmərəli şəkildə istiqamətləndirirdi.



Ulu öndər Heydər Əliyev bütün fəaliyyəti dövründə elm və təhsilin inkişafına xüsusi qayğı ilə yanaşmışdır. Bu da təsadüfi deyildi. Çünki bu dahi şəxsiyyət yaxşı bilirdi ki, Azərbaycanın tərəqqisinin, müstəqilliyinin yeganə yolu məhz xalqın yüksək təhsil almasındadır, onun maariflənməsindədir, yüksək ixtisaslı mütəxəssislərin yetişdirilməsindədir, fundamental və humanitar elmlərə mühüm əhəmiyyət verilməsindədir.

**Azərbaycan Sovet Sosialist Respublikası**

Tarixi reallıqlardan görünür ki, Heydər Əliyev hələ Azərbaycan Sovet Sosialist Respublikasına rəhbərlik etdiyi ötən əsrin 70 – 80-ci illərində də bu məsələni daim diqqət mərkəzində saxlamış, eləcə də təhsil sistemində ciddi islahatlar həyata keçirmişdir. 1972-ci ildə "Gənclərin ümumi orta təhsilə keçidini başa çatdırmaq və ümumtəhsil məktəbini daha da inkişaf etdirmək haqqında" və 1973-cü ildə "Kənd ümumtəhsil məktəblərinin iş şəraitini daha da yaxşılaşdırmaq haqqında" qəbul edilmiş qərarlar nəticəsində Azərbaycanda orta ümumtəhsil məktəbləri şəbəkəsi 3 dəfə genişləndirilərək 765-dən 2117-yə çatdırılmışdır. Bu da yüzlərlə ucqar yaşayış məskənlərində orta ümumtəhsil məktəblərinin açılışı, minlərlə azyaşlının təhsilə cəlb edilməsi demək idi.

Məhz həmin illərdə ölkəmizdə 5 yeni ali təhsil müəssisəsi fəaliyyətə başlayaraq, ali məktəblərin ümumi sayı 12-dən 17-yə çatmış, ali məktəblərdə təhsil alanların sayı isə 70 mindən 100 minə qədər, yəni 43% artmışdır. Başqa sözlə, ali təhsilli şəxslərin sayının artması ölkə əhalisinin artım göstəricilərini xeyli üstələmişdir.

Eləcə də dahi rəhbər keçmiş Sovet İttifaqının ən nüfuzlu təhsil müəssisələrində azərbaycanlıların oxumasına çalışmış və bu istiqamətdə əsaslı dönüş

yaratmışdır. Məhz Heydər Əliyevin təşəbbüsü və birbaşa himayəsi nəticəsində 1970-ci ildən başlayaraq hər il 800 – 900 nəfər gənc SSRİ-nin nüfuzlu ali məktəblərində təhsil almağa göndərilmişdir ki, bu da respublikanın milli kadr potensialının daha da gücləndirilməsinə imkan yaratmışdır. Nisbətən yaşlı nəsil nümayəndələri xatırladırlar ki, Heydər Əliyev hər il azərbaycanlı gənclərin təhsil almaq üçün keçmiş SSRİ-nin nüfuzlu ali məktəblərinə göndərilməsi ənənəsini qoymuş, onların yola salınması isə təntənəli şəkildə həyata keçirilirdi. Bu uzaq görən addımlar nəticəsində o dövrdə SSRİ-nin 170 qabaqcıl ali təhsil ocağında 15 minə yaxın azərbaycanlı tələbənin təhsil almasına nail olunmuşdur.




Heydər Əliyevin rəhbərliyi dövründə Respublika Elmlər Akademiyasının elmi-tədqiqat institutlarında fundamental elmin inkişafının təmin olunmasına start verilmişdir. Yüksək intellektə malik şəxsiyyət olan Heydər Əliyev öz fəaliyyətində və siyasi təcrübəsində hər zaman elmi fikrin ən yeni nailiyyətlərindən faydalanırdı. O, elm və texnikanın, mədəniyyət və maarifin, ədəbiyyat və incəsənətin inkişafı məsələlərinin həlli məqamlarında yüksək peşəkarlıq göstərir, cəmiyyətin, xalqın inkişafını elmdə, intellektdə görürdü. Heydər Əliyev elmə, alimə həmişə yüksək qiymət verirdi. Bunun ilk səbəbi özünün də elmi təfəkkür sahibi olması, öz fəaliyyətini həmişə elmi prinsiplər üzərində qurması, intellektual potensiala arxalanması idi. Onun Azərbaycan elminə göstərdiyi qayğı və dəstək elə buradan qaynaqlanır.

Ötən əsrin 60-cı illərində bilavasitə Heydər Əliyevin təşəbbüsü əsasında SSRİ Elmlər Akademiyasının prezidenti, akademik M.Keldış Azərbaycana gəlir və respublikanın rəhbərliyi ilə görüşür. Həmin görüşdən sonra o vaxtlar böyük əhəmiyyət kəsb edən, o dövr üçün superkompüter səviyyəsində olan BGSM hesablama maşını Elmlər Akademiyasına verilir. Bunun da nəticəsində respublikamızda proqramlaşdırma, avtomatika, tətbiqi riyaziyyat, kibernetika və digər sahələrdə böyük alimlər, mütəxəssislər ordusu formalaşmağa başlayır. Xüsusilə fizika, riyaziyyat, informatika və texnika elmlərinin perspektivini planlaşdırdıqda Ümummilli Lider Heydər Əliyevin məsləhət bildiyi strategiya, yəni sənayemizin intellektual təminatının perspektivi əsas götürülmüşdür. Nəticədə 70-ci illərdə Azərbaycanda riyaziyyat elmi sürətlə inkişaf etmiş və dünyada tanınan elmi məktəb kimi formalaşmışdır.

Azərbaycanda biologiya elminin biokimya, molekulyar biologiya, biofizika, gen biotexnologiyası, bioinformatika, bioenergetika kimi müasir sahələrinin fundamental əsası məhz keçən əsrin 70-ci illərində qoyulmuşdur. Təbiətə, yaşıllığa, gözəlliyə insan sağlamlığının, fiziki və mənəvi saflığının təminatçısı kimi baxan Ümummilli Lider Heydər Əliyev daim onun mühafizəsinin qeydinə qalmışdır. Həmin illərdə yaradılmış “Azərbaycanın Qırmızı Kitabı” məhz möhtərəm Heydər Əliyevin sərəncamı əsasında işıq üzü görmüşdür.

Azərbaycanda kimya, neft emalı və neft-kimya sənayesinin yüksəlişi məhz 1970-ci illərdə başlamışdır. Görkəmli alim, dünya kimya elminin korifeylərindən sayılan akademik Yusif Məmmədəliyevin Azərbaycanın neft-kimya elminin inkişafındakı səmərəli təcrübəsinin davam etdirilməsini vacib sayan Ulu Öndər Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə respublika sənayesinin bu mühüm sahələrinə kapital qoyuluşu artırılmış, ən qabaqcıl texnologiya, yüksək məhsuldarlığı olan katalitik krekinq kompleksi olan “Azərneftyanacaq” İstehsalat Birliyi yaradılıb istismara verilmişdir.

Ötən əsrin 70–80-ci illərində Heydər Əliyevin fəaliyyətində milli kadrların yetişdirilməsi mühüm yer tuturdu. Akademik M.Keldışın Azərbaycana gəlişindən sonra SSRİ EA-nın müvafiq institutlarında respublikamızın istedadlı gəncləri üçün məqsədli aspiranturalara yerlər ayrılmağa başlandı, elm və təhsil mərkəzlərində təcrübə keçmək üçün mütəxəssislər göndərildi, həmin elm sahəsinin mənimsənilməsi, sonradan ölkəmizə transformasiya olunması istiqamətində müəyyən işlər görüldü.

Təbii ki, bütün bu işlər Heydər Əliyevin rəhbərliyi və bilavasitə qayğısı nəticəsində həyata keçirilirdi. Heydər Əliyevin həyata keçirdiyi həmin uzaqgörən siyasət bu gün də müstəqil Azərbaycan Respublikasının iqtisadi, elmi və hərbi potensialının əsasını təşkil edir. Ölkəmizin dövlət idarəetmə orqanlarında, iqtisadi strukturlarında, elm-təhsil müəssisələrində Ulu Öndərin yetişdirdiyi kadrlar bu gün də uğurla fəaliyyət göstərirlər.

Ulu Öndər Heydər Əliyev 70 – 80-ci illərdə Azərbaycana rəhbərliyi illərində Azərbaycançılığın ən mühüm komponenti olan ana dilinin inkişaf etdirilməsi sahəsində də mühüm tədbirlər həyata keçirmişdir. Ümummilli Liderin fikrincə, ana dili Azərbaycançılığın təməl prinsipidir. Xatırlamaq yerinə düşər ki, Ulu Öndər o dövrdə rəsmi nitqlərini Azərbaycan dilində edir, bunu bütün rəhbər vəzifəlilərə də tövsiyə edirdi. 1978-ci ildə Azərbaycan SSR-in Konstitusiya layihəsi qəbul edilərkən, Azərbaycan dilinin ana dili kimi təsbitlənməsi də Heydər Əliyevin cəsarətinin, Azərbaycan dilinə qəlbən bağlılığının, sevgisinin əyani təzahürü idi. Bundan başqa, dahi öndərimizin ötən əsrin 70-ci

illərində nəşr olunmuş 3 cildlik "Müasir Azərbaycan dili" dərsliyinə dövlət mükafatı verməsi də dediklərimizə bariz nümunədir.

**Müstəqil Azərbaycan Respublikası**

1988-ci ildən etibarən isə Azərbaycanda bütün sahələrdə olduğu kimi, təhsildə də mənfi dağıdıcı tendensiyalar özünü büruzə verdi. Ən başlıcası isə təhsilə qayğı unuduldu, onun cəmiyyətdə aparıcı rolu lazımınca qiymətləndirilmədi. Eyni zamanda həmin ildən Ermənistanın Azərbaycana torpaq iddiaları əsasında başlanmış müharibə nəticəsində Qarabağın böyük hissəsi zəbt olundu, bir milyondan çox soydaşımız öz doğma yurdundan qovuldu, ərazimizin 20 faizi işğal olundu, 220 körpələr evi, 616 ümumtəhsil məktəbi, 35 məktəbdənkənar tərbiyə müəssisəsi, 11 peşə məktəbi, 4 orta ixtisas məktəbi və 1 ali məktəb filialı dağıdıldı. Bu təcavüz Azərbaycan xalqını, Azərbaycan məktəbini, Azərbaycan pedaqoji ictimaiyyətini tarixdə analoqu olmayan pedaqoji-psixoloji "eksperimentə" məhkum etdi.

Ulu Öndər Heydər Əliyev müstəqillik illərində ölkə rəhbəri olduğu andan elmin və təhsilin inkişafına diqqəti artırdı, yaranmış elm-təhsil problemlərinə kompleks şəkildə yanaşılmasının bünövrəsini qoydu. Ölkə başçısı bu sahədə mövcud olan problemlərin aradan qaldırılması və Azərbaycanda dünyanın inkişaf etmiş ölkələrinin təcrübəsinə uyğun təhsil strategiyasının həyata keçirilməsi məqsədilə ciddi tədbirlər həyata keçirtdi, mühüm tarixi fərman və sərəncamlar imzaladı. Onun imzaladığı aktlara əsasən təhsil sahəsində təkmil qanunverici baza formalaşdı, təhsil konsepsiyasının hüquqi əsasları yaradıldı. Məsələn, geniş müzakirələrdən sonra 1999-cu ilin iyunun 15-də imzalanaraq qüvvəyə minmiş "Azərbaycan Respublikasının təhsil sahəsində islahat proqramı" ölkəmizdə təhsil sisteminin beynəlxalq standartlara uyğunlaşdırılması ilə yanaşı, milli təhsil ənənələrinə sadiq qalmasını da təmin etdi.

Daha sonra 2002-ci il oktyabrın 4-də ölkə başçısının imzaladığı "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin müvafiq texniki bazasının möhkəmləndirilməsi haqqında" Sərəncamı milli elm və təhsil sisteminin inkişafında vacib amillərdən biri kimi qiymətləndirilir. Bu sərəncam ümumtəhsil məktəbləri şəbəkəsinin genişləndirilməsinə, maddi-texniki bazasının möhkəmləndirilməsinə etibarlı zəmin yaratdı. "Azərbaycan Respublikasında yeni ümumtəhsil məktəblərinin tikintisi, əsaslı təmiri və müasir tədris avadanlıqları ilə təmin olunmasına dair proqramın (2003-2007-ci illər) təsdiq edilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 17 fevral 2003-cü il tarixli Sərəncamı da ölkədə bu sahədə yaranmış problemlərin aradan qaldırılması yönümündə müstəsna əhəmiyyətə malik dövlət sənədi oldu. Belə ki, bu proqramın nəticəsində ümumtəhsil məktəbləri şəbəkəsinin genişləndirilməsi davam etdirildi, təlim-tərbiyə prosesi təkmilləşdirildi, təhsilin keyfiyyəti yüksəldi, məktəblərdə informasiya-kommunikasiya texnologiyalarının tətbiqi reallaşdırıldı.



Ümumi təhsildəki ən ciddi yeniliklərdən biri olan yeni əlifbaya keçilməsi – latın qrafikalı əlifbanın reallığa çevrilməsi də məhz Heydər Əliyevin dövründə öz həllini tapmışdır.

Heydər Əliyevin rəhbərliyi dövründə həmçinin hərbi kadrların hazırlanması xüsusi diqqətdə olmuşdur. Misal kimi, hələ Sovetlər İttifaqı dövründə 1971-ci ildə Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə Cəmşid Naxçıvanski adına Respublika Hərbi Təyinatlı Orta İnternat Məktəbinin yaradılmasını göstərmək olar. Azərbaycan Respublikası Prezidentinin 13.03.1998-ci il tarixli Sərəncamı ilə Naxçıvan Muxtar Respublikasında həmin liseyin Naxçıvan filialı açılmışdır (hazırda Heydər Əliyev adına Hərbi lisey). Hərbi liseyin məzunları Respublikamız müstəqillik əldə etdikdən sonra Azərbaycan ordusunun yaranmasında, vətənimizin ərazi bütövlüyünün qorunması uğrunda mübarizədə həmişə ön cəbhədə olmuşlar. Hərbi liseyin məzunlarından 1000 nəfərdən çoxu göstərdikləri şücaətə görə orden və medallarla təltif olunmuş, 11 nəfəri Azərbaycanın Milli Qəhrəmanı, 19 nəfər isə Vətən Müharibəsi Qəhrəmanı fəxri adına layiq görülmüşdür.



Dövlət Təhlükəsizliyi Xidmətinin Akademiyası Azərbaycan Respublikası Prezidentinin 01.12.1998-ci il tarixli 37 №-li Sərəncamı ilə yaradılmışdır (hazırda Heydər Əliyev adına). Akademiya – ali və əlavə təhsil proqramlarını həyata keçirən, dövlət təhlükəsizlik orqanları üçün xüsusi ixtisaslı ali təhsilli zabit kadrlar hazırlayan, fundamental və tətbiqi elmi tədqiqatlar aparan xüsusi təyinatlı dövlət təhsil müəssisəsidir. Müstəqil Azərbaycan Respublikasının mühüm dövlətçilik təsisatlarından olan təhlükəsizlik orqanları üçün xalqına və dövlətinə ləyaqətlə xidmət edən, onun təhlükəsizliyinin keşiyində dayanan, sədaqətli və vətənpərvər, yeni nəsil peşəkar və ixtisaslı kadrların hazırlanmasını həyata keçirən bu Akademiyanın yaradılması bilavasitə Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır. Odur ki, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2005-ci il dekabr ayının 20-də imzaladığı Fərman ilə Akademiyaya Heydər Əliyevin adı verilmişdir.

Azərbaycan Respublikası Prezidentinin 20.02.1999-cu il tarixli Fərmanı ilə Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Hərbi Akademiyası – Silahlı Qüvvələr üçün ali hərbi təhsilli komandir və qərargah zabitlərinin, hərbi-elmi işçilərin hazırlanmasını, onların ixtisasının artırılmasını, hərbi iş sahəsində elmi tədqiqatların aparılmasını və dövlət orqanlarında çalışan yüksək vəzifəli şəxslərə respublikanın müdafiəsi ilə əlaqədar hərbi-strateji, hərbi-iqtisadi və hərbi-siyasi məsələlərin öyrədilməsini təmin etmək məqsədi ilə yaradılmışdır.

Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzinin yaradılması da məhz Ulu Öndərin dövrünə təsadüf edir. Azərbaycan və Türkiyə Silahlı Qüvvələri arasında 2000-ci il aprelin 5-də imzalanmış protokola uyğun olaraq, NATO təlim sisteminin Azərbaycan Silahlı Qüvvələrində tətbiqi ilə əlaqədar, 2001-ci il martın 26-dan zabit heyətinin təkmilləşdirilmə, gizir hazırlığı və ehtiyat zabit hazırlığı kursları bazasında Azərbaycan Ordusunun Təlim və Tədris Mərkəzi fəaliyyətə başlamışdır. Təlim və Tədris Mərkəzi Azərbaycan Ordusu üçün tələb olunan istiqamətlər və ixtisaslar üzrə kadr hazırlığını həyata keçirən və hərbi-elmi işlərin aparılmasını təmin edən əlavə təhsil müəssisəsidir. Əlavə təhsil kadr potensialının təkmilləşdirilməsini, hərbi qulluqçuların daim dəyişən və yenilənən xidmət şəraitinə uyğunlaşmasını təmin edir.

Milli prokurorluq orqanlarının fəaliyyətinin və strukturunun təkmilləşdirilməsi, kadr potensialının gücləndirilməsi, yeni nəsil prokurorların formalaşdırılması, prokurorluq işçilərinin peşəkarlığının artırılması da Ümummilli Liderin daim diqqət mərkəzində olub. Bu məqsədlə həyata keçirilmiş əhəmiyyətli addımlardan biri kimi məhz Ulu Öndər Heydər Əliyevin rəhbərliyi dövründə 10.07.1998-ci il tarixdə Baş Prokurorluğun Kadrlar idarəsinin strukturunda olan Tədris Mərkəzi əvəzinə müstəqil qurum kimi Azərbaycan Respublikası Prokurorluğunun Elm və tədris idarəsinin yaradılmasını göstərmək olar (hazırda Baş Prokurorluğun Elm-Tədris Mərkəzi).

Həmçinin Ümummilli Liderin fərman və sərəncamları ilə müxtəlif sahələri əhatə edən bir çox ali təhsil müəssisələri yaradılmış və yaxud öz təyinatlarını dəyişmişlər. Məsələn, Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə 1993-cü ildə Azərbaycan Dövlət İqtisad Universitetinin Dərbənd filialı, 1996-cı ildə isə Azərbaycan Dövlət Dəniz Akademiyası; Azərbaycan Respublikası Prezidentinin 03.01.1999-cu il tarixli 60 №-li Fərmanı ilə Azərbaycan Respublikasının Prezidenti yanında Dövlət İdarəçilik Akademiyası; Azərbaycan Respublikası Prezidentinin 13.06.2000-ci il tarixli Fərmanları ilə Azərbaycan Memarlıq və İnşaat Universiteti, Azərbaycan Dövlət Rəssamlıq Akademiyası, Azərbaycan Milli Konservatoriyası, Azərbaycan Müəllimlər İnstitutunun Naxçıvan, Gəncə və Sumqayıt filialları, Sumqayıt Dövlət Universiteti yaradılmışdır.

İstedadlı gənclərin təhsilə marağını daha da artırmaq və dəstəkləmək üçün Ulu Öndər ali məktəblərə qəbul imtahanlarından ən yüksək bal toplamış abituriyentlərlə şəxsən görüşüb, onlara "Prezident təqaüdü"nün verilməsi barədə qərarı dahi şəxsiyyətin təhsilə olan diqqətinin daha bir nümunəsidir.

Ulu Öndər Heydər Əliyevin təhsil siyasəti konsepsiyasına əsaslanaraq demək olar ki, elm və təhsil iki müstəqil sahəni ehtiva etsə də, onların birini digərindən təcrid etmək mümkün deyildir və bu baxımdan elm-təhsil problemlərinə kompleks şəkildə yanaşılmışdır.

Hər iki istiqamət ümumi dövlət siyasətinin tərkib hissələrindən olduğundan və strateji mahiyyət daşıdığından onların inteqrasiyası da labüddür. Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərliyi dövrünə nəzər yetirsək, görərik ki, elm ilə təhsilin inteqrasiyası istiqamətində də çox önəmli işlər görülmüşdür. Əslində, bu iki müstəqil sistemin həmişə qarşılıqlı əlaqəli şəkildə inkişafı labüddür. Çünki elmin təhsilsiz, təhsilin isə elmsiz mövcudluğu qeyri-mümkündür.

Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışından sonra Elmlər Akademiyasının fəaliyyətində də canlanma, yeni istiqamətlər müəyyənləşdi. 31.01.1997-ci il tarixdə Ulu Öndərin Elmlər Akademiyasının rəhbərliyini və aparıcı alimlər qrupunu qəbul edərək, elm sahəsində islahatların aparılmasının vacibliyini təsdiqlədi. Bu tarixi görüşdən başlayaraq, Elmlər Akademiyasının Rəyasət Heyəti dövlət başçısının tövsiyələrini rəhbər tutaraq akademiyada islahatların aparılması, elmi tədqiqat istiqamətlərinin dəqiqləşdirilməsi, elmi-təşkilati bazanın hazırlanması sahələrinə dair qərarlar qəbul etdi və tədbirlər həyata keçirdi. Həmçinin, yeni istiqamətlərə uyğun olaraq Heydər Əliyevin hakimiyyəti dövründə bir çox təhsil ocaqlarının təyinatları dəyişdirilmiş, onların fəaliyyəti müasir dövrün tələblərinə uyğunlaşdırılmışdır. Məsələn, 1999-cu ilin sentyabrında AMEA İctimai Elmlər Bölməsi nəzdində İnsan Hüquqları üzrə Elmi-Tədqiqat İnstitutu yaradıldı.

Azərbaycan Respublikası Prezidentinin 15.05.2001-ci il tarixli Fərmanı ilə isə Elmlər Akademiyasına Milli Elmlər Akademiyası adı verilərək, Akademiyanın elmimizin inkişafındakı rolu və nailiyyətləri rəsmən təsdiqləndi. Eyni zamanda, "Elmin strateji inkişafı və Azərbaycanın Milli Elmlər Akademiyasında islahatlar" konsepsiyası hazırlanaraq realizə olunmağa başlanılmışdır.

İnkişaf etmiş ölkələrin təcrübəsi də sübut edir ki, fundamental tədqiqatlar aparılmayan ölkələrdə yüksək keyfiyyətə malik təhsil haqqında danışmaq mənasızdır. Eyni zamanda, harada ki baza rolunu oynayan keyfiyyətli orta təhsil yoxdursa, orada geniş əhatəli fundamental tədqiqatlar aparılması qeyri-mümkündür. Ümumiyyətlə, dövlətin iqtisadi qüdrətini, onun elm tutumlu və rəqabətə davamlı məhsulunun istehsalını elmi tədqiqatların, xüsusən fundamental tədqiqatların səviyyəsi, əhatəliliyi və yüksək ixtisasa malik milli kadrlar müəyyən edir. Başqa sözlə desək, müasir dünya gerçəkliklərinə yaxından bələd olan, müasir texnika və texnologiyanı mənimsəyən kadrlar yetişdirmədən, eləcə də ölkədə həyata keçirilən islahatları elmi baxımdan əsaslandırmadan mövcud təbii-iqtisadi resurslardan tam və səmərəli istifadə etmək və arzu edilən iqtisadi inkişaf səviyyəsinə nail olmaq qeyri-mümkündür. Bu baxımdan Azərbaycan Milli Elmlər Akademiyası ölkənin texniki-texnoloji, eləcə də sosial-iqtisadi inkişafının avanqardına çevrilməlidir. Məhz bu reallığı nəzərə alan Ulu Öndər Heydər Əliyevin "Milli Elmlər Akademiyası sistemində yüksək ixtisaslı elmi kadrlar hazırlayan təhsil qurumlarının, respublikada prioritet istiqamətlərdə müstəqil fəaliyyət göstərən dövlət elm-təhsil mərkəzlərinin işi daim gücləndirilməli və zənginləşdirilməlidir" fikri də akademiyanın potensialının və texniki bazasının gücləndirilməsinə, ölkədə fundamental elmi tədqiqatların aparılmasına yönəlmişdir.

Təbii ki, bu prosesdə inteqrasiyanın vacib amillərindən biri də AMEA-da çalışan müxtəlif ixtisaslı alimlərin birgə proqramlar üzərində işləməsi, ölkənin hərtərəfli inkişafını təmin etməyə qadir olan kompleks inkişaf proqramları işləyib hazırlaması olduqca vacib şərtdir. Belə proqramların həyata keçirilməsi elmi kadr potensialının inkişafına və təhsil səviyyəsinin yüksəlməsinə gətirib çıxarar ki, bu da tədqiqatların sürətlənməsinə, eləcə də nəzəri-praktiki əhəmiyyətinin artmasına kömək edər.

Bu da danılmaz faktdır ki, Ulu Öndər Heydər Əliyevin təhsil siyasəti konsepsiyasına əsasən ali məktəblərimizin əksəriyyətində təhsil alan gənclərin elmi-tədqiqat işlərinə cəlb olunması üçün, demək olar ki, lazımi şərait yaradılmışdır. Son dövrlər hər il tələbələrin müxtəlif fənlər üzrə respublika olimpiadaları, konfranslar, aspirantların və gənc tədqiqatçıların respublika simpoziumları, müsabiqələr keçirilir ki, bu da elmə, elmi tədqiqatlara olan marağı daha da artırır. Eyni zamanda, araşdırmalardan aydın olur ki, 1998-ci ildən bu günə qədər elmi-tədqiqat müəssisələrinin və ali məktəblərin 1500-dən artıq əməkdaşı müxtəlif ölkələrdə – ABŞ, Böyük Britaniya, Polşa, Rusiya, Türkiyə, Almaniya, Yunanıstan və başqa ölkələrdə yaradıcı ezamiyyətlərdə olmuş, Azərbaycan elmini yüksək səviyyədə təmsil etmişlər. Nəzərə alsaq ki, istənilən sahədə, o cümlədən elmdə sürətli inkişafın başlıca amillərindən biri də çevik inteqrasiya və beynəlxalq əməkdaşlıqdır, onda yuxarıda qeyd edilənlər də Azərbaycan elminin inkişafı istiqamətində atılmış mühüm addım kimi qəbul edilə bilər.

Bu gün iftixar hissi ilə qeyd edə bilərik ki, Heydər Əliyev siyasəti, banisi olduğu milli dövlətçilik strategiyası onun layiqli davamçısı Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Bütün sahələrdə olduğu kimi, Azərbaycan elminin də inkişafı istiqamətində Ümummilli Lider Heydər Əliyevin siyasəti bu gün islahatların zəruriliyinə ciddi diqqət yetirən ölkə başçısı cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Təbii ki, yuxarıda qeyd edildiyi kimi, keyfiyyətli orta təhsili olmayan, yəni baza təhsilinə malik olmayan insanların ciddi elmi araşdırmalar aparması qeyri-mümkündür. Bu baxımdan da, elmin və elmi tədqiqatların inkişafından söhbət gedirsə, ilk növbədə orta ümumtəhsil sisteminə diqqət yetirilməsi zəruridir. Təbii olaraq,

elm və təhsilə göstərilən diqqətin nəticəsidir ki, Ümummilli Lider Heydər Əliyev özünün milli dövlət quruculuğu strategiyasında təhsil siyasətinə dövlətçiliyin təməl prinsiplərindən biri kimi yanaşmış, bu sahəyə diqqət və qayğısını həmişə önə çəkmişdir. Ulu Öndər təhsilin dünya standartlarına uyğun inkişafı, müəllimlərin, elm adamlarının əmək haqlarının artırılması, məktəb şəbəkəsinin genişləndirilməsi ilə bağlı onlarla tarixi əhəmiyyətli fərman və sərəncamlar, islahat və dövlət proqramlarını təsdiq edən sənədlər imzalamışdır ki, bunlar da birbaşa elmdə və təhsildə problemlərin həllinə yönəlmişdir.




Ümummilli Lider Heydər Əliyevin Azərbaycanda təhsil siyasətini uğurla davam etdirən cənab İlham Əliyevin imzaladığı normativ aktlara diqqət yetirməklə onun strateji mahiyyətinə aydınlıq gətirə bilərik. Təbii olaraq, bu sənədlər dünyəvi təhsilə inteqrasiya yönümündə çatışmazlıqların aradan qaldırılmasına, gənc nəslin müasir standartlara uyğun daha dərindən savadlanmasına önəmli kömək göstərir. Artıq bu günün reallıqları sübut edir ki, Heydər Əliyevin siyasi kursuna uyğun aparılan islahatlar müsbət nəticələr verir və Azərbaycan dövlətini bütün dünyada layiqincə təmsil etməyə, eləcə də ölkənin hərtərəfli inkişafında yaxından iştirak etməyə qadir olan gənc nəslin yetişməsinə şərait yaradır. Milli Tərbiyə Konsepsiyasının hazırlanması, təhsilin məzmununda inteqrasiya modellərinə keçid, təhsil sisteminin kompyuterləşdirilməsi və informasiyalaşdırılmasına dair Dövlət Proqramının təsdiqi və praktiki tətbiqi, təhsildə elmi istiqamət faktorlarının gücləndirilməsi, təhsillə elmin vəhdətini təmin etmək məqsədilə prioritet sahələr üzrə elmi araşdırmaların, tədqiqatların aparılmasının intensivləşdirilməsi, dünya təhsil sisteminə inteqrasiyanın gücləndirilməsi məqsədilə proqramlar, layihələr üzərində fəaliyyətin müntəzəm olaraq davam etdirilməsi və digər məsələlərdən strateji istiqamətlər aydın görünür.

Beləliklə, yuxarıda qeyd edilənlərdən aydın olduğu kimi, Heydər Əliyev bütün həyatı boyu öz xeyirxah əməlləri və ədalətli mövqeyi ilə xalqımızın güvənc yerinə çevrilmişdir. İstər müasir tələbata uyğun elmi kadrların hazırlanmasında, istər Azərbaycan Respublikasının beynəlxalq aləmə və qlobal iqtisadi mühitə sürətlə inteqrasiya etməsində, istərsə də ölkənin sosial-iqtisadi istiqamətlərdə ciddi uğurlar qazanmasında Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə reallaşan tədbir və islahatların rolu danılmazdır. Heydər Əliyevin bir dövlət və siyasi xadim kimi ölkə, milli iqtisadiyyat, eləcə də onun ayrı-ayrı sahələri qarşısında duran problemlərə kompleks şəkildə yanaşması bu gün əldə edilən ciddi uğurların əsas təkanvericisidir.

Günümüzün reallıqları sübut edir ki, hazırda ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən bu istiqamətdə aparılan işlər Azərbaycan xalqının xoş gələcəyinə xidmət edəcək səviyyədə uğurla davam etdirilir.

**İstifadə edilmiş mənbələr**


1. "Gənclərin ümumi orta təhsilə keçidini başa çatdırmaq və ümumtəhsil məktəbini daha da inkişaf etdirmək haqqında" 1972-ci il tarixli qərar.
2. "Kənd ümumtəhsil məktəblərinin iş şəraitini daha da yaxşılaşdırmaq haqqında" 1973-cü il tarixli qərar.
3. Azərbaycan Respublikası Prezidentinin 15.06.1999-cu il tarixli 168 №-li Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının təhsil sahəsində islahat proqramı".
4. "Azərbaycan Respublikasında ümumtəhsil məktəblərinin müvafiq texniki bazasının möhkəmləndirilməsi haqqında" Azərbaycan Respublikası Prezidentinin 04.10.2002-ci il tarixli Sərəncamı.
5. Azərbaycan Respublikası Prezidentinin 17.02.2003-cü il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında yeni ümumtəhsil məktəblərinin tikintisi, əsaslı təmiri və müasir tədris avadanlıqları ilə təmin olunmasına dair proqram (2003-2007-ci illər)".
6. "Elmin strateji inkişafı və Azərbaycanın Milli Elmlər Akademiyasında islahatlar" konsepsiyası.
7. "Heydər Əliyev elm və təhsilin inkişafına böyük qayğı ilə yanaşırdı" İsa Alıyev və Aqil Əsədov. Xalq qəzeti, 12.12.2009.
8. "Heydər Əliyev elm, təhsil və mədəniyyətin himayədarı idi" Məmməd Əliyev. Xalq qəzeti, 16.05.2010.
9. "Elmin böyük təəssübkeşi" Akif Əlizadə, Azərbaycan qəzeti, 05.05.2019.
10. "Prokurorluq orqanlarında peşə hazırlığı işinin təşkili" Metodik vəsait. Bakı – 2022.


**Talıb Cəfərov**
**Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin rəis müavini,**
**baş ədliyyə müşaviri**

# Heydər Əliyev Azərbaycanda hüquq islahatlarının banisi və ideya müəllifidir

**Prioritet hüquq siyasəti**

*Təhsilimizin məqsədi gənc nəslə təhsil verib onları gələcəyə hazırlamaqdır. Cəmiyyət təhsilsiz inkişaf edə bilməz.*

***Heydər Əliyev***

Hələ 1970-ci illərdən başlayaraq dahi strateq Heydər Əliyevin təşəbbüsü ilə yüzlərlə azərbaycanlı ittifaqın ən nüfuzlu ali məktəblərinin hüquq, diplomatiya, dövlət idarəçiliyi, beynəlxalq münasibətlər və digər mühüm elm sahələrinə təhsil almağa göndərilirdi. Azərbaycan dövlətçiliyinin intellektual bazasının yaradılmasına yönələn bu addım Heydər Əliyev tərəfindən həyata keçirilən bəsirətli və tədbirli addımlardan biridir. Bu günün prizmasından yanaşdıqda, belə addımların sonralar müstəqil dövlət quruculuğunda rolu daha aydın və daha qabarıq görünür.



Hər bir sahədə olduğu kimi, hüquq sahəsində də potensiallı, qabiliyyətli kadrların yetişdirilməsi ümumilikdə Heydər Əliyev siyasətinin başlıca istiqamətlərindən biri olmuşdur. Bu ideyanın müvəffəqiyyətlə həyata keçirilməsi üçün Ulu Öndər hər zaman uğurlu təhsil siyasətini dəstəkləmişdir. Odur ki, ittifaqın nüfuzlu universitetlərinə azərbaycanlı tələbələrin göndərilməsi ilə yanaşı, Azərbaycanda hüquq təhsili ilə bağlı bir sıra önəmli qərarlar qəbul edilmiş və islahatlar həyata keçirilmişdir.

Ulu Öndər 1969-cu ildə Azərbaycan KP MK-nın birinci katibi seçildikdən sonra dövlət məmurları və hüquq-mühafizə orqanları əməkdaşları ilə qohumluq əlaqələri olmayan insanların Hüquq fakültəsinə qəbulunu təmin etməklə sadə ailələrdən olan gənclər üçün Hüquq fakültəsinə qəbulu əlçatan edir. Bu, hüququn ali prinsiplərindən olan ədalət prinsipinin bariz təcəssümü idi.

Heydər Əliyev özü sonralar bu qərarının obyektiv zərurətdən irəli gəldiyini vurğulayaraq demişdir: “Mən vəzifədə olan şəxslərin, xüsusən hüquq mühafizə orqanlarında çalışan şəxslərin uşaqlarının Azərbaycanda hüquq fakültəsinə qəbul olunmasını məhdudlaşdırdım. Bu, cəmiyyətdə çox böyük əhval-ruhiyyə yaratdı. İndi mən prokurorluqda, polisdə çalışan bəzi işçilərlə görüşürəm. Onlar deyirlər ki, “Bilirsiniz, biz o vaxt Sizin sayənizdə hüquq fakültəsinə daxil ola bildik. Yoxsa bu fakültəyə girə bilməzdik”.

Əhəmiyyət kəsb edən tədbirlərdən biri də Hüquq fakültəsinin nəzdində “Sovet quruculuğu” ixtisası üzrə qiyabi şöbənin yaradılması oldu. Bu günün prizmasından baxdıqda, “Sovet quruculuğu” ixtisası üzrə qiyabi şöbənin yaradılması həmin dövrün tələblərindən biri kimi görünə bilər. Lakin bununla böyük lider müxtəlif ölkələrdən olan hüquqşünas alimlərin Azərbaycanda tədrisə cəlb edilməsinə, daha sonra isə Azərbaycanda beynəlxalq hüquq ixtisasının yaradılmasına nail oldu.

Hər iki tədbir müstəqillik əldə etdikdən sonra Azərbaycana dünyanın onlarla iri beynəlxalq təşkilatlarında və xarici dövlətlərin mühüm postlarında Bakıda təhsil almış çoxsaylı nüfuzlu dostlar qazandırmışdır.

Beləliklə, hüquq siyasətinin formalaşdırılmasında ilk etapı təhsilin vacibliyi və insan resurslarının inkişaf etdirilməsi, eləcə də bu sahədə qətiyyətli mövqe nümayiş etdirməklə ədalətin bərpa edilməsinə dair verilmiş qərarlar və həyata keçirilmiş tədbirlərlə xarakterizə edə bilərik.

Digər etapda Ulu Öndərin dövlətçilik strategiyasının prioritet istiqaməti dünyəvi hüquqi dövlət quruculuğu idi. Müdrik strateq gözəl bilirdi ki, dünyəvi hüquqi dövlət quruculuğu üçün ölkə ilk öncə xaosdan çıxarılmalı, daha sonra onun müstəqilliyi təminat altına alınmalı və ölkə iqtisadi cəhətdən inkişaf etdirilməlidir. Lakin həmin vaxt ölkənin müharibə şəraitində olması, həmçinin hər vasitə ilə inkişafın qarşısını almağa çalışan anti qüvvələrin mövcudluğu və gərgin fəaliyyəti ölkənin tarix səhnəsindən silinməsini hədəfləmişdi. Bu gün dünyada baş verən bir sıra münaqişələr və müdaxilələr belə situasiyalara əyani sübutdurlar. Ulu Öndərin Azərbaycan üçün məramı isə daxili və xarici məsələlərin tənzimlənməsində böyük bir gücə malik hüquqi, konstitusion və dünyəvi dövlət yarada bilmək idi. Odur ki, həmin dövrdə ölkəni məhv olmaqdan qurtarmaq, həmçinin gələcək inkişafını təmin etmək məqsədilə Dağlıq Qarabağ münaqişəsinin gedişinə təsir edə biləcək səmərəli və bəsirətli addımlar

atılması vacib idi. 24 avqust 1993-ci ildə keçirilmiş ümumrespublika müşavirəsindəki çıxışında qeyd olunanlar barədə Ulu Öndər belə demişdi: *"Biz Azərbaycanı bu vəziyyətdən çıxarmağa qadirik. Bilin ki, qəti, ciddi addımlar atacağıq, Azərbaycanda – həm Bakıda, həm də bütün başqa bölgələrdə – şəhərlərdə, rayonlarda, qəsəbələrdə, kəndlərdə sabitlik yaratmağa çalışacağıq, cinayətkarlarla mübarizəni gücləndirəcəyik, Azərbaycanı bu ağır vəziyyətdən çıxarmağa qadirik və çıxaracağıq. Buna əmin ola bilərsiniz".*




İqtisadi və siyasi cəhətdən inkişaf etmədən, bunun nəticəsində güclü və vahid bir ordu yaratmadan müharibənin davam etdirilməsinin nəticələrini öncədən dərk edən Ulu Öndərin müdrikliyi sayəsində atəşi dayandırmaq haqqında Saziş 1994-cü ilin may ayında imzalandı və münaqişənin dinc vasitələrlə həll edilməsi prioritet istiqamət olaraq seçildi. Ötən iyirmi altı ilə yaxın müddətdə münaqişə sülh yolu ilə həll edilə bilməsə də atəşkəs rejimi Azərbaycanın müstəqil dövlət kimi yaşamasını, inkişaf etməsini və bugünkü qələbəni əldə etməsini şərtləndirən əsas amillərdən biri oldu.

Ölkədə xaosun aradan qaldırılmasını, sabitliyin bərqərar edilməsini, müharibə şəraitinin dayandırılmasını müşahidə edən dünya dövlətlərinin Azərbaycan Respublikasının inkişaf edə biləcəyinə inamının ifadəsi idi ki, qısa müddət sonra 1994-cü ilin sentyabr ayında dünyanın iri neft şirkətləri ilə "Əsrin müqaviləsi" adlandırılan ilk neft müqaviləsi imzalandı və paytaxtda neft strategiyasının əsası qoyuldu. Beləliklə, ölkənin inkişaf etməsi və təşəkkül tapması üçün münbit şəraitin yaradılması prosesi baş tutdu. Bu Ulu Öndər zəkasının, qabiliyyətinin, bacarığının, təcrübəsinin, xarakterik keyfiyyətlərinin, Vətənə, torpağa bağlılığının göstəricisi və uğuru idi.

Bu proseslərdən cəmi 1 ay sonra, 1994-cü ilin oktyabr və 1995-ci ilin mart aylarında dövlət çevrilişinə silahlı cəhdlər göstərilməsi, ölkənin inkişafının qarşısının alınması üçün anti-Azərbaycan qüvvələrin işə düşməsi Ulu Öndərin düzgün yolda irəliləməsinin göstəricisi idi və heç nə onu bu yoldan döndərmədi.

Həyat meyarı düzgünlük olan Ulu Öndərin hüquqi dövlət quruculuğunda növbəti addımı ictimai-siyasi sabitliyin bərpasının gerçəkləşdirilməsi idi və bu missiyanın həyata keçirilməsi zamanı həyatını belə risk qarşısında qoymaqdan çəkinmədi, halbuki onun üçün ən önəmli məsələ yaşamaq hüququnun təminatı olmuşdur, başqalarının yaşamaq hüququnun bərpası üçün var gücü ilə çalışan bir insanın öz həyatı risk qarşısında qalsa da o, bu sınaqdan da uğurla çıxır.

Ümummilli Liderin 1993-cü ildə hakimiyyətə gəlişindən dərhal sonra bu qədər çaxnaşmaların içində qəbul etdiyi ilkin qərarlardan biri ölüm cəzasının tətbiqi üzərində moratorium qoyulması olmuşdur. Bu, onun tərəfindən insanların yaşam hüququna verilən ali dəyər idi. O, insanların yaşamaq hüququnun toxunulmazlığını təmin etmək üçün ilk növbədə ölkədə hökm sürən hərc-mərcliyi, özbaşınalığı, dinc və təhlükəsiz yaşama yönəlmiş qəsdi aradan qaldıraraq stabilliyi bərqərar etmiş, daha sonra isə Şərqdə ilk dəfə olaraq 1998-ci il fevralın 10-da ölüm hökmünün ləğv olunmasına nail olmuşdur. Bu tarixi addım fəlsəfi, hüquqi düşüncələrə, dərin elmi təhlilə, dünya təcrübəsinə və reallığa əsaslanmaqla insanpərvərlik, ədalət, humanizm, şəxsiyyətə və insan hüquqlarına hörmət kimi yüksək amallarla yaşayan Ulu Öndərin gələcək nəsillərə misilsiz töhfəsi oldu. O, 3 fevral 1998-ci il tarixli müraciətində belə deyirdi: *"Mən cinayət-hüquq siyasətini hərtərəfli təhlil edərək ədalət, azadlıq, humanizm və insanpərvərlik kimi yüksək ideallara sadiq qalaraq ölkəmizdə ölüm cəzasının ləğv edilməsi qənaətinə gəlib bu tarixi bəyanatı vermişəm".* Azadlığı, humanizmi və insanpərvərliyi tətbiq edərkən belə Heydər Əliyev təfəkküründə ədalətdən öncə heç bir prinsipin qeyd olunmaması onun çıxışında əks olunmuşdur.

Qərar verərkən hərtərəfli təhlilə əsaslanan uzaqgörən dövlət xadiminin hüquq siyasəti ilə bağlı növbəti addımı 1995-ci il noyabrın 12-də Konstitusiyanın qəbul edilməsi timsalında qanunçuluğun bərpa edilməsi oldu.

Ümumdünya İnsan Hüquqları Bəyannaməsinin əsas müddəalarını özündə əks etdirən Konstitusiyada bəyan olundu ki, insan və vətəndaş hüquqlarının, azadlıqlarının təmin edilməsi dövlətin ali məqsədidir. Bu idi hüquqi dövlətin ali göstəricisi, beləliklə milli və ümumbəşəri standartlara söykənərək yaradılan Konstitusiyamız hüquqi-demokratik dövlət və vətəndaş cəmiyyəti quruculuğunun təməlini qoydu.

Böyük öndər əmin idi ki, demokratik dəyərlərin üstünlüyünü qəbul edən, azadlığın, haqq və ədalətin

bərqərar olunduğu dövlət qurmaq istəyən hər bir ölkə, hər bir xalq üçün Konstitusiya zəruri əhəmiyyət daşıyır. Odur ki, özünün şəxsən rəhbərlik etdiyi komissiya tərəfindən hazırlanmış Əsas Qanunda yüz illər boyu bəşəriyyətin əldə etdiyi mütərəqqi dəyərlər, fundamental hüquq və azadlıqlar öz əksini tapmışdır.

Beləliklə, hüquq siyasətinin formalaşdırılmasının digər etapı ictimai-siyasi sabitliyin və qanunçuluğun bərqərar edilməsi fonunda insan hüquq və azadlıqlarında başlanğıc nöqtə hesab olunan yaşamaq hüququn ali səviyyədə təminatı ilə səciyyələnir.

Yeni Konstitusiya Azərbaycanda dövlət quruculuğu sahəsində fundamental islahatlara yol açdı. Odur ki, hüquq siyasəti üzrə sonrakı etapı islahatların hüquqi bazasının yaradılması ilə bağlı həyata keçirilmiş tədbirlər əhatə edir. Bu tədbirlər sırasında Heydər Əliyevin 21 fevral 1996-cı il tarixli Sərəncamı ilə yaradılmış Hüquq İslahatları Komissiyasını xüsusi qeyd etmək lazımdır. Bu komissiya milli ənənələri qorumaqla yanaşı inkişaf etmiş dövlətlərin hüquq islahatları ilə bağlı təcrübəsini öyrənərək tətbiq etmişdir.

Ümummilli Lider Heydər Əliyev Komissiyanın 4 may 1996-cı il tarixli iclasında demişdir: "Müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasının həyata keçirilməsi prosesi hər birimizin əsas vəzifələrindən biridir. Bu baxımdan məhkəmə, hüquq-mühafizə orqanlarının islahatı ilə əlaqədar qanunların hazırlanması, qəbul olunması çox mühüm əhəmiyyət kəsb edir. İndi mən vaxt deyə bilmərəm, - bir il, iki il, - hər halda müəyyən bir zaman ərzində nail olmalıyıq ki, bütün sahələr üzrə müstəqil Azərbaycan dövlətinin qanunları olsun"

Heydər Əliyevin Hüquq İslahatları Komissiyasındakı bu nitqi Azərbaycan Respublikasında bir çox sahələrdə hüquqi bazanın formalaşdırılmasının başlanğıcı hesab olunur.

Beləliklə, əsasını insanların hüquqları, azadlıqları və təminatları təşkil edən Ulu Öndərin ideyaları əsasında beynəlxalq standartlara uyğun Azərbaycan Respublikasının əksər məcəllə və qanunları hazırlandı. Bununla da Cinayət, Cinayət-Prosessual, Cəzaların İcrası, İnzibati Xətalar, Mülki, Mülki-Prosessual, Vergi, Ailə, Əmək məcəllələri, habelə hüquqi təsisatların yaranmasını və fəaliyyətini tənzimləyən qanunlar – "Konstitusiya Məhkəməsi haqqında", "Məhkəmələr və hakimlər haqqında", "Prokurorluq haqqında", "Prokurorluq orqanlarında qulluq keçmə haqqında", "Polis haqqında", "Əməliyyat-axtarış fəaliyyəti haqqında", "Vəkillər və vəkillik fəaliyyəti haqqında", "Notariat haqqında", "Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (Ombudsman) haqqında", "Məhkəmə nəzarətçiləri və məhkəmə icraçıları haqqında", "İcra haqqında", "İcra məmurları haqqında", "Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında" qanunlar dərc edilərək hüquqi qüvvəyə mindi. Beləliklə, Ulu Öndərin birbaşa rəhbərliyi əsasında hazırlanmış Hüquq İslahatları Komissiyasının gərgin fəaliyyətinin nəticəsi olan bu qanunlarla ölkədə hüquqi təminatların yaradılmasının əsası qoyuldu.

Sülhün və bəşəriyyətin təhlükəsizliyinin təmin edilməsi, insan və vətəndaş hüquq və azadlıqlarının, mülkiyyətin, iqtisadi fəaliyyətin, ictimai qaydanın və ictimai təhlükəsizliyin, ətraf mühitin, Azərbaycan Respublikasının konstitusiya quruluşunun cinayətkar qəsdlərdən qorunması, habelə cinayətlərin qarşısının alınması prokurorluq orqanları, eləcə də istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətini həyata keçirən digər orqanlar üçün xüsusi əhəmiyyət kəsb edən yeni cinayət qanununun vəzifəsi qismində müəyyən olundu. Qanunçuluq, qanun qarşısında bərabərlik, təqsirə görə məsuliyyət, ədalət və humanizm prinsipləri rəhbər tutulmaqla bu vəzifələrin həyata keçirilməsi yeni cinayət qanununun hüquq konsepsiyasını təşkil etdi. Cinayətlər ictimai təhlükəliliyinə görə kateqoriyalar üzrə təsnifləşdirildi, cinayət və cinayət məsuliyyəti, cəzanı səciyyələndirən əlamət və anlayışlar qeyd olunan prinsiplərə uyğunlaşdırıldı.

Cinayətin əlamətlərini əks etdirən əməllərin cinayət olub-olmamağını, cinayəti törətməkdə təqsirləndirilən şəxsin təqsirli olub-olmamağını, habelə cinayət əməlləri törətməkdə şübhəli bilinən və ya təqsirləndirilən şəxsin cinayət təqibinin, eləcə də müdafiəsinin hüquqi prosedurlarını müəyyən edən yeni cinayət-prosessual qanunvericilik də demokratik ideyalarla zənginləşdirildi, əvvəlki məcəllədən fərqlənən çox geniş yeni struktur hazırlandı, cinayət prosesi ilə bağlı yeni mexanizmlər müəyyən edildi. Yeni cinayət-prosessual qanunvericilikdə müdafiə institutu inkişaf etdirildi, təbii ki, bu cəzasızlığı hədəfləmir, sadəcə fundamental prinsiplərin qorunması ilə cəzanın məqsədlərinə nail olunmasını şərtləndirirdi.

Beləliklə, hüquq siyasətində önəmli yer tutan digər normativ hüquqi aktlar kimi, cinayət və cinayət prosesində birbaşa əhəmiyyətə malik olan bu məcəllələrdə də Ulu Öndərin demokratik dəyərlərə söykənən ideyalarının böyük rolu olmuşdur.

Heydər Əliyevin həyata keçirdiyi hüquq siyasətini təhlil edərkən bu gün də davam etdirilən əfv və amnistiya təsisatlarının 1995-ci ildən bərpa edildiyi müəyyən edilir. 1995-ci ildən qəbul olunmuş əfv və amnistiya minlərlə şəxsə tətbiq edilmişdir.

Dahi öndərin təfəkküründə insanların cəmiyyətə faydalılıq əmsalı hər zaman qiymətləndirilmişdir. Cəzadan azad etmənin tərbiyəvi əhəmiyyətinə və cəzadan azad olunacaq şəxslərin cəmiyyətə qovuşaraq müstəqil dövlətimizin inkişafı yolunda faydalı ola-

caqlarına ümid edən Heydər Əliyev liderlərə xas xarakterik cəhət olan cəmiyyətə faydalı insan qazandırma metodikasını hər zaman təcəssüm etdirmişdir.

### Ədliyyə və məhkəmə orqanlarında hüquq siyasəti

*Dövlət iki şeydən sarsıla bilər: günahkar cəzasız qalanda və günahsıza cəza veriləndə.*

***Heydər Əliyev***

Azərbaycanda qanunun aliliyinin təminatı, ədliyyə sisteminin dövlət idarəçilik mexanizmində nüfuzlu təsisat kimi təşəkkül tapması, ədalət mühakiməsinin həyata keçirilməsi zamanı insan hüquq və azadlıqlarının müdafiəsinin yüksək səviyyədə təşkili və bunun üçün peşəkar kadr korpusunun formalaşdırılması Heydər Əliyevin hüquq siyasətinin prioritet məsələlərindən idi.



Sovet dönəmindən fərqli olaraq müstəqil Azərbaycanın dövlət quruculuğunda ədliyyə və məhkəmə orqanlarının inkişafı sürətləndirildi, insan hüquq və azadlıqlarının təminatı ideyasının prioritet məsələyə çevrilməsi, cəmiyyətin müasirləşdirilməsi və ictimai şüurda baş verən dəyişikliklər insan hüquqlarının müdafiəsi üzrə mexanizmlər sisteminin fərqləndirilməsini şərtləndirdi.

Odur ki, yeni qanunlar hazırlanarkən məhkəmə və hüquq-mühafizə orqanlarının funksiya və səlahiyyətlərinə yenidən baxıldı və Azərbaycanda əvvəlkindən prinsipcə köklü surətdə fərqlənən üç pilləli, müstəqil məhkəmə sistemi formalaşdırıldı, ali konstitusiya məhkəmə orqanı olan Konstitusiya Məhkəməsi təsis edildi, məhkəmə nəzarətçiləri və məhkəmə icraçıları xidməti yaradıldı. MDB ölkələri arasında demək olar ki, ilk dəfə Azərbaycanda "Habeas Corpus" prinsipi tətbiq edilərək həbs və insan hüquqlarını məhdudlaşdıran digər prosessual məcburiyyət tədbirlərinin tətbiqi məsələsinə baxılması məhkəmələrin səlahiyyətinə aid edildi və MDB-də ilk olaraq istintaq təcridxanaları Ədliyyə Nazirliyinin tərkibinə verildi, Azərbaycanda ilk dəfə yaradılmış yerli özünüidarəetmə orqanı olan bələdiyyələrə müvafiq hüquqi yardımın göstərilməsi Ədliyyə Nazirliyinin funksiyalarına aid edilmiş və Ədliyyə Nazirliyi nəzdində Bələdiyyələrlə İş və Bələdiyyələrə Metodoloji Yardım Mərkəzi təsis edilmişdir.

Üç pilləli məhkəmə sisteminin üstünlüyü onun məqsədində ehtiva olunur, bu sistemin məqsədi nəzərdə tutulmuş hüquqi mexanizmlə insan hüquqlarının qorunmasını hədəfləyir, bu istiqamətdə işlərə birinci instansiya qaydasında baxılır, bundan sonra onlara hüquqa və fakta görə apellyasiya qaydasında yoxlanıla bilər, daha sonra isə hüquqa görə kassasiya qaydasında yenidən baxıla bilər. Bu öz növbəsində birinci instansiya məhkəməsində yol verilmiş hüquqpozmaların yuxarı məhkəmə instansiyalarında aradan qaldırılmasına, işlərin düzgün və obyektiv həll edilməsinə zəmin yaradır.

İslahatların gedişində Ali Məhkəmənin funksiyası dəyişdirildi və o, aşağı işlərə birinci instansiya məhkəməsi kimi baxmaqdan azad olundu, məhkəmə təcrübəsinin stabilləşdirilməsi, hüquq tətbiqi ilə bağlı mövqe üzrə məsələlərin tənzimlənməsi yönümündən çıxış etdi.

Kompleks hüquq islahatları zamanı Konstitusiya Məhkəməsi ali konstitusiya ədalət mühakimə orqanı qismində təsis edildi. Konstitusiya Məhkəməsinin yaradılmasında məqsəd qanunların, qərarların və digər normativ hüquqi aktların Azərbaycan Respublikasının Konstitusiyasına və qanunlarına uyğunluğunun yoxlanılması ilə Konstitusiyanın aliliyinin təmin edilməsi idi.

İslahatlar çərçivəsində həyata keçirilən tədbirlərlə ədliyyə və məhkəmə orqanları tamamilə yenilənmiş, sistemli və məqsədyönlü şəkildə inkişaf etmiş və Ulu Öndərin diqqət və qayğısı nəticəsində 2000-ci ildə 22 noyabr ədliyyə işçilərinin peşə bayramı günü kimi təsis edilmişdir.

### Prokurorluq orqanlarında hüquq siyasəti

*"Azərbaycan Prezidenti kimi mən Azərbaycan Prokurorluğuna inanıram, güvənirəm və arxalanıram."*

***Heydər Əliyev***

Sovet dönəmində dövlət idarəçilik orqanları, idarə, müəssisə və təşkilatların, həmçinin təhqiqat və ibtidai istintaq orqanlarının fəaliyyətində, habelə məhkəmələrdə cinayət işlərinə baxılarkən, eləcə də müvəqqəti saxlama yerlərində, ibtidai həbs yerlərində, məhkəmələr tərəfindən təyin edilən cəzaların və məcburi xarakterli digər tədbirlər üzrə qanunların icrasına nəzarət və

qanunların tətbiq edilməsi ilə bağlı digər məsələlərə dair funksiyaları prokurorluq orqanları həyata keçirmişdir. Ümumilikdə isə prokurorluq cinayətkarlığa qarşı mübarizə, eyni zamanda o dövrün aktual mövzusu olan sosialist mülkiyyətin mühafizəsi sahəsində qanun pozuntularına qarşı mübarizə funksiyasını həyata keçirmiş, qanunların təkmilləşdirilməsi və təbliğində iştirak etmişdir. Qeyd edilən funksiyalar "SSRİ prokurorluğu haqqında" 1979-cu il 30 noyabr tarixli Qanunla müəyyən edilmişdir.



"Prokurorluq haqqında" Qanun qəbul edildikdən sonra 1981-ci il avqustun 4-də "Hərbi Prokurorluq haqqında" Əsasnamə, 1980-ci il oktyabrın 28-də "SSRİ prokurorluğu orqanları işçilərinin rütbə dərəcəsi haqqında" Əsasnamə, 1984-cü il fevralın 17-də "SSRİ prokurorluğu orqanları prokurorlarının və müstəntiqlərinin həvəsləndirilməsi və intizam məsuliyyəti haqqında" Əsasnamə qəbul edilmişdir.

Sovet dönəmində aparılan siyasətə uyğun olaraq bütün ittifaq ərazisində müəyyən edilmiş bir xətt olsa da, Heydər Əliyev tərəfindən Respublika üzrə geniş təhlil aparılır, prokurorluq orqanlarında kadr ehtiyatının təhsil səviyyəsi, peşəkarlığı, qulluq mövqelərində irəliləmə göstəriciləri üzrə meyarlar müəyyən edilirdi.

Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra prokurorluq orqanlarının da fəaliyyətində yeni dövr başladı. Hüquq siyasətinin əsas meyarı olan Konstitusiya ilə ilk dəfə prokurorluq orqanlarına konstitusion status verildi, prokurorluq ədliyyə sistemində təsbit edilməklə onun fəaliyyətinə xüsusi bir maddə həsr edildi. Konstitusiyaya əsasən, prokurorluq ərazi və ixtisaslaşdırılmış prokurorların Baş prokurora tabeliyinə əsaslanan vahid mərkəzləşdirilmiş orqan statusunda təsis edildi. Azərbaycan Respublikası Prokurorluğu qanunların icra və tətbiq olunmasına nəzarət edir, cinayət işləri başlayır, istintaq aparır, təhqiqat və əməliyyat-axtarış fəaliyyətinə prokuror nəzarətini həyata keçirir, məhkəmədə dövlət ittihamını müdafiə edir, iddia qaldırır, məhkəmə qərarlarından protest verir.

Prokurorluğun müasir dövrün tələblərinə və demokratik prinsiplərə uyğun sivil təsisata çevrilməsi prosesi 30 dekabr 1999-cu ildə qüvvəyə minmiş "Prokurorluq haqqında" Qanuna da uyğunlaşdırıldı. Prokurorluğun sistemi, fəaliyyətinin əsas prinsipləri, fəaliyyət istiqamətləri və onların həyata keçirilmə vasitələrinin təkmilləşdirilməsi ilə bağlı normalar təsbit edildi.

Hüquq siyasətinə uyğun olaraq prokurorun qarşısında hüquq bərabərliyi, obyektivlik, qərəzsizlik, faktlara əsaslanma və prokurorluğun fəaliyyətinin digər mühüm prinsiplərinə əməl edilməsi şərtləri qoyuldu, hüquqi tənzimləmə prosesində "Prokurorluq orqanlarında qulluq keçmə", "Prokurorluq işçilərinin xidməti vəsiqəsi haqqında", "Prokurorluq orqanları işçilərinin fərqlənmə nişanları və xüsusi geyim forması haqqında", "Prokurorluğun rəsmi emblemi haqqında" qanunvericilik aktları qəbul edildi, "Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında" Əsasnamə təsdiq edildi. Bu Əsasnamənin icrası ilə əlaqədar keçirilmiş işə qəbulla bağlı müsabiqələr prokurorluğun kadr korpusunun gənc mütəxəssislərlə formalaşdırılması üçün geniş imkanlar yaratdı.

İslahatlar çərçivəsində prokurorluğun strukturunda bir sıra dəyişikliklər edildi, Baş Prokurorluqdan, Hərbi Prokurorluqdan, Naxçıvan MR Prokurorluğundan, Naxçıvan MR Hərbi Prokurorluğundan, Bakı şəhər prokurorluğundan, ərazi və ixtisaslaşdırılmış prokurorluqlardan ibarət olmaqla prokurorluğun yeni sistemi təsis edildi. Bu struktur dəyişiklikləri zamanı, həmçinin yeni struktur qurumlar (idarələr və şöbələr) yaradıldı.

Bu gün prokurorluq orqanları hansı fəaliyyətlə məşğuldur? – Prokurorluq orqanları ədliyyə, daxili işlər, təhlükəsizlik, vergi, gömrük, sərhəd və fövqəladə hallar orqanlarında istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icra və tətbiq olunmasına nəzarət edir, ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirir, cinayət işləri başlayır, istintaq aparır, korrupsiya ilə bağlı cinayətlər üzrə cinayət işinin başlanmasını və ya istintaqın aparılmasını təmin etmək məqsədilə əməliyyat-axtarış fəaliyyətini həyata keçirir, məhkəmədə dövlət ittihamını müdafiə edir, iddia qaldırır, məhkəmə qərarlarından, həmçinin inzibati xəta haqqında iş üzrə qərar və ya qərardadlardan protest verir, inzibati xəta haqqında iş üzrə icraata başlama haqqında qərar qəbul edir.

2002-ci il sentyabrın 19-da qüvvəyə minmiş "Azərbaycan Respublikasının Konstitusiyasına dəyişikliklər edilməsi haqqında" referendum aktına əsasən, prokurorluğa qanunvericilik təşəbbüsü hüququ verilmişdir ki, bu da prokurorluğun hüquq sistemində rolunu dövlət səviyyəsində gücləndirmişdir.

Bir sıra dövlət çevrilişləri cəhdlərinin, eləcə də digər ağır cinayətlərin qarşısının alınmasında və cinayətkarların məsuliyyətə cəlb edilməsində digər hüquq-mühafizə orqanları ilə yanaşı, prokurorluq orqanlarının müstəsna xidmətləri var.

Ulu Öndərin diqqət və qayğısı nəticəsində 1998-ci ildə 01 oktyabr Prokurorluq işçilərinin peşə bayramı günü kimi təsis edilmişdir.

**Daxili işlər orqanlarında hüquq siyasəti**

*Polis peşəsi ağır peşədir, bir tərəfdən cəsarət, şəxsi mətanət, ikinci tərəfdən bilik, dərrakə, təhsil və təcrübə tələb edir.*

***Heydər Əliyev***



Azərbaycan SSR daxili işlər orqanlarının fəaliyyətində inkişaf dövrü Ümummilli Lider Heydər Əliyevin ölkəyə rəhbərlik etdiyi 1969-1982-ci illərdən başlayır. 1982-ci il plenumunda Heydər Əliyev tərəfindən qeyd edilmişdir: "Cinayətkarlığa qarşı səmərəli mübarizədə hüquq-mühafizə orqanları kadrlarının seçilməsinin və yerləşdirilməsinin son dərəcə böyük əhəmiyyəti vardır. Bu orqanlar yüksək mənəvi-siyasi və professional keyfiyyətlərə malik sınanmış və etibarlı işçilərlə möhkəmləndirilməlidir."

Müstəqilliyin ilk illərində tüğyan edən cinayətkar durum daxili işlər orqanlarının fəaliyyətini ön plana çıxarmışdır. Həmin dövrdə mütəşəkkil cinayətkarlığa, sabitlik üçün təhlükə doğuran silahli birləşmələrə qarşı uğurlu mübarizənin aparılmasında və onların zərərsizləşdirilməsində daxili işlər orqanlarının müstəsna rolu olmuşdur.

Bu illərdə digər hüquq-mühafizə orqanları ilə yanaşı ictimai-siyasi, həmçinin kriminogen durum nəzarətə götürüldü. Sabitliyin bərpa edilməsi isə öz növbəsində uğurlu islahatların aparılmasına zəmin yaratdı.

Ümummilli Liderin 1994-cü ildə imzaladığı "Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi tədbirləri haqqında" Fərman polisin fəaliyyəti üzrə gələcək uğurların təməlini qoydu.

Bu fərmanın imzalanması hüquq-mühafizə siyasətinin həyata keçirilməsi istiqamətində Daxili İşlər Nazirliyinin fəaliyyətinə əhəmiyyətli dərəcədə təsir göstərdi. Fərmanın 7-ci maddəsinə əsasən, Daxili İşlər Nazirliyinin tərkibində Mütəşəkkil cinayətkarlığa, Terrorizmə və Banditizmə Qarşı Mübarizə idarələrinin yaradılması cinayətkarlığa qarşı mübarizə sahəsində mühüm rol oynadı.

İslahatların davamı olaraq "Polis haqqında" Azərbaycan Respublikasının Qanunu, "Daxili işlər Nazirliyi haqqında" və "Daxili işlər orqanlarında xidmət keçmə haqqında" əsasnamələr qəbul edildi.

Beləliklə, qanunvericiliklə müəyyən edilmiş səlahiyyətlər çərçivəsində ictimai qaydanın və ictimai təhlükəsizliyin təmin olunması, cinayətlərin və digər hüquqpozmaların qarşısının alınması, cinayətlərin açılması və istintaqı ilə bağlı, yol hərəkəti təhlükəsizliyinin təmin edilməsi, daxili qoşunların fəaliyyətinin təşkili ilə bağlı bir sıra funksiyalar daxili işlər orqanlarına həvalə edildi.

Daxili işlər orqanlarının fəaliyyət istiqamətindən biri də bütün dünyada ağ ölüm adı ilə tanınan narkomaniya və narkobizneslə mübarizədir. Dünyanın başı üzərində dolaşan bu dəhşətli ölüm kabusuna qarşı mübarizəni ümumdövlət vəzifəsi hesab edən müdrik şəxsiyyət Heydər Əliyev hələ müstəqilliyin ilk illərində cəmiyyətin inkişafının və sağlamlığının qorunmasını vurğulayaraq demişdir: "Narkomaniya və narkobiznes ilə mübarizə hər bir ölkənin, xalqın, millətin sağlamlığı uğrunda aparılan mübarizədir."

Ulu Öndərin "Narkomaniya və narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizə tədbirləri haqqında" 26 avqust 1996-cı il tarixli Fərmanından sonra narkomaniya ilə mübarizə üzrə kompleks tədbirlərin həyata keçirilməsinin əsası qoyuldu və "Narkotik vasitələrin, psixotrop maddələrin və prekursorların qanunsuz dövriyyəsi ilə mübarizə haqqında" Qanun qəbul olundu.

Narkomaniyanın bütün dünyada yayılmasına baxmayaraq, Azərbaycan dövlət quruculuğu ilə məşğul olarkən belə digər sahələrdə olduğu kimi bu sahədə də mübarizə və profilaktik tədbirlərin keçirilməsi davamlı xarakter daşımışdır. Belə ki, "Narkotik vasitələrin, psixotrop maddələrin, onların prekursorlarının qanunsuz dövriyyəsinə və narkomanlığın yayılmasına qarşı mübarizə üzrə Milli Proqram (2000 – 2006-cı illər) qəbul edilmiş və Dövlət Komissiyası yaradılmışdır.

Ulu Öndər qeyd edirdi ki, hər hansı dövlətin gücü heç də onun böyüklüyü, yaxud kiçikliyi ilə ölçülmür. Əgər ölkənin vətəndaşı gördüyü işin ona, ailəsinə və xalqına gətirəcəyi xeyri əvvəlcədən anlayır və ədalət prinsipi ilə zəhmətinin bəhrəsini alırsa, həmin ölkə vətəndaşları daha ideyalı, əzmli və iradəli, belə ölkələr isə daha güclü, qüdrətli və əzəmətli olurlar. Odur ki, cəmiyyətin harmoniyasını pozan və insanlığa xələl gətirən narkomanlığa münasibətdə hər bir polis işçisi barışmaz mövqe tutmaqla mübarizə aparmışdır.

Ulu Öndərin diqqət və qayğısı nəticəsində 1998-ci ildə 2 iyul polis işçilərini peşə bayramı günü kimi təsis edilmişdir.

**Xüsusi xidmət və təhlükəsizlik orqanlarında hüquq siyasəti**

*Dövlətin təhlükəsizlik, yaxud kəşfiyyat orqanı o vaxt qalib gəlir, öz vəzifəsini layiqincə yerinə yetirir ki, orada peşəkar kadrlar və iş üslubu olsun.*

***Heydər Əliyev***



Təhlükəsizlik orqanlarının Azərbaycanın milli maraqlarının, təhlükəsizliyinin təmin olunmasında və Heydər Əliyevin həyatında xüsusi yeri və rolu olmuşdur.

1953-cü ildə Dövlət Təhlükəsizlik Komitəsinin əks-kəşfiyyat şöbəsinə rəis təyin olunan Heydər Əliyev göstərilən təzyiqlərə baxmayaraq, təhlükəsizlik orqanlarının yad ünsürlərdən təmizlənməsində, ittifaq səviyyəsində Azərbaycana qarşı hazırlanmış təxribat xarakterli iddiaların qarşısının alınmasında böyük cəsarət və prinsipiallıq göstərmişdir. Məhz bu dövrdən başlayaraq Azərbaycanda dövlət təhlükəsizliyi sistemində əhəmiyyətli işlər görülərək Azərbaycanın milli kadr potensialı formalaşdırılmışdır.

1967-ci ildə Azərbaycan Dövlət Təhlükəsizlik Komitəsinin sədri vəzifəsinə uzun onilliklərdən sonra ilk dəfə olaraq azərbaycanlının – Heydər Əliyevin təyin edilməsi bu orqanların tarixində yeni bir səhifənin başlanğıcı idi. Məhz o illərdən başlayaraq bu strukturda ilk azərbaycanlı general olan dahi şəxsiyyətin fəaliyyəti nəticəsində təhlükəsizlik orqanlarında azərbaycanlı kadrların irəli çəkilməsinə şərait yarandı.

Müstəqilliyin ilk illərində ölkə rəhbərinin yürütdüyü müdrik siyasət nəticəsində sabitlik tədricən bərqərar oldu, əhalidə və ayrı-ayrı qanunsuz dəstələrdə olan silah-sursat yığıldı. Qonşu dövlətlərlə münasibətlər tənzimləndi, daxildəki pozucu, separatçı qüvvələrlə mübarizə gücləndi və onların qanunsuz fəaliyyətlərinin qarşısı qətiyyətlə alındı və milli təhlükəsizliyin təminatı prosesi sistemli, uzunmüddətli və fasiləsiz xarakter aldı.

Daha sonra isə təhlükəsizlik orqanlarının fəaliyyətinin hüquqi əsasını təşkil edən Azərbaycan Respublikasının Konstitusiyası, "Əməliyyat-axtarış fəaliyyəti haqqında", "Terrorçuluqla mübarizə haqqında" Azərbaycan Respublikasının qanunları qəbul edildi, təhlükəsizlik orqanlarının fəaliyyəti ilə birbaşa bağlı olan "Milli təhlükəsizlik haqqında", "Kəşfiyyat və əks-kəşfiyyat fəaliyyəti haqqında", "Dövlət sirri haqqında" qanunların işlənib hazırlanması təmin edildi.

Təhlükəsizlik anlayışı özündə şəxsiyyətin, cəmiyyətin və dövlətin maraqlarının daxili və xarici cəhdlərdən mühafizə olunmasını ehtiva edir.

Dövlət Təhlükəsizliyi Xidmətinin əməkdaşlarının ayıq-sayıqlığı nəticəsində xarici xüsusi xidmət orqanlarının təsir və təzyiq cəhdlərinin, respublikanın suverenliyinə qarşı yönələn bir sıra terror-təxribat hərəkətlərinin qarşısı vaxtında alınmış, eyni zamanda, ölkənin ərazi bütövlüyünün qorunması istiqamətində müəyyən edilmiş vəzifə yerinə yetirilmişdir.

Qətiyyətlə demək olar ki, bu gün Dövlət Təhlükəsizliyi Xidməti Ulu Öndər Heydər Əliyev irsindən yararlanaraq ölkə əleyhinə yönələn kəşfiyyat-pozuculuq və terror-təxribat fəaliyyətinə qarşı peşəkarlıqla və səmərəli mübarizə aparır.

Ömrünün 25 ilə yaxın dövrünü xüsusi xidmət orqanlarına həsr etmiş Ulu Öndərin diqqət və qayğısı nəticəsində 1997-ci ildə 28 mart təhlükəsizlik orqanları əməkdaşlarının peşə bayramı günü kimi təsis edilmişdir.

**Vergi orqanlarında hüquq siyasəti**

*Əgər biz müstəqil dövlətiksə, müstəqil inkişaf etmək istəyiriksə iqtisadiyyatı vergi yolu ilə tənzimləməliyik. Buna görə də vergi orqanlarının işinə diqqət yetirilməlidir.*

***Heydər Əliyev***

Vergi sisteminin qurulması, təkmilləşdirilməsi, vahid normativ hüquqi bazanın yaradılması vergi xidməti




orqanlarının fəaliyyətinin səmərəliliyinin artırılması vacib şərtlər idi, çünki dövlət yarandığı gündən vergilər iqtisadi münasibətlərin mühüm həlqəsini təşkil edir.

Ölkəmizdə müstəqil vergi sistemi məhz Ulu Öndər Heydər Əliyevin rəhbərliyi dövründə formalaşdı. Vergi münasibətlərinin tənzimlənməsi, beynəlxalq standartlara uyğun vergi sisteminin formalaşdırılması, çevik vergi siyasətinin aparılması Ulu Öndərin müəyyənləşdirdiyi iqtisadi strategiyanın tərkib hissəsi idi.

Keçirilən kompleks tədbirlər nəticəsində xarici və yerli sərmayələrin cəlb olunması üçün əlverişli hüquqi və iqtisadi şəraitin formalaşdırılması təmin edilərək investisiya və özəlləşdirmə proseslərinə start verildi.

1995-ci il Konstitusiyasının qəbul edilməsi vergi sisteminin qanunvericilik bazasının yaradılmasını şərtləndirdi. Bu istiqamətdə Vergi Məcəlləsi hazırlanıb qəbul edildi. Vergi məcəlləsinin qəbul edilməsində başlıca məqsəd vergi sisteminin təkmilləşdirilməsi, vergi ödəyicilərinin və dövlətin maraqlarının maksimal tarazlığının əldə edilməsi idi.

Məhz buna görə Vergi Məcəlləsinin 100-dən artıq maddəsi bu və ya digər formada vergi ödəyicilərinin hüquqlarının qorunmasına və onların qanuni maraqlarının təmin olunmasına yönəlmişdir.

Vergi Məcəlləsi qəbul edildikdən sonra Ümummilli Lider təkmil vergi inzibatçılığının formalaşdırılması məqsədilə Vergilər Nazirliyinin strukturunda dəyişiklik edilməsi ilə bağlı tədbirlər həyata keçirdi və Vergilər Nazirliyi haqqında Əsasnamə təsdiq edildi.

İslahatlar çərçivəsində vergi hüquqpozmalarına və bu sahədə törədilən cinayətlərə qarşı mübarizə aparılması üçün vergi xidməti orqanlarına yeni səlahiyyət verildi. Bu səlahiyyətin həyata keçirilməsi məqsədilə Vergi Cinayətlərinin İbtidai Araşdırılması İdarəsi, daha sonra isə Departamenti yaradıldı.

Vergilər Nazirliyinin strukturunda iri vergi ödəyiciləri və xüsusi vergi rejimli müəssisələrlə münasibətlərin daha da səmərəli qurulması üçün İri Vergi Ödəyiciləri ilə İş üzrə Departament, xidmət işinin yüksək səviyyədə təşkili məqsədilə Vergi Ödəyicilərinə Xidmət İdarəsi, vergi orqanlarının vəzifəli şəxslərinin peşə hazırlığı, yenidən hazırlanması və ixtisaslarını artırılması, vergi sisteminin hüquqi təminatına dair elmi tədqiqatların aparılması məqsədilə Tədris Mərkəzi yaradıldı.

Vergi mexanizmi təkmilləşərək iqtisadiyyatın tənzimlənməsinin əsas təsiredici atributlarından birinə çevrildi.

Ulu Öndər Heydər Əliyevin düşündüyü kimi, ölkə iqtisadiyyatına qoyulan investisiyaların ölkənin çiçəklənməsinə yönəldilməsi insanların gələcəyinin təmin edilməsi xarakteri daşıyır.

11 fevral 2005-ci il vergi işçilərinin peşə bayramı günü kimi təsis edilmişdir.

**Gömrük orqanlarında hüquq siyasəti**

*Biz dünyada müstəqil Azərbaycanın nüfuzunun qaldırılmasına, iqtisadi inkişafına böyük yardım edən, xarici iqtisadi əlaqələrdə layiqli yer tuta bilən bir gömrük sistemi yaratmalıyıq.*

***Heydər Əliyev***



Heydər Əliyev Azərbaycana rəhbərliyinin birinci dövründə xarici ölkələrlə ticarət iqtisadi əlaqələrin ümumi mənzərəsini düzgün qiymətləndirir və bu əlaqələrin ən səmərəli forma və metodlarından istifadə etməyi tövsiyə edirdi. Mərkəzi Komitənin o dövrdə

keçirilən plenumları və büro yığıncaqlarında, müşavirələrdə sənaye müəssisələrinin ixrac potensialının artırılmasına cavabdeh olan nazirlik, komitə və baş idarə rəhbərlərini işlərində əsaslı dönüş yaratmağa çağırırdı.

1977-ci il SSRİ Konstitusiyasının qəbulundan sonra gömrük işini tənzimləyən hüquqi sənədlərə yenidən baxıldı, gömrük qaydalarında bəzi dəyişikliklər edildi. Bu dönəmdə gömrük sahəsində qəbul edilən hüquqi aktlar üzrə ən aktual məsələ valyuta və qiymətli malların qaçaqmalçılığına dair mübarizə ilə əlaqəli idi. Digər bir məsələ SSRİ-nin dövlət sərhədlərini keçən sərnişinlərin yüklərinə tətbiq edilən gömrük nəzarəti qaydalarının bir qədər sadələşdirilməsi ilə əlaqəli idi.

Yeni tarixi şərait və ölkəyə investisiya təyinatlı malların idxalının artımı xarici iqtisadi fəaliyyəti tənzimləyə biləcək çevik gömrük siyasətinin həyata keçirilməsini tələb edirdi.

Heydər Əliyevin Azərbaycana rəhbərliyinin ikinci dövründə isə gömrük sahəsində islahatlar çərçivəsində ilk iş xarici iqtisadi fəaliyyətin uçot və statistikasının tənzimlənməsi oldu, çünki son beş il ərzində belə statistika aparılmamışdır. Odur ki, Nazirlər Kabinetinin "Azərbaycan Respublikasının tədiyyə balansının hazırlanması haqqında" 9 iyun 1994-cü il tarixli 225 №-li Qərarı ilə tədiyyə balansının işlənib hazırlanmasına başlanıldı. İslahatlar üzrə sonrakı addım Dövlət Gömrük Komitəsinin Əsasnaməsinin və strukturunun təsdiqi oldu. Ulu Öndərin 1998-ci il 27 oktyabr tarixli 7 №-li Fərmanı ilə təsdiq edilmiş Əsasnaməyə əsasən, Komitə mərkəzi icra orqanına çevrildi, onun vəzifə, hüquq və funksiyaları müəyyən edildi. Əsasnamənin 1-ci bəndində qeyd edilmişdir: "Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsi gömrük işi sahəsində dövlət siyasətini həyata keçirən mərkəzi icra hakimiyyəti orqanıdır.

Qısa müddətdə gömrükxanaların sayı 14-ə çatdırıldı, 7 regional gömrükxana yaradıldı, Hava Nəqliyyatında Baş Gömrük İdarəsi təsis edildi. Eyni zamanda, dəniz nəqliyyatı vasitələrində respublikanın gömrük ərazisinə gətirilən və bu ərazidən çıxarılan mallar, o cümlədən Xəzərin təbii sərvətləri üzərində gömrük nəzarətinin həyata keçirilməsi məqsədilə Xəzər dənizində Azərbaycan Respublikasının İqtisadi Mənafelərinin Mühafizəsi İdarəsi yaradıldı.

Gömrük hüquqpozmalarına və bu sahədə törədilən cinayətlərə qarşı mübarizə aparılması üçün gömrük orqanlarına yeni səlahiyyət verildi. Bu səlahiyyətin həyata keçirilməsi məqsədilə Gömrük Sahəsində Hüquqpozmalara Qarşı Mübarizə Baş İdarəsi yaradıldı.

Dövlət Gömrük Komitəsinin strukturu Ulu Öndərin "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin strukturunun təsdiq edilməsi və Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsinin Əsasnaməsinə əlavələr edilməsi haqqında" 19 iyun 2001-ci il tarixli 510 №-li Fərmanı ilə yenidən təşkil olundu.

Gömrük orqanlarının yerinə yetirməli olduğu vəzifə və səlahiyyətlərin müəyyən edilməsi istiqamətində 1995-ci ildə "Gömrük tarifi haqqında" Qanun, 1997-ci ildə "Azərbaycan Respublikasının Gömrük Məcəlləsi", 1998-ci ildə "Azərbaycan Respublikasının Dövlət Gömrük Komitəsi haqqında", 1999-cu ildə "Gömrük orqanlarında xidmət haqqında" əsasnamələr qəbul edildi.

İslahatlarla yanaşı Ulu Öndərin diqqət və qayğısı nəticəsində 1997-ci ildə 30 yanvar gömrük işçilərinin peşə bayramı günü kimi təsis edilmişdir.

### Sərhəd mühafizəsi orqanlarında hüquq siyasəti

*Hər bir ölkənin dövlət müstəqilliyini və ərazi bütövlüyünü təsdiq edən amillərdən biri onun dövlət sərhədləri və bu sərhədlərin toxunulmazlığıdır.*

***Heydər Əliyev***



Azərbaycanın sərhəd mühafizəsinin fəaliyyətinin keyfiyyətcə yenidən təşkili, formalaşdırılması və inkişafı Ümummilli Lider Heydər Əliyevin adı ilə bağlıdır.

Ümummilli Lider suverenliyin əsas amillərindən biri olan sərhədlərimizin toxunulmazlığının təmin edilməsini dövlətimizin çox mühüm və başlıca vəzifələrindən biri olaraq dəyərləndirmişdir. Böyük dövlət xadimi sərhəd mühafizəsinin qarşısında duran vəzifələri, aparıcı istiqamətləri müəyyən edərək milli sərhəd strategiyasının yaradılmasını təmin etmişdir.

Sovet dönəmində azərbaycanlı sərhədçilərin yetişdirilməsində Heydər Əliyevin xüsusi əməyi olmuşdur.

O, bununla kifayətlənmir, onların fəaliyyətini Azərbaycanda davam etdirməsinə şərait yaradırdı. Eyni zamanda, sərhəd boyu hərbi hissələrin tikilməsinə, eləcə də sərhədçilər üçün yaşayış evlərinin tikilməsinə diqqət və qayğı göstərir, çox yaxın sərhəd zonalarında və sərhəd kəndlərində yaşayan əhalinin yaşayış şəraitinin asanlaşdırılması üçün bir sıra tədbirlər həyata keçirirdi.

Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra sərhədçilər qarşıda duran çətinliklərin öhdəsindən gələrək güclü sərhəd yarada bildilər.

31 iyul 2002-ci il tarixli 740 №-li Fərmanla Dövlət Sərhəd Xidmətinin yaradılması və ona mərkəzi icra hakimiyyəti orqanı statusunun verilməsindən sonra Azərbaycan sərhədçilərinin fəaliyyəti keyfiyyətcə yeni mərhələyə qədəm qoydu, 2002-ci il oktyabr ayının 24-də sərhəd aviasiyası təsis edildi.

Kompleks hüquq islahatları çərçivəsində Dövlət Sərhəd Xidmətinin qarşısında müasir dövrün tələblərinə uyğun vəzifələr qoyuldu, səlahiyyətlər verildi və bu səlahiyyətlərin həyata keçirilməsinin təmin edilməsi üçün struktur dəyişiklikləri edildi. Məsələn, sərhəddə törədilən hüquqpozmalara və cinayətlərə qarşı mübarizə aparılması üçün İstintaq Təhqiqat İdarəsi yaradıldı.

Sərhəd Xidmətinin vəzifə, hüquq və funksiyaları Azərbaycan Respublikasının Konstitusiyası ilə müəyyən edilərək "Azərbaycan Respublikasının dövlət sərhədi haqqında", "Sərhəd mühafizəsi orqanları haqqında" qanunlar və digər qanunvericilik aktları ilə tənzimlənir.

Azərbaycan Respublikasının sərhəd mühafizə orqanları Azərbaycan Respublikasının dövlət sərhədinin mühafizəsinin və toxunulmazlığının təmin edilməsi məqsədilə yaradılmış və Ulu Öndərin diqqət və qayğısı nəticəsində 2000-ci ildə 18 avqust sərhəd mühafizə orqanları əməkdaşlarının peşə bayramı günü kimi təsis edilmişdir.

**Fövqəladə hallar orqanlarında hüquq siyasəti**

*Bir hadisənin qarşısını almaq onun nəticələrini aradan qaldırmaqdan daha asandı.*

***Heydər Əliyev***

Fövqəladə hallar orqanları digər mərkəzi icra hakimiyyəti orqanlarına nisbətən sonrakı dövrlərdə yaradılsa da ölkəmizin relyefinin mürəkkəbliyini, seysmik zonada yerləşməsini və digər amilləri nəzərə alan Heydər Əliyev təbii və texnogen fəlakətlərdən əhalinin etibarlı şəkildə mühafizəsinin təşkili üçün müasir texnika, cihaz və avadanlıqlar alınmasını, xilasedici mütəxəssislərin hazırlanmasını daim diqqət mərkəzində saxlamışdır.

Ulu Öndər hələ 1970-ci illərdə əhalinin və ərazilərin mühafizəsində mühüm rol oynayan Mülki Müdafiə sisteminin dinamik inkişafının təmin edilməsi sahəsində son dərəcə ciddi addımlar atmış, müdafiə qurğularının fondunu gücləndirmişdir.

Heydər Əliyevin Azərbaycana rəhbərliyinin ikinci dövründə də bu sahədə işlər davam etdirilmiş, 1997-ci il 30 dekabrda Azərbaycan Respublikasının "Mülki Müdafiə haqqında" Qanunu qəbul edilmiş və Qanunun tətbiq edilməsi barədə 18 aprel 1998-ci il tarixli fərman imzalanmışdır. Beləliklə, Mülki Müdafiənin bir sistem olaraq inkişaf etməsinə zəmin yaradılaraq bu sahədə qarşıda duran vəzifələr və məsuliyyət müəyyən olunmuşdur.

Hüquqi bazanın yaradılması ilə bağlı işlər davam etdirilərək 1997-ci ildə "Yanğın təhlükəsizliyi haqqında" Qanun qəbul edilmiş və Qanunun tətbiq edilməsi barədə 25 iyun 1997-ci il tarixli fərman imzalanmışdır. Eyni zamanda həmin illərdə "Yanğına qarşı Mühafizənin təşkili və texnikası" ixtisası üzrə xüsusi orta ixtisas təhsili verən Bakı Yanğın Texniki Məktəbi yaradıldı.

Beləliklə, Heydər Əliyev siyasətinin tərkib hissəsi olaraq respublikanın yanğın təhlükəsizliyi xidməti öz fəaliyyətini tənzimləyən hüquqi bazaya malik oldu.

Davamlı islahatlar çərçivəsində təbii fəlakətlərin, texnogen xarakterli qəzaların və yanğınların qarşısının alınması, onların nəticələrinin aradan qaldırılması, belə hallarda xilasetmə və bərpa işləri üzrə fəaliyyətin vahid mərkəzdən idarə olunmasını təmin edən qurumun – fövqəladə hallar orqanlarının yaradılması prosesi sürətlənirdi.



**Beynəlxalq hüquq siyasəti**

*Biz beynəlxalq, dövlətlərarası münasibətlərdə ədalətin olmasını istəyirik. Biz hər hansı böyük ölkənin öz nüfuzundan istifadə edərək hansısa kiçik bir ölkəyə təzyiq göstərməsinin əleyhinəyik.*

***Heydər Əliyev***

Ümummilli Liderin Prezidentliyi dövründə Azərbaycan insan hüquq və azadlıqlarının, eləcə də demokratik təsisatların inkişafı ilə bağlı bir sıra mühüm beynəlxalq hüquqi sənədlərə qoşulmuşdur.

Beynəlxalq Dövlətlər Birliyinin tamhüquqlu üzvü kimi əsrlərin sınağından çıxmış ümumbəşəri dəyərlərin üstünlüyünü qəbul edərək demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunu özünün inkişaf yolu seçən Azərbaycanın dövlət quruculuğu sahəsində atılan addımlar arasında Ulu Öndər tərəfindən imzalanmış "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" 22 fevral 1998-ci il tarixli Fərmanın əhəmiyyəti vacibdir.

İnsan hüquq və azadlıqlarının qorunmasına və təmin edilməsinə qayğı və diqqət yetirən Heydər Əliyev tərəfindən qeyd edilən Fərmanın icrasının məntiqi ardıcıllığı olaraq 25 dekabr 2001-ci ildə "İnsan hüquqlarının və əsas azadlıqların müdafiəsi haqqında" Konvensiyanın və onun 1, 4, 6 və 7 saylı Protokollarının təsdiq edilməsi barədə Qanun imzalandı. Konvensiya təsdiq edildikdən sonra beynəlxalq təcrübə olan İnsan hüquqları üzrə Avropa Məhkəməsinin presedent hüququnun Azərbaycan hüquq sisteminə və hüquq təfəkkürünə uyğunluğu öyrənilməyə başlanıldı.

Davamlı olaraq Azərbaycan bir sıra beynəlxalq hüquqi sənədlərə, o cümlədən 1995-ci ildə Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin "Mülki, ailə və cinayət işləri üzrə hüquq münasibətləri və hüquqi yardım haqqında" Konvensiyasına, 1996-cı ildə "İşgəncələrə və digər qəddar, qeyri-insani, yaxud ləyaqəti alçaldan rəftar və cəza növlərinə qarşı", "İnsanlarla ticarətə və üçüncü şəxslər tərəfindən fahişəliyin istismarına qarşı mübarizə haqqında", "Köləliyin, qul ticarətinin və köləliyə oxşar institutların və adətlərin ləğv olunması haqqında", "Hərbi cinayətlərə və bəşəriyyətə qarşı cinayətlərə cinayət məsuliyyətinə cəlbetmə müddətinin tətbiq edilməməsi haqqında", "Genosid cinayətinin qarşısının alınması və onun cəzalandırılması haqqında", "Aparteid cinayətinin qarşısının alınması və onun cəzalandırılması haqqında", "İrqi ayrıseçkiliyin bütün formalarının ləğv edilməsi haqqında", 1997-ci ildə "Yol hərəkəti haqqında", "Mədəniyyət sərvətlərinin qanunsuz olaraq gətirilməsinin, çıxarılmasının və onların üzərində mülkiyyət hüququnun başqasına verilməsinin qadağan edilməsinə və qarşısının alınmasına yönəldilmiş tədbirlər haqqında" konvensiyalara, 1998-ci ildə BMT-nin "Narkotik vasitələr haqqında" Vahid Konvensiyasına, 2000-ci ildə "Məhkum olunmuş şəxslərin verilməsi haqqında" Avropa Konvensiyasına, 2001-ci ildə BMT-nin "Qadınlara münasibətdə ayrıseçkiliyin bütün formalarının ləğv olunması haqqında Konvensiyanın Fakültativ Protokoluna, "Terrorizmlə mübarizə haqqında" Beynəlxalq Konvensiyaya, 2002-ci ildə "Uşaq hüquqları haqqında" BMT Konvensiyasına, "Ekstradisiya haqqında" Avropa Konvensiyasına, 2003-cü ildə "Cinayət işləri üzrə qarşılıqlı hüquqi yardım haqqında" Avropa Konvensiyasına qoşulmuşdur.



Eyni zamanda, bu illər ərzində Azərbaycanda bir çox nüfuzlu beynəlxalq tədbirlər keçirilmiş, hüquq-mühafizə orqanlarının nümayəndələri isə bir sıra nüfuzlu beynəlxalq təşkilatlarda təmsil olunmuşlar.

**İstifadə olunmuş ədəbiyyat siyahısı**

1. "Heydər Əliyev və Azərbaycanın hüquq-mühafizə orqanları" Şəmsəddin Əliyev, Emil Nəsirli, Fikrət Nağıyev – Bakı, 2019, səhifə 776
2. "Hüquqi dövlət quruculuğunda Heydər Əliyev irsi" Fikrət Məmmədov https://www.justice.gov.az/articles/67
3. "Qanunçuluğun durmadan möhkəmləndirilməsi həmişə Ulu Öndərin əsas məqsədi olmuşdur" Bəhruz Məhərrəmov https://ikisahil.az/post/156467-behruz-meherremov-qanunchulugun-durmadan-mohkemlendirilmesi-hemishe-ulu-onderin-esas-meqsedi-olmushdur
4. "Narkomanlığa qarşı mübarizə hər kəsin borcudur" Firad Əliyev https://genprosecutor.gov.az/az/post/2432

**İradə Xəlilova**
**Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin böyük prokuroru, kiçik ədliyyə müşaviri**

# Ümummilli lider Heydər Əliyevin demokratik, hüquqi dövlət quruculuğu istiqamətində siyasi fəaliyyəti




Ümummilli Lider Heydər Əliyev 1993-cü il oktyabrın 3-də Azərbaycan Respublikasının Prezidenti seçildikdən sonra müxtəlif sosial-iqtisadi, siyasi problemlərlə üzləşən, vətəndaş müharibəsinin, xaos və hərc-mərcliyin astanasında olan, hətta müstəqilliyini itirmək təhlükəsi ilə üzləşən Azərbaycanın dövlət müstəqilliyinin gücləndirilməsi istiqamətində mühüm praktik addımlar həyata keçirməyə başladı. Heydər Əliyev irəli sürdüyü dövlətin təməl prinsiplərindən biri sayılan qanunun aliliyinin Azərbaycanda təmin edilməsinə nail oldu.

Dövlət varsa, qanun olmalıdır. Dövlət qanuna söykənməlidir. Qanunçuluq prinsipi bir tərəfdən qanunun aliliyidir, digər tərəfdən isə zamanın tələbinə və reallığa uyğun olaraq yeni qanunların yaradılması və onların işlək olmasına ictimai nəzarətin gücləndirilməsidir. Demokratik hüquqi dövlət quruculuğu prosesi istiqamətində ilk addımlar tam ictimai-siyasi sabitlik bərqərar olduqdan sonra həyata keçirildi. Ölkədə hüquqi dövləti qurmaq üçün ilk növbədə konstitusion rejim, mükəmməl hüquq sistemi, səmərəli məhkəmə hakimiyyəti, hakimiyyətlər bölgüsü kimi prinsiplər yaradılmalı idi.

### Hüquqi dövlət quruculuğu prosesində ilkin praktik addımlar

Zəngin dövlətçilik təcrübəsinə malik olan Heydər Əliyev hüquqi dövlətin Azərbaycan modelini ilk milli Konstitusiyanı yaratmaqla gerçəkləşdirdi.

1995-ci il noyabrın 12-də müstəqil Azərbaycan Respublikasının Konstitusiyasının qəbul edilməsi hüquqi dövlət quruculuğu prosesində mühüm addım idi və burada dövlət hakimiyyətinin yeganə mənbəyi Azərbaycan xalqı idi. Konstitusiyaya əsasən, Azərbaycan dövləti demokratik, hüquqi, dünyəvi, unitar respublika elan edilirdi.

Heydər Əliyev yeni Konstitusiyanın tarixi əhəmiyyəti barədə 1995-ci il noyabrın 12-də keçirilən Konstitusiya layihəsini hazırlayan komissiyanın iclasında demişdir: “Haqqım var deyəm ki, çox zəhmət çəkmişəm. Hər bir kəlmənin, hər bir sözün mənasını dəfələrlə araşdırmışam, onun bu gün üçün, gələcək üçün nə qədər əsaslı olmasını dəfələrlə təhlil etmişəm. Mən çox rahatlıq hissi ilə bu layihənin altından imza atıram və bu layihəyə görə tam cavabdeh olduğumu bu gün bəyan edirəm. Hesab edirəm ki, biz Azərbaycanın bu günü, gələcəyi üçün çox böyük bir sənəd – siyasi, hüquqi sənəd yaratmışıq”. Konstitusiyada irqindən, milliyyətindən, dinindən, dilindən, cinsindən, mənşəyindən, əqidəsindən, siyasi və sosial mənsubiyyətindən və sair hallardan asılı olmayaraq hər bir insanın hüquq və azadlıqlarının müdafiəsi qanunvericilik, icra və məhkəmə orqanları qarşısında ümdə vəzifə kimi qoyulmuşdur.

Azərbaycanda çoxpartiyalılıq əsasında demokratik yolla parlament seçilmiş, siyasi plüralizm, şəxsiyyət, söz, mətbuat, vicdan azadlıqları, insan hüquqlarının müdafiəsi və qanunun aliliyi prinsipləri bərqərar oldu. Ardıcıl surətdə həyata keçirilən köklü iqtisadi, sosial və hüquqi islahatların təməlində insana qayğı, insan ləyaqətinə hörmət dayanırdı.

Göründüyü kimi, Heydər Əliyev siyasətində demokratik cəmiyyət və hüquqi dövlət quruculuğu prioritet idi. Bunun üçün insan hüquq və azadlıqlarının hər şeydən öndə olması, onların təmin edilməsi ən ümdə vəzifə idi.

### İnsan hüquqlarının təmin edilməsi hüquqi dövlət quruculuğu prosesində prioritet kimi

Müasir dünyada insan hüquqları probleminin beynəlxalq aspektləri olduqca mühüm əhəmiyyət kəsb edir. XX əsrdə insan hüquqları əsas dəyər kimi tanınmış, bu ideya beynəlxalq səviyyəyə çıxmış və müvafiq sənədlərdə təsbit edilmişdir.

1945-ci il iyunun 26-da müasir dövlətlər tərəfindən əsas insan hüquqları və azadlıqlarına hörmət prinsipini ifadə edən sənəd – Birləşmiş Millətlər Təşkilatının Nizamnaməsi qəbul olunmuşdur. Bu sənəd mahiyyətinə görə insan şəxsiyyətinin hüquqları və azadlıqları sa-



müdafiəsi sahəsində Ümummilli Lider Heydər Əliyevin 1998-ci il fevral ayının 22-də imzaladığı "İnsan və vətəndaş hüquqları və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" Fərmanı və 18 iyun 1998-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş "İnsan hüquqlarının müdafiəsinə dair" dövlət proqramı mühüm rol oynayıb.

Ümummilli Lider Heydər Əliyevin 1998-ci il fevral ayının 22-də imzaladığı "İnsan və vətəndaş hüquqları və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" Fərmanında 80-ci illərin axırları 90-cı illərin əvvəllərində Azərbaycanda insan hüquqlarının kütləvi surətdə pozulmasına gətirib çıxarmış hallara və faktlara siyasi qiymət verilmişdir. Həmin fərmanda insan hüquqları məsələsi ümumdövlət səviyyəsinə qaldırılmışdır.

həsində suveren dövlətlər və xalqların bundan sonrakı əməkdaşlığı üçün əsas siyasi, hüquqi və ideoloji əsas olmuşdur.

BMT-nin 1948-ci ildə qəbul olunmuş İnsan Hüquqları haqqında Ümumi Bəyannaməsi dünyanın bir çox dövlətləri tərəfindən konstitusiyaların, insan hüquqlarına aid olan müxtəlif qanunlar və sənədlərin ayrı-ayrı müddəalarının işlənilməsində geniş istifadə olunan bir modeldir.

Azərbaycanda həyata keçirilən hüquqi islahatlar insan və vətəndaş hüquq və azadlıqlarının təmin olunması işinə mühüm töhfələr vermişdir. Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü ilə qəbul edilmiş Azərbaycan Respublikası Konstitusiyanın III fəsli bütövlükdə, yəni 158 maddədən 48-i insan və vətəndaş hüquqlarına və azadlıqlarına həsr edilib. Konstitusiyanın 71-ci maddəsində insan və vətəndaş hüquqlarına və azadlıqlarına təminat verilir. Konstitusiyada təsbit edilmiş insan və vətəndaş hüquqlarını və azadlıqlarını gözləmək və qorumaq qanunvericilik, icra və məhkəmə hakimiyyəti orqanlarının borcu hesab edilir. Həmin maddəyə əsasən, insan və vətəndaş hüquqlarının və azadlıqlarının həyata keçirilməsini heç kəs məhdudlaşdıra, konstitusiyanın heç bir müddəası insan və vətəndaş hüquqlarının və azadlıqlarının ləğvinə yönəldilmiş müddəa kimi təfsir edilə bilməz.

İnsan hüquqlarının və azadlıqlarının müdafiəsi haqqında konvensiyaya dair 2002-ci il mayın 3-də Vilnüs şəhərində qəbul edilmiş 13 saylı protokolun 1-ci maddəsində göstərilirdi ki, ölüm cəzası ləğv olunur, heç kəs belə cəzaya məhkum edilə və ya edam oluna bilməz. Lakin hələ həmin hadisədən 4 il əvvəl – 1998-ci ildə Ümummilli Lideri Heydər Əliyevin təşəbbüsü ilə Şərqdə ilk dəfə olaraq ölüm cəzası ləğv edilib. Bu, Ümummilli Lider Heydər Əliyevin humanist ideyalara sadiqliyini bir daha təsdiq edirdi. Azərbaycanda insan və vətəndaş hüquq və azadlıqlarının

Prezident Fərmanında Milli Məclisin nümayəndələrinin ATƏT-in və Avropa Şurasının Parlament Assambleyalarının, Avropa Parlamentinin, Müstəqil Dövlətlər Birliyinin iştirakçısı olan dövlətlərin Parlamentlərarası Assambleyasının, Qara Dəniz İqtisadi Birliyi Parlament Assambleyasının, Parlamentlərarası İttifaqın sessiyalarında, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində Azərbaycan Respublikasının dövlət siyasətinin təbliğ edilməsinin, Ermənistan – Azərbaycan münaqişəsi nəticəsində qaçqın və məcburi köçkün düşmüş şəxslərin hüquqlarının bərpası üçün aparılan işin gücləndirilməsinin vacibliyi göstərilmişdir. Fərmanda həmçinin Avropa Komissiyası, Avropa Şurası, ATƏT-in insan hüquqlarına dair demokratik təsisatlar bürosu, Beynəlxalq Amnistiya, İnsan hüquqlarını müşahidə edən Helsinki Təşkilatı, habelə insan hüquqları sahəsində fəaliyyət göstərən müvafiq qurumlar və digər beynəlxalq təşkilatlarla əməkdaşlığın daha da inkişaf etdirilməsi sahəsində tədbirlərin həyata keçirilməsi, Azərbaycan Respublikasında fəaliyyət göstərən qeyri-dövlət hüquqi müdafiə təşkilatları ilə qarşılıqlı əlaqələrin yaradılmasını və inkişaf etdirilməsinin vacibliyi öz əksini tapmışdı.

Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan dünyada insan hüquq və azadlıqlarının təməl prinsipi kimi qəbul edilən ən mühüm beynəlxalq konvensiyalara da qoşulmuşdur. Azərbaycan 2001-ci ildən etibarən Avropa Şurasının İnsan Haqları üzrə Konvensiyasına qoşulmuşdur.

Ümummilli Lider Heydər Əliyevin Azərbaycanda insan hüquq və azadlıqlarının təmin edilməsi və müdafiəsi istiqamətində həyata keçirdiyi ən mühüm addımlardan biri "İnsan hüquqları üzrə müvəkkil (Ombuds-

man) haqqında" qanunun qəbul edilməsi və Ombudsman Aparatının yaradılması idi.

Ümummilli Lider cəmiyyətdə söz, fikir, mətbuat azadlığının təmin edilməsinə mühüm önəm verirdi. Kütləvi informasiya vasitələri üzərində senzura aradan qaldırıldı, insan və vətəndaş hüquq və azadlıqları yüksək səviyyədə təmin edildi. Konstitusiyanın 47-ci maddəsi Azərbaycanda fikir və söz azadlığının təminatı məsələsini özündə ehtiva edir. 1998-ci il avqustun 6-da Heydər Əliyev "Ölkədə söz, fikir və məlumat azadlığının təmin edilməsi sahəsində əlavə tədbirlər haqqında" Fərman imzaladı. Bu Fərmana əsasən mətbuatda dövlət sirlərini mühafizə edən baş idarə ləğv olundu. Bu, senzuranın ləğvi demək idi.



Prezident Heydər Əliyev, eyni zamanda, dövlətin hüquqi bazasının möhkəmləndirilməsi istiqamətində mühüm fəaliyyət həyata keçirdi. Məhkəmə-hüquq islahatlarının həyata keçirilməsi, Konstitusiya Məhkəməsinin və digər mühüm təsisatların yaradılması ölkədə demokratikləşmə prosesinin inkişafına təkan verdi. Azərbaycan Prezidenti cənab İlham Əliyev hüquqi dövlət quruculuğu prosesində Heydər Əliyevin misilsiz xidmətləri barəsində vurğulayırdı: "1993-cü ildən başlayaraq bu günə qədər Azərbaycan, sözün əsl mənasında, müstəqil həyat yaşayır. Dövlətçiliyin əsasları qoyuldu, müstəqil dövlətin Konstitusiyası qəbul edildi, milli ideologiyamız qəbul olundu, azərbaycançılıq məfkurəsi bu gün bizim ideoloji əsaslarımızı təşkil edir. Siyasi islahatlar aparılmağa başlamışdır, demokratik inkişafla bağlı önəmli qərarlar, qanunlar qəbul edilmişdir".

### Hüquqi islahatlar dövlətin təməl daşıdır

Ədalət, qanunçuluq və hüquq qaydalarının təminatını hər zaman üstün tutan Heydər Əliyev "ədaləti ədalətsizliklə bərpa etmək olmaz" deyərək qanunun aliliyini əsas meyar hesab edirdi.

Dövlət müstəqilliyinin bərpa edilməsindən sonra Ümummilli Lider Heydər Əliyev hüquqi islahatlara müstəsna əhəmiyyət verərək bu məqsədlə yaradılan Hüquqi İslahat Komissiyasına rəhbərliyi bilavasitə öz üzərinə götürdü və qısa müddətdə yeni müasir qanunlar və məcəllələr qəbul olundu. Heydər Əliyevin təşəbbüsü ilə yeni üçpilləli müstəqil məhkəmə sistemi və bu sistemdə mühüm rol oynayan Ali Məhkəmə təsisatı yaradıldı və fəaliyyətə başladı. Məhkəmələrə insan haqlarının qorunması ilə bağlı müstəsna səlahiyyətlər verildi. Azərbaycan postsovet məkanında qətimkan tədbiri kimi həbsin seçilməsi səlahiyyətini məhkəməyə verən və bununla da "Habeas Corpus" prinsipini tətbiq edən ilk dövlətlərdən oldu.

Azərbaycan dövlətçilik tarixində ilk dəfə olaraq şəffaf prosedurlar əsasında, o cümlədən test üsulu ilə hakim seçimi keçirilərək təyinatlar aparıldı. Əvvəlki hakim korpusu 60% təzələndi.

Ümummilli Lider Heydər Əliyevin qanunvericilik təşəbbüsü əsasında 1998-ci il dekabrın 1-də "Məhkəmələr və hakimlər haqqında" qanunun qəbulu məhkəmə hakimiyyətinin fəaliyyətini tənzimləyən mükəmməl qanunvericilik bazasının formalaşması baxımından mühüm əhəmiyyət daşımışdır. Qanun əsasında məhkəmə-hüquq sistemində köklü dəyişikliklər həyata keçirilmiş, qısa müddət ərzində yeni mütərəqqi qanunlar qəbul edilmiş, üçpilləli yeni məhkəmə sistemi yaradılmışdır. Müstəqil Azərbaycanın Konstitusiyasında ilk dəfə olaraq "məhkəmə hakimiyyəti" anlayışı verilmişdir. Bununla da cəmiyyətdə yaranan bütün hüquqi münasibətlərin həlli məsələsi məhkəmə orqanlarının səlahiyyətinə aid edilmişdir.

Ümummilli Lider Heydər Əliyev müdrik rəhbər olaraq cəzanın humanistliyi və adekvatlığını, tərbiyəvi əhəmiyyətini də daim önə çəkərək ölkədə əfvetmə institutunun formalaşması istiqamətində real addımlar atmışdır. Bu baxımdan, 1995-ci ildən ölüm hökmü cəzası üzərində moratoriumun qoyulmasını, 1998-ci il fevralın 10-da isə bu cəzanın tam ləğv edilməsini xüsusi vurğulamaq lazımdır.

Ümummilli Lider Heydər Əliyev 3 fevral 1998-ci il tarixli müraciətində deyirdi: *"Mən cinayət-hüquq siyasətini hərtərəfli təhlil edərək, ədalət, azadlıq, humanizm və insanpərvərlik kimi yüksək ideallara sadiq qalaraq ölkəmizdə ölüm cəzasının ləğv edilməsi qənaətinə gəlib bu tarixi bəyanatı vermişəm"*. Bir qədər sonra, həmin ilin dekabrında BMT-nin Ümumdünya



insan hüquqları bəyannaməsinin 50 illik yubileyi tədbirində bu addıma qiymət verərək, o demişdi: *"Ölüm hökmünün ləğv olunması hansısa bir cinayətkara rəhm etmək məqsədi daşımır. Bu, ümumbəşəri, ümumxalq əhəmiyyətinə malik bir məsələdir. Ölüm hökmünün ləğv olunması onu göstərir ki, respublikamız, müstəqil Azərbaycan dövləti humanist siyasət aparan bir dövlətdir".*

Prezident Heydər Əliyevin hakimiyyəti dövründə əfv və amnistiya institutlarının bərpası olduqca mühüm əhəmiyyətə malik idi. Məhz bu humanist siyasətin nəticəsidir ki, məhkumların bağışlanması müsbət ənənəyə çevrilmişdir. Minlərlə məhkumun əfv və amnistiya olunması ciddi tərbiyəvi əhəmiyyət daşımaqla, cəmiyyətdə mənəvi dəyərlər, humanizm hissi aşılamışdır.

Məhz Heydər Əliyevin təşəbbüsü ilə 1997-ci ildə "Məhkəmələr və hakimlər haqqında" qanun qəbul edildi, məhkəmə quruluşunun və məhkəmə icraatının mahiyyətcə yeni modelinin bərqərar edilməsi prosesinə başlanıldı.

Hüquqi sahədə islahatlardan biri Ali Məhkəmənin də funksiya və səlahiyyətlərinə yenidən baxılması oldu. Ali Məhkəmə ümumi və ixtisaslaşmış məhkəmələrin icraatına aid edilən mülki, cinayət və digər işlər üzrə sırf kassasiya instansiyası məhkəməsinə çevrildi və beləliklə, aşağı məhkəmələrin qərarlarına nəzarət etməkdən, işlərə birinci instansiya məhkəməsi kimi baxmaqdan azad olundu.

Heydər Əliyevin təşəbbüsü ilə Milli Məclisdə Azərbaycanın Avropa Şurası ilə inteqrasiyasını gücləndirən normativ sənədlər qəbul olunmuşdur. Parlament bu sahədə "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında" Konvensiyanı, "İşgəncələrin və qeyri-insani və ya insan ləyaqətini alçaldan rəftarın və ya cəzanın qarşısının alınması haqqında" Avropa Konvensiyasını, "Yerli özünüidarəetmə haqqında" Avropa Xartiyasını təsdiq edən sənədləri, "Vətəndaşlıq haqqında", "Sərbəst toplaşmaq azadlığı haqqında", "Dini etiqad azadlığı haqqında" qanunları qəbul etmişdir.

### Ümummilli Lider Heydər Əliyev və Azərbaycan prokurorluq orqanlarında islahatlar

Azərbaycanın prokurorluq orqanları dövlətin əsas sütunlarından biridir. Prokurorluq orqanlarının yaranması tarixi Azərbaycan Xalq Cümhuriyyəti dövrünə gedib çıxır. Azərbaycan Xalq Cümhuriyyəti Nazirlər Şurasının 1 oktyabr 1918-ci il tarixli qərarı ilə Bakı Dairə Məhkəməsinin tərkibində prokurorluğun təsis edilməsi sonrakı tarixi mərhələlərdə milli prokurorluq orqanlarının fəaliyyəti, inkişafı və müasir beynəlxalq standartlara uyğun bir səviyyəyə çatdırılmasında mühüm zəmin olmuşdur.

Ümummilli Lider Heydər Əliyev Azərbaycana rəhbərliyinin bütün zamanlarında hüquq-mühafizə, o cümlədən prokurorluq orqanlarında qanunun aliliyi məsələsinə mühüm önəm vermiş, bu sistemdə işin düzgün təşkili və həyata keçirilməsini daim diqqət mərkəzində saxlamışdır. Heydər Əliyevin təşəbbüsü ilə 1995-ci il noyabrın 12-də keçirilən ümumxalq



səsverməsi – referendumda qəbul edilən yeni Konstitusiyada Respublika Prokurorluğuna xüsusi maddə həsr edilərək dövlət idarəetmə sistemində bu təsisatın yeri məhkəmə hakimiyyəti orqanları sırasında müəyyənləşdirilməklə prokurorluq orqanlarına ilk dəfə olaraq konstitusion status verilmişdir. “Prokurorluq haqqında” Azərbaycan Respublikasının 1999-cu il tarixli qanunu qəbul olunmaqla prokurorluğun fəaliyyətinin demokratik prinsip, forma və metodları müəyyən edilmiş, sistemi və təşkili, kadr təminatı və işçilərin sosial müdafiəsi müasir beynəlxalq standartlara uyğun tənzimlənmişdir.

Ümummilli Lider Heydər Əliyevin 26 aprel 2000-ci ildə prokurorluğun rəhbər işçiləri ilə keçirdiyi müşavirədəki tarixi nitqində qeyd olunmuş, prokurorluq orqanları qarşısında qoyulmuş vəzifələrin yerinə yetirilməsi ilə bağlı aparılmış hərtərəfli islahatlar nəticəsində Azərbaycan Prokurorluğu həmin vaxtadək fəaliyyətində mövcud olmuş neqativ cəhətlərdən təmizlənməklə struktur və mahiyyət baxımından tam yenidən qurularaq müasir məzmunlu prinsip və metodlardan istifadə etməklə mütərəqqi normativ hüquqi baza əsasında fəaliyyət göstərən, xalqımızın və milli dövlətçiliyimizin maraqlarının qorunmasına, qanunun aliliyinin təmin olunmasına, insan hüquq və azadlıqlarının etibarlı müdafiəsinə xidmət edən dövlət təsisatına çevrilmişdir. Hüquq sisteminin inkişafında prokurorluğun rolunun gücləndirilməsi istiqamətində müntəzəm tədbirlər həyata keçirilmiş, 2002-ci il sentyabrın 19-da qüvvəyə minmiş “Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında” referendum aktına əsasən prokurorluğa qanunvericilik təşəbbüsü hüququ verilmişdir.

Ümummilli Lider Heydər Əliyev prokurorluq orqanlarının fəaliyyəti haqqında deyirdi: “Prokurorluq orqanlarının əsas hədəfi qanunun aliliyinin təmin olunmasıdır. Sağlam mənəviyyat hər bir prokurorluq işçisi üçün, qanun keşiyində duran bizim hər bir məmurumuz üçün əsas meyar olmalıdır. Əgər bu yoxdursa, o insan bizim tələblərimizə cavab verə bilməyəcəkdir. Bizim tələblərimiz isə qanundur, qanunun aliliyidir”.

Ümummilli Lider Heydər Əliyevin həyata keçirdiyi mühüm islahatlardan biri prokurorluq orqanlarının inkişafına təkan verən kadr islahatları olmuşdur. Vətənpərvər və savadlı gənclərin dövlət idarəetməsində iştirakının təmin edilməsi məqsədilə ilk dəfə prokurorluq orqanlarında müsabiqə yolu ilə işə qəbulun həyata keçirilməsinə başlanılmışdır.

Ümummilli Lider Heydər Əliyevin layiqli davamçısı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fəaliyyəti dövründə Azərbaycan Prokurorluğu öz inkişafının yeni mərhələsinə qədəm qoymuş, islahatlar uğurla davam etdirilmiş, prokurorluq orqanlarının iş prinsipi təkmilləşdirilmişdir. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə İkinci Qarabağ müharibəsindən sonra azad edilmiş ərazilərin yenidən qurulması, istiqamətində mühüm işlər həyata keçirilmiş, həmin torpaqlarda Azərbaycanın dövlət, o cümlədən prokurorluq orqanlarının fəaliyyəti bərpa edilmişdir.

Beləliklə, Müzəffər Ali Baş Komandanın rəhbərliyi altında işğaldan azad edilmiş ərazilərdə hüquqi infrastrukturun həyata keçirilməsi üçün mühüm praktik addımlar atılmış, həmin ərazilərdə Azərbaycan öz suverenliyini təmin etmişdir.

**İstifadə edilmiş mənbələr**


1. Azərbaycan Respublikasının Konstitusiyası.
2. “İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında” Azərbaycan Respublikası Prezidentinin Fərmanı.
3. Axundov T. “Ulu Öndər Heydər Əliyev: məhkəmə-hüquq islahatlarının müəllifi.
4. Bayramlı N. “İnsan və vətəndaş hüquqlarının təmin olunması sahəsində Azərbaycan təcrübəsi mütərəqqi nümunədir”.
5. Mahir Əsədli. “Heydər Əliyev və məhkəmə-hüquq sistemində islahatlar”.
6. Hüseynov N. “Azərbaycan prokurorluğu: tarixi ənənələr və yeni islahatlar mərhələsi”.
7. Məmmədov F. “Hüquqi dövlət quruculuğunda Heydər Əliyev irsi”.
8. Məmmədov F. “Məhkəmə-hüquq islahatlarında Ulu Öndər Heydər Əliyev dühası”.
9. Ömərov V. “Ulu Öndər Heydər Əliyevin Azərbaycanda insan hüquq və azadlıqlarının təmin edilməsi siyasəti”.
10. Yusif İldırımzadə “Prokurorluq orqanlarının əsas hədəfi qanunun aliliyinin təmin olunmasıdır”.


**Nisə Qasımova**
**Baş Prokurorluğunun Sənədlərlə və müraciətlərlə işin təşkili idarəsinin böyük prokuroru, kiçik ədliyyə müşaviri**



*Müstəqil dövlətin özünəməxsus qüdrəti olmalıdır. Bu qüdrətin əsasını xalq və onun bir hissəsi olan ordu təşkil edir*

***Heydər Əliyev***

# Heydər Əliyev və ordu quruculuğu

**Tarixə nəzər salsaq görərik ki, böyük dövlət xadimləri, ölkənin müstəqilliyinin, azadlığının qorunması üçün düzgün siyasi strategiyanın müəyyənləşdirilməsi və onun səmərəli şəkildə həyata keçirilməsində, milli mənafeyə xidmət edən iqtisadi inkişafın təmin edilməsində, xalqda özünəinam yaradılmasında, ölkənin daxili siyasi, iqtisadi, ictimai, hərbi sabitliyinin bərqərar edilməsində, əsaslandırılmış xarici siyasətin həyata keçirilməsində və bütünlükdə milli maraqların qorunmasını və inkişafını nəzərdə tutan kompleks tədbirlərin görülməsində çox önəmli rol oynayırlar.**

Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev də öz xalqının tarixində müstəsna rola malik və ən mürəkkəb şəraitdə xalqının xilaskarlıq missiyasını üzərinə götürmüş bənzərsiz dövlət xadimlərindən biridir. Onun istər sovet dövründə Azərbaycana rəhbərlik etdiyi, istərsə də müstəqillik illərində Azərbaycana rəhbərlik etdiyi illərə nəzər saldıqda belə bir aydın və istisnasız qənaətə gəlməyə imkan verir. Hər iki rəhbərlik dövründə Heydər Əliyev Azərbaycanı inkişafının çox yüksək səviyyəsinə qaldırmağa nail oldu. Amma sovet dövründən fərqli olaraq, XX əsrin sonlarında Heydər Əliyev əvvəlcə müstəqil Azərbaycanı qurdu və sonra da onu inkişafının yüksək səviyyəsinə çatdırdı. Belə ki, müasir Azərbaycan tarixinin çox mürəkkəb dövrlərində Azərbaycana rəhbərlik etməklə ölkəsini bəlalardan qurtaran Heydər Əliyev bir çox siyasi xadimlərin edə bilmədiklərini gerçəkləşdirərək dünyanın ən tanınmış siyasi xadimləri sırasında öz layiqli və əbədi yerini tutdu. Hər bir kəsə məlumdur ki, müasir Azərbaycanda dövlət quruculuğunun, iqtisadi və siyasi şüurun dirçəlişinin 30 ildən artıq bir dövrü əhatə edən zaman kəsiyi böyük siyasi xadim, dərin zəkaya, ensiklopedik biliyə, geniş dünyagörüşünə malik olan tarixi şəxsiyyətin–Heydər Əliyevin adı, əməli fəaliyyəti, reallaşdırdığı konkret işlərlə bağlıdır. Zəmanəmizin böyük siyasi xadimi Heydər Əliyevin formalaşdırdığı və inkişaf etdirdiyi milli özünüdərk duyğuları, azərbaycançılıq fəlsəfəsi xalqın tarixi yaddaşını özünə qaytarmaqla, milli ruhun sürətli yüksəlişini təmin edərək, müstəqil dövlətçiliyimizin yaranması üçün zəruri olan, dünya azərbaycanlılarının həmrəyliyi üçün möhkəm zəmin yaratdı. Azərbaycanın müstəqil dövlət quruculuğunun bütün sahələrində olduğu kimi hərbi təhlükəsizliyin təmin edilməsi sahəsində də gördüyü əzəmətli işlər Heydər Əliyevin mahir siyasətçi, böyük təşkilatçı olduğunun əyani göstəricisidir.

Ötən əsrin 70-ci illərindən formalaşan iqtisadi potensialın inkişafı azadlıq mübarizəsini zəruri edən amillərdən olduğundan 80-ci illərin sonu, 90-cı illərin əvvəlində müstəqillik hərəkatının geniş vüsət alması da Heydər Əliyevin birinci dəfə Azərbaycana rəhbərlik etdiyi dövrdə reallaşan iqtisadi yüksəliş və ona paralel olaraq, azərbaycançılıq, həmrəylik, mübarizlik ruhunun təşəkkül tapması sayəsində mümkün oldu. Xüsusi qeyd edilməlidir ki, Ümummilli Liderin zəngin və çoxşaxəli fəaliyyətinin əsas istiqamətlərindən birini də Azərbaycanın gələcəyinə təminat verən ordu quruculuğu təşkil edirdi. Azərbaycan Xalq Cümhuriyyəti süqut etdikdən sonra ölkəmizdə ordu quruculuğu prosesində yaranmış durğunluq, Ulu Öndərin 1969-cu ildə birinci dəfə hakimiyyətə gəlişindən sonra aradan qaldırılmaqla əsaslı dönüş yaradıldı. Qısa bir zamanda ölkəmizdə milli hərbi kadrların hazırlanması prosesi də sürətləndi. Məhz Ulu Öndərin son dərəcə cəsarətli addımları sayəsində 1971-ci ildə Bakıda Cəmşid Naxçıvanski adına hərbi məktəb fəaliyyətə başladı. O dövrdə bu addımı atmaq çətin bir iş idi. Belə ki, məşhur Suvorov adına, Naximov adına hərbi məktəblərin mövcud olduğu bir zamanda kiçik respublika olan Azərbaycanda hərbi məktəbin yaradılması müşkül idi. Lakin burada da dahi liderimizin əvəzolunmaz siyasəti köməyə yetir. O, azərbaycanlı tələbələrin rus dilini pis bildikləri üçün həmin məktəblərdə yaxşı təhsil ala bilmədiklərini qeyd edir və həmin tələbələrin öz dillərində təhsil almalarının və bunun üçün də Azərbaycanda hərbi məktəbin yaradılmasının vacibliyini bildirir. Əslində o zaman Heydər Əliyev gələcəkdə Azərbaycanın müstəqil olacağına daxilən

inanmış və bunun üçün də Azərbaycanda milli hərbi kadrların yetişdirilməsi üçün var qüvvəsi ilə çalışmışdır.

Azərbaycanda milli hərbi kadr hazırlığı üçün baza rolunu oynayan məktəbin açılması o vaxtki SSRİ rəhbərliyini ciddi şəkildə narahat edirdi. Həmin dövrdə bir-birinin ardınca Moskvadan Bakıya göndərilən komissiyalar Azərbaycanda belə bir hərbi məktəbə ehtiyac olmadığını əsaslandırmağa çalışsalar da, Heydər Əliyev mahir diplomatiyası və qətiyyəti ilə bu cəhdlərin qarşısını almağa müvəffəq oldu. Adıçəkilən hərbi məktəbin fəaliyyətə başlaması Azərbaycanda hərb sahəsinə marağın daha da güclənməsinə böyük təkan verdi.



Sonralar Ulu Öndər deyirdi: *"Biz Cəmşid Naxçıvanski adına Hərbi Liseyin ilk bünövrə daşlarını qoyanda o bizim üçün nəzəriyyə deyildi, böyük gələcəyə, Azərbaycanın gələcəyinə baxış idi. Azərbaycanın milli zabit kadrlarının hazırlanması üçün ilk uğurlu addımlar idi. Biz bu addımları atarkən düşünürdük ki, zaman gələcək, Azərbaycan xalqı öz milli azadlığına qovuşacaq, öz dövlət müstəqilliyini əldə edəcək, müstəqil Azərbaycan dövləti yaranacaq. Yarandı da. Məhz bugünkü müstəqilliyimizə görə mən bu məktəbi yaratdım, yaşatdım, böyütdüm. Bilirsiniz, sizə səmimi deyirəm, C.Naxçıvanski adına lisey mənim üçün bir övladdır. Ona öz övladım kimi baxıram və nə qədər yaşayıramsa, ona bax, bu cür baxacağam".*

Bununla yanaşı, Heydər Əliyev azərbaycanlı gənclərin Bakı Ali Birləşmiş Komandanlıq və Bakı Ali Hərbi Dənizçilik məktəblərinə, eləcə də SSRİ-nin digər hərbi məktəblərinə güzəştli şərtlərlə qəbul edilməsinə də xüsusi önəm verirdi. Təsadüfi deyildir, ki, müstəqilliyin ilk illərində Azərbaycanın ordu quruculuğunda əsas bazanı o dövrdə hazırlanmış milli kadrlar təşkil edirdi. Azərbaycanın müstəqillik əldə etməsindən hələ 20 il öncə milli hərbi kadr hazırlığı üçün zəruri bazanın ən yüksək səviyyədə təşkilini məhz Ümummilli Lider Heydər Əliyev həyata keçirmişdir.

Həmçinin, qeyd edilməlidir ki, Azərbaycanda SSRİ müdafiə sənayesinin on bir böyük zavodunun tikilməsi, həmin zavodlarda o dövrün ən müasir və qabaqcıl texnologiyalarının tətbiq olunması Azərbaycan Respublikasının müdafiə sənayesi istehsalında keyfiyyətli məhsulların həcmini dəfələrlə artırırdı. Həmin zavodların hamısı hazırda Azərbaycan Respublikası Müdafiə Sənayesi Nazirliyinin tərkibinə daxildir.

Sovet dövrü bitdikdən az müddət sonra dövlətçiliyin dağılması və müstəqilliyin itirilməsi təhlükəsi qarşısında qaldığı zaman ümidin yalnız Heydər Əliyevdə olduğunu yaxşı dərk edən Azərbaycan xalqı 1993-cü ilin iyun ayında Ulu Öndərə müraciət edərək onun hakimiyyətə gəlməsini təkidlə tələb etdikdə, o, bütün çətinliklərə baxmayaraq bir daha xalqının yanında olmağa qərar verdi.

Dövlət quruculuğunun bütün sahələrində olduğu kimi, ordu quruculuğu sahəsində də Heydər Əliyevin şəxsi keyfiyyətlərini qiymətləndirməmək olmaz. Bu böyük dövlət xadiminin hələ Naxçıvan Muxtar Respublikasına rəhbərlik etdiyi qısa dövrdə ki, fəaliyyəti bir daha göstərirdi ki, məqsədyönlü, milli maraqları qoruyan siyasət yeridilməsi, xalqın milli maraqlar ətrafında birləşdirilməsi ən mürəkkəb vəzifələri belə həyata keçirməyə imkan verir. Heydər Əliyev 1992-ci ilin sentyabrın 15-də Naxçıvan Muxtar Respublikası ərazisində ilk milli ordu qurumu – 705 saylı əlahiddə gücləndirilmiş motoatıcı briqadanı yaratdı. Hələ Sovet hakimiyyətinin güclü vaxtlarında bir müsəlman və türk oğlu kimi öz gərgin zəhməti və peşəkarlığı sayəsində general hərbi rütbəsinə qədər yüksələn Ulu Öndər bununla da müasir müstəqil Azərbaycan Respublikasının tarixində ilk milli ordu quruculuğunun əsasını qoydu. Heydər Əliyev parlaq zəkası və bənzərsiz təşkilatçılıq qabiliyyəti ilə o dövrdə həm Naxçıvanın erməni təcavüzündən müdafiəsini, həm də milli hərbi hissənin sağlam əsaslar üzərində formalaşmasını təmin etdi və bununla da o dövrdə muxtar respublikanın iqtidarında olan qüvvələrə də dövlətçilik nümunəsi göstərdi.

Heydər Əliyev Bakıya dəvət olunanda bütün sahələrdə olduğu kimi Azərbaycan Ordusunda da ağır böhran mövcud idi. Qeyd edilməlidir ki, 1991-ci il sentyabrın 5-də Müdafiə Nazirliyinin yaradılması barədə qərar və həmin il oktyabrın 9-da Azərbaycan Respublikasının Ali Soveti tərəfindən Silahlı Qüvvələrin yaradılması haqqında qanun qəbul edilməsinə bax-

mayaraq, o dövr ki, respublika rəhbərliyi bu qərarların həyata keçirilməsi üçün heç bir səy göstərmirdi. Torpaqların müdafiəsi yalnız pərakəndə fəaliyyət göstərən könüllü dəstələrin ümidinə qalmışdı. Həmçinin şəxsi mənafelərə qulluq edən ayrı-ayrı başıpozuq silahlı dəstələr vardı. Bütün bunlara da yalnız Ümummilli Lider Heydər Əliyev 1993-cü ildə yenidən hakimiyyətə qayıtdıqdan sonra son qoyuldu.

Ordudakı böhranın xarakterik tərəflərinə nəzər saldıqda görərik ki, o dövrdə orduya dövlət rəhbərliyi və vahid komandanlıq təmin edilməmiş, ordu quruculuğu ilə bağlı dövlətin aydın proqramı olmamış, dövlət və ordu bir-birindən ayrı düşmüşdü. Həmçinin, ordu siyasi işlərə cəlb edilərək daxildə siyasi mənsubiyyətə və məqsədlərə görə parçalanma yaranmışdır. Bütün bunların nəticəsi olaraq ordu daxilində xaos, özbaşınalıq, qanunsuzluqlar baş alıb gedir və Sovet ordusundan miras qalmış hərbi əmlakın böyük bir hissəsi məhv edilmişdi. Bundan başqa orduya çağırış işi özbaşına buraxılmış və ordunun döyüş qabiliyyəti zəruri tələblərə cavab vermirdi.

Heydər Əliyev məhz belə bir şəraitdə xilaskarlıq missiyasını öz üzərinə götürərək respublikanı addım-addım bu dərin böhrandan çıxarmağa başladı və tarix üçün kifayət qədər qısa bir zamandan sonra Azərbaycanın hərbi təhlükəsizliyinin təmin edilməsi üçün real qüvvələri formalaşdıra bildi. Onun səmərəli fəaliyyəti bir daha göstərdi ki, təşəbbüskarlıq, ardıcıllıq, qətiyyət, yorulmazlıq, prinsipiallıq ordu quruculuğuna rəhbərlik edən dövlət rəhbərinin ayrılmaz xüsusiyyətləri olmalıdır. Bu keyfiyyətlərin səmərəli uzlaşdırılmasının özü də mühüm əhəmiyyətə malikdir.

Yuxarıda qeyd etdiyim kimi, təşkilatlanması üçün çox qiymətli işlərin hələ sovet dövründə görüldüyü Azərbaycan milli ordusunun yeni əsaslar üzərində yaradılması, möhkəmləndirilməsi və real qüvvəyə çevrilməsi də məhz Heydər Əliyevin adı və tarixi fəaliyyəti ilə bağlıdır. Ordu quruculuğunun səmərəliliyinə nail olunmasının başlıca şərtlərindən birini Heydər Əliyev xalqın qüvvəsinə arxalanmaqda, xalqla vəhdətdə görürdü. O, xalqın gücü qarşısında hər cür qüvvənin aciz olduğunu təsdiq edir və öz fəaliyyətinə də ən böyük dəstəyi xalqın etibarında və etimadında görürdü. Ölkə həyatının ən böyük problemlərinin həllində də o, məhz xalqın gücünə arxalanaraq mürəkkəb anlarda belə xalqı ayağa qaldırmağı və milli mənafelər ətrafında onu səfərbər etməyi bacarırdı. Heydər Əliyevin müstəqil Azərbaycana rəhbərliyi dövrü ölkəmizin tarixinin ən məsuliyyətli, sınaqlı dövrü olduğu kimi, həm də Azərbaycan Ordusu tarixinin yeni bir mərhələsidir. Bu yeni mərhələdə Ulu Öndərin radio və televiziya ilə Azərbaycan xalqına 2 noyabr 1993-cü il tarixli müraciətinin böyük əhəmiyyəti vardır.

Azərbaycan Respublikasının Prezidenti seçilməsindən cəmi bir ay sonra edilmiş bu müraciət bir tərəfdən sağlam ordu quruculuğunun əsaslarını və bu istiqamətdə xalqın və dövlətin qarşısında dayanan mühüm vəzifələri müəyyənləşdirən konseptual bir sənəd idisə, bir tərəfdən də Heydər Əliyevin xalqa çağırışı idi. Bu çağırış xalqın bütün təbəqələri tərəfindən qəbul edildi və xalqın bütün potensialı ordu quruculuğuna istiqamətləndirildi. Yəni, Heydər Əliyev böyük dövlətçilik təfəkkürü ilə xalqın potensialını ordu quruculuğu kimi mühüm bir sahəyə səfərbər edə bildi. Heydər Əliyev respublika ağsaqqallarına, ziyalılarına, mədəniyyət və incəsənət xadimlərinə, dindarlara, iş adamlarına müraciət edib onları orduya daha yaxından kömək etməyə, əsgər və zabitlərin mübariz döyüş ruhunda tərbiyə olunmasına yardım etməyə, orduda baş verən qanunsuzluqların, başlıcası isə fərariliyin qarşısının alınmasında qətiyyətli mövqe tutmağa çağırdı. Heydər Əliyev xüsusilə hərbi strukturlara yol tapmış rüşvətxorluğa qarşı mübarizənin gücləndirilməsinin zəruriliyini vurğuladı. Bu baxımdan Ümummilli Lider orduya çağırış-səfərbərlik işinin düzgün təşkil edilməsinə böyük əhəmiyyət verir, bu məsələni yalnız hərbi komissarlıqların və hərbi strukturların deyil, eyni zamanda, dövlət və hakimiyyət orqanlarını qarşısında dayanan çox mühüm vəzifə sayırdı.

Ümummilli Liderin bu müraciəti Azərbaycanda ordu quruculuğunun əsaslarını müəyyənləşdirəcək tarixi bir sənəddir. Strateji planda ordu quruculuğunun istiqamətlərini müəyyənləşdirən elə bir məsələ yoxdur ki, bu müraciətdə öz əksini tapmamış olsun. O cümlədən ordu və dövlət, ordu və maddi baza, ordu və mənəviyyat, ordu və xalq, ordu və milli kadrlar, ordu və nizam-intizam və s. kimi əsaslı məsələlərin vəziyyəti, əhəmiyyəti və əldə edilməsi yolları bu müraciətdə son dərəcə aydın və anlaşıqlı şəkildə qiymətləndirilib. Bu müraciətdən sonra dərin böhrana düşmüş Azərbaycan Ordusuna yeni sağlam bir nəfəs gəldi, bünövrəsi mövcud nöqsanlardan təmizləndi, şəxsi heyətdə canlanma yarandı, yeni hərbi hissələrin formalaşdırılmasına başlandı. Yeni hərbi hissələrin rəhbərliyinə Vətəninə sədaqətli zabitlərin təyin olunması nəzarət altına alındı. Həmçinin, yerli özünümüdafiə və könüllü batalyonlar adı altında fəaliyyət göstərən silahlı birləşmələri ləğv edərək, vahid komandanlıq sistemində təşkil olunan nizami ordu yaratdı. Ali Baş Komandanın ön xəttə səfər edərək döyüşçülərimizlə səngərdə görüşməsi və onları döyüşə ruhlandırması öz real bəhrəsini verdi. Həmçinin, ordu quruculuğunun elmi-təcrübi əsaslar üzərində və vahid komandanlıq prinsipi əsasında yüksək peşəkarlıqla həyata keçirilməsi cəbhədə gedən döyüş əməliyyatlarına da öz müsbət təsirini göstərirdi. Bundan əlavə qeyd etmək lazımdır ki, Dövlət Müdafiə Şurasının ilk iclasında korrupsiyaya,

cinayətkarlığa, Vətən qarşısında öz müqəddəs borcunu yerinə yetirməkdən boyun qaçıran şəxslərə qarşı ciddi mübarizə aparılacağının bəyan edilməsi və bu istiqamətdə atılan qətiyyətli addımlar da ordumuzun döyüş hazırlığının yüksəlməsinə böyük təkan verdi. Əvvəlcə qanunsuz hərbi dəstələr buraxıldı və Silahlı Qüvvələr tam dövlət nəzarətinə keçirildi. Azərbaycanın hərbi qüvvələrinin əvvəlcə Füzuli, sonra Ağdam-Tərtər istiqamətində apardığı uğurlu döyüşlər Azərbaycan Ordusundakı dəyişiklikləri göstərirdi. Heydər Əliyevin yenicə yaratmağa başladığı qüvvələr qarşısında böyük itkilər verən düşmən qüvvələri atəşin dayandırılmasına daha ciddi yanaşdılar və bunun nəticəsi olaraq 1994-cü ilin may ayının 12-də cəbhədə atəşkəs elan edildi. Azərbaycan Ordusunun gücləndiyini görən və onun tərəfindən aparılan uğurlu döyüş əməliyyatlarından təşviş içində olan düşmən atəşkəs haqqında müqaviləni imzalamaq məcburiyyətində qaldı.



Atəşkəsin əldə edilməsi də Azərbaycan Respublikası Silahlı Qüvvələrinin formalaşmasında yeni bir canlanmanın başlanğıcını qoydu. Azərbaycanda nizamlı, müasir səviyyəli ordunun qurulması prosesinə böyük inamla start verildi. Ölkədə nizami ordu quruculuğu formalaşdırılmağa başlandı. Bunu Heydər Əliyevin özü də çox böyük məmnunluqla qeyd edirdi. O deyirdi: *“1993-cü ilin sonlarından başlayaraq həyata keçirilmiş xüsusi tədbirlər nəticəsində milli ordu quruculuğu keyfiyyətcə yeni mərhələyə qədəm qoydu, qısa müddətdə vahid komandanlığa tabe olan nizami ordu formalaşdırıldı. Hazırda Azərbaycanın Silahlı Qüvvələri müasir hərbi texnika ilə təchiz edilmiş, möhkəm nizam-intizam, yüksək döyüş ruhu ilə seçilən, düşmənə sarsıdıcı zərbə vurmağa qadir olan bir ordudur. Milli ordumuz müstəqil dövlətimizin ən böyük dayağı, xalqımızın təhlükəsizliyinin və ölkəmizin ərazi bütövlüyünün təminatçısıdır”.*

Varislik prinsipi əsas tutularaq məhz Ümummilli Lider Heydər Əliyevin 22 may 1998-ci il tarixli sərəncamı ilə Əlahiddə Azərbaycan Korpusunun yarandığı gün-26 iyun Silahlı Qüvvələr Günü kimi qeyd olunur.

Ordu quruculuğundakı inkişafına təkan olan hadisələrdən danışarkən ilk növbədə vurğulanmalıdır ki, Heydər Əliyevin 1993-cü ildə Azərbaycan rəhbərliyinə qayıdışı ilə həmçinin, ölkənin ictimai-siyasi, iqtisadi, sosial, elmi–mədəni həyatında, beynəlxalq əlaqələrində əsaslı dönüş yaranmaqla, elmə, müasir beynəlxalq standartlara və prinsiplərə əsaslanan müstəqil dövlət quruculuğu prosesi başlandı. Məhz özünün sayəsində Azərbaycan daxilində yaranmış nisbi sabitlikdən və beynəlxalq aləmdə ölkəmizə artan inam və maraqdan səmərəli istifadə edərək 20 sentyabr 1994-cü il tarixdə “Əsrin müqaviləsi” adlandırılan ilk və nəhəng neft müqaviləsinin imzalanmasına və onun gerçəkləşdirilməsinə nail olan Heydər Əliyev, bununla da müstəqil Azərbaycanın iqtisadi inkişaf konsepsiyasını təşkil edən neft strategiyasının həyata keçirilməsinin dərin özülünü qoydu.

Ümummilli Lider Heydər Əliyevin rəhbərliyi ilə həyata keçirilən son dərəcə gərgin fəaliyyət nəticəsində Azərbaycan xalqının taleyi ilə bağlı pərdəarxası oyunlara və eksperimentlərə son qoyulmaqla, ölkədə siyasi anarxiyanın, xaosun və cinayətkarlığın qarşısı bütünlüklə alındı. Həmçinin Azərbaycan dövlətçiliyinin mövcudluğuna böyük təhlükə olan 1994-cü ilin oktyabr və 1995-ci ilin mart dövlət çevrilişi cəhdləri vaxtında və qətiyyətlə zərərsizləşdirilərək dövlət müstəqilliyi qorunub saxlanıldı.

Bu hadisələr zamanı zabit və əsgərlərin vətən qarşısında öz borclarını şərəflə yerinə yetirməsi, dövlətçilik prinsipinə sədaqətlə xidmət göstərmələri bir daha sübut etdi ki, şəxsi heyət arasında müstəqillik amalı və hərbi anda sədaqət hissi, yeni psixoloji iş formalaşmış, ordu hissələri artıq müxtəlif siyasi və cinayətkar mafioz dəstələri xidmət edən təxribatçılardan, casuslardan xeyli təmizlənmişdir. Məhz buna görə də, o dövrdə Azərbaycanda dövlətçiliyin möhkəmlənməsi və demokratik prinsiplərin bərqərar olması, demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesinin uğurla və sürətli həyata keçirilməsi şəxsən Ümummilli Liderin adı ilə bağlıdır. Bütün bunlar da, öz növbəsində Azərbaycanda dövlət quruculuğu prosesinin uğurla aparılması üçün əlverişli şərait yaratdı. Bundan sonra, ölkəmizdə müstəqil dövlət quruculuğu, o cümlədən dövlət təsisatlarının yaranması prosesi böyük vüsət aldı ki, bunun da hüquqi əsasını müstəqil Azərbaycanın qəbul etdiyi ilk Konstitusiyası təşkil edirdi. Müstəqil dövlətin yeni Konstitusiyasının hazırlanmasını zəruri hesab edən Ulu Öndər Konstitusiya layihəsinə baxılması üçün xüsusi komissiyaya müvafiq

göstərişlər verdi, bundan sonra, 12 noyabr 1995-ci il tarixdə keçirilmiş ümumxalq səsverməsi-referendum yolu ilə Azərbaycan Respublikasında dövlət quruculuğunun hüquqi əsasını təşkil edən Konstitusiya qəbul edildi. Konstitusiyanın 9-cu maddəsində qeyd edilir ki, (Maddə.9. Silahlı Qüvvələr) Azərbaycan Respublikası öz təhlükəsizliyini və müdafiəsini təmin etmək məqsədi ilə Silahlı Qüvvələr yaradır. Silahlı Qüvvələr Azərbaycan Ordusundan və başqa silahlı birləşmələrdən ibarətdir. Azərbaycan Respublikası başqa dövlətlərin müstəqilliyinə qəsd vasitəsi kimi və beynəlxalq münaqişələrin həlli üsulu kimi müharibəni rədd edir. Azərbaycan Respublikasının Prezidenti Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanıdır.

Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə əsas qayəsini azərbaycançılıq, müstəqillik, dövlətçilik, dünyəvilik, ədalət, demokratiya, milli tərəqqi kimi ümumbəşəri dəyərlər təşkil edən yeni bir ideologiyanın əsası qoyuldu. Onun dəyərli və çoxşaxəli fəaliyyətinin prioritetlərində köklü iqtisadi islahatlar aparılması, bazar iqtisadiyyatının bərqərar olması, ölkəmizin dünya iqtisadiyyatına inteqrasiyası yolu ilə Azərbaycanın hər bir vətəndaşının öz rifahını yaxşılaşdırmaqla azad, sərbəst, firavan yaşamasını təmin etmək üstünlük təşkil edirdi.

Heydər Əliyevin rəhbərliyi altında Azərbaycan dövlətinin xarici siyasəti, dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara və uzaqgörən siyasi perspektivlərə əsaslanan xətlə inkişaf etməyə başladı. Ulu Öndərin xarici siyasət məsələlərinə müstəsna əhəmiyyət verməsi, beynəlxalq miqyasda etiraf olunan uğurlu və cəsarətli addımlar atması, milli məqsədlər naminə ən nüfuzlu tribunalardan xüsusi bacarıq və məharətlə istifadə etməsi Azərbaycan dövlətçiliyinin bu günü və gələcəyi baxımından son dərəcə əhəmiyyətli oldu.

Ümummilli Liderin fəal və peşəkar diplomatiyası nəticəsində dünyanın demokratik dövlətlərinin və aparıcı beynəlxalq təşkilatlarının ölkəmizin zorla cəlb olunduğu silahlı münaqişəyə münasibətinin əsaslı surətdə dəyişilməsinə nail olundu. Onun beynəlxalq sivil prinsipləri özündə tam ehtiva etdirən xarici siyasətinin əsasını sülh, beynəlxalq hüquq normalarına, dövlətlərin ərazi bütövlüyünə və sərhədlərinin toxunulmazlığına hörmət və qarşılıqlı surətdə faydalı iqtisadi, elmi, mədəni əməkdaşlıq yaradılması, dövlətlərarası əlaqələrə mane olan hər cür məhdudiyyətlərin aradan qaldırılması təşkil edirdi.

Qeyd etdiyim kimi, Ulu Öndər Heydər Əliyevin Azərbaycana ikinci dəfə rəhbərlik etməyə başlamasından sonra müstəqilliyimizin ilk illərində erməni təcavüzü, daxili çəkişmələr, yeni yaradılmış özünümüdafiə taborlarının ayrı-ayrı siyasi məqsədlərə xidmət etməsi bir tərəfdən torpaqlarımızın işğal olunmasına şərait yaradır, digər tərəfdən ordumuzun yaranmasına mane olurdu. Həmin vaxt başlıca vəzifələrdən biri də ölkə gəncləri arasında özünə inamı, vətənpərvərlik hissini, milli mübarizə əzmini və döyüş ruhunu yüksəltmək olduğundan, müdrik lider Heydər Əliyev böyük siyasi səriştəyə, təcrübəyə və dünyagörüşünə malik rəhbər kimi bu reallığı düzgün dəyərləndirir, gənclərin könüllü hərbi səfərbərliyini təmin etmək üçün respublikada ideoloji-təbliğat işini gücləndirirdi. Ulu Öndər kifayət qədər mürəkkəb bir dövr olmasına baxmayaraq hər zaman çıxışlarında gənclərlə işi dövlətin əsas istiqamətlərindən biri olduğunu qeyd edərək ölkə gənclərini ruhdan düşməməklə səfərbər olmağa, düşmənə qarşı layiqli müqavimət təşkil etməyə çağırır və bütün xalq, xüsusən də gənclər bu çağırışı cavabsız qoymayaraq dahi öndərin ətrafında daha da sıx birləşməyə başlamışdı.

Ümummilli Liderin mütəmadi olaraq ön cəbhəyə getməsi, səngərlərdə üzun müddət dayanmaqla Azərbaycan hərbiçiləri ilə bilavasitə təmasda olması, onların qayğısına qalaraq problemləri və ehtiyacları ilə maraqlanması, xidmətdə fərqlənənləri elə yerindəcə mükafatlandırması şəxsi heyətə əlavə güc verməklə, onlarda yüksək döyüş ruhu yaradırdı. Bununla bərabər, Ulu Öndərin, Vətənin azadlığı uğrunda canından keçmiş şəhidlərin, o cümlədən Azərbaycanın Milli Qəhrəmanlarının ailə üzvləri ilə görüşməklə, onların yanında olduğunu bildirməsi də ordu quruculuğu sahəsində görülən işləri sürətləndirirdi.

Bir qədər tarixə nəzər salsaq görərik ki, müstəqil Azərbaycan Respublikası torpaqlarının Ermənistan tərəfdən işğalının əsası, əslində, 19-cu əsrin əvvəllərində qoyulmuşdur. Ümummilli Lider Heydər Əliyevin imzaladığı "Azərbaycanlıların soyqırımı haqqında" 26 mart 1998-ci il tarixli fərmanda deyildiyi kimi, 1813-cü və 1828-ci illərdə imzalanan Gülüstan və Türkmənçay müqavilələri Azərbaycan xalqının parçalanmasının, tarixi torpaqlarımızın bölünməsinin əsasını qoydu. Azərbaycan xalqının bu milli faciəsinin davamı kimi onun torpaqlarının zəbti başlandı. Qısa bir müddətdə bu siyasət gerçəkləşdirilərək ermənilərin kütləvi surətdə Azərbaycan torpaqlarına köçürülməsi həyata keçirildi. Soyqırım Azərbaycan torpaqlarının işğalının ayrılmaz bir hissəsinə çevrildi.

Sovet dönəmində, Azərbaycanın ayrılmaz tərkib hissəsi olan Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistan Respublikasına birləşməsi haqqında Ermənistan rəhbərliyi tərəfindən vaxtaşırı cəhdlər edilmiş, lakin bu cəhdlərin qarşısı həmin vaxtlar alınmışdı. Ümummilli Lider Heydər Əliyev 14 iyul 1969-cu ildə Azərbaycan KP Mərkəzi Komitəsinin birinci katibi vəzifəsinə seçildikdən sonra Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistana birləşdirilməsi barədə edilən



cəhdlərin qarşısının alınmasında xüsusi prinsipiallıq göstərmişdir.

Bu haqda Ümummilli Lider Heydər Əliyevin aşağıdakı fikirləri xüsusilə maraqlıdır: *“1969-cu ildən Azərbaycana rəhbərlik etmişəm. O zaman da bu məsələlər qaldırılıbdır. 1977-ci ildə SSRİ-nin Konstitusiyası qəbul olunarkən Konstitusiyanı hazırlamaq üçün komissiya təşkil edilmişdi. Komissiyaya o vaxtkı Kommunist Partiyasının Baş katibi Brejnev rəhbərlik edirdi və respublikaların nümayəndələri də, o cümlədən mən də bu komissiyanın üzvü idim. Komissiya layihə hazırladığı dövrdə, təxminən, bir il müddətində həddindən artıq təkliflər gəlmişdi ki, Dağlıq Qarabağ ayrılıb Ermənistana verilməlidir. Hətta, bir-iki dəfə bu məsələnin komissiyada baxılmasına cəhd olmuşdu”.*

Ümummilli Lider Heydər Əliyev daha sonra demişdi: *“Məni düzgün başa düşün, olan şeyi deyirəm. Mən o vaxt bunların qarşısını aldım. Amma, qarşısını almaq da çətin idi. İradəmlə və Azərbaycan xalqının milli mənafelərini canımla, qanımla müdafiə edərək qarşısını aldım”.*

Ümummilli Lider Heydər Əliyev SSRİ rəhbərliyində – Sov. İKP MK Siyasi Bürosunun üzvü, keçmiş SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsində işlədiyi müddətdə erməni şovinistlərinin Dağlıq Qarabağ Muxtar Vilayətinin Ermənistana birləşdirilməsi haqqında cəhdləri qətiyyətlə dəf edilmişdi. Lakin keçmiş Sovet İttifaqında “yenidənqurma”nın müəllifi M.Qorboçovun məkrli siyasəti nəticəsində Heydər Əliyev “səhhətinə görə” ölkə rəhbərliyindən uzaqlaşdırıldıqdan sonra ermənilər və onların havadarlarının əl-qolu açılır. M.Qorboçovun özünə iqtisadi məsələlər üzrə müşavir seçdiyi akademik A.Aqambekyan 1987-ci ilin sonunda Fransanın nüfuzlu “Humanite” qəzetində Dağlıq Qarabağ Muxtar Vilayətinin Azərbaycandan alınıb, Ermənistana birləşdirilməsi barədə bəyanatla çıxış edir və 1988-ci ilin fevralında məlum Dağlıq Qarabağ hadisələri başlayır.

Ümummilli Lider Heydər Əliyev keçmiş Sov.İKP MK-nın 1989-cu ilin aprel ayının 25-də keçirilmiş Plenumunda Sov.İKP MK tərkibindən çıxarıldıqdan sonra ermənilər və onların havadarları, xüsusilə, əl-qol açırlar, artıq bu zaman məlum Dağlıq Qarabağ hadisələri intensiv surətdə genişlənir və dərinləşir.

Ümummilli Lider Heydər Əliyev 15 iyun 1993-cü ildə hakimiyyətə qayıdışından sonra bütün fəaliyyəti boyu qondarma Dağlıq Qarabağ məsələsinin sülh yolu ilə, beynəlxalq hüquq normalarına uyğun ədalətli həllinə çalışmışdır. Lakin heç kəsdən gizli deyildir ki, dünyada ikili standartlar mövcuddur.

Məhz 1993-cü ildən sonra digər ölkələrin qanunvericilik təcrübəsindən istifadə olunmaqla və Dağlıq Qarabağ müharibəsi təcrübəsinə əsaslanılmaqla mükəmməl hərbi qanunvericilik bazası yaradılması prosesi başladı. Beləliklə də, görülən işlər qısa müddətdən sonra öz səmərəsini verdi və güclü Azərbaycan ordusu formalaşmağa başladı. Çağırış və səfərbərlik işi xeyli təkmilləşdirildi, ordumuzun daha da güclənməsi üçün bir çox mühüm tədbirlər həyata keçirildi, bunun nəticəsində hərbi hissələrdə intizam möhkəmləndi və qanunun aliliyi prinsipi bərqərar oldu. Bütün bunlar orduya inamı və marağı artırmaqla xeyli insanın peşəkar hərbi qulluqçu kimi hazırlanmasına, hərbi ixtisaslara dərindən yiyələnməsinə rəvac verdi.

Azərbaycan Ordusunun beynəlxalq əlaqələrinin gücləndirilməsini də xüsusi diqqət mərkəzində saxlayan Ali Baş Komandan Heydər Əliyev milli ordunu modernləşdirmək üçün sovet hərb sistemini dəyişib, NATO standartlarını tətbiq etməyin zəruriliyini yaxşı dərk etdiyi üçün, Şimali Atlantika Alyansının beynəlxalq münasibətlər sistemində yeri və rolunu nəzərə alaraq ölkəmizin NATO-nun “Sülh naminə tərəfdaşlıq” proq-

ramına qoşulması barədə qətiyyətli qərar verdi və 4 may 1994-cü ildə Brüsseldə təşkilatın çərçivə sazişini imzaladı. Yeri gəlmişkən qeyd edim ki, 19 noyabr 2001-ci il tarixdə Azərbaycan Respublikası NATO-nun Parlament Assambleyasına assosiativ üzv qəbul edilmişdir.

İstər səfərbərlik işindəki, istərsə də bütövlükdə ordu quruculuğundakı nöqsanların aradan qaldırılmasında kadrların tərbiyələndirilməsi, seçilməsi, yerləşdirilməsi Heydər Əliyevə görə böyük əhəmiyyət kəsb edən məsələlərdən biri idi. Ordu quruculuğunda keyfiyyətli hərbi təhsilin və ixtisaslı gənc hərbi kadrların hazırlanmasının son dərəcə strateji əhəmiyyətli məsələ olduğunu hər zaman çıxışlarında vurğulayan Heydər Əliyev bu sahəni də hər zaman diqqət mərkəzində saxlayırdı. Əsası 1971-ci ildə Cəmşid Naxçıvanski adına Hərbi Liseylə qoyulan hərbi təhsil müəssisələrimizin sayını artırmaqla Silahlı Qüvvələrin Hərbi Akademiyasının, Ali Hərbi Məktəbin, Naxçıvan Ali Hərbi Məktəbinin, Təlim və Tədris Mərkəzinin, Ali Hərbi Dənizçilik Məktəbin, Ali Hərbi Təyyarəçilik Məktəbinin və sair nüfuzlu ali hərbi təhsil ocaqlarının müasir tələblərə uyğun təşkil edilməsi də məhz Ulu Öndərin bu sahədəki misilsiz xidmətlərinin bariz nümunələri idi.



Qeyd edilməlidir ki, 1997-ci ildən bu tədris müəssisələrində NATO standartlarına uyğun tədris proqramı tətbiq olunur. Ümummilli Liderimiz hərbi təhsil sisteminin daha da inkişaf etdirilməsi məqsədilə 1999-cu il fevralın 20-də yaradılan Silahlı Qüvvələrin Hərbi Akademiyasında hərbi qulluqçularla yanaşı dövlət orqanlarında çalışan yüksək vəzifəli şəxslərə də hərbi-strateji, hərbi-iqtisadi və hərbi-siyasi məsələlərin öyrədilməsi təşkil edilir. MDB-yə üzv olan bir neçə dövlət ilə Azərbaycan Respublikası Müdafiə Nazirliyi tərəfindən imzalanmış sazişlərə əsasən bu ölkələrin hərbi qulluqçularının Azərbaycan Respublikası Müdafiə Nazirliyinin tabeliyində olan hərbi təhsil müəssisələrində təhsil alması bu sahədə qazanılan uğurları bir daha təsdiq edir. Kiçik bir haşiyə kimi qeyd etmək istəyirəm ki, yuxarıda sadaladığım həmin təhsil müəssisələri respublikamızın Silahlı Qüvvələri üçün müxtəlif kateqoriyadan olan hərbi kadrların hazırlanması üçün 2022-ci il də yaradılmış Milli Müdafiə Universitetinin tərkibində uğurla fəaliyyət göstərirlər. Qeyd edilən Universitetinin yaradılması vahid hərbi təhsil müəssisəsi modelinin ən nümunəvi forması olmaqla, bundan sonra da Azərbaycan ordusuna yüksək bilikli və hazırlıqlı, vətənpərvər ruhda hərbçilərin yetişdirilməsində müstəsna rol oynayacaqdır.

Ulu Öndər çıxışında qeyd edirdi: *"Biz bu gün böyük iftixar hissi ilə deyirik ki, Azərbaycan Respublikasının milli ordusu – respublikamızın milli təhlükəsizliyini, əhalimizin əmin-amanlığını və mühafizəsini təmin etmək üçün, ölkəmizin sərhədlərinin qorunması, ərazi bütövlüyünün. torpaqlarının müdafiə edilməsi üçün Azərbaycanın layiqli Silahlı Qüvvələri vardır!".*

Bu gün Azərbaycanın Silahlı Qüvvələri 90-cı illərin əvvəllərindəki siyasiləşmiş ayrı-ayrı silahlı dəstələrdən ibarət deyil, vahid mərkəzdən idarə olunan, maddi-texniki bazası, intellektual potensialı möhkəmlənmiş, istənilən döyüş tapşırığını ən yüksək səviyyədə yerinə yetirməyə qadir olan və müasir tələblərə cavab verən bir ordudan ibarətdir. Xüsusi vurğulanmalıdır ki, hazırda cəmiyyətdə Azərbaycan Ordusuna böyük güvən və ictimai inam mövcud olduğundan, rəşadətli ordumuz dövlətin və xalqın dəstəyini yaxından hiss edərək mənəvi-psixoloji cəhətdən daha da möhkəmlənmişdir.

Təbii ki, bütün bunlar öz-özünə baş verməmiş və ordumuzun hazırki səviyyədə formalaşması Ümummilli Liderimizin başladığı çətin, mürəkkəb, keşməkeşli, eyni zamanda şərəfli, uğurlu yollar keçən və Möhtərəm Prezidentimiz tərəfindən yüksək peşəkarlıqla davam etdirilən ordu quruculuğu sayəsində mümkün olmuşdur. Ulu Öndər Heydər Əliyevin müstəsna xidmətləri sayəsində formalaşan Azərbaycan Silahlı Qüvvələri bu gün yeni inkişaf yoluna qədəm qoymaqla Ali Baş Komandan Cənab İlham Əliyevin rəhbərliyi altında öz şərəfli missiyasını uğurla davam etdirir.

2001-ci il iyunun 26-da Azərbaycan Respublikası Silahlı Qüvvələrinin yaradılmasının 83-cü ildönümünə həsr edilmiş təntənəli mərasimdə nitq söyləyən Ümummilli Lider demişdir: *"Ordu yaratmaq, qurmaq asan bir iş deyildir. Əgər nəzərə alsaq ki, sovet hakimiyyəti dövründə bizdə bunun əsası olmayıbdır, bu, asan iş deyildir. Ona görə də ordunun, Silahlı Qüvvələrin yaranmasına, ordu quruculuğuna dövlətin,*

*bütün hakimiyyət orqanlarının xüsusi qayğısı olmalıdır. Azərbaycan Prezidenti, Ali Baş Komandan bu qayğını göstərir və bundan sonra da göstərəcəkdir. Ancaq bu təkcə məndən asılı deyildir. Hər bir hakimiyyət orqanının kiçik, ya böyük hissəsi, hər bir vətəndaş gərək hər bir sahədə ordu quruculuğuna öz töhfəsini, öz payını versin. Çünki ordu xalqındır. Ordu, Silahlı Qüvvələr xalqın təhlükəsizliyini və müstəqil dövlətin suverenliyini qorumaq üçün lazımdır".*

Ordu quruculuğu sahəsində qazanılan nailiyyətlərin bütün parametrlər üzrə daha da inkişaf etdirilməsinin fəaliyyətində prioritet istiqamətlərdən biri olacağını bəyan etmiş Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı cənab İlham Əliyevin dövlət başçısı kimi fəaliyyətə başladığı ilk günlərdən, Silahlı Qüvvələrimizin maddi-texniki bazasının genişləndirilməsi, hərbi qulluqçuların sosial müdafiəsinin möhkəmləndirilməsi sahəsində həyata keçirdiyi tədbirlər Vətənin müdafiəçilərinin şərəfli işinə verilən yüksək qiymətin təzahürüdür.

Məhz orduya verilmiş dövlət qayğısının nəticəsində 44 günlük Vətən Müharibəsi göstərdi ki, Azərbaycan ordusu sürətlə inkişaf edərək arsenalını ən müasir silah və digər hərbi texnika ilə zənginləşdirmiş və bu gün dünyanın hərbi cəhətdən inkişaf etmiş dövlətlərinin malik olduqları strateji silahlar Azərbaycanda da mövcuddur. Vətən Müharibəsində düşmənin hərbi təxribatlarının qarşısının alınması zamanı çevik və mütəşəkkil hərbi əməliyyatlarla düşmənin hərbi obyektlərini darmadağın edən, torpaqlarımızı işğaldan azad edən Silahlı Qüvvələrimiz bunu bir daha sübut edərək təsdiqlədi ki, ən müasir texnika və hərbi avadanlıqlarla təchiz olunmuş Azərbaycan Respublikasının Silahlı Qüvvələri vətənpərvər, yüksək döyüş hazırlığına və ruhuna malik, hərbi-texniki vərdişlərə dərindən yiyələnmiş peşəkar kadrlardan ibarətdir.

28 ildən çox idi ölkəmizin ayrılmaz hissəsi olan Dağlıq Qarabağ da daxil olmaqla, yeddi rayonumuz erməni qəsbkarlarının işğalı altında qalmışdı. Torpaqlarımızın sülh yolu ilə azad olunması üçün bu illər ərzində beynəlxalq təşkilatların, o cümlədən 1992-ci ildə yaradılmış ATƏT-in Minsk Qrupu üzvlərinin – Rusiya, Fransa və Amerika Birləşmiş Ştatlarının vasitəçiliyi ilə danışıqlar aparılırdı. Münaqişənin dinc yolla həll olunması üçün müxtəlif ümidverici təkliflər irəli sürülürdü. Amma illər keçsə də, bu təkliflərdən heç biri həyata keçmirdi. Ermənistanın həm keçmiş, həm də indiki rəhbərləri beynəlxalq təşkilatları yalançı vədlərlə aldadaraq, danışıqlar prosesini uzatmağa çalışırdılar. Elə buna görə də, görüşlərdə, danışıqlarda sülhə xidmət edən uğurlu nəticələr əldə olunmurdu.

Güclü, qüdrətli, ordumuz erməni işğalında qalmış torpaqlarımızı qaytarmağa qadir və hazır olsa da, Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev Qarabağ müharibəsinin dinc yolla həll olunmasının tərəfdarı idi. Ölkəmizin başçısı istəmirdi ki, müharibədə Azərbaycan xalqının qanı tökülsün. Buna görə də, həm beynəlxalq təşkilatlar, həm də Ermənistan rəhbərliyi qarşısında status-kvonun dəyişdirilməsi, erməni qoşunlarının Azərbaycanın ərazilərindən çıxarılması barədə tələb irəli sürürdü. Birləşmiş Millətlər Təşkilatı erməni qoşunlarının Azərbaycanın işğal edilmiş ərazilərindən çıxarılması barədə dörd qətnamə qəbul etmişdi. Təəssüflər olsun ki, erməni işğalçıları beynəlxalq hüququn prinsip və normalarına hörmətsizlik göstərərək onu yerinə yetirmirdi. Ermənistan rəhbərliyi beynəlxalq hüquqa zidd addımlar atmaqda davam edirdilər. Danışıqlar prosesini uzatmaqla çirkin əməllərini həyata keçirməyə çalışırdılar.

Ermənistan rəhbərliyi danışıqlar prosesində konstruktivlik göstərmədiyinə görə, münaqişənin dinc yolla həlli müşkül məsələyə çevrilmişdi. Buna görə də, ön xətdə günü-gündən gərginlik artır, Beynəlxalq təşkilatların vasitəçiliyi ilə Azərbaycan-Ermənistan Dağlıq Qarabağ münaqişəsinin həll olunmasına inam azalmışdı. Son vaxtlar Ermənistan rəhbərliyi sərsəm-sərsəm danışaraq "Qarabağ Ermənistandır, nöqtə" deyib sülh prosesində iştirak etməyəcəyini bəyan etdi. Bu bəyanat danışıqlar prosesinə ağır zərbə vurdu. Beynəlxalq hüquqa zidd olan bu bəyanatdan sonra Ermənistan rəhbərliyi ilə danışıqlar aparmağın hüquqi qüvvəsi qalmadı.

2020-ci ilin iyul ayında ermənilər atəşkəs rejimini pozaraq Tovuz rayonu istiqamətindən iriçaplı silahlardan, minaatan və artilleriya qurğularından mövqelərimizi atəşə tutdular. Azərbaycan Ordusu qısa müddət ərzində işğalçılara layiqli cavab verdi. Mövqelərində ayıq-sayıq dayanmış zabit və əsgərlərimiz erməni təxribatının qarşısını qətiyyətlə alırdılar. Düşmən sərrast atəş zərbələri ilə susduruldu. Tovuz hadisələri bir daha göstərdi ki, istənilən vaxt erməni qəsbkarları onu pozub, təxribatlar törədə və yeni ərazilərimizi ələ keçirmək üçün mövqelərimiz üzərinə hücuma edə bilər.

2020-ci il sentyabr ayının 27-də səhər saat 6 radələrində işğalçılar ölkəmizin yeni ərazilərini ələ keçirmək məqsədilə atəşkəs rejimini pozaraq cəbhənin müxtəlif istiqamətlərindən mövqelərimiz üzərinə hücum etdilər. Azərbaycan Ordusu tərəfindən müzəffər Ali Baş Komandan İlham Əliyevin komandanlığı altında düşmənin qəfil hücumunun qarşısı qətiyyətlə alındı. Torpaqlarımızın işğaldan azad edilməsi məqsədilə, erməni qəsbkarlarına qarşı əks-həmlə əməliyyatlarına başlanıldı. Əməliyyatlarının elə ilk saatlarından Azərbaycan Ordusunun cəsur zabit və əsgərləri igidliklə, hünərlə vuruşaraq döyüşlərdə böyük üstünlük qazanaraq düşmənə sarsıdıcı zərbələr vur-

dular. İşğalçılar bu dəqiq və sarsıdıcı zərbələrin qarşısında tab gətirməyərək iyirmi səkkiz ildən bəri əllərində saxladıqları və xeyli möhkəmləndikləri mövqelərdən geri çəkilməyə başladılar. Azərbaycan ordusunun yüksək döyüş hazırlığı elə ilk əməliyyatlardan özünü aydın şəkildə göstərdi. Əks-həmlə əməliyyatlarının birinci günü illərdən bəri gücünü artıran Azərbaycan Ordusu Cəbrayıl və Füzuli rayonlarının yeddi kəndini qəsbkarlardan azad etdi.

Şanlı ordumuzun zabit və əsgərləri uğurlu döyüşləri ilə qəsbkarları qaçmağa məcbur etdikcə, torpaqlarımız addım-addım işğaldan azad olunurdu. Azərbaycan Ordusunun güclü əks-həmlələri nəticəsində düşmənin dayaq məntəqələri bir-birinin ardınca darmadağın edilirdi. Azərbaycan xalqı müstəqilliyinin təminatçısı olan və böyük məhəbbət bəslədiyi ordusundan hər gün qələbə xəbərləri eşidirdi. Hər gün yüksəkliklərimiz, kənd və şəhərimiz düşməndən azad olunurdu. İşğaldan azad edilmiş şəhər və qəsəbələrimizdə üçrəngli bayraqlarımız dalğalanırdı.

Müharibə getdiyi dövrdə Ermənistan rəhbərliyi cəbhədəki uğursuzluqlarının əvəzini mülki əhalimizdən çıxmağa çalışdı. Qəsbkarlar Vətən müharibəsinin davam etdiyi günlərdə Tərtər, Ağdam, Ağcabədi rayonlarını, həmçinin Bərdə, Gəncə və Mingəçevir şəhərlərindəki mülki əhalini beynəlxalq konfessiyaların qadağan etdiyi ballistik raketlərlə atəşə tutdu. Nəticədə Bərdə və Gəncə şəhərlərində insan tələfatı ilə nəticələnən faciəli hadisələr baş verdi. Müharibə zonasından xeyli uzaqda olan əhali faciəli şəkildə həlak oldu. Ermənistan rəhbərliyinin bu addımı, mülki əhaliyə qarşı ballistik raketlərdən istifadə etməsi Cenevrə Konvensiyasına, həmçinin Ümumdünya İnsan Haqları Bəyannaməsinin (BMT-nin Baş Assambleyası 10.12.1948-ci ildə qəbul edilmişdir) maddələrinə kobud qaydada ziddir. Ermənistan rəhbərliyi törətdiyi bu cinayətkar əməllərinə görə beynəlxalq hüquq qarşısında cavab verəcək.

Elə ilk həmlədən uğur qazanacaqlarına, yeni ərazilərimizi işğal edəcəklərinə ümidlər bəsləyən ermənilərin arzuları Azərbaycan əsgərinin dəqiq atəşi ilə məhv edildi. Azərbaycan Ordusunun cəsur zabit və əsgərləri ermənilərin qəfil hücumlarının qarşısını qısa müddət ərzində alaraq işğalçıları ərazilərimizdən qovmağa başladılar. Oktyabrın 4-də Cəbrayıl rayonu, oktyabrın 17-də Füzuli rayonu, oktyabrın 20-də Zəngilan rayonu, oktyabrın 25-də Qubadlı rayonu, həmçinin Tərtər rayonunu Suqovuşan, Talış kəndləri, Xocavənd rayonunun Hadrut qəsəbəsi, Xocalı şəhərinin 16 kəndi erməni işğalçılarından azad olundu. Noyabrın 8-də isə üçrəngli bayrağımız Şuşaya sancıldı. Noyabrın 10-da Ermənistan rəhbərliyi məğlubiyyət aktına imza atmağa məcbur oldu. Rusiya, Azərbaycan və Ermənistan arasında bəyannamə imzalandı. Erməni işğalçıları Laçın, Ağdam və Kəlbəcər rayonlarından qoşunlarını çıxartdı. Beləliklə, 44 gün davam edən Vətən müharibəsi müzəffər Ali Baş Komandan İlham Əliyevin komandanlığı altında böyük uğur və zəfərlərlə başa çatdı. Sözün həqiqi mənasında biz 44 gün tariximizin ən şərəfli və ən çətin anlarını yaşadıq. Elə anları ki, bir günümüz bir aya, bir ilə, bir əsrə bərabər oldu. Həmişə olduğu kimi, xalqımız Vətən müharibəsi gedən günlərdə də Ali Baş Komandanın ətrafında yumruq kimi birləşdiyindən düşmən bizə bata məğlub oldu.

Prezident İlham Əliyev: *"Heç vaxt Azərbaycan ərazisində ikinci Ermənistan dövlətinin yaradılmasına imkan verilməyəcək".*

Müharibədə qazanılmış zəfər ilk öncə Ümummilli Lider Heydər Əliyev irsinin təntənəsidir. Belə ki, Azərbaycan xalqının Ümummilli Lideri özünün zəngin dövlətçilik təcrübəsinə əsaslanaraq 2003-cü ilədək davam edən gərgin siyasi fəaliyyəti nəticəsində Azərbaycan-Ermənistan Dağlıq Qarabağ probleminin tənzimlənməsi üçün beynəlxalq və milli hüquqi baza yaratdı, və ən əsası, Azərbaycana əbədi tarixi zəfər qazandıran ordumuzun quruculuğu ilə bağlı ilk islahatlar unudulmaz Heydər Əliyevin adı ilə bağlıdır. Həmçinin, ordu quruculuğunun ən müxtəlif sahələri ilə bağlı zəruri qanunların qəbul edilməsi nəticəsində Azərbaycan Silahlı Qüvvələrinin hərbi hissələrin, ayrı-ayrı qoşun növlərinin formalaşdırılması tam başa çatdırılmış, ordunun maddi-texniki təminatı, maliyyə-təsərrüfat fəaliyyəti nizama salınmış, şəxsi heyətin mənəvi-psixoloji hazırlığı və döyüş ruhu yüksəldilmişdir.

Ulu Öndər Heydər Əliyevin əvəzsiz xidmətləri Azərbaycan xalqının tarixində və hafizəsində hər zaman yaşayacaq. Parlaq istedada, nəcib insani keyfiyyətlərə malik böyük siyasi və dövlət xadimi kimi Heydər Əliyevin əziz xatirəsi xalqımızın dilində canlı bir əfsanədir. Zəngin dövlətçilik təcrübəsinə malik olan Heydər Əliyevin Azərbaycanda 35 illik hakimiyyəti dövründə Azərbaycan və ümumilikdə, Qafqaz xalqlarının xoşbəxt və firavan yaşamaları uğrunda həyata keçirtdiyi tarixi xidmətlər əvəzedilməzdir.

2003-cü ildə Ulu Öndərin bütün ömrü boyu fədakarlıqla xidmət etdiyi idarəçilik məktəbinin ideyalarını, yolunu davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi altında Azərbaycanın müasir inkişaf dövrü başlayır və bizim ölkəmiz artıq iqtisadiyyatın, təhsilin, mədəniyyətin sürətlə inkişaf etdiyi bir ölkəyə çevrilir. Böyük öndər Heydər Əliyev Azərbaycan xalqına müraciət edərək demişdir: *"İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə ümidlər bəsləyirəm".*



Məhz Heydər Əliyevin ən böyük arzusu tarixi torpaqlarımızın işğaldan azad edilməsi və doğma Azərbaycanın ərazi bütövlüyünün bərpası idi. Onun vəsiyyətini onun siyasi kursunun layiqli davamçısı, Azərbaycan Prezidenti, Silahlı Qüvvələrin Müzəffər Ali Baş Komandanı İlham Əliyevin rəhbərliyi ilə igid Azərbaycan ordusu yerinə yetirərək 44 günlük Qarabağ müharibəsində düşməni torpaqlarımızdan qovdu və üçrəngli bayrağımız yenə də doğma yurdumuzda, Qarabağın döyünən ürəyi – Şuşada qürurla dalğalandırıldı.

Azərbaycanda 2020-ci ildə aparılan 44 günlük Vətən müharibəsindən sonra da ordu quruculuğu prosesi davam edir. Sonrakı illərdə ordunun döyüş imkanlarının artırılması istiqamətində islahatlar davam etdirilib. Müdafiə nazirliyinin strukturunda islahatlar aparılaraq Azərbaycan Ordusunun öz peşəkarlığını daha da artırması üçün yeni hərbi birləşmələr, yeni Komando-Qüvvələri yaradılmışdır. İstənilən hərbi vəzifəni icra etməyə hazır, çevik, çox böyük imkanlara malik olan Komando briqadalarının sayının artırılması nəzərdə tutulur. Hərbi quruculuq, bütün qoşun növlərinin texnika və silah-sursatla olduğundan ötən illərdə bu istiqamət üzrə də bir çox işlər görülüb. İşğaldan azad edilmiş rayonlarda istifadəyə verilmiş yeni hərbi hissələr hərbi infrastrukturun yaradılması istiqamətində görülən işlərdəndir.

Artıq bu gün Azərbaycan Silahlı Qüvvələrinin zabitləri qardaş Türkiyə Respublikasının, Rusiyanın, Ukraynanın, Pakistanın, Çinin, Almaniyanın, Böyük Britaniyanın, İtaliyanın, Rumıniyanın, Macarıstanın hərbi akademiyalarında və dinləmə kurslarında da təhsil alırlar. Qarşısına qoyulan hər hansı tapşırığı yüksək səviyyədə yerinə yetirmək iqtidarına malik olan Azərbaycan Silahlı Qüvvələri bu gün NATO standartlarına cavab verən səviyyədədir. Vahid komandanlığa tabe olan, müasir hərb elminin tələblərinə cavab verən Azərbaycan Ordusu Ümummilli Lider Heydər Əliyevin başladığı və Prezident İlham Əliyevin uğurla davam etdirdiyi müdrik siyasət nəticəsində gündən-günə daha da möhkəmlənir, döyüş qabiliyyətini artırır. Azərbaycan beynəlxalq aləmdə güclü iqtisadiyyata malik bir ölkə kimi tanınmaqla yanaşı, həm də NATO standartlarına uyğunlaşmış modern ordusu ilə da diqqəti cəlb edir.

Bu gün Azərbaycan Heydər Əliyev ideyalarının işığında dinamik inkişaf edir, onun dünya miqyasında nüfuzu getdikcə artır. Ulu Öndərin siyasi kursunu uğurla davam etdirən Prezident İlham Əliyevin praqmatik siyasəti nəticəsində ölkəmiz nailiyyətlər qazanır, ictimai-siyasi sabitlik qətiyyətlə qorunub saxlanılır.

**Ruslan Ağayev**
**Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin Strateji planlaşdırma və risklərin müəyyən edilməsi şöbəsinin prokuroru, kiçik ədliyyə müşaviri**



# Vətəndaş məmnunluğu – həyatının mənasını xalqa və dövlətə təmənnasız xidmətdə görən Ulu Öndərin fəaliyyət modelidir

**Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyevlə bağlı hər bir mövzu nə qədər şərəflidirsə, o qədər də məsuliyyətlidir. Çünki, Azərbaycanda elə bir sahə yoxdur ki, Ulu Öndərin misilsiz xidmətləri olmasın, çox hallarda da o, bu işlərin qurucusu və yaradıcısıdır. Heydər Əliyev irsi bizim üçün və gələcək nəsillər üçün zəngin xəzinədir, Vətəninə, xalqına, dövlətinə xidmət nümunəsidir.**

Heydər Əliyev tarixi şəxsiyyətdir, müstəqil Azərbaycan dövlətinin qurucusudur, bizim xilaskarımızdır. Bir-biri ilə tamamilə ziddiyyət təşkil edən iki dövlət quruluşunda Azərbaycana rəhbərlik etmişdir. 1969 – 1982-ci və 1993 – 2003-cü illər Azərbaycan tarixində Heydər Əliyevin rəhbərliyi ilə inkişaf illəri kimi qalacaqdır. İki tamamilə fərqli bir ictimai-siyasi mühitdə Azərbaycan ən yüksək zirvələrə qalxa bilmişdir.

Fransız mütəfəkkiri Şarl Montöskye «Qanunların ruhu» əsərində yazırdı ki, xalqlarının taleyində mühüm rol oynamış şəxsiyyətlər bir qayda olaraq tarixin gedişinə təsir göstərir və xilaskar missiyaları ilə yeni bir salnamə yaradırlar. XX əsrdə xalqımızın yetirdiyi fenomen şəxsiyyət – Ümummilli Lider Heydər Əliyev də məhz belə liderlərdən biri olaraq müasir Azərbaycan dövlətinin ideoloji-siyasi əsaslarını milli irs və düşüncə əsasında yaradaraq praktik surətdə gerçəkləşdirmiş strateq kimi hər zaman böyük rəğbət və ehtiramla xatırlanır. Xalqımız qərinələr boyu qazandığı dövlətçilik ənənələrini məhz Heydər Əliyev epoxasında təkmilləşdirərək sistem halına salmış, millət kimi mövcudluğunu, özünü idarə etmək bacarığını ən yüksək həddə nümayiş etdirmişdir. Azərbaycanı müstəqil dövlət quruculuğuna aparan keşməkeşli və şərəfli yol, əslində, məhz Ulu Öndərin hakimiyyətə gəlişindən sonra başlamışdır.

Dünyanın ən tanınmış tarixi simaları sırasında özünəməxsus yer tutan və XX əsr dünya siyasətinin nəhənglərindən hesab edilən Ulu Öndər Heydər Əliyevin özündən sonra qoyub getdiyi siyasi irsi və idarəetmə təcrübəsinin yüz illər bundan sonra da nəinki türk-islam aləmində və Şərqdə, həm də dünyanın hər yerində öyrəniləcəyi şübhə doğurmur. O, hələ sağlığında ikən dünyanın fenomen bir siyasətçisi kimi tanınmış, ən ağır vəziyyətlərdə belə qeyri-adi siyasi təfəkkürü ilə çıxış yol tapan mahir bir strateq kimi milyonların rəğbətini qazanmışdı. Bu günə kimi dünyanın heç bir siyasətçisində olmayan qeyri-adi yaddaşı ilə hamını heyran edən Heydər Əliyev türk-islam dünyasının bəşəriyyətə bəxş etdiyi ən böyük simalarındandır. O, dünyaya sanki bir vaxtlar gündoğandan günbatana qədər uzanan böyük bir ərazidə hökmranlıq edən böyük bir milləti xilas etmək üçün gəlmişdi. O, əsl xilaskar idi və millətin xilaskarı kimi tarixə adını qızılı hərflərlə yazdırdı. Adətən dünyanın tanınmış siyasətçilərindən söz düşərkən Heydər Əliyevi Almaniyanı dünyanın siyasi səhnəsində ən qüdrətli bir dövlətə çevrilməsində əvəzsiz xidmətləri olan XIX əsr dünya siyasətinin nəhənglərindən biri Bismarkla və ən böyük tarixi simalardan olan Mustafa Kamal Atatürklə müqayisə edirlər. Heydər Əliyev zamanın nəbzini vaxtında tutaraq ona uyğun strateji xətt yeritməsi baxımından hətta bəzi məqamlarda adı çəkilən hər iki dahi şəxsiyyətdən də öndə gedir desək, bəlkə də səhv etmərik. Bismark və Atatürklə müqayisədə Heydər Əliyev 30 il ərzində nəinki Azərbaycana rəhbərlik etmiş, həm də dünyanın ən qüdrətli dövlətlərindən olan SSRİ adlı bir imperiyanın daxili və xarici siyasətinin müəyyənləşdirilməsində özünəməxsus bir rol oynamışdır. Uinston Çörçill Böyük Britaniya, Otto Bismark və Helmut Koll Almaniya, Franklin Ruzvelt Amerika Birləşmiş Ştatları, Şarl de Qoll Fransa və böyük Atatürk Türkiyə üçün kimdirsə, Heydər Əliyev həm Azərbaycan, həm də XX əsr türk dünyası üçün o kəsdir.

Bu gün yüksək ehtiramla qələmə alınan ən xoş xatirələr, siyasi, elmi, politoloji fikir və mülahizələr

belə Ulu Öndər Heydər Əliyevin insan, vətəndaş və lider kimi böyüklüyünün miqyası barədə dolğun təsəvvür yaratmaqda acizdir. Heydər Əliyev dühası həyatının mənasını xalqa və dövlətə təmənnasız xidmətdə görən, bu müqəddəs amal uğrunda ən çətin maneələrə, problemlərə mərdliklə sinə gərən millət Atası kimi hər bir azərbaycanlının qəlbində yaşayır və dərin rəğbətlə yad edilir.



Ötən əsrin 60-cı illərinin sonlarına doğru özünün zəngin iqtisadi potensialını realizə edə bilməyən Azərbaycan keçmiş ittifaq miqyasında geridə qalmış respublikalardan biri kimi tanınır, cəmiyyət həyatının ən müxtəlif sahələrində ideoloji-siyasi, sosial-iqtisadi və mənəvi böhran hökm sürür, neqativ hallar baş alıb gedirdi. Respublikamız bir çox sahələrdə – milli gəlirin inkişaf tempinə, sənaye və kənd təsərrüfatı istehsalının həcminə, elmi-texniki tərəqqinin nailiyyətlərinin istehsalatda tətbiqinə, ictimai əməyin məhsuldarlığına görə ümumittifaq göstəricilərindən geridə qalırdı. Yaranmış vəziyyətdə keçmiş SSRİ rəhbərliyi çıxış yolunu kadr dəyişikliyində görərək, ciddi və hərtərəfli araşdırmalardan sonra müxtəlif namizədlər arasından təşkilatçılığı, yüksək idarəçiliyi, savadı ilə fərqlənən, xalqın səciyyəvi milli xüsusiyyətlərinə dərindən bələd olan Ümummilli Lider Heydər Əliyevin üzərində dayanmışdır. Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin 1969-cu il 14 iyul tarixli plenumu respublika partiya təşkilatının birinci katibliyinə namizəd məsələsini geniş müzakirə etmiş, toplantıda çıxış edənlər Heydər Əliyevin bu vəzifəyə ən layiqli şəxs olduğunu konkret arqumentlərlə əsaslandırmışlar. Həmin plenumda Heydər Əliyevin rəhbər vəzifəyə namizədliyinin yekdilliklə dəstəklənməsi onun kamil şəxsiyyəti, yüksək idarəçilik keyfiyyətləri ilə şərtlənmişdir. Fitri istedadı, təşkilatçılıq və idarəçilik məharəti, ən əsası, vətənpərvərliyi, milli ideallara bağlılığı ilə ilk gündən Azərbaycanın üzləşdiyi sosial-iqtisadi problemləri aradan qaldırmaq, qanunçuluğu və hüquq qaydalarını gücləndirmək, ciddi sosial bəlaya çevrilmiş korrupsiyaya, rüşvət¬xorluğa qarşı mübarizə tədbirlərini genişləndirmək istiqamətində əzmkar fəaliyyətə başlayan Heydər Əliyev mütərəqqi idarəçilik ənənələrinin əsasını qoymuş, cəmiyyətin normal inkişaf ahəngini təmin etmişdir.

Qısa müddət ərzində Azərbaycan sürətlə inkişaf etməyə və SSRİ respublikaları içərisində tanınmağa başladı. Heydər Əliyevin Azərbaycana rəhbərliyi dövründə ölkəmiz əsl tikinti meydanına çevrilmişdi. Bakıda yeni yaşayış evləri, sənaye müəssisələri inşa edilirdi. Həmin ərəfədə nəinki ittifaq miqyasında, həm də bütün dünyada nəhəng hesab edilən Kondisioner zavodu inşa edildi. Bu zavodun inşasına razılıq almaq üçün Heydər Əliyev dəfələrlə Moskvaya getməli, müvafiq orqanların razılığını almalı odu. Zavod işə düşəndən sonra dünyanın müxtəlif ölkələrinə öz məhsullarını ixrac etməyə başladı. Bu da Azərbaycanın ittifaq miqyasından çıxaraq beynəlxalq aləmdə, bütün dünyada tanınması demək idi. Eyni sözləri Bakı Dərin Özülləri zavodu haqqında da demək olar. Bu zavodun da inşasına nail olmaqla Heydər Əliyev əslində bu gün



ölkəmizdə həyata keçirilən "Əsrin müqaviləsi" üçün zəmin hazırlamış oldu. Hazırda dənizdə həyata keçirilən bütün qazma işləri və neft çıxarılması üçün lazımi estakadalar məhz bu zavodda hazırlanır. Heydər Əliyev o dövrdə bu zavodu inşa etdirməklə tarixi azı 20-25 il qabaqlamışdı. Qeyd edək ki, Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrdə, ötən əsrin 70 – 80-ci illərində 125 yeni sənaye müəssisəsi inşa edildi. Bununla yanaşı Azərbaycanda kənd təsərrüfatı

sürətlə inkişaf etdirildi və qısa müddətdə ölkəmiz həm də qabaqcıl kənd təsərrüfati respublikasına çevrildi. Azərbaycanda 80-ci illərdə rekord səviyyədə pambıq və üzüm yığıldı. Bir sözlə, Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi o dövr tariximizdə ən şərəfli dövrlərdən biri kimi yadda qalacaq.

Yüksək idarəçilik qabiliyyəti, təşkilatçılıq bacarığına və Azərbaycanı bütün ittifaq səviyyəsində ən yüksək zirvəyə qaldırdığına görə Heydər Əliyevə böyük etimad göstərərək onu 1982-ci ilin dekabrında SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə irəli çəkilməsi və Sov. İKP MK-nın Siyasi Bürosunun üzvü seçilməsi məhz bu böyüklüyün və müdrikliyin əyani təsdiqi idi.



Heydər Əliyevin Moskvaya gedişi ölkəmiz üçün böyük hadisə idi. Belə ki, Nəriman Nərimanovdan sonra ilk dəfə idi ki, Azərbaycan xalqının böyük oğlu SSRİ rəhbərliyində ən məsul vəzifələrdən birinə irəli çəkilirdi. Heydər Əliyevin Moskvada yüksək vəzifəyə irəli çəkilməsi Kremldə böyük canlanmaya səbəb oldu. O, özü ilə Kremlə tükənməz bir enerji, idarəetmə bacarığı və çeviklik gətirmişdi. Təsadüfi deyil ki, ötən əsrin 90-cı illərində Heydər Əliyevin Kremldəki fəaliyyəti Qərbin aparıcı dövlətlərinin də diqqətini cəlb etmişdi. Qərbin tanınmış siyasətçiləri, o cümlədən, məşhur politoloq və görkəmli dövlət xadimi Zbiqnev Bzejinski mətbuata verdikləri açıqlamalarında onu yaxın gələcəkdə SSRİ-yə rəhbərlik edəcək bir şəxs kimi gördüklərini vurğulayırdılar. 1985-ci ildə Sov.KP MK-nın baş katibi Çernenkonun vəfatından sonra ölkəni vaxtilə Yuri Andropovun irəli çəkdiyi adamlardan kimin idarə edəcəyi məsələsi həll olunurdu. Siyasi Büro üzvləri arasında isə SSRİ-ni idarə edə biləcək üç nəfərin – Heydər Əliyevin, Qorbaçovun və Romanovun adları hallanırdı. Dövlət idarəçiliyi istedadı, yüksək şəxsi keyfiyyətləri, qabiliyyəti ilə fərqlənən Heydər Əliyev daha şanslı və daha layiqli namizəd kimi qəbul olunurdu. Ancaq SSRİ-nin rəhbəri olmağa Heydər Əliyevə yalnız milli mənsubiyyəti mane olurdu. Son nəticədə millətçilik təzahürləri qalib gəldi – Siyasi Büro bu vəzifəyə Mixail Qorbaçovu seçdi.

Ətrafına erməni millətçiləri və şovinistləri toplayan Mixail Qorbaçov Heydər Əliyevi Kremldən uzaqlaşdırmaq üçün bütün səylərini işə saldı. Əslində Heydər Əliyevin Kremldən uzaqlaşdırılması SSRİ-nin fəlakəti demək idi. Elə də oldu. Mixail Qorbaçov milli etnik münaqişələrin köpüklənməsinə rəvac verdi. Məhz Heydər Əliyevin Kremldən uzaqlaşdırılmasından sonra ermənilər Dağlıq Qarabağın işğalı planını işə salaraq bu ərazinin ölkəmizdən ayrılması üçün qanlı münaqişələrə əl atdılar. O dövrdə Heydər Əliyev Mixail Qorbaçovun siyasətini açıq şəkildə tənqid edərək, onun baş verən bütün qanlı olayların səbəbkarı olduğunu cəsarətlə bildirirdi. 1990-cı ilin qanlı yanvar hadisələrində Heydər Əliyev yenə də Azərbaycan xalqının haqq səsini bütün dünyaya çatdıraraq baş verənlərə görə Mixail Qorbaçovu kəskin şəkildə tənqid etdi. Mixail Qorbaçov və onun ətrafındakıların müqavimətinə baxmayaraq, Ulu Öndər Azərbaycana qayıdıb, çətinliklə də olsa, doğma Naxçıvana gedə bildi. O, burada xalqın dəstəyi ilə Naxçıvan Muxtar Respublikası Ali Sovetinin sədri seçildi.

Müstəqilliyimizin ilk illərində Azərbaycanın yaşadığı ağır durum yaddaşlardadır. Çağdaş tariximizə xaos, anarxiya, böhranın dərinləşdiyi, dövlətin parçalanma, millətin məhv olma ərəfəsində olduğu məşəqqətli dövr kimi həkk edilən 1991 – 1993-cü illərə dair



xatirələrə yalnız qara səhifə kimi həkk edilib. SSRİ-nin dağılması ilə elan edilən müstəqillik Azərbaycan xalqına azad ölkənin vətəndaşı olaraq qürur duymaq hissindən əvvəl Dağlıq Qarabağ problemi kimi milli

faciə və bu problemdən heç də geri qalmayan siyasi təlatümlər, hakimiyyət ambisiyaları nəticəsində meydana çıxan qovğalar, itkilər gətirmişdi. Kağız üzərində olan müstəqilliyi dövlətin mövcudluğu timsalında təsbit etmək, onu möhkəmləndirmək lazım idi, lakin o vaxt iqtidarda olanlar yalnız öz mövqelərini möhkəmləndirməklə məşğul idilər. Xalqın iqtisadi, sosial qayğılarını, ərazi itkisi nəticəsində əmələ gələn problemləri həll etmək əvəzinə hələ kövrək olan dövləti yeni problemlər məngənəsinə salır, ordu qurmaq əvəzinə qanunsuz silahlı quldur dəstələri təşkil edir, ictimai sabitlik yaratmaqdansa, bu sabitliyi təmin edəcək dövlət strukturlarını, daxili işlər orqanlarını kriminal elementlərə çevirir, iqtisadi islahatlar aparmaq əvəzinə sovet dövründən qalmış müəssisələri talan edirdilər. Nəticədə xalqın güzəranı böhranın ən son həddinə qədəm qoymuş, dövlət etnik separatçılığın tüğyan etməsi nəticəsində Dağlıq Qarabağ bölgəsindən əlavə, faktiki olaraq şimal və cənub ərazilərinə nəzarəti də itirmişdi.

Məhz bu ağır dövrdə 1992-ci ilin oktyabr ayında Azərbaycan xalqının mütləq əksəriyyətinin istəyini özündə cəmləşdirən 91 nəfər ziyalısı "SƏS" qəzetində *"Azərbaycan Sizin sözünüzü gözləyir"* başlığı ilə Ulu Öndər Heydər Əliyevə müraciət etmişdir. 91-lər müraciətində belə göstərmişdirlər: *"Möhtərəm HEYDƏR BƏY! İndiki vəziyyətdə bu çətin, məsuliyyətli işi respublikada öz üzərinə götürməyə qadir yeganə şəxs Sizsiniz! Uzun illər əldə etdiyiniz dövlət quruculuğu təcrübələrinizə əsaslanaraq Siz qısa müddətdə Azərbaycanda geniş xalq kütləsini əhatə edəcək çox böyük, güclü, nüfuzlu və işlək bir partiya yaratmağa qadirsiniz. Buna görə də Azərbaycanın demək olar ki, bütün bölgələrində aparılan ictimai rəy sorğularının nəticələrinə və bizim təşkilat komitəsinə daxil olan minlərlə şifahi və yazılı vətəndaş təkliflərinə əsaslanaraq belə bir qənaətə gəlirik ki, yaratmaq istədiyimiz Yeni Azərbaycan Partiyasına bu gün rəhbərlik etməyə qadir olan yeganə mütləq lider Siz ola bilərsiniz və yalnız bu halda yaranmaqda olan partiya öz qarşısına qoyduğu məqsədə çatar, respublikanın bütün zümrələrdən olan xalq kütləsini öz ətrafında birləşdirərək Azərbaycanın siyasi, iqtisadi həyatında mövcud olan boşluğu doldurar, dövlət quruculuğu işlərində öz layiqli töhfəsini verə bilər."*

91-lərin müraciətindən sonra, 1992-ci ilin noyabrın 21-də Naxçıvanda Yeni Azərbaycan Partiyasının yaranması üçün təsis konfransı keçirildi və Ulu Öndər partiyanın sədri vəzifəsinə seçildi. Yeni Azərbaycan Partiyası təsis edilərkən Ulu Öndər qeyd etmişdir – *"Partiyanın yaranma prosesini sona çatdıran 91-lərin mənə ünvanlanmış məktubudur. Mən bu 91 şəxsi çox yüksək qiymətləndirirəm, onların hamısına öz hörmət və ehtiramımı, xüsusi minnətdarlığımı və təşəkkürümü bildirirəm."* Bu gün bu nəşrdə mənə ayrılan imkandan istifadə edərək böyük məmnuniyyət və qürur hissi ilə qeyd etmək istərdim ki, Ümummilli Liderin Yeni Azərbaycan Partiyasının qızıl fondu adlandırdığı 91-lərdən biri mərhum atam BDU-nun sabiq professoru Adil Qasımovdur.

**Ömrünün qalan hissəsini xalqa bağışlayan, həyatını ona inanan xalqa qurban edən həqiqi lider**

1993-cü ilin iyununda AXC-Müsavat hakimiyyətinin apardığı siyasətlə Azərbaycanı böyük uçuruma, xaosa, hərc-mərcliyə, anarxiyaya yuvarlanmağı nail olmuş iqtidar Naxçıvana üz tutdular. Naxçıvan MR-in Ali Məclisinin Sədri Heydər Əliyevə Bakıya gəlməsi üçün dəfələrlə müraciət edərək, Naxçıvana təyyarə göndərdilər. Ulu Öndərin Bakıya gəlişini bütün respublika həyəcanla gözləyirdi. Nəhayət, 1993-cü ilin iyunun 15-də Heydər Əliyev Azərbaycan respublikasının Ali Sovetin sədri seçildi. Xalqın iradəsinin qələbəsi olan bu hadisə 15 iyun – Milli Qurtuluş Günü kimi yaddaşlara həkk olundu. Beləliklə, Azərbaycan xalqı öz taleyini təcrübəli, vətənini və xalqını sevən, onun arzu və istəkləri ilə yaşayan bir liderə – Heydər Əliyevə etibar etdi.

Ulu Öndər Heydər Əliyev özünün zəngin iqtisadi bilik və təcrübəsi əsasında Azərbaycanın yeni dövr üçün iqtisadi inkişaf prioritetlərini müəyyənləşdirdi, bu sahədə mövcud problemlərin həlli yollarını elmi-nəzəri və praktiki əsasda göstərdi. Demokratik inkişaf yolunu seçmiş bütün ölkələrdə olduğu kimi, Azərbaycanda da bazar iqtisadiyyatı prinsipləri – torpaq islahatı, xüsusi mülkiyyətçilik, azad sahibkarlıq fəaliyyəti, özəlləşdirmə, qeyri-neft sektorunun, sənayenin inkişafı və sosial infrastrukturun yeniləşdirilməsi prioritet seçildi. İqtisadi sahədə həyata keçirilən islahatların əsasında bazar iqtisadiyyatının formalaşdırılması yolu ilə ümumi daxili məhsul istehsalını artırmaq, qeyri-neft sektorunun sürətli inkişafını təmin etmək məqsədi dayanırdı.

Heydər Əliyev hakimiyyətdə olduğu illər ərzində cəmiyyətin vahidliyini təmin edərək, onun müxtəlif istiqamətlərdə – sosial bərabərsizlik, regional faktor, dini və milli mənsubiyyət amili baxımından parçalanmasına imkan vermədi.

Ulu Öndər çıxışlarında xüsusi vurğulayırdı ki, müasir dünyada qloballaşma proseslərinin nəticəsi kimi ortaya çıxan sivilizasiyalararası toqquşma və ziddiyyətlər hər bir xalqın milli-mənəvi dəyərlərinin qorunması məsələsini aktual problemlərdən birinə çevirib. Heydər Əliyevin Vətənə, xalqa, milli irs və ənənələrə bağlılığı bu təhdidlərin önündə əzəmətli sipərə çevrildi, bütövlükdə xalqın milli özünəməxsusluğunu qorudu. Bu dahi insan Azərbaycanın min

illərin sınağından çıxmış mədəniyyətinə, tarixinə, ənənəsinə həddən artıq bağlı olmaqla yanaşı, onların olduğu kimi xalqa qaytarılması üçün əlindən gələni əsirgəmədi.



Müasir milli dövlət quruldu. Dövlətin və millətin inkişafı baxımından bir sıra tarixi əhəmiyyət daşıyan məsələlər həll edildi. Azərbaycan dövləti 1994-cü il may ayının əvvəllərində NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramına qatıldı. Həmin ayda Ermənistan ilə Azərbaycan arasında atəşkəs elan edildi. Heydər Əliyev Azərbaycan xalqının və dövlətinin tərəqqisi və gələcəyi üçün yeni bir möhtəşəm addım atdı.

1994-cü il sentyabrın 20-də dünyanın bir sıra böyük ölkələrini təmsil edən transmilli şirkətlərlə "Əsrin müqaviləsi" imzalandı. Yeni neft strategiyası işlənib hazırlandı və reallaşdırıldı. Heydər Əliyevin bilavasitə iradəsi nəticəsində "Əsrin müqaviləsi" imzalanaraq həyata keçirilməyə başladı. O, bir-biri ilə didişən ölkələri Azərbaycanda əməkdaşlığa dəvət etdi, onları ortaq məxrəcə gətirdi. Ərazisinə kiçik, əhalisinin sayına görə az olmasına baxmayaraq, Azərbaycan özündən qat-qat böyük olan dövlətləri bir araya gətirdi. Azərbaycanın yeni neft strategiyasının hazırlanaraq həyata keçirilməsi də Ümummilli Lider Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısındakı ən böyük xidmətlərindən biridir. Yeni neft strategiyası ölkənin inkişafı, güclü dövlət qurulması, Azərbaycan xalqının daha yaxşı yaşayışını təmin etmək üçün açar oldu. "Əsrin müqaviləsi" Azərbaycanın bütün gələcək inkişafına ciddi təsir edən, ölkənin tərəqqisinin və müasirləşməsinin, vətəndaşın rifah halının yaxşılaşdırılmasına yönəlik siyasətin başlıca amillərindən biri oldu.

Heydər Əliyevin qətiyyəti özünü "Əsrin müqaviləsi" imzalandıqdan sonra baş verən dövlət çevrilişi cəhdlərinin qarşısının alınmasında aydın şəkildə göstərdi. 1994-cü ilin oktyabr və 1995-ci ilin mart aylarında baş verən dövlət çevrilişi cəhdləri məhz Heydər Əliyevin yenilməz qətiyyəti, siyasi bacarığı ilə iflasa uğradıldı. Azərbaycan xalqı qanuni hakimiyyəti müdafiə etdi. Bu çevrilişlərin qarşısının alınmasının Azərbaycan üçün tarixi və ibrətamiz bir tərəfi oldu. Heydər Əliyev göstərdi ki, Azərbaycan dövlət çevrilişləri üçün sınaq meydanı deyildir, Azərbaycanda güclü dövlət vardır. Bununla da silahlı yolla hakimiyyətə gəlmək kimi acı təcrübəyə son qoyuldu.

Çevrilişlərin qarşısının alınması digər bir mühüm məsələnin həllinə kömək etdi. Məlum olduğu kimi, Azərbaycanda sabitlik və sabaha ümidlər olmadığından xarici ölkələr və donor təşkilatlar Azərbaycana borc vermirdilər. Dövlət büdcəsində isə vəsait yox idi. Dövlət çevrilişlərinin qarşısı alındıqdan sonra Azərbaycana investisiya axını başladı.

1995-ci il noyabrın 12-də ümumi seçkilər yolu ilə Azərbaycan Respublikasının Konstitusiyası qəbul edildi və müstəqil Azərbaycan Respublikası parlamentinə seçkilər keçirildi. Dünyanın ən demokratik konstitusiyalarından biri olan ana qanunumuzda insan hüquq və azadlıqları ilə bağlı müddəalarla yanaşı, Azərbaycan xalqı və dövlətinin gələcəyi ilə bağlı olan fundamental məsələlər təsbit edildi. Xəzər dənizinin hüquqi statusunun müəyyənləşdirilməsi üstündə gedən mübahisələr dövründə ədalətə və artıq mövcud olan praktikaya dayanaraq Xəzərin Azərbaycan sektorunun ölkə ərazisi olmasının təsbit edilməsi və ölkə ərazisinin yalnız ümumxalq referendumu yolu ilə dəyişdirilməsinin mümkün olması Ermənistanın təcavüzünün davam etdiyi bir şəraitdə tarixi əhəmiyyət daşıyan bir addım idi. Bununla müstəqil Azərbaycan dövlətinin ilk Konstitusiyasının memarı olan Heydər Əliyev müstəqil Azərbaycan Respublikası dövlətinin gələcəyini müəyyənləşdirən bir dövlət xadimi oldu.

Milli iqtisadiyyatın yenidən, azad bazar iqtisadiyyatının tələblərinə uyğun qurulması üçün addımlar atıldı. Iqtisadiyyatda liberallaşma genişləndi. İslahatlara başlanıldı. Özəlləşdirmə həyata keçirildi. Azad bazar iqtisadiyyatına keçildi.

Sabitlik bərqərar edildikdən sonra ölkədə vətəndaş cəmiyyətinə keçid baş verdi. Ölkənin demokratikləşdirilməsi istiqamətində islahatlar aparıldı. Çoxpartiyalı sistemin əsasları möhkəmləndirildi. Vətəndaş cəmiyyəti, hüquqi dövlət quruculuğu sahəsində ciddi tədbirlər həyata keçirildi. Ölkədə ölüm hökmü ləğv edildi.

Azərbaycanın hərb sistemi quruldu. Ölkəni xarici təcavüzdən qorumağa qadir olan güclü ordu formalaşdırıldı. Ən başlıcası, Azərbaycanda təməlləri möhkəm olan, güclü dövlətçilik ənənəsinin, dərin dövlətin əsası qoyuldu.

Dövlətin beynəlxalq əlaqələri və xarici siyasəti sahəsində mühüm addımlar atıldı. Xarici siyasət ye-

nidən quruldu. Heydər Əliyev Azərbaycan Respublikası dövlətinin xarici siyasət strategiyasını müəyyənləşdirdi və reallaşdırmağa başladı. Azərbaycan dövləti tarazlaşdırılmış xarici siyasət xətti yürütməyə başladı. Azərbaycanın strateji müttəfiqləri, strateji tərəfdaşları, ortaqları, qonşuları dəqiqləşdirildi.

Müxtəlif neft boru kəmərləri işə salındı və ya təməli atıldı. Azərbaycanın xarici ölkələrdən enerji asılılığına son verildi. Bakı-Novorossiysk, Bakı-Supsa, Bakı-Tbilisi-Ceyhan neft boru, Bakı-Tbilisi-Ərzurum qaz kəmərləri layihələrinin əsası qoyuldu. Bu boru kəmərləri layihələri təkcə iqtisadi deyil, eyni zamanda Azərbaycan dövlətinin beynəlxalq mövqelərini möhkəmləndirən, müstəqilliyi gücləndirən, xalqın maddi rifah halının və mənəvi-psixoloji ruhunun yüksəlməsinə kömək edən layihələr oldu.

Heydər Əliyevin səyləri ilə Böyük İpək yolunun bərpası həyata keçirildi. Şərqlə Qərbi birləşdirən, təkcə iqtisadi-ticarət deyil, eyni zamanda böyük siyasi və strateji əhəmiyyət daşıyan TRASEKA proqramı reallaşdırıldı. Azərbaycan dünya ölkələrinin ticarətini əlaqələndirən qovşaq bir ölkə oldu. Azərbaycanı dünyanın mərkəzlərindən birinə çevirəcək Bakı-Tbilisi-Qars dəmir yolunun layihəsi ideyası və onun həyata keçirilməsi üçün hazırlıqlara başlanılması da müstəsna tarixi əhəmiyyət daşıyan hadisə idi.

Azərbaycanın beynəlxalq mövqeləri möhkəmləndi. Avropa ilə Asiyanın qovşağında yerləşən Azərbaycanın əhəmiyyəti artdı, Şərqlə Qərb arasında etibarlı körpü rolunu oynamağa başladı.

Ən əsası isə Heydər Əliyevin rəhbərliyi və yürütdüyü siyasət nəticəsində Azərbaycanın müstəqillik tarixində ilk dəfə sabitsizlikdən, anarxiyadan sabitliyə, qarışıqlıqdan demokratiyaya, ağır həyat şəraitindən firavan bir yaşayışa keçid baş verdi. Azərbaycan xalqının sabaha və özünə inamı artdı. Azərbaycan mədəniyyətinin inkişafı üçün yeni imkanlar yaradıldı. Dünya ölkələri ilə mədəniyyət sahəsində əlaqələr genişləndi.

Heydər Əliyev milli ideyaları milli ideologiya olaraq sistemləşdirdi və formalaşdırdı. O, bütün ölkə vətəndaşlarını birləşdirən azərbaycançılıq ideologiyasının əsaslarını işləyib hazırlayaraq uğurla həyata keçirdi.

### Vətəndaş məmnunluğu modelinin müəllifi

Tarixin istənilən mərhələsini, ictimai-siyasi hadisələri tədqiq edərkən ictimai prosesin iştirakçısı və yaradıcısı olan siyasi liderlərdən, dövrün böyük şəxsiyyətlərindən yan keçmək mümkün olmur. Lakin tarixin özünün də sərt tələbləri, şərtləri mövcuddur. Axı zaman keçdikcə hər bir liderə, şəxsiyyətə illərin yaddaşında yaşamaq nəsib olmur. Bu mənada tarixi şəxsiyyətə, siyasi xadimə, onun xidmətlərinə yaşadığı və fəaliyyət göstərdiyi zamandan uzaqlaşdıqca daha dərindən və tam aydınlığı ilə qiymət vermək mümkün olur. Xalqımızın yaxın keçmişini əhatə edən 1993-1995-ci illəri göz önünə gətirirəm. Ölkəmizdə cinayətkarlığa qarşı çox kəskin mübarizə gedirdi. Qanunsuz silahlı birləşmələr, cinayətkar bandalar zərərsizləşdikcə digərləri təşviş keçirir, belə bir günün, qanun qarşısında cavab verəcəkləri zamanın onlar üçün də olacağını yəqin edirdilər. Odur ki, hərəkətə gəlirdilər, birləşirdilər. Xarici düşmənlərimiz onlara dəstək verir, fəal hərəkətə keçməyə təhrik edirdilər. 1994 – 1995-ci illər xarici və daxili düşmənlərimiz birləşib, dövlətçiliyimiz üçün açıq təhlükə yaratdılar. Etiraf edək ki, bir çox insanlar yenidən həyəcan içindəydilər. Çünki hərbləşdirilmiş müxalifət çox güclü idi. Onlar açıq etiraf edirdilər ki, artıq Heydər Əliyev xalqı öz ətrafında elə sıx birləşdirib ki, demokratik yolla hakimiyyətə gəlmələri mümkünsüzdür. Odur ki, güc yolu ilə, silah yolu ilə hakimiyyəti ələ keçirmək istəyirdilər. Heydər Əliyevi fiziki cəhətdən aradan götürmək çağırışları səslənirdi. Belə bir məqamda Ümummilli Liderimiz xalqa, o cümlədən həmin terrorçulara üz tutdu: *“Terrorçular da, hamı da bilsin, məni heç bir şey qorxutmur, o cümlədən terror aktı. Mən Azərbaycan Respublikasının bu ağır dövründə bu yükü öz üzərimə götürmüşəm. Ona görə yox ki, bu vəzifə mənə lazımdır. Bəziləri buna can atırlar. Ona görə götürmüşəm ki, öz bacı-qardaşlarıma, doğma Vətənimə, doğma vətəndaşlarıma, torpağıma xidmət edim. Mən bütün bu təxribatçıların, terrorçuların qabağında durmuşam və duracağam. Əgər hansı bir namərd gülləsi, hansı bir terrorçu gülləsi məni həyatdan götürərsə, özüm də, övladlarım da müstəqil Azərbaycanın yaşaması yolunda qurban olmağa hazırıq”.*

Bu xalqın birlik nümayiş etdirməsində çox mühüm amil oldu. Həmin günlər prokurorluq orqanlarının əməkdaşları da dövlətçiliyimizin müdafiəsində fəallıq göstərdilər, qanunçuluğun qorunmasında birlik, peşəkarlıq nümayiş etdirdilər. Dövlətə, xalqa xəyanət mövqeyi tutanların cəzadan xilas ola bilməməsi üçün prokurorluq işçiləri öz vəzifələrini heç bir təhlükədən qorxmadan, çəkinmədən yerinə yetirirdilər. Bu cəsarət Heydər Əliyevdən gəlirdi. Burada bir haşiyəni mütləq xatırlatmaq yerinə düşərdi. Xalqımızın ən ağır vaxtlarında Ümummilli Liderin ətrafında sıx birləşərək şər qüvvələrlə amansızcasına və yüksək peşəkarlıqla mübarizə aparan prokurorluq işçiləri kimlər idi??? Çox uzağa getmədən bildirirəm - Ulu Öndərin uzaqgörənliklə hesablanmış təşəbbüsünün məhsulu olan hüquqşünaslar nəsli. Bəs bu necə baş verdi?

Ulu Öndərimiz Heydər Əliyev daim sosial ədalət, düzgünlük və humanizm prinsiplərinə sadiq qalaraq bu mənəvi-əxlaqi meyarların ictimai şüurda möhkəmlənməsinə çalışmış, ilk növbədə, cəmiyyət üçün layiqli kadrların hazırlanması məsələsinə xüsusi diqqətlə yanaşmışdır. 70-ci illərin əvvəllərində digər strateji sahələr üzrə istedadlı mütəxəssislərlə yanaşı,



Azərbaycan cəmiyyəti üçün peşəkar hüquqşünas kadrların hazırlanması məsələsi də Heydər Əliyevin xüsusi diqqət mərkəzində olmuşdur. Dahi şəxsiyyət yaxşı bilirdi ki, ölkədə iqtisadi cinayətkarlığa – rüşvətxorluğa və korrupsiyaya qarşı mübarizənin gücləndirilməsi, vətəndaşların hüquq və azadlıqlarının təminatı, cəmiyyətdə qanunçuluğun, hüquq qaydalarının möhkəmləndirilməsi üçün ilk növbədə Azərbaycan Dövlət Universitetində (hazırkı BDU) yüksək savada, mənəvi-əxlaqi keyfiyyətlərə malik, vətənpərvər ruhlu hüquqşünas kadrların hazırlanması məsələsinə xüsusi diqqət yetirilməlidir. Həmin illərdə Azərbaycanda sıravi, sadə, imkansız ailələrin övladlarının populyar ixtisaslara yiyələnməsi mümkün deyildi. Bu neqativ vəziyyət universitetin hüquq fakültəsinə qəbul prosesində özünü daha qabarıq göstərir, fakültəyə yalnız yüksək vəzifəli şəxs¬lərin övladları qəbul oluna bilirdilər. Ali məktəblərə qəbulun şəffaflığını təmin edən, bu sahədəki əyintilərin kökünü kəsmək niyyətini cəsarətlə, qətiyyətlə, addım-addım gerçəkləşdirən Heydər Əliyevin səyləri ilə universitetin hüquq fakültəsi istedadlı gənclərin üzünə açılmış, burada təhsilin səviyyəsi və nizam-intizamla yanaşı, hüquqşünas kadr hazırlığı işi də keyfiyyətcə yeni mərhələyə qədəm qoymuşdur.

Heydər Əliyev 2000-ci ilin 22 iyulunda – Milli Mətbuatın 125 illiyi ilə bağlı keçirilən yubiley tədbirində bu qərarının obyektiv zərurətdən irəli gəldiyini vurğulayaraq demişdir: *«...70-ci illərdə universitetin hüquq fakültəsinə hər il 50 nəfər qəbul olunurdu. Mən bir dəfə baxıb gördüm ki, bu hüquq fakültəsinə qəbul olunanların təqribən 95 faizi prokurorun, məhkəmə sədrinin, nazirin oğludur və sairə. Yaxşı, belə çıxır ki, atası prokuror, sonra da oğlu, nəvəsi prokuror olacaq. Bəs başqa ailələrdən olan istedadlı gənclər necə olsun? Bəzilərinin heç atası yoxdur, bəs, o, hüquq fakültəsinə necə daxil olsun? O vaxt o cümlədən, tarix və şərqşünaslıq fakültələri çox modda idi. Mən vəzifədə olan şəxslərin, xüsusən hüquq-mühafizə orqanlarında – milisdə, prokurorluqda və sairə çalışan şəxslərin uşaqlarının bu fakültələrə qəbul olunmasını qadağan etdim. Bu, cəmiyyətdə çox böyük əhval-ruhiyyə yaratdı. İndi mən prokurorluqda, polisdə çalışan bəzi işçilərlə görüşürəm. Onlar deyirlər ki, «Bilirsiniz, biz o vaxt Sizin sayənizdə hüquq fakültəsinə daxil ola bildik. Yoxsa bu fakültəyə girə bilməzdik, çünki biz kənddən gəlmişdik, kasıb adam idik, nə rüşvət verməyə pulumuz, nə də himayədarlıq etməyə adamımız var idi». Mən bütün bunları millətimizə görə etdim».*

Heydər Əliyevin Azərbaycan cəmiyyəti üçün peşəkar hüquqşünas kadrların hazırlanması modulu eyni zamanda məhz vətəndaş məmnunluğunun bariz nümunəsidir.

Bəli, bu gün qürur hissi ilə bildirirəm ki, məhz həmin hüquqşünas kadrlar sonradan prokurorluq və hüquq mühafizə orqanlarında peşəkarcasına çalışaraq xalqımızın ən ağır günlərində Heydər Əliyevin ətrafında sıx birləşərək üzərinə düşən vəzifələri vicdanla yerinə yetirdilər.

Məlumdur ki, ölüm hökmünün ləğvi Avropa Şurasının üzv dövlətlər qarşısında müəyyənləşdirdiyi əsas tələblərdən biridir. Yaradılışın ali varlığı, əşrəfi sayılan insanın hər hansı səbəbdən edam edilməsi humanizm və insanpərvərlik prinsipləri baxımından qəbul olunmur. Ölüm hökmünün tətbiqi cinayət törətmiş məhkumun tərbiyə və islah olunaraq sağlam cəmiyyətə qovuşması baxımından yolverilməz sayılır. Bu gün əksər Avropa ölkələrində, o cümlədən ABŞ-ın ondan çox ştatında ölüm cəzası tətbiq edilmir.

*"Ölüm hökmünün ləğv olunması hansısa bir cinayətkara rəhm etmək məqsədi daşımır. O, ümumbəşəri, ümumxalq əhəmiyyətinə malik bir məsələdir. Ölüm hökmünün ləğv olunması onu göstərir ki, respublikamız, müstəqil Azərbaycan dövləti humanist siyasət aparan bir dövlətdir".*

***Heydər Əliyev***

Azərbaycanda ölüm hökmü tam ləğv olunmazdan əvvəl cəmiyyətdə geniş ictimai müzakirəyə çıxarılmış, Avropa Şurası ilə geniş məsləhətləşmələr aparılmışdır. Ulu Öndər 1998-ci il fevralın 3-də Milli Məclisə ölüm hökmünün ləğvi ilə bağlı müraciətində cinayət-hüquq siyasətini hərtərəfli təhlil edərək ədalət, azadlıq, humanizm və insanpərvərlik kimi yüksək idealları rəhbər tutmaqla ölkədə ölüm cəzasının ləğv edilməsi qənaətinə gəldiyini bildirmiş və bu tarixi bəyanatın zəruriliyini əsaslandırmışdır. Gərgin müzakirələrdən sonra Milli Məclis ölüm hökmünün ləğvi ilə bağlı ölkə Prezidentinin təklifini dəstəkləmiş,

10 fevral 1998-ci ildə belə bir tarixi qərar qəbul etmişdir.

1998-ci ilin fevralında Azərbaycanda ölüm hökmünün ləğv olunması ilə bağlı Heydər Əliyevin müvafiq müraciətində qeyd olunurdu: *“Mən cinayət hüquq siyasətini hərtərəfli təhlil edərək, ədalət, azadlıq, humanizm və insanpərvərlik kimi yüksək ideallara sadiq qalaraq ölkəmizdə ölüm cəzasının ləğv edilməsi qənaətinə gəlib bu bəyanatı vermişəm”.*

1998-ci il fevralın 10-da ölkəmizdə ölüm hökmü rəsmən ləğv edildi. Azərbaycan MDB məkanında və müsəlman dünyasında bu tarixi qərarı qəbul edən ilk dövlət idi. O vaxt hətta Avropa Şurasının üzvü olan bir çox ölkələr analoji addım atmamışdı. 1998-ci ildə Şərqdə ilk dəfə olaraq ölkəmizdə ölüm hökmü ləğv olundu. Bu gün dünyanın bir çox qabaqcıl ölkələrində belə ölüm cəzasının hələ də ləğv olunmadığını və mütəmadi olaraq tətbiq edildiyini nəzərə alsaq, Ulu Öndərin bu addımının nə dərəcədə böyük hüquqi, tarixi dəyərini dərk etmiş olarıq. Ulu Öndərin 4 may 1995-ci il tarixli fərmanı ilə əfvetmə institutunun bərpası və Prezident yanında Əfv komissiyasının yaradılması, 1995-ci ildən ölüm hökmü cəzası üzərində moratoriumun qoyulması, 1998-ci ilin 10 fevralında isə bu cəzanın tam ləğv edilməsi deyilənləri bir daha təsdiqləyir. Şəffaf və demokratik əsasda fəaliyyət göstərən komissiyada ictimaiyyətin müxtəlif təbəqələrinin təmsilçiliyinə lazımi şərait yaradılmış, əfv fərmanlarının imzalanması və məhkumların bağışlanması müsbət ənənəyə çevrilmişdir.

1995 – 2003-cü illərdə Ümummilli Lider Heydər Əliyev tərəfindən 32 əfv fərmanı imzalanmış, bu fərmanlar 3104 məhkuma şamil edilmişdir. Azərbaycan Respublikası Prezidentinin qanunvericilik təşəbbüsü əsasında Milli Məclisdə 1996 – 2003-cü illərdə 8 amnistiya haqqında qanun qəbul olunmuş, 21325 məhkum azadlığa buraxılmış, bu amnistiya aktları 77 mindən artıq məhkuma şamil edilmişdir. Bəzi iddiaların əksinə olaraq, bu humanist addımlar ciddi tərbiyəvi əhəmiyyət daşımış, ölkədə cinayətkarlığın səviyyəsinin daha da azalmasını təmin etmişdir. Atılan bu addımlar dövlətin siyasətində insan amilinə nə qədər yüksək dəyər verildiyini nümayiş etdirir. Bu addimlar eyni zamanda vətəndaş məmnunluğunun bariz nümunəsidir. Ona görə ki, bu humanist addımı ilə Ulu Öndər minlərlə insanı islah olunaraq ailəsinə qovuşdurmağa birbaşa imza etmişdir.

Demokratiyanın digər mühüm amili kimi söz, mətbuat azadlığının inkişafı istiqamətində də Ulu Öndər Heydər Əliyevin atdığı addımlar daim təqdir olunur. Ulu Öndər Heydər Əliyev bildirmişdir: *“Bunu dəfələrlə demişəm. Azərbaycanın müstəqilliyi dönməzdir. Azərbaycanda verilmiş bütün bu azadlıqların hamısı dönməzdir. Azərbaycanda mətbuat, fikir azadlığı dönməzdir – burada heç bir şey ola bilməz, heç kəs də bundan narahat olmasın”* fikri bu sahəyə diqqət və qayğısının bariz nümunəsidir. Ulu Öndər Heydər



Əliyevin 6 avqust 1998-ci il tarixli fərmanı ilə senzuranın ləğv olunması ölkədə müstəqil mətbuatın inkişafı üçün geniş imkanlar yaratdı. Müstəqilliyimizin ilk illərində digər sahələr kimi, mətbuatda da mövcud problemlər hər kəsə bəllidir. 1993-cü ildə Ulu Öndər Heydər Əliyevin xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdışı düçar olduğumuz informasiya blokadasının aradan qaldırılması istiqamətində önəmli addımların atılmasını şərtləndirdi.

Dahi şəxsiyyət Heydər Əliyev müstəqil mətbuatın inkişaf etdirilməsini Azərbaycan həqiqətlərinin dünya ictimaiyyətinə çatdırılması baxımından xüsusi əhəmiyyət kəsb etdiyini önə çəkərək, bu yönümdə mühüm islahatların həyata keçirilməsinə səy göstərdi. *“Biz senzuranı ləğv etdik. Konstitusiya ilə təsbit olunmuş söz azadlığını, mətbuat azadlığını tamamilə təmin etdik, mətbuata yeni imkanlar yaratdıq. Mətbuat Azərbaycanda həqiqətən çox sərbəstdir, azaddır. Bu da o deməkdir ki, söz azaddır, fikir azaddır”* söyləyən Ümummilli Lider Heydər Əliyevin azad mətbuatın inkişafına diqqət və qayğısı davamlılığı ilə diqqət çəkirdi. Hər sahədə liderliyini qoruyan Azərbaycan MDB məkanında senzuranın ləğvini irəli sürən ilk ölkədir. Ulu Öndər söz və mətbuat azadlığı sahəsində məhdudiyyətlərin aradan qaldırılmasını təmin etməklə cəmiyyətdə qarşılıqlı anlaşmanın, səmimiyyətin dərinləşməsini, insanların öz fikir və mülahizələrini azad, maneəsiz çatdırma imkanlarının genişləndirilməsini başlıca məqsəd kimi qarşıya qoyurdu.

Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə hazırlanaraq 1995-ci ildə qəbul olunmuş müstəqil Azərbaycanın ilk Konstitusiyasında Azərbaycan vətəndaşlarına layiqli həyat səviyyəsinin təmin edilməsi dövlətin ali məqsədi kimi və Azərbaycan dövlətinin xalqın və hər bir vətəndaşın rifahının yüksəldilməsi, onun sosial müdafiəsi və layiqli həyat səviyyəsinin qayğısına qaldığı ən

yüksək səviyyədə bəyan edildi. Bu da dahi şəxsiyyət Heydər Əliyevin sosial dövlət ideyasının Əsas Qanun səviyyəsində təsbit edilməklə, bu ideyanın dövlətin inkişafında aparıcı amil kimi müəyyən edilməsini şərtləndirdi.

"Biz sosial cəhətdən köməyə ehtiyacı olan insanların sosial təminatını gündən-günə yaxşılaşdırmağa çalışmalıyıq", deyə qeyd edən Ulu Öndərin təşəbbüsü və tapşırığı əsasında sosial cəhətdən həssas qruplarla bağlı sosial müdafiə tədbirlərinin əhatə dairəsi yeni sosial təminat və reabilitasiya məqsədli proqramlara başlanılmaqla xeyli genişləndirildi.

Qısa zaman ərzində respublikada nəinki sosial sabitliyə nail olundu, eyni zamanda, 1990-cı illərdə şəhid ailələrinin və müharibə ilə əlaqədar əlilliyi olan vətəndaşların dövlət hesabına mənzillərlə, fiziki məhdudiyyətli insanların qabiliyyət və istedadlarının tanıdılması üçün ümumrespublika tədbirlərin təşkili işlərinə başlanılmaqla, bu işlər ildən-ilə gücləndirildi.

Müasir müstəqil Azərbaycan dövlətinin qurulmasını və uzunmüddətli inkişaf yoluna çıxmasını, milli iqtisadiyyatın sağlam əsaslar üzərində dirçəlməsini və tərəqqisini təmin edən Ulu Öndər Heydər Əliyevin sosial sahəyə xüsusi qayğısı nəticəsində elə həmin vaxtlarda əhalinin sosial müdafiəsinin gücləndirilməsi istiqamətində mühüm tədbirlər görüldü. 1993 – 2003-cü illərdə sosial inkişafın təmin olunması, əhalinin rifah halının yüksəldilməsi üçün Ulu Öndər Heydər Əliyev tərəfindən 60-dan artıq sənəd imzalanıb. Bu sənədlər ölkədə sosial müdafiənin gücləndirilməsində, həssas əhali qruplarına dövlət qayğısının artırılmasında mühüm irəliləyişləri, sosial müdafiə tədbirlərinin, sosial ödənişlərin əhatə dairəsinin əhəmiyyətli dərəcədə genişləndirilməsini təmin edib. Ümumilikdə 1995 – 2003-cü illər ərzində respublikamızda pensiya və müavinətlərin orta aylıq məbləğində 8 dəfə, orta aylıq əməkhaqqında 6 dəfədən çox artım baş verib.

Eyni zamanda Ulu Öndərin tapşırıqları əsasında əmək, məşğulluq, sosial müdafiə sahəsində milli qanunvericilik bazasının yaradılması və ildən-ilə təkmilləşdirilməsi işləri aparılıb. MDB məkanında ilk dəfə Azərbaycanda yeni sosial-iqtisadi şəraitə uyğun Əmək Məcəlləsi, məşğulluq və əmək miqrasiyası haqqında qanunlar, əlilliyin qarşısının alınması və reabilitasiyası üzrə ilk dövlət proqramı, ölkənin Demoqrafik İnkişaf Konsepsiyası qəbul edilib. Eləcə də əmək qanunvericiliyinə əməl olunmasına dövlət nəzarətini həyata keçirən əmək müfəttişliyi sistemi qurulub, Pensiya İslahatı Konsepsiyası ilə mütərəqqi dünya təcrübəsinə uyğun sığorta-pensiya sisteminin yaradılmasının əsası qoyulub. 20 fevral 2003-cü ildə qəbul edilmiş "2003-2005-ci illər üçün Azərbaycan Respublikasında yoxsulluğun azaldılması və iqtisadi inkişaf üzrə Dövlət Proqramı" ölkədə yoxsulluqla mübarizədə əhəmiyyətli nəticələrə nail olunmasına imkan verib.

13 iyun 1997-ci il tarixdə Milli Məclis tərəfindən qəbul olunmuş "Vətəndaşların pensiya təminatı haqqında" Azərbaycan Respublikası Qanununa dəyişiklik və əlavələr edilməsi barədə" qanun pensiya sistemində həmin dövr üçün zəruri hesab edilən bir sıra islahatlara yol açdı. Belə ki, pensiya yaşı mərhələlərlə kişilər üçün 60 yaşdan 62-yə, qadınlar üçün 55 yaşdan 57 yaşa çatdırıldı. Eyni zamanda pensiyaların hesablanması sistemində müəyyən dəyişikliklər edildi. Nəticədə 650 min vətəndaşın pensiyası orta hesabla 2,1 dəfə artırılaraq 1993-cü ildən sonra pensiyaya çıxmış vətəndaşların pensiyalarına bərabərləşdirildi.

*"Dövlət həm şəhid ailələrinə, həm də şəhidlərin balalarına daim qayğı göstərib və qayğı göstərəcəkdir"* deyə bəyan edən Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü və tapşırığı ilə hələ ötən əsrin 90-cı illərində mühüm sosial müdafiə proqramlarına – şəhid ailələri və müharibə ilə əlaqədar əlilliyi olanların mənzillə, müharibə ilə əlaqədar əlilliyi olanların avtomobillə təminatı proqramlarının icrasına başlanıb. Bu tədbirlərin bir qismində şəxsən iştirak edən Ulu Öndər Vətənin müdafiəsində olmuş insanların, şəhid ailələrinin daim dövlətin qayğısı altında olacaqlarını bəyan edib. Həmçinin Ümummilli Lider Heydər Əliyevin




diqqət və qayğısı ilə ölkəmizdə çoxsaylı yeni sosial obyektlər açılıb, əlilliyi olan şəxslərin tibbi-sosial reabilitasiyası üçün reabilitasiya infrastrukturu təkmilləşdirilib və onun şəbəkəsinin genişləndirilməsi işləri aparılıb, əlilliyi olan şəxslərin qabiliyyət və istedadlarının dəstəklənməsi və cəmiyyətə tanıdılması məqsədilə ümumrespublika tədbirlərinin təşkilinə başlanılıb.

Heydər Əliyevin vətəndaş məmnunluğu istiqamətində sosial siyasətinin inkişaf tarixinə diqqət etsək,

ölkə iqtisadiyyatının tənəzzüldən çıxmasından, daxili sabitliyin təmin edilməsindən sonra sosial sahədə əhəmiyyətli addımlar atılmışdır. Müxtəlif kateqoriyalı şəxslərin, daha doğrusu əhalinin həssas qruplarının, xüsusən günümüz və hər birimiz üçün prioritet olan I və II Qarabağ müharibəsi iştirakçıları, şəhid ailələri, qazilərin sosial müdafiəsi üzrə müxtəlif qanunlar – "Şəhid adının əbədiləşdirilməsi və şəhid ailələrinə edilən güzəştlər haqqında", "Çernobıl qəzasının ləğvində iştirak etmiş və həmin qəza nəticəsində zərər çəkmiş vətəndaşların statusu və sosial müdafiəsi haqqında", "Veteranlar haqqında" və digər qanunlar qəbul edildi, şəhid ailələrinin, qaçqınların, məcburi köçkünlərin, müharibə və 20 Yanvar əlillərinin, veteranların sosial təminatının yaxşılaşdırılması istiqamətində çoxsaylı fərman və sərəncamlar imzalandı.

XX əsr Azərbaycanın ən ağrılı problemi qaçqın və məcburi köçkünlərin sosial müdafiəsi də hər zaman Ulu Öndərin diqqət mərkəzində olan bir məsələ olub. Azərbaycan xalqının üzləşdiyi ən faciəli hadisələrdən biri olan qaçqın və məcburi köçkünlərin problemi Ümummilli Lider Heydər Əliyevin çoxşaxəli siyasi və dövlətçilik fəaliyyətində həmişə diqqət mərkəzində saxladığı məsələlərdən biridir. Onun rəhbərliyi altında Azərbaycanda qaçqın və məcbur köçkünlərin problemlərinin həlli üçün beynəlxalq normalara uyğun möhkəm hüquqi baza yaradılıb, bu məsələ ilə bağlı ölkə prezidenti 25 fərman və sərəncam imzalanıb, Milli Məclis 13 qanun qəbul edib, Nazirlər Kabineti 152 qərar və sərəncam qəbul edilmişdir.

**Cənab İlham Əliyevin prezident kimi fəaliyyəti Ulu Öndər Heydər Əliyev kursunun yaşaması, davamı və inkişafıdır!**

Ümummilli Lider Heydər Əliyev Azərbaycan xalqına müraciətində cənab İlham Əliyevi özünün siyasi varisi olduğunu bəyan edərək demişdir: *"İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".* Müraciətdən ötən illər bir daha təsdiq etdi ki, böyük öndər nə qədər haqlı imiş. Qədirbilən xalqımız 2003-cü ildən etibarən öz seçimi ilə bir daha Heydər Əliyev kursunun yaşamasına, davam etməsinə səs verdi. Bu mənada cənab İlham Əliyevin siyasi kursuna Heydər Əliyev kursunun yaşaması və davamı kimi baxmaq lazımdır. Heydər Əliyev və İlham Əliyev dövlət quruculuğunun mahiyyətinə, onlar arasındakı səbəbli əlaqəyə diqqət yetirsək görərik ki, Ümummilli Lider tərəfindən uzaqgörənliklə, mükəmməl şəkildə müəyyən edilmiş strategiya cənab İlham Əliyev tərəfindən bir o qədər dəqiqliklə, xalqımızın və dövlətimizin mənafeyi nəzərə alınmaqla həyata keçirilmişdir. Bununla yanaşı cənab İlham Əliyevin dövlət quruculuğu modeli özünəməxsus ştrixlərlə də diqqəti cəlb edir. Ulu Öndərin irimiqyaslı neft qaz layihələrinin gerçəkləşməsi və bu istiqamətdə ölkəmizə külli miqdarda maliyyə vəsaitlərinin daxil olması Heydər Əliyev tərəfindən başlanan islahatların, o cümlədən sosial islahatların daha da gücləndirilməsi, infrastrukturanın yeniləşdirilməsi üçün şərait yaratdı.

Cənab Prezident İlham Əliyevin Heydər Əliyev siyasətə əsaslanan, 2003-cü ildən davam edən fəaliyyəti nəticəsində Azərbaycan regionun, dünyanın inkişaf edən, nüfuzlu ölkələri sırasına qoşulub, siyasi, hərbi, iqtisadi, sosial, mədəniyyət, humanitar və digər sahələrdə həm ölkə daxilində, həm də xaricində mühüm nailiyyətlər əldə olunub. Təbii ki, həyata keçirilən bütün bu çoxşaxəli siyasətin mərkəzində Azərbaycan vətəndaşı və onun sosial rifahı, vətəndaş hüquq və azadlıqlarının təmini üçün yaradılan şərait, Azərbaycan vətəndaşlarının təhlükəsizliyinin təmin olunması və bütün bunlar üçün də ən vacib amil olan Azərbaycandakı mövcud ictimai-siyasi sabitlik dayanır. Cənab Prezidentin son illərdəki fəaliyyəti nəticəsində isə



Azərbaycanda vətəndaş məmnunluğu ən yüksək həddə çatıb. Bu illər ərzində həyata keçirilən planlı, məqsədyönlü, ardıcıl, davamlı və dayanıqlı islahatların ümumi nəticəsi bu gün özünü Azərbaycan insanının, vətəndaşının həyatında aydın şəkildə özünü göstərməkdədir.

Cənab İlham Əliyevin sosial siyasətində ilk növbədə problemləri yaradan səbəbləri aradan qaldırmaq üçün tədbirlər həyata keçirilir, müvafiq dövlət proqramları qəbul olunur. Problemlərə bu cür kompleks yanaşma, onları doğuran səbəblərin aradan qaldırılması mümkün neqativ nəticələrin baş verməsinin də qarşısını alır. Azərbaycan Respublikasında əhalinin ekoloji tələblərə cavab verən keyfiyyətli içməli su ilə təminatının yaxşılaşdırılması istiqamətində dövlət tərəfindən keçirilmiş bir sıra tədbirlər nəticəsində onlarca yaşayış

məntəqələrində modul tipli sutəmizləyici qurğular quraşdırılmışdır ki, bu da insanların sağlamlığının qorunmasına, eləcə də böyrək çatışmazlığı xəstəliklərinin baş verməsinin azaldılmasına imkan verəcəkdir.

Cənab İlham Əliyevin dövlət quruculuğu modernləşən və bir çox özəlliklərinə görə fərqli dövlət quruculuğu modelidir. Bu modeldə əsas istiqamət nəticəyə deyil, səbəbin aradan qaldırılmasına yönəlir. Əhalinin sağlamlığının qorunması, həm birbaşa, həm də dolayı vasitələrlə sosial müdafiənin gücləndirilməsi, yoxsulluğun tamamilə aradan qaldırılması, bu məqsədlə kiçik sahibkarlığa geniş vüsət verilməsi fəaliyyət prioritetlərindəndir.

İlham Əliyev müasir dünyagörüşünə malik olan islahatçı, yenilikçi və təşəbbüskar liderdir. O, mütəmadi olaraq Azərbaycanda idarəetmə mexanizminin, ictimai həmrəyliyin güclənməsi, insana, vətəndaşa və xalqa xidmətin yeni çağırışlar – müasir trendlər əsasında təkmilləşməsi, cəmiyyətin intibahı üçün çox mühüm təşəbbüslər irəli sürür, yeni standartlar müəyyənləşdirir. Məram isə aydındır: insanların rahatlığının təmin olunması. Bu isə vətəndaş məmnunluğunun yüksəldilməsi deməkdir.




Azərbaycan Prezidentinin güclü dövlət konsepsiyasının əsas prinsiplərindən biri siyasi təkamüldür. Siyasi təkamülə nail olmaq üçün isə yenilənən islahat kursu ilə yeniləşmək, ictimai münasibətlərdə keyfiyyət dəyişikliklərinə nail olmaq, idarəetmə standartlarını yüksəltmək və digər innovativ metodlardan istifadə etmək lazımdır.

İslahat – reforma təkcə formanı deyil, həm də mahiyyəti dəyişməklə, keyfiyyətcə yeni dəyişikliklərə nail olmaqla təkamülü, tərəqqini təmin etmək vasitəsidir. Prezident İlham Əliyevin islahatlar kursu da bu reallığı ifadə edir. İslahatların önəmli bir hissəsi ictimai xidmətlər sektorunu, şəffaflığın artırılmasını, İKT texnologiyalarının tətbiqi sahələrinin genişləndirilməsini, vətəndaş-məmur təmaslarının minimuma endirilməsini və bu kimi digər mühüm istiqamətləri əhatə edir. Paralel olaraq müxtəlif mərkəzlərin istifadəyə verilməsi ictimai nəzarətin mühüm mexanizmlərindən biri olan vətəndaş müraciətlərinə daha operativ baxılmasına şərait yaradır. Prezident Administrasiyasının Vətəndaş Qəbulu Mərkəzinin açılması da bu baxımdan xüsusi qeyd edilməlidir. Vətəndaş məmnunluğunun təmin edilməsi, dövlət qulluqçusu-vətəndaş münasibətlərinin keyfiyyətcə daha yüksək pilləyə qaldırılması, vətəndaşların qəbulunda şəffaflığın artırılması məqsədilə yaradılan Mərkəzdə bu işin təşkili üçün hər cür şərait var.

"ASAN xidmət" mərkəzlərinin şəbəkəsinin genişləndirilməsi də vətəndaş məmnunluğunun yüksəldilməsi üçün önəmli və faydalıdır. Bu təsisat dövlət orqanları tərəfindən əhaliyə bütün xidmətlərin vahid məkandan, daha keyfiyyətli, rahat həyata keçirilməsi məqsədi ilə yaradılıb. Amma bu qurumun missiyası funksiyasından daha genişdir. Çünki "ASAN xidmət" təkcə vətəndaşa hüquqi prosedurlar vasitəsilə xidmət göstərilməsi funksiyası ilə çıxış etmir. Təsisatın fəaliyyətinin sosial-mənəvi məzmunu, mahiyyəti ictimai münasibətlərdə tamamilə yeni fəlsəfənin tətbiq edilməsidir. İctimai xidmətlər sahəsində inqilabi dəyişikliklər baş verib. Mərkəzlər yaradılanda əsas niyyət insanlar üçün asan, rahat və şəffaf xidmət təşkil etmək olub. Görünən odur ki, sosial inqilab və ictimai intibah xarakteri daşıyan bu təşəbbüs real nəticəsini verib və hədəfə çatmaq mümkün olub. Vətəndaşların xidmətdən razı qalmaq dərəcəsi 99 faizdən çoxdur. Bu, olduqca yüksək göstərici – ideal səviyyədir, yaxud idealın reallığa çevrilməsidir.

Reallıq isə budur ki, İlham Əliyevin siyasəti vətəndaş məmnunluğunun artması ilə müşayiət olunur. Bu, dövlət başçısının "Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır" tezisinin əyani-əməli ifadəsidir. Vətəndaş fərdi, cəmiyyət isə ictimai anlam daşıyır. Dolayısılə, siyasətin mərkəzində dayanan vətəndaşın rifahının yüksəldilməsi, mənafeyinin təmin olunması milli dövlətçilik məsələsidir. Bu, bürokratik maneələri və stereotipləri də istisna edir, dövlət-vətəndaş ahəngdarlığını yaradır, dövlətçiliyin ictimai dayaqlarını möhkəmləndirir. Nəticə isə vətəndaş məmnunluğudur!

**Rəşad Qasımov**
**Baş Prokurorluğun Elm-Tədris Mərkəzinin**
**Elmi-tədqiqat işinin təşkili şöbəsinin**
**prokuroru, ədliyyə müşaviri**



# Azərbaycan dövlətçiliyinin formalaşmasında və möhkəmlənməsində Heydər Əliyevin rolu

**Heydər Əliyev öz xalqını zamanın mürəkkəb tarixi-siyasi sınaqlarından uğurla çıxarmış və ardıcıl mübarizə apararaq onu müstəqilliyə qovuşdurmuş qüdrətli şəxsiyyətdir. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Davamlı yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir.**

Bu gün məhz Ulu Öndər tərəfindən həyata keçirilən məqsədyönlü və uzaqgörən siyasət tədbirləri sayəsində Azərbaycan Respublikası inkişaf etmiş dünya dövlətləri sırasında öz xüsusi yeri olan bir dövlətə çevrilmiş, mütərəqqi və beynəlxalq standartlara uyğun islahatlar nəticəsində demokratik, hüquqi və sivil bir dövlət yaradılmış, ictimai-siyasi sabitliyə və tam əmin-amanlığa nail olunmaqla qanunun aliliyinə təminat verən vətəndaş cəmiyyəti formalaşdırılmışdır.

Doğma xalqına və millətinə təmənnasız xidməti həyatının mənası və amalı kimi qəbul edən, bu yolda mümkün olan bütün addımları atan Heydər Əliyev siyasi hakimiyyətdə olduğu bütün dövrlərdə müstəqil Azərbaycan dövlətçiliyinin formalaşdırılması və daha da möhkəmləndirilməsi uğrunda mübarizə meydanında olmuş və millətinə rəhbərlik etmişdir. Bu yolda çox böyük maneələrlə rastlaşmasına baxmayaraq, Heydər Əliyev öz siyasi müdrikliyi, polad iradəsi və qətiyyəti, ən əsası – xalqının dəstəyi nəticəsində doğma Azərbaycanı bugünkü və gələcək nəsillər üçün qoruyub saxlamış və müstəqil inkişaf yoluna çıxarmışdır.

Heydər Əliyev bütün baryerləri məharətlə aşaraq, ciddi maneələri uğurla dəf edərək, hakimiyyətə gəldiyi ilk günlərdən ictimai şüurdakı tərəddüdün aradan qaldırılması, milli-mənəvi dəyərlərin bərpası və qorunması, vahid ideologiyanın yaranması, bununla da Azərbaycan xalqının sıx birləşməsi üçün müstəsna əhəmiyyətli işlər görməyə başladı. Ulu Öndər “ideya, ideologiya və təbliğat” universal üçlük formulasından çox məharətlə istifadə etməyi bacarırdı. O, müdrik ideyaları verir, onların vahid ideologiyaya çevrilməsini və həmin ideologiyanın xalq tərəfindən mənimsənilməsini təmin edirdi. Milli birliyimizi təmin edən universal formula olan azərbaycançılıq ideologiyasının müəllifi, təbliğatçısı və idarəedicisi də məhz, Ümummilli Lider Heydər Əliyev olmuşdur. Əslində, bir xalqın vahid ideologiya ətrafında səfərbər olunması üçün xeyli zaman tələb olunduğu halda Ulu Öndər özünə xas xüsusi çevik üsul və metodlarla bu prosesin elə sürətlə həyata keçirilməsinə nail oldu ki, qısa müddətdə azərbaycançılıq ideologiyası xalqın əsas milli-siyasi ideologiyasına çevrildi.

Ümummilli Liderimiz Heydər Əliyevin rəhbərliyi dövründə onun dövlət idarəçiliyində təkrarsız məharəti, yüksək siyasi təşəbbüskarlığı, səy, qətiyyət və yorulmaz fəaliyyəti nəticəsində Azərbaycan qabaqcıl ölkələr cərgəsində olan müasir sənaye ölkəsinə çevrilmişdir. Haqlı olaraq, Azərbaycanın bir intibah dövrü kimi xarakterizə edilən həmin illərdə ölkədə ictimai-mədəni və digər sahələrdə qazanılan böyük uğurlarla yanaşı, əhalinin keyfiyyətli sosial müdafiəsi, böyük sayda işçi tutumuna malik yüzlərlə müəssisənin yaradılması, məşğul əhalinin sayının dəfələrlə artırılması, əmək potensialının keyfiyyətcə yüksəldilməsi təmin edilmiş, digər tərəfdən əmək haqlarında mütəmadi artım əhalinin rifah səviyyəsinin yüksəlməsinə imkan vermişdir.

Heydər Əliyevin rəhbərliyi altında həyata keçirilən dövlətçilik siyasətinin aparıcı və əsas istiqamətlərindən olan demokratik, hüquqi və dünyəvi dövlət quruculuğu yolunda görülən tədbirlər və milli dövlətçilik ənənələrinə və beynəlxalq standartlara əsaslanan köklü hüquq islahatları nəticəsində demokratiyanın, insan hüquq və azadlıqlarının bərqərar olması üçün əsaslı zəmin yaradılmışdır.

Məhz Ulu Öndərin gərgin və məqsədyönlü fəaliyyəti nəticəsində Respublikamızda cinayətkarlıq və hüquq pozuntularına qarşı barışmaz mübarizə elan edilmiş, bütün hüquq mühafizə orqanlarının fəaliyyəti cinayətkar təzahürlərə, ilk növbədə, mütəşəkkil cinayətkarlığa, korrupsiya və rüşvətxorluğa, terrorizmə, narkotik vasitələrin qanunsuz dövriyyəsinə qarşı mübarizəyə səfərbər olunmuş və “qanunun aliliyi” prinsipinin real təmin olunması üçün müvafiq tədbirlər görülmüşdür.

“Ədaləti ədalətsizliklə bərpa etmək olmaz” deyərək ictimai həyatın ən müxtəlif sahələrində haqq-ədalət

prinsipinin qorunmasına çalışan, bunu idarəçiliyin başlıca formuluna çevirən Heydər Əliyev dühası yalnız bu yolla dövlətlə xalq arasında möhkəm mənəvi, siyasi və hüquqi bağlantıya, qarşılıqlı etimada nail olmağı mümkün hesab etmişdir.

Xüsusi qeyd edilməlidir ki, insan hüquq və azadlıqlarının hərtərəfli müdafiəsi, humanizm və sosial ədalət prinsiplərinin möhkəmləndirilməsi hakimiyyətdə olduğu bütün dövrlərdə Heydər Əliyevin dövlətçilik siyasətinin mahiyyətini təşkil edən əsas vəzifə olmuşdur. Heydər Əliyevin təşəbbüsü ilə Şərqdə ilk dəfə olaraq məhz Azərbaycanda ölüm cəzası ləğv edilmiş, Azərbaycan dövlətinin insan hüquq və azadlıqları sahəsində çoxsaylı beynəlxalq konvensiya və sazişlərə qoşulması, ölkəmizin dünyaya və Avropaya inteqrasiyası proseslərinin sürətləndirilməsi təmin olunmuşdur.

Bununla yanaşı, görülən böyük işlər sırasında Ulu Öndərin 21 fevral 1996-cı il tarixli Sərəncamı ilə yaradılmış Hüquq İslahatları Komissiyasının fəaliyyətini xüsusi vurğulamaq lazımdır. Həmin Sərəncamlara əsasən beynəlxalq standartlara uyğun “Azərbaycan Respublikasında insan hüquq və azadlıqlarının həyata keçirilməsinin tənzimlənməsi haqqında”, “Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (Ombudsman) haqqında” Konstitusiya qanunları, Cinayət, Cinayət-Prosessual, Mülki, Mülki-Prosessual İnzibati Xətalar, Cəzaların İcrası, Əmək və digər məcəllələrin, həmçinin «Konstitusiya Məhkəməsi haqqında», «Prokurorluq haqqında», «Məhkəmə və hakimlər haqqında», «Polis haqqında», «Vəkillər və vəkillik fəaliyyəti haqqında» və sair qanunların qəbul edilməsi insan hüquqlarının təminatının hüquqi bazası olmaqla ölkəmizdə insan hüquq və azadlıqlarının qorunmasına necə böyük əhəmiyyət verilməsinin əyani təsdiqi olmuşdur.



Müstəqil Azərbaycan Respublikasının mühüm dövlət təsisatlarından biri olan milli prokurorluğun bugünkü vəziyyətdə mövcudluğuna və formalaşmasına görə prokurorluq əməkdaşları, ilk növbədə, Ulu Öndər Heydər Əliyevin şəxsiyyətinə borcludur. Çünki, prokurorluğun dövlətçiliyimizin maraqlarına xidmət edən sivil və demokratik bir qurum kimi formalaşması ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatlarının memarı kimi Heydər Əliyevin dövlətçilik siyasəti, onun qayğı və dəstəyi nəticəsində mümkün olmuşdur.

Hər kəsə məlumdur ki, istər Azərbaycan Demokratik Respublikasının mövcudluğu zamanı, istərsə də ölkəmizin SSRİ-nin tərkib hissəsi olduğu dövrdə milli prokurorluq orqanları tam formalaşa, cəmiyyətdə və dövlətdə öz layiqli yerini tuta bilməmiş, onun milli maraqları və insan hüquqlarını layiqincə müdafiə edən təsisata çevrilməsi mümkün olmamış, müstəqilliyimizin ilk illərində isə ölkədə yaranmış özbaşınalıq, anarxiya, xaos, hakimiyyət zəifliyi, xalq ilə iqtidar arasında olan uçurum bunu mümkünsüz etmişdir. Bununla belə, çətin dövrlərdə, eləcə də ölkəmizdə separatçılıq meyllərinin və dövlət çevrilişinə cəhdlərin qarşısının alınmasında prokurorluq əməkdaşları da üzərilərinə düşən vəzifələri layiqincə icra edərək, dövlətimizin suverenliyinə və müstəqilliyinə qarşı ağır cinayətlər törətmiş şəxslərin tez bir zamanda ifşa edilib məsuliyyətə cəlb olunmasına bütün güclərini səfərbər etməklə cəmiyyətin və dövlətin onlara olan etimadını doğrultmuşdur.

Müstəqillik dövründə xalqımızın Ümummilli Liderinin rəhbərliyi altında ölkəmizdə həyata keçirilən məhkəmə-hüquq islahatları gedişində görülən tədbirlər sayəsində Azərbaycan Prokurorluğunun fəaliyyətində əsaslı dönüş yaradılmış, prokurorluğa qarşı tələbkarlığın artırılması, onun kadr korpusunun sağlamlaşdırılması və əməkdaşların məsuliyyət hissinin artırılması təmin edilmiş, prokurorluğun maddi-texniki təminatının daha da möhkəmləndirilməsi istiqamətində görülən işlər öz müsbət nəticələrini vermişdir.

Hər birimizə məlumdur ki, prokurorluq orqanlarında aparılan hərtərəfli islahatların əsasını və onun hüquqi bazasının təməlini Ulu Öndərimizin təşəbbüsü əsasında 12 noyabr 1995-ci il tarixdə ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası təşkil etmiş və ali qanunda ilk dəfə olaraq cinayət mühakimə icraatında mühüm funksiyaları yerinə yetirməsi nəzərə alınmaqla ölkəmizin məhkəmə hakimiyyəti sistemində prokurorluğun layiqli yerinin müəyyənləşdirilməsi, onun statusu, təşkili və fəaliyyət prinsipləri, funksiyaları və səlahiyyət dairəsi qanunvericilik qaydasında təsbit olunmuşdur. Bir müddət sonra müdrik rəhbər Heydər Əliyevin təşəbbüsü əsasında qəbul edilmiş 7 dekabr 1999-cu il tarixli “Prokurorluq haqqında” Azərbaycan Respublikasının Qanunu qarşıda duran bu və ya digər vəzifələrin uğurla həyata keçirilməsinə imkan yaratmaqla, prokurorluq orqanlarının daha da demokratikləşdirilməsini, onun qanunçuluğun və insan hüquqlarının aliliyinin real təminatçısına çevrilməsini təmin etmişdir. Beynəlxalq hüquq normalarına və demokratik prinsiplərə uyğun hazırlanmış “Prokurorluq orqanlarında qulluq keçmə haqqında”, Azərbaycan Respublikası Qanunlarının və digər hüquqi aktların qəbul olunması ilə isə prokurorluğun fəaliyyətini tənzimləyən hüquqi baza dövrün

tələblərinə və beynəlxalq standartlara uyğun formalaşdırılmışdır.

Azərbaycan prokurorluğu orqanlarının 80 illik yubileyinə həsr olunmuş təntənəli yığıncaqda dərin məzmunlu nitq söyləyən müdrik rəhbər demişdir: "İlk dəfədir ki, Azərbaycanda prokurorluğa belə diqqət və qayğı göstərilir və prokurorluq günü, prokurorların peşə bayramı müəyyən olunubdur. Hesab edirəm ki, müstəqil Azərbaycanın prokurorluğu və prokurorluq orqanlarının əməkdaşları belə bir bayrama layiqdirlər".

Ümummilli Lider həmin yığıncaqda prokurorluğun fəaliyyətini ağır, çətin, eyni zamanda, çox şərəfli və hörmətli peşə adlandırmışdır. Müdrik rəhbərin prokurorluq işçilərinin əməyinə verdiyi yüksək qiymət, bu sahəyə aid göstəriş və tövsiyələri hər bir prokurorluq işçisini xalqa və dövlətə daha sədaqətlə xidmət etməyə ruhlandırmışdır.

Azərbaycan Prezidenti kimi Azərbaycan prokurorluğuna inandığını, güvəndiyini və arxalandığını hər fürsətdə bəyan edən Heydər Əliyevin prokurorluq orqanlarının rəhbər işçiləri ilə 26 aprel 2000-ci il tarixdə keçirdiyi və bütün prokurorluq əməkdaşları üçün tarixi əhəmiyyət kəsb edən müşavirədəki proqram xarakterli dərin məzmunlu çıxışından irəli gələn tövsiyə və göstərişlər məhkəmə-hüquq islahatları çərçivəsində milli prokurorluq orqanlarında həyata keçirilən islahatların əsasını təşkil etmişdir. Məhz həmin tövsiyə və göstərişlərə müvafiq olaraq həyata keçirilən islahatlar və struktur dəyişiklikləri nəticəsində Azərbaycan prokurorluğu dövlətçiliyimizin maraqlarına və qanunun aliliyi prinsipinin reallaşması, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, insan hüquq və azadlıqlarının təmin olunması məqsədlərinə xidmət edən modern və sivil bir quruma çevrilmişdir.



Bu tarixi müşavirədən sonra Azərbaycan Prokurorluğunda hərtərəfli islahatlara təkan verilmiş, prokurorluq orqanlarında struktur dəyişikliyi aparılmış, səlahiyyətləri və fəaliyyət istiqamətləri ilə yanaşı, onun yeni strukturu müəyyənləşdirilmiş, normativ hüquqi bazası formalaşdırılmış, fəaliyyəti beynəlxalq standartlara uyğunlaşdırılmış, insan hüquq və azadlıqlarının təmin edilməsi istiqamətində ciddi nailiyyətlər əldə edilmişdir.

Onun vurğuladığı "Prokurorluq orqanlarının əsas hədəfi qanunun aliliyinin təmin olunmasıdır. Sağlam mənəviyyat hər bir prokurorluq işçisi üçün, qanun keşiyində duran bizim hər bir məmurumuz üçün əsas meyar olmalıdır. Əgər bu yoxdursa, o insan bizim tələblərimizə cavab verə bilməyəcəkdir. Bizim tələblərimiz isə qanundur, qanunun aliliyidir" fikirləri bütün prokurorluq əməkdaşlarının xidməti fəaliyyətində rəhbər tutduğu əsas devizlərdən birinə çevrilmişdir.

Hakimiyyətdə olduğu bütün dövrlərdə prokurorluğa böyük dəstək, yüksək diqqət və xüsusi qayğı göstərmiş Ümummilli Lider Heydər Əliyev deyirdi: "Hazırda prokurorluq orqanlarının qarşısında mühüm vəzifələr durur. Əsas məqsədimiz – prokurorluğun fəaliyyətinin müasirləşdirilməsi və dövlətçiliyə sadiq, qanunun aliliyinə hörmət edən, sağlam mənəviyyata, geniş dünyagörüşünə, yüksək nəzəri biliklərə malik yeni nəsil prokurorluq əməkdaşlarının formalaşdırılmasıdır. Əminəm ki, Azərbaycan Respublikası Prokurorluğu bu məqsədə çatmaq üçün səylərini davam etdirəcək və qarşısında qoyulan vəzifələri layiqincə yerinə yetirəcəkdir. Azərbaycan prokurorluğunun inkişaf etməsinə dövlət qayğısı bu gün də, gələcəkdə də olacaqdır". Böyük insanın söylədiyi bu dəyərli kəlamlar reallığa çevrilməklə davamlı xarakter aldı.

Beləliklə, ölkədə görülən nəhəng işlər çərçivəsində həyata keçirilən mütərəqqi islahatlar sayəsində və təməl prinsiplərin mövcud tələblərlə uzlaşdırılması ilə hazırlanmış hüquqi baza əsasında struktur və mahiyyət baxımından tamamilə yenidən qurulmuş, yüksək nəzəri bilikli və peşəkar kadrlarla komplektləşdirilmiş, fəaliyyəti, eləcə də vəzifələri və səlahiyyətləri beynəlxalq standartlara uyğun və müasir tələblərə cavab verən Azərbaycan Prokurorluğu formalaşdırılmışdır.

2023-cü il mayın 10-da Azərbaycan xalqının Ümummilli Lideri, müstəqil Azərbaycan dövlətinin qurucusu, görkəmli siyasi və dövlət xadimi Heydər Əliyevin anadan olmasının 100 ili tamam olur.

Müstəqil Azərbaycan Ulu Öndərin indiki və gələcək nəsillərə əmanəti, onun zəngin və çoxşaxəli irsi isə xalqımızın milli sərvətidir. Bu müqəddəs mirası qoruyub saxlamaq hər bir azərbaycanlının şərəfli vəzifəsidir.

**Rəfael Süleymanov**
**Baş Prokurorluğun Daxili işlər orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin böyük prokuror-metodisti, baş ədliyyə müşaviri**

# Heydər Əliyev cinayətkarlığa qarşı mübarizədə xilaskarlıq missiyasının banisi kimi



**Hər bir dövlətin yaşaması və xalqın varlığını davam etdirməsi üçün onun milli təhlükəsizlik strategiyasının mövcudluğu mütləqdir. Məlumdur ki, Azərbaycan Respublikasının milli təhlükəsizliyi siyasi, iqtisadi, hərbi, sosial, informasiya, ekologiya, elm, mədəniyyət, mənəviyyat və digər sahələr üzrə təmin olunur. Ölkənin milli təhlükəsizliyinin təminatının əsas məqsədləri insan – onun hüquq və azadlıqlarının, cəmiyyət – onun maddi və mənəvi dəyərlərinin, dövlət – onun müstəqilliyi, suverenliyi, konstitusiya quruluşu və ərazi bütövlüyünün təmin edilməsidir. Hər bir dövlət öz təhlükəsizlik strategiyasını məhz milli maraqları və mənafeləri əsasında formalaşdırır.**

Ümummilli Lider Heydər Əliyevin ölkənin milli təhlükəsizlik prioritetlərini dəqiq, aydın müəyyənləşdirməsi, cəmiyyətlə dövlət arasında olan inamın və etimadın daha da möhkəmlənməsinin təmin edilməsi sahəsində misilsiz xidmətləri həmin strategiyanın məzmununu təşkil edir.

Tarixə qovuşma prosesi, müəyyən zaman daxilində baş verir və bu zamandan maksimum səmərəli yararlanma, onu xalqın, millətin təhlükəsiz yaşamasına, inkişafına, gələcəyinə, dövlətin möhkəmləndirilməsinə yönəltmək missiyası şəxsiyyətlərin fəaliyyəti, adı ilə bağlı olur. Heydər Əliyev, şəxsiyyət kimi tarixi hadisədir. Tarix şəxsiyyəti, bu cür şəxsiyyətlər isə unudulmaz tarixi yaradır. Müdriklər demişlər ki, şəxsiyyəti mühit və hadisələr yetirir, ancaq hadisələri də şəxsiyyətlər idarə edir və hadisələr özü də onların izini daşıyır.

Fəaliyyətinin hər dövründə zamanı boşa keçirməyən, əksinə, zamanı əməlləri ilə zənginləşdirən Ulu Öndər Heydər Əliyevin ən əsas, müqəddəs istəyi xalqın birliyinə, dünya azərbaycanlılarının həmrəyliyinə söykənən təhlükəsiz, güclü, möhtəşəm, qüdrətli müasir dövlətin yaradılması olmuşdur. Ümumbəşəri xüsusiyyətləri özündə cəmləşdirən milli lider Heydər Əliyev milli dövlətçiliyi və azərbaycançılıq ideyalarını hər şeydən üstün tutmuşdur və o, xalqın öz Vətəninə ürəkdən bağlı olan nadir şəxsiyyətlərindəndir. Belə şəxsiyyətlər tarixin ən çətin və keşməkeşli dövrlərində milli ruhun enerjisindən, xalqın tarixi-siyasi tələbatından və genetik potensialından doğulur.

Heydər Əliyev öz parlaq siyasi zəkası və istedadı sayəsində yeni Azərbaycanı, onun bugünkü gerçəkliklərini yaratmış və gələcəyə aparan yolları müəyyən etmişdir. Məhz buna görə də Azərbaycan tarixinin 1969-cu ildən bəri yaşanan dövrü Heydər Əliyevin adı ilə sıx bağlıdır və tariximizə Heydər Əliyev dövrü kimi həkk olunmuşdur. Heydər Əliyevin dövlətçilik strateji proqramında azərbaycançılıq məfkurəsi xüsusi yer tutmuşdur. Heydər Əliyevin 1987-ci ilin oktyabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin Siyasi Bürosunun və şəxsən Baş katib Mixail Qorbaçovun yeritdiyi siyasi xəttə etiraz əlaməti olaraq tutduğu vəzifələrdən istefa verməsi, 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi xüsusi ağır cinayətlər ilə əlaqədar ertəsi gün Azərbaycanın Moskvadakı nümayəndəliyində bəyanatla çıxış edərək, Azərbaycan xalqına qarşı törədilmiş xüsusilə ağır cinayətin təşkilatçıları və icraçılarının cəzalandırılmasını tələb etməsi, Dağlıq Qarabağda yaranmış kəskin münaqişəli vəziyyətlə bağlı SSRİ rəhbərliyinin ikiüzlü siyasətinə etiraz əlaməti olaraq, 1991-ci ilin iyulunda Sovet İttifaqı Kommunist Partiyasının sıralarını qətiyyətlə tərk etməsi vətənpərvərliklə, azərbaycançılıq məfkurəsi ilə bağlı idi. Bu, əsl vətənpərvərlik mövqeyinin nümayişi idi.

Azərbaycanda dövlətçilik ənənələrinin XX əsrin sonlarında bərpa edilib zənginləşdirilməsi, Azərbaycanın müstəqilliyinin möhkəmləndirilməsi, onun əbədi, dönməz xarakter alması, ölkəmizin dinamik iqtisadi inkişaf yolu ilə inamla irəliləməsi, onun beynəlxalq nüfuzunun sürətlə artması Heydər Əliyevin səmərəli fəaliyyəti sayəsində mümkün olmuşdur. Heydər Əliyev öz müdrik rəhbərliyi, siyasi uzaqgörənliyi, qətiyyəti və əzmkarlığı ilə zəmanəmizin görkəmli siyasi xadimi kimi tanınmış, Azərbaycan xalqının Ümummilli Liderinə çevrilmişdir. Azərbaycan ziyalısını keçən yüzilliklərdə ən ciddi bir şəkildə düşündürən milli dirçəliş problemləri bütöv şəkildə Heydər Əliyevin fəaliyyəti ilə strateji dövlət siyasəti müstəvisinə keçmişdir. Azərbaycanın hərtərəfli inkişafı üçün, xüsusən də təhlükəsizliyin və

sabitliyin olması onun hazırladığı strateji istiqamətlər hələ uzun illər müstəqil Azərbaycan dövlətinin möhkəmləndirilməsi və gücləndirilməsi, iqtisadi qüdrətinin artırılması, xalqımızın layiq olduğu xoşbəxt həyata qovuşması işinə xidmət edəcəkdir.




1993-cü ilin yayında xalqın təkidli tələbi ilə hakimiyyətə qayıdan Heydər Əliyev öz böyük siyasi təcrübəsi və müdrikliyi ilə Azərbaycanı təhlükəli vəziyyətdən çıxarmağa nail oldu. İlk növbədə, hakimiyyət vakuumu aradan qaldırıldı, respublikanın müxtəlif bölgələrində baş qaldırmış cinayətkar dəstələr, destruktiv qüvvələr xalqın fəal köməyi ilə zərərsizləşdirildi, vətəndaş müharibəsinin qarşısı alındı. Azərbaycanın dövlətçiliyinə, müstəqilliyinə, ərazi bütövlüyünə qəsdlər təşkil edən cinayətkar ünsürlər cəmiyyətdən təcrid edildi. 1994-cü ilin mayında Ermənistan-Azərbaycan müharibəsində atəşkəsə nail olundu. Heydər Əliyev Azərbaycan həqiqətlərini, xüsusilə Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin mahiyyətini dünya ictimaiyyətinə çatdıra bildi.

Azərbaycan yalnız Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra özünün geosiyasi imkanlarını gerçəkləşdirməyə başlamışdır. Heydər Əliyevin siyasi zəkası sayəsində Azərbaycanın beynəlxalq aləmdən təcrid olunmaq təhlükəsi aradan qaldırılmışdır. Dünya siyasət meydanında cərəyan edən proseslərə təsir baxımından Azərbaycan rəhbəri həmişə öz sözü, öz çəkisi, öz sanbalı ilə seçilmişdir. Heydər Əliyevin xarici siyasət məsələlərinə müstəsna əhəmiyyət verməsi, beynəlxalq miqyasda uğurlu və cəsarətli addımlar atması, milli məqsədlər naminə ən nüfuzlu tribunalardan bacarıq və məharətlə istifadə etməsi Azərbaycan dövlətçiliyinin bu günü və gələcəyi baxımından son dərəcə əhəmiyyətli olmuşdur.

Heydər Əliyevin fəal diplomatiyası nəticəsində Azərbaycan dünyanın demokratik dövlətlərinin və aparıcı beynəlxalq təşkilatların ölkəmizə, onun zorla cəlb olunduğu silahlı münaqişəyə münasibətinin əsaslı surətdə dəyişməsinə nail ola bilmişdir. Heydər Əliyevin xarici siyasətinin əsasını sülh, beynəlxalq hüquq normalarına, sərhədlərin bütövlüyünə və toxunulmazlığına, dövlətlərin ərazi bütövlüyünə hörmət və qarşılıqlı surətdə faydalı əməkdaşlıq prinsipləri təşkil etmişdir.

Azərbaycanın müasir dövlətçiliyi tarixində müstəqillik dövrünün arxada qalan hər ilinin öz yeri vardır. Müstəqil Azərbaycanın keçdiyi sınaqlar, dövlətçiliyimizin ən ağır günlərində Heydər Əliyev qətiyyəti və müdrikliyi xalqımızı və Azərbaycanımızı həmişə xilas etmişdir. Ümummilli Liderimiz keçilməsi mümkün olmayan maneələri dahiyanə yanaşması ilə böyük əzm və səylə qət etmişdir. Ulu Öndər Heydər Əliyev demişdir: *"Ağıl olan yerdə zora ehtiyac yoxdur. Tarix həmişə hər şeyi öz yerinə qoyur".*

Azərbaycan xalqının dahilik rəmzi olan Heydər Əliyevin dövlət, millət qarşısında tarixi xidmətləri zaman keçdikcə daha aydın görünür. Aydın görünür ki, Heydər Əliyev rəhbərliyinin bütün dövrlərində daim tərəqqisi üçün çalışdığı, zəngin mədəniyyəti, böyük tarixi keçmişi ilə həmişə qürur duyduğu və gələcək nəsillərin taleyi üçün düşündüyü doğma yurdu Azərbaycanı bir dövlət kimi zamanın ağır və sərt sınaqlarından çıxarmışdır. O, böyük siyasi və dövlət xadimi, xalqın şəksiz lideri olaraq hələ sağlığında canlı əfsanəyə çevrilmiş, buna görə də Heydər Əliyev fenomeni həmişə diqqətləri cəlb etmiş, heyranlıq doğuracaq dərəcədə coşğun siyasi fəaliyyəti istər ölkə, istərsə də dünya miqyasında kök atmışdır.

Ulu Öndərin uzaqgörən müdrik siyasəti nəticəsində müstəqil Azərbaycan dünya xalqları içərisində inkişaf etmiş dövlətlər birliyində öz layiqli yerini tutmaq, tərəqqi etmiş ölkələr sırasına qoşulmaq yolunda böyük inam və qətiyyətlə irəliləmişdir. Qısa müddətdə Azərbaycanın beynəlxalq imici dəyişmiş, ölkəmiz dünyanın siyasi və iqtisadi arenasının fəal subyektlərindən birinə çevrilmişdir. Bütün ölkədaxili, regional və coğrafi-siyasi maneələrə baxmayaraq, Azərbaycan dövlət quruculuğu və iqtisadi inkişaf sahəsində böyük nailiyyətlər əldə etmişdir. Məhz Heydər Əliyevin hakimiyyəti dövründə ölkədə siyasi plüralizm yaranmış, cəmiyyət əsl demokratiya yolu ilə inkişaf yoluna çıxmışdır.

Heydər Əliyevin dövlət və xalq qarşısındakı tarixi xidmətlərini heç kim inkar edə bilməz. Onun ölkədə vətəndaş həmrəyliyinə nail olunması, ağır təhdidlərə səbəb ola biləcək cinayətkar dəstələrin zərərsizləşdirilməsi, sabitlik yaradılması, müstəqil dövlət qurulması, iqtisadi-sosial sahədə, neft strategiyasında tarixi addımlar atılması, bütün sahələrdə mühüm islahatlar həyata keçirilməsi, beynəlxalq aləmdə respublikanın mövqeyinin möhkəmləndirilməsi sahəsində gördüyü işlər unudulmazdır. Ulu Öndər ölkədə bazar iqtisadiyyatının təşəkkül tapmasında, Azərbaycana xarici investisiyaların cəlb olunmasında, beynəlxalq

iqtisadi əlaqələrin genişləndirilməsində, xalqın rifah halının yüksəldilməsində çox böyük işlər görmüşdür. Məhz Heydər Əliyevin sayəsində Azərbaycan inkişaf etmiş və sivil dövlətlər sırasına çatmışdır. Ümumiyyətlə, siyasi, iqtisadi, sosial, mədəni həyatda, beynəlxalq sahədə kifayət qədər nailiyyətlər qazanılmışdırsa, dövlətçiliyin gücləndirilməsində, ölkənin tərəqqisində nə qədər yeniliklər, uğurlar əldə edilmişdirsə – bunlar Heydər Əliyevin sayəsində mümkün olmuşdur.

Müdrik şəxsiyyət Heydər Əliyevin rəhbərliyi ilə aparılmış məqsədyönlü siyasət nəticəsində ölkənin iqtisadi həyatında qazanılmış ən mühüm uğurlardan biri də dünyanın inkişaf etmiş nüfuzlu şirkətləri ilə bağlanmış neft müqavilələri olmuşdur. Bu müqavilələr Azərbaycan iqtisadiyyatının gələcək inkişafı üçün geniş perspektivlər açmışdır. Heydər Əliyevin neft strategiyası dövlətimizin müstəqilliyinin qarantına çevrilməklə yanaşı, azad iqtisadi münasibətlər mexanizmlərini də hərəkətə gətirmiş, ölkəmizin dünya iqtisadi məkanına dinamik inteqrasiyasını, xalqımızın rifahının artması üçün çox önəmli olan xarici sərmayələrin cəlb edilməsini təmin etmişdir. Bütün bunlar dövlətimizin daxili qüdrəti ilə yanaşı, beynəlxalq nüfuzunun artırılmasına xidmət edir. Xəzərin Azərbaycan hissəsində dünyanın tanınmış neft şirkətləri ilə yataqların birgə işlənməsi üzrə ilk sazişlərin, "Əsrin müqaviləsi"nin imzalanması, ölkəmizin parlaq gələcəyinə stimul yaradan yeni neft strategiyası Heydər Əliyev müdrikliyinin bariz nümunəsi idi. Siyasi və iqtisadi böhran keçirən bir ölkədə qısa zamanda sabitlik yaratmaq, dünyanın nəhəng şirkətlərini regiona cəlb etmək, konkret olaraq milyard dollarla ölçülən sazişləri imzalamaq, sözsüz ki, uzaqgörən siyasət və müdriklik tələb edirdi. *"Əsrin müqaviləsi"nin Azərbaycanın parlaq inkişafı üçün nə demək olduğunu hamı anlamalıdır".* Bu sözlər məhz Ümummilli Lider Heydər Əliyevə məxsusdur.

Xüsusi vurğulanmalıdır ki, müstəqil Vətənimizin sosial, iqtisadi, siyasi inkişafı, Cənubi Qafqaz bölgəsində sülhün və əmin-amanlığın bərqərar olması istiqamətində Heydər Əliyev dühasının yeritdiyi siyasi kurs – Azərbaycanın beynəlxalq aləmə geniş inteqrasiyasına rəvac verən bu tərəqqi yolu ölkəmizin sayılıb-seçilən dövlətlər arasında öz layiqli yerini tutmasına, ən əsası isə xalqımızın firavan və xoşbəxt gələcəyinə tam təminat vermişdir.

Təbii ki, 2003-cü ilə qədərki tarixi nailiyyət bu dövrə qədər keçən son iyirmi ildə hüquqi dövlət quruculuğu, iqtisadi, sosial, humanitar və xarici siyasət sahəsində aparılan müdrik siyasi xəttin məntiqi nəticəsində qazanılmışdır. Azərbaycanın müharibə şəraitində yaşamasına və keçid dövrünün mahiyyətindən doğan çətinliklərə baxmayaraq, bu müddət ərzində Heydər Əliyevin gərgin və yorulmaz fəaliyyəti demokratik təsisatların, vətəndaş cəmiyyətinin formalaşması prosesinə, ictimai-siyasi sabitliyin, dövlət təhlükəsizliyinin təminatına və güclü iqtisadi potensialın yaranmasına gətirib çıxarmışdır. Bərqərar olmuş ictimai-siyasi sabitlik, əlverişli iqtisadi mühit xarici sərmayələrin həcminin artmasına səbəb olmuşdur. Neft strategiyasının uğurla həyata keçirilməsi sosial-iqtisadi inkişafa təkan vermiş, əhalinin sosial həyat şəraiti yaxşılaşdırılmış, yoxsulluğun səviyyəsinin azaldılması üçün mühüm işlər görülmüşdür. Milli-mənəvi dəyərlərin qorunub saxlanılması, zənginləşməsi və gənc nəslin vətənpərvərlik ruhunda tərbiyəsi dövlətin prioritet vəzifələrindən birinə çevrilmişdir. Siyasi sistemin demokratik prinsiplər əsasında inkişafı, cəmiyyətimizdə ümumbəşəri dəyərlərin dərin kök salması Azərbaycanın beynəlxalq aləmə sıx inteqrasiyasına və formalaşmaqda olan demokratik dövlət kimi tanınmasına yol açmışdır. Azərbaycanın dövlət müstəqilliyinin qorunması və təhlükəsizliyinin möhkəmləndirilməsi, dövlətlərarası əlaqələrin inkişaf etdirilməsi, beynəlxalq və regional təşkilatlarla səmərəli əməkdaşlıq ölkəmizin beynəlxalq münasibətlər sistemində layiqli yer tutmasını təmin etmişdir. Beləliklə, Ümummilli Lider Heydər Əliyevin ölkəmizə rəhbərlik etdiyi 1993-2003-cü illərdə müstəqil dövlətimizin tərəqqisi üçün möhkəm təməl yaradılmışdır. Bu dahi insan var qüvvəsi və bacarığını Azərbaycanımızın yüksəlişinə və böyük zirvələri qət etməsinə sərf etmişdir. Ulu Öndər öz həyatının uğurlarını xalqına arxalanmaqda görərək demişdir: "Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi-siyasi, mənəvi inkişafına xidmət edir. Bu yolda bütün gücümü və iradəmi yalnız müdrik və qədirbilən xalqımdan almışam. Ən çətin anlarda, ən mürəkkəb vəziyyətlərdə yalnız və yalnız xalqıma arxalanmışam. Bu da, mənə dözüm, iradə verib və bütün uğurlarımı təmin edib".

Xilaskarlıq missiyasının banisi kimi tanınan Heydər Əliyev XX əsrin son dərəcə mürəkkəb və ziddiyyətli tarixi şəraitində fəaliyyət göstərmişdir. Artıq qeyd etdiyimiz kimi, Azərbaycanın ən yeni tarixinin bütöv bir qərinəsi Heydər Əliyev şəxsiyyəti ilə, onun mübarizə yolu, böyük quruculuq fəaliyyəti ilə sıx bağlıdır. Məhz dahi şəxsiyyət Heydər Əliyevin xalqın təkidli tələbi ilə ikinci dəfə siyasi hakimiyyətə gəlməsi Azərbaycanın müstəqillik tarixində yeni bir mərhələnin başlanğıcını qoymuşdur. O dövrü bir anlığa xatırlayanda göz önünə, ilk növbədə, ölkədə hökm sürən anarxiya və xaos, hərc-mərclik və dərəbəylik gəlir. Bütün bunlara son qoymaq, ictimai-siyasi prosesləri normal məcraya yönəltmək hər kəsin işi deyildi və bu missiyanı öz liderlik və xilaskarlıq səyi və bacarığı sayəsində əbədiyaşar Prezident Heydər Əliyev üzərinə götürdü, bu dövləti əbədi, sarsılmaz və qüdrətli dövlətə,



Azərbaycanın müstəqilliyini dünya müstəvisində reallığa çevirdi. Bəli, əsl həqiqətdir ki, bu böyük şəxsiyyət öz dərin zəkası, iti ağlı və mətin iradəsi ilə Azərbaycanımızı yüksəltdi, qorudu, müstəqilliyini yaşatdı və əbədiləşdirdi. İndi Azərbaycan adı Heydər Əliyevin adı ilə qoşa çəkilir. Beləliklə. “Bu və ya digər xalqın böyüklüyü onun sayca çoxluğu ilə deyil, bəşəriyyətə bəxş etdiyi dühalarla ölçülür” – müdrik kəlamı təsdiqini tapır.

Məhz Ulu Öndərin tarixi şəxsiyyət kimi meydana çıxması Azərbaycanda yeni günəşin doğmasına, ölkəmizin parlaq gələcəyinin bərqərar olmasına təkan verdi. Azərbaycanın inkişaf yolunu müəyyən edən Heydər Əliyevin səyləri nəticəsində ölkəmizin ictimai-siyasi, sosial-iqtisadi, elmi-mədəni həyatında ciddi dönüş mərhələsinin başlanğıcı qoyuldu. Dövlətin əsası olan suverenlik, dövlətçilik, ədalət, demokratiya, milli yüksəliş, dünyəvi dövlət və liberal iqtisadiyyat kimi ümumbəşəri dəyərlərin sintezini təmin edən milli ideologiya formalaşdırıldı. Azərbaycanlıları dünyaya sivil dəyərlərin daşıyıcısı kimi tanıdan, dünya azərbaycanlılarını vətənə bağlayan azərbaycançılıq fəlsəfəsinin əsasları yarandı. Dünya xəritəsində suveren və müstəqil Azərbaycan adlı tarixi həqiqət ünvanı hər kəsə bəlli oldu. Heydər Əliyev sübut etdi ki, siyasət naşıların zənn etdiyi kimi asan məsələ deyildir. Hətta ən keşməkeşli zamanlarda belə, Azərbaycan xalqının müstəqil olmaq hüququnu təmin edə bilmək böyük sənətdir.

Fransanın “Kuryer İnternasional” jurnalının 2003-cü ilin may nömrəsində nəşrin baş redaktoru Aleksandr Adler Ulu Öndər Heydər Əliyevə həsr etdiyi məqaləsində yazırdı: “Nə sülh, nə də firavanlıq gətirən tufanların tüğyan etdiyi müasir dünyada Heydər Əliyev kimi dövlət xadimləri həmişəkindən daha çox gərəkdir. Tanrı bu şəxsiyyəti təkcə öz xalqına deyil, həm də başqa xalqlara son dərəcə mürəkkəb tarixi bir məqamda göndərmişdir. O, bir sıra ciddi böhranlar keçirmiş və onları dəf etmişdir. O, bunların hamısına mətanətlə sinə gərmiş və onu mənən və cismən məhv etmək üçün göstərilmiş bütün cəhdlərə baxmayaraq, daha yüksəklərə qalxmışdır”.

Əsl rəhbər kimi məhz Heydər Əliyev Azərbaycan həqiqətlərini qətiyyətlə bütün dünyaya tanıda bilmişdir. Dünya siyasət meydanında cərəyan edən proseslərə təsir baxımından Azərbaycan rəhbəri həmişə öz sözü, öz çəkisi, öz sanbalı ilə seçilmişdir. Ümumxalq məhəbbəti qazanan Heydər Əliyevin bitməz-tükənməz enerjisi xalqı yaradıcılıq uğurlarına ruhlandırmışdır.

Heydər Əliyev Azərbaycanın təbii sərvətlərindən, əlverişli coğrafi-strateji mövqeyinin üstünlüklərindən ölkənin milli mənafelərinə uyğun şəkildə istifadə edilməsinə yönəldilmiş irimiqyaslı beynəlxalq iqtisadi sazişlərin işlənib hazırlanması və həyata keçirilməsi sahəsində son dərəcə gərgin və səmərəli fəaliyyət göstərmişdir. Böyük bir coğrafi məkanda region qüvvələrinin birləşməsində də Heydər Əliyevin danılmaz xidmətləri olmuşdur.

Heydər Əliyevin daxili siyasəti hüquqi dövlət quruculuğuna, Azərbaycanın hər bir vətəndaşının azad, sərbəst yaşamaq hüquqlarının təmin edilməsinə, xalqın həyat şəraitinin yaxşılaşdırılmasına yönəldilmişdi. Bazar iqtisadiyyatı prinsiplərinin bərqərar olması, iqtisadi inkişafın təmin edilməsi, Azərbaycanın dünya iqtisadiyyatına inteqrasiyası, özəlləşdirmə proqramının, aqrar islahatların həyata keçirilməsi bu siyasətin prioritetləri idi.

Heydər Əliyev bizim dahi müasirimizdir. Bu faktın özü hər bir azərbaycanlı üçün qürur və iftixar mənbəyidir. Müstəqil Azərbaycan dövlətinin qurucusu kimi milli dövlətçiliyimizin ideya əsasını məhz Heydər Əliyev yaratmışdır.

Bütün mənalı həyatını öz xalqına bəxş etmiş Heydər Əliyevin siyasi və dövlət xadimi kimi zəngin fəaliyyəti Azərbaycan xalqının tarixində dərin iz buraxaraq, əsl dövlət idarəçiliyi məktəbinə çevrilmişdir. Azərbaycan xalqının hələ neçə-neçə nəsli bu böyük məktəbdən, Heydər Əliyevin zəngin siyasi irsindən ölkəmizin inkişafı, xalqımızın rifahı naminə faydalanacaqdır.

Azərbaycan xalqının milli lideri, müdrik rəhbər və dahi şəxsiyyətin əziz və işıqlı xatirəsi qədirbilən Azərbaycan xalqının qəlbində əbədi yaşayacaqdır. Heydər Əliyev yalnız Azərbaycan xalqının deyil, bütün türk dünyasının milli lideri, zəmanənin böyük siyasi xadimdir. Heydər Əliyev hər zaman türklərin qəlbində yaşayacaq

əfsanədir. Heydər Əliyev 1992-ci ildən başlayaraq türkdilli dövlətlər arasında iqtisadi, siyasi, ədəbi-mədəni əlaqələrin genişləndirilməsi və möhkəmləndirilməsi sahəsində gərgin fəaliyyət göstərmişdir. O, bütün türk dünyasının ən nüfuzlu şəxsiyyəti kimi şöhrət qazanmışdır. Məhz ona görədir ki, ictimai rəydə Heydər Əliyev türk dünyasının qüdrətli bir insanı, bütün türk dünyasında Atatürk kimi özünəməxsus yeri olan böyük rəhbər kimi ölməzlik qazanmışdır və Ümummilli Liderə olan sevgi daha da artmışdır.

Heydər Əliyev amili Azərbaycanda həyati əhəmiyyətə malik bütün dəyişikliklərdə mühüm və həlledici rol oynamışdır. Məmləkətimizdə gedən prosesləri diqqətindən qoymayaraq, parçalanma, qarşıdurma təhlükəsinin labüdlüyü anında xalqın, Vətənin imdadına yetişən Ulu Öndər dövlətçilik təcrübəsinin bütün variantlarından istifadə etməyə məcbur olmuşdur. Zəkasının ziyası ilə məmləkətimizi bürümüş zülməti yox edərək, aydınlığa çıxarmışdır. Ən əsası isə odur ki, Azərbaycanın müstəqillik yolu ilə inamla addımlaması, uğurlara zənginləşməsi Heydər Əliyevin şəxsiyyət bütövlüyünün, əqidəcə saflığının nəticəsi idi.



Azərbaycanın taleyüklü problemlərinin həllində, müqəddəs milli vəzifələrin uğurla həyata keçirilməsində, beynəlxalq ictimai rəydə, Vətənimizin daha böyük uğurlar qazanmasında xalqımızın böyük oğlu Heydər Əliyevin misilsiz xidmətləri təsdiqlənmiş və qəbul edilmişdir. İnamla demək olar ki, Heydər Əliyevin həyat və idarəetmə salnaməsi, siyasi peşəkarlığı və yenilməz iradəsi məhz bu vəzifələrin yerinə yetirilməsində başlıca təminat olmuşdur. Heç kəs yaddan çıxarmamalıdır ki, Azərbaycanın bölüşdürülməsi və daxili toqquşmalar, vətəndaş qarşıdurması və etnik toqquşmalar içərisində boğulmasını nəzərdə tutan məkrli planlar məhz Heydər Əliyev fenomeni sayəsində aradan qalxmışdır.

Heydər Əliyevin siyasi, iqtisadi, ictimai və mədəni həyatın bütün sahələrində gerçəkləşdirdiyi planlar artıq bugünkü Azərbaycanın reallığına çevrilmişdir. Onun fəaliyyəti də, şəxsiyyəti də Azərbaycan tarixinin ayrılmaz bir hissəsini təşkil edir. Hər bir azərbaycanlının taleyində Heydər Əliyev dühasının bir zərrəsi vardır.

XX əsrdən bəhs edəndə həm də onu üç böyük ideyanın reallaşdığı, gələn nəsillərə miras qalan ideyalar əsri kimi səciyyələndirirlər. Bunlar suverenlik, demokratiya və siyasi inkişaf modelləri ideyalarıdır.

Heydər Əliyev ən qısa zaman kəsiyində yüzilliyin ideyaları sayılan bu üç irsi həyata keçirməyə, suveren, demokratik Azərbaycan dövləti yaratmağa, onun özünəməxsus siyasi inkişaf modelini müəyyənləşdirməyə qadir olmuşdur. O, sübut etmişdir ki, heç bir ideya cəmiyyətə kənardan diktə və göstərişlə qəbul etdirilə bilməz. Cəmiyyətin öz içərisində ideyanı duyan, konkret tarixi spesifikaya uyğun tətbiq edən, yeni ideyaları milyonlara çatdıra bilən siyasi lider hər şeyə qadirdir.

Bu gün də Heydər Əliyevin müəyyən etdiyi yol davam etdirilir. Azərbaycan inkişaf edir, ən uca zirvələrə qalxır, beynəlxalq aləmdə öz nüfuzunu daha da gücləndirir. İndi Heydər Əliyev ideyaları Azərbaycan dövlətinin strateji inkişaf xəttinin ideoloji əsaslarını təşkil edir. Onun xalqımız, Vətənimiz qarşısında ən böyük və müqəddəs borcu onun məmləkətimizin nailiyyətlərini gələcəkdə yaşatmaq və daha da təkmilləşdirmək iqtidarında olan layiqli, ləyaqətli bir varisi – İlham Əliyevi yetişdirməsidir.

Ulu Öndərin bizə zəngin irs olaraq qoyduğu milli təhlükəsizlik prioritetləri, onun bu istiqamətdə atdığı addımlar Azərbaycan Respublikasının Prezidenti, Ali Baş Komandan cənab İlham Əliyev tərəfindən uğurla davam etdirilir. Heydər Əliyev siyasi kursunun layiqli davamçısı olduğunu əməli fəaliyyəti ilə sübuta yetirən cənab İlham Əliyevin xalqın böyük dəstəyi və etimadı ilə Azərbaycan Respublikasının Prezidenti seçilməsi dövlət başçısının hər bir fərdin mənafeyinə hesablanan və milli maraqları özündə ehtiva edən çoxşaxəli siyasət yürütdüyünü bir daha təsdiqlədi.

İlham Əliyev türk dünyasının ən qüdrətli sərkərdəsinin, Heydər Əliyev kimi siyasi liderin, qüdrətli zəka sahibinin yanında, siyasi kürəsində bərkimiş, yetkin dövlət başçısı olduğunu məsuliyyətli fəaliyyətində təsdiqləmişdir. Əgər indi Ulu Öndərin siyasi varisi, layiqli davamçısı İlham Əliyev bütün varlığı ilə müstəqil Azərbaycanımızın siyasi, iqtisadi və mədəni



inkişafı istiqamətində həlledici əhəmiyyətə malik işlər görürsə, deməli, Heydər Əliyev ideyalarının həyata keçirilməsi başlıca vəzifə kimi öz aktuallığını saxlayır və xalq da öz Prezidentinin həyata keçirdiyi məqsədyönlü siyasəti dəstəkləyir. Artıq bu bir reallıqdır ki, Azərbaycan Ümummilli Liderimizin müəyyən etdiyi strateji və alternativi olmayan siyasi xətt ilə inamla irəliləyir, dövlətimiz gənc və dərin zəkaya malik liderlə daha sürətlə inkişaf edir. Azərbaycan getdikcə qüdrətli və dayanıqlı ölkəyə çevrilməklə dünya miqyasında öz mövqeyini və yerini möhkəmləndirir. Ölkə Prezidenti İlham Əliyev demişdir: "Mənim məqsədim budur ki, Azərbaycan xalqı daha da yaxşı yaşasın, əmin-amanlıq olsun, inkişaf olsun. Ölkəmiz daha da inkişaf etsin, güclənsin və Azərbaycan dünyada daha da möhkəm bir dövlətə çevrilsin".

Prezident İlham Əliyev böyük əzmlə həyata keçirdiyi quruculuq proqramının gerçəkləşməsi yolunda ciddi tədbirlərin görüldüyü vaxtda xalqımızın 2003-cü ilin dekabrında Ümummilli Lider Heydər Əliyevi itirməsi bütün cəmiyyətimizi sarsıtdı. Lakin kədərimiz nə qədər ağır olsa da, xalqımız özünün görkəmli oğlu Heydər Əliyevin ideyalarına sadiq qalaraq, onun bizə əmanət qoyduğu müstəqil dövlətçiliyimizi yaşadıb inkişaf etdirmək üçün qüvvələrini səfərbər etdi, Ümummilli Liderin siyasi varisi Prezident İlham Əliyevin hər bir vətəndaşın maraqlarını ifadə edən siyasi kursuna dəstək verdi.

Bu gün Azərbaycan ərazi bütövlüyünü bərpa etməklə sözün əsl mənasızda yüksək sürətlə böyük zirvələrə doğru irəliləyir, Azərbaycan öz qüdrətini daha da artırır. Heydər Əliyevin siyasi xəttinin davamçısı olan Prezident İlham Əliyev hazırda Azərbaycanı müvəffəqiyyətlə siyasi və iqtisadi modernləşməyə doğru aparır. İqtisadiyyatın liberallaşdırılması, ölkənin geosiyasi və geoiqtisadi çəkisinin artması, vətəndaş ilə dövlət arasında vahid birliyin, ahəngdarlığın bərqərar olması Azərbaycanı yüksələn xətlə inkişafa aparır. Prezident İlham Əliyevin apardığı siyasət nəticəsində Azərbaycan iqtisadi inkişaf sürətinə görə dünyanın aparıcı dövlətləri sırasında yer almışdır. Son illər ərzində Azərbaycan rəqabət indeksi üzrə dünyanın 60 ölkəsi içərisində, postsosialist məkanında isə ilk yerlərdə təmsil olunmuşdur. Adambaşına düşən birbaşa xarici investisiyanın həcminə görə Azərbaycan regionda lider, dünyada isə ilk onluqdadır. Azərbaycanı dünyanın ən islahatçı ölkəsidir. Rəqabətə davamlılıq sahəsində Azərbaycan MDB ölkələri arasında şəksiz liderdir. Son illərdə həyata keçirilmiş tədbirlər ölkədə yoxsulluq səviyyəsinin əhəmiyyətli dərəcədə azalmasına gətirib çıxarmış, saysız hesabsız yeni iş yerləri açılmışdır. Şəhər və kəndlərimiz günbəgün dəyişir, regionlarımız müasirləşir, informasiya-kommunikasiya vasitələrinin səmərəli inkişafı sayəsində ölkəmiz mühüm intellektual mərkəzə çevrilir. Bunların hamısı bir daha ölkəmizin sürətli inkişafının və modernləşməsinin bariz nümunəsidir. Əlbəttə ki, bu nailiyyətlərin əldə olunmasında müqəddəs Tanrımızın xalqımıza xoşbəxtlik rəmzi olaraq bəxş etdiyi gənc və uzaqgörən liderimiz İlham Əliyevin fəaliyyəti danılmaz bir həqiqətdir. Dahi şəxsiyyətin siyasi kursunu davam etdirən cənab İlham Əliyev böyük əzmkarlıq və mətanət göstərməklə Azərbaycanımızı qət olunması çətin sayılan zirvələrə ucaldır, dövlətçiliyimizi və tarixi müstəqilliyimizi daha da möhkəmləndirir.

*"Əmin ola bilərsiniz ki, mən Heydər Əliyevin başladığı bütün işləri axıra çatdıracağam"* – söyləyən Prezident İlham Əliyev Ulu Öndərimiz tərəfindən müəyyən edilmiş dövlətçilik kursunu davam etdirməklə, Azərbaycanımızı indiki firavan günlərə çatdırmış və gələcəyə, sabaha möhkəm təminat yaratmışdır.

Bütün həyatını xalqa sədaqətlə xidmətə həsr etmiş Heydər Əliyev öz titanik fəaliyyətində həmişə xalqa arxalanmış, ən çətin anlarda ona müraciət etmişdir. Xalq da heç vaxt ondan öz dəstəyini əsirgəməmişdir. Xalqın Heydər Əliyevə göstərdiyi böyük etimad və ehtiram hissləri müdrik rəhbərin dəfn mərasimində də bir daha bütün dünyaya əyani şəkildə nümayiş etdirildi. Bu, milyonlarla insanın öz rəhbərinə bəslədiyi səmimi hisslərin misli görünməmiş təzahürü idi.

Azərbaycanın mühüm və həssas coğrafi-strateji məkanda yerləşməsi, mövcud hərbi-siyasi vəziyyət və həmçinin ölkəmizdə həyat əhəmiyyətli beynəlxalq layihələrin həyata keçirilməsi ciddi və kompleks



təhlükəsizlik tədbirlərinin görülməsini zəruri edir. Digər aidiyyəti dövlət qurumları ilə birgə, prokurorluq orqanlarının şəxsi heyəti də xalqımızın mənafelərinin etibarlı təmin olunması üçün cənab Prezident İlham Əliyevin ətrafında sıx birləşərək daim ön sıradadır. Ölkə başçısının dediyi aşağıdakı sözlər hər bir hüquq mühafizə orqanlarının fəaliyyət prinsipinə, istiqamətinə çevrilmişdir: *"Ölkəmizin keçid dövrünü yaşadığını, Azərbaycanın gənc, müstəqil ölkə, dövlət olduğunu və hər bir gənc dövlət kimi Azərbaycanın da çoxlu problemləri olduğunu, ölkəmizin coğrafi-siyasi vəziyyətini, təbii ehtiyatlarını və ərazimizdən keçən neft-qaz kəmərlərini, nəhəng enerji layihələrinin Azərbaycanda həyata keçirilməsini nəzərə alsaq, görərik ki, müxtəlif dairələrin diqqəti Azərbaycana yönəlmişdir. Biz milli təhlükəsizliyimizə daim hazır olmalıyıq. Yeni zamanənin çağırışlarına hazır olmalıyıq".*

Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanın uzaqgörən, praqmatik siyasi təhlilinin nəticələri özünü real həyatda açıq-aydın göstərir. Lakin qeyd etmək lazımdır ki, bəzən ayrı-ayrı ölkələrin ərazisində fəaliyyət göstərən, yaxşı təşkilatlanmış cinayətkar birləşmələr şəxsi mənafeləri naminə demokratiya və inteqrasiya proseslərinin yaratdığı imkanlardan sui-istifadə etməklə qanunsuz yolla külli miqdarda gəlir, müxtəlif maddi sərvətlər əldə etməyə cəhd göstərirlər. Onların bu məqsədlə həyata keçirdikləri bir sıra cinayətkar fəaliyyətlər isə bütün bəşəriyyət, o cümlədən Azərbaycan Respublikası üçün böyük təhlükə yaradır.

Belə ki, ən gəlirli kriminal sahələri əhatə edən bu fəaliyyətlər bir tərəfdən minlərlə insanın həyatını məhv edir, digər tərəfdən isə daha ağır cinayətlərin törədilməsinə, o cümlədən terrorçuluq əməllərinin maliyyələşməsinə zəmin yaradır. Eyni zamanda, həmin əməllər normal dövlətlərarası münasibətlərin pozulması, müxtəlif sahələrdə ölkələrin, təşkilat və vətəndaşların əməkdaşlığının əngəllənməsi kimi mənfi tendensiyalara da gətirib çıxara bilər.

Ümumiyyətlə, sözügedən cinayətkar fəaliyyətlərə əsas etibarilə qaçaqmalçılıq, narkotiklərin qanunsuz dövriyyəsi, kütləvi qırğın silahları da daxil olmaqla, qanunsuz silah-sursat ticarəti, qeyri-leqal miqrasiya və insan alveri aid edilir.

Bu gün cinayətkarlığa qarşı mübarizə Azərbaycan Prokurorluğunun qarşısında duran prioritet vəzifələrdən biridir. Kriminal şəbəkələrin üzvləri insan hüquq və azadlıqlarından, xüsusilə də, sərhədlərin şəffaflığından, eləcə də ölkələrarası iqtisadi əlaqələrdən məharətlə sui-istifadə etməyə cəhd göstərirlər. İndi bu təhdidlə mücadilə üçün hərtərəfli, çevik və prinsipial yanaşma tələb olunur. Məhz göstərilən faktorları nəzərə alaraq, prokurorluq cinayətkarlığın ən təhlükəli təzahürlərinə qarşı barışmaz mübarizə aparır.

İndi Ulu Öndərin vəfatından uzun illər keçsə də, Azərbaycan xalqının yaddaşına xilaskar, qurucu, yaradıcı lider kimi həkk olunan bu dahi insan təkcə bizim yox, bütün dünya azərbaycanlılarının fəxrinə çevrilmişdir. Heç kəs unutmamalıdır ki, Azərbaycanı parçalanmaqdan qurtaran, beynəlxalq aləmdə tanıdan, bugünkü firavan, azad həyatımızın banisi məhz Heydər Əliyevdir. O, Azərbaycan xalqının dahilik rəmzidir.

Heydər Əliyevə siyasət səhnəsində heç kim qalib gələ bilməmişdir. O, dövlətçilik tarixində Qalib Lider obrazını yaratdı. Azərbaycan tarixində böyük uğurları ilə yanaşı, həm də ən müxtəlif səbəblərdən məğlubiyyət anı yaşayan liderlər çox olmuşdur. Heydər Əliyev isə Azərbaycan xalqına qalibiyyətin canlı obrazını, lider örnəyini bəxş etdi. Bu, tariximizdə həmişəlik qürur ünvanı kimi qalacaq və onun siyasətinə də alternativ yoxdur.

Artıq fəxrlə deyə bilərik ki, Azərbaycan möhkəm, milli təhlükəsizliyini təmin edən, cinayətkarlığa qarşı mübarizədə qətiyyət göstərən qüdrətli dövlətə çevrilib və bu, böyük şəxsiyyətlərin reallaşdırdıqları inkişaf konsepsiyası sayəsində əldə olunan uğurlar ölkəmizin nurlu sabahının təminatçısıdır.

**Nail Əliyev**
**Baş Prokurorluğun Prokurorluqda istintaqa nəzarət idarəsinin prokuroru, ədliyyə müşaviri**



# Azərbaycanın taleyini və siyasətini keçdiyi ömür yolu ilə dəyişən, şanlı tarix yazan, hüquqi və dünyəvi dövlət quran Heydər Əliyev

*Mənim həyatım ən gənc vaxtlarımdan Azərbaycan xalqının taleyi ilə bağlıdır, Azərbaycana həsr olunubdur.*

***Heydər Əliyev***

Azərbaycanın çox əsrlik tarixinə nəzər saldıqda itkilərimiz qazandıqlarımızdan daim çox olmuşdur. Bu itkilərimiz məskunlaşdığımız tarixi torpaqlardan zorla köçürülməmizdə, soyqırımlara məruz qalmağımızda, torpaqlarımıza başqa millətlərin yerləşdirilməklə millətimizin etnik tərkibinin dəyişdirilməsində, millətin birlik ruhunda formalaşmasında və tərbiyələnməsində xidmətləri ola biləcək düşünür və şəxsiyyətlərinin məhv edilməsində, ən əsası torpaq itkilərimiz fonunda ifadə olunmuşdur. Tarixin müxtəlif vaxtlarında vahid, bütöv bir xalq kimi birləşməmizə imkan verilməmiş, daim qısa müddətli dövrlər ərzində dövlətçilik tariximiz olmuşdur. Tarixin birləşməyimizi tələb edən ən əsas mərhələlərində vahid bir nöqtədən çıxış edib birləşməyimiz bu və ya digər səbəblərdən mümkün olmamışdır. Nəticədə bütöv Azərbaycan cənub, şimal və qərb olaraq parçalanmış, torpaqlarımızda başqa bir dövlət yaradılmış, torpaqlarımız sayəsində qonşu dövlətlərin əraziləri genişlənmiş, son yüz ildə 1,5 milyona yaxın soydaşımız öz tarixi torpaqlarından zorla köçürülmüş və bu illər ərzində dəfələrlə soyqırıma məruz qalmışdır. Həmin ərazilərdən ya xalqımız zorla köçürülmüş, tarixi irsi tamamilə məhv edilmiş, ya da öz dövlətindən, xalqından zorla ayrılaraq yaşayışını davam etdirməkdədir. Bu tarixi dəyişməyə cəhd edən tarixi şəxsiyyətlərimiz olsa da bu tam və uzun bir müddət ərzində mümkün olmamışdır. Lakin, Ulu Öndər Heydər Əliyevin keçdiyi ömür yoluna nəzər salsaq bu tarixi dəyişdiyi, torpaqlarımızın mövcud sərhədlər daxilində qorunub saxlanmasında, ana dilimizin rəsmi dil kimi formalaşmasında, milli dəyərlərimizin və adət-ənənələrimizin gələcək nəsillərə ötürülməsində, milli kadrların yetişdirilməsində, ordu quruculuğunda, bir millətin, xalqın formalaşmasına səbəb ola biləcək bütün sahələrin inkişafında misilsiz və birinci dərəcəli xidmətləri olmuşdur. Belə ki, Ulu Öndər Heydər Əliyev keçdiyi ömür yolu ilə yeni bir şanlı tarix yaratmış, misilsiz fəaliyyəti gələcək nəsillərə bir nümunə olmuş, gərgin və fasiləsiz əməyi nəticəsində xalqımız yuxarıda sadaladığım hallara məruz qalmamış və bir daha məruz qalmaması üçün özünün zəngin ideya və təcrübələrini xalqına ötürmüş, keçmiş tarixi daim öz çıxışlarında xatırlatmış, hakimiyyətinin bütün mərhələlərində maarifləndirici istiqamət götürmüş və xalqın gələcək həyatına, yoluna işıq salmışdır. Bu gün isə onun fəaliyyətinin, gərgin əməyinin nəticələrindən nəinki xalqımız, hətta bütün qonşu xalqlar, müsəlman və türk dünyası faydalanır. Elə buna görə də, Ulu Öndərimizin adı dünyanın hər yerində böyük ehtiram, hörmətlə anılaraq uca tutulur. Ulu Öndər Heydər Əliyev Azərbaycanın Ümummilli Lideri kimi xalqı və dövləti qarşısındakı misilsiz xidmətləri Azərbaycan tarixini şanlı səhifələrini təşkil etməkdədir. Öz fəaliyyətində xalqının və dövlətinin ali mənafeyini daim əsas norma və prinsip kimi qəbul edən Ümummilli Liderimiz bugünkü müstəqil Azərbaycanın banisidir.

Müstəqil Azərbaycanın təməlini Ulu Öndər Heydər Əliyev hələ keçmiş SSRİ dönəmində, 1969-cu ildə Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi seçildikdən sonra atmağa başlamışdır. Həmin dövrdə respublikamızın inkişafı arzuolunmaz səviyyədə olmuş, bütün sahələrdə digər müttəfiq respublikalardan geridə qalmışdır. Ulu Öndərin rəhbərliyi və məqsəd yönlü siyasəti nəticəsində Azərbaycan SSRİ-da öz layiqli yerini tutmağa və adından bəhs etdirməyə başlamışdır. Müxtəlif sahələrin daimi tərəqqisi istiqamətində əsaslı addımlar atmış, sənaye

və iqtisadiyyatın yenidən dirçəldilməsi yönündə fəaliyyət istiqamətləri qurulmuşdur. Rəhbərliyi altında mühüm tədbirlər görülməklə digər sahələrin inkişafına geniş şərait yaradılmışdır. Ümummilli Liderin Respublikaya rəhbərlik etdiyi 1969–1982-ci illərdə ölkədə yüzlərlə zavod, fabrik, istehsal sahələri yaradılmış, yeni sənaye müəssisələri istifadəyə verilmiş, 1970-80-ci illərdə Azərbaycan dünyanın 65 ölkəsinə 350 adda məhsul ixrac etmişdir. Artıq 1982-ci ildə Azərbaycan iqtisadiyyatının inkişaf səviyyəsinə görə SSRİ miqyasında qabaqcıl yerdə dayanmışdır. Bu tədbirlərin fonunda isə ümummilli inkişafın təmin edilməsi naminə strateji quruculuq prosesinə başlanılmış, milli kadrların yetişdirilməsinə böyük əhəmiyyət və qayğı göstərilmiş, gənclərimiz SSRİ-nın ali məktəblərində təhsil alması üçün əsaslı addımlar atmışdır. Həmin kadrlar bugünkü müstəqil Azərbaycanın idarəçilik sistemində yer tutaraq dövlətçilik ənənələrinin yaşamasına öz töhfələrini vermişdir. Ulu Öndər çox gözəl bilirdi ki, ordusu olmayan bir xalq müstəqilliyini əldə edib qoruya bilməz. Buna görə də təşəbbüsü ilə Bakıda Cəmşid Naxçıvanski adına Hərbi Məktəb yaradılmışdır. Həmin vaxt bu qərarı vermək böyük cəsarət və qətiyyət tələb edirdi.

Azərbaycanda milli hərbi kadr hazırlığı üçün baza rolunu oynayacaq məktəbin yaradılmasına o vaxtkı SSRİ rəhbərliyi bir-birinin ardınca Moskvadan Bakıya göndərilən komissiyalar Azərbaycanda belə bir hərbi məktəbə ehtiyac olmadığını əsaslandırmağa çalışsalar da, Ümummilli Liderin mahir diplomatiyası və uzaqgörən siyasəti bu cəhdlərin qarşısını almış, həmin məktəbin fəaliyyəti Azərbaycanda hərb sənətinə marağın güclənməsinə, milli zabit kadrların hazırlanmasına gətirib çıxarmışdır. Təsadüfi deyil ki, C.Naxçıvanski adına Hərbi Məktəb Azərbaycan müstəqilliyini bərpa edəndən sonra ordu quruculuğunda əsas bazalardan birinə çevrilmişdir.

Milli-mənəvi dəyərlərimizin mənimsənilməsində, onun daha da təkmilləşdirilməsində də doğma dilimizin müstəsna rol oynadığı şübhəsizdir. Bu vacib amili nəzərə alan Ulu Öndər Heydər Əliyevin qərarlığı sayəsində 1978-ci ildə Azərbaycan SSRİ-nin Konstitusiyasında Azərbaycan dili dövlət dili kimi təsbit olunmuşdur. Bundan sonra, milli dəyərlərimizin təbliği və ideoloji əsasların gücləndirilməsi yönündə atılan addımlar ardıcıllıqla davam etdirilmişdir. Azərbaycan dilinin idarəçilikdə geniş tətbiqi, fikir, düşüncə sahiblərinin, yaradıcı insanların keçmiş ittifaq miqyasında yubileylərinin keçirilməsi, elmi, ədəbi, mədəni abidələrin planlı şəkildə tədqiqi və nəşri Ulu Öndərin milli dövlətçiliyimizin ideoloji əsaslarının möhkəmləndirilməsi istiqamətində məqsədyönlü fəaliyyətinin praktik səmərəli nəticələri idi. Həmin dövrdə çəkilmiş kinolar və yazılmış əsərlərdə də bu ideoloji meyarlar əsas götürülməklə azadlıq ideyaları pik həddə çatmışdır. Bu özünü "Babək" filimdə və Bəxtiyar Vahabzadənin yazmış olduğu "Gülüstan" poemasında bariz göstərmişdir. Ustad şairimiz Bəxtiyar Vahabzadənin "Gülüstan" poeması Sovet imperiyasının repressiya maşının ən güclü vaxtlarında qələmə alınmış və Azərbaycan xalqının milli ruhunun, qan yaddaşının oyanmasında, istiqlal və bütövlük ideallarının qorunmasında müstəsna rol oynayan möhtəşəm əsərlərindəndir. Həmin illərdə dillər əzbəri olan "Gülüstan" poemasına görə Bəxtiyar Vahabzadənin taleyini 30-ci illərdə ən yaxşı halda



sürgün həyatı yaşamış mütəfəkkirlərin aqibəti gözlədiyi halda Ulu Öndər buna mane olmuş və şairimizi böyük bir bəladan, ölüm və ya sürgün həyatından xilas etmişdir. Bunun nəticəsində Azərbaycan xalqı müstəqillik qazandıqdan sonra da böyük bir şairin varlığından bəhrələnib mənəvi qidalanıb maariflənmişdir. "Babək" filmində isə ölüm ayağında belə olsa aktyorun azadlıq fikirlərini səsləndirməsi aydındır ki, sovet ideologiyası ilə heç cür uyğun gələ bilməzdi. Buna baxmayaraq böyük büdcə və gərgin bir əmək sayəsində əmələ gələn kino güclü bir Ulu Öndər siyasəti və qayğısı nəticəsində işıq üzü görmüş, həmin dövrdə və ondan sonrakı nəsillərə azadlıq ideyalarının yayılmasında mühüm və öncül rol oynamışdır. Bundan başqa, 26.10.1982-ci ildə Ulu Öndər Heydər Əliyev təşəbbüsü, diqqət və qayğısı ilə görkəmli Azərbaycan şairi və dramaturqu, fəlsəfi lirikanın təkrarsız nümunələrini yaradan Hüseyn Cavidin Sibirin əlçatmaz yerlərindən cənazəsinin qalıqlarının Azərbaycana gətirilməsi ədəbi mühitimizdə əlamətdar bir tarix, uğurlu və cəsarətli bir addımın məntiqi nəticəsi kimi böyük ictimai-siyasi hadisə olmuşdur.

Bütün digər sahələrdə olduğu kimi, dövlət idarəçiliyi sistemində Ulu Öndər neqativ halların qarşısını alınmasından ötrü hüquqi bazanın formalaşması üçün ardıcıl addımlar atmışdır. Özünün təkmil dövlətçilik konsepsiyasında ədalət, qanunçuluq və hüquq qaydalarının təminatına da hər zaman üstünlük verən Ümummilli Lider Heydər Əliyev "ədaləti ədalətsizliklə bərpa etmək olmaz" deyərək dövlət idarəçiliyində

qanunun aliliyini, ədaləti əsas meyar kimi müəyyənləşdirmiş, vəzifə səlahiyyətləri ilə bağlı cinayətlərə, rüşvətxorluğa qarşı barışmaz münasibət nümayiş etdirmişdir. Bütün bu fəaliyyətlərin davamı kimi Ədliyyə Nazirliyinin də yenidən yaradılması Ümummilli Lider Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövrə təsadüf etmişdir. Azərbaycan SSR Ali Soveti Rəyasət Heyətinin 27 oktyabr 1970-ci il tarixli qərarı ilə təsis edilmiş Ədliyyə Nazirliyi sabit fəaliyyət göstərməyə başlamış, ədliyyə işi təkmilləşdirilərək onun gələcək inkişafı üçün zəmin yaranmışdır. Həmçinin, 1979-cu il noyabrın 30-da isə prokurorluq orqanlarının fəaliyyətinin tənzimlənməsində mühüm qanunvericilik aktı olan "Prokurorluq haqqında" SSRİ Qanunu qəbul edilmişdir. Ulu Öndərin 1969-1982-ci illərdə Azərbaycanın rəhbəri kimi gördüyü işlər xalqın yaddaşında daim qalacaqdır. 1982-ci ilin dekabrında isə Siyasi Büronun üzvü seçilən Heydər Əliyev SSRİ Nazirlər Soveti sədrinin birinci müavini vəzifəsinə təyin edilmiş, bu vəzifədə işləyərkən Heydər Əliyev SSRİ-nin iqtisadi, sosial və mədəni həyatının ən mühüm sahələrinə rəhbərlik etmişdir. Heydər Əliyev 1987-ci ilin oktyabrında Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsi Siyasi Bürosunun və şəxsən baş katib Mixail Qorbaçovun yeritdiyi siyasi xəttə etiraz olaraq tutduğu vəzifələrdən istefa vermişdir. Bundan sonra, Ulu Öndərin hakimiyyətdə olmadığı illər Azərbaycan üçün çox ağır olmuş, xalq olaraq köçə, torpaq itkisinə, soyqırıma məruz qalmışdır. Sanki keçmiş, faciəvi tarix təkrarlanmış, millət olaraq süqutun, yox olmağın astanasına gəlmişdir. Ulu Öndər Heydər Əliyevin hakimiyyətdə olmadığını şans kimi dəyərləndirilən ermənilər və onun havadarları xalqımıza qarşı xain planlarını və cinayətkar niyyətlərini həyata keçirmiş, nəticədə bir milyon vətəndaşımış qaçqın və məcburi köçkün vəziyyətinə düşmüş və 20 faiz torpaq itkisi baş vermişdir. Hakimiyyətdə olmadığı tarixlərdə belə xalqının başına gətirilmiş bəlalara hər zaman haqq səsini ucaldan Heydər Əliyev 1990-cı il yanvarın 19-dan 20-nə keçən gecə sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciə, cinayətlə əlaqədar, yanvarın 21-də Azərbaycanın Moskvadakı nümayəndəliyində həyatının təhlükə altında olmasına baxmayaraq bəyanatla çıxış edərək, Azərbaycan xalqına qarşı törədilmiş cinayətin təşkilatçıları və icraçılarının cəzalandırılmasını tələb etmişdir. O, Dağlıq Qarabağda yaranmış kəskin münaqişəli vəziyyətlə bağlı SSRİ rəhbərliyinin ikiüzlü siyasətinə etiraz əlaməti olaraq, 1991-ci ilin iyulunda Sovet İttifaqı Kommunist Partiyasının sıralarını tərk etmişdir. 1990-cı il iyulun 20-də Bakıya qayıdan Heydər Əliyev iki gün sonra Naxçıvana yola düşüb, həmin ildə də Azərbaycan SSR xalq deputatı və Naxçıvan MSSR xalq deputatı seçilmiş, 1991-ci il sentyabrın 3-də Heydər Əliyev Naxçıvan Muxtar Respublikası Ali Sovetinin sədri seçilib və müvafiq qanunvericiliyə əsasən həm də Azərbaycan Respublikası Ali Soveti sədrinin müavini olmuşdur. Bu vəzifədə o, 1993-cü ilə kimi çalışmış, Naxçıvanın blokadadan çıxarılmasına və işğal altına düşməməsi üçün fövqəltəbii güclə çalışmış və buna nail olmuşdur. Həmin müddətdə Ulu Öndər Heydər Əliyev Naxçıvandan Azərbaycan xalqının azadlıq, müstəqillik uğrunda mübarizəsinə rəhbərlik etmişdir. Ulu Öndər Heydər Əliyevin müdrik, uzaqgörən siyasəti sayəsində muxtar respublikanın adından "sovet sosialist" sözləri çıxarılaraq, Azərbaycan Xalq Cümhuriyyətinin üçrəngli, aypara və səkkizguşəli ulduz nişanlı bayrağı dövlət bayrağı kimi qəbul edilmiş və bu barədə Azərbaycan parlamenti qarşısında qanunvericilik təşəbbüsü qaydasında məsələ qaldırılmışdır. Ulu Öndər Heydər Əliyev Azərbaycan Ali Sovetinin 1991-ci il fevralın 5-də açılmış sessiyasında çıxışında mövcud siyasi vəziyyəti əhatəli təhlil etmiş, böhranın, habelə, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini, SSRİ və respublika rəhbərlərinin yol verdiyi ciddi qüsurları və onları aradan qaldırmağın, təcavüzkar Ermənistana qarşı müdafiə mövqeyindən çıxıb birlikdə mübarizə aparmağın vacibliyini qeyd etmişdir. Heydər Əliyev 1992-ci il noyabrın 21-də Yeni Azərbaycan Partiyasının Naxçıvan şəhərində keçirilmiş təsis konfransında partiyanın sədri seçilmiş, 1993-cü ilin may-iyun aylarında ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandığına görə, Azərbaycan xalqı Heydər Əliyevin hakimiyyətə gətirilməsi tələbini irəli sürmüş və ölkənin o dövrkü rəhbərliyi onu Bakıya dəvət etməyə məcbur olmuşdur. Heydər Əliyev 1993-cü il iyunun 15-də Azərbaycan Respublikası Ali Sovetinin sədri seçilib, iyunun 24-dən isə Azərbaycan Respublikası Prezidentinin



səlahiyyətlərini həyata keçirməyə başlamış, 1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçilmişdir.

Ulu Öndər dövlət müstəqilliyinin əldə edilməsi qədər onun qorunub saxlanmasının çətin olduğunu bildiyi üçün istər ordu quruculuğu, istərsə də iqtisadi müstəqilliyin əldə olunması istiqamətində növbəti dəfə çox mühüm addımlar atmışdır. Ümummilli Lider ilk növbədə, ölkədə ictimai-siyasi sabitliyin bərpası

istiqamətində gərgin iş aparmış, qeyri-qanuni silahlı dəstələr zərərsizləşdirilmiş, respublikamızın sosial-iqtisadi yüksəlişinə yol açan ən mühüm amil kimi cəmiyyətdə ictimai-siyasi sabitlik bərqərar edilmişdir. Dövlət çevrilişlərinin qarşısı alınmış, Azərbaycan vətəndaş müharibəsi təhlükəsindən xilas olmuşdur. Müstəqil dövlətimizin ərazi bütövlüyünün bərpası və Ermənistan silahlı qüvvələrinin hücumlarının qarşısının alınması, ölkənin müstəqilliyinin qorunub saxlanması üçün ordu quruculuğu istiqamətində kompleks tədbirlər həyata keçirilmişdir. Ulu Öndər bir ictimai-iqtisadi formasiyadan digərinə keçid dövründə respublikanın qarşısında duran strateji vəzifə və hədəfləri düzgün müəyyənləşdirməklə, dünyanın qabaqcıl dövlətlərinin təcrübəsində sınaqdan uğurla çıxmış, müsbət nəticələri sübut olunmuş inkişaf kursunun Azərbaycan gerçəkliyinə adekvat modelini yaratmışdır. Öndərin hakimiyyətə gəlişi ilə öncə ölkədəki ictimai-siyasi sabitlik təmin etmiş, sonra iqtisadi inkişafı təmin etmək məqsədilə sahibkarlar üçün əlverişli investisiya mühiti yaratmış, qanunvericilik bazasının formalaşdırılmasına start verilmişdir. Azərbaycanın müharibə şəraitində olmasına baxmayaraq böyük dövlətlərin iqtisadi maraq dairəsinə çevirmiş və ardıcıl, məqsədyönlü tədbirlər görmüşdür.

Ulu Öndər 1994-cü ildə İran, Rusiya, Böyük Britaniya, ABŞ kimi dövlətlərin maraqları bir müqavilədə – "Əsrin müqaviləsi"ndə bacarıqla uzlaşdırmışdır. Bu uzlaşma sonrakı illərdə Azərbaycanın hasilat sektorunda onlarla yeni müqavilələrin imzalanmasını, 1995–2016-cı illərdə ölkənin neft-qaz sektoruna 68.2 milyard dollar xarici investisiyanın axmasını təmin etmişdir. 1999-cu ilin noyabrında Türkiyənin İstanbul şəhərində keçirilmiş ATƏT-in Sammitində ABŞ, Türkiyə, Azərbaycan, Gürcüstan, Qazaxıstan və Türkmənistanın prezidentləri tərəfindən Bakı-Tbilisi-Ceyhan (BTC) "Əsas İxrac Neft Kəməri"nin çəkilişi haqqında dövlətlərarası Müqavilə imzalanmışdır. 2002-ci ilin sentyabrın 18-də Bakıda, Səngəçal terminalında Ümummilli Liderimiz Heydər Əliyevin, Türkiyə və Gürcüstan prezidentlərinin iştirakı ilə Bakı-Tbilisi-Ceyhan ixrac neft kəmərinin təməl daşı qoyulmuşdur.

Bu gün Ümummilli Lider Heydər Əliyevin müəllifi olduğu neft strategiyasını Prezident İlham Əliyev uğurla davam etdirməkdədir. Yeni neft strategiyasının uğurlu icrası sayəsində ölkəmiz iqtisadi imkanlarını daha da artırmış, Avropanın etibarlı tərəfdaşına çevrilmişdir. Neft-qaz sektorunda həyata keçirilən çoxmilyardlı layihələr bu sahəyə bağlı olan və olmayan digər sahələrin də inkişafına təkan vermişdir. Azərbaycanda makroiqtisadi sabitliyin təmin olunması, iqtisadi idarəetmədə islahatların aparılması istiqamətində Ulu Öndərin atdığı digər addım Dünya Bankı qrupu və Beynəlxalq Valyuta Fondu ilə uğurlu əməkdaşlığın qurulması olmuşdur. Bu əməkdaşlıq sayəsində Azərbaycan 1990-cı illərin ortalarından etibarən iqtisadi islahatları həyata keçirmək üçün böyük ehtiyac duyduğu yüz milyonlarla dollar güzəştli kreditləri əldə edə bilmişdir. Sonrakı mərhələdə bu qurumlar ölkə iqtisadiyyatının müxtəlif sektorlarında icra olunan layihələrə milyardlarla dollar vəsait ayırdılar. Məhz Heydər Əliyevin təşəbbüsü ilə Azərbaycanda böyük özəlləşmə və torpaq islahatı başlanmış, ölkəmiz MDB məkanında torpaq islahatlarına başlayan ilk respublika olmuşdur. Bunun nəticəsində 3,5 milyona yaxın vətəndaşımız ən yararlı və münbit torpaqları ilə təmin edilərək torpaq mülkiyyətçisi olmuşdurlar. Ulu Öndər tərəfindən 17 iyun 1996-cı il tarixli "İstehsal, xidmət, maliyyə-kredit fəaliyyətinə dövlət nəzarətinin qaydaya salınması və əsassız yoxlamaların qadağan edilməsi barədə" Fərman imzalamışdır. Bununla da iqtisadiyyatın, sahibkarlığın inkişafına mane olan əsassız amillər aradan qaldırılmışdır. Ulu Öndərin təşəbbüsü ilə sahibkarlığın inkişafına dair dövlət proqramları qəbul edilmişdir. Ölkə daxilində atılan bu addımlarla yanaşı, Ulu Öndər Heydər Əliyevin məqsədyönlü və uzaqgörən xarici siyasət strategiyası sayəsində Azərbaycan beynəlxalq hüququn tamhüquqlu subyektinə və beynəlxalq münasibətlər sisteminin müstəqil tərəfdaşına çevrilmişdir. Ümummilli Liderimiz ölkəmizin sahib olduğu xarici siyasət resurslarından səmərəli surətdə istifadə edərək Azərbaycanı dünya miqyasında sayılan və istinad edilən tərəfdaş ölkələrdən birinə çevirmişdir. Bunu nəticəsi idi ki, 1996-cı il dekabrın 2-4-də Portuqaliyanın paytaxtı Lissabon şəhərində ATƏT-in növbəti zirvə toplantısında Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyev çevik və dəqiq diplomatik addımları sayəsində Azərbaycanın Qarabağla bağlı mövqeyi dünya birliyi tərəfindən müdafiə olunmasına nail olmuşdur. Ermənistan istisna





olmaqla, ATƏT-in üzvü olan 53 Avropa ölkəsi Dağlıq Qarabağ probleminin həll edilməsində Azərbaycanın milli mənafelərini əks etdirən prinsipləri açıq şəkildə dəstəkləmişdir.

Zaman keçdikcə Azərbaycan Cənubi Qafqaz bölgəsinin hərbi-siyasi təhlükəsizliyini təmin edən aparıcı qüvvəsinə çevrilmişdir. Bununla yanaşı, ölkəmiz regionda reallaşdırılan transmilli layihələrin mərkəzi oyunçusu qismində çıxış etməklə Cənubi Qafqazda yeni formatlı və keyfiyyətli əməkdaşlıq platformalarının gerçəkləşməsinə təkan vermişdir. Bir sözlə, Ümummilli Lider Heydər Əliyevin praqmatik xarici siyasət strategiyası Azərbaycanı dünya siyasətinin layiqli təmsilçilərindən birinə çevirmişdir. Bu da kimsəyə sirr deyil ki, Ümummilli Lider Heydər Əliyev bir lider, siyasi xadim kimi hər zaman Azərbaycan iqtisadiyyatının inkişafına böyük önəm vermişdir. Ulu Öndərin müstəqil Azərbaycanın hüquqi və siyasi-iqtisadi suverenliyinin təmin olunması prosesi daha da sürətlənmişdir.

Azərbaycanın hüquqi və dünyəvi dövlətə çevrilməsi istiqamətində də fundamental addımlar atmışdır. Ölkədə geniş vüsət almış cinayətkarlığın bütün ünsürlərinə qarşı qəti mübarizə aparmaq üçün 1994-cü ildə imzaladığı xüsusi Fərman qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsində əsaslı dönüş yaratmışdır. Eyni zamanda, milli dövlətçiliyin inkişafında korrupsiyanın aradan qaldırılmasının əhəmiyyəti nəzərə alınaraq bu ümumbəşəri sosial bəla ilə mübarizəyə başlanılmışdır. Hüquqi və dünyəvi dövlətin qurulması istiqamətində , Ulu Öndər Heydər Əliyevin rəhbərliyi altında 1995-ci ilin 12 noyabrında ümumxalq səsverməsi yolu ilə müstəqil Azərbaycan Respublikasının Konstitusiyası qəbul edilmişdir. Bununla da dövlətimizin tarixində hakimiyyət bölgüsü prinsipini, demokratik, hüquqi və dünyəvi dövlət quruculuğunun hüquqi əsaslarını, insan hüquq və azadlıqlarının qeyd-şərtsiz təmin olunmasının bünövrəsini qoymuşdur. Azərbaycan demokratik, hüquqi, dünyəvi dövlət kimi ilk dəfə olaraq insan hüquqlarının prioritetliyini və hakimiyyət bölgüsünü özünün gələcək inkişaf yolu kimi seçmişdir. Demokratik tələblərə tamamilə cavab verən bu ali sənəd müstəqil Azərbaycanın ilk Konstitusiyası kimi tarixilik qazanmışdır. 1995-ci ildə müstəqil Azərbaycanın parlamentinə keçirilən ilk seçkilər isə dövlət müstəqilliyinin möhkəmləndirilməsi prosesinin hüquqi bazasının yaradılmasına daha geniş imkanlar açmışdır. Bu hadisə dövlət müstəqilliyinin prioritet istiqamətlərini müəyyənləşdirmək və həyata keçirmək yolunda əsas istinad mənbəyi rolunu oynamışdır. Bununla da Azərbaycanın dünya dövlətləri sırasında özünəlayıq yer tutması, beynəlxalq münasibətlərin subyektinə çevrilməsi istiqamətində ardıcıl fəaliyyətin əsası qoyulmuşdur. Ulu Öndər Heydər Əliyevin humanist siyasəti sayəsində 1995-ci ilin may ayında əfv və amnistiya təsisatları bərpa edilmişdir. 1995–1997-ci illərdə Azərbaycan insan hüquq və azadlıqlarının, demokratik təsisatların təminatı ilə bağlı bir sıra beynəlxalq konvensiyalara, sazişlərə qoşulmuşdur. 1996-cı il fevralın 21-də Heydər Əliyevin təşəbbüsü ilə yaradılan hüquqi islahatlar komissiyası hüquqi islahatların prioritetlərini müəyyən edərək və Sovet İttifaqından qalmış hüquq sisteminin fəlsəfəsini tamamilə dəyişdirmişdir. Hərtərəfli fəaliyyət, gərgin zəhmət nəticəsində qanunvericilik tədbirləri çərçivəsində vacib qanunların layihələri hazırlanmış və nüfuzlu beynəlxalq qurumlarda ciddi ekspertizadan sonra qəbul edilmişdir. Onun rəhbərliyi ilə aparılmış məhkəmə-hüquq islahatı nəticəsində keçmiş sovetlər birliyindən miras qalmış ölkənin hüquq sistemi demokratik prinsiplər əsasında tamamilə yenidən qurulmuşdur.

Hüquq sisteminin islahatı nəticəsində ölkədə birinci instansiya, apellyasiya və kassasiya instansiyalarından ibarət yeni 3 pilləli müstəqil məhkəmə sistemi yaradılmışdır. Ulu Öndər Azərbaycan Respublikasında insan hüquqlarının təmin edilməsini ümumdövlət vəzifəsi hesab edərək, ilk dəfə insan hüquqları üzrə müvəkkil institutunun təsis edilməsi barədə 22 fevral 1998-ci il tarixli “İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında” Fərman imzalanmışdır. 18 iyun 1998-ci il tarixli sərəncamı ilə təsdiq edilmiş “İnsan Hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı”nda İnsan Hüquqları üzrə Müvəkkil təsisatının yaradılması nəzərdə tutulmuşdur. 28 dekabr 2001-ci il tarixdə Azərbaycan Respublikası Milli Məclisi tərəfindən “Azərbaycan Respublikasının İnsan Hüquqları üzrə Müvəkkili (Ombudsman) haqqında” Konstitusiya Qanunu qəbul edilmiş, 5 mart 2002-ci ildə isə Ulu Öndər tərəfindən bu Qanunun tətbiq edilməsi haqqında Fərman imzalanmış və beləliklə də insan hüquqlarına riayət olunması üzərində parlament nəzarətini təşkil etmək üçün demokratik dövlətlərin hüquq sistemində mühüm rol

oynayan qeyri məhkəmə müdafiə mexanizmi insan hüquqları müvəkkili (Ombudsman) təsisatı yaradılması başa çatdırılmışdır. Bütün bunlar isə ölkəmizdə insan və vətəndaş hüquq və azadlıqlarının təmini və gücləndirilməsi istiqamətində əhəmiyyətli faktor kimi çıxış etmişdir. Azərbaycan Respublikasının insan hüquqlarının qorunması sahəsində əldə etdiyi ən mühüm nailiyyətlərdən biri də BMT və Azərbaycan hökuməti arasında 1998-ci ilin avqustunda imzalanmış "İnsan hüquqları və demokratiyanın dəstəklənməsi sahəsində birgə layihə haqqında" memorandum olmuşdur. Həmin memoranduma əsasən, BMT insan hüquqlarını dəstəkləmək və müdafiə etmək sahəsində ümumi biliklərin və potensialın Avropa standartlarına uyğunlaşdırılması, prosedur və hesabatlar sisteminin təkmilləşdirilməsi, mülki cəmiyyətin inkişafı və digər məsələlər sahəsində Azərbaycan Respublikası hökuməti ilə birgə tədbirlər həyata keçirmişdir. 1998-ci ilin 22 fevralında Ümummilli Lider Heydər Əliyev "İnsan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsi sahəsində tədbirlər haqqında" fərman imzalamış, insan hüquqları sahəsində həyata keçirilən tədbirlərin istiqaməti və konsepsiyası müəyyən edilmişdir. Bu sənədlə insan hüquqları məsələsi ümumdövlət səviyyəsinə qaldırılmışdır. 1998-ci il 18 iyul tarixdə isə Azərbaycan Respublikası Prezidentinin fərmanı ilə "İnsan hüquqlarının müdafiəsinə dair Dövlət Proqramı" təsdiq olunmuşdur. Dövlət Proqramına əsasən, Azərbaycanın qoşulduğu konvensiyalara və qəbul etdiyi qanunvericilik aktlarına, eyni zamanda Konstitusiyanın müddəalarından irəli gələn tələblərə müvafiq olaraq insan hüquqlarının müdafiəsi sahəsində görülən işlərin səmərəliliyi daha da artırılmışdır. Ulu Öndər Heydər Əliyev 1993-cü ildən tətbiqinə moratorium qoyduğu ölüm hökmü 1998-ci il fevralın 10-da tamamilə ləğv edilmiş, Azərbaycan bütövlükdə Şərqdə bu qətiyyətli və tarixi qərara imza atan ilk ölkə olmuşdur. Yüksək humanizmin və insanpərvərlik örnəyinin bariz ifadəsinə çevrilən bu addım Azərbaycanın beynəlxalq nüfuzunu yüksəltmiş, 2001-ci ilin 25 yanvarında müstəqil respublikamız Avropa Şurası kimi mötəbər beynəlxalq təşkilata tamhüquqlu üzv qəbul edilmişdir. Avropa insan hüquqları Konvensiyasına qoşulmuş və bununla Avropa İnsan hüquqları Məhkəməsinin yurisdiksiyasını qəbul edilməsi prosesini daha da sürətləndirmişdir. Milli insan hüquqları standartlarının Avropa İnsan hüquqları konvensiyasına uyğunlaşdırılması məqsədilə 2002-ci il dekabrında "İnsan hüquq və azadlıqları haqda" Konstitusiya Qanunu qəbul edilmişdir. Ulu öndərimizin 2002-ci il 22 iyun tarixli fərmanı ilə Konstitusiyada dəyişikliklər edilməsi üçün referendum təyin olunmuşdur. Fərmanda göstərilmişdir ki, respublikamızın "İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında" Avropa Konvensiyasına qoşulması, ölkəmizdə məhkəmə islahatlarının həyata keçirilməsi, seçki sisteminin təkmilləşdirilməsi və digər hallarla əlaqədar yeni müddəaların Azərbaycan Respublikası Konstitusiyasında əks etdirilməsi zəruridir. Referendumun nəticələrinə müvafiq olaraq Konstitusiyaya edilən düzəlişlər insan hüquqları və azadlıqlarının qorunmasını daha da gücləndirdi, vətəndaşlara məhkəmələrə, Ombudsmana, Konstitusiya Məhkəməsinə müraciət etmək hüququ vermiş, ölkənin seçki sistemini daha da təkmilləşdirmişdir. Sözsüz ki, bütün bunlar Ulu Öndərimiz Heydər Əliyevin əsasını qoyduğu böyük islahatlardır.

Bu hüquqi islahatlar Ulu Öndər Heydər Əliyev siyasətinin davamçısı olan Prezident İlham Əliyevin rəhbərliyi altında davam etdirilməkdədir. Heydər Əliyevin irsi gələcək nəsillər üçün zəngin xəzinə olacaq onun misilsiz fəaliyyəti nəticəsində yaradılmış özül və tərəfindən əsası qoyulan siyasi kurs bugünkü dinamik sosial-iqtisadi yüksəlişin, inkişafın təməl daşını təşkil etməkdədir. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin dəfələrlə qeyd etdiyi kimi, Ulu Öndər Heydər Əliyevin siyasəti Azərbaycanın hərtərəfli inkişafına indi də xidmət etməkdədir. Ümummilli Lider Heydər Əliyevin əsasını qoyduğu iqtisadi, siyasi və hüquqi inkişaf strategiyasını sayəsində Azərbaycanın bir dövlət kimi öz ayaqları üzərində sərbəst inkişafını təmin etmişdir. Bu strategiyanın Prezidentimiz İlham



Əliyev tərəfindən bu gün də uğurla davam etdirilməsi nəticəsində Azərbaycan regionun lider dövlətinə çevrilmiş və 44 günlük Vətən müharibəsində qalib çıxaraq şanlı və qalib bir tarix yazmış, Azərbaycan 30 illik işğala son qoymuş, mürəkkəb geosiyasi vəziyyətdə ərazi bütövlüyünü bərpa etmişdir.

**Tural Nəbiyev**
**Baş Prokurorluğun Dövlət ittihamının müdafiəsi üzrə idarəsinin Rayon (şəhər) məhkəmələrində dövlət ittihamının müdafiəsi üzrə şöbəsinin prokuroru, kiçik ədliyyə müşaviri**

# Ulu Öndərin uzaqgörən siyasəti və zəngin idarəçilik təcrübəsi sayəsində ölkəmizin dövlətlər sırasında layiqli yeri




**Hər bir xalqın tarixində xilaskar rolunu oynayan dahi şəxsiyyətlər olmuşdur. Həmin dahilər öz qətiyyətli siyasətləri ilə mənsub olduqları xalqı yaşadığı böhranlı vəziyyətlərdən çıxarmağı bacarmışlar. Qeyri-adi zəka sahibi, böyük şəxsiyyət, müdrik dövlət xadimi, Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev də həmin şəxsiyyətlərdən biri kimi Azərbaycan və dünya tarixində parlaq və silinməz iz qoymuşdur.**

İntibah və milli şüurun oyanışı Heydər Əliyevin hakimiyyətə gəlişi ilə başlamış, hüquqi dövlət ideyalarının əsası onun tərəfindən qoyulmuş, dövlətimizin müstəqilliyi onun sayəsində əbədi xarakter almışdır. Ölkəmiz layiq olduğu mərtəbəyə Ulu Öndərin uzaqgörən siyasəti, qətiyyəti, müdrikliyi, zəngin dövlətçilik təcrübəsi sayəsində yüksələ bilmişdir.



Bu gün Azərbaycan dövlətinin istisnasız bütün sahələr üzrə fəaliyyət istiqamətlərində Ulu Öndər Heydər Əliyevin əməyi, onun qoyduğu təməl prinsiplərin izi görünür və onun dövlətçilik siyasəti sarsılmaz şəkildə uğurla davam etdirilir.

Ulu Öndərin 1969 – 1982-ci illərdə Azərbaycanın rəhbəri kimi xalqı, dövləti üçün gördüyü işlər tariximizdə mühüm rol oynamışdır. Heydər Əliyevin ölkə rəhbərliyinə gəlişi keçmiş SSRİ-nin geridə qalmış respublikalarından biri sayılan Azərbaycanda həyat ritmini tamamilə dəyişdi, sənaye, iqtisadiyyat və kənd təsərrüfatında, təhsil, mədəniyyət, eləcə də bütün sahələrdə böyük uğurlar əldə edildi.

Məhz həmin illərdə bugünkü dövlət müstəqilliyimizin möhkəm təməli qoyuldu, kadr korpusunun milliləşdirilməsi istiqamətində bir sıra işlər görüldü, hər il yüzlərlə gənc müxtəlif mühüm, o cümlədən hərbi ixtisaslara yiyələnmək üçün SSRİ-nin ən qabaqcıl ali məktəblərinə göndərildi, azərbaycanlılar mühüm dövlət vəzifələrinə irəli çəkildilər.

Dövlətçilik konsepsiyasında ədalət, qanunçuluq və hüquq qaydalarının təminatına hər zaman üstünlük verən Ümummilli Lider “ədaləti ədalətsizliklə bərpa etmək olmaz” prinsipi ilə çıxış edərək dövlət idarəçiliyində hüquqi dövlətin özül daşlarından sayılan qanunun aliliyini, ədaləti əsas meyar kimi müəyyənləşdirmişdir.

1978-ci ildə Azərbaycan SSR Konstitusiyasının qəbul edilməsi və orada Azərbaycan dilinin dövlət dili kimi təsbit edilməsi Ümummilli Lider Heydər Əliyevin dövlətimiz və xalqımız üçün etdiyi xidmətlər sırasında xüsusi yer tutur və bu, həmin dövr üçün kifayət qədər cəsarətli addım idi. Təbii ki, bu, Ulu Öndərin dövlətimiz və xalqımız üçün etdiyi yeganə cəsarətli addım olmamışdır.

Sonralar Heydər Əliyev SSRİ kimi nəhəng dövlətin rəhbərliyində Siyasi Büronun üzvü, Nazirlər Soveti sədrinin birinci müavini kimi yüksək mövqe və vəzifə tutmaqla, artan nüfuzundan və yüksək vəzifənin açdığı imkanlardan istifadə edərək, İttifaq büdcəsindən Azərbaycana daha çox vəsait ayrılmasına, bir sıra ittifaqmiqyaslı layihələrin Bakıya yönəldilməsinə nail oldu.

Lakin Mixail Qorbaçov hakimiyyətə gəldikdən sonra Heydər Əliyevə qarşı həsəd və qısqanclıq hisslərinin baş qaldırması, Azərbaycan əleyhinə çirkin niyyətlərin həyata keçirilməsi Ulu Öndərin vəzifədən uzaqlaşdırılması ilə nəticələndi.

Bundan istifadə edən ermənilər də ölkəmizə qarşı

uydurma ərazi iddiaları irəli sürərək əzəli torpağımız olan Dağlıq Qarabağ ətrafında hərbi təcavüzə başladı.

1990-cı ilin yanvarında keçmiş SSRİ rəhbərliyinin Azərbaycana qərəzli münasibətinin təzahürü olaraq, Bakıya sovet ordusunun yeridilməsi ilə dinc etirazçılara qarşı misli görünməmiş qanlı faciə törədildi. Əfsuslar olsun ki, həm SSRİ, həm də o vaxtkı Azərbaycan rəhbərliyi bu qanlı cinayətin bilavasitə təşkilatçısı və iştirakçısı olduğundan, onun açılması və cinayətkarların məsuliyyətə cəlb olunmasından ötrü hər hansı tədbir görmədi, əksinə bu vəhşiliyi gizlətmək üçün əlindən gələni etdi. Heydər Əliyev Azərbaycan tarixində baş vermiş hadisələrə daim obyektiv yanaşmış və heç nədən qorxmadan düzgün hüquqi qiymət verməyi bacarmışdır. Belə ki, 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəyə ilk düzgün hüquqi qiymət də məhz onun tərəfindən verilmiş və bununla əlaqədar ertəsi gün, yəni 21 yanvar 1990-cı il tarixdə Azərbaycanın Moskvadakı nümayəndəliyinə ilk gələn insan olmaqla orada keçirilən iclasda bəyanatla çıxış edərək, heç nədən çəkinmədən hələ o zaman SSRİ-yə rəhbərlik edən yüksək mənsəbli şəxsləri kəskin tənqid etmiş, həmin hadisələrdə birbaşa SSRİ rəhbərliyinin məsuliyyət daşıdığını açıqca ifadə etmiş, Azərbaycan xalqına qarşı törədilmiş bu amansız cinayətin təşkilatçıları və icraçılarının cəzalandırılmasını tələb etmişdir. Sözsüz ki, bu həmin dövr üçün ağlasığmaz dərəcədə cəsarətli bir çıxış idi. Bundan başqa, o, Dağlıq Qarabağda yaranmış kəskin münaqişəli vəziyyətlə bağlı isə SSRİ rəhbərliyinin ikiüzlü siyasətinə etiraz əlaməti olaraq, 1991-ci ilin iyulunda Sovet İttifaqı Kommunist Partiyasının sıralarını tərk etmişdir. Onun 20 Yanvar hadisəsi ilə bağlı bəyanatı, eləcə də Dağlıq Qarabağla əlaqədar atdığı addım bir siyasətçi kimi hadisələri necə düzgün analiz edib qiymətləndirməyi bacardığının sübutlarındandır.

Ümumiyyətlə, qeyd olunmalıdır ki, Ulu Öndər Heydər Əliyevin xalqımız, müstəqilliyimiz üçün tarixi əhəmiyyət kəsb edən xidmətləri minlərlədir. Bütün bunlar isə Heydər Əliyevin xidmətlərinin heç də onun işlədiyi vəzifələrdən deyil, özünün malik olduğu yüksək insani keyfiyyətlərə, ali dəyərlərə, güclü iradəyə, zəngin dünya görüşünə, hərtərəfli dərin savada malik, millətini və dövlətini hər şeydən uca tutmağı bacaran bir insanın vətəninə, xalqına olan sonsuz sevgisindən irəli gələn bir tələbat idi.

Həmin dövrdə Azərbaycana qayıdışına ciddi maneələr törədilsə də, xalqının ağır günlərinə laqeyd qala bilməyən Heydər Əliyev Azərbaycana qayıtdı. Xalqın böyük ümid və ruh yüksəkliyi ilə gözlədiyi Heydər Əliyev Bakıdan Naxçıvana getdi və yekdilliklə Muxtar Respublikanın Ali Məclisinin sədri seçildi.

Onun 1991 – 1993-cü illərdə Naxçıvana rəhbərliyi dövründə Respublikamızın müstəqilliyi yolunda mühüm addımlar atıldı, Muxtar Respublikanın adından «sovet sosialist» sözləri çıxarıldı, üç rəngli milli bayrağımız ilk dəfə Naxçıvanda dövlət bayrağı kimi qəbul olundu, dünya azərbaycanlılarının həmrəyliyi günü müəyyən edildi, 20 yanvar faciəsinə siyasi qiymət verildi, SSRİ-nin saxlanılması barədə referendumdan imtina edildi, mühüm imperiya strukturlarının fəaliyyəti dayandırıldı, ilk dəfə olaraq sovet qoşun hissələri Muxtar Respublikadan çıxarıldı.

Lakin 1991-ci ildə dövlət müstəqilliyini yenicə bərpa etmiş ölkəmiz onu itirmək təhlükəsi qarşısında qalmışdı. Ölkədə müharibə gedirdi. İdarəçilik isə yox dərəcəsində idi. Respublikada xaos, anarxiya hökm sürürdü.

Azərbaycan xalqı 1993-cü ilin may-iyununda Gəncə şəhərində Surət Hüseynovun başçılığı ilə prezident Əbülfəz Elçibəyə qarşı Gəncə qiyamı qaldırılması ilə ölkədə vətəndaş müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda xalq Heydər Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı, bu, əsl mənada, milli hərəkata çevrildi, Azərbaycanın o zamankı dövlət başçıları onu Bakıya dəvət etməyə məcbur oldular. Heydər Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçildi, iyunun 24-də isə Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası Prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti seçildi. Onun Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında, beynəlxalq əlaqələrində, ümumilikdə bütün sahələrdə dönüş yarandı, elmi əsaslara, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil və hüquqi dövlət quruculuğu prosesi başlandı. Azərbaycan dövlətçiliyinin mövcudluğuna böyük təhlükə olan 1994-cü il oktyabr və 1995-ci il mart dövlət çevrilişi cəhdlərinin qarşısı alındı, dövlət müstəqilliyi, suverenliyi qorunub saxlandı, silahlı yolla hakimiyyətə gəlmək cəhdlərinə son qoyuldu.

1994-cü il sentyabrın 20-də Bakıda "Xəzər dənizinin Azərbaycan sektorunda “Azəri”, “Çıraq” yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi" haqqında dünyanın 11 ən iri neft şirkəti ilə “Əsrin Müqaviləsi” imzalandı. Bu hadisə dövlətimizin iqtisadi həyatında xüsusi yer tutur.

Ölkəmizin iqtisadi inkişafında əvəzsiz rol oynayan “Əsrin müqaviləsi” üzrə ilkin neft 12 noyabr 1997-ci ildə hasil edilməyə başlandı. Təqribən 730 milyon ton neft və 200 milyard kubmetrə yaxın təbii qaz ehtiyatına malik olan yataqlarda görüləcək işlərə 12-14 milyard ABŞ dollarına yaxın investisiya qoyuluşu nəzərdə tutulurdu ki, bu da müstəqilliyini yenicə əldə



etmiş Azərbaycan Respublikası üçün çox vacib məsələ idi.

Heydər Əliyevin prezidentliyi zamanında milli ordu quruculuğunda ciddi dəyişikliklər başladı. Təcavüzkar silahlı qüvvələrin Azərbaycan ərazisindəki azğınlıqlarının qarşısı alındı, düşmənə əks-zərbələr endirildi və 1994-cü ilin mayında Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu.

1995-ci ilin noyabrında referendum yolu ilə Azərbaycan Respublikasının ümumbəşəri demokratik dəyərləri özündə əks etdirən Konstitusiyasının qəbul edilməsi, 1995 və 2000-ci illərdə çoxpartiyalılıq əsasında demokratik parlament seçkilərinin keçirilməsi, Konstitusiya məhkəməsinin fəaliyyətə başlaması, Azərbaycanda ölüm cəzasının ləğv olunması, "Bələdiyyə seçkiləri haqqında" Qanunun və bir sıra digər qanunların qəbulu və əməli surətdə həyata keçirilməsi, eləcə də bir çox mühüm hadisələr məhz Heydər Əliyevin adı ilə bağlıdır.

Ümummilli Lider Heydər Əliyev bir çox sahələrdə olduğu kimi, dövlətin hüquq siyasətində də bir sıra mühüm addımlar atmışdır. Belə ki, Ulu Öndərin 1994-cü ildə imzaladığı Cinayətkarlıqla mübarizəyə yönəlmiş tarixi fərmanı qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsində əsaslı dönüş yaratdı.

Zəngin dövlətçilik təcrübəsinə malik olan Heydər Əliyev hüquqi dövlətin Azərbaycan modelini ilk milli Konstitusiyanı yaratmaqla gerçəkləşdirdi. Yeni Konstitusiyanın layihəsinin hazırlanması kimi ciddi və məsuliyyətli vəzifəni öz üzərinə götürən Ümummilli Liderimiz bununla bağlı xüsusi yaradılmış Komissiyaya şəxsən rəhbərlik etmişdir.

"Konstitusiya yaratmaq üçün şübhəsiz ki, tarixi keçmişimizə nəzər salmalıyıq, amma eyni zamanda ümumbəşəri dəyərlərdən, dünyanın demokratik dövlətlərinin əldə etdiyi nailiyyətlərdən, təcrübədən istifadə etməliyik, bəhrələnməliyik" deyən Ulu Öndər Heydər Əliyev konstitusiyaçı alim kimi bu sahədə bütün problemləri öyrənərək, görkəmli filosofların elmi irsinə mükəmməl yiyələnərək Azərbaycan Respublikasının ilk milli Konstitusiyasını yaratdı.

Danılmaz faktdır ki, 1995-ci ilin noyabrında ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş Konstitusiyamızın müəllifi məhz Ümummilli Liderimiz Heydər Əliyevdir. Dahi rəhbər qeyd olunan Komissiyanın 10 noyabr 1995-ci il tarixli iclasında demişdi: "Komissiyanın sədri kimi mən bu böyük tarixi sənədin hazırlanmasında öz şəxsi məsuliyyətimi daim dərk etmişəm, bu gün də dərk edirəm. Ona görə də bu sənədin hazırlanmasına xeyli vaxt sərf etmişəm. Haqqım var deyəm ki, çox zəhmət çəkmişəm. Hər bir kəlmənin, hər bir sözün mənasını dəfələrlə araşdırmışam, onun bu gün üçün, gələcək üçün nə qədər əsaslı olmasını dəfələrlə təhlil etmişəm. Mən çox rahatlıq hissi ilə bu layihənin altından imza atıram və bu layihəyə görə tam cavabdeh olduğumu bu gün bəyan edirəm. Hesab edirəm ki, biz Azərbaycanın bu günü, gələcəyi üçün çox böyük bir sənəd – siyasi, hüquqi sənəd yaratmışıq".

Həqiqətən də, bu sənəd nadir konstitusiyalardandır ki, burada demokratik hüquqi dövlətin bütün prinsipləri – qanunun aliliyi, insan hüquqlarının müdafiəsi, hakimiyyət bölgüsü, konstitusiya nəzarəti prinsipləri təsbit olunmuş, insan hüquq və azadlıqlarının təmini dövlətin ali məqsədi kimi bəyan edilmiş, Konstitusiyamızın üçdə bir hissəsi məhz bu məsələyə həsr edilmişdir.

Müstəqillik əldə olunduqdan sonra SSRİ-dən miras qalmış, totalitar rejimə xarakterik olan hüquq sistemi və qanunlar sivil və demokratik cəmiyyət quruculuğuna, hüquqi dövlət prinsiplərinə təminat vermirdi. Qəbul edilmiş Konstitusiyaya əsaslanaraq mükəmməl hüquq sistemi formalaşdırmaq üçün Ulu Öndər qabaqcıl beynəlxalq təcrübəni, ümumbəşəri demokratik prinsipləri rəhbər tutaraq Azərbaycan xalqının dövlətçilik tarixi və ənənələri əsasında islahatlar aparmağa başladı və bu məqsədlə 1996-cı ildə Hüquqi İslahat Komissiyası yaratdı.



Həmin dövrdə ölkəmizdə müxtəlif sahələr üzrə islahat komissiyaları yaradılsa da, hüquqi dövlət quruculuğuna və hüquq sistemi üzrə islahatlara xüsusi əhəmiyyət verən Heydər Əliyev Hüquqi İslahat Komissiyasına rəhbərliyi bilavasitə öz üzərinə götürdü və islahatlara şəxsən rəhbərlik etdi.

Ulu Öndər prokurorluq orqanlarının rəhbər işçiləri ilə 2000-ci ilin aprelində keçirdiyi görüşdə hüquqi islahatlarla bağlı deyirdi: “Bu islahatları ona görə aparmırıq ki, kimsə bizə deyir, kimsə bunu bizdən tələb edir. Biz özümüz anlamalıyıq ki, “hüquqi, demokratik dövlət qururuq” elan edən prezident gərək onu təmin etsin. Bunu təmin etmək də qanunlarla ola bilər”. Bu fikirlər onun təkcə bir dövlət başçısı kimi deyil, həm də tarixi bir şəxsiyyət olaraq necə məsuliyyətli, vicdanlı, bir sözlə, yüksək ali dəyərlərə malik olan, eyni zamanda xalqını və dövlətini sevən, onun təəssübünü çəkən biri olduğunu bir daha sübut edir.

Gərgin fəaliyyət nəticəsində ölkəmizin bu günü və gələcəyi naminə son dərəcə vacib və əhəmiyyətli, habelə hüquq sisteminin mahiyyətini müəyyən edən tam yeni mütərəqqi qanunlar və məcəllələr qəbul edildi, dövlətin qanunvericilik bazası sıfırdan yenidən təşkil olundu. Bu qanunvericilik aktları beynəlxalq səviyyəli mütəxəssislər tərəfindən ekspertizadan keçirilməklə yüksək dəyərləndirilmişdir.

Müasir dövrün tələblərinə uyğun olaraq 1996-cı və 1999-cu illərdə əsassız yoxlamaların və sahibkarlığın inkişafı sahəsində süni maneələrin aradan qaldırılması haqqında dövlət başçısı tərəfindən imzalanmış fərmanlar ölkə iqtisadiyyatının inkişafında mühüm rol oynadı.

Eyni zamanda, ölkəmizdə siyasi partiyaların, ictimai təşkilatların azad fəaliyyəti, senzuranın aradan qaldırılması, yüzlərlə mətbuat orqanının sərbəst nəşr olunması, özəl radio və televiziya kanallarının yayımlanması siyasi plüralizmin, azad fikrin, demokratiyanın və vətəndaş cəmiyyətinin inkişafına böyük təkan verdi və bütün bu həyata keçirilən tədbirlər tam bir hüquqi dövlət yaradılması istiqamətində atılmış addımlar idi. Həyata keçirilən bütün bu tədbirlər, islahatlar, yeniliklər onu göstərir ki, Heydər Əliyev sıfırdan yeni bir dövlət qurmuş, onun hüquqi, siyasi, iqtisadi bazasını formalaşdırmışdır. Təsadüfi deyil ki, o, “Ümummilli Lider”, “Ulu Öndər” adlandırılır.

Yeni dövlət quruculuğu prosesində insan haqlarının etibarlı qorunması və təminatını dövlətin prioritet məsələsi kimi müəyyən edərək respublikamız insan hüquq və azadlıqlarının təminatı sahəsində bütün əsas beynəlxalq konvensiyalara qoşuldu.

Dövlətimizin insan hüquqları sahəsində atdığı ən mühüm addımlarından biri, sözsüz ki, ölüm cəzasının ləğvi olmuşdur. 1993-cü ildən ölüm cəzasının icrasına veto qoyuldu, 1998-ci ildə isə Şərqdə ilk dəfə olaraq Azərbaycanda bu cəza növü tamamilə ləğv edildi.

Ümummilli Liderimiz 3 fevral 1998-ci il tarixli müraciətində deyirdi: “Mən cinayət-hüquq siyasətini hərtərəfli təhlil edərək, ədalət, azadlıq, humanizm və insanpərvərlik kimi yüksək ideallara sadiq qalaraq ölkəmizdə ölüm cəzasının ləğv edilməsi qənaətinə

gəlib bu tarixi bəyanatı vermişəm". Bir qədər sonra, həmin ilin dekabrında BMT-nin Ümumdünya insan hüquqları bəyannaməsinin 50 illik yubileyi tədbirində bu addıma qiymət verərək, o demişdi: "Ölüm hökmünün ləğv olunması hansısa bir cinayətkara rəhm etmək məqsədi daşımır. Bu, ümumbəşəri, ümumxalq əhəmiyyətinə malik bir məsələdir. Ölüm hökmünün ləğv olunması onu göstərir ki, respublikamız, müstəqil Azərbaycan dövləti humanist siyasət aparan bir dövlətdir".

Çoxdan unudulmuş əfv və amnistiya institutlarının da Ulu Öndər tərəfindən bərpası olduqca mühüm əhəmiyyət kəsb edir. Məhz bu humanist siyasət nəticəsində məhkumların bağışlanması müsbət ənənəyə çevrilmiş, minlərlə məhkumun əfv və amnistiya olunması ciddi tərbiyəvi əhəmiyyət daşımaqla yanaşı, eyni zamanda cəmiyyətə mənəvi dəyərlər, humanizm hissi aşılamışdır.

Bundan başqa, ölkəmizdə insan haqlarının müdafiəsinə dair mühüm normativ aktlar qəbul olundu, bu sahədə xüsusi Dövlət Proqramı hazırlanaraq həyata keçirilməyə başlandı və İnsan hüquqları üzrə müvəkkil (Ombudsman) institutu yaradıldı.

Demokratik hüquqi dövlətin əsaslarından sayılan müasir müstəqil məhkəmə hakimiyyətinin bərqərar olması da məhz Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır.

Belə məhkəmə hakimiyyətini yaratmaq üçün ölkədə köklü məhkəmə-hüquq islahatlarının aparılmasının zəruriliyini nəzərə alan Ümummilli Liderin təşəbbüsü ilə 1997-ci ildə zəngin demokratik ənənələri olan ölkələrin təcrübəsinə əsaslanan "Məhkəmələr və hakimlər haqqında" yeni Qanun qəbul olundu və məhkəmə islahatlarına dair proqram xarakterli Fərman imzalandı.

Dahi Öndərin rəhbərliyi ilə aparılan məhkəmə-hüquq islahatı nəticəsində keçmiş sovet məhkəmə sistemi ləğv edilərək 2000-ci ildən yeni, insan haqlarının müdafiəsinə daha etibarlı təminat verən üçpilləli müstəqil məhkəmə sistemi fəaliyyətə başladı.

Bu sistemin üstünlüyü ondan ibarətdir ki, o, hər kəsin hüquq və azadlıqlarının məhkəmədə müdafiəsinə, həmçinin məhkəmə qərarlarından şikayət vermək hüququna təminat verir, işlərə birinci instansiya qaydasında baxılmasına, bundan sonra onların hüquqa və fakta görə apellyasiya qaydasında yoxlanılmasına, daha sonra isə məhkəmə qərarlarına hüquqa görə kassasiya qaydasında yenidən baxılmasına imkan verir. Bu isə öz növbəsində birinci instansiya məhkəməsinin buraxdığı səhvlərin yuxarı məhkəmə instansiyalarında aradan qaldırılmasına, işlərin mahiyyətcə və prosessual baxımdan düzgün və obyektiv həll edilməsinə zəmin yaradır.

İslahatların gedişində Ali Məhkəmənin də funksiya və səlahiyyətlərinə yenidən baxıldı və o, ümumi və ixtisaslaşmış məhkəmələrin icraatına aid edilən mülki, cinayət və digər işlər üzrə sırf kassasiya instansiyası məhkəməsinə çevrildi və beləliklə, aşağı məhkəmələrin qərarlarına nəzarət etməkdən, işlərə birinci instansiya məhkəməsi kimi baxmaqdan azad olundu.

Məhkəmə-hüquq islahatlarının həyata keçirildiyi vaxtdan Azərbaycan postsovet məkanında qətimkan tədbiri kimi həbsin seçilməsi səlahiyyətini məhkəməyə verən və bununla da "Habeas Corpus" prinsipini tətbiq edən ilk dövlətlərdən biri oldu.

Bunun davamı olaraq məhkəmələr üzərində hər hansı, o cümlədən prokuror nəzarəti ləğv olunaraq, əksinə demokratik məhkəmə nəzarəti institutu formalaşdırıldı.

Eyni zamanda, prokurorluq totalitar rejimə xas olan bütün səlahiyyətlərdən məhrum edilərək, demokratik cəmiyyətə uyğun yenidən qurulmuş, beləliklə, onun əsas funksiyası cinayət təqibini həyata keçirmək və çəkişmə prinsipinə tam uyğun olaraq dövlət ittihamını müdafiə etməkdən ibarət olmuşdur.

Ümummilli Liderimizin 1969 – 1982-ci illərdəki əvəzsiz xidmətlərinə nəzər salanda bir daha aydın olur ki, Heydər Əliyev hələ o dövrdə respublikaya rəhbərlik etdiyi vaxtlarda ölkəmizdə qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsinə, strateji əhəmiyyətli sənaye və istehsal müəssisələrinin inşasına nail olmaqla Azərbaycanın iqtisadi inkişaf göstəricilərinə görə keçmiş İttifaq miqyasında ilk yerlərdən birini tutmasını təmin etmiş, müstəqilliyimizə zəmin yaradan uzaqgörən və müdrik addımlar atmış, bütün bunlar hamısı məqsədyönlü edilmişdir.

Ölkədə cərəyan edən hadisələri dərindən təhlil edən Heydər Əliyev yaxşı dərk edirdi ki, Azərbaycanın müstəqilliyini təmin etmək, onu möhkəmləndirmək, ölkədə demokratik hüquqi dövlət qurmaq, köklü islahatlar aparmaq üçün, ilk növbədə, ictimai-siyasi sabitlik, qanunçuluq, hüquq qaydası təmin edilməlidir. "Dövlət dövlətçiliyi qorumalıdır" fikrini dönə-dönə vurğulayan Heydər Əliyev çox qəti və prinsipial mövqedən çıxış edərək ciddi intizam, tələbkarlıq və dövlət mənafeyi kimi amilləri ön plana çəkdi. Ölkədə geniş vüsət almış cinayətkarlığın bütün ünsürlərinə qarşı qəti mübarizə aparmaq üçün 1994-cü ildə imzaladığı xüsusi Fərman qanunçuluğun və hüquq qaydalarının möhkəmləndirilməsində əsaslı dönüş yaratdı. Eyni zamanda, milli dövlətçiliyin inkişafında korrupsiyanın aradan qaldırılmasının əhəmiyyəti nəzərə alınaraq bu ümumbəşəri bəla ilə mübarizəyə başlanıldı.

"Mənim həyat amalım bütün varlığım qədər sevdiyim Azərbaycan xalqına, dövlətçiliyimizə, ölkəmizin iqtisadi, siyasi, mənəvi inkişafına xidmət olub" deyən Ulu Öndər Heydər Əliyevin dövlətin ən ağır günlərində göstərdiyi qətiyyət, eyni zamanda Azərbaycanın var-

lığı, onun qüdrətlənməsi yolunda atdığı bütün addımlar bu sözlərdəki gerçəkliyi dəfələrlə təsdiqləmişdir.

İnkaredilməz faktdır ki, bu gün qazandığımız bütün bu nailiyyətlərin, uğurların əsası dünya şöhrətli siyasi xadim Heydər Əliyev tərəfindən qoyulmuşdur. Bu dahi şəxsiyyəti dünya şöhrətli adlandırmağımız əbəs yerə deyil. Belə ki, hələ sağlığında əfsanələşən nadir şəxsiyyət Heydər Əliyev haqqında dünyanın məşhur simaları sonsuz heyranlıq, dərin ehtiramla danışmış, ABŞ-ın sabiq Prezidenti Corc Buş onu "şəksiz lider", Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan "türk dünyasının tanınan və sevilən lideri", Rusiya Prezidenti Vladimir Putin "siyasi nəhəng", Fransanın sabiq Prezidenti Jak Şirak "qeyri-adi şəxsiyyət" adlandırmışlar. disələrinin müntəzəm qeyd edilməsi ənənəsinin yaradılması Heydər Əliyevin mükəmməl quruculuq proqramının tərkib hissələri olmuşdur.

Ulu Öndər Heydər Əliyev böyük uzaqgörənliklə deyirdi ki, mənim görüb başa çatdırmadığım işləri Azərbaycan xalqının dəstəyi ilə İlham Əliyev başa çatdıracaqdır. Ulu Öndərin arzusunda olduğu, lakin ömrü yetmədiyi üçün başa çatdıra bilmədiyi ən birinci vəzifə isə Azərbaycanın ərazi bütövlüyünün təmin olunması, torpaqlarımızın işğaldan azad edilməsi olmuşdur. Həmin dövrdə Ermənistan rəhbərliyinin təkəbbürlü siyasəti, beynəlxalq qüvvələrin ikili standartları, imperialist dövlətlərin Qafqazda maraqlarının toqquşması bu məsələnin diplomatik



Qeyd etdiyimiz kimi, bu gün əldə olunan bütün uğurlar məhz Ulu Öndər Heydər Əliyevin siyasi kursu və amalları əsasında həyata keçirilmiş siyasətin nəticəsində qazanılmışdır. Azərbaycan bu gün hərtərəfli, dinamik inkişaf yolundadır. Buna görə də, tam əminliklə deyə bilərik ki, Ulu Öndər Heydər Əliyevin ideyaları yaşayır və qalib gəlir, Azərbaycan xalqını daha böyük qələbələrə aparır.

Ümummilli Lider bəşəri dəyərlər zəminində xalqın müstəqillik məfkurəsini reallığa çevirməklə müasir dövlətçilik sistemimizin mükəmməl siyasi-ideoloji, iqtisadi və mənəvi dayaqlar sistemini yaratmışdır.

Müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyasının qəbul olunması və bütün sferaları əhatə edən köklü islahatların həyata keçirilməsi, demokratik, hüquqi dövlət quruculuğu, nizami ordunun yaradılması Heydər Əliyevin Azərbaycan xalqı qarşısında müstəsna xidmətləridir. Xalqımızı vahid amal ətrafında birləşdirən azərbaycançılıq ideologiyasının formalaşdırılması, ana dilinin dövlət qayğısı ilə əhatə olunması, ictimai-siyasi, elmi və mədəni fikir tariximizin əlamətdar ha-

yolla həllinə imkan vermədi. Müharibə yolu ilə məsələnin həlli üçün isə güclü iqtisadiyyat və ordu yaratmaq, beynəlxalq ictimaiyyətin nüfuzunu və dəstəyini qazanmaq lazım idi, bunun üçün isə uzun zaman, məqsədyönlü siyasi fəaliyyət, böyük siyasi iradə tələb olunurdu. Beləliklə bunu cənab Prezident İlham Əliyev rəşadətli Ordumuz və bir yumruqtək onun ətrafında birləşən xalqımızla birlikdə bacardı. Əminik ki, bu gün Heydər Əliyevin ruhu şaddır, çünki xilaskarı olduğu müstəqil Azərbaycanın ərazi bütövlüyü onun ideya və əməllərini davam etdirən, yarımçıq qalmış arzuları ilə bağlı vəsiyyətlərini gerçəkləşdirən Prezident, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında bərpa edilmiş, torpaqlarımız işğaldan azad edilmişdir.

**Selcan Familzadə**
**Baş Prokurorluğun İstintaq idarəsinin böyük prokuroru, II dərəcəli hüquqşünas**

**Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100-cü ildönümü tamam olur. Bu müddət ərzində Azərbaycan xalqı öz yenilməz sərkərdəsinin gecə-gündüz yorulmadan çalışaraq müstəqil Azərbaycan dövləti və xalqı qarşısında gördüyü işləri, misilsiz xidmətləri daim xatırlayır, onu yüksək ehtiramla anaraq adını uca tutur.**



# Heydər Əliyev və xarici siyasət

Ölkəmizin ən yeni tarixinin bütöv bir dövrü xalqımızın Ümummilli Lideri Heydər Əliyevin möhtəşəm siyasi və dövlətçilik fəaliyyəti ilə bağlıdır. Bütün bu tarixi dönüşün, inkişaf və tərəqqinin əsası isə Ulu Öndər Heydər Əliyevin 1969-cu il iyul ayının 14-də Azərbaycana rəhbər seçilməsi ilə qoyulmuşdur. Belə ki, dünya şöhrətli siyasətçi, görkəmli dövlət xadimi Heydər Əliyevin respublikamıza rəhbərlik etdiyi 1969–1982-ci illərdə, eləcə də, 1982-1987-ci illərdə keçmiş Sovet İttifaqının liderlərindən biri olduğu dövrdə Azərbaycanın dövlət müstəqilliyi üçün möhkəm zəmin və bünövrə yaradılmış, siyasi, iqtisadi və mədəni sahələrdə çox ciddi nailiyyətlər əldə edilmişdir.

XX əsrin 90-cı illərində Azərbaycan müstəqilliyini bərpa etdiyi zaman dünya miqyasında mürəkkəb və ziddiyyətli geosiyasi proseslər baş verdi. Belə bir şəraitdə müstəqil dövlət qurmaq son dərəcə müdrik, yaradıcı və çevik yanaşma tələb edirdi. Müstəqillik və suverenlik anlayışları yeni məzmun çalarları kəsb etməyə başlamışdı. Hər bir ölkənin müstəqilliyi onun ətraf aləmlə qarşılıqlı münasibətlərinin xarakteri və məzmunu ilə sıx bağlı idi. Qlobal güclərin dünyanı bir-birindən "qarşılıqlı asılı olan" dövlətlər sistemi kimi qəbul etməsi bir tərəfdən əməkdaşlıq imkanlarını artırırdısa, digər tərəfdən bir sıra siyasi-ideoloji və geosiyasi modellərin ixracı üçün əsas hazırlayırdı. Bu səbəbdən müstəqilliyinə qovuşmuş dövlətlər xarici təsirlərlə daxili potensiallarını uyğunlaşdırmaq məcburiyyəti qarşısında qalmışdılar. Müstəqil dövlət quruculuğunun uğurlu olması üçün bunun mühüm əhəmiyyəti vardı. O cümlədən, daxili siyasətlə xarici siyasət bir-birini tamamlamalı idi. Azərbaycan 1993-cü ildən başlayaraq bu vəzifənin öhdəsindən gəlməyə başladı.

Belə ki, 1993-cü il iyunun 15-də xalqın təkidi ilə Naxçıvandan Bakıya gələn Heydər Əliyev qarşısında duran vəzifələri həll etmək üçün yalnız siyasi-diplomatik üsula üstünlük verdi. Ən çətin anlarda belə, Heydər Əliyev danışıqlar, diplomatiya yolunu seçdi. Əvvəla, bununla o, cəmiyyətimizin fərqli cəhətlərini nəzərə alaraq gələcək düşmənçiliyin yaranmasına imkan vermədi, ikincisi, xarici düşmənlərin bundan yararlanmaq şansını əldə etməsinin qarşısını kəsdi, üçüncüsü, Azərbaycanın siyasi səhnəsində diplomatik fəaliyyət mədəniyyətinin yerini möhkəmləndirdi, dördüncüsü isə növbəti nəsil siyasətçilərə bu bir nümunə oldu.

1993-cü ilin ikinci yarısında Ümummilli Lider Heydər Əliyevin yenidən hakimiyyətə qayıdışı Azərbaycanda müstəqil dövlətçilik ideyalarının bərqərar olmasına şərait yaratdı. Bundan sonra, Azərbaycanın xarici siyasət kursunda mövcud reallıqları nəzərə alan və ölkəmizin milli mənafelərinin qorunmasına yönəlmiş əməli dəyişikliklər edildi. Bu dövrdən başlayaraq həyata keçirilən xarici siyasətimiz məhz Ümummilli Liderin adı və onun fəaliyyəti ilə bağlı oldu. Özünün zəngin dövlətçilik təcrübəsinə əsaslanaraq dövlətimizin yeni xarici siyasət kursunun əsas istiqamətlərini müəyyənləşdirən Prezident Heydər Əliyevin bu yeniləşmiş xarici siyasət xəttində ilk növbədə bir sıra ən mühüm və təxirəsalınmaz vəzifələrin yerinə yetirilməsi qarşıya qoyuldu.

Həmin vəzifələrdən biri və ən əsası Azərbaycanı beynəlxalq aləmdəki təcrid vəziyyətindən çıxartmaq, ölkəmiz haqqında yaradılmış mənfi ictimai rəyi dağıtmaq və xalqımızın haqq işini dünya ictimaiyyətinə olduğu kimi çatdıraraq respublikamız ətrafındakı informasiya blokadasını yarmaqdan ibarət oldu. Ona görə də, yeni xarici siyasət xətti üçün hər şeydən əvvəl müharibəni dayandırmaq və dinc şərait təmin edilməliydi ki, bu məqsədlə 1994-cü ilin mayından Ermənistanla atəşkəsə nail olundu. Bundan sonra, qanunsuz hərbi birləşmələrin buraxılması və ölkə

daxilində sabitlik yaratmaq yolunda atılan addımlar sayəsində yeni xarici siyasət xəttinin ardıcıllıqla həyata keçirilməsi üçün lazım olan əlverişli dinc şərait yarandı.

Demokratik dövlət quruculuğu yoluna qədəm qoymuş Azərbaycan Respublikası müstəqillik əldə etdikdən sonra üzləşdiyi sosial-iqtisadi və siyasi problemlərin müvəffəqiyyətlə həll olunması ölkəmizin beynəlxalq aləmdəki mövqeyi və ayrı-ayrı ölkələrlə milli dövlət maraqlarına cavab verən qarşılıqlı faydalı əlaqələri və dünya birliyinə inteqrasiya prosesinin intensivliyi ilə sıx bağlı oldu ki, bu mənada Azərbaycanın beynəlxalq münasibətlər sistemində layiqli yer tutması üçün dünya siyasətinin formalaşmasında aparıcı rol oynayan dövlətlərlə və beynəlxalq təşkilatlarla qarşılıqlı münasibətlərin tənzimlənməsi və inkişaf etdirilməsi mühüm əhəmiyyət kəsb etməyə başladı. Məhz buna görə də, dünya birliyinə bərabərhüquqlu üzv kimi daxil olmağa çalışan və müstəqilliyinin ilk addımlarını atan, eləcə də, Ermənistanın hərbi təcavüzü nəticəsində ərazi bütövlüyü pozulmuş Azərbaycan Respublikasının xarici siyasətində dünya birliyinə inteqrasiya, ikitərəfli və çoxtərəfli münasibətlər, o cümlədən beynəlxalq və regional təşkilatlarla əlaqələrin yaradılması və inkişaf etdirilməsi Ümummilli Lider Heydər Əliyevin fəaliyyətinin başlıca istiqamətlərindən birini təşkil etdi.



Ümummilli Lider çox bacarıqlı, son dərəcə təcrübəli dövlət başçısı və yetkin siyasi xadim kimi bu çətin və mürəkkəb vəzifələrin öhdəsindən müvəffəqiyyətlə və böyük ustalıqla gəlmək bacarığı nümayiş etdirdi. Ölkəmizin sistemli şəkildə dünya birliyinə inteqrasiya olunmasında ikitərəfli və çoxtərəfli siyasi münasibətlərin genişlənməsi istiqamətində atılan addımlar mühüm əhəmiyyət kəsb etdi. Bu baxımdan Xəzər dənizinin Azərbaycan sektorundakı neft yataqlarının istismarına dair 1994-cü il sentyabrın 20-də imzalanmış "Əsrin müqaviləsi" ölkəmizin dünya dövlətləri ilə qarşılıqlı əlaqələrinin dərinləşdirilməsi və beynəlxalq mövqelərinin möhkəmləndirilməsinə güclü təkan verildi. "Əsrin müqaviləsi" və sonrakı illərdə imzalanmış çoxsaylı neft müqavilələrinin hamısı Azərbaycanın dünya birliyinə inteqrasiyasını sürətləndirdi.

Ümummilli Lider Heydər Əliyevin xarici siyasət xəttində beynəlxalq təşkilatlarla əməkdaşlığın genişləndirilməsi məsələlərinə çox böyük diqqət yetirildi. Bu baxımdan 1994-cü il mayın 4-də Prezident Heydər Əliyevin NATO-nun "Sülh naminə tərəfdaşlıq" proqramının çərçivə sənədini imzalaması Azərbaycanın beynəlxalq mövqelərinin möhkəmlənməsi istiqamətində atılan mühüm addımlardan biri oldu. Bu proqramın Azərbaycan üçün əhəmiyyəti ondan ibarət oldu ki, ölkəmiz NATO-ya daxil olan Avropa ölkələri və ABŞ-la dünya təhlükəsizlik sisteminin, eləcə də beynəlxalq münasibətlərin sivil qaydaları çərçivəsində hər cür əməkdaşlıq etmək imkanı qazandı. Bu da, öz növbəsində NATO-nun hərbi strukturları ilə Azərbaycan ordusunun sülh naminə əməkdaşlıq etmək, birgə təlim və manevrlər keçirmək, onların ordu quruculuğu təcrübəsindən bəhrələnmək, kadr hazırlığı və s. sahələrdə birgə hərəkət etmək imkanı verməklə yanaşı, ölkəmizin bu proqramda iştirakı qarşıya qoyulan məqsədlərin həyata keçirilməsi üçün də əlverişli şərait yaratdı.

Bu gün NATO ilə əlaqələrin genişləndirilməsi və dərinləşdirilməsi, Azərbaycanın dünya birliyinə inteqrasiya olunması, öz maraqlarını bilavasitə təmsil etməsi baxımından xüsusi əhəmiyyət kəsb etdiyindən bu sahədə fəaliyyət müstəqil Azərbaycan dövlətinin xarici siyasətinin prioritet istiqamətlərindən birini təşkil etdi. 1996-cı il aprelin 22-də Lüksemburqda Avropa İttifaqı və Azərbaycan Respublikası arasında ticarət, sərmayə, iqtisadiyyat, qanunvericilik, mədəniyyət, immiqrasiya və qeyri-qanuni ticarətin qarşısının alınması sahəsində əməkdaşlığı nəzərdə tutan "Tərəfdaşlıq və Əməkdaşlıq Sazişi" (TƏS) imzalandı. Bu müqavilənin imzalanması Azərbaycanın xarici siyasətinin ən uğurlu səhifələrindən biri kimi qiymətləndirilirdi. Dövlətimiz




və xalqımız üçün mühüm tarixi əhəmiyyət kəsb edən bu müqavilə Azərbaycanın Avropa strukturları və institutları ilə əlaqələrinin genişlənməsi, xüsusilə inteqrasiya istiqamətində hüquqi baza rolunu oynadı.

Azərbaycanın Avropa institutlarına inteqrasiya istiqamətində Avropa Şurasının bərabərhüquqlu üzvü olması – Respublikamızın mühüm problemlərinin dünya ictimaiyyətinin diqqətinə obyektiv çatdırılması üçün yeni və çox mötəbər tribuna vermiş oldu. Belə ki, Avropa Şurası Nazirlər Komitəsinin 2001-ci il yanvarın 17-də nümayəndələr səviyyəsində keçirilmiş iclasında Azərbaycan Respublikasının Avropa Şurasına tamhüquqlu üzv qəbul edilməsinə dair qərar qəbul edildi. Bu qərar Ümummilli Liderin uzaqgörən, daxili və xarici siyasətinin və bu istiqamətdə görülmüş məqsədyönlü fəaliyyətinin nəticəsi idi.

Az sonra, yəni yanvarın 25-də Azərbaycan Prezidenti Heydər Əliyevin iştirakı ilə Strasburqda ölkəmizin bu təşkilata üzv qəbul edilməsi münasibətilə rəsmi mərasim keçirildi və AŞPA-nın mənzil qərargahı qarşısında dövlətimizin üçrəngli bayrağı ucaldıldı. Bu hadisəni Ümummilli Lider Heydər Əliyev yüksək qiymətləndirərək söylədi: *"Azərbaycanın Avropa Şurasına qəbul edilməsi nəinki müstəqil, suveren, demokratik, dünyəvi dövlət kimi tanınmasıdır, həm də, Avropa ailəsinin bərabərhüquqlu üzvü kimi Azərbaycan dövlətinin inkişafında yeni mərhələnin başlanğıcıdır"*. Azərbaycan Prezidenti Heydər Əliyev Avropa Şurasının tribunasından Azərbaycanın mənafeyinə uyğun şəkildə istifadə edilməsi üçün uğurlu bir addım atdı. Belə ki, Avropa Şurası Parlament Assambleyasındakı Azərbaycan nümayəndə heyətinə millət vəkili İlham Əliyevin rəhbərlik etməsi və daha sonra cənab İlham Əliyevin AŞPA-dakı fəaliyyəti Ümummilli Liderimiz Heydər Əliyevin qarşıya qoyduğu bütün vəzifələri reallaşdırdı.

Cənab İlham Əliyev özünün məntiqi çıxışları, konkret təklifləri ilə bu nüfuzlu beynəlxalq təşkilatda tez bir zamanda diqqəti cəlb etdi və Azərbaycanın nüfuzunu daha da qaldırdı. O, Azərbaycan nümayəndə heyətinin rəhbəri kimi ilk dəfə bu qurumun kürsüsündən Ermənistan silahlı qüvvələri tərəfindən Azərbaycanın Dağlıq Qarabağ və daha 7 rayonunun işğal olunduğunu, işğal edilmiş ərazilərin terrorizm və narkotik maddələrin tranzitinə çevrildiyini bəyan etdi. Avropa Şurasının sənədlərində Ermənistan təcavüzkar dövlət kimi tanındı, işğalçı qoşunların dərhal Azərbaycan torpaqlarından çıxarılması tələb edildi. Söylənilən bu faktlar AŞPA-nın sənədlərində öz əksini tapmışdır.

Məhz cənab İlham Əliyevin prinsipial və ardıcıl fəaliyyəti nəticəsində AŞPA-nın 2002-ci ilin sentyabrında keçirilən payız sessiyasında ilk dəfə olaraq bu beynəlxalq qurumun sənədlərində Ermənistan silahlı qüvvələri tərəfindən Dağlıq Qarabağın işğalı faktı rəsmi şəkildə öz əksini tapdı. Bu hadisə Azərbaycan nümayəndə heyətinin, xüsusilə, nümayəndə heyətinin rəhbəri, cənab İlham Əliyevin qətiyyətli mövqeyinin nəticəsi idi.

Bütün bunların məntiqi davamı kimi 2003-cü il yanvarın 27-də siyasi qabiliyyəti, diplomatik məharəti və prinsipiallığı ilə xüsusi seçilən Azərbaycan nümayəndə heyətinin rəhbəri cənab İlham Əliyevin AŞPA-nın vitse-prezidenti və qurumun büro üzvü seçilməsi ilə müstəqil Azərbaycan tarixinə yeni səhifə yazmış oldu.

Qazanılan bu uğurlarla yanaşı, Azərbaycanın ən ağrılı problemi olmuş Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması da, Ümummilli Lider Heydər Əliyevin xarici siyasət fəaliyyətində başlıca yer tutmuşdur. Bu məqsədlə 1993-cü ilin ikinci yarısından başlayaraq Prezident Heydər Əliyev respublikamızın təhlükəsizlik problemlərini, xüsusilə, Ermənistanın ölkəmizə qarşı əsassız ərazi iddiaları və hərbi təcavüzü məsələlərini beynəlxalq aləmə çıxararaq, regionda sülhün bərqərar olması üçün beynəlxalq təşkilatların təsirini artırmağa çalışmışdır.

Bu məqsədlə Azərbaycan Prezidenti Heydər Əliyev ən yüksək səviyyədə dövlət başçıları və nümayəndə heyətləri ilə ikitərəfli, eləcə də çoxtərəfli görüşlərində ATƏT-in zirvə toplantılarında, Minsk qrupunun həmsədrləri ilə aparılan müzakirələrdə, eyni zamanda Ermənistan prezidenti ilə danışıqlarda göstərdiyi səylər Ümummilli Liderin apardığı məqsədyönlü siyasətin mühüm tərkib hissəsini təşkil etmişdir.

Belə ki, Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin dinc vasitələrlə nizama salınması istiqamətində məhz Prezident Heydər Əliyevin qətiyyətli və gərgin fəaliyyəti nəticəsində 1994-cü il mayın 12-də atəşkəs haqqında razılıq əldə edildi və bundan sonra ATƏT-in Minsk qrupu çərçivəsində müntəzəm olaraq danışıqlar aparılmağa başlandı. Daha sonra, 1994-cü il dekabrın 5-6-da ATƏT-in Budapeştdə keçirilən Zirvə toplantısında Prezident Heydər Əliyevin çevik diplomatiyasının təsiri ilə "Dağlıq Qarabağ münaqişəsi ilə əlaqədar ATƏT-in fəaliyyətinin intensivləşdirilməsi barədə" qərar qəbul olundu.

1996-cı ilin dekabrın 2-3-də ATƏT-in Lissabonda keçirilən Zirvə toplantısında qəbul edilən və münaqişənin nizama salınmasının beynəlxalq-hüquqi bazasını təşkil etmiş olan sənəd Ermənistan-Azərbaycan münaqişəsini ədalətlə aradan qaldırmaq yolunda böyük siyasi nailiyyət sayıla bilər. Zirvə toplantısı zamanı Ümummilli Liderin siyasi iradəsi və diplomatik fəaliyyəti sayəsində münaqişənin həllinin siyasi-hüquqi çərçivəsini müəyyənləşdirən xüsusi bir sənəd qəbul edildi. Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin həllinə dair 3 əsas prinsipi özündə əks etdirən və ATƏT-in fəaliyyətdə olan sədri, İsveçrənin xarici işlər naziri Flavio Kottinin adından verilən bu bəyanat Ermənistan istisna olmaqla, dünyanın 53 dövləti tərəfindən müdafiə olundu və Lissabon sammitinin Yekun sənədlərinə əlavə edildi.




Ümumiyyətlə, Ermənistan-Azərbaycan münaqişəsi və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə nizama salınması Ümummilli Liderimiz Heydər Əliyevin xarici siyasət fəaliyyətində mühüm yer tutmuşdur. Yalnız onu qeyd etmək kifayətdir ki, 1993 – 2003-cü illər ərzində Azərbaycanın dövlət başçısı Heydər Əliyev Ermənistan Prezidenti ilə 23, ATƏT-in rəhbərliyi və Minsk qrupunun nümayəndələri ilə 150-yə qədər görüş keçirmişdir. Azərbaycan Prezidenti bu dövrdə 80-dək ölkənin dövlət başçıları ilə keçirdiyi 500-dən çox görüşdə, eləcə də nüfuzlu beynəlxalq təşkilatların ən yüksək səviyyəli nümayəndələri ilə, eləcə də ATƏT-in, NATO-nun, Avropa Şurasının, İslam Konfransı Təşkilatının, MDB-nin, GUAM-ın, İqtisadi Əməkdaşlıq Təşkilatının, Türkdilli ölkələrin dövlət başçılarının Zirvə görüşlərində Ermənistan-Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi müzakirə olunmuşdur.

Əsası Ümummilli Lider tərəfindən qoyulmuş və bu gün cənab Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilən xarici siyasət strategiyası dövlətlərarası, regional və beynəlxalq əlaqələrə daha yaxından qatılaraq, Şərq və Qərb dəyərlərinin sintezindən yaranmış cəhətləri özündə əxz edərək, dünya birliyinə sıx inteqrasiya olunmaq xəttini seçmişdir. Bu seçimi reallaşdırmaq üçün Azərbaycan dövləti bir tərəfdən dünya təcrübəsini öyrənərək, özünün iqtisadi və siyasi inkişaf modelini müəyyənləşdirir, digər tərəfdən isə beynəlxalq aləmdə qəbul edilmiş prinsiplərə uyğun olaraq öz milli maraqlarını qorumaqla dövlətlərarası əlaqələrə girir.

Ümummilli Lider Heydər Əliyevin xarici siyasət kursunu novatorcasına və dinamik şəkildə davam etdirən cənab İlham Əliyev yüksək diplomatik istedadı sayəsində ölkəmizin dünyanın siyasi-iqtisadi mənzərəsini müəyyən edən aparıcı dövlətlərlə və beynəlxalq təşkilatlarla münasibətləri keyfiyyətcə yeni müstəvidə daha da inkişaf etdirmişdir. Nəticədə, Azərbaycan yalnız regionda gedən proseslərə deyil, eyni zamanda beynəlxalq aləmdə cərəyan edən proseslərə də təsir göstərmək imkanı qazanmışdır.

Azərbaycanın neft sektorunun inkişafı artıq ölkəmizin iqtisadi yüksəlişinə töhfə vermiş, regional və qlobal əməkdaşlıq üçün əlavə imkanlar yaratmışdır. Bakı-Supsa, Bakı-Tbilisi-Ceyhan neft kəmərləri və Cənubi Qafqaz qaz kəməri kimi regional infrastruktur regionun əhəmiyyətini artırmış, Avropa üçün yeni və həyati əhəmiyyətli enerji mənbələrinin əsasını qoymuşdur. Yalnız enerji istehsalçısı və ixracatçısı kimi Azərbaycanın regionun əsas iştirakçısı və beynəlxalq arenada əhəmiyyətli faktor olaraq imkanları getdikcə artmaqdadır. Cənubi Qafqaz regionu üzərindən beynəlxalq nəqliyyat və kommunikasiya dəhlizlərinin genişləndirilməsi və Azərbaycanın tranzit imkanlarının gücləndirilməsi ölkə iqtisadiyyatının və qeyri-neft



sektorunun inkişafının vacib elementidir. Bu mənada, Azərbaycan "Avropa-Qafqaz-Asiya Transqafqaz nəqliyyat dəhlizi" (TRASEKA) layihəsi, habelə Şimal-Cənub nəqliyyat dəhlizinin həyata keçirilməsinə fəal cəlb olunmuşdur. Bununla yanaşı, Azərbaycan Türkiyə və Gürcüstanla geostrateji əhəmiyyət kəsb edən Bakı-Tbilisi-Qars dəmiryolu xəttinin çəkilməsi istiqamətində də geniş əməkdaşlıq edir.

Müasir geosiyasi şəraitdə Azərbaycan Avropa İttifaqı ilə münasibətlərində öz xarici prioritetlərinə uyğun olaraq daha çox ikitərəfli əlaqələrə üstünlük verir. Avropa İttifaqının regional layihələrində iştirak etməklə yanaşı, Cənubi Qafqazdakı ümumi iqtisadi tərəqqidəki payına görə lider dövlət olan Azərbaycan İttifaqın xarici əlaqələrində müəyyən mövqe tutmağa çalışır. Odur ki, Azərbaycan dövləti Avropa İttifaqı ilə ikitərəfli əlaqələrin yeni formatlarını yaradır, onunla yaxınlaşmaq üçün zəruri olan bütün təsisatları inkişaf etdirərək İttifaqın ümumavropa iqtisadi, siyasi və təhlükəsizlik məkanına inteqrasiya olunmaq istəyini nümayiş etdirir.

Ümummilli Liderin qoyduğu və bu gün Prezident İlham Əliyev tərəfindən uğurla həyata keçirilən xarici siyasət strategiyası dövlətlərarası regional və beynəlxalq əlaqələrə daha yaxından qatılaraq, Şərq və Qərb dəyərlərinin sintezindən yaranmış cəhətləri özündə əxz edərək dünya birliyinə sıx inteqrasiya olunmaq xəttini seçib: "Bu gün cənab İlham Əliyevin həyata keçirdiyi xarici siyasət Azərbaycanın regionda və dünyada müttəfiqlərinin sayını xeyli dərəcədə artırıb. 44 günlük Vətən müharibəsində qazanılan möhtəşəm zəfər isə müstəqil dövlətimizin beynəlxalq müstəvidə yerini və rolunu əhəmiyyətli dərəcədə artırıb. Bu səbəbdəndir ki, beynəlxalq birlik Azərbaycanın Cənubi Qafqazda yaratdığı yeni reallıqları qəbul edir. bu reallıqlar isə Azərbaycanın liderliyi ilə regionu sülh, təhlükəsizlik və əməkdaşlıq məkanına çevrilməsinə hədəflənib. Bütövlükdə isə, qazanılan bütün nailiyyətlərin əsasında Ulu Öndər Heydər Əliyevin nurlu zəkası və onun müəyyənləşdirdiyi xarici siyasət konsepsiyası dayanır!".

Bütün yuxarıda göstərilənlər onu deməyə əsas verir ki, bu gün Azərbaycanın xarici siyasət strategiyasının uğurla həyata keçirilməsi respublikamızın dünya miqyasında nüfuzunu xeyli artırmış, ölkəmizin Cənubi Qafqaz regionunda lider dövlətə çevrilməsini şərtləndirmişdir. Əsası Ümummilli Lider Heydər Əliyev tərəfindən qoyulmuş xarici siyasət strategiyasının uğurlu davamı perspektivdə müstəqil dövlətimizin dünya birliyində mövqelərinin yüksələcəyinə olan ümidləri daha da artıracaqdır.

**Ramiq Babayev**
**Baş Prokurorluğun Ədliyyə, gömrük və vergi orqanlarının istintaq, təhqiqat və əməliyyat-axtarış fəaliyyətində qanunların icrasına nəzarət idarəsinin prokuroru, kiçik ədliyyə müşaviri**

# Ulu Öndərin prokurorluq orqanlarına diqqət və qayğısı




Ümummilli Lider Heydər Əliyev çoxşaxəli fəaliyyəti dövründə bütün digər hüquq-mühafizə orqanlarına olduğu kimi, prokurorluq orqanlarına da hər zaman diqqət və qayğı göstərmişdir. Bu diqqət və qayğının bəhrəsini prokurorluq işçiləri bu gün də hiss edirlər. Əvvəlcə onu qeyd edim ki, Azərbaycan Prokurorluğu bir əsrə yaxın müddət, 80 il ərzində dövlətin etibarlı dayaqlarından biri kimi fəaliyyət göstərsə də, prokurorluq işçilərinin peşə bayramının qeyd edilməsinə dövlət tərəfindən heç bir təşəbbüs göstərilməmiş, bununla əlaqədar hər hansı rəsmi tədbir görülməmişdir. Yalnız Ulu Öndər Heydər Əliyevin 17 iyul 1998-ci il tarixli Sərəncamından sonra hər ilin 1 oktyabr tarixinin prokurorluq işçilərinin peşə bayramı günü kimi qeyd olunmasına başlanılmışdır ki, bu da təkcə tarixi reallığın bərpa olunması deyil, həmçinin hakimiyyət orqanları sırasında xüsusi yeri olan prokurorluğun roluna rəsmi münasibətin və dövlət qayğısının yüksək səviyyədə təzahürüdür. Ümummilli Liderin 28 noyabr 1998-ci il tarixdə Prokurorluq orqanlarının 80 illik yubileyinə həsr olunmuş təntənəli yığıncaqda prokurorluğun fəaliyyətini istiqamətləndirən: *"Azərbaycan Prokurorluğunda sağlam mənəvi mühit yaratmaq lazımdır. Sağlam mənəviyyat hər bir prokurorluq işçisi üçün, qanun keşiyində duran bizim hər bir məmurumuz üçün əsas meyar olmalıdır. Əgər bu yoxdursa, o insan nə qədər yaxşı işləyirsə işləsin, bizim tələblərimizə cavab verə bilməyəcəkdir, bizim tələbimiz isə qanundur, qanunun aliliyidir, mənaviyyatın da hamısı qanunun içərisindədir. Prokurorluq peşəsi ağır, çətin peşədir, amma eyni zamanda çox şərəfli, hörmətli peşədir. Mən arzu edərdim ki, siz həmişə bu peşəni şərəflə daşıyasınız. Arzu edərdim, çalışasınız ki, Azərbaycan vətəndaşı kimi, eyni zamanda Azərbaycan prokuroru kimi hörmətli, şərəfli olasınız. Azərbaycan Prokurorluğunun inkişaf etməsinə dövlət qayğısı bu gün də, gələcəkdə də olacaqdır, buna əmin ola bilərsiniz. Azərbaycan Prezidenti kimi mən Azərbaycan Prokurorluğuna inanıram, güvənirəm və arxalanıram"* kimi dəyərli kəlamlarını hər bir prokurorluq işçisi xidməti fəaliyyətində daim rəhbər tutur.

> *"Azərbaycan Prezidenti kimi mən Azərbaycan Prokurorluğuna inanıram, güvənirəm və arxalanıram"*
>
> ***Heydər Əliyev***

Hər kəsə, o cümlədən hər bir prokurorluq işçisinə məlumdur ki, prokurorluq orqanlarında aparılan hərtərəfli islahatların ilkin əsasını və qanunvericilik bazasını dahi rəhbərimizin təşəbbüsü əsasında 12 noyabr 1995-ci il tarixdə ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası təşkil etmişdir. Yeni qəbul edilmiş Konstitusiya ölkənin gələcək inkişaf prioritetlərini müəyyənləşdirməklə, insan hüquq və azadlıqlarının təminatını dövlətin ali məqsədi kimi ön plana çıxarmaqla yanaşı, Azərbaycan Respublikasında dövlət hakimiyyətinin hakimiyyətlərin bölünməsi prinsipi əsasında təşkil edildiyini özündə dəqiq əks etdirdi. Ali qanunumuzda ilk dəfə olaraq respublikanın dövlət quruluşu sistemində prokurorluğun layiqli yeri müəyyənləşdirilmiş, məhkəmə hakimiyyəti sisteminə daxil edilən prokurorluq orqanlarının statusu, təşkili, fəaliyyət istiqamətləri, səlahiyyət dairəsi və vəzifələri qanunvericilik qaydasında təsbit edilmişdir. Ulu Öndər Heydər Əliyevin qanunvericilik təşəbbüsü əsasında 7 dekabr 1999-cu il tarixdə "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun qəbul edilməsi isə qarşıda duran vəzifələrin uğurla həyata keçirilməsinə imkan yaratmaqla bərabər, prokurorluq orqanlarının daha da demokratikləşməsini, qanunçuluğun və insan hüquqlarının aliliyinin real təminatçısına çevrilməsini




təmin etmişdir. Bundan sonra, beynəlxalq hüquq normalarına, demokratik prinsiplərə və milli ənənələrə uyğun hazırlanmış "Prokurorluq orqanlarında qulluq keçmə haqqında", "Prokurorluq işçilərinin xidməti vəsiqəsi haqqında", "Prokurorluq orqanları işçilərinin fərqlənmə nişanları və xüsusi geyim forması haqqında", "Prokurorluğun rəsmi emblemi haqqında" Azərbaycan Respublikası Qanunlarının və digər normativ-hüquqi aktların qəbul edilməsi nəticəsində prokurorluğun fəaliyyətinin hüquqi tənzimlənməsi prosesi dövrün tələblərinə və beynəlxalq standartlara cavab verən səviyyəyə yüksəlmişdir.

Ümummilli Liderin prokurorluq işçilərinin rifahının yaxşılaşdırılmasına xidmət edən "Azərbaycan Respublikası Prokurorluq orqanları işçilərinin maddi və sosial təminatı haqqında" 8 oktyabr 2002-ci il tarixli Sərəncamı isə hər bir prokurorluq işçisində böyük ruh yüksəkliyinin yaranmasına səbəb olmuşdur. Göründüyü kimi, Azərbaycan Respublikası Prokurorluğunun dövlətçiliyimizin və xalqın maraqlarına, qanunun aliliyinin təmin edilməsinə və insan hüquqlarının müdafiəsinə xidmət edən sivil və demokratik qurum kimi formalaşması, onun fəaliyyətinin hərtərəfli təminatı üçün qanunverici və maddi-sosial bazanın yaradılması Ulu Öndərin ölkəmizdə bütün sahələrdə, o cümlədən prokurorluqla bağlı həyata keçirdiyi ardıcıl və çoxşaxəli islahatlar, prokurorluğa göstərdiyi böyük dəstək və qayğı sayəsində mümkün olmuşdur.

Sonsuz minnətdarlıq hissi ilə qeyd olunmalıdır ki, əsası müasir Azərbaycanın qurucusu Heydər Əliyev tərəfindən qoyulan bütün hüquq-mühafizə orqanlarına, o cümlədən prokurorluğa hərtərəfli diqqət və qayğı göstərilməsi ənənəsi möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən də davam etdirilir. Xüsusi vurğulanmalıdır ki, prokurorluq orqanlarının müasir dövrün tələblərinə cavab verən dövlət orqanı səviyyəsinə uyğun təkmilləşdirilməsində Prezidentin 27 sentyabr 2008-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair 2009 – 2011-ci illər üçün Dövlət Proqramı" mühüm əhəmiyyətə malikdir. Belə ki, Azərbaycan Prokurorluğunun tarixində yeni təkmilləşmə və inkişaf, hərtərəfli müasirləşdirmə dövrünün əsasını qoyan Dövlət Proqramında nəzərdə tutulan tədbirlərin yerinə yetirilməsi hüquq sisteminin inkişafı prosesində prokurorluğun rolunun artırılması, cinayətkarlığa qarşı mübarizə və istintaq aparılmasında digər hüquq-mühafizə orqanları ilə qarşılıqlı fəaliyyətin təkmilləşdirilməsi, prokurorluğun işində müasir elmi-texniki nailiyyətlərdən geniş istifadə olunması, mərkəzləşdirilmiş informasiya-kommunikasiya sisteminin yaradılması, dövlət ittihamının müdafiəsində peşəkarlığın yüksəldilməsi, beynəlxalq əlaqələrin genişləndirilməsi, habelə prokurorluq işçilərinin sosial müdafiəsinin gücləndirilməsi və prokurorluğun maddi-texniki təminatının yaxşılaşdırılması üçün əlverişli şərait yaratmışdır. Prokurorluğa, eləcə də prokurorluq əməkdaşlarına 1993-cü ildən göstərilən xüsusi diqqət və qayğını qədirbilənliklə yüksək dəyərləndirən bütün prokurorluq, o cümlədən Hərbi Prokurorluq əməkdaşları, xidməti vəzifələrini layiqincə icra etmək üçün var güclərini səfərbər etmişdirlər ki, "Heydər Əliyev İli" ötən illərdə əldə olunan nailiyyətlərdən də artıq uğurlarla yadda qalsın. Sözsüz ki, bu, Ulu Öndər Heydər Əliyevə olan sonsuz sevgidən irəli gəlir və əminəm ki, bu sevgi daimi olacaqdır.

**Elmir Süleymanlı**
**Respublika Hərbi Prokurorluğunun Kadrlar şöbəsinin rəisi – Respublika Hərbi prokurorunun böyük köməkçisi, ədliyyə polkovniki**



# Azərbaycana bərq vuran sönməz günəş



Uca ALLAH tərəfindən hər bir xalqın taleyinə tarixin müəyyən bir mərhələlərində günəş kimi bərq vuran nəhəng şəxsiyyətlər əta olunur ki, həmin böyük insanlar millətini və dövlətini bəlalardan qurtarmaqla, onun firavan gələcəyini şərtləndirən yol xəritəsi müəyyən edir. Dünya şöhrətli siyasətçi, xalqımızın Ümummilli Lideri Heydər Əliyev də belə tarixi şəxsiyyətlərdəndir. Azərbaycan xalqı bu baxımdan özünü iki qat xoşbəxt hesab edə bilər, çünki Tanrı bu xalqa iki belə tarixi şəxsiyyəti ardıcıl olaraq bəxş etmişdir və qürurvericidir ki, bu gün millətimizə cənab Prezident İlham Əliyev kimi xalq üçün yaşamağı həyat amalına çevirmiş, dünya rəhbərlərinə örnək olan müdrik şəxsiyyət liderlik edir.

Artıq 19 ildir ki, Ulu Öndər Heydər Əliyev cismən bizim aramızda olmasa da, o, ruhən daim bizimlə olmuş və hər kəs onun parlaq xatirəsini hər bir məqamda böyük ehtiramla xatırlamışdır. Əminəm ki, hər zaman belə də olacaq və qədirbilən Azərbaycan milləti ali insani keyfiyyətləri özündə cəmləşdirmiş, ömrünü xalqına həsr etmiş vətənpərvər şəxsiyyəti bir an belə unutmayacaqdır. Təsadüfi deyil ki, hər il əlamətdar günlərdə, xüsusən də may ayının 10-da və dekabr ayının 12-də Fəxri Xiyabanda izdiham müşahidə olunur. Böyükdən-kiçiyə hər kəs Azərbaycan Xalqının



Ümummilli Lideri Heydər Əliyevin məzarını ziyarət edir, dahi şəxsiyyətin əziz və unudulmaz xatirəsi ehtiramla yad olunur. Sözsüz ki, bütün bunlar Ulu Öndərə olan sonsuz xalq məhəbbətindən irəli gəlir ki, bu sevgi də onun Azərbaycan dövləti və xalqı qarşısındakı misilsiz xidmətlərindən doğur.

Dahi şəxsiyyət Heydər Əliyevin anım günü həm respublikamızda, həm də onun hüdudlarından çox-çox uzaqlarda qeyd olunur, əbədiyaşar liderimizin nurlu xatirəsi dərin ehtiramla yad edilir. Yerigəlmişkən, hər il olduğu kimi, bu il də həm Baş Prokurorluqda, həm də Hərbi Prokurorluqda Ulu Öndərin anım günü qeyd edilmiş, böyük insanın əziz və unudulmaz xatirəsi hörmətlə anılmışdır. Əminik ki, neçə illər, qərinələr, əsrlər keçsə belə bu ənənə davam edəcəkdir.

Şərəfli ömrünü Azərbaycanın qüdrətlənməsinə və xalqına həsr etmiş Ümummilli Lider Heydər Əliyev hələ 14 iyul 1969-cu il tarixdən ölkəmizə rəhbərlik etdiyi ilk günlərdən milli məfkurənin formalaşdırılmasını və Azərbaycanı hərtərəfli və sürətli inkişaf etdirməklə müstəqil dövlətə çevirməyi qarşısına məqsəd qoydu. Onun Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi vəzifəsinə seçilməsindən sonra Azərbaycan tarixi tam fərqli, yeni mərhələyə qədəm qoydu ki, bu da Azərbaycana və azərbaycanlılara qarşı münasibətin tədricən dəyişməsinə səbəb oldu. Bununla da, iqtisadi, sosial, siyasi, mədəni və digər sahələrdə tənəzzül dövrünü yaşayan dövlətimizdə dinamik və çoxşaxəli yüksəlişin, milli ruhun formalaşmasının əsası qoyuldu. Müdrik lider Heydər Əliyev fitri istedadı, tükənməz gücü, iti zəkası, dərin düşüncəsi, uzaqgörən məntiqi, sarsılmaz iradəsi və dönməz qətiyyəti sayəsində Azərbaycanı parlaq gələcəyə aparan yolu hələ o dövrdə müəyyənləşdirdiyi və sonradan ölkəmizin həmin yolu uğurla getməsini yüksək məharətlə təmin etdiyi üçün Azərbaycan tarixinin 1969 – 2003-cü illəri əhatə edən dövrü yaddaşlara “Heydər Əliyev dövrü” kimi həkk olunmuşdur. Böyük şəxsiyyət Heydər Əliyev elə o dövrdə, təbii ki, mövcud olan ideologiyaya kəskin zidd olmayan formada olsa belə, Azərbaycanda milli ruhun sıxışdırılmasına qəti olaraq imkan verməyərək, onu yüksəltmək yolunda bütün vasitələrdən mümkün dərəcədə istifadə edirdi. Təsadüfi deyil ki, onun ilk dəfə hakimiyyətə gəlişi özünəqayıdışın, özünüdərkin, milli ruhun, azərbaycançılıq məfkurəsinin formalaşmasının başlanğıcı kimi qəbul edilir. Məhz o dövrdən etibarən əsası qoyulan Heydər Əliyev fəlsəfəsinin prioritet istiqamətini xalqın milli özünüifadəsinin bütün üsul və vasitələrinin geniş formalaşdırılmasına, milli şüurun möhkəmlənməsinə və millətin qürur hissinin yüksəlişinə təkan verən strategiyanın reallaşdırılması təşkil edirdi. Görkəmli siyasi xadim Heydər Əliyevin formalaşdırdığı və inkişaf etdirdiyi milli özünüdərk duyğuları, azərbaycançılıq fəlsəfəsi xalqın tarixi yaddaşını özünə qaytarmaqla, milli ruhun sürətli yüksəlişini təmin edərək, müstəqil dövlətçiliyimizin yaranması üçün zəruri olan dünya azərbaycanlılarının həmrəyliyinə rəvac verdi.

Ötən əsrin 70-ci illərindən formalaşan iqtisadi potensialın tərəqqisi azadlıq mübarizəsini zəruri edən amillərdən olduğundan 80-ci illərin sonu, 90-cı illərin əvvəlində müstəqillik hərəkatının vüsət alması da Ulu Öndər Heydər Əliyevin birinci dəfə Azərbaycana rəhbərlik etdiyi dövrdə reallaşan iqtisadi inkişaf və ona paralel olaraq azərbaycançılıq, həmrəylik, mübarizlik ruhunun təşəkkül tapması sayəsində mümkün oldu.

Müstəqilliyin itirilməsi və dövlətçiliyin məhv olması təhlükəsi qarşısında qaldığı zaman nicatın məhz vətənpərvər aqil insanda – Heydər Əliyevdə olduğunu yaxşı dərk edən Azərbaycan xalqı 1993-cü ilin iyun ayında Ümummilli Liderə müraciət edərək onun hakimiyyətə gəlməsini təkidlə tələb etdikdə, O, qarşıda onu gözləyən məşəqqətləri əvvəlcədən görməsinə baxmayaraq, heç nədən və heç kimdən çəkinmədən yenə də xalqının yanında olmağa qərar verdi. Sirr deyil ki, 18 oktyabr 1991-ci ildə dövlətimiz müstəqillik əldə etsə də, müdrik lider Heydər Əliyev hakimiyyətə qayıdanadək ölkə çətin durumda olmuş, 1993-cü ilin əvvəllərində isə hətta müstəqilliyin itirilməsi təhlükəsi ilə üzləşmişdir. Tarixi ərazilərimizin işğal olunduğu, iqtisadi tənəzzülün sürətləndiyi, ciddi hakimiyyət böhranının yaşandığı, anarxiyanın hökm sürdüyü, ölkənin vətəndaş müharibəsi astanasında və dövlət müstəqilliyinin itirilməsi təhlükəsi qarşısında qaldığı bir zamanda, Azərbaycanı bu vəziyyətdən çıxara biləcək yeganə insan, hərtərəfli potensiallı və cəsarətli şəxsiyyət 15 iyun 1993-cü il tarixdə yenidən siyasi hakimiyyətə gəlməsəydi xalqı daha böyük fəlakətlər gözləyirdi. Uzaqgörən rəhbər yüksək məharətlə müstəqilliyimizi hifz edərək dövlətçiliyi möhkəmləndirməklə ölkəmizi inkişafa doğru yönəltdi, bununla da milli varlıq və idrakın, özünüdərkin ali təzahür forması olan əsl müstəqil dövlət ideyasını uğurla gerçəkləşdirdi və dirçəliş dövrü başladı. Zaman göstərdi ki, yalnız Heydər Əliyev kimi ali bəşəri keyfiyyətlərə, geniş siyasi dünyagörüşünə, möhkəm iradəyə, sarsılmaz qətiyyətə, mükəmməl idarəçilik qabiliyyətinə malik hərtərəfli insan Azərbaycanın dövlət müstəqilliyini qorumaqla möhkəmləndirmək və xalqı xilas etmək kimi ağır tarixi tapşırığın öhdəsindən gələ bilərdi və gəldi. Azərbaycana növbəti dəfə rəhbərlik edən müdrik lider Heydər Əliyev yeni iqtisadi sistemə keçidin inkişaf üçün vacibliyi prinsipini irəli sürməklə yanaşı, eyni zamanda keçid prosesində əhalinin sosial maraqlarının təminatını, xüsusən aztəminatlı insanların sosial müdafiəsini, iqtisadi potensialın ilk növbədə xalqın rifahına yönəldilməsini dövlət qarşısında mühüm vəzifələrdən



biri kimi müəyyən edirdi. Ulu Öndər Heydər Əliyevin strategiyası bazar iqtisadiyyatına keçid şəraitində aparılan islahatların əhalinin rifahına mənfi təsirinin mümkün qədər azaldılmasını və köklü iqtisadi islahatlar şəraitində etibarlı sosial müdafiə sisteminin qurulmasını şərtləndirdi. Hər kəsə məlumdur ki, Ümummilli Liderin ikinci dəfə respublikamıza rəhbərliyinin ilk illərində Azərbaycan vətəndaş müharibəsindən təzəcə qurtulmuş, atəşkəs rejimini yenicə əldə etmiş dövlət olduğundan, həmin vaxtlarda böyük investorların diqqətini ölkəmizə cəlb etmək, onları inandırmaq, sərmayə qoymaq üçün həvəsləndirmək çox müşkül, demək olar ki, mümkünsüz bir məsələ idi. Azərbaycanın müstəqil dövlət kimi varlığı və inkişaf etməsi üçün respublikanın iqtisadi potensialı əsas şərt sayılsa da, bu potensialdan səmərəli istifadənin çox mühüm əhəmiyyət kəsb etdiyini hər zaman vurğulayan Ulu Öndər Heydər Əliyev ölkədəki çətin vəziyyətə baxmayaraq, 1994-cü ilin sentyabr ayında Azərbaycanın parlaq gələcəyində mühüm rolu olan "Əsrin müqaviləsi" kimi bir tarixi müqavilənin bağlanılmasına müvəffəq oldu. Məlum olduğu kimi, Bakı-Tbilisi-Ceyhan neft kəmərinin təməlini də Azərbaycan neftinin dünya bazarlarına çıxmasında gərgin əməyi və yorulmaz fəaliyyəti olan vətənpərvər şəxsiyyət Heydər Əliyev qoymuşdur. Azərbaycanın dünyada böyük qaz potensialına malik olan bir dövlət olduğunu sübut edən böyük "Şahdəniz" layihəsinin və digər əhəmiyyətli layihələrin reallaşması da bu dahi insanın dühasının və misilsiz xidmətlərinin nəticəsi olmuşdur.

Ümummilli Lider Heydər Əliyevin növbəti dəfə hakimiyyətə qayıdışından və Azərbaycana ikinci dəfə rəhbərlik etməyə başlamasından sonra respublikamızda bütün sahələrdə olduğu kimi, ordu quruculuğunda da köklü islahatlar həyata keçirilməyə başlanıldı. Müstəqilliyimizin ilk illərində erməni təcavüzü, daxili çəkişmələr, yeni yaradılmış özünümüdafiə taborlarının ayrı-ayrı siyasi məqsədlərə xidmət etməsi bir tərəfdən torpaqlarımızın işğal olunmasına şərait yaradır, digər tərəfdən ordumuzun yaranmasına manеə törədirdi. Həmin vaxt mühüm vəzifələrdən biri də ölkə gəncləri arasında özünə inamı, vətənpərvərlik hissini, milli mübarizə əzmini və döyüş ruhunu yüksəltmək olduğundan, Ulu Öndər böyük siyasi səriştəyə, təcrübəyə və geniş dünyagörüşünə malik lider kimi bu reallığı düzgün qiymətləndirərək gənclərin könüllü hərbi səfərbərliyini təmin etmək məqsədilə respublikada ideoloji-təbliğat işinin gücləndirilməsi üçün bütün mümkün zəruri tədbirlərin görülməsini təmin edir. Bu istiqamətdə görülən işlərin ən önəmlisi 2 noyabr 1993-cü il tarixdə vətənpərvər şəxsiyyətin xalqa müraciəti oldu. Kifayət qədər mürəkkəb bir dövrdə televiziya və radio vasitəsi ilə Azərbaycan xalqına, xüsusilə ölkə gəncliyinə müraciət edən aqil rəhbər Heydər Əliyev cəbhə bölgəsində yaranmış vəziyyəti geniş şəkildə təhlil etməklə, uğursuzluqların səbəblərini dəqiqliklə göstərərək, ordunun siyasiləşdirilməsi hallarını qətiyyətlə pisləməklə, bəzi qüvvələrin çirkin siyasi məqsədlər naminə silahlı qruplaşmalar yaratdığını, dövlətçiliyə və xalqa qəsd yolu tutduğunu təəssüflə vurğulayaraq xalqı bütün bu uğursuzluqlara, ağrılı

məqamlara məhəl qoymamağa, o cümlədən ölkə gənclərini ruhdan düşməməklə səfərbər olmağa, düşmənə qarşı layiqli müqavimət göstərməyə çağırdı və bu da bütün xalqın, xüsusən də gənclərin öz liderinin ətrafında daha da sıx birləşməsi ilə nəticələndi. Bundan sonra, qanunsuz hərbi dəstələr buraxıldı və Silahlı Qüvvələr tam dövlət nəzarətinə keçirildi. Ardınca digər ölkələrin qanunvericilik təcrübəsindən istifadə olunmaqla və hərb tariximizə əsaslanılmaqla mükəmməl hərbi qanunvericilik bazası yaradılması prosesi başladı. Beləliklə də, görülən işlər qısa müddətdən sonra öz səmərəsini verdi və güclü Azərbaycan ordusu formalaşmağa başladı. Bunu görən və qəhrəman hərbçilərimiz tərəfindən aparılan uğurlu döyüş əməliyyatlarından təşviş içində olan düşmən 12 may 1994-cü il tarixdə atəşkəs haqqında müqaviləni imzalamaq məcburiyyətində qaldı. Bundan sonra, çağırış və səfərbərlik işi xeyli təkmilləşdirildi, ordumuzun daha da güclənməsi üçün bir çox zəruri tədbirlər həyata keçirildi, bütün bunların nəticəsində hərbi hissələrdə nizam-intizam möhkəmləndi və qanunun aliliyi prinsipi bərqərar oldu. Qeyd olunanlar gənclərdə Silahlı Qüvvələrə inamı və marağı artırmaqla xeyli insanın peşəkar hərbi qulluqçu kimi hazırlanmasına, hərbi ixtisaslara dərindən yiyələnməsinə rəvac verdi. Sadalananların hamısı təbii ki, gələcəkdə qazanacağımız zəfərə hesablanmışdır.

Ümummilli Liderin təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilmiş fundamental iqtisadi islahatlar sayəsində sürətlə qüdrətlənən Azərbaycanda paralel olaraq digər sahələrdə, o cümlədən hüquq sahəsində də əsaslı islahatların aparılmasına zəmin yarandı. Bu sahədə aparılan islahatlarda müdrik liderin 9 avqust 1994-cü il tarixdə imzaladığı «Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi tədbirləri haqqında» Fərman xüsusi əhəmiyyət kəsb edirdi. Ölkəmizdə 1993–cü ilin iyun ayından ölüm cəzasının icrasına moratorium qoyulması, daha sonra onun tətbiqinin məhdudlaşdırılması, 10 fevral 1998–ci il tarixdən Şərqdə ilk dəfə olaraq ölkəmizdə ölüm cəzasının ləğv edilməsi-fəlsəfi, hüquqi düşüncələrə, dərin elmi təhlilə, dünya təcrübəsinə və reallığa əsaslanan bu tarixi addım hümanizm, insanpərvərlik, ədalət və insan hüquqlarına hörmət kimi yüksək amallarla yaşayan Ulu Öndərin gələcək nəsillərə misilsiz töhfəsi oldu. Dövlət başçısının 3 fevral 1998-ci il tarixli müraciətində deyilirdi: “Mən cinayət-hüquq siyasətini



hərtərəfli təhlil edərək ədalət, azadlıq, humanizm və insanpərvərlik kimi yüksək ideyalara sadiq qalaraq ölkəmizdə ölüm cəzasının ləğv edilməsi qənaətinə gəlib bu tarixi bəyanatı vermişəm”. Ölüm cəzasının ləğvi Azərbaycanın hüquqi-demokratik dövlət quruculuğu yolunda olmasını bir daha təsdiqləyirdi.

Məhz Ümummilli Lider Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu yolu ilə irəliləyən müstəqil Azərbaycanda vətəndaş cəmiyyətinin formalaşması, insanların azad yaşaması, qanunun aliliyinin təmin edilməsi üçün ən yüksək tələblərə cavab verən normativ-hüquqi baza yaradıldı. Ulu Öndər Heydər Əliyevin hüquqi dövlət quruculuğunda ən böyük xidmətlərindən biri də müstəqil respublikamızın ilk Konstitusiyasının yüksək de-

mokratik meyarlar və ümumbəşəri prinsiplər əsasında hazırlanması və ümumxalq səsverməsi yolu ilə qəbul edilməsi üçün təşəbbüs göstərməsi və bu işə hərtərəfli dəstək verməsi olmuşdur. Təsadüfi deyil ki, bu ali qanun xalq arasında "Heydər Əliyev Konstitusiyası" adlandırılır. 12 noyabr 1995-ci il tarixdə ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş müstəqil Azərbaycanın ilk Konstitusiyası ölkənin gələcək inkişaf prioritetlərini müəyyənləşdirməklə bərabər, demokratik-hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunun təməlini qoydu. Müdrik liderin təşəbbüsü və şəxsi nəzarəti ilə insan hüquq və azadlıqlarının qorunması sahəsində mühüm hüquqi aktlar qəbul edildi, respublikamız müxtəlif beynəlxalq konvensiya və sazişlərə qoşuldu, qanunvericilik, icra və məhkəmə hakimiyyətinin qarşılıqlı fəaliyyətinin təmin edilməsi məqsədi ilə silsilə tədbirlər həyata keçirildi. Görülən böyük işlər sırasında Ulu Öndər Heydər Əliyevin 21 fevral 1996-cı il tarixli Sərəncamı ilə yaradılmış Hüquq İslahatları Komissiyasının fəaliyyətini xüsusi vurğulamaq lazımdır. Adıçəkilən Komissiyanın səmərəli fəaliyyəti nəticəsində yeni ictimai münasibətlərə uyğun Cinayət, Cinayət-Prosessual, Mülki, Mülki-Prosessual, İnzibati Xətalar, Cəzaların İcrası, Əmək və digər məcəllələrin qəbulu isə respublikamızda bu sahəyə verilən mühüm töhfələr oldu.

Prokurorluq işçisi kimi təəssüf hissləri ilə qeyd edirəm ki, Azərbaycan Prokurorluğu bir əsrə yaxın müddət, 80 il ərzində dövlətin etibarlı sütunlarından biri kimi fəaliyyət göstərsə də, prokurorluq işçilərinin peşə bayramının qeyd edilməsinə dövlət tərəfindən heç bir təşəbbüs göstərilməmiş, bununla əlaqədar hər hansı rəsmi tədbir görülməmişdir. Böyük qürur və fərəh hissləri ilə onu da bildirirəm ki, məhz Ümummilli Lider Heydər Əliyevin 17 iyul 1998-ci il tarixli Sərəncamı ilə hər il 1 oktyabr tarixinin prokurorluq işçilərinin peşə bayramı kimi qeyd olunması təkcə ədalətin bərpa olunması deyil, həmçinin hakimiyyət orqanları sırasında xüsusi yeri olan prokurorluğun roluna rəsmi münasibətin və dövlət qayğısının yüksək səviyyədə təcəssümü olmuşdur.

Müstəqil Azərbaycanın ali qanununda ilk dəfə olaraq ölkəmizin məhkəmə hakimiyyəti sistemində



prokurorluğun layiqli yerinin müəyyənləşdirilməsi, onun statusu, təşkili və fəaliyyət prinsipləri, səlahiyyət dairəsi və vəzifələrinin qanunvericilik qaydasında təsbit edilməsi, eləcə də prokurorluq orqanlarında aparılan hərtərəfli islahatlar dahi şəxsiyyət Heydər Əliyevin bilavasitə tapşırıq və tövsiyələrinin icrasının nəticəsi idi. Ulu Öndər Heydər Əliyevin qanunvericilik təşəbbüsü əsasında 7 dekabr 1999-cu il tarixdə "Prokurorluq haqqında" Azərbaycan Respublikası Qanununun qəbul edilməsi isə qarşıda duran vəzifələrin uğurla həyata keçirilməsinə imkan yaratmaqla bərabər, prokurorluq orqanlarının daha da demokratikləşməsini, qanunçuluğun və insan hüquqlarının aliliyinin real təminatçısına çevrilməsini təmin etmişdir. Bundan sonra, Beynəlxalq hüquq normalarına, demokratik prinsiplərə və milli ənənələrə uyğun hazırlanmış "Prokurorluq orqanlarında qulluq keçmə haqqında", "Pro-

kurorluq işçilərinin xidməti vəsiqəsi haqqında", "Prokurorluq orqanları işçilərinin fərqlənmə nişanları və xüsusi geyim forması haqqında", "Prokurorluğun rəsmi emblemi haqqında" Azərbaycan Respublikası Qanunlarının və digər normativ-hüquqi aktların qəbul edilməsi nəticəsində prokurorluğun fəaliyyətinin hüquqi tənzimlənməsi prosesi dövrün tələblərinə və beynəlxalq standartlara cavab verən səviyyəyə yüksəlmişdir. Ümummilli Liderin prokurorluq işçilərinin rifahına xidmət edən "Azərbaycan Respublikası Prokurorluq orqanları işçilərinin maddi və sosial təminatı haqqında" 8 oktyabr 2002-ci il tarixli Sərəncamı isə hər bir prokurorluq işçisini fərəhləndirməklə, onları işə daha vicdanlı münasibət bəsləməyə sövq etmişdir.

Ulu Öndərin prokurorluq orqanlarının rəhbər işçilərinə mütəmadi olaraq verdiyi müdrik tövsiyə və göstərişlərin əsasında, Azərbaycan Respublikası Prokurorluğu orqanlarında aparılan, bu gün də yeni müstəvidə eyni intensivliklə davam etdirilən hərtərəfli islahatlar nəticəsində prokurorluğun fəaliyyətinin təkmilləşməsi və bunun üçün zəruri normativ-hüquqi bazanın yaradılması, ciddi tələbkarlıq şəraitinin formalaşdırılması, kadrların seçilməsinin yeni mütərəqqi formalarının tətbiqi təmin edilmiş, dövlətçiliyin, milli maraqların, insan hüquq və azadlıqlarının etibarlı qorunması, cinayətkarlığa qarşı mübarizə yüksək səviyyədə təşkil olunmuşdur. Göründüyü kimi, Azərbaycan Respublikası Prokurorluğunun dövlətçiliyimizin və xalqın maraqlarına, qanunun aliliyinin təmin edilməsinə və insan hüquqlarının müdafiəsinə xidmət edən sivil və demokratik qurum kimi formalaşması, onun fəaliyyətinin hərtərəfli təminatı üçün qanunverici və maddi-sosial bazanın yaradılması Ulu Öndərin ölkəmizdə bütün sahələrdə, o cümlədən prokurorluqla bağlı həyata keçirdiyi ardıcıl və çoxşaxəli islahatlar, prokurorluğa göstərdiyi böyük dəstək və qayğı sayəsində mümkün olmuşdur.

Sevindirici və qürurvericidir ki, Ümummilli Lider Heydər Əliyevin mükəmməl siyasətini zamanın tələbləri ilə uzlaşdırmaqla layiqincə davam etdirən möhtərəm Prezident cənab İlham Əliyevin hərtərəfli bilikləri, dərin düşüncəsi, polad iradəsi, sarsılmaz qətiyyəti, yorulmaz fəaliyyəti, eləcə də xalqımızın müdrikliyi və əzmkarlığı sayəsində Azərbaycan ardıcıl uğurlar əldə edir, ölkəmizdə ictimai-siyasi sabitlik hökm sürür, dövlətimiz bütün sahələr üzrə inkişaf edərək durmadan qüdrətlənir, eləcə də işğaldan azad edilmiş torpaqlar da daxil olmaqla regionların tarazlı tərəqqisi təmin edilir və əhalinin rifahı daha da yaxşılaşır. Qazanılan uğurlar sırasında Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə hərbçilərimizin misilsiz şücaət və qəhrəmanlıq göstərərək düşmən üzərində möhtəşəm qələbəmizi təmin etməsini, lider-xalq-ordu birliyinin nəticəsində 30 ilə yaxın işğal altında olan dədə-baba torpaqlarımızın hərbi və siyasi-diplomatik yolla azad edilərək, ərazi bütövlüyümüzün bərpa olunmasını, bununla da Azərbaycan tarixinə növbəti parlaq səhifələr yazıldığını xüsusi vurğulamaq lazımdır. Dövlətimizin qüdrətlənməsi prosesi müxtəlif illərin göstəriciləri ilə də öz təsdiqini tapır. Belə ki, ölkəmizdə ilbəil qeyri-neft sənayesi, kənd təsərrüfatı, eyni zamanda orta əməkhaqqı, orta pensiya və digər müavinətlər durmadan artır. Sadalananlarla bərabər, valyuta ehtiyatlarımızın qorunub saxlanılması və manatın məzənnəsinin sabitliyi də təmin edilir. Bütün bunlarla yanaşı reallaşdırılması nəzərdə tutulan tədbirlərdən və işlərdən heç birinin, o cümlədən hər hansı bir sosial layihənin icrası təxirə salınmır. Qeyd etmək lazımdır ki, ölkəmizin sürətli inkişafı beynəlxalq təşkilatlar tərəfindən də hər zaman yüksək qiymətləndirilir.

Vurğulamaq zəruridir ki, dövlətimizin hərtərəfli inkişaf edərək qüdrətlənməsində, həmçinin ölkəmizin beynəlxalq əlaqələrinin inkişaf etdirilməsində, milli-mənəvi dəyərlərimizin və mədəniyyətimizin dünyada tanınmasında zəngin elmi biliklərə, iti zəkaya və yüksək idarəçilik qabiliyyətinə malik böyük qəlbli insanın-Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyəti mühüm əhəmiyyət kəsb etməkdədir.

Göründüyü kimi, Ulu Öndərin qurub-yaratdığı, dünya dövlətləri sırasına çıxarmaqla beynəlxalq aləmdə özünəməxsus yerini müəyyən etdiyi müstəqil Azərbaycan son 29 il ərzində hərtərəfli uğurlar əldə etmişdir ki, bu müvəffəqiyyətlərin də qayəsini uzaqgörən şəxsiyyət Heydər Əliyevin dühası təşkil etmişdir. Sözsüz ki, bu möhtəşəm nailiyyətlərin davamlı olmasını ölkəyə artıq 19 ildir ki, rəhbərlik edən möhtərəm Prezidentimiz cənab İlham Əliyevin müdrikliyi, mükəmməl siyasi strategiyası, misilsiz xidmətləri və onun etibarlı silahdaşı Birinci vitse-prezident Mehriban xanım Əliyevanın böyük dəstəyi, eləcə də sarsılmaz xalq-iqtidar birliyi şərtləndirir.

Ümummilli Liderin milləti və dövləti qarşısındakı misilsiz xidmətlərini dərindən dərk edən qədirbilən Azərbaycan xalqı dünya şöhrətli siyasətçi, görkəmli dövlət xadimi, ali insani keyfiyyətlərə malik fövqəlbəşər Heydər Əliyevin parlaq simasını hər zaman böyük hörmətlə xatırlayacaq, nəhəng şəxsiyyətin əziz və unudulmaz xatirəsi daim dərin ehtiramla anılacaqdır.

**Firad Əliyev**
**Respublika Hərbi prokurorunun böyük köməkçisi – Hərbi Prokurorluğun Mətbuat xidmətinin rəhbəri, baş ədliyyə müşaviri**



# Ümummilli Lider Heydər Əliyevin siyasi irsi, azərbaycançılıq ideologiyası

Dövlətimizin qurucusu, Azərbaycanın siyasi sisteminin yaradıcısı, azərbaycançılıq ideologiyasının banisi, Azərbaycanda milli özünüdərk prosesinin başladıcısı və idarəedicisi Ulu Öndər Heydər Əliyev Azərbaycan xalqının dövlətçilik tarixində o qədər böyük yeniliklərə, o qədər böyük işlərə imza atıb ki, bütün bunlar millətimizin taleyində müstəsna əhəmiyyət kəsb etmişdir. İllər keçdikcə Heydər Əliyevin dövlət xadimi kimi Azərbaycanın müstəqilliyində və idarə edilməsinin demokratikləşməsindəki əvəzsiz rolu daha aydın görünür. Ümummilli Lider ictimai-siyasi fəaliyyəti, dövlət quruculuğunda oynadığı rolu, müstəqil Azərbaycanın varlığı və inkişafı üçün etdiyi mükəmməl işlərlə həmişəyaşardır. Ulu Öndərin şah əsəri müstəqil Azərbaycandır və nə qədər ki, bu dövlət yaşayır, Heydər Əliyev də yaşayacaqdır. Bunu demək yerinə düşər ki, hər bir vətəndaşımızın qəlbində əbədiyaşarlıq zirvəsini fəth etmiş Heydər Əliyev əmanət olaraq xalqımıza zəngin maddi və mənəvi dəyərlər, siyasi və iqtisadi cəhətdən etibarlı dayaqlar üzərində olan güclü Azərbaycan qoymuşdur.

1990-cı illərin əvvəllərində Azərbaycanda mürəkkəb ictimai-siyasi vəziyyət yaranmışdı, tənəzzülə uğrayan ölkə dövlətçiliyini itirmək təhlükəsində idi. Ermənistanın Azərbaycana qarşı təcavüzü və ərazimizin 20 faizinin işğalı, bir milyondan çox soydaşımızın qaçqın və məcburi köçkün vəziyyətinə düşməsi və siyasi hakimiyyətin yarıtmazlığı ucbatından daxili və xarici siyasətin iflası, ölkəmizin vətəndaş müharibəsi astanasında olması müstəqilliyimizin ilk iki ilinin acı reallıqları idi.



1990-cı il yanvarın 20-si Azərbaycanın müasir tarixinə ən faciəli günlərdən biri, eyni zamanda, xalqımızın qəhrəmanlıq səhifəsi kimi daxil oldu və həmin gün azadlıq, istiqlal və istiqbal uğrunda mübarizənin və qəhrəmanlığın rəmzinə çevrildi. O gün ölkəmizə qarşı əsassız ərazi iddiaları irəli sürən Ermənistanın təcavüzkar hərəkətlərinə və keçmiş SSRİ rəhbərliyinin Azərbaycana qarşı qərəzli mövqe tutaraq onlara havadarlıq etməklə təcavüzkar siyasəti açıq-aşkar dəstəklənməsinə, eləcə də respublikanın o zamankı rəhbərliyinin xəyanətkar mövqeyinə hiddətlənərək, buna etiraz əlaməti olaraq Bakının küçə və meydanlarına çıxan geniş xalq kütlələrinə qarşı qanunları və beynəlxalq hüquq normalarını kobud şəkildə pozmaqla sovet ordusunun hərbi hissələri yeridilərək dinc əhaliyə divan tutuldu, insanlar qətlə yetirildi, yaralandı və itkin düşdü. Azərbaycanda, xüsusilə də Bakıda misli görünməmiş faciə baş verdi və həmin gün Azərbaycan xalqının tarixinə "Qanlı Yanvar Günü" kimi həkk olundu.

Moskvada yaşayan xalqımızın Ümummilli Lideri Heydər Əliyev özünün və ailə üzvlərinin həyatını təhlükəyə atmaqla, qətliamdan bir gün sonra, yanvarın 21-də Azərbaycanın Moskvadakı Daimi Nümayəndəliyinə gedərək Bakıda kütləvi qırğın törətmiş SSRİ hakimiyyətini və Azərbaycanın yarıtmaz rəhbərliyini kəskin ittiham edən bəyanat verdi. Vətənini və xalqını canından çox sevən böyük insan bu hadisəyə biganə qala bilməzdi və qalmadı da. Dahi şəxsiyyətin bu bəyanatından sonra Azərbaycan xalqının məruz qaldığı dəhşətli və amansız terror dünya dövlətləri tərəfindən də qətiyyətlə pisləndi.

Zamanında dərindən araşdırılmayan və siyasi qiymət verilməyən faciəyə yalnız bir neçə ildən, məhz xalqımızın Ümummilli Lideri Heydər Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışından sonra dövlət səviyyəsində siyasi-hüquqi qiymət verildi.

Qanlı Yanvar hadisələrindən sonra Heydər Əliyevə qarşı repressiya planları hazırlandı və həyata keçirilməyə çalışıldı. Respublika rəhbərləri də hər vəchlə onun Azərbaycana qayıtmasına mane olurdular. Tarixin bu məsuliyyətli və çətin dövründə xalqı ilə olmağı, ona kömək etməyi vacib bilən Heydər Əliyev 1990-cı il iyulun 20-də Bakıya gəldi. Xalq bu gəlişi böyük ümid və ruh yüksəkliyi ilə gözləyirdi. Lakin iq-

tidarda olanlar, ondan hakimiyyət bölgüsü gözləyən müxalif qüvvələr Ümummilli Liderin Bakıda qalmasına hər cür maneə törətdilər və o, böyüyüb boya-başa çatdığı Naxçıvana getməli oldu. Heydər Əliyev iyulun 22-də Naxçıvanın "Azadlıq" meydanında 80 mindən çox adamın iştirakı ilə keçirilən izdihamlı mitinqdə çıxış etdi. Xalqın nümayəndələri ilə görüşlər keçirdi. Ulu Öndər xalqı azadlıq, müstəqillik uğrunda sonacan mübariz olmağa çağırırdı.

1991-ci il oktyabrın 18-də Azərbaycan Respublikası Ali Sovetinin sessiyasında "Azərbaycanın dövlət müstəqilliyi haqqında Konstitusiya Aktı" qəbul olundu. Bu mühüm tarixi sənədlə xalqımız uzun illərdən bəri həsrətində olduğu azadlığına qovuşdu. Azərbaycan Respublikasının müstəqilliyinin bərpasının ilk illərində mürəkkəb beynəlxalq və daxili şərait yarandı. Keçmiş SSRİ yeni qurum yaratmağa çalışır, qonşu xəyanətkar Ermənistan Azərbaycan ərazilərində separatçılıq və işğalçılığı genişləndirirdi, daxildə hakimiyyət uğrunda mübarizə gedirdi. Müstəqilliyini qazandıqdan iki il sonra xalqımız yenidən onu itirmək təhlükəsi ilə üzləşdi. Bir tərəfdən Ermənistan silahlı qüvvələrinin təcavüzü nəticəsində geniş miqyas almış Birinci Qarabağ müharibəsi, digər tərəfdən dövlət rəhbərliyində olan səriştəsiz adamların yürütdüyü səhv siyasət və daxildə gedən siyasi çəkişmələr, xaos, anarxiya müstəqilliyin beşiyindəcə boğulması təhlükəsini qaçılmaz edirdi. Lakin böyük siyasi təcrübəyə malik olan Heydər Əliyevin ölkədə hakimiyyətə qayıdışı ilə bu təhlükə sovuşdu.

Ümummilli Lider Heydər Əliyev postsovet məkanında yeganə siyasi xadim idi ki, həm ölkəni məhv olmaqdan qoruya bildi, həm də müstəqil dövlət quruculuğunu davamlı olaraq reallaşdırdı. Həmin dövrdə bu işi görmək olduqca çətin idi. Çünki daxildəki separatçıların fəaliyyətindən başqa, kənardan da çox güclü təzyiqlər mövcud idi. Eyni zamanda, həm kənar təzyiqlərə sinə gərmək, həm daxildə separatçı qrupları neytrallaşdırmaq və dövlət quruculuğunu aparmaq fövqəladə iradə, uzaqgörənlik, siyasi təcrübə və iti zəka tələb edirdi. Heydər Əliyev müdrik siyasəti ilə bu vəzifənin öhdəsindən gəlmək naminə dövlət quruculuğu üçün vacib olan üç faktoru vahid sistemdə birləşdirə bildi. Ölkəmizin milli dövlətçilik ənənələrinin qurulmasında və inkişafında misilsiz xidmətləri olan dahi rəhbər Heydər Əliyevin həyatı və siyasi fəaliyyəti ən yeni tariximizdə müstəsna yer tutur. Yüksək insani keyfiyyətlərinə, mükəmməl dövləti idarəetmə bacarığına, xalqa xidmət mədəniyyətinə görə Heydər Əliyev dünyada nadir tarixi şəxsiyyətlər sırasındadır. Bu gün müstəqil Azərbaycan dövlətinin yaşaması, qüdrətli ölkə kimi təşəkkül tapmasına görə Ümummilli Lider Heydər Əliyevə minnətdarıq.

**Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilən Ulu Öndər siyasəti**

Bu gün Azərbaycan Respublikası dünya miqyasında ən sürətlə inkişaf edən ölkələr sırasında ilk yerlərdən birini tutur. Bunun əsasında uğurla, uzaqgörənliklə reallaşdırılan daxili və xarici siyasət dayanır. Ulu Öndər Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi kursun cənab Prezident, Ali Baş Komandan İlham Əliyev tərəfindən müasir dövrün reallıqlarına, tələblərinə və qanunauyğunluqlarına müvafiq surətdə uğurla və qətiyyətlə davam etdirilməsi bugünkü milli inkişafın fundamental əsaslarını təşkil edir. Müxtəlif inkişaf modellərinin uğurla tətbiqi, sosial-siyasi islahatların mütəmadi qaydada həyata keçirilməsi, qanunvericilik bazasının zənginləşdirilməsi, vətəndaş cəmiyyəti və



hüquqi dövlətin inkişafına əlverişli şəraitin yaradılması, möhkəm təməllərə söykənən ictimai-siyasi sabitliyin təmin və mühafizə olunması, ölkəmizin beynəlxalq münasibətlər sisteminin nüfuz və güc iyerarxiyasında sürətli şəkildə irəliləməsi müasir Azərbaycanın gerçəkləridir.

Ölkəmizin bütün sahələrdə inkişafı və dünya dövlətləri arasında mühüm yer tutması istiqamətində bir çox yeniliklərə imza atan dövlət başçısı qarşıya qoyulan iqtisadi, sosial məsələlərə nail olmaq məqsədilə idarəetmə sahəsində aparılan kadr islahatlarına xüsusi yer verdi.

Prezident İlham Əliyevin ölkəyə rəhbərlik etdiyi 2003-cü ildən bu vaxtadək olan müddət Azərbaycan tarixinə hərtərəfli və sürətli inkişaf dövrü kimi daxil olub. Bu uğurlu inkişaf dövrünün sosial-siyasi sabitliyin qorunmasının, mövcud iqtisadi inkişafın, hərtərəfli tərəqqinin təməlində Ümummilli Liderin inkişaf strategiyası, Onun müəyyənləşdirdiyi daxili və xarici siyasət xətti dayanır. Gənc dövlətin əsaslarının möhkəmliyi və həyata keçirilən strategiyanın səmərəliliyi məhz Prezident İlham Əliyevin liderlik keyfiyyətləri, zəkası, siyasi iradəsi və uzaqgörənliyi sayəsində mümkün olub. Prezident İlham Əliyev şəxsiyyəti modern cəmiyyətdə lider obrazının ən mühüm cəhətlərini özündə birləşdirir.

Bu gün xalq-iqtidar birliyi islahatların, daxili və xarici siyasət kursunun səmərəliliyini təmin edən əhəmiyyətli strateji faktor kimi çıxış edir. Eyni zamanda, mütəmadi həyata keçirilən islahatlar mövcud inkişafı sürətləndirməklə yanaşı, yeni inkişaf perspektivlərinin müəyyənləşdirilməsini şərtləndirir. Dövlətimizin başçısının qeyd etdiyi kimi: "Düşünülmüş siyasət, siyasi və iqtisadi islahatlar, xalqla iqtidar arasında birlik, xalq tərəfindən ölkədə aparılan iqtisadi islahatlara dəstəyin verilməsi, liberal iqtisadiyyat, eyni zamanda, güclü hakimiyyət, sabitlik - budur bizim uğurlarımızı şərtləndirən əsas amillər".

**Ali Baş Komandan cənab İlham Əliyev: "Qarabağ bizimdir, Qarabağ Azərbaycandır!"**

Ulu Öndərimizin "Azərbaycan dünyaya günəş kimi doğacaq" kəlamını möhtərəm Prezidentimiz İlham Əliyev həyata keçirdi. 27 sentyabr 2020-ci il tarixdə Azərbaycan Ordusunun erməni hərbi birləşmələrinin təxribatına cavab olaraq həyata keçirdiyi əks-hücum əməliyyatı tarixi zəfərimizlə başa çatdı. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə rəşadətli ordumuz qarşıya qoyulan döyüş tapşırıqlarının öhdəsindən müvəffəqiyyətlə gələrək xalqımıza Böyük Qələbə sevincini yaşatdı. Xalqımızın mübariz övladları Vətənimizin keşiyində mərdliklə, ayıq-sayıq dayandığı kimi, ərazi bütövlüyümüzü təmin etmək üçün Ali Baş Komandanın döyüş əmrini də rəşadətlə yerinə yetirdilər. Hər bir zabit, gizir və əsgərimiz döyüş meydanında igidlik, mərdlik, vətənpərvərlik nümunəsi göstərərək qəhrəmanlıq salnaməsi yaratdılar. Öz qəhrəmanlıqları ilə tarix yazdılar, tarixə yazıldılar.

Vətən müharibəsi dövründə xalqımızı daim öz qələbə müjdələri ilə sevindirən cənab Prezident, Müzəffər Ali Baş Komandan İlham Əliyev xalqımıza ən böyük xoş xəbəri verdi. Müharibə başa çatdı, Ermənistan döyüş meydanındakı məğlubiyyətini siyasi cəhətdən də etiraf etdi və təslim oldu. Bu böyük zəfər nəticəsində torpaqlarımız Ermənistanın işğalından azad olundu və 30 ilə yaxın davam edən Dağlıq Qarabağ münaqişəsinə son qoyuldu.

Torpaqlarımızın azadlığı uğrunda vuruşmuş Qarabağ müharibəsi əlilləri, veteranları və şəhid ailələrinə göstərilən diqqət və qayğı xüsusi qeyd olunmalıdır. Azərbaycan dövləti ardıcıl olaraq bu kateqoriyadan insanların sosial müdafiəsinin daha da gücləndirilməsi məqsədilə sistemli tədbirlər həyata keçirir. Ölkə Prezidenti cənab İlham Əliyev tərəfindən bu istiqamətdə imzalanan Fərman və Sərəncamlar, Birinci vitse-prezident Mehriban xanım Əliyevanın şəhid ailələrinə və müharibə əlillərinə mərhəmətli qayğısı çoxsaylı ailələrə böyük sevinc bəxş etməklə yanaşı, hamılıqla təqdirəlayiq hal kimi qiymətləndirilir. Elə bunların nəticəsidir ki, şəhid ailələrinə, müharibə əlillərinə və veteranlarına göstərilən hərtərəfli qayğı ictimaiyyət arasında razılıqla qarşılanır. Şəhid ailələrinin, müharibə əlillərinin, veteranlarının sosial ehtiyaclarının dövlət tərəfindən ödənilməsi, Vətən uğrunda öz canından keçmiş şəhidlərin və Qarabağ müharibəsi əlillərinin övladlarının təhsil haqqından azad edilməsi, eyni zamanda, bu insanların mənzil və avtomobillərlə təmin olunması da ölkə ictimaiyyəti tərəfindən yüksək minnətdarlıqla qarşılanır.

Prezident cənab İlham Əliyevin 8 dekabr 2020-ci il tarixli Fərmanı ilə Azərbaycan Respublikasının ərazi bütövlüyünün müdafiəsi ilə əlaqədar yaralananların



və şəhid ailələrinin təminatına dəstək məqsədilə "YAŞAT" Fondunun yaradılması, Fond tərəfindən qısa müddətdə ciddi işlərin görülməsinə başlanılması nəticəsində davamlı olaraq müharibə əlilləri və şəhid ailələrinin, o cümlədən müharibə veteranlarının sosial vəziyyətinin yaxşılaşdırılması istiqamətində həyata keçirilən intensiv tədbirlər artıq müsbət nəticələrini verməkdədir. Şəhid ailələrinin və müharibə əlillərinin sosial müdafiəsi tədbirləri gücləndirilmiş, o cümlədən onlara yönələn sosial ödənişlər dəfələrlə artırılmışdır. Eyni zamanda, şəhid ailələri və müharibə əlillərinin mənzil və fərdi evlə, müharibə əlillərinin avtomobillə təminatı tədbirləri yüksək səviyyədə davam etdirilir.

Prezidentimiz, Müzəffər Ali Baş Komandan İlham Əliyev cəmiyyətdə baş verən bütün prosesləri dəqiqliklə müşahidə edir, ölkədəki ictimai-siyasi durumu hərtərəfli qiymətləndirir, əhalinin mənəvi ovqatını, daim yenilənən baxış və gözləntilərini aydın müəyyənləşdirir və bunlara əsasən də strategiyasını, taktiki gedişlərini, eləcə də idarəçilik metodlarını və qarşıda duran hədəfləri müəyyənləşdirir. Bu gün ölkəmizdə həyata keçirilən genişmiqyaslı islahatlar məhz cənab Prezidentin bu idarəçilik prinsiplərindən irəli gəlir.

**Emil Kərimov**
**Respublika Hərbi Prokurorluğunun Kriminalistika və informasiya texnologiyaları idarəsinin rəisi, ədliyyə polkovniki**

# Humanizm – Heydər Əliyev zirvəsi



Ulu Öndər Heydər Əliyevin təşəbbüsü ilə 1998-ci il fevral ayının 10-da Şərq aləmində ilk dəfə olaraq Azərbaycanda ölüm cəzasının ləğvi ölkəmizin dünyəvi, demokratik, hüquqi dövlət quruculuğu yolu ilə inamla irəlilədiyini bir daha sübut edir. Yaşamaq hüququ insanın ayrılmaz təbii hüququdur, yəni hər kəs bu hüquqa malikdir. Bu müddəa insan hüquqları haqqında bütün beynəlxalq aktlarda, o cümlədən bütün dünya dövlətlərinin əsas qanunlarında, konstitusiyalarında öz əksini tapmışdır. BMT Baş Məclisinin 10 dekabr 1948-ci il tarixli Qətnaməsi ilə qəbul və bəyan edilən İnsan Hüquqları Bəyannaməsinin 3-cü maddəsində qeyd olunur: "Hər bir şəxsin yaşamaq, azadlıq və şəxsi toxunulmazlıq hüququ var".



Avropa İnsan Hüquqları Konvensiyasının 2-ci maddəsində isə göstərilir ki, hər kəsin yaşamaq hüququ qanunla qorunur. Heç kəs qanunla ölüm hökmü nəzərdə tutulmuş cinayət törətməyə görə, məhkəmə tərəfindən çıxarılmış belə hökmün icrasından başqa heç bir halda həyatdan məhrum edilə bilməz.

Bəşəri dəyərlər əsasında hazırlanaraq ümumxalq səsverməsi (referendum) ilə qəbul edilən Azərbaycan Respublikasının ilk milli Konstitusiyasında insan və vətəndaş hüquqlarının və azadlıqlarının, Azərbaycan Respublikasının vətəndaşlarına layiqli həyat səviyyəsinin təminatı dövlətin ali məqsədi olduğu təsbit edilmişdir. Konstitusiyanın 27-ci maddəsində qeyd olunur ki, hər kəsin yaşamaq hüququ vardır. Dövlətə silahlı basqın zamanı düşmən əsgərlərinin öldürülməsi, məhkəmənin qanuni qüvvəyə minmiş hökmünə əsasən ölüm cəzasının tətbiqi və qanunla nəzərdə tutulmuş digər hallar istisna olmaqla hər bir şəxsin yaşamaq hüququ toxunulmazdır. Müstəsna cəza tədbiri kimi ölüm cəzası tam ləğv edilənədək yalnız dövlətə, insan həyatına və sağlamlığına qarşı, xüsusilə ağır cinayətlərə görə qanunla müəyyən edilə bilər. Qanunla nəzərdə tutulmuş zəruri müdafiə, son zərurət, cinayətkarın yaxalanması və tutulması, həbsdə olanın həbs yerindən qaçmasının qarşısının alınması, dövlətə qarşı qiyamın yatırılması və ya dövlət çevrilişinin qarşısının alınması, ölkəyə silahlı basqın edilməsi halları istisna olmaqla insana qarşı silah işlədilməsinə yol verilmir.

İnsan həyatının ali sosial dəyəri onun yaratdığı dövlət tərəfindən təmin edilir. Yaşamaq hüququ, ilk növbədə, təcavüzkar müharibələri və münaqişələri istisna edən sülhsevər xarici siyasətin dövlət tərəfindən həyata keçirilməsini nəzərdə tutur. Yaşamaq hüququnun Konstitusiya təminatlarından biri ölüm cəzası ilə bağlıdır. Ölüm cəzası, demək olar ki, əbədi bir mövzudur. Tarixi mənbələrə görə isə ölüm cəzasının ləğvi ilə bağlı ilk müzakirələr eradan əvvəl 427-ci ilə təsadüf edir ki, həmin ildə Afina Məclisində bu məsələ müzakirə olunub.

Ulu Öndər Heydər Əliyev ölkəmizdə siyasi hakimiyyətə qayıtdıqdan sonra insan hüquq və azadlıqlarının təmin edilməsi Respublikamızda gedən böyük demokratik proseslərin tərkib hissəsi kimi dövlətin diqqət mərkəzində saxladığı prioritet məsələlərdən biri oldu. Ümummilli Liderin həyata keçirdiyi müdrik dövlətçilik siyasəti nəticəsində insan hüquqlarının müdafiə edilməsi gündəlik həyatımızda öz real təminatını almaqla yanaşı, həm də normativ-hüquqi sənədlərdə öz əksini tapdı. Görkəmli dövlət xadimi insan və vətəndaş hüquq və azadlıqlarının qorunmasını ali vəzifə kimi qarşıya qoydu. Bu baxımdan 1993-cü ildən ölüm hökmü cəzası üzərində moratorium qoyulmasını, 1998-ci ildə isə bu cəzanın tamamilə ləğv edilməsini xüsusi qeyd etmək lazımdır.

Ölüm cəzasının ləğv edilməsi insan və vətəndaş hüquq və azadlıqlarının qorunması ilə yanaşı, həm də nüfuzlu beynəlxalq təşkilatların, əsasən də, Avropa Şurasının bu quruma üzv dövlətlər qarşısında müəyyənləşdirdiyi əsas tələblərdən idi. Ölüm hökmünün ləğvi məsələsi müstəqil Azərbaycanın Konstitusiyasında da təsbit olunmuşdur. Belə ki, Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə hazırlanaraq 1995-ci il noyabrın 12-də qəbul edilən müstəqil Azərbaycanın ilk milli Konstitusiyasında demokratik, hüquqi dövlət quruculuğu və insan haqlarının qorunması dövlətimizin ali, strateji məqsədi kimi önə çıxarılıb.

Konstitusiyanın maddələrinin üçdə bir hissəsi məhz insan hüquq və azadlıqlarını özündə ehtiva edir. Ali qanunumuzun 54-cü maddəsində insan hüquq və azadlıqlarının qorunması öz əksini tapıb. İnsan hüquq və

azadlıqlarının müdafiəsi, Azərbaycan vətəndaşlarının şərəf və ləyaqətinin qorunması, demokratik prinsiplərin daha geniş şəkildə tətbiqi, əhalinin həyat səviyyəsinin davamlı yaxşılaşdırılması, onların öz fikirlərini sərbəst ifadə etmələri üçün reallaşdırılan tədbirlər, mitinq, küçə yürüşləri və digər aksiyaların keçirilməsi üçün yaradılan sərbəstlik ölkəmizin beynəlxalq aləmə daha sürətlə inteqrasiyasına böyük zəmin yaradıb.

Ulu Öndər Heydər Əliyev 1995-ci ildə amnistiya institutunu da təsis etdi. Azərbaycan Respublikası Prezidenti yanında Əfv Komissiyası yaradıldı. Cəmiyyətin ən müxtəlif təbəqələrini əhatə edən əfv sərəncamlarının və amnistiya haqqında fərmanların verilməsi qanunların aliliyi prinsipini tərəddüdsüz qəbul edən vətəndaşların reabilitasiyasına fundamental töhfələr verdi. Belə ki, 1995 – 2003-cü illərdə 7 amnistiya aktı və 32 əfv fərmanı imzalanıb. Bu amnistiya aktı 77 mindən çox insana şamil edilib.



Ölkəmizdə ölüm cəzası 1998-ci il fevralın 10-da ləğv olunub. Azərbaycanda Avropa Şurasına üzv olmadan öncə ölüm hökmünü ləğv edərək barələrində belə hökm çıxarılmış insanların cəzası ömürlük həbs cəzası ilə əvəzlənib. Halbuki ABŞ-da və Avropa Şurasının üzvü olan bir sıra dövlətlərdə hələ də ölüm cəzası qüvvədə qalır.

Ümummilli Lider Heydər Əliyevin Azərbaycan Respublikasında ölüm hökmünün ləğv edilməsi ilə bağlı Azərbaycan Respublikasının Milli Məclisinə tarixi müraciəti isə humanizmin Heydər Əliyev zirvəsidir. Müraciətdə qeyd olunur ki, Azərbaycan Respublikasının Konstitusiyası insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsini dövlətimizin ali məqsədi kimi bəyan edib. Bu məqsədə nail olmaq üçün dövlətimizdə ümumbəşəri dəyərlərə və inkişaf etmiş ölkələrin təcrübəsinə əsaslanan qanunvericilik bazası yaradılır. Hazırda bu siyasətin ardıcıl və məqsədyönlü davam etdirilməsi üçün zəruri tədbirlər həyata keçirilir. Məramı dünyəvi, hüquqi dövlət qurmaq olan Azərbaycan Respublikasında hər bir insanın təbii və ayrılmaz hüququ olan yaşamaq hüququna əsaslı təminatlar verilib, insanın həyatdan məhrum edilməsi yolverilməz hesab olunub. Konstitusiyada ölüm cəzası tam ləğv edilənədək yalnız dövlətə, insan həyatına və sağlamlığına qarşı, xüsusilə ağır cinayətlərə görə müstəsna cəza tədbiri kimi göstərilib və daimi cəza növü kimi nəzərdə tutulmayıb. İnsan ləyaqətinə, bütövlükdə, insan hüquqları ideyasına zidd olan bu cəzanın tətbiqi, hansı dəlillərlə əsaslandırılmasından asılı olmayaraq, demokratik cəmiyyətdə qeyri-insani və amansız tədbir kimi qiymətləndirilir.

Şərq aləmində ilk dəfə olaraq Azərbaycanda ölüm cəzasının ləğvinin ölkəmizin dünyəvi, demokratik, hüquqi dövlət quruculuğu yolu ilə inamla irəlilədiyini bir daha sübut etdiyini vurğulayan Ulu Öndər bütün bunları Azərbaycan xalqının çoxəsrlik ənənələrindən irəli gələn, ən yüksək dəyər olan insan həyatının qorunmasına təminat verən, cəmiyyətimizi insanilәşdirən, insan ləyaqətinə hörmət və ehtiramı bütünlükdə ölkəmizdə demokratiyanın inkişafını nümayiş etdirən, xalqımızda nikbin gələcəyə inam yaradan ədalət, azadlıq, humanizm və insanpərvərlik kimi yüksək ideallara sadiq qalaraq bu tarixi bəyanatı verib. Ölüm cəzasının ləğvi məhz bu siyasətin məntiqi nəticəsidir.

Azərbaycanda ölüm cəzasının ləğvi bu cəzaya məhkum olanların vəziyyətini yüngülləşdirib və humanist addım kimi qiymətləndirilməlidir. Ölüm cəzasının ləğvi ölkəmizin Avropa məkanına inteqrasiyası baxımından çox əhəmiyyətli bir addımdır. Ölüm cəzasından fərqli olaraq ömürlük azadlıqdan məhrumetmə barəsində bu cəza təyin olunmuş şəxslərin gələcəkdə azad edilmə imkanlarını da nəzərdə tutmaqla onların islah edilməsini stimullaşdırır.

Ölüm cəzasının ləğvi tarixi hadisə olmaqla bərabər, cinayət-hüquq siyasətinin humanistləşdirilməsi sahəsində atılan qətiyyətli addımdır.

Görkəmli dövlət xadimi Heydər Əliyevin siyasi xəttini uğurla davam etdirən ölkə başçısı cənab İlham Əliyevin insan hüquq və azadlıqlarının qorunması istiqamətində həyata keçirdiyi tədbirlər beynəlxalq aləmdə də yüksək dəyərləndirilir. İmzalanan əfv sərəncamları ölkəmizdə insan hüquq və azadlıqlarının dövlətin diqqət mərkəzində saxladığı prioritet sahələrdən birinə çevrilib. Səhvindən səmimi peşmançılıq hissləri keçirən, dövlət başçısına bağışlanması ilə bağlı müraciət edən və ictimai asayişə, bütövlükdə, təhlükə təşkil etməyən məhkumların bağışlanması insanların dövlət başçısına olan inamını daha da artırıb.

Ümummilli Lider Heydər Əliyev ölkəmizdə qanunun aliliyini hər şeydən üstün tutaraq qanunlarımıza əməl etməyin hər bir kəsin ən ümdə borcu olduğunu bildirirdi: "Hər bir şəxs Konstitusiya və qanunlara dönmədən əməl etməli, ondan irəli gələn dövlət və cəmiyyət qarşısında vəzifələri layiqincə yerinə yetirməli, ölkəmizdə gedən demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu prosesində yaxından iştirak etməlidir".

**Faiq Səfərov**
**Naxçıvan Muxtar Respublikası Prokurorluğunun Hüquqi təminat və insan hüquqları məsələləri şöbəsinin rəisi, baş ədliyyə müşaviri**



# Ümummilli Lider Heydər Əliyev və hüquq-mühafizə sisteminin təkmilləşdirilməsi

**Xalqımızın milli qürur və iftixar mənbəyi olan Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyi onun milli inkişaf strategiyasının uğurla həyata keçirildiyi, ölməz ideyalarının və ölkəmizin taleyi ilə bağlı arzularının gerçəkləşdiyi mühüm tarixi bir dövrdə qeyd edilir. Möhtərəm Prezident cənab İlham Əliyevin "Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında" Sərəncamında qeyd olunduğu kimi, müasir müstəqil dövlətimiz məhz onun zəkasının işığında davamlı inkişaf yolunda inamla irəliləyir.**

Hüququn aliliyinin, qanunçuluğun və ədalətin bərqərar edilməsi dərin dövlətçilik düşüncəsi, qeyri-adi idarəçilik bacarığı ilə seçilən Heydər Əliyevin bütün dövrlərdə rəhbərlik və liderlik strategiyasının ən mühüm istiqaməti, parlaq zəkasının yönəldiyi ən vacib məsələlərdən biri olub. Təbii ki, sovet hakimiyyəti dövründə hüquq sistemi mövcud ideologiyanın tələbləri, keçmiş ittifaq dövlətinin qanunvericiliyi əsasında qurulmuşdu. Çox gənc yaşlarından bu sistemdə fəaliyyətə başlayan və sıravi əməkdaşlıqdan dövlət təhlükəsizliyi orqanının rəhbəri vəzifəsinə, general rütbəsinə yüksələn Heydər Əliyev onun bütün xüsusiyyətlərini mükəmməl bilirdi.

Azərbaycanda bolşevik repressiyalarının həyata keçirilməsində aparıcı yer tutmuş dövlət təhlükəsizliyi orqanında milli kadrların əvvəllər çox az olması xalqımızın vətənpərvər, ziyalı təbəqəsinə mənsub insanların amansız şəkildə cəzalandırılmasının əsas səbəblərindən idi. Yalnız 1953-cü ildən sonra bu orqanda müəyyən struktur dəyişiklikləri baş verdi. Həmin dövrü xatırlayarkən Ulu Öndər Heydər Əliyev demişdir: *"Mən o vaxt Azərbaycanın Dövlət Təhlükəsizliyi Nazirliyinin, sonra komitəsinin Əks-Kəşfiyyat İdarəsinin rəisi idim. O dövrü bu gün də xatırlayanda dəhşətə gəlirəm ki, biz kimlərlə işləyirdik. Yerli kadrlar çox az idi. Vaxtilə elələrini seçirdilər ki, onlar yüksək savada, biliyə, yaxud keyfiyyətə malik olmasınlar. Əsas rəhbər vəzifələrdə işləyənlər başqa millətlərə mənsub olan kadrlardan ibarət idi. Ancaq 1950-ci illərin ikinci yarısında, 1960-cı illərdə, sonra 1970-ci illərdə Azərbaycanın təhlükəsizlik təşkilatında ciddi dəyişikliklər həyata keçirmək mümkün oldu".* Buna baxmayaraq, uzun müddət respublikanın təhlükəsizlik təşkilatına rəhbərlik azərbaycanlılara etibar edilmirdi. Təsadüfi deyildir ki, 1967-ci ildə Heydər Əliyevin Azərbaycan SSR Dövlət Təhlükəsizliyi Komitəsinin sədri təyin edilməsi tarixi hadisə idi. Məhz Ulu Öndərin rəhbərliyi dövründə bu mühüm dövlət təsisatında milliləşdirmə prosesi başlandı. Eyni zamanda, xalqımızın müstəqil və mütərəqqi düşüncəli ziyalılarının təqibi aradan qaldırıldı, milli məfkurənin inkişafına şərait yarandı. Ulu Öndərin respublika rəhbəri seçilməsindən sonra isə hüquq-mühafizə sisteminin digər qollarında da milliləşdirmə, yerli kadrların yüksək vəzifələrə irəli çəkilməsi geniş miqyas aldı.

Ümumiyyətlə, Heydər Əliyevin 1969-cu il iyulun 14-də respublika rəhbəri kimi fəaliyyətə başlaması müasir Azərbaycan tarixinin həlledici dönüş nöqtəsi oldu. Həmin ilin avqustunda mühüm siyasi qərarların qəbul edildiyi tədbirdə – plenumda onun respublikadakı rüşvətxorluq, dövlət əmlakının talan edilməsi, vəzifədən sui-istifadə olunması, insan hüquqlarının tapdanması, korrupsiya halları barədə cəsarətli və qətiyyətli çıxışı ittifaq miqyasında geniş əks-səda doğurmuş, həmin plenumun qərarlarının digər müttəfiq respublikalarda da tətbiq olunması tövsiyə edilmişdi.

Əsil lider, müdrik və uzaqgörən siyasətçi kimi Heydər Əliyev cəmiyyət həyatının müxtəlif sahələri arasında üzvi bağlılığı aydın görür, milli inkişafla bağlı ictimai, siyasi, sosial, iqtisadi, mədəni və digər sahələrdə qarşıda duran vəzifələri düzgün müəyyənləşdirir və məharətlə həyata keçirirdi.



ziyyət ətraflı təhlil olunur, nöqsan və çatışmazlıqlar göstərilir, onların aradan qaldırılması üçün tədbirlər müəyyənləşdirilir. Sosialist mülkiyyətinin oğurlanmasına, rüşvətxorluğa və möhtəkirliyə qarşı mübarizənin gücləndirilməsi məqsədilə 1981-ci ildə də mühüm qərarlar qəbul edilmiş və zəruri tədbirlər müəyyənləşdirilmişdir.

Hüquq sistemində mühüm yer tutan məhkəmələrin fəaliyyətinə diqqət və qayğı respublikada siyasi hakimiyyətin rəhbəri kimi Heydər Əliyevin daim diqqətində idi. Məhz onun təşəbbüsü ilə Azərbaycan SSR Ali Məhkəməsinin yaradılmasının 60 illiyinin keçirilməsi barədə 30 noyabr 1982-ci il tarixli qərar qəbul olunmuş, 1983-cü ildə yubiley tədbirləri hazırlanıb yüksək səviyyədə, keçmiş ittifaq dövlətinin də nümayəndələrinin iştirakı ilə həyata keçirilmişdir.

Ulu Öndərin sovet hakimiyyəti dövrünə aid siyasi və dövlətçilik irsinin hüquq-mühafizə sistemi ilə bağlı bir faktına diqqət çəkmək istərdik. Sovet Azərbaycanına rəhbərliyin ilk illərində Heydər Əliyev respublikada yerli hüquqşünas kadrların çatışmazlığını əsas götürərək bu sahədə köklü dəyişikliklər aparılmasına nail oldu. Respublikanın ali siyasi orqanının 1972-ci il 6 iyun tarixli qərarı ilə hüquqşünas kadrların hazırlanması işinin təkmilləşdirilməsi üçün tədbirlər müəyyənləşdirildi və həyata keçirildi. Qərarda sözügedən sahədə ciddi çatışmazlıqlar olduğu vurğulanır, ali hüquq təhsilinin təşkilində islahatlar aparılması zəruri hesab edilirdi. Ulu Öndər hüquqşünasların hazırlanması işində də milli mənafeyi üstün tutaraq, qərarda Azərbaycan dilində dərsliklərin və tədris vəsaitlərinin nəşrinə xüsusi diqqət yetirmişdi. Bundan başqa, həmin dövrdə məhz Heydər Əliyevin təşəbbüsü ilə sadə fəhlə-kəndli balalarının ali hüquq təhsili almasına imkan yaradan qaydanın tətbiq olunması cəmiyyətə böyük rəğbətlə qarşılanmışdır.

Ulu Öndər hüquq-mühafizə orqanlarının fəaliyyətini daim diqqətdə saxlayır, onların cinayətkarlığa qarşı mübarizəni daha da gücləndirməsi üçün müvafiq qərarlar qəbul edirdi. Məsələn, "Sosialist mülkiyyətinin oğurlanması və dağıdılması ilə mübarizənin gücləndirilməsi haqqında" 25 aprel 1975-ci il tarixli qərarında ictimai mülkiyyətin oğurlanmasına, rüşvətxorluğa, təsərrüfatsızlığa və dövlət intizamının digər pozuntularına qarşı mübarizəni gücləndirmək barədə respublika prokurorluğuna, Ədliyyə Nazirliyinə, Ali Məhkəməyə tapşırıqlar verilmişdi. Narkomaniyanın yayılmasına qarşı mübarizənin gücləndirilməsi ilə bağlı qəbul edilmiş 2 sentyabr 1976-cı il tarixli qərarda isə respublikada bu sahədəki mövcud və-

Hüquq-mühafizə orqanlarının inkişafı və milliləşməsi istiqamətində Heydər Əliyevin məqsədyönlü fəaliyyəti bu orqanlara dövlət qayğısının artırılması ilə yanaşı, həm də əməkdaşların vətənpərvərlik və mənəvi dəyərlərə sədaqət ruhunda yetişdirilməsinə, peşəkarlıq səviyyəsinin yüksəldilməsinə, xidməti vəzifələrini layiqincə yerinə yetirən, savadlı və səbatlı kadrların irəli çəkilməsinə yönəlmişdi.

Yeri gəlmişkən, qeyd edək ki, Heydər Əliyevin sovet Azərbaycanına rəhbərliyi dövründə hüquq-mühafizə orqanlarının qətiyyətli və səmərəli fəaliyyəti Qarabağda erməni millətçiliyinin baş qaldırmasına imkan vermir, araya milli ədavət salmaq cəhdlərinin qarşısı qanunçuluq çərçivəsində həyata keçirilən sərt tədbirlərlə alınırdı.

Azərbaycanda müstəqil dövlət quruculuğunun bütün istiqamətləri kimi çevik və səmərəli hüquq sisteminin formalaşdırılması da Ulu Öndər Heydər Əliyevin adı ilə bağlıdır. Zamanın hökmü ilə ötən əsrin 90-cı illərində dövlət müstəqilliyini bərpa edən Azərbaycan Ermənistanın təcavüzü, xarici təzyiqlər və daxili çəkişmələr üzündən dünyanın siyasi xəritəsindən silinmək və dövlətçiliyini itirmək təhlükəsi ilə qarşılaşanda, xalqımızın qüdrətli lideri kimi o, öz xilaskarlıq missiyasını böyük cəsarət və vətənpərvərliklə yerinə yetirərək, müstəqilliyimizin dönməzliyini təmin etdi. Məhz həmin vaxtdan respublikamızda hüquqi, demokratik dəyərlərə əsaslanan güclü dövlətçiliyin əsası qoyuldu. Yeni, real

dövlət quruculuğu prosesində ən mühüm istiqamətlərdən biri də mütərəqqi beynəlxalq təcrübədən istifadə etməklə müasir hüquq sisteminin formalaşdırılması, həm insan və vətəndaş hüquqlarını qorunması, həm də həmin dövrdə ağır nəticələr verən cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi oldu.



*"Dövlət iki şeydən sarsıla bilər: cinayətkar cəzasız qalanda və günahsız cəzalandırılanda"* – deyən Ulu Öndər 1994-cü il 9 avqust tarixli "Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluq və hüquq qaydalarının möhkəmləndirilməsi tədbirləri haqqında" Prezident Fərmanı ilə respublikada qanunun aliliyinin əsas istiqamətlərini müəyyənləşdirdi. 1994-cü ilin oktyabrında və 1995-ci ilin martında dövlət çevrilişi cəhdlərinin qarşısının qətiyyətlə alınması isə Azərbaycanda cinayətkar dəstələrin, qanunsuz silahlı birləşmələrin, hərbi çevriliş və qiyam vasitəsilə hakimiyyətə gəlmək cəhdlərinə birdəfəlik son qoydu.

Heydər Əliyevin rəhbərliyi ilə hazırlanaraq 1995-ci ilin 12 noyabrında ümumxalq səsverməsi yolu ilə müstəqil Azərbaycanın ilk Konstitusiyasının qəbul edilməsi məhkəmə-hüquq sistemində islahatlarının həyata keçirilməsi üçün möhkəm zəmin oldu. 1996-cı ildən bu sahədə köklü islahatlara başlanıldı və müvafiq dövlət komissiyası yaradıldı, müstəqil ölkənin qanunvericilik bazasının formalaşdırılması üçün geniş miqyaslı tədbirlər həyata keçirildi. Məhkəmələrin, ədliyyə, prokurorluq və daxili işlər orqanlarının fəaliyyətini tənzimləyən, beynəlxalq təcrübə və milli dövlətçilik ənənələri əsas götürülməklə müstəqilliyimizin möhkəmlənməsini və inkişafını təmin edən çevik və səmərəli hüquq sisteminin yaradılması qarşıya mühüm vəzifə kimi qoyuldu. "Məhkəmələr və hakimlər haqqında", "Konstitusiya Məhkəməsi haqqında", "Prokurorluq haqqında", "Vəkillər və vəkillik fəaliyyəti haqqında", "Polis haqqında" qanunların qəbul edilməsi hüquqi islahatlar sahəsində mühüm addım oldu. 2001-ci ildə yaradılan Azərbaycan Respublikasının insan hüquqları üzrə müvəkkili (Ombudsman) təsisatı bu islahatların tərkib hissəsi kimi hüquq sisteminin demokratik mahiyyətini müəyyənləşdirdi.

Yeni hüquq sisteminin səmərəli fəaliyyət göstərməsi üçün Cinayət, Cinayət-Prosessual, Mülki, Mülki-Prosessual Məcəllələr, Əmək, Ailə, İnzibati Xətalar, Gömrük, Vergi və digər məcəllələri, "Notariat haqqında", "Dövlət məhkəmə ekspertizası fəaliyyəti haqqında", "Təhqiqat, istintaq, prokurorluq və məhkəmə orqanlarının qanunsuz hərəkətləri nəticəsində fiziki şəxslərə vurulmuş ziyanın ödənilməsi haqqında", "Vətəndaşların hüquq və azadlıqlarını pozan qərar və hərəkətlərdən məhkəməyə şikayət edilməsi haqqında" qanunlar və digər vacib qanunvericilik aktları qəbul edildi. Ümumilikdə, Ulu Öndərin müstəqil Azərbaycana rəhbərlik etdiyi 1993 – 2003-cü illərdə hüquq sistemində həyata keçirilən islahatlar ölkədə ictimai-siyasi sabitliyin, qanunçuluğun və demokratik prinsiplərin bərqərar olmasını təmin etməklə müasir dövlət quruculuğunun sonrakı mərhələlərində qarşıda duran vəzifələrin də uğurla yerinə yetirilməsinə zəmin yaratdı.

Məhz Heydər Əliyev müstəqil Azərbaycanda müasir tipli hüquqi, demokratik, dünyəvi dövlət quruculuğuna başladıqdan sonra respublikanın prokurorluq orqanlarının fəaliyyəti yeni inkişaf mərhələsinə keçdi. Müstəqil dövlətimizin ilk Konstitusiyasının 133-cü maddəsi respublika prokurorluğunun hüquqi statusunu təsbit etdi. Bundan sonra qəbul olunan "Prokurorluq haqqında", "Prokurorluq orqanlarında qulluq keçmə haqqında", "Əməliyyat-axtarış fəaliyyəti haqqında" qanunlar, Cinayət, Cinayət-prosessual, Cəzaların İcrası, İnzibati xətalar məcəllələri və bir sıra mühüm normativ-hüquqi aktlar isə prokurorluq orqanlarının demokratik cəmiyyətdə yerini və rolunu müəyyənləşdirdi. Məhz



Ulu Öndərin təşəbbüsü ilə prokurorluqda kadr islahatları aparıldı, bu orqana savadlı, müasir dünyagörüşlü və dövlətçiliyə sadiq gənclərin ilk dəfə müsabiqə yol ilə işə qəbuluna başlanıldı. Prokurorluq işçilərinin 1 Oktyabr peşə bayramı gününün təsis edilməsi Ümummilli Liderin bu orqanlara yüksək etimadının, onun əməkdaşlarının şərəfli xidməti fəaliyyətinə verdiyi dəyərin göstəricisidir.

Hazırda Konstitusiyaya əsasən, Azərbaycan Prokurorluğu qanunla nəzərdə tutulmuş qaydada və hallarda qanunların icra və tətbiq olunmasına nəzarət etməklə, qanunla nəzərdə tutulmuş hallarda cinayət işləri başlamaq və istintaq aparmaq, məhkəmədə dövlət ittihamını müdafiə etmək, məhkəmədə iddia qaldırmaq, məhkəmə qərarlarından protest verməklə yanaşı, qanunvericilik təşəbbüsü irəli sürmək hüququna da malikdir. Bu səlahiyyət prokurorluğa 2002-ci il sentyabrın 19-da qüvvəyə minmiş "Azərbaycan Respublikasının Konstitusiyasında dəyişikliklər edilməsi haqqında" referendum aktına əsasən verilib.

Ulu Öndərin milli inkişaf və müstəqil dövlətçiliyimizin möhkəmləndirilməsi strategiyasına uyğun olaraq digər sahələrdə olduğu kimi, hüquq-mühafizə sisteminin təkmilləşdirilməsi məqsədilə apardığı islahatları onun siyasi varisi möhtərəm Prezident cənab İlham Əliyev zamanın çağırışları əsasında mükəmməl bir şəkildə davam etdirir. Nüfuzlu təhlilçilərin gəldiyi qənaət belədir ki, Heydər Əliyevin apardığı hüquqi islahatlar, düzgün dövlət quruculuğu prosesi və 2003-cü ildən başlayaraq islahatlar xəttinin davamlığının təmin edilməsi bu gün Azərbaycana dünyada söz sahibi olmaq, hərbi və iqtisadi gücünü artırmaq, torpaqlarımızı işğaldan azad etmək imkanı verib. Cənab İlham Əliyevin artıq 20 ilə yaxınlaşan prezidentliyi dövründə müstəqil dövlətimizin hüquq-mühafizə sistemi, o cümlədən prokurorluq orqanları daha da inkişaf edib, istər qanunvericilik bazasının möhkəmləndirilməsi, istərsə də maddi-texniki təchizat və kadr potensialının müasirləşdirilməsi baxımından yeni səviyyəyə yüksəlib. Bu prosesin davamlı xarakter daşıması isə dövrün tələbidir.

Bu gün hüquq-mühafizə orqanları öz vəzifələrini böyük məsuliyyəti hissi ilə yerinə yetirməyə, Heydər Əliyev ideallarına sədaqətlə dövlətimizin başçısının yüksək etimadını layiqincə doğrultmağa çalışırlar. Hüquq sistemində davam edən islahatlar daha çevik və səmərəli fəaliyyətə, qanunların aliliyinin qorunmasına, insan və vətəndaş hüquq və azadlıqlarının pozulması hallarına, cinayətkarlığa qarşı barışmaz və qətiyyətli mübarizənin təşkilinə təminat yaradır.

**İstifadə edilmiş mənbələr**


1. Azərbaycan milli təhlükəsizlik orqanlarının yaradılmasının 80 illiyinə həsr olunmuş təntənəli mərasimdə Azərbaycan Respublikasının Prezidenti Heydər Əliyevin nitqi – 27 mart 1999-cu il // https://lib.aliyev-heritage.org/az/6914542.html
2. Azərbaycan Respublikasında 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı 29 sentyabr 2022 // https://president.az/az/articles/view/57413
3. Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi tədbirləri haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı. 9 avqust 1994-cü il // https://e-qanun.az/framework/8950
4. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin İctimai-Siyasi Sənədlər Arxivi, f. .1, siy.56, s.v.5
5. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin İctimai-Siyasi Sənədlər Arxivi, f.1, siy.59, s.v.48
6. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin İctimai-Siyasi Sənədlər Arxivi, f.1, siy.62, s.v.41
7. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin İctimai-Siyasi Sənədlər Arxivi, f.1, siy.63, s.v.82
8. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin İctimai-Siyasi Sənədlər Arxivi, f.1, siy.68, s.v.149
9. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin İctimai-Siyasi Sənədlər Arxivi, f.1, siy.70, s.v.153
10. Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsinin İctimai-Siyasi Sənədlər Arxivi, f.1, siy.70, s.v.154


**Mobil Şəfiyev**
**Bakı şəhər prokurorunun müavini,**
**ədliyyə müşaviri**



*Respublika prokurorluğu və baş prokuroru Azərbaycan dövlətçiliyinin əsas sütunlarından biridir.*

***Heydər Əliyev***

# Örnək və ibrətamiz həyat yolu

Möhtərəm Prezident Dünya Azərbaycanlıların Həmrəyliyi Günü və Yeni il münasibətilə xalqımıza müraciətində bildirmişdir ki, "Bir il əvvəl Yeni il bayramı münasibətilə Azərbaycan xalqına müraciət edərkən demişdim ki, 2022-ci il də ölkəmiz üçün uğurlu olacaq. Belə də oldu. Qarşımızda duran bütün vəzifələr icra edildi, Azərbaycan daha da gücləndi. İki il əvvəl döyüş meydanında qazandığımız tarixi Qələbəmizi siyasi müstəvidə daha da möhkəmləndirdik. Bu ilin oktyabr ayında Praqa və Soçi görüşlərində Ermənistan ölkəmizin ərazi bütövlüyünü və suverenliyini rəsmən tanıdı. Hesab edirəm ki, bundan sonra Azərbaycan ilə Ermənistan arasında sülh müqaviləsinin imzalanması üçün bütün şərtlər təmin edildi və Azərbaycan tərəfindən təklif olunmuş məlum beş prinsip əsasında sülh müqaviləsi imzalana bilər. Mən bu ili "Şuşa İli" elan etmişdim. Şuşanın 270 illiyini biz çox geniş və böyük təntənə ilə qeyd etdik. Gələn il isə "Heydər Əliyev İli" elan edilib. Gələn il biz Ulu Öndərin 100 illik yubileyini qeyd edəcəyik. Heydər Əliyevin xatirəsinə ən böyük hörmətimiz onun yoluna sədaqətimizdir. Biz bu yolla gedirik və bu gün Azərbaycan reallıqları, uğurlar, qələbələr, bax, bu yolun təməlində dayanıb".

2023-cü il "Heydər Əliyev İli" elan olunub və ölkəmizdə, dünyanın ayrı-ayrı dövlətlərində dahi şəxsiyyətin Azərbaycan və millətimizlə bağlı gördüyü işlər yada salınır, nəzərdən keçirilir. Ulu Öndərimizin yaşadığı ömür illərinin hamısı öz xalqına və millətinə sədaqətlə xidmətin, onun xoşbəxt gələcəyinin təmin olunması istiqamətində gərgin və möhtəşəm fəaliyyətin ən bariz nümunəsi kimi bütün nəsillərə örnək ola biləcək ibrətamiz həyat yoludur. Heydər Əliyev izi həyatımızın bütün sahələrində mövcuddur. Onun 1969-cu ildən başlayaraq həyata keçirdiyi məqsədyönlü və uzaqgörən siyasəti nəticəsində bu gün Azərbaycan respublikası inkişaf etmiş dünya dövlətləri sırasında öz xüsusi yeri olan nüfuzlu bir dövlətə çevrilmişdir. Müstəqilliyinin ilk illərində ölkəyə nəzarət edə bilməyən dövlət başçılarının səriştəsizliyi nəticəsində istehsal dayanmış, iqtisadi böhran genişlənmiş, idarəçilik orqanlarının biri-biri ilə qarşılıqlı əlaqələri qeyri-normal vəziyyətdə olmuş, ictimai-siyasi proseslər nəzarətdən çıxmış, dövlətçilik üçün real təhlükə yaradan qanunsuz silahlı dəstələrin törətdiyi özbaşınalıqların həddi-hüdudu olmamış, dövlət, millət və xalq faktiki parçalanmış, vətəndaş müharibəsi artıq reallığa çevrilirdi.

Belə bir çətin vəziyyətdə hamı yekdil bir qərara gəldi ki, Azərbaycanı bu fəlakətdən yalnız və yalnız



Heydər Əliyev zəkası və qətiyyəti xilas edə bilər. 1993-cü il 15 iyun tarixində Heydər Əliyev xalqın təkidli tələbi ilə hakimiyyətə yenidən qayıdaraq, müstəqilliyimizin qorunub saxlanmasına nail oldu, vətəndaş və qardaş qırğınının qarşısını aldı və dinc quruculuq işlərinə başladı. Yenidən siyasi hakimiyyətə qayıdan Heydər Əliyevin təklifi etdiyi milli dövlət quruculuğu və müasir inkişaf strategiyası özündə bir sıra vacib komponentləri birləşdirirdi: müstəqilliyinin təmin edilməsi və müstəqil siyasətin həyata keçirilməsi; ictimai-siyasi stabillik; iqtisadi inkişaf və güclü iqtisadiyyat; islahatlar və müasir cəmiyyət quruculuğu; suverenlik, ərazi bütövlüyünün bərpası; beynəlxalq münasibətlər sisteminə inteqrasiya; azərbaycançılıq ideyasına əsaslanan milli birlik və həmrəylik; milli ənənələrə və tarixi köklərə bağlılıq.

SSRİ-nin dağılması və sosializm sisteminin süqutu nəticəsində planetimizin siyasi mənzərəsi ciddi şəkildə dəyişmiş və yeni geosiyasi vəziyyətin yaranmasına səbəb olmuşdur. Postsovet məkanında meydana gə-

lən müstəqil dövlətlərin beynəlxalq münasibətlər sisteminin subyektinə çevrilməsi və öz maraqlarını ifadə edən xarici siyasət xəttini həyata keçirməyə başlaması dövlətlərarası münasibətlərin yeni prioritetlərini müəyyənləşdirdi. Bu bir tərəfdən beynəlxalq aləmdə siyasi gərginliyin azalması, qlobal qarşıdurmanın aradan qalxması ilə səciyyələnmiş, siyasi, iqtisadi və hərbi baxımdan strateji əhəmiyyət kəsb edən və mənafelərin kəsişdiyi məntəqələrə çevrilən bir sıra regional mərkəzlərin meydana çıxması ilə müşayiət olunurdursa, digər tərəfdən, müxtəlif dairələr tərəfindən qıcışdırılan təcavüzkar separatçılıq meyllərinin güclənməsinə zəmin yaradırdı.

Heydər Əliyevin yenidən ölkə rəhbərliyinə qayıdışı nə qədər təlatümlü, ziddiyyətli, ictimai-siyasi gərginliklərlə səciyyələnən dövrə təsadüf etsə də, məhz ona xas olan müdriklik, illərlə toplanmış böyük dövlətçilik təcrübəsi, cəsarət, qətiyyət, ən başlıcası isə doğma Vətənini düçar olduğu bəlalardan xilas etmək istəyi və iradəsi ölkəmizi sürətlə fəlakətə sürükləyən təhlükəli proseslərin qarşısını almağa, xalqın müstəqilliyə, azadlığa, firavan gələcəyə inamını qaytarmağa qadir olan amilə çevrildi və Azərbaycan böyük fəlakətlərdən xilas oldu.

Zbiqnev Bjezinski Ulu Öndər haqqında demişdir: “Heydər Əliyev siyasi cəhətdən möhkəm, məntiqli, zəkalı, istədiyini tez çatdıran şəxsiyyət – bir sözlə şəksiz liderdir”.

Tənəzzülə uğrayan iqtisadiyyat, sürətlə artan inflyasiya, işsizlik, ümidsizlik mühiti və digər neqativ hallarla üz-üzə qalmış Azərbaycanı Heydər Əliyev qısa bir zaman kəsiyində iqtisadi və mədəni yüksəliş yolu tutan, xarici sərmayələrə açıq olan və böyük beynəlxalq layihələrə qoşulan ölkəyə çevirə bildi. Bu baxımdan ilk növbədə əmin-amanlığın, qanunçuluğun bərpa olunması, müstəqilliyin qorunub saxlanması sahəsində ciddi tədbirlər görüldü. Sabit siyasi durum, mənəvi-psixoloji atmosfer şəraitində Azərbaycanın gələcək Milli inkişaf strategiyası müəyyənləşdirildi, bu sahədə həyati əhəmiyyət kəsb edən bir çox vacib işlər həyata keçirildi.

«Əsrin müqaviəsi»nin imzalanması, «Böyük ipək yolunun» bərpasına başlanması və xarici investisiyanın ölkəmizə cəlb olunması sahəsində görülən səmərəli tədbirlərlə xalqımızın sosial rifahının yaxşılaşdırılmasının, iqtisadiyyatın dirçəlişinin əsası qoyuldu, dövlətimizin ərazi bütövlüyünü qoruyub saxlamağa qadir olan Silahlı Qüvvələr formalaşdı.

Ömrünü xalqına həsr etmiş Ümummilli Lider Heydər Əliyevin ən böyük xidmətlərindən biri də müstəqil Azərbaycan Respublikasının ilk Milli Konstitusiyasının hazırlanmasına verdiyi əvəzsiz töhvə olmuşdur. Ulu Öndər komissiya üzvlərinə müraciət edərək bildirmişdir ki, “Biz elə bir layihə hazırlamalı və nəhayət, elə bir Konstitusiya qəbul etməliyik ki, o, müstəqil Azərbaycan Respublikasının demokratik prinsiplər əsasında uzun müddət sabit yaşamasını təmin edən əsas qanun, tarixi sənəd olsun”.

Aparılan bu böyük işin yekunu olaraq yeni Konstitusiya layihəsi 1995-ci ilin oktyabrın 15-də ümumxalq müzakirəsinə çıxarılmış və 1995-ci ilin noyabrın 12-də isə müstəqil və suveren Azərbaycan Respublikasının ilk Konstitusiyası ümumxalq səsverməsi (referendum) yolu ilə qəbul edilmişdir.

Bəllidir ki, bəşər sivilizasiyasının ən müdrik kəşflərindən sayılan insan hüquqları bu gün hamının anladığı və anlamalı olduğu əvəzsiz nailiyyətdir. İnsan hüquqlarına hörmət, onların qorunması müasir dünyaya qovuşmağın əsas yoludur. Heç də təsadüfi deyil ki, “Əsas hüquqlar, azadlıqlar və vəzifələr” adlanan 2-ci bölmə 2 fəsildən, 41 maddədən ibarət olmaqla, həcminə görə Konstitusiyamızın ən böyük bölməsidir.

Hələ 1996-cı ilin iyununda ölkəmiz Avropa Şurasının Parlament Assambleyasında xüsusi dəvətli qonaq statusu almış və həmin ilin iyul ayının 13-də Azərbaycan rəhbərliyi tamhüquqlu üzv olmaq barədə Avropa Şurasına rəsmən müraciət etmişdir. Avropa Şurasının üzvü olan ölkələrin 1997-ci ilin oktyabr ayında Strasburqda keçirilən ikinci sammitində Ümummilli Liderimizin iştirakı ilə ölkəmizin bu qurumla əməkdaşlığının tarixində yeni dövrün başlanğıcı qoyuldu. Bu əməkdaşlığın genişləndirilməsinə xidmət edən bir sıra mühüm fərman və sərəncamlar imzalandı. 1998-ci ildə məhz Heydər Əliyevin təşəbbüsü ilə şərqdə ilk dəfə Azərbaycanda ölüm hökmü ləğv olundu və bundan başqa, ölkəmiz bir sıra beynəlxalq konvensiyalara qoşuldu. 2001-ci ilin yanvar 17-də Azərbaycan bu beynəlxalq quruma üzv qəbul edildi və Ulu Öndərimiz yanvar ayının 25-də Strasburqda, Avropa Şurasının iqamətgahı qarşısında üçrəngli bayrağımızı qaldırdı.

Bununla da ölkəmizdə hüquq islahatların uğurla aparılması, demokratik, hüquqi dövlət quruculuğu və insan hüquqlarının müdafiəsi kimi bəşəri dəyərlərə dönmədən əməl olunması özünün layiqli qiymətini aldı.

Azərbaycan Respublikası 2001-ci ildən Avropa Şurasının üzvü olmaqla, ölkə parlamenti «İnsan hüquqlarının və əsas azadlıqlarının müdafiəsi haqqında» Avropa Konvensiyasını ratifikasiya etmiş, 15 aprel 2002-ci il tarixdən Konvensiyanın hüquqi qüvvəsi Azərbaycan Respublikasının ərazisinə şamil edilmiş və bununla Azərbaycan Respublikasının yurisdiksiyası altında olan hər bir şəxsin İnsan hüquqları üzrə Avropa məhkəməsinə müraciət etmək hüququ yaranmışdır.

Məhz Ulu Öndərimizin səyi nəticəsində azərbaycan diasporunun yaradılmasına başlanmış, bununla əlaqədar xaricdə yaşayan azərbaycanlılarla iş üzrə dövlət

komitəsi yaradılmış və nəticədə Dünya azərbaycanlılarının I qurultayı keçirilmişdir. Ulu Öndərimizin 2001-ci ilin noyabrın 9-da Dünya Azərbaycanlıların I Qurultayında proqram xarakterli çıxışı xaricdə yaşayan soydaşlarımız üçün gələcək fəaliyyət bazasına çevrilmişdir.




Müstəqil dövlətimizin keçdiyi onillik inkişaf yolu haqqında danışan Ulu Öndər deyirdi: *“Azərbaycanın biz bir çox ağır və çətin məsələlərini həll etdik və qarşıda duran üfüqləri də çox yaxşı görürük. Azərbaycanın böyük təbii sərvətləri, əlverişli coğrafi-strateji mövqeyi, güclü iqtisadiyyatı, intellektual potensialı və azərbaycanlıların yüksək mədəni səviyyəsi müstəqil ölkəmizin gələcəyinin xoşbəxt və firavan olmasını təmin edəcəkdir. Əmin ola bilərsiniz ki, bu yol, qarşıda duran üfüqlər, perspektiv tam realdır. Apardığı iqtisadi siyasət sayəsində bir neçə ildən sonra Azərbaycan zəngin ölkələrdən biri olacaqdır”.*

Qeyd olunan tədbirdə Ümummilli Liderimiz demişdir: *“Bizim hamımızın bir vətəni var – bu Azərbaycan dövlətidir. Azərbaycanlı hər yerdə yaşaya bilər, ancaq azərbaycanlılığını, öz dilini, dinini, Milli ənənələrini unutmamalıdır. Onun qəlbi daim doğma Azərbaycanla bir vurmalıdır”.* Sonradan Bakı şəhərində keçirilmiş Dünya azərbaycanlıların II qurultayı bu sahədə görülən işlərin düzgün məcrada olmasını bir daha təsdiq etdi.

Uinston Çerçill siyasətçini böyük dövlət xadimindən onunla fərqləndirmişdir ki, siyasətçi gələcək seçkilər, əsl insan, böyük dövlət xadimi isə gələcək nəsillər haqqında düşünür.

Göründüyü kimi, müstəqil Azərbaycan Respublikasının ilk milli Konstitusiyasının qəbulu, Şərqdə ilk dəfə olaraq ölüm cəzasının ləğvi, kütləvi informasiya vasitələrinin sərbəst fəaliyyət göstərməsinin təmin olunması, siyasi plüralizm, üçpilləli məhkəmə sisteminin yaradılması, Azərbaycanın Avropa Şurasının üzvlüyünə qəbul edilməsi, dünya azərbaycanlılarının birinci qurultayının keçirilməsi, milli diasporumuzun fəaliyyətinin canlanması, azərbaycançılıq, milli özünüdərk ideyasının gücləndirilməsi məhz Heydər Əliyevin adı ilə bağlıdır. Bu siyahını sonsuzluğa qədər uzatmaq mümkündür. Dahi şəxsiyyətin Azərbaycanın ictimai həyatında nüfuz etmədiyi sahə demək olar ki, yoxdur. Lakin yuxarıda sadalananlar azərbaycançılığı, dövlətçiliyi, millətçiliyi və bütövlükdə Azərbaycanın maraqlarının müdafiəsini daha qabarıq şəkildə özündə əks etdirən hadisələrdir.

Respublikamızda həyata keçirilən hüquq islahatların əsas qayəsi və məqsədi kimi hüquq-mühafizə orqanlarının müstəqilliyinin və maddi-texniki təminatının təmin edilməsini önə çəkən Ulu Öndərimiz Heydər Əliyev bu vacib vəzifəni uğurla həyata keçirmək məqsədilə 21 fevral 1996-cı il tarixdə Hüquq İslahat Komissiyasının yaradılması barədə sərəncam imzalamışdır. Həmin komissiya tərəfindən beynəlxalq standartlara uyğun hazırlanmış «Konstitusiya məhkəməsi haqqında», «Məhkəmələr və hakimlər haqqında», «Vəkillər və vəkillik fəaliyyəti haqqında», «Prokurorluq haqqında», «Polis haqqında», «Əməliyyat-axtarış fəaliyyəti haqqında» və s. qanunların qəbulu məhkəmə-hüquq islahatlarının həyata keçirilməsində xüsusi əhəmiyyət daşımışdır.

Ulu Öndərimizin rəhbərliyi altında insan və vətəndaş hüquq və azadlıqlarının etibarlı müdafiəsi, məhkəmələrdə dövlət ittihamının mütərəqqi prinsiplər əsasında həyata keçirilməsi istiqamətində mühüm addımlardan biri də prokurorluq sistemində çoxşaxəli islahatların aparılması, bu orqanın funksiya və vəzifələrinin mövcud Konstitusiyaya uyğunlaşdırılması olmuşdur.

Azərbaycan Respublikası Prokurorluğunun dövlətçiliyimizin maraqlarına, qanunun aliliyinin və insan və vətəndaş hüquq və azadlıqlarının müdafiəsinə xidmət edən sivil və demokratik bir qurum kimi formalaşdırılması, onun fəaliyyətinin hərtərəfli təminatı üçün qanunverici, maddi və sosial bazanın yaradılması ölkəmizdə həyata keçirilən möhtəşəm islahatların, o cümlədən məhkəmə-hüquq islahatlarının memarı – Heydər Əliyevin böyük qayğı və dəstəyi sayəsində mümkün olmuşdur. Müstəqil respublikamızın Konstitusiyasında ilk dəfə olaraq ölkəmizin dövlət quruluş sistemində prokurorluğun layiqli yerinin müəyyənləşdirilməsi, məhkəmə hakimiyyəti sisteminə daxil olan prokurorluq orqanlarının statusu, təşkili və fəaliyyət prinsipləri, səlahiyyət dairəsi və vəzifələrinin qanunvericilik qaydasında təsbit edilməsi Heydər Əliyevin bilavasitə göstərişlərinin yerinə yetirilməsi nəticəsində mümkün olmuşdur. Prokurorluq orqanlarının ölkədə bərqərar olmuş ictimai-siyasi sabitliyin qorunması, qanunçuluğun təmini, insan hüquq və azadlıqlarının müdafiəsi sahəsində fəaliyyətini daim yüksək qiymətləndirən Ulu Öndərin *“Respublika Prokurorluğu*

*və Baş prokuroru Azərbaycan dövlətçiliyinin əsas sütunlarından biridir"* sözləri prokurorluğa ali səviyyədə olan diqqət və önəmin bariz nümunəsi hesab edilmişdir.

Ümummilli Liderimiz Heydər Əliyevin 17 iyul 1998-ci il tarixli sərəncamı ilə hər il oktyabr ayının 1-nin prokurorluq işçilərinin peşə bayramı kimi qeyd edilməsi, hakimiyyət orqanları arasında xüsusi yeri olan prokurorluğa dövlət qayğısının ifadəsi, ölkəmizdə prokurorluğun roluna rəsmi münasibəti təzahürü idi.

Ulu Öndərimiz Heydər Əliyevin qanunvericilik təşəbbüsü əsasında 7 dekabr 1999-cu il tarixdə «Prokurorluq haqqında» qanunun qəbulu qarşıda duran bu və digər vəzifələrin uğurla həyata keçirilməsinə zəmin yaratmış, prokurorluq orqanlarının müasirləşdirilməsini, onların məhkəməyədək icraat zamanı cinayət təqibi çərçivəsində insan hüquq və azadlıqlarının real təminatçısına çevrilməsini təmin etmişdir.

Bütün sahələrdə olduğu kimi, prokurorluq orqanlarının əsas inkişafı, peşəkar kadr korpusunun formalaşdırılması, bu orqanın məzmunca demokratik və sivil bir orqana çevrilməsi Ulu Öndərimizin adı ilə bağlıdır. Məhz Heydər Əliyevin 26 aprel 2000-ci il




tarixdə respublika prokurorluğunun əməkdaşları ilə keçirdiyi görüşdən sonra hərtərəfli islahatlara start verilmiş, keçirilən tədbirlər nəticəsində prokurorluğun fəaliyyətinin təkmilləşdirilməsi, mövcud olan nöqsanların aradan qaldırılması, müasir tələblər səviyyəsində işləməyə qadir kadr korpusunun formalaşdırılması, milli maraqların qorunması, cinayətkarlığa və hüquq pozuntularına qarşı mübarizə, cinayət təqibi zamanı insan hüquq və azadlıqlarının etibarlı müdafiəsi təmin edilmişdir.

Bu gün mahiyyətcə yenidən formalaşmış və demokratik cəmiyyətə xas sivil bir orqan kimi - müstəqil Azərbaycan prokurorluğu hüquq-mühafizə orqanları, eləcə də bütün digər dövlət təsisatları arasında yüksək səlahiyyətlərə, cinayətkarlığa qarşı mübarizədə prinsipial mövqeyə malik çevik və mükəmməl bir qurum kimi öz funksiyalarını yerinə yetirir.

*"Prokurorluq peşəsi ağır, çətin peşədir. Amma eyni zamanda çox şərəfli, hörmətli peşədir. Mən arzu edirəm ki, siz həmişə bu peşəni şərəflə daşıyasınız. Arzu edirəm siz həmişə çalışasınız ki, Azərbaycan vətəndaşı kimi, eyni zamanda Azərbaycan prokuroru kimi hörmətli, şərəfli olasınız. Azərbaycan prokurorluğunun inkişaf etməsinə dövlət qayğısı bu gün də, gələcəkdə də olacaqdır. Buna əmin ola bilərsiniz. Azərbaycan Prezidenti kimi, mən Azərbaycan prokurorluğuna inanıram, güvənirəm və arxalanıram".* Yeni Azərbaycan dövlətinin banisi Heydər Əliyevin respublika prokurorluq orqanlarının 80 illik yubileyinə həsr olunmuş təntənəli yığıncaqda dediyi bu sözlər bir tərəfdən yüksək etimadın nümayişi olsa da, digər tərəfdən prokurorluq əməkdaşlarının üzərinə qoyulan böyük məsuliyyətin təzahürü idi. Bu baxımdan hər bir prokurorluq əməkdaşı bu məsuliyyəti daim hiss etməli, bu yüksək etimadı əməli və ləyaqətli işi ilə doğrultmalıdır.

Xalqımızın lideri, ümumbəşəri şəxsiyyət Heydər Əliyev dövlətimizin müstəqilliyinin sarsılmazlığı, dönməzliyi və əbədiliyi üçün bütün mümkün olanları etmiş və xalqımıza özündən sonra demokratik və sivil bir dövlət qoyub getmişdir.

Möhtərəm Prezidentimiz İlham Əliyev demişdir: *"Müasir Azərbaycan Heydər Əliyevin əsəridir. Biz hamımız – bütün Azərbaycan xalqı gərək bundan sonra onun gördüyü işləri davam etdirək, genişləndirək, onun yolu ilə Azərbaycanı gələcəyə aparaq".*

Heydər Əliyevin siyasi dühasının məhsulu və yaratdığı şah əsəri müstəqil Azərbaycan Respublikasının hərtərəfli inkişafı barədə strateji konsepsiyaya sadiqlik nümayiş etdirən, doğma xalqına xidməti həyat amalı kimi qəbul edən Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin məqsədyönlü dövlətçilik siyasəti nəticəsində ölkə həyatının bütün sahələrində nəzərəçarpan nailiyyətlər əldə edilmiş, əhalinin həyat səviyyəsinin durmadan yüksəlməsinə təminat yaradan dayanıqlı iqtisadi tərəqqiyə nail olunmuş, demokratik dəyərlərin daha da geniş vüsət alması ilə sivil dövlət və vətəndaş cəmiyyəti formalaşdırılması istiqamətində irəliyə doğru inamlı addımlar atılmışdır.

2022-ci ilin 12 oktyabr tarixində Bişkek şəhərində Heydər Əliyev adına 20 saylı Məktəb-Gimnaziya Təhsil-Tərbiyə Kompleksinin açılışında möhtərəm Prezidentimiz çıxışında bildirmişdir ki, *"Biz uçurumun kənarında idik, qonşu ölkənin işğal, hərbi təcavüzü nəticəsində*

*təkcə əraziləri itirmirdik, həm də hərc-mərclik və qardaş qırğını, vətəndaş müharibəsi faciəsi ilə üz-üzə idik. Ən ağır müharibə vətəndaş müharibəsidir. Təəssüf ki, Azərbaycan xalqı bunun acısını çəkib. Yalnız Heydər Əliyevin qətiyyəti və Azərbaycan xalqının ona inamı sayəsində o, qardaş qırğınını dayandırdı, Azərbaycanın iflasa sürüklənməsinin, gənc respublikamızın parçalanmasının qarşısını aldı, Azərbaycanı inkişaf yoluna çıxardı, sabitliyin, təhlükəsizliyin möhkəmləndirilməsinə, investisiyaların cəlbinə, müasir Azərbaycan Ordusunun təməlini qoymağa nail oldu. Bu səbəbdən də biz deyəndə ki, bugünkü Azərbaycan Heydər Əliyevin əsəridir, biz tamamilə haqlıyıq. Biz onun davamçıları-yıq, əlbəttə, vəziyyətin spesifikliyi nəzərə alınmaqla, dəyişən dünya nəzərə alınmaqla, Azərbaycanın müasir imkanları nəzərə alınmaqla onun yolu ilə gedirik. Onun bizə etdiyi vəsiyyətlərdən biri ərazi bütövlüyünün bərpası idi ki, biz bunu iki il əvvəl şərəflə yerinə yetirmişik".*

Cinayətkarlığın yeni və daha mürəkkəb formalarının meydana çıxmasına gətirən qloballaşma, informasiya texnologiyalarının sürətli inkişafı prosesləri hüquq mühafizə orqanları üçün də yeni çağırışlar formalaşdırır. Bu istiqamətdə mühüm əhəmiyyət kəsb edən məhkəmə-hüquq sisteminin keyfiyyətcə yenilənməsi prosesi çərçivəsində prokurorluq orqanlarında da islahatların həyata keçirilməsi zərurəti ortaya çıxmışdır.

Bu zərurət 1 may 2020-ci il tarixdə Prezident cənab İlham Əliyevin yeni təyin olunmuş Baş prokuror cənab Kamran Əliyevi videoformatda qəbulu zamanı bir daha diqqətə çatdırılmış, prokurorluq orqanları qarşısında bir sıra mühüm vəzifələr qoyulmuşdur. Dövlət başçısı proqram xarakterli çıxışında xüsusilə vurğulamışdır ki, bütün sahələrdə olduğu kimi, prokurorluq orqanlarında da daha genişmiqyaslı islahatlara ehtiyac var və Azərbaycan Respublikasının Prokurorluğu bu islahatların aparılmasında uğurlar qazanacaq.

Beləliklə, prokurorluqda genişmiqyaslı islahatların aparılması məqsədilə yüksək ixtisaslı kadr korpusunun formalaşması mühüm şərt kimi qeyd olunmuşdur. Keyfiyyətli təhsilə malik, gənc, peşəkar, savadlı, müasir və innovativ düşüncəli kadrların önə çəkilməsi, onların peşəkarlığının təkmilləşdirilməsi üçün əlavə tədbirlər görülməsi, prokurorluq orqanlarına yeni qəbul olunacaq işçilərin yüksək nəzəri biliklərə malik olması, eyni zamanda dövlətçiliyə sədaqət prinsiplərini üstün tutması, həmçinin təcrübəli kadrların da öz biliklərini gənc nəsillə bölüşməsi vacib məqamlar kimi vurğulanmışdır.

Dövlət başçısının verdiyi göstəriş və tövsiyələrin icrası ilə bağlı 12 may 2020-ci il tarixdə Baş Prokurorluq üzrə geniş Fəaliyyət Planı təsdiq olunaraq icra edilməsi istiqamətində səmərəli tədbirlər görülməkdədir. Göstərişlərdən irəli gələn vəzifələrin icrası ilə bağlı prokurorluq orqanlarında işin səmərəliliyinin artırılması üzrə ciddi islahatların həyata keçirilməsinə



başlanılmış, qısa zaman ərzində struktur və bir sıra kadr islahatları həyata keçirilmişdir. Hazırda bu proses intensiv olaraq uğurla davam etdirilir.

Bu gün Dövlət Başçısının dəstəyi ilə prokurorluqda yeni müstəvidə müasir məzmunlu islahat tədbirləri davam etdirilməklə şəffaflığın təmin edilməsi, elmi-texniki nailiyyətlərin tətbiqi, maddi-texniki bazanın və əməkdaşların sosial müdafiəsinin gücləndirilməsi, işin səmərəliliyini artırmağa və mövcud çatışmazlıqları təxirə salınmadan aradan qaldırmağa təminat verən icra və nəzarət mexanizminin yaradılması istiqamətində kompleks tədbirlər həyata keçirilməkdədir.

Azərbaycanın Birinci vitse-prezidenti Mehriban xanım Əliyeva tərəfindən sosial məsələlərə xüsusi önəm verilməsi böyük uğurların əldə olunmasına, insanlara göstərilən qayğının yüksək həddə çatdırılmasına şərait yaratmış, sosial yönümlüyə üstünlük ölkənin dövlət siyasətinin başlıca istiqamətinə çevrilmişdir.

44 günlük müharibədəki şanlı Zəfərimiz xalqımızın Ali Baş Komandanı, Birinci vitse-Prezident Mehriban xanımı, dövlətimizi, dövlətçilik ənənələrini necə dəstəklədiyini bir daha əyani qaydada sübut etdi. Qələbəmizin ərsiyə gəlməsində hər bir azərbaycanlının, o cümlədən prokurorluq əməkdaşlarının öz töhvəsi olmuşdur. Təsadüfi deyil ki, 30. 12. 2020-ci il tarixdə «Azərbaycan Respublikası Prokurorluğunun bir qrup əməkdaşının təltif edilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin sərəncamı müharibə dövründə prokurorluq əməkdaşlarının əməyinə dövlət səviyyəsində verilən qiymətin təzahürü

olmaqla, qarşımızda yeni vəzifələr müəyyən etmişdir. 8 fevral 2021-ci il tarixdə ölkə Prezidenti İlham Əliyev Baş prokurorluğun yeni inzibati binasına gələrək, burada yaradılan şərait və 44 günlük Vətən müharibəsinə həsr olunmuş tarixi-memorial qalereya ilə tanış olmuşdur.

"Prokurorluq haqqında" Azərbaycan Respublikasının Qanununda dəyişiklik edilməsi barədə" Azərbaycan Respublikasının 2021-ci il 27 aprel tarixli Qanuna uyğun olaraq Azərbaycan Respublikası prokurorluq orqanlarının fəaliyyətində müasir informasiya-kommunikasiya texnologiyalarının tətbiqini təmin edən "Elektron prokurorluq" informasiya sisteminin yaradılması qərara alınmışdır. Hazırda bu sistemin hazırlanması və tətbiqi istiqamətində işlər davam etdirilir.

Əminik ki, bu sistemin prokurorluqda yaradılması və fəaliyyətə başlaması dövlətimizin başçısının sosial ədalətə əsaslanan islahatlarına, eləcə də Birinci vitse-



prezident Mehriban Əliyevanın inklüziv cəmiyyətin inkişafı üzrə təşəbbüslərinə uyğun olaraq prokurorluq tərəfindən innovasiyaların tətbiqinin genişləndirilməsi üzrə ardıcıl tədbirlər sırasındadır. Bütün bu işlər vətəndaşların ədalət mühakiməsinə əlçatanlığının asanlaşdırılmasına, iş keyfiyyətinin və şəffaflığın artırılmasına, bütövlükdə prokurorluğun fəaliyyətinə ictimai etimadın yüksəldilməsinə yönəlmiş olacaqdır.

Möhtərəm Prezidentimizin Azərbaycanın incisi olan Şuşanın azad olunması ilə bağlı televiziya vasitəsi ilə xalqımıza müraciətində ata vəsiyyətinin yerinə yetirilməsi və Şuşanın erməni işğalından azad olunmasını səsləndirməsi hər bir azərbaycanlının yaddaşına əbədi həkk olundu.

2021-ci ilin 15 iyun tarixində daha bir möhtəşəm müqavilə bağlandı. Şuşa Bəyannaməsi Azərbaycan Respublikasının müstəqillik, suverenlik, eyni zamanda beynəlxalq səviyyədə tanınmış sərhədlərinin toxunulmazlığını və dövlətlərin daxili işlərinə qarışmamaq prinsiplərini rəhbər tutaraq Qafqaz regionunda sabitliyin və təhlükəsizliyin bərqərar olması, möhkəmləndirilməsi üçün siyasi və hüquqi mexanizmləri özündə ehtiva edir. Şuşa Bəyannaməsi regionumuzda sülh və rifahı bərqərar edəcək və sabitliyin qarantı kimi çıxış edəcəkdir.

Nə qədər ki, Azərbaycan dövləti var, Azərbaycan xalqı var, Heydər Əliyev ürəklərdə yaşayacaqdır. Bu əbədiyaşarlığı daim təmin etmək, Azərbaycanın yüksək nailiyyətlər əldə etməsi üçün hər bir azərbaycanlının üzərinə böyük məsuliyyət düşür.

Hazırda müasir Azərbaycan prokurorluğunun fəaliyyəti üçün beynəlxalq standartlara cavab verən zəruri normativ-hüquqi baza mövcuddur. Qanunla nəzərdə tutulan səlahiyyətlər çərçivəsində dövlət maraqlarının müdafiəsinə xidmət edən dövlət fəaliyyətinin xüsusi növü kimi prokuror nəzarətinin səmərəli və keyfiyyətlə həyata keçirilməsi, onun səviyyəsi, şəffaflığı, əlçatanlığı və təsir dairəsi hakimiyyətin nüfuzundan xəbər verir. Bu gün prokurorluğun qarşısında duran ən prioritet vəzifələrindən biri vətəndaşlarımızın hüquq və azadlıqlarının dolğun və etibarlı müdafiəsidir. Qeyd olunanlar isə dövlətimizin ali məqsədi olan insan və vətəndaş hüquqlarının və azadlıqlarının təmin edilməsinə bilavasitə xidmət edir.

Həyatının mənasını ancaq xalqa, ən böyük xoşbəxtliyi isə dövlətə sədaqətlə xidmətdə və xalqa məhəbbətlə yanaşmada görən və azərbaycanlı olması ilə həmişə fəxr edən Heydər Əliyev siyasətinin layiqli davamçısı möhtərəm Prezidentimiz İlham Əliyevin rəhbərliyi altında həyata keçirilən yeni məzmunlu dövlətçilik siyasətinə hərtərəfli dəstək olmaqla, ölkəmizin xoşbəxt gələcəyi naminə məqsədyönlü fəaliyyətimizi davam etdirməli, müasir Azərbaycan prokurorluğunun formalaşması, təşkili və onun fəaliyyət istiqamətlərinin bünövrəsi məhz Ulu Öndərin adı ilə bağlı olması hər bir prokurorluq əməkdaşının bundan sonra da üzərinə düşən vəzifələri daha əzmlə, keyfiyyətlə və layiqincə yerinə yetirməyi zəruri edir.

Bu gün Azərbaycanın ərazi bütövlüyü, Şuşada qürurla dalğanan milli bayrağımız, milli dövlətimiz, müstəqilliyimiz, suverenliyimiz, dünya xalqları arasında öz layiqli yerimizi tutmaq naminə apardığımız 30 illik mücadilənin qürur doğuran bəhrəsi və məntiqi nəticəsidir. Heydər Əliyevin xatirəsinə ən böyük hörmətimiz onun yoluna sədaqətimizi əməli işimizlə sübut etməklə, Azərbaycan Prezidenti İlham Əliyevin ətrafında sıx birləşərək müstəqil dövlətimizi qoruyub yaşatmaq və daha da inkişaf etdirmək bizim ən əsas vəzifəmizdir.

**Sərdar İmanov**
**Bakı şəhəri Xətai rayon prokuroru,**
**baş ədliyyə müşaviri**

# Naxçıvan Muxtar Respublikasının xilası və dirçəlişi Ulu Öndərin adı ilə bağlıdır



Müasir müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın və dövlətimizin xilaskarı, Ümummilli Lider Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısındakı tarixi xidmətləri əvəzsizdir. Ulu Öndər Heydər Əliyevin həm SSRİ dönəmində, həm də müstəqillik illərində ölkəmizə rəhbərliyi dövründə xalqın rifah halının daha da yaxşılaşdırılması, respublikamızın tərəqqisinin təmin olunması və digər istiqamətlərdə tarixi əhəmiyyətə malik olan misilsiz işlər görülüb. Ümummilli Lider Heydər Əliyevin xalqımız qarşısındakı ən böyük xidmətlərindən biri isə, şübhəsiz ki, Azərbaycan dövlətçiliyinin xilası və bunun sayəsində ölkənin siyasi tarixində yeni bir mərhələnin açılmasıdır. Sirr deyil ki, 1990-cı ildə Azərbaycan olduqca mürəkkəb situasiya qarşısında idi. SSRİ-nin dayaqlarının sarsıldığı bir dövrdə keçmiş İttifaq miqyasında baş alan hərc-mərclik ölkələrin daxili həyatına da sirayət etmişdi və idarəetmə potensialı aşağı olan respublikalarda çox mürəkkəb siyasi-hüquqi kataklizmlər cərəyan etməkdə idi. Eyni zamanda, həmin dövrdə Azərbaycanın ayrılmaz bir hissəsi Naxçıvan Muxtar Respublikasının blokada şəraitində olması, sosial-iqtisadi durumunun bərbadlığı, o vaxtkı siyasi hakimiyyətin Naxçıvana sərgilədiyi biganəlik Muxtar Respublikada vəziyyəti olduqca mürəkkəbləşdirmişdi. 20-ci əsrin 80-ci illərinin sonu, 90-cı illərinin əvvəlləri bütün Azərbaycanda, o cümlədən onun tərkib hissəsi olan Naxçıvanda ictimai-siyasi hadisələrin ən mürəkkəb dövrü kimi xarakterizə olunur. Həmin dövrdə sovet imperiyası rəhbərliyinin Azərbaycanın maraqlarına zidd siyasəti, ermənilərin Naxçıvana ərazi iddiaları və sərhədlərdə hərbi toqquşmalar yaratması Muxtar Respublikanın həyatına da ciddi mənfi təsir göstərmişdir.

Bu dövrlərdə bütün Azərbaycanda, o cümlədən onun ayrılmaz hissəsi olan Naxçıvanda xalqın azadlığı uğrunda apardığı mübarizəni qələbə ilə başa çatdırmaq üçün siyasi təcrübəyə, diplomatik qabiliyyətə malik rəhbər lazım idi. Belə bir rəhbər Azərbaycanın görkəmli dövlət xadimi Heydər Əliyev oldu.

Ulu Öndərin Naxçıvana tarixi qayıdışı, Muxtar Respublikaya rəhbər seçilməsi və onun orada həyata keçirdiyi misilsiz xidmətləri barədə danışmaqdan öncə, Heydər Əliyevin hələ Sovet Azərbaycanına rəhbərliyi etdiyi dövrdə hər bir zaman Naxçıvan Muxtar Respublikasının inkişaf və tərəqqisi naminə gördüyü nəhəng işləri xatırlatmaq yerinə düşərdi. Belə ki, dahi şəxsiyyət Muxtar Respublikada aparılan quruculuq-abadlıq işlərinin vəziyyəti ilə tanış olmaq üçün 1970 – 1982-ci illərdə bir necə dəfə bu qədim diyarda səfərdə olub. İlk səfər 1974-cü il fevralın 22-də reallaşıb. Naxçıvan şəhərindəki “Heydər Əliyev” Muzeyində saxlanılan Azərbaycan KP Naxçıvan Vilayət Komitəsinin büro iclaslarının protokollarından da aydın olur ki, daha sonra 1978-ci il oktyabrın 15-də, 1980-ci il mayın 24-də və 1982-ci il oktyabrın 2-də reallaşan səfərlərin hər birində Naxçıvanın gələcəyi üçün mühüm qərarlar qəbul edilmiş, gələcək perspektivə hesablanmış addımlar atılmışdır. Ümummilli Liderimizin təşəbbüsü və diqqəti sayəsində kompleks tədbirlər həyata keçirilmiş və nəticədə, 1970 – 1982-ci illərdə Muxtar Respublikanın sənaye potensialı təxminən üç dəfə yüksəlmişdir. Həmin illərdə Araz çayı üzərində iri su anbarı və elektrik stansiyası, habelə 16 iri sənaye müəssisəsi tikilib istifadəyə verilmişdir ki, bütün bu genişmiqyaslı quruculuq fəaliyyəti nəticəsində Naxçıvan Muxtar Respublikasında sənaye məhsulunun ümumi həcmi 1985-ci ildə 1970-ci ilə nisbətən 4,6 dəfə artmışdır.

Heydər Əliyev 1990-cı il iyulun 20-də Moskvadan Bakıya, iyulun 22-də isə doğulduğu Naxçıvana gəlmişdir. 1990-cı il 21 avqustda Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının (MSSR) Ali Sovetinin Rəyasət heyəti Heydər Əliyevin Naxçıvan MSSR vətəndaşlığı barədə qərar qəbul etmişdir. 1990-cı il 30



sentyabr seçkilərində o, Nehrəm seçki dairəsindən Azərbaycan SSR-nin və Naxçıvan MSSR-in Ali Sovetinə xalq deputatı seçilmişdir. 1990-cı ilin noyabr ayının 17-də 12-ci çağırış Naxçıvan MSSR-in Ali Sovetinin ilk sessiyası Heydər Əliyevin sədrliyi ilə keçirilmişdir. Həmin sessiyada çox mühüm qərarlar qəbul olunmuşdur. Sessiya Naxçıvan Muxtar Sovet Sosialist Respublikasının adını dəyişdirərək Naxçıvan Muxtar Respublikası adlandırmağı qərara almışdır. Naxçıvan MSSR Ali Sovetinin adını dəyişərək Naxçıvan Muxtar Respublikasının Ali Məclisi adlandırılması, Azərbaycan Respublikasının milli istiqlal rəmzi olan üçrəngli dövlət bayrağının bərpası, onun Naxçıvan Muxtar Respublikasının dövlət bayrağı kimi qəbul edilməsi haqqında qərarlar qəbul olundu. Naxçıvan Muxtar Respublikasının Ali Məclisi Azərbaycan SSR Ali Sovetinin qarşısında həmin bayrağın bütünlükdə Azərbaycanın rəsmi dövlət rəmzi kimi tanınması haqqında vəsatət qaldırdı.

Naxçıvan MR Ali Məclisinin birinci sessiyasında müzakirə olunan ən mühüm məsələlərdən biri isə 1990-cı il 20 yanvar faciəsinə verilən siyasi qiymət idi. 1990-cı il 21 noyabr tarixində Naxçıvan MR Ali Məclisi Heydər Əliyevin işləyib hazırladığı "1990-cı ilin yanvar ayında Bakı hadisələrinə siyasi qiymət verilməsi haqqında" Qərar qəbul etmişdir. Heydər Əliyevin böyük siyasi nüfuzu nəticəsində qəbul olunan bu qərarda ilk dəfə qanlı yanvar hadisələrinə düzgün siyasi-hüquqi qiymət verilmiş, bu hadisədə Qorbaçov başda olmaqla SSRİ rəhbərliyi ilə yanaşı, o vaxtkı respublika rəhbərliyində olan Vəzirov və digərlərinin də böyük günahı olduğu göstərilmiş və onların adlarının bir-bir açıqlanaraq məsuliyyətə cəlb edilmələri tələb olunmuşdu. 1990-cı ilin 14 dekabr tarixində Naxçıvan MR Ali Məclisi deputat Heydər Əliyevin hazırladığı "Azərbaycan SSR-in Dağlıq Qarabağ Muxtar Vilayətində, Şaumyan rayonunda və Xanlar rayonunun Çaykənd kəndində yaranmış vəziyyətə münasibət haqqında" Qərar qəbul etmişdir. Həmin tarixdə keçirilmiş sessiyada həmçinin keçmiş SSRİ rəhbərliyinin ortaya atdığı yeni ittifaq müqaviləsi də müzakirə olunmuş və Ulu Öndər buna öz kəskin reaksiyasını bildirmişdir. Məsələ ilə bağlı çıxış edən Heydər Əliyev demişdir: "Mən yeni ittifaqa daxil olmağın və bunun üçün referendum keçirməyin heç bir şərt qoymadan qəti olaraq əleyhinəyəm. Azərbaycan Respublikası iqtisadi və siyasi müstəqillik yolu ilə getməli, tam istiqlaliyyət uğrunda mübarizə aparmalıdır". Məhz Heydər Əliyevin belə bir prinsipial mövqeyi nəticəsində Naxçıvan Muxtar Respublikasında bu mənasız bir referendum keçirilməyərək boykot edilmiş və Azərbaycanın öz müstəqilliyinə qovuşması istiqamətində ciddi bir addım atılmışdır.

1991-ci il sentyabrın 3-də Heydər Əliyevin Naxçıvan MR Ali Məclisinə Sədr seçilməsi isə böyük bir hadisə



oldu. Məsələ heç də keçmiş Sovetlər İttifaqı rəhbərliyinin nüfuzlu simasının kiçik bir əyalətə rəhbər seçilməsində deyildi. Bu seçimlə Ulu Öndər ilk növbədə, fəal və peşəkar fəaliyyəti ilə nəinki Muxtar Respublikada, həmçinin bütün Azərbaycanda milli dövlətçiliyə inam hissini formalaşdıra bildi. Ümummilli Lider eyni zamanda, bölgənin erməni təcavüzündən müdafiəsi ilə bilavasitə məşğul olmağa başladı, bu məsələ onun əsas fəaliyyət istiqamətinə çevrildi. Böyük dövlət xadiminin ilk gündən başlayaraq atdığı addımlar, həyata keçirdiyi tədbirlər Naxçıvanı düşmən əlinə

keçmək təhlükəsindən xilas etdi. Ulu Öndər Moskvadan Naxçıvana gələndə onu şəhərin baş meydanında keçirilən görüşdə təqribən 80 min nəfər alqışlamış, Muxtar Respublika Ali Məclisinin Sədri seçiləndə isə sessiyanın keçirildiyi binanın ətrafına on minlərlə adam toplaşmışdı, şəhər və kəndlərdəki görüşlərinə saysız-hesabsız insanlar qatılırdı. Təbii ki, bunlar müdrik rəhbərə xalq sevgisindən, el məhəbbətindən irəli gəlirdi. Heydər Əliyev ağır blokada şəraitinə baxmayaraq, qeyd etdiyimiz kimi, Muxtar Respublikanın müdafiəsini yüksək səviyyədə təşkil etməyə, onu təcavüzkarlardan qorumağa nail oldu, bircə kənd də düşmən əlinə keçmədi. İqtisadi blokada şəraitində yaşayan Naxçıvanın düşmən qarşısında mətanətlə dayanması ilə bərabər, həm də iqtisadi problemlərin həllinə ciddi diqqət yetirib yeni həyat quruculuğuna başlamasında da Heydər Əliyevin önəmli rolu oldu. Naxçıvan MR-də dövlət müstəqilliyinin bərpası istiqamətində tədbirlər təkcə siyasi müstəvidə getmir, yeni iqtisadi təfəkkürə söykənən, bazar iqtisadiyyatının tələblərinə uyğunlaşan iqtisadi model formalaşırdı.

1991-ci ilin 26 oktyabrında Naxçıvan Muxtar Respublikası Ali məclisinin sessiyasında Naxçıvanda "7 noyabr" bayramının (keçmiş SSRİ-də keçirilən Oktyabr inqilabı günü) ləğv edilməsi haqqında da qərar qəbul olundu. Heydər Əliyevin Naxçıvandakı fəaliyyətində ən uğurlu cəhətlərdən biri də "Dünya Azərbaycanlılarının həmrəylik və birlik günü haqqında" Sərəncam verməsi olmuşdur. Ali Məclisin sədri Heydər Əliyev müzakirələrə yekun vurarkən geniş nitq söyləmiş və məsələnin siyasi əhəmiyyətinə xüsusi önəm verərək demişdir: "Dünya Azərbaycan türklərinin milli həmrəylik və birlik günü haqqında" məsələnin Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sessiyasında müzakirə olunması, böyük əhəmiyyətli qərar qəbul edilməsi Azərbaycan türklərinin uzun illər ayrılıqdan sonra birləşməsi yolunda ilk addımdır. Biz böyük qürur hissi ilə deyirik ki, bu təşəbbüs, Naxçıvanda, qədim türk diyarında irəli sürülmüşdür".

Naxçıvanın o ağır dövrdə Heydər Əliyevin nüfuzu sayəsində qurduğu beynəlxalq əlaqələri Muxtar Respublikanın mövcudluğu üçün bəlkə də yeganə bir vasitə idi. 1991-ci ilin 29 oktyabr tarixində Heydər Əliyevin ciddi səyi ilə başa gəlmiş Naxçıvan Muxtar Respublikasının Sədərək rayonunda Azərbaycanla Türkiyə arasında Araz çayı üzərindən salınmış müvəqqəti körpünün rəsmi açılış mərasimi olmuşdur. 1992-ci ilin 22-25 mart tarixlərində Türkiyənin o vaxtkı Baş naziri Süleyman Dəmirəlin dəvəti ilə Heydər Əliyev Türkiyəyə rəsmi səfər etmiş və Türkiyə Cümhuriyyəti tərəfindən Naxçıvan Muxtar Respublikasına maliyyə, iqtisadi və texniki yardım göstərilməsi barədə, 100 milyon dollar məbləğində kredit ayrılması və hər il 100 tələbənin Türkiyədə təhsil almasını nəzərdə tutan birgə Əməkdaşlıq Protokolu imzalanmışdır. 1992-ci il 28 may tarixində isə Naxçıvanla Türkiyə arasında Araz çayı üzərində yeni inşa edilmiş «Ümid»



körpüsünün böyük bir coşqu ilə açılış mərasimi olmuş və həmin tədbirdə Süleyman Dəmirəl də böyük nümayəndə heyəti ilə iştirak etmişdir. Bu körpünün açılışı blokada şəraitində olan Naxçıvan üçün müstəsna bir əhəmiyyətə malik olmuşdur. Bundan əlavə, Naxçıvan şəhəri yaxınlığında İstilik-Elektrik Stansiyası inşa edilmiş, İran İslam Respublikasından Culfa rayonuna, Türkiyə Respublikasının İqdır vilayətindən isə 92 kilometrlik bir məsafədən yüksək gərginlikli elektrik xətlərinin Naxçıvana çəkilməsi başa çatdırılmışdır ki, bu da Naxçıvanın elektrik enerjisinə olan ehtiyacını əsasən ödəmiş oldu.

Ulu Öndərin dünya miqyaslı nüfuzlu bir siyasətçi olmasını təsdiq edən Naxçıvan dövrü ilə bağlı bir faktı da qeyd etmək istərdim. 1993-cü ilin yanvar ayında ABŞ-da prezident seçkilərində qalib gəlmiş Bill Klintonun inauqurasiya mərasimi keçirilmişdir. Həmin vaxt ABŞ-ın Azərbaycan dövlətçiliyi üçün əhəmiyyətini, müstəqilliyimizin və təhlükəsizliyimizin təmin olunmasında rolunu və yaranmış gərginliyin doğura biləcəyi təhlükəli vəziyyəti obyektiv qiymətləndirən Naxçıvan MR Ali Məclisinin sədri Heydər Əliyev 1993-cü ilin yanvarında ABŞ Prezidenti Bill Klintona məktub göndərdi. Məktubda yenicə prezidentlik fəaliyyətinə başlayan Bill Klintonu təbrik edən Heydər Əliyev ümidvar olduğunu bildirirdi ki, o,

müstəqil Azərbaycan Respublikasına xoş və xeyirxah münasibət bəsləyəcək, dünyanın bir çox regionlarında baş verən silahlı konfliktlərin həllinə nail olmaq, Naxçıvanın Ermənistan tərəfindən blokadaya alınmasını aradan qaldırmaq üçün Amerika dövlətinin bütün imkanlarından istifadə edəcəkdir. Naxçıvan MR Ali Məclisinin sədri Heydər Əliyevin məktubu Ağ evdə dərhal böyük bir reaksiya səbəb oldu. 1993-cü il fevral ayının 4-də ABŞ-ın Azərbaycandakı o zamankı səfiri Riçard Mayls Naxçıvana səfər etdi. O, Ali Məclisin sədri Heydər Əliyevlə görüş zamanı ABŞ Prezidenti Bill Klintonun bölgədə yaranmış vəziyyətlə bağlı narahatlığını çatdırmaqla bərabər, Naxçıvana təcili humanitar yardım göstərilməsi haqqında Prezidentin qərarı barədə Dövlət Departamentinin humanitar yardımlar üçün proqramının rəhbəri Riçard Armitac tərəfindən göndərilən məktubu təqdim etdi. Görüşdə Azərbaycanda yaranmış ictimai-siyasi vəziyyət,



Ermənistan Azərbaycan münaqişəsi və Dağlıq Qarabağ problemi, Naxçıvanın blokadası və onun ağır nəticələri haqqında geniş fikir mübadiləsi edilmiş, bütün bu problemlərin həlli yolları aranmışdır. Az keçmədən Azərbaycana qarşı hər cür yardımı qadağan edən “907-ci düzəlişə” baxmayaraq, Amerikanın humanitar yardımla dolu yüklənmiş iri yük təyyarəsi bir başa Naxçıvan hava limanına eniş etdi. Bu bir daha dahi şəxsiyyət Heydər Əliyevin böyük beynəlxalq nüfuza sahib olmasının əyani təzahürü idi.

Ulu Öndərin Naxçıvana rəhbərlik etdiyi dövr haqqında danışarkən Muxtar Respublikanın müdafiə qabiliyyətinin gücləndirilməsi və həmin dövrdə yeni yaradılmış özünü müdafiə dəstələrinin silah sursatla təmin edilməsi istiqamətində həyata keçirilən mühüm tədbirləri də qeyd etmək lazımdır. Həmin dövrdə erməni silahlı birləşmələri Naxçıvanın sərhədlərində geniş miqyaslı təcavüz həyata keçirməyə çoxsaylı cəhdlər edirdilər. Silah və sursata böyük ehtiyac var idi. O zamankı Respublika rəhbərliyi isə bu məsələyə biganə yanaşırdı. Uzaq görən siyasəti və nüfuzu sahəsində Heydər Əliyev bu problemi də həll etməyi bacardı. Həmin dövrdə Naxçıvanda SSRİ Dövlət Təhlükəsizlik Komitəsinin Sərhəd Qoşunlarının Sərhəd dəstəsi fəaliyyət göstərirdi və onun Viktor Jukov adlı komandiri var idi. Heydər Əliyevin uzun illər ərzində dövlət təhlükəsizlik orqanlarında çalışdığı üçün onun bu qurumda böyük hörməti və nüfuzu mövcud idi. Məhz Heydər Əliyevin şəxsiyyətinə olan böyük hörmət və ehtiram sayəsində SSRİ dövləti dağılması mərhələsi zamanı Naxçıvan sərhəd dəstəsinin komandiri V.Jukov məsuliyyəti öz üzərinə götürərək sərhəd dəstəsinə aid bütün silah və sursatını Naxçıvana təhvil vermişdir ki, bu da Muxtar Respublikanın müdafiə qabiliyyətinin yüksəlməsi üçün mühüm bir amil olmuşdur.

Beləliklə, 1991 – 1993-cü illər arasında Ümummilli Lider Heydər Əliyev Naxçıvandakı hakimiyyəti dövründə Muxtar Respublikanı geniş tərəqqi yoluna çıxarmağı bacarmışdır. Mübaliğəsiz demək olar ki, Heydər Əliyev olmasaydı Naxçıvanın da mövcudluğu mümkün olmayacaqdır. Bu Uca Tanrının Naxçıvana bəxş etdiyi böyük bir varlıq idi.

Bu gündə bu siyasət Möhtərəm Prezidentimiz cənab İlham Əliyev və hörmətli birinci xanım Mehriban xanım Əliyeva tərəfindən sox uğurla davam etdirilir. Naxçıvana böyük diqqət və qayğı vardır. Naxçıvan Muxtar Respublikasında Prezidentinin Səlahiyyətli nümayəndə institutunun tətbiq edilməsi isə bir daha bu bölgənin strateji əhəmiyyətini təsdiq etməklə, orada mövcud olan bütün məsələlərin cənab Prezidentin diqqət mərkəzində olmasını təsbit edir. Möhtərəm cənab Prezident İlham Əliyevin müdrik xarici siyasəti nəticəsində reallığa çevirilməkdə olan Zəngəzur dəhlizinin açılması və bu qədim diyarın Azərbaycanla bağlantısını təmin edilməsi ilə Naxçıvan Muxtar Respublikasının əhəmiyyətinin beynəlxalq səviyyədə artmasını şərtləndirəcək və həmin bölgənin daha da inkişaf edərək çiçəklənməsinə rəvac verəcəkdir.

**Həsən Hənifəyev**
**Bakı şəhəri Nəsimi rayon prokuroru,**
**baş ədliyyə müşaviri**




# Gəncədə dövlətçiliyin bərpası və Heydər Əliyev

*Gəncə Azərbaycanın, Azərbaycan xalqının qədim, zəngin tarixini özündə əks etdirən bir diyardır, gözəl şəhərdir. Biz hamımız – harada yaşamasından asılı olmayaraq hər bir azərbaycanlı – Gəncə ilə, onun qədim və zəngin tarixi ilə fəxr edirik və Gəncənin tarixinə, Gəncənin Azərbaycan xalqı qarşısında göstərdiyi xidmətlərə minnətdarlığımızı bildiririk.*

**Heydər Əliyev**

Hər bir xalqın milli azadlıq və istiqlaliyyət tarixində xilaskar rolunu oynayan dahi insanlar var. Həmin dahilər öz qətiyyətləri ilə mənsub olduqları xalqı arxasınca aparıb, ən taleyüklü məqamlarda qalib rolu oynamışlar. Azərbaycan xalqının Ümummilli Lideri Heydər Əliyev müasir dünya tarixinə parlaq və silinməz iz qoymuş böyük şəxsiyyət, qeyri-adi zəka, fitri istedad sahibi, müdrik dövlət xadimi kimi düşmüşdür.

Müstəsna xidmətləri ilə əbədilik qazanan Ümummilli Lider Heydər Əliyevin mənalı həyat yolu, zəngin və çoxşaxəli irsi tükənməz ibrət məktəbidir. Ötən illərə nəzər salarkən Azərbaycan xalqının öz müdrik liderinin rəhbərliyi ilə qazanmış olduğu mühüm tarixi nailiyyətlərin bir daha şahidi oluruq. İntibah və milli şüurun oyanışı Heydər Əliyevin hakimiyyətə gəlişi ilə başlamış, müstəqilliyimiz məhz onun sayəsində əbədi və dönməz xarakter almışdır. Ölkəmiz dünyada layiq olduğu mərtəbəyə Ulu Öndərin uzaqgörənliyi, müdrikliyi, qətiyyəti, dəmir iradəsi, zəngin dövlətçilik təcrübəsi sayəsində yüksələ bilmişdir.

Vətəni, xalqı qarşısında misilsiz xidmətlərinə görədir ki, bu gün Ümummilli Lider Heydər Əliyevin anadan olmasının 100 illik yubileyi ölkəmizin hər yerində və onun hüdudlarından kənarda hər bir azərbaycanlının yüksək ehtiramı və dərin minnətdarlıq hissi ilə geniş qeyd olunur.

Ulu Öndərin 1969 – 1982-ci illərdə Azərbaycanın rəhbəri kimi gördüyü işlər xalqın yaddaşında daim qalacaqdır. Heydər Əliyevin ölkə rəhbərliyinə gəlişi keçmiş SSRİ-nin geridə qalmış respublikalarından biri sayılan Azərbaycanda həyat ritmini büsbütün dəyişdi, ölkədə görünməmiş canlanma və yüksəliş, tikinti-quruculuq işləri başlandı. Heydər Əliyevin gərgin fəaliyyəti nəticəsində iqtisadiyyat, sənaye və kənd təsərrüfatında, mədəniyyət və təhsil sahəsində böyük uğurlar əldə edildi, çoxsaylı sənaye müəssisələri, mədəniyyət və təhsil ocaqları, tibb müəssisələri inşa edildi, yeni yaşayış massivləri salındı, yollar tikildi, ucqar rayonlara qaz xətləri çəkildi.

Məhz Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi o illərdə bugünkü dövlət müstəqilliyimizin möhkəm təməli qoyuldu, milli ruh, azərbaycançılıq məfkurəsi yüksəlməyə başladı, kadr korpusunun millliləşdirilməsi istiqamətində qətiyyətli addımlar atıldı, hər il yüzlərlə gənc müxtəlif mühüm, o cümlədən hərbi ixtisaslara yiyələnmək üçün SSRİ-nin ən qabaqcıl ali məktəblərinə



göndərildi, azərbaycanlılar mühüm dövlət vəzifələrinə irəli çəkildilər. Dahi şəxsiyyət Heydər Əliyevin titanik fəaliyyəti nəticəsində Azərbaycan keçmiş ittifaqın qabaqcıl respublikalarından birinə çevrildi.

1990-cı ilin yanvarında keçmiş SSRİ rəhbərliyinin Azərbaycana qərəzli münasibətinin təzahürü olaraq, dinc etirazçılara qarşı Bakıya sovet ordusunun yeridilməsi misli görünməmiş qanlı faciə ilə nəticələndi. 20 Yanvar faciəsindən bir gün sonra Ulu Öndər Heydər Əliyevin Azərbaycanın Moskvadakı daimi nümayəndəliyinə gedərək xalqımızın kədərini bölüşməsi və sovet hakimiyyətinin ölkəmizdə həyata keçirdiyi qanlı aksiyanı ifşa



Gəncə müəssisələrinin əksəriyyətinin əsası Heydər Əliyevin adı ilə bağlı idi. XX əsrin 70 – 80-cı illərində şəhərdə bir çox zavod və fabriklərin fəaliyyəti genişləndirilmiş, yeni sənaye müəssisələri açılmış, təhsil, səhiyyə və bir sıra mədəniyyət ocaqları istifadəyə verilmişdi. Ümumilikdə Heydər Əliyevin Gəncəyə işgüzar səfərlərini iki mərhələyə ayırmaq olar. Kommunist Partiyası Mərkəzi Komitəsinin I katibi olduğu 1969 – 1982-ci illər və Azərbaycan Respublikasının prezidenti olduğu 1993 – 2003-cü illər. Birinci mərhələdə Heydər Əliyevin Gəncəyə 4 səfəri reallaşıb.

1970-ci il, aprel Heydər Əliyev Gəncəyə ilk işgüzar səfərini edir. Şəhərin həyatı ilə ətraflı tanış olur, müəssisələri gəzir, ziyalılarla görüşür. Durğunluğun səbəblərini araşdırır, yüksəlişin yollarını müəyyən edir. Məqsəd strateji baxımdan əhəmiyyətli mövqeyə sahib olan şəhərin sənaye və tikinti potensialının gücləndirilməsi olur. Bu səfərin nəticələri növbəti illərdə aydın görünür.

Bu unudulmaz səfərdən sonra qədim diyarın yeni həyatı, əsl yüksəlişi, tərəqqi dövrü başlandı. Hamımız çox yaxşı xatırlayırıq ki, xalqımızın Ümummilli Lideri Heydər Əliyevin hakimiyyətə gəlişi ilə ümumən respublikada, eləcə də Gəncə şəhərində neçə-neçə xoş işlərin təməli qoyuldu. Sənaye obyektləri tikildi, körpülər, bağlar, parklar salındı, elm, təhsil ocağı istifadəyə verildi. Çini qablar zavodunun, qənnadı fabrikinin, taxıl məhsulları, xalça, ət və süd kombinatlarının, əlvan metalların emalı zavodunun inşası bilavasitə Heydər Əliyevin adı ilə bağlıdır. Sosial obyektlər də əsla unudulmurdu. "Gəncə" mehmanxanası, təyyarə limanı, Yeni Gəncə və Gülüstan yaşayış sahələri, avtomobilçilər qəsəbəsi və neçə-neçə digər xeyirxah işlər o illərin yadigarıdır.

1980-ci ildə Heydər Əliyev Gəncəyə iki səfər reallaşdırır. İyul ayında baş tutan səfərdə şəhərdə iri həc-

etməsi o dövrdə xalqımıza bir dayaq, bir təsəlli oldu. Xalq o ağır günlərdə köməksiz olmadığını hiss etdi.

1991 – 1993-cü illərdə Naxçıvana rəhbərliyi dövründə Heydər Əliyev tərəfindən respublikamızın müstəqilliyi yolunda mühüm addımlar atıldı, üç rəngli milli bayrağımız ilk dəfə Naxçıvanda dövlət bayrağı kimi qəbul olundu, dünya azərbaycanlılarının həmrəyliyi günü müəyyən edildi, 20 yanvar faciəsinə siyasi qiymət verildi, SSRİ-nin saxlanılması barədə referendumdan imtina edildi, mühüm imperiya strukturlarının fəaliyyəti dayandırıldı, ilk dəfə olaraq sovet qoşun hissələri Muxtar Respublikadan çıxarıldı.

Lakin 1991-ci ildə dövlət müstəqilliyini yenicə bərpa etmiş ölkəmiz onu itirmək təhlükəsi qarşısında qalmışdı. Ölkədə müharibə gedirdi. İdarəçilik isə yox dərəcəsində idi. Respublikada xaos, anarxiya hökm sürürdü. Yeganə nicat yolunu Heydər Əliyevin qayıdışında görən Azərbaycan xalqı onu təkidlə hakimiyyətə çağırırdı.

Məhz Azərbaycan xalqının azadlığının, müstəqil dövlətçiliyinin müqəddəratının həll edildiyi ağır günlərdə xalqının iradəsinə tabe olan Heydər Əliyev ölkə rəhbərliyinə qayıdaraq müstəqil Azərbaycan Respublikasını, Azərbaycan xalqını, milli-azadlıq hərəkatında qazanılmış tarixi nailiyyətləri məhv olmaqdan xilas etmək kimi çox çətin və şərəfli bir missiyanı öz üzərinə götürdü.



Ümummilli Lider daxili və xarici qüvvələrin dövlət çevrilişi, sui-qəsd və təxribat cəhdlərinə baxmayaraq öz həyatı, sağlamlığı bahasına gecəli-gündüzlü fədakar əməyi hesabına müstəqil Azərbaycan dövlətini qurdu və möhkəmlətdi. Heydər Əliyev demokratik hüquqi dövlət qurmaq, köklü islahatlar aparmaq üçün ilk növbədə ölkədə ictimai-siyasi sabitliyi, qanunçuluğu bərqərar etdi, cəmiyyətdə hökm sürən hərc-mərcliyə və özbaşınalığa birdəfəlik son qoydu.

Heydər Əliyev Gəncənin Azərbaycan tarixində yerini və mövqeyini yaxşı bilirdi. Bəlkə də bu səbəbdən idi ki, Nizami yurdunu daim diqqətdə saxlayırdı. Hədəf Gəncənin iqtisadi potensialının gücləndirilməsi, gələcəyə yönəlik layihələrin icrası idi. SSRİ də öz sözünü deyən



mli sərnişin təyyarələrini qəbul etmək imkanı yaradan Gəncə hava limanının genişləndirilməsi məsələsi öz həllini tapır. Yeni uçuş xətləri açılır və Gəncənin SSR şəhərləri ilə əlaqə şəbəkəsi daha da genişləndirilir. Növbəti səfər dekabr ayında baş tutur. Həmişə olduğu kimi bu dəfə də Heydər Əliyev şəhərin sənaye müəssisələrinə baş çəkir, kollektivləri ilə görüşür, müvafiq qərarlar qəbul edir. Öz təşəbbüsü ilə tikilmiş “Büllur” zavodunda olur. Zavodla tanışlıqdan sonra şəhər əhalisi, fəallar ilə təəssüratlarını bölüşür. Ardınca onun təşəbbüsü ilə salınmaqda olan “Xatirə” parkına baş çəkir. Təbiətə vurğunluğu sarıdan yenə şəxsi nümunə göstərir: “Mənə çinar tingi verin. Çinar həm Gəncənin, həm də Azərbaycanın rəmzidir” deyib iki çinar əkir. Hazırda həmin çinarlar Heydər Əliyevin adını daşıdığı parkda 43-cü baharı yaşayır. Bu səfər zamanı Heydər Əliyev “Şərəf nişanı” ordenini təqdim etmək üçün Kənd Təsərrüfatı İnstitutunda, hazırki Azərbaycan Dövlət Aqrar Universitetində olur. Bu, Heydər Əliyevin Gəncəyə Kommunist Partiyası Mərkəzi Komitəsinin birinci katibi olaraq etdiyi son səfər olur.

Yetmişinci illərdə Texnologiya İnstitutu (indi universitet adlanır) açıldı. Azərbaycan Kənd Təsərrüfatı İnstitutu üçün (indi Dövlət Aqrar Universiteti adlanır) təhsil-tələbə şəhərciyinin əsası qoyuldu. Sonralar – 13 iyun 2000-ci ildə “Azərbaycan Respublikasında təhsil sisteminin təkmilləşdirilməsi haqqında” Prezident Fərmanı ilə Müəllimlər İnstitutunun Gəncə filialı fəaliyyətə başladı.



Doxsanıncı illərin hadisələri Gəncəyə də böyük maddi və mənəvi ziyan vurdu. Ulu Öndər xalqın təkidi və tələbi ilə doğma Azərbaycana qayıtdı. O kaşməkəşli illərdə bütövlükdə Azərbaycanın, eləcə də Gəncənin xilas edilməsi üçün Heydər Əliyevin əvəzsiz xidmətləri olmuşdur.

Yaşanan tarixi hadisələr Heydər Əliyevi Gəncəyə bir də 13 il sonra gətirir. 1993-cü il, 10 iyun əslində, qayıdışın, qurtuluşun bünövrəsi məhz Gəncədə qoyulmuşdu. 1993-cü ilin qanlı-qadalı 4 iyun günləri... Surət Hüseynovun başçılığı ilə 1993-cü il 4 iyunda hərbi qiyam başlandı. Hökumətə tabe olmaqdan imtina edən bir qrup zabit Surət Hüseynovun başçılığı ilə hələ aprelin 3-də Gəncədə “Hərbi Birlik” adlı hərbi-siyasi təşkilat yaratmışdı. Birlik, onun təsiri altında olan 709 saylı hərbi hissə Ali Baş Komandana və Müdafiə Nazirliyinə tabe olmurdu. Heydər Əliyev genişlənmək təhlükəsi olan vətəndaş müharibəsini dayandırmaq üçün düşünülmüş siyasi tədbirlər həyata keçirdi. O, iyunun 13 – 14-də Gəncə şəhərində hərbi müxalifətlə danışıqlar apardı, mövcud siyasi böhrandan çıxış yollarını müəyyənləşdirdi. Heydər Əliyev iqtidarında yüksək vəzifələr tutsa da, öz məqsədinə nail ola bilməyəcəyini dərk edən Surət Hüseynov qərargahı Gəncədə yerləşən Səhra Cəbhə İdarəsi yaratdı. Oktyabrın 4-də Gəncədə Surət Hüseynovun tərəfdarlarından ibarət 300-ə yaxın silahlı adam şəhər İcra Hakimiyyəti binasını və başqa strateji obyektləri ələ keçirdi. Bu zaman paytaxtda iki hərbi hissənin əsgərləri artilleriya qurğularını Prezident sarayı, Ali Sovet və Müdafiə Nazirliyi binalarına tuşlayıb əmrə müntəzir dayanmışdılar. Qiyam və dövlət çevrilişi qəsdində günahkar olan Surət Hüseynov hakimiyyətdən kənarlaşdırıldı, Azərbaycandan Rusiyaya qaçdı. 1996-cı ildə isə Rusiyada həbs olunub respublikaya gətirildi və məhkum edildi.

O dövrün naşı rəhbərlərinin təqsiri üzündən Azərbaycan dünyanın siyasi xəritəsindən silinmək təhlükəsi ilə üz-üzəydi. Belə ağır günlərdə Heydər Əliyevin müdrikliyi, sərkərdə qüdrəti bir daha özünü göstərir. Vətəndaş müharibəsinin qarşısı alınır. Heydər Əliyev Azərbaycan

respublikasının prezidenti seçildikdən sonra da ilk işgüzar səfərini Gəncəyə edir.

1993-cü il, 13 dekabr Həmin gün Ulu Öndər şəhər sakinləri və fəalları ilə birlikdə müstəqil Azərbaycan dövlətinin inkişafı, şəhərin iqtisadiyyatının dirçəldilməsi, bazar iqtisadiyyatına keçid, ölkə daxilində sabitliyin qorunması yolunda təxirəsalınmaz tədbirləri müzakirə edir, azad bazar iqtisadiyyatı şəraitində şəhərdə sahibkarlığın inkişafı perspektivləri barədə dəyərli tövsiyələrini verir.

1994-cü ilin oktyabr və 1995-ci ilin mart hadisələri dövründə də Gəncə məhz Heydər Əliyevin qətiyyəti sayəsində qardaş qırğınından xilas edildi.

Bütün bunlar ölkə başçısının doğma Azərbaycana, qədim Nizami yurduna olan əvəzsiz xidmətlərinin cüzi bir hissəsidir. Heydər Əliyevin hər dəfə Gəncəyə gəlişi şəhərin həyatında unudulmaz bir hadisəyə çevrilirdi. Xüsusən, 1998 və 2000-ci illərdə ölkə başçısı Gəncəyə gələndə gördü ki, şəhər təsərrüfatının bir sıra sahələrində vəziyyət günün tələblərinə cavab vermir. Təbii qazın, su və elektrik enerjisinin təchizatında qüsurlar çoxdur. Bu sahədə işlərin canlandırılması üçün müvafiq təşkilatlara konkret tapşırıqlar verildi və şəhər əhalisi qısa bir vaxtda bu tövsiyələrin əməli nəticəsini gördü.

1998-ci il, 7 oktyabr Heydər Əliyev Azərbaycan Respublikasının Prezidenti və 1998-ci il prezident seçkilərində namizədi kimi Gəncə seçiciləri ilə görüşmək üçün şəhərə növbəti səfərini edir. Bu səfər zamanı ali baş komandan Gəncə qarnizonunun əsgər və zabitləri ilə də görüşür. Şəhərin mərkəzi meydanında isə Gəncə və ətraf rayonların seçiciləri ilə görüş keçirir.



2000-ci il, 23 – 24 may Bu səfərdə Heydər Əliyev şəhər təsərrüfatının bir sıra sahələrində vəziyyətin günün tələblərinə cavab vermədiyini görmüş və təbii qazın, su və elektrik enerjisinin təchizatında qüsurları aradan qaldırmağa çalışır, bu sahədə işlərin canlandırılması üçün müvafiq təşkilatlara konkret tapşırıqlar verir. Çox keçmir ki, şəhərdə infrastruktur yaxşılaşdırılır.

2002-ci il, 12 – 13 sentyabr İki il sonra isə Heydər Əliyev Gəncədə Olimpiya İdman Kompleksinin açılışında iştirak edir. Şəhər ictimaiyyətinin nümayəndələri ilə keçirdiyi müşavirədə şəhərin sosial iqtisadi vəziyyətini təhlil edir. Şəhərin həyatında yeni inkişafın başlanğıcını qoyan bu səfər Heydər Əliyevin Gəncəyə son səfəri olur.

Ulu Öndər Gəncə görüşlərindən birində demişdi: *"Gəncəni sənaye şəhəri etmək, Gəncəni daha böyük etmək, Gəncə sakinlərinin həyat tərzini yaxşılaşdırmaq həmişə Azərbaycan rəhbərliyinin diqqət mərkəzində olmuşdur".*

Bu, həqiqətən də, belədir. Şəhərdə ən müxtəlif, ən mürəkkəb sənaye sahələri sürətlə inkişaf edir.

Gəncə əsl yüksəliş yolundadır. Hər sahədə görülən işlərin miqyası getdikcə artır. Ulu Öndər Heydər Əliyevin arzularına uyğun olaraq şəhərdə sistemli surətdə aparılan genişmiqyaslı abadlıq və quruculuq işləri bu yerləri tanınmaz etmişdir. Gəncədə bir növ, torpaq üzərində tarix yazılır. Şəhərin mərkəzində, geniş sahədə Heydər parkı yaradılıb, fəvvarələr kompleksi düzəldilib, Xatirə muzeyi açılıb, Ulu Öndərin əzəmətli abidəsi ucaldılıb.

Ümummilli Lider Heydər Əliyevin müəyyən etdiyi hərtərəfli inkişaf strategiyası ötən dövrdə dövlət başçısı cənab İlham Əliyevin rəhbərliyi ilə uğurla həyata keçirilərək ölkəmizin davamlı inkişafı təmin edilmiş, qarşıya qoyulan əsas məqsəd və hədəflərə nail olunmuşdur.

Ulu Öndərin adını daşıyan Heydər Əliyev Fondu xeyirxahlıq, sülh, insanpərvərlik kimi bəşəri amallar uğrunda nəcib fəaliyyəti ilə ölkədə həyata keçirilən çoxşaxəli islahatlara dəyərli töhfələr verir, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti, Fondun prezidenti Mehriban xanım Əliyevanın təşəbbüsü ilə reallaşdırılan çoxsaylı layihələr, həyata keçirilən tədbirlər öz müsbət nəticələrini verməklə xalqımızın Heydər Əliyev ocağına olan sevgisini daha da gücləndirir.

Böyük qürur hissi ilə deyə bilərik ki, möhkəm bünövrə üzərində formalaşmış Azərbaycan dövləti özünün yeni müasir inkişaf dövrünü yaşayır. Hər birimiz Heydər Əliyevin dövlətçilik amallarına sadiq qalaraq Ulu Öndərin yüksək ideyalarını yaşatmaq və inkişaf etdirmək, Azərbaycan tarixinin yeni şanlı səhifələrini yazmaq naminə möhtərəm Prezidentimiz cənab İlham Əliyevin ətrafında sıx birləşərək, əlimizdən gələni əsirgəməməli, dövlət başçısının yüksək etimadına uyğun olaraq ölkəmizin hərtərəfli tərəqqisi üçün öz vəzifələrimizi layiqincə yerinə yetirməli və daha əzmkarlıqla çalışmalıyıq.

Azərbaycan xalqı Ulu Öndərin siyasi kursunu davam etdirməklə möhtərəm Prezidentimiz cənab İlham Əliyevin rəhbərliyi ilə bundan sonra da öz tarixinin yeni, şanlı səhifələrini yazacaq, daha yüksək zirvələr fəth edəcəkdir.

**Azad Qarayev**
**Gəncə şəhər prokuroru,**
**baş ədliyyə müşaviri**

# Prokurorluğun uğurlarını şərtləndirən Ulu Öndər Heydər Əliyevin mükəmməl hüquq siyasəti




Ulu Öndər Heydər Əliyevin xalqın israrlı tələbi ilə 15 iyun 1993-cü il tarixdə növbəti dəfə hakimiyyətə qayıdışından sonra Respublikamızda bütün sahələrdə olduğu kimi, məhkəmə-hüquq sistemində də köklü islahatlar həyata keçirilməyə başlanıldı. Böyük tarixi şəxsiyyətin təşəbbüsü və rəhbərliyi ilə həyata keçirilmiş fundamental islahatlar sayəsində sürətlə qüdrətlənən ölkəmizdə paralel olaraq hüquq sahəsində də əsaslı islahatların aparılmasına zəmin yarandı. Vurğulanmalıdır ki, bu sahədə aparılan islahatlarda müdrik rəhbərin 9 avqust 1994-cü il tarixli "Cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsi, qanunçuluğun və hüquq qaydasının möhkəmləndirilməsi tədbirləri haqqında" Fərmanı xüsusi əhəmiyyət kəsb etmişdir. Qeyd olunan istiqamətdə səmərəli fəaliyyət, o cümlədən adıçəkilən fərmanın uğurlu icrası hüquq-mühafizə orqanlarının cinayətkar təzahürlərə, xüsusən də, mütəşəkkil cinayətkarlığa, korrupsiyaya, terrorizmə, narkotik vasitələrin və psixotrop maddələrin qanunsuz dövriyyəsinə qarşı səfərbər olunması və "cəzanın labüdlüyü" prinsipinin reallaşması ilə nəticələndi.

Məlum olduğu kimi, müstəqilliyin ilk illərində ictimai münasibətlərin əhəmiyyətli dəyişməsi yeni qanunların qəbul edilməsini zəruri etsə də, bu prosesin qısa bir zamanda və ələlxüsus da əlverişsiz ictimai-siyasi bir şəraitdə baş tutması mümkün olmadığı üçün, müvəqqəti olaraq əvvəlki qanunlardan istifadə edilməsi labüd olduğundan, 18 oktyabr 1991-ci il tarixdə qəbul edilmiş "Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında" Konstitusiya aktının 4-cü maddəsində müvafiq qanunlar qəbul edilənədək keçmiş SSRİ qanunlarının respublikanın suverenliyinə və ərazi bütövlüyünə zidd gəlməyən həddə Azərbaycan Respublikasında qüvvəsini saxlamasına dair müddəalar təsbit edilmişdir. Məhz Ulu Öndər Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu yolu ilə irəliləyən müstəqil Azərbaycanda vətəndaş cəmiyyətinin formalaşması, insanların azad yaşaması, qanunun aliliyinin təmin edilməsi üçün ən yüksək tələblərə cavab verən normativ-hüquqi baza yaradıldı. Ümummilli Lider Heydər Əliyevin hüquqi dövlət quruculuğunda ən böyük xidmətlərindən biri olan müstəqil respublikamızın ilk Konstitusiyasının demokratik meyarlar və ümumbəşəri prinsiplər əsasında hazırlanmasını təmin etməsi, ümumxalq səsverməsi yolu ilə qəbul olunması üçün təşəbbüs göstərməsi hüquqi islahatlara hərtərəfli dəstək olmuşdur. Təsadüfi deyil ki, bu ali qanun xalq arasında "Heydər Əliyev Konstitusiyası" adlandırılır. Müstəqil Azərbaycanın 12 noyabr 1995-ci il tarixdə ümumxalq səsverməsi yolu ilə qəbul olunmuş ilk Konstitusiyası ölkənin gələcək inkişaf prioritetlərini müəyyənləşdirməklə bərabər, demokratik-hüquqi dövlət və vətəndaş cəmiyyəti quruculuğunun təməlini qoydu. Ulu Öndərin təşəbbüsü və şəxsi nəzarəti ilə insan hüquq və azadlıqlarının qorunması sahəsində mühüm hüquqi aktlar qəbul edildi, respublikamız müxtəlif beynəlxalq konvensiya və sazişlərə qoşuldu, qanunvericilik, icra və məhkəmə hakimiyyətinin qarşılıqlı fəaliyyətinin təmin edilməsi məqsədi ilə silsilə tədbirlər həyata keçirildi. Görülən böyük işlər sırasında müdrik lider Heydər Əliyevin 21 fevral 1996-cı il tarixli Sərəncamı ilə yaradılmış Hüquq İslahatları Komissiyasının fəaliyyətini də xüsusi vurğulamaq lazımdır. Yeni ictimai münasibətlərə uyğun Cinayət, Cinayət-Prosessual, Mülki, Mülki-Prosessual, İnzibati Xətalar, Cəzaların İcrası, Əmək və digər məcəllələrin qəbulu isə respublikamızda bu sahədə atılan addımların qətiyyətini daha da artırdı.

Minnətdarlıq hissləri ilə qeyd etmək zəruridir ki, müstəqil Azərbaycanın ali qanununda ilk dəfə olaraq ölkəmizin məhkəmə hakimiyyəti sistemində prokurorluğun layiqli yerinin müəyyənləşdirilməsi, onun statusu, təşkili və fəaliyyət prinsipləri, səlahiyyət dairəsi və vəzifələrinin qanunvericilik qaydasında təsbit edilməsi də Ümummilli Lider Heydər Əliyevin bilavasitə tapşırıq və göstərişlərinin icrasının nəticəsində mümkün olmuşdur.

Böyük şəxsiyyət Heydər Əliyevin 19 iyun 2001-ci il tarixli Fərmanı ilə təsdiq edilmiş "Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında Əsasnamə"nin qəbul edilməsi və onun icraya yönəldilməsi Azərbaycan Respublikası Prokurorluğunda aparılan islahatların ən böyük uğurlarından olmaqla, prokurorluğun kadr tərkibinin yenidən formalaşdırılması kimi mühüm məsələnin əsasını təşkil etmişdir. Prokurorluq orqanlarına işə qəbulun demokratik



prinsiplər əsasında, şəffaf prosedurlarla müsabiqə yolu ilə həyata keçirilməsinin nəticəsində prokurorluğun kadr tərkibinin hərtərəfli inkişaf etmiş, zəngin biliyə malik, geniş dünyagörüşü olan, yüksək mənəvi keyfiyyətlərə malik, vətənpərvər, dövlətçilik prinsiplərinə sadiq gənc hüquqşünaslardan formalaşmasına və mütəmadi olaraq yenilənməsinə nail olunmuşdur.

Ulu Öndərin Prokurorluq orqanlarının rəhbər işçilərinə mütəmadi olaraq verdiyi müdrik tövsiyə və göstərişlərin əsasında, Azərbaycan Respublikası Prokurorluğu orqanlarında aparılan, bugün də yeni müstəvidə eyni intensivliklə davam etdirilən hərtərəfli islahatlar nəticəsində prokurorluğun fəaliyyətinin təkmilləşməsi və bunun üçün zəruri normativ-hüquqi bazanın yaradılması, ciddi tələbkarlıq şəraitinin formalaşdırılması, kadrların seçilməsinin yeni mütərəqqi formalarının tətbiqi təmin edilmiş, dövlətçiliyin, milli maraqların, insan hüquq və azadlıqlarının etibarlı qorunması, cinayətkarlığa qarşı mübarizə yüksək səviyyədə təşkil olunmuşdur.




Böyük fərəh və təşəkkür hissləri ilə qeyd olunmalıdır ki, əsası müasir Azərbaycanın qurucusu Heydər Əliyev tərəfindən qoyulan bütün hüquq mühafizə orqanlarına, o cümlədən prokurorluğa hərtərəfli diqqət və qayğı göstərilməsi ənənəsi Möhtərəm Prezidentimiz cənab İlham Əliyev tərəfindən də davam etdirilir. Xüsusi vurğulanmalıdır ki, prokurorluq orqanlarının müasir dövrün tələblərinə cavab verən dövlət orqanı səviyyəsinə uyğun təkmilləşdirilməsində Möhtərəm Prezidentimizin 27 sentyabr 2008-ci il tarixli Sərəncamı ilə təsdiq edilmiş “Azərbaycan Respublikası Prokurorluğunun fəaliyyətinin müasirləşdirilməsinə dair 2009 – 2011-ci illər üçün Dövlət Proqramı” mühüm əhəmiyyətə malik olmuşdur. Azərbaycan Prokurorluğunun tarixində yeni təkmilləşmə və inkişaf, hərtərəfli müasirləşdirmə dövrünün əsasını qoyan dövlət proqramında nəzərdə tutulan tədbirlərin yerinə yetirilməsi hüquq sisteminin inkişafı prosesində prokurorluğun rolunun artırılması, cinayətkarlığa qarşı mübarizə və istintaq aparılmasında digər hüquq-mühafizə orqanları ilə qarşılıqlı fəaliyyətin təkmilləşdirilməsi, prokurorluğun işində müasir elmi-texniki nailiyyətlərdən geniş istifadə olunması, mərkəzləşdirilmiş informasiya-kommunikasiya sisteminin yaradılması, dövlət ittihamının müdafiəsində peşəkarlığın yüksəldilməsi, beynəlxalq əlaqələrin genişləndirilməsi, habelə prokurorluq işçilərinin sosial müdafiəsinin gücləndirilməsi və prokurorluğun maddi-texniki təminatının yaxşılaşdırılması üçün əlverişli şərait yaratmışdır.

Hərbi Prokurorluq orqanlarının işinin daha səmərəli təşkil olunması, cinayətkarlığa və hüquq pozuntularına qarşı mübarizənin effektivliyinin artırılması məqsədilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin imzaladığı “Azərbaycan Respublikasının bəzi qanunvericilik aktlarına dəyişikliklər və əlavələr edilməsi haqqında” 30 sentyabr 2005-ci il tarixli Azərbaycan Respublikasının Qanunu ilə Hərbi Prokurorluğa Silahlı Qüvvələrdə törədilən və hazırlanan cinayətlərin qarşısının alınmasında mühüm əhəmiyyətə malik əlavə səlahiyyətlərin verilməsi və buna uyğun olaraq mövcud strukturda müvafiq dəyişikliklər edilməklə yeni qurumların yaradılması Hərbi Prokurorluğun fəaliyyətinə verilən növbəti yüksək dəyərin təcəssümü idi.

2018-ci ildə Gəncə hərbi prokurorluğunun ən müasir standartlara uyğun tikilməklə bütün zəruri avadanlıqla təchiz olunmuş yeni inzibati bina ilə təmin olunması, sözügedən prokurorluğun kollektivinə yüksək səviyyəli iş şəraitinin yaradılması onun işçilərinin əməyinə verilən yüksək qiymətin və göstərilən qayğının təzahürü olmuşdur.

Gəncə Hərbi Prokurorluğunun kollektivi dövlətin və rəhbərliyin onların fəaliyyətini dəyərləndirməklə verdiyi qiymətə uyğun fəaliyyət göstərmək və etimadı layiqincə doğrultmaq, qanunun aliliyini təmin etmək, eləcə də cinayətkarlığa qarşı mübarizəni gücləndirmək üçün bu gün daha əzmlə çalışırlar.

Bütün bunlar qəti əminliklə onu deməyə əsas verir ki, qədirbilən digər azərbaycanlılar kimi, prokurorluq, o cümlədən hərbi prokurorluq əməkdaşları da Ulu Öndər Heydər Əliyevin Azərbaycan xalqı və dövləti qarşısındakı misilsiz xidmətlərini və prokurorluğa olan yüksək qayğısını həmişə xatırlamaqla dünya şöhrətli siyasətçini hər zaman böyük ehtiramla anacaqlar.

**Şöhrət Qəhrəmanov**
**Gəncə hərbi prokuroru,**
**ədliyyə polkovniki**

# Heydər Əliyev və hüquqi dövlətin Azərbaycan modeli




*"Azərbaycan tarixdə heç vaxt indiki qədər güclü olmamışdır"*. Prezident İlham Əliyevin səsləndirdiyi bu müdrik fikir bir daha təsdiqlədi ki, hazırda Azərbaycan dünyanın inkişaf etmiş dövlətləri ilə bir sıradadır və ən güclü orduya malikdir. Təsadüfi deyildir ki, bu gün Silahlı Qüvvələrimiz dünyanın 50 ən güclü ordularından biridir. Dövlət başçımız, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər ordumuz Ermənistanın 30 illik işğalına öz gücü ilə son qoyduqdan sonra Azərbaycanın dünya miqyasındakı reytinqi daha da yüksəlmiş, mövqeyi möhkəmlənmişdir. Bu şanlı zəfərlə müzəffər ordumuz müstəqillik tariximizə yeni bir səhifə yazdı, Azərbaycanı bütövləşdirdi, dünyanın ən qüdrətli dövlətlərinin, həmçinin nüfuzlu beynəlxalq təşkilatların həll edə bilmədikləri münaqişəni cəmi 44 gün ərzində tənzimlədi. Prezident, Ali Baş Komandan İlham Əliyevin siyasi iradəsi, cəsarəti, qətiyyəti xalqımıza, o cümlədən dünya azərbaycanlılarına qələbə sevincini yaşatdı.

Bu gün Azərbaycan bayrağının Cəbrayılda, Hadrutda, Füzulidə, Zəngilanda, Şuşada, Ağdamda, Kəlbəcərdə və Laçında dalğalanması Ali Baş Komandanımız İlham Əliyevin yüksək və məğlubedilməz sərkərdəlik qabiliyyətinin, qəhrəman ordumuzun qüdrətinin, xalqımızın monolit birliyinin və həmrəyliyinin parlaq nümunəsidir. Bu tarixi Qələbənin qazanılmasında müdrik şəxsiyyət Heydər Əliyev tərəfindən əsası qoyulmuş siyasi kursun Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi mühüm rol oynadı. Həm sovet hakimiyyəti dövründə, həm də müstəqillik illərində həyatını Azərbaycanın, xalqının, millətinin inkişafına həsr edən Ulu Öndər 2003-cü il prezident seçkilərində xalqa müraciətində bildirmişdir: "İnanıram ki, mənim axıra çatdıra bilmədiyim taleyüklü məsələləri, planları, işləri Sizin köməyiniz və dəstəyinizlə İlham Əliyev başa çatdıra biləcək. Mən ona özüm qədər inanıram və gələcəyinə böyük ümidlər bəsləyirəm".

Müstəqil Azərbaycan dövlətinin qurucusu, Ulu Öndər Heydər Əliyevin 20 il əvvəl dediyi bu sözlər bir daha təsdiqlədi ki, o, uzaqgörən, müdrik, tarixi şəxsiyyət idi. Bu gün Azərbaycanın dünya miqyasında nüfuzunun yüksəlməsi Ulu Öndərin müəyyənləşdirdiyi inkişaf strategiyasının bariz nümunəsidir. Heydər Əliyevin müəyyənləşdirdiyi siyasi strategiya həm sovet hakimiyyəti dövründə, həm də müstəqillik illərində Azərbaycana böyük uğurlar gətirib. Bu illər ərzində ölkəmiz bütün sahələrdə inkişaf edib, hüquqi, sivil, demokratik dövlət quruculuğu yolunda qətiyyətli addımlar atılıb. Uğurlu xarici siyasət sayəsində Azərbaycan beynəlxalq aləmdə özünəlayiq yerini tuta bilmiş, ilbəil nüfuzu artıb, əlaqələri genişlənib, mövqeyi möhkəmlənib. İndi Azərbaycanla hesablaşırlar, regionda bütün beynəlxalq, irimiqyaslı layihələr ölkəmizin milli maraqlarının nəzərə alınması ilə həyata keçirilir. Ancaq SSRİ-nin süqutundan sonra müstəqilliyini bərpa edən Azərbaycanda ilk vaxtlar vəziyyət getdikcə gərgin xarakter alırdı. Həmin vaxt ölkəyə rəhbərlik edənlər müstəqilliyimizin əbədi olması barədə düşünmür, respublikanı köhnə sovet qanunları ilə idarə edir, xalqın taleyüklü məsələlərindən çox, özlərini düşünürdülər.

Özbaşınalıq, ağır iqtisadi vəziyyət, müxtəlif oliqarxlara xidmət edən qeyri-qanuni silahlı birləşmələrin hər addımbaşı sabitliyi pozmaq cəhdi, cinayətkar qrupların azğınlığı, bir-birinin ardınca həyata keçirilən təxribatlar, dövlət çevrilişi cəhdləri getdikcə geniş vüsət alırdı. Belə vəziyyətdə Azərbaycanın əsl xilaskara, xalqı arxasınca apara biləcək liderə böyük ehtiyacı var idi. Xalqın belə bir ağır və çıxılmaz vəziyyətdə ümid yeri yalnız Ulu Öndər Heydər Əliyev idi. Ümummilli Lider ziyalıları, tanınmış ictimai-siyasi xadimlərin müraciətlərini cavabsız qoymadı və siyasi rəhbərliyə gəlməyə razılıq verdi. Tam əminliklə deyə bilərik ki, əgər 1993-cü ildə Heydər Əliyev xalqın tələbi ilə hakimiyyətə gəlməsəydi, müstəqilliyimizin taleyi çox faciəli ola bilərdi.

Heydər Əliyev ölkəyə rəhbərliyə başlayarkən demişdir: *"Belə yüksək və məsuliyyətli vəzifəni öz üzərimə götürərkən, birinci növbədə, Azərbaycan xalqının zəkasına, müdrikliyinə, qüdrətinə güvənirəm, arxalanıram. Azərbaycan xalqının mənə bəslədiyi ümidlər məni bu vəzifəmi üzərimə götürməyə məcbur edibdir. Əmin etmək istəyirəm ki, bu ümidləri doğrultmaq üçün əlimdən gələni əsirgəməyəcəyəm".*

Olduqca ağır, çətin və mürəkkəb bir zamanda müstəqil Azərbaycana rəhbərliyə başlayan Ulu Öndər siyasi uzaqgörənliyi ilə Azərbaycan dövlətçiliyini, xalqını bütün gözlənilən faciələrdən xilas etdi, ölkədə yaratdığı ciddi



qayda-qanun, nizam-intizam sayəsində sabitlik, əmin-amanlıq bərqərar oldu, cinayətkarlığa qarşı qətiyyətli mübarizə başlandı, qeyri-qanuni silahlı birləşmələr ləğv edildi. Hüquqi dövlət quruculuğu istiqamətində atılan cəsarətli addımlar sayəsində demokratik dövlət təsisatları yaradıldı, siyasi, iqtisadi-sosial və digər sahələrdə islahatlar aparıldı. Azərbaycan tədricən beynəlxalq aləmə inteqrasiya olundu, əlaqələri genişləndi. Müstəqil dövlət təsisatlarının yaranması və quruculuğu prosesi böyük vüsət aldı, müasir tələblərə cavab verən yeni qanunlar, məcəllələr qəbul edildi.

Ölkə tarixinin mürəkkəb və taleyüklü dövründə dövlətə rəhbərliyin ağır məsuliyyətini öz üzərinə götürmüş Ulu Öndər Heydər Əliyev hüquqi dövlətin Azərbaycan modelini ilk milli Konstitusiyanı yaratmaqla gerçəkləşdirdi. Ulu Öndərin yaratdığı dövlətçilik təlimi və onun ayrılmaz hissəsi olan Konstitusiya müstəqil Azərbaycanın bugünkü varlığının və gələcək inkişafının əsasını təşkil edir, ölkənin davamlı inkişafı və tərəqqisinə xidmət göstərir. Konstitusiyanın qəbulu müstəqillik tariximizin ən mühüm hadisələrindən biri olmaqla yanaşı, Ümummilli Lider Heydər Əliyevin Azərbaycan dövlətçiliyi qarşısındakı böyük xidmətlərindən idi. Əsas Qanunumuz müstəqil dövlət quruculuğu prosesini tənzimləyən, demokratik inkişafa təminat yaradan, cəmiyyətin siyasi, sosial, mədəni, iqtisadi sferalarında köklü dəyişiklikləri özündə ehtiva edən, qanunvericiliyin təkmilləşdirilməsində hüquqi baza rolunu oynayan mükəmməl və mütərəqqi sənəddir.

Konstitusiyamızın müəllifi Ulu Öndər Heydər Əliyev müstəqil Azərbaycanın Əsas Qanununu yüksək qiymətləndirərək demişdir: *"Bizim yeni Konstitusiyamız, şübhəsiz ki, birinci növbədə, Azərbaycan Respublikasının dövlət müstəqilliyini, bu müstəqilliyin əbədi olduğunu və dövlət müstəqilliyini qoruyub saxlamaq, yaşatmaq üçün bütün prinsipləri əks etdirməlidir. Yeni Konstitusiyamız demokratik prinsipləri özündə əks etdirməlidir. Yəni dünya demokratiyasının əldə etdiyi bütün nailiyyətlərdən, demokratiya sahəsində inkişaf etmiş dövlətlərin konstitusiya təcrübəsindən istifadə etməli və Azərbaycan Respublikasının özünəməxsus tarixi, milli ənənələrini əks etdirən prinsipləri özündə cəmləşdirməlidir".*

Müstəqil Azərbaycan Respublikasının Konstitusiyası qəbul edilərkən hüquqi dövlət quruculuğunun müasir meyllərinə istinad olunmuş, ölkəmizin hüquq sistemi üçün yeni bir təsisatın – konstitusiya ədalət mühakiməsi orqanının yaradılması nəzərdə tutulmuş, bu təsisatın dövlət hakimiyyəti sistemində yeri və rolu müəyyənləşdirilmişdir. Bu müddəaya əsasən, 1997-ci il oktyabrın 21-də "Konstitusiya Məhkəməsi haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul edildi. 1998-ci il iyulun 14-də Milli Məclisin qərarı ilə Konstitusiya Məhkəməsinin 7 hakimi təyin olundu. İyulun 18-də isə Ulu Öndər Heydər Əliyev Konstitusiya Məhkəməsinin müstəqilliyinin və hakimlərinin hüquqi statusunun təmin edilməsi barədə Fərman imzaladı. Bununla da, Konstitusiya Məhkəməsi rəsmən fəaliyyətə başladı. Doqquz hakimdən ibarət bu qurum qanunların Konstitusiyaya uyğunluğunu yoxlamaqla, qanunlara şərh verməklə, prezident və parlament seçkilərinin nəticələrini təsdiqləməklə, hətta vətəndaşların birbaşa müraciəti əsasında müvafiq qərarlar qəbul etməklə bütövlükdə, Konstitusiyanın aliliyini qoruyur.

Heydər Əliyevin rəhbərliyi ilə hazırlanmış və 12 noyabr 1995-ci ildə qəbul olunmuş Konstitusiyada prokurorluğun fəaliyyətinə dair xüsusi maddə həsr edilərək, onun statusu, təşkili əsasları və fəaliyyət prinsipləri, səlahiyyətləri və vəzifələri təsbit edilmişdir. Ölkədə aparılan məhkəmə-hüquq islahatlarına uyğun olaraq məhkəmə hakimiyyəti sisteminə daxil olan prokurorluq orqanlarının cəmiyyətdə roluna yenidən baxıldı, onun fəaliyyəti beynəlxalq normalara və demokratik institutların tələblərinə uyğunlaşdırıldı. Ulu Öndərin rəhbərliyi altında prokurorluq qurumlarında aparılan islahatların əsas məqsədi bu orqanın səlahiyyətlərinin beynəlxalq standartlara uyğunlaşdırılması ilə yanaşı, qanunçuluğun möhkəmləndirilməsindən, cinayətkarlığa qarşı mübarizənin gücləndirilməsindən və kadrların peşəkarlıq səviyyəsinin artırılmasından ibarət olmuşdur. 1999-cu ildə "Prokurorluq haqqında" Azərbaycan Respublikasının Qanunu qəbul olunmaqla, prokurorluğun fəaliyyət istiqamətləri, əsas prinsipləri, beynəlxalq əlaqələri, prokurorluğun fəaliyyətinə müdaxilənin və prokurorluğa hörmətsizlik göstərilməsinin yolverilməzliyi, prokurorluğun sistemi və təşkili öz əksini tapmışdır. Həmin qanuna əsasən, prokurorluğun fəaliyyətinin əsas prinsipləri belə müəyyənləşdirilib: qanunçuluq, hər kəsin qanun qarşısında hüquq bərabərliyi, fiziki şəxslərin hüquq və azadlıqlarına, hüquqi şəxslərin hüquqlarına əməl və hörmət edilməsi, obyektivlik, qərəzsizlik və faktlara əsaslanma, vahidlik və mərkəzləşdirmə, ərazi və ixtisaslaşdırılmış prokurorların Azərbaycan Respublikasının Baş prokuroruna tabe olması və siyasi bitərəflik.

Ümumbəşəri sosial bəla olan korrupsiyaya qarşı mübarizə Ulu Öndərin diqqət mərkəzində saxladığı zəruri məsələlərdən biri olub. Bu sahəyə xüsusi əhəmiyyət verilərək ayrıca qanun qəbul edilib. Ulu Öndərin təşəb-

büsü ilə korrupsiyaya qarşı mübarizə üzrə Dövlət Proqramı təsdiq edilib, Korrupsiyaya Qarşı Mübarizə üzrə Komissiya yaradılıb. Bu sahədə ən mühüm tədbirlərdən biri də Baş Prokurorluqda Korrupsiyaya qarşı mübarizə üzrə xüsusi idarənin yaradılması olub.

Ulu Öndər Heydər Əliyev prokurorluq orqanlarına inanır və güvənirdi. Ümummilli Lider özü bu barədə demişdir: *"Mən prokurorluqda işləyən insanların əksəriyyətini sədaqətli və peşəkar işçi hesab edirəm. Təbiidir ki, belə adamlara etimad göstərmək, etibar etmək lazımdır".*

Respublika prokurorluq orqanlarının 80 illik yubileyinə həsr olunmuş təntənəli yığıncaqda geniş nitq söyləyən Ulu Öndər Heydər Əliyev prokurorluq orqanlarına inamını belə ifadə etmişdir: *"Hüquq-mühafizə orqanlarının əməkdaşları çox ağır bir peşə sahibləridir. Bu sahədə işə başlayan hər bir adam dərk etməlidir ki, bütün başqa sahələrə nisbətən öz üzərinə ağır bir iş götürür. Amma eyni zamanda, bu peşə həm də şərəfli bir peşədir. Dövlətçiliyin keşiyində durmaq, insanların hüquqlarını qorumaq, cəmiyyətdə qanun-qaydanın saxlanılmasını təmin etmək və insanların rahat yaşamasına xidmət etmək – bu, çox şərəfli vəzifədir. Mən bu gün məmnuniyyətlə qeyd edirəm ki, Azərbaycanın hüquq-mühafizə orqanları bu vəzifələrini uğurla yerinə yetirirlər. Son beş ildə Azərbaycanda gedən proseslər, əldə olunmuş ictimai-siyasi sabitlik, cinayətkarlığın qarşısının sürətlə alınması-bunlar hamısı bizim böyük nailiyyətlərimizdir və bu nailiyyətlərin əldə edilməsində də hüquq-mühafizə orqanlarının hamısının, o cümlədən Azərbaycan prokurorluğunun xidmətləri böyükdür".*



Ulu Öndər Azərbaycan prokurorluğu əməkdaşlarının ölkəmizin müstəqilliyinə, dövlətçiliyinə sadiqliyini daim yüksək qiymətləndirib və bu peşəni hörmətli, şərəfli hesab etdiyini bildirib. Heydər Əliyevin 17 iyul 1998-ci il tarixli Sərəncamı ilə "1 oktyabr – Prokurorluq işçilərinin peşə bayramı günü" elan edilib. Bu sərəncam prokurorluq orqanlarına inam və etibarın bariz nümunəsidir. Ümummilli Lider bu inamı çıxışlarının birində də açıq şəkildə bəyan edərək demişdir: *"Azərbaycan Prokurorluğunun inkişaf etməsində dövlət qayğısı bu gün də, gələcəkdə də olacaqdır. Buna əmin ola bilərsiniz. Azərbaycan Prezidenti kimi, mən Azərbaycan Prokurorluğuna inanıram, güvənirəm və arxalanıram".*

Azərbaycan Respublikası Prokurorluğunun çoxsaylı kollektivi Heydər Əliyevin diqqət və qayğısını daim hiss edib, fəaliyyətinə verilən yüksək qiyməti səmimi minnətdarlıq duyğuları ilə qarşılayıb və üzərimizə götürdüyümüz vəzifəni ləyaqətlə yerinə yetirməyə səy göstərmişik. Respublikamızın bütün dövlət təsisatları kimi, prokurorluq orqanlarının da idarəetmə sistemində statusuna uyğun layiqli yer tutması Heydər Əliyevin dövlətçilik siyasəti olub. Müdrik şəxsiyyətin "Azərbaycan Respublikası prokurorluq orqanları işçilərinin maddi və sosial təminatı haqqında" 2002-ci il 8 oktyabr tarixli Sərəncamı prokurorluğa və prokurorluq işçilərinə göstərdiyi daimi qayğının bariz nümunəsidir.

Ulu Öndər Heydər Əliyevin siyasi kursunu layiqincə davam etdirən Prezident İlham Əliyev də prokurorluq orqanlarının fəaliyyətinin daha da inkişaf etdirilməsi üçün bütün vasitələrdən istifadə edib. Dövlət başçımızın həyata keçirdiyi genişmiqyaslı islahatlar bütün sahələrdə olduğu kimi, prokurorluq orqanlarında da özünü büruzə verdi. Bu islahatların nəticələri vətəndaşlar tərəfindən yüksək qiymətləndirilir. İslahatlar yeniləşmə, yeni yanaşma, müasir şəraitə uyğunlaşma deməkdir. Bunun nəticəsində ölkəmizi gücləndiririk. Azərbaycan Prokurorluğu da bu islahatlar nəticəsində yeni mərhələyə qədəm qoyub. Bütün bunlar əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulan siyasi kursun bəhrəsidir.

Bu gün respublikamızın hər yerində Ulu Öndərin 100 illik yubileyinin təntənəli keçirilməsinə ciddi hazırlıq işləri görülür. Artıq prokurorluq orqanlarında da silsilə tədbirlər keçirilir. Məlum olduğu kimi, Prezident İlham Əliyevin 29 sentyabr 2022-ci il tarixli sərəncamı ilə Azərbaycan Respublikasında 2023-cü il "Heydər Əliyev İli" elan edilib.

Qürur hissi ilə deyə bilərik ki, milli prokurorluq orqanlarında işləmiş və bu gün çalışan bir neçə nəsil prokurorluq əməkdaşlarının fəaliyyəti bu dahi insanın Azərbaycan Respublikasına rəhbərlik etdiyi dövrə təsadüf etmişdir. Azərbaycan Prokurorluğu bugünkü vəziyyətdə mövcudluğuna, dövlət təsisatı kimi hərtərəfli təkmilləşdirilməsi və müasirləşdirilməsi yolunda əldə etdiyi nailiyyətlərə görə, ilk növbədə, Heydər Əliyev şəxsiyyətinə və onun dövlətçilik siyasətinə borcludur. İndiki və bundan sonra gələcək nəsillər bu dahi azərbaycanlının şanlı həyat yolundan həmişə özləri üçün nümunə götürəcək və kamil vətəndaşlar kimi yetişmələri üçün ondan öyrənəcəklər.

Azərbaycan Respublikası Prokurorluğunun kollektivi həmişə Heydər Əliyev ideyalarına sadiq olacaq, onun unudulmaz xatirəsini əziz tutacaq və bütün qüvvələrini Azərbaycan Prezidenti İlham Əliyevin rəhbərliyi altında bu möhtəşəm ideyaların həyata keçirilməsinə istiqamətləndirəcəkdir.

**Səadət Rüstəmova**
**Qobustan rayon prokuroru,**
**ədliyyə müşaviri**



# Heydər Əliyev şəxsiyyəti və onun əzəmətli ideyaları

Böyük şəxsiyyətlər yaşamasaydı, bəşəriyyətin tarixi təsəvvürəgəlməz dərəcədə kasıb və maraqsız olardı. Tarix özünün yaratdığı dahi insanların ideyalarının və əməllərinin üzərində qərar tutur. Xalqların və ölkələrin inkişafının əsasında şəxsiyyətlərin və ideyaların dayanması inancı ictimai düşüncəyə dərindən hakim kəsilmiş həqiqətlərdən sayılır. İnkişafın şərəfli yolunu keçmiş və ya bu yolda olan xalqların nümunəsi (tarixi) deyilənin ən bariz ifadəsi haqqına sahibdir. Tarixin bütün dövrlərində inkişafı yaradan fundamental əsas rolunda dahi şəxsiyyətlər, liderlər çıxış edib və bu gün də çıxış etməkdədirlər. Bunlardan kənarda əhəmiyyətli inkişaf nümunəsinə tarixi təcrübədə hələ ki, rast gəlmək mümkün deyil. Azərbaycan xalqı özünü bütünlüklə xoşbəxt saya bilər ki, onun XX əsrin son 30 ilinə və XXI əsrin əvvəlinə təsadüf edən tarixi və taleyi Ümummilli Lider Heydər Əliyev şəxsiyyəti və onun əzəmətli ideyaları üzərində qərar tutur. Heydər Əliyevin anadan olmasının 100 illiyində müasir tariximizin bu həqiqəti Azərbaycanın indiki əzəmətli inkişafı fonunda daha aydın, daha bariz şəkildə qavranılmaqdadır.

Öz tarixinin qızıl əsrini keçmişdə axtarmağa adət etmiş bir çox xalqlardan fərqli olaraq, Azərbaycanın həqiqi intibahının müasirləri olduğumuz dövrə təsadüf etdiyi ictimai düşüncənin birmənalı qəbul etdiyi həqiqətlərdəndir. Azərbaycan Respublikası adını daşıyan müstəqil dövlətin yaranmasından tutmuş, onun indiki heyrətamiz inkişaf dinamikasına qədər özündə milli dirçəlişi əks etdirən unikal tarixi sosial-iqtisadi və milli-mənəvi hadisələr məhz yaşadığımız zamanda cərəyan etməkdədir. Heç şübhəsiz, bütün bunların üzərinə vurulmuş müasirlik möhürü Heydər Əliyevin adı və möhtəşəm fəaliyyəti ilə bilavasitə əlaqədardır.

Heydər Əliyevin Azərbaycanın siyasi səhnəsinin birinci şəxsi kimi fəaliyyətə başlaması və onun ölkə həyatına gətirdiyi əzəmətli inkişaf meylləri dahi şəxsiyyətlərin tarixin gedişində həlledici rol oynadıqlarını sübuta yetirmək üçün ən dəyərli nümunələrdən sayıla bilər. Bu nümunə həm də ona görə xüsusi çəkiyə malikdir ki, Heydər Əliyev özünün siyasi taleyində sözügedən sosioloji qanunauyğunluğu iki dəfə sübuta yetirməli olub. Azərbaycan tarixinin Heydər Əliyevin aktiv siyasi fəaliyyəti dövrünə təsadüf edən iki böhranlı mərhələsində xalqın və ölkənin xilası və inkişafının əsasının qoyulması bilavasitə onun möhtəşəm tarixi xidməti kimi qəbul edilir və dəyərləndirilir. Bu mənada, Heydər Əliyevin timsalında tarixdə şəxsiyyətin rolu özünün ən bariz ifadəsini tapmış olur.

XX əsrin 70-ci illərindən etibarən Azərbaycanın siyasi həyatı və bütünlükdə cəmiyyətimiz Heydər Əliyevin titanik səyləri sayəsində yeni impuls və inkişaf parametrləri kəsb edərək əslində özünün yeni mərhələsinə qədəm qoydu. O zamandan başlayan böyük tarixi mərhələdə Heydər Əliyev ideyaları həyatımızın başlıca gerçəkliyi, inkişafımızın təməl daşı olaraq qalmaqdadır. 2003-cü və 2008-ci illərdə ölkədə keçirilən prezident seçkilərində Heydər Əliyevin siyasi varisi İlham Əliyevin inamlı qələbəsi, hazırda həyata keçirilən siyasətin xalq tərəfindən qətiyyətlə dəstəklənməsi onu göstərir ki, tariximizin Heydər Əliyev mərhələsi davam edir və bundan sonra da hələ uzun müddət davam etmək resurslarına malikdir.

Azərbaycan tarixinin Heydər Əliyev mərhələsi haqqında qənaətin formalaşması təkcə onun Azərbaycana uzun müddət rəhbərlik etməsinə deyil, bəlkə də daha çox bu rəhbərliyin zəngin məzmuna malik olmasına əsaslanır. Tam qətiyyətlə və cəsarətlə demək olar ki, Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi dövr onun tarixinin xüsusi, ən intensiv inkişaf mərhələsini təşkil edir. Bu mənada həmin dövrü tariximizin nəinki sürətli və hərtərəfli yüksəliş illəri, bəlkə də intibahı adlandırmaq daha dəqiq qiymətləndirmə nümunəsi olardı. Məhz haqqında söhbət gedən zaman kəsiyində Azərbaycan malik olduğu böyük intellektual və insani potensialı, təbii resursları - bir sözlə, milli gücü cəmləyib ölkənin qətiyyətli tərəqqisinin qüdrətli amilinə çevirmək imkanı qazanmış və bununla da öz tarixinin keyfiyyətcə yeni bir dövrünə qədəm qoymuşdur. Bu, heç şübhəsiz, qədim və zəngin tariximizə müasir Azərbaycan cəmiyyətinin yaradılması mərhələsi kimi daxil olmuşdur.

Böyük tarixi şəxsiyyətlərin rolunu adekvat şəkildə qiymətləndirmək asan olmur. Görünür, bu həm də onunla əlaqədardır ki, dünyamiqyaslı tarixi şəxsiyyətlərin yerinə yetirdiyi missiya əksər hallarda xronoloji çərçivələrə sığmır, inkişafın sonrakı gedişinə əhəmiyyətli dərəcədə təsir göstərir. Belə tarixi şəxsiyyətlər bir qayda olaraq lideri olduğu xalqın ictimai həyatının gələcək inkişaf konsepsiyasını və strategiyasını müəyyən etməklə onun sonrakı taleyinin də təyin edilməsi məsuliyyətini müəyyən mənada öz üzərinə götürür. Bir

sözlə, onlar tarixin elə özünü yaradır. Tarixi yaradan şəxsiyyətə isə qiymət vermək elə tarixin özünə qiymət vermək qədər məsuliyyət tələb edir.

Tariximizin Heydər Əliyev dövrü müasir Azərbaycan cəmiyyətinin formalaşması vəzifələrinin uğurla və



ardıcıl olaraq yerinə yetirilməsi ilə seçilir. Məhz Heydər Əliyevin rəhbərliyi illərində Azərbaycan böyük və sürətli inkişaf mərhələsinə qədəm qoyaraq yeni cəmiyyət parametrləri kəsb etməyə müyəssər olmuşdur. Həmin dövrdə ölkənin inkişafı sadəcə prosesin adi axarının təzahürü formasında deyil, bir qayda olaraq, əhəmiyyətli keyfiyyət dəyişiklikləri ilə müşayiət olunan sıçrayış xarakterli yeniləşmə kimi özünü büruzə vermişdir. 1970 – 1980-ci illərdə Azərbaycan cəmiyyətinin həyatında baş verən sürətli tərəqqi sayəsində ölkənin mahiyyət etibarilə yeni keyfiyyət halına, Azərbaycan tarixinin isə yeni inkişaf mərhələsinə keçməsi inkaredilməz reallıqdır. Azərbaycanın ikinci dəfə yeni keyfiyyət halına və deməli, yeni tarixi mərhələyə daxil olması da artıq başqa siyasi reallıqlar çərçivəsində, 1993-cü ildə Heydər Əliyevin qayıdışı ilə birbaşa əlaqədardır.

Heydər Əliyevin ölkənin müasir tarixində xidməti və həyata keçirdiyi missiyası sistemində özünü büruzə verən əsas cəhətlərdən biri onun Azərbaycanın intibahının əsasını qoymasıdır. Həm də artıq qeyd edildiyi kimi, bu, sadəcə, ənənəvi həyat irəliləyişinin ardıcıllığı sistemindən irəli gələn adi inkişaf yox, keyfiyyət dəyişikliyinə gətirib çıxarmağa qadir olan sürətli yüksəlişdir. Əslində, bu, Heydər Əliyevin tarixi missiyasının təntənəsi, müasir Azərbaycanın yaradılması deməkdir.

Toplumun ali kamillik göstəricisi dövlətdə birləşmək, liderin müstəsna tarixi xidməti dövlət yaratmaqdır. Hər bir xalqın tarixində onun müstəqil dövlətini yaratmaq kimi əzəmətli vəzifəni öz üzərinə götürmüş ümummilli liderlər olub.

Dövlət müstəqilliyini uzun illər itirmiş Azərbaycanın XX əsrin sonlarında istiqlalına qovuşduqdan sonra milli dövlətçiliyini bərpa edərək müstəqil dövlətini yaratmaq missiyasını tarixin hökmü ilə Heydər Əliyev yerinə yetirməli oldu. Xalqımızın indiki nəsilləri müstəqil dövlət quruculuğu sahəsində qazanılan müstəsna uğurlara görə Heydər Əliyevə minnətdar olduğunu gizlətmir. Müstəqil Azərbaycan dövlətinin memarı Heydər Əliyev haqlı olaraq azərbaycanlıların milli qürur və iftixar mənbəyinə çevrilmiş, Ümummilli Lider adını qazanmışdır.

Heydər Əliyevin xalqımızın qəlbində əsrlər boyu yaşamış müstəqillik ideyaları ilə qovuşması, heç şübhəsiz, əhəmiyyətli təkamül mərhələsi keçərək XX əsrin son onilliklərində Azərbaycanın milli yüksəlişinin məfkurə əsası kimi özünü büruzə vermişdir. Bunun əyani misalını sovet rejiminin ən sərt çağlarında Azərbaycana rəhbərlik edən Heydər Əliyevin milli ruhun inkişafına təkan verən cəsarətli addımlarında görmək o qədər çətin deyil. Əvvəla, Heydər Əliyev ona xas olan müdrikliklə dərk edirdi ki, siyasi müstəqillikdən məhrum olmuş xalqın milli ruhunu dirçəltməyin ən etibarlı yolu onun iqtisadiyyatının inkişafından keçir. Məhz bunun sayəsində xalqın özünə inamı arta bilər ki, bu da öz növbəsində milli ruhu yüksəltmək, milli oyanışı gücləndirmək və millətin özünü ifadə etmək arzusunu daha dərindən alovlandırmaq qüdrətinə malikdir. Bu mənada, Heydər Əliyevin Azərbaycana rəhbərlik etdiyi 1969 – 1982-ci illərdə respublikanın sıçrayışlı iqtisadi yüksəlişinin xalqımızın müstəqillik məfkurəsinin möhkəmlənməsində əvəzsiz rol oynadığını ayrıca vurğulamamaq ən azından ədalətsizlik olardı.

Digər tərəfdən, unudulmamalıdır ki, Heydər Əliyevin Azərbaycana birinci rəhbərliyi illərində respublikanın inkişafı universal səciyyə daşımış, yüksəliş həyatın heç bir sahəsindən yan keçməmişdir. Başqa sözlə, iqtisadi inkişafla yanaşı, milli ruhu yüksəltməyə birbaşa təkan verən mədəni və mənəvi intibah meylləri də aydınca müşahidə edilmişdir ki, bu da atılan addımların milli - məfkurə məna tutumuna malik olduğuna heç bir şübhə yeri qoymur. İqtisadi inkişafın formalaşdırdığı milli özünəinam hissləri mədəni-mənəvi yüksəlişin yaratdığı milli özünüdərk və özünüifadə istəkləri ilə tamamlanaraq əslində müstəqillik məfkurəsinin gündən-günə möhkəmlənən nüvəsini əmələ gətirirdi. 1977-ci ilin Konstitusiyasında SSRİ-nin əyalətlərindən biri olan Azərbaycanda Azərbaycan dilinin dövlət dili elan edilməsi yuxarıda irəli sürülən tezisi təsdiqləmək gücündə ola biləcək çoxsaylı dəlillərin ən bariz nümunəsi sayıla bilər.

Heydər Əliyevin 1982-ci ildə SSRİ kimi nəhəng dövlətin ali rəhbərliyində təmsil olunmasının milli qürur və iftixar hissi yaradan amil kimi milli məfkurəvi rol oynamasını da diqqətdən kənarda saxlamaq düzgün olmazdı. Xalqın liderinin onun hüdudlarından kənarda tanınması və etiraf olunması qədər məfkurəyə və

milli düşüncəyə emosional səviyyədə müsbət təsir göstərən digər amil təsəvvür etmək çətindir. Ümummilli Lider Heydər Əliyevin dünyanın iki super dövlətindən birinin rəhbərlərindən olması gerçəkliyini dərk etmək özü-özlüyündə milli-birləşdirici amil kimi məfkurə daşıyıcısı rolunu yerinə yetirirdi.

Sadalanan tezisləri cəm edərək tam əminliklə söyləmək mümkündür ki, bir yandan Heydər Əliyevin XX əsrin son onilliklərində Azərbaycanın intibahı yolundakı xidmətləri, digər tərəfdən isə milli lider kimi birmənalı olaraq bütün xalq tərəfindən qəbul edilməsi milli azadlıq məfkurəsinin yeni mərhələdə formalaşmasında həlledici rol oynamış oldu. Məhz bunun sayəsində XX əsrin 80-ci illərinin sonunda Azərbaycanda azadlıq hərəkatı SSRİ-nin digər respublikaları ilə müqayisədə daha böyük vüsət ala bilmişdi. Azadlıq hərəkatının çox müxtəlif -istər rəsmi, istər qeyri-rəsmi səviyyələrdə, artıq o zaman istefada olan Heydər Əliyevin adı ilə əlaqələndirilməsi də öz növbəsində irəli sürdüyümüz fikrin təsdiqinə xidmət edən parametrlərə sahib olduğunu göstərir. Onu da vurğulamağa dəyər ki, Heydər Əliyev fenomenini geniş vüsət almış azadlıq hərəkatından ayırmaq cəhdləri nəticə etibarı ilə bu təşəbbüs tərəfdarlarında təsəlli yaradacaq sonluğa gətirib çıxarmadı. Etiraf etmək lazımdır ki, Heydər Əliyevin adı və şəxsiyyəti azadlıq hərəkatını həvəsə gətirən və ona əlavə güc verən fenomen kimi qətiyyətlə qəbul olunurdu.



Heydər Əliyev fenomeninə ehtiyac Azərbaycan müstəqil dövlət kimi özünü elan etdikdən sonra ilk aylarda daha aydın hiss olunmaqda idi. Müstəqil Azərbaycanda yaşanan siyasi qeyri-sabitlik, tez-tez təkrarlanan hakimiyyət dəyişiklikləri, iqtisadi tənəzzülün dərinləşməsi, xaos və anarxiyanın idarəçilik sistemini bütünlüklə iflic etməsi, yaranmış daxili böhrandan faydalanan erməni təcavüzünün getdikcə daha çox Azərbaycan torpaqlarını əhatə etməsi, ölkənin xaricdən təcrid olunması və əslində, təklənməsi Heydər Əliyev fenomeninə qayıdışı qaçılmaz edirdi.

Getdikcə daha artıq insan bu ideyanın təsiri altına düşür və dərk edirdi ki, zamanında müstəqillik məfkurəsinin möhkəmlənməsinə müstəsna töhfələr verən Heydər Əliyev qazanılmış müstəqilliyin müstəqil dövlətə çevrilməsinin yeganə təminatı ola bilər. Məhz onun sayəsində müstəqillik ideyaları həqiqi gerçəkliyə çevrilə, qazanılmış dövlət müstəqilliyi geriyə dönməzlik immunitetinə sahib çıxa bilər. Qətiyyətlə iddia etmək olar ki, XX əsrin 90-cı illərinin başlıca siyasi gerçəkliyi olan bu həqiqətin dərk edilməsi çağdaş tariximizə əslində müstəqillik məfkurəsində şəxsiyyət fenomeninin təntənəsi, sözün həqiqi mənasında, Heydər Əliyevə qayıdış və əlbəttə, Heydər Əliyevin tarixi qayıdışının təməlinin qoyulması kimi daxil olub. Azərbaycan müstəqillik məfkurəsini şəxsiyyət fenomeni ilə tamamlamaq üçün Heydər Əliyevə qayıdışa, qazanılmış müstəqilliyi geriyədönməz milli sərvətə – müstəqil dövlətə çevirmək üçün isə Heydər Əliyevin qayıdışına möhtac idi.

Azərbaycanın müstəqilliyin bərpası ərəfəsində və ilk illərində ciddi təhlükələr mənгənəsində yaşamağa məhkum olması, son həddə çatmış siyasi qeyri-sabitlik, sürətli iqtisadi tənəzzül, erməni təcavüzünün coğrafiyasının genişlənməsi və bütün bunların qaçılmaz nəticəsi kimi əhalini bürüyən bədbinlik hisslərinin getdikcə güclənməsi cəmiyyətin dövlət qurucusu anlamında başadüşülən güclü şəxsiyyətə ehtiyacını artıran ən möhtəşəm arqumentlər idi. Ötən əsrin 90-cı illərinin ictimai ovqatının dövlət qurucusu olan güclü lider ideyası üzərində kökləndiyini sübuta yetirmək üçün kifayət qədər dəlillərin gətirilməsi mümkündür. Müdrik, təcrübəli və qüdrətli şəxsiyyət olmadan ölkəni əhatə etmiş total böhranın aradan qaldırıla biləcəyinə heç kimdə ümid qalmamışdı. Bir növ, güclü şəxsiyyət Azərbaycanın nicatı kimi qavranılırdı və bu mənada qüdrətli lider ideyası o dövrün siyasi gerçəkliyinin əsas aparıcı qüvvəsinə çevrilmişdi.

Azərbaycanın müasir tarixinin ən böhranlı mərhələsi hesab edilən XX əsrin 90-cı illərinin əvvəllərində ictimai düşüncə səviyyəsində güclü lider ideyasının birmənalı şəkildə Heydər Əliyev şəxsiyyəti ilə əlaqələndirilməsi o dövrün gerçəkliyinin digər, yuxarıda qeyd olunan məfkurə prinsipindən daha populyar ideyası olaraq qavranılırdı. Başqa cür ifadə etməli olsaq, etiraf etmək lazımdır ki, haqqında söhbət açdığımız güclü şəxsiyyət ideyası əslində ümidlərin Heydər Əliyevlə bağlanmasına ideoloji baza yaratmaq məqsədi güdürdü. Ən başlıcası isə bu, bütünlüklə cəmiyyəti, onun hər bir təbəqəsini həm əhatə edən, həm də birləşdirən məfkurə rolunu oynayırdı.

Heydər Əliyevin möhtəşəm tarixi qayıdışı zərurətinin nəzəri-ideoloji əsası özünün ifadəsini məhz yuxarıda haqqında söhbət açdığımız güclü şəxsiyyət ideyasında tapır. Heç şübhə yoxdur ki, Azərbaycanın XX əsr tarixinin ən ecazkar hadisələrindən olan məşhur tarixi qayıdış Ümummilli ictimai düşüncə səviyyəsində dərk edilən

zərurət olduğundan, Heydər Əliyevin siyasi hakimiyyətə qayıdışı ilk növbədə xilaskarlıq missiyası ilə yüklənmişdir. Xalq Heydər Əliyevin qayıdışına xilaskarlıq missiyası kimi yanaşdığından, Heydər Əliyevə də xilaskar kimi baxırdı.

Azərbaycanın müasir tarixinin real təhlükələrin altında, sözün həqiqi mənasında, əzildiyi bir vaxtda ictimai düşüncədə xilaskar Ümummilli Lider Heydər Əliyev obrazının formalaşmasının təsadüfi olmadığını əsaslandırmaq bəlkə də artıqdır. Əslində, Heydər Əliyevin məlum tarixi proseslərin müasiri olması faktı kifayət edirdi ki, xalq öz taleyinin xilas edilməsini ona həvalə etsin.

Qeyd etməyə dəyər ki, Heydər Əliyev ən təhlükəli anlarında Azərbaycan xalqının öz taleyini ona etibar etməkdə yanılmadığını möhtəşəm qayıdışın elə ilk aylarında sübuta yetirə bildi. Qısa bir zaman kəsiyində ölkəni bir neçə il ərzində taqətdən salan hərc-mərcliyə qətiyyətlə son qoyuldu, sabitlik və əmin-amanlıq təmin edildi, hərtərəfli böhran cilovlandı, erməni təcavüzünün Azərbaycanın dərinliklərinə irəliləməsinin qarşısı alındı.

Heydər Əliyevin xilaskarlıq missiyasının fəlsəfəsinə xas olan fərqləndirici cəhətlərdən birinin haqqında da fikir mübadiləsi aparılmasına ehtiyac duyulmaqdadır. Heydər Əliyev şəxsiyyətinin əzəməti və miqyası onun tarixi qayıdışının mənasını yalnız xilaskarlıq missiyası ilə məhdudlaşdırmağı qeyri-mümkün edir. Əslində, o, Azərbaycanın düçar olduğu vəziyyətdən xilasını geniş planda ölkədə nəinki yeni siyasi, həm də iqtisadi və mənəvi situasiyanın yaradılmasında görürdü. Başqa sözlə, Heydər Əliyev özünün xilaskarlıq missiyası dedikdə elə genişmiqyaslı, sistemli və ardıcıl həyata keçirilən islahatları başa düşürdü ki, bunları həyata keçirərək Azərbaycanın müstəqilliyinin əbədi, sarsılmaz və dönməz olduğunu, müstəqil Azərbaycan dövlətinin qurulduğunu bəyan etmək mümkün olsun. Buna görə müstəqil Azərbaycan dövləti quruculuğunun əsasını təşkil edən çoxsahəli və ardıcıl layihələrin təntənəsi həm də Heydər Əliyevin xilaskarlıq missiyasının gerçəkləşməsi kimi qavranılır. Yaradılan dayanıqlı siyasi sabitliyin ardınca iqtisadiyyatda tənəzzülün cilovlanması, maliyyə nizam-intizamının yaradılması, aqrar islahatların həyata keçirilməsi, yeni iqtisadi sistemə keçidi təmin edən cəsarətli addımların atılması həm də Azərbaycanın müstəqil dövlətçiliyini möhkəmləndirən əsasların yaradılması demək idi. Ölkəmizə yönəlmiş müxtəlif təzyiq və təhlükələrin dəf edilərək birdəfəlik neytrallaşmasında Heydər Əliyev dühasının məhsulu olan neft strategiyasının müstəsna rol oynadığını xüsusi qeyd etməyə ehtiyac var. Məhz onun sayəsində Azərbaycan uğurlu tarazlaşmış xarici siyasət yeritmək manevri qazana bilər, iqtisadiyyatını dirçəltmək, genişmiqyaslı sosial layihələri həyata keçirmək üçün güclü dəstək əldə edə bilərdi. Heç şübhəsiz ki, ölkəmizin regionda lider dövlətə çevrilməsi, dünyanın ən dinamik iqtisadiyyatına malik olan ölkə adını şərəflə dörd il dalbadal daşıması, Azərbaycanın beynəlxalq aləmdə rolunun və əhəmiyyətinin hiss olunan dərəcədə artması və digər çoxsaylı uğurlarımız Heydər Əliyevin neft strategiyası ilə birbaşa bağlıdır. Azərbaycanın dövlət müstəqilliyinin möhkəmlənməsində və xalqımızın taleyində neft strategiyasının nə qədər böyük əhəmiyyət daşıdığı Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev Yeni Azərbaycan Partiyasının III qurultayındakı nitqində lakonik şəkildə belə ifadə etmişdir: *"Heydər Əliyevin neft strategiyasının icrası nəticəsində ölkəmizə milyardlarla dollar xarici sərmayə gətirilibdir. Əgər 1994-cü ildə, o çətin şəraitdə "Əsrin müqaviləsi" imzalanmasaydı, ondan sonrakı dövr ərzində bütün infrastruktur layihələri həyata keçirilməsəydi, Bakı-Tbilisi-Ceyhan neft kəmərinin tikintisinə başlanmasaydı, bu gün Azərbaycanda iqtisadi inkişafdan, ümumiyyətlə, söhbət gedə bilməzdi. Azərbaycanın bir çox sahəsi məhz "Əsrin müqaviləsi"ndən sonra inkişaf etməyə başladı. Bu müqavilə bir növ bütün iqtisadi inkişaf üçün möhkəm təkan verdi. Azərbaycanın qarşısında duran sosial məsələlər daha da uğurla həll olunmağa başladı".*

Heydər Əliyevin xilaskarlıq missiyasının həyata keçirilməsində müstəqil dövlət quruculuğunda istifadə olunan qüdrətli vasitələr sırasında azərbaycançılıq məfkurəsi, milli-mənəvi dəyərlərin gücləndirilməsi həlledici rol oynayır. Ötən əsrin 90-cı illərinin əvvəllərində ölkənin başının üstünü almış təhlükələr və total böhran separatçı meyllərlə müşayiət olunmaqla daha da dərinləşərək əslində Azərbaycanı real parçalanmaq həddinə çatdırmışdı. Ölkə üçün üzləşdiyi təhdidlərin ən təhlükəlisi olan separatizmin dəf edilməsi ifrat dərəcədə zəifləmiş mərkəzi hakimiyyət şəraitində yalnız ümumi birləşdirici ideya əsasında mümkün idi. Və təbiidir ki, belə bir ideya yalnız Heydər Əliyevin zəkasının nəticəsi kimi meydana gələ bilərdi.

Azərbaycançılıq məfkurəsinin Heydər Əliyevin tarixi qayıdışının Azərbaycan gerçəkliyinə gətirdiyi ən dəyərli və gərəkli ideya olduğunu vurğulamaq əslində bir daha onun böyüklüyünü etiraf etməkdir. Azərbaycandakı dayanıqlı sabitlik, milli birlik və həmrəylik sözün həqiqi mənasında həm də Heydər Əliyevin azərbaycançılıq baxışlarına minnətdar olmalıdır.

Beləliklə, Heydər Əliyevin 1993-cü ilin həyəcanlı anlarında möhtəşəm qayıdışından başlanan xilaskarlıq missiyası qüdrətli, müstəqilliyinin əbədi, dönməz və sarsılmaz olması heç kimdə şübhə doğurmayan Azərbaycan dövlətinin qurulması ilə nəticələndi. Heydər Əliyevin adı tarixə müstəqil Azərbaycan dövlətinin qurucusu kimi daxil oldu, müstəqil Azərbaycan dövləti isə Heydər Əliyevin şah əsəri olaraq qəbul edildi. Müstəqil Azərbaycan bu gün Heydər Əliyev siyasətinə istinad edərək qətiyyətlə irəliləyir, gücünü və qüdrətini

durmadan artırır, dahi azərbaycanlıya məxsus ideyaların həmişəyaşar olduğunu bir daha təsdiqləyir.

Heydər Əliyevin fəaliyyəti nəticəsində respublikada həyatın elə bir sahəsi qalmadı ki, orada inkişaf, tərəqqi müşahidə olunmasın. Ölkənin iqtisadiyyatı, xalqın rifah halı, elm və incəsənət, səhiyyə sahələri inkişaf edərək Azərbaycanı keçmiş müttəfiq respublikaları sırasında ən ön yerlərdən birini tutmasına gətirib çıxardı. Azərbaycan quruculuq, yaradıcılıq və tərəqqi dövrü keçirirdi, cəmiyyətin bütün təbəqələrində fasiləsiz inkişaf, irəliləyiş ruhu hökm sürürdü. Məhz bütün deyilənlərin nəticəsində yalnız Azərbaycan, həmçinin keçmiş SSRİ respublikalarından Rusiya və Ukrayna ittifaq büdcəsindən dotasiya almırdı. Tarixdən məlum olduğu kimi, iqtisadi müstəqillik, iqtisadi qüdrət millətin siyasi müstəqilliyinin bazisini təşkil edir. Bu baxımdan keçən əsrin 70 – 80-ci illərində Azərbaycanın iqtisadi sahədə qazandığı nailiyyətlər siyasi müstəqillik yolunda mühüm təməl hesab edilməlidir. Bu mənada, Ulu Öndərin bu fəaliyyəti ilə təkcə, İttifaq respublikası olan Azərbaycanın deyil, həm də gələcək müstəqil Azərbaycanının möhkəm təməlini, sonrakı nəsillərin xoşbəxt və firavan həyatının təməlini qoydu. Onun ikinci hakimiyyət illərində isə Azərbaycan dünya miqyasında tanınan və tərəqqiyə doğru gedən dövlət statusunu qazandı. Ulu Öndərin yenidən ölkəyə rəhbərliyi sayəsində siyasi sabitlik bərqərar oldu, atəşkəs əldə edildi, irimiqyaslı iqtisadi islahatlara başlanıldı. Bunun nəticəsində ölkədə maliyyə vəziyyəti sabitləşdi, iqtisadiyyata cəlb olunan investisiyaların həcmi ildən-ilə artdı, xalqın həyat səviyyəsi yaxşılaşmağa başladı.



Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra prokurorluq orqanlarının da fəaliyyətində yeni dövr başladı. Hüquq siyasətinin əsas meyarı olan Konstitusiya ilə prokurorluq orqanlarına konstitusion status verildi, prokurorluq ədliyyə sistemində təsbit edilməklə onun fəaliyyətinə Konstitusiyada xüsusi bir maddə həsr edildi. Konstitusiyaya əsasən, prokurorluq ərazi və ixtisaslaşdırılmış prokurorların Baş prokurora tabeliyinə əsaslanan vahid mərkəzləşdirilmiş orqan statusunda təsis edildi.

Hüquq siyasətinə uyğun olaraq prokurorun qarşısında hüquq bərabərliyi, obyektivlik, qərəzsizlik, faktlara əsaslanma və digər mühüm prinsiplərə əməl edilməsi şərtləri qoyuldu, hüquqi tənzimləmə prosesində “Prokurorluq haqqında”, “Prokurorluq orqanlarında qulluq keçmə haqqında” qanunlar qəbul edildi, “Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında” Əsasnamə təsdiq edildi ki, bu Əsasnamənin icrası ilə əlaqədar keçirilmiş işə qəbulla bağlı müsabiqələr prokurorluğun kadr korpusunun gənc mütəxəssislərlə formalaşdırılması üçün geniş imkanlar yaratdı ki, bu imkanlar nəticəsində bir çox həmkarlar kimi bizlər də prokurorluğun kadr korpusunun tərkibinə daxil olduq və bu səylər nəticəsində hazırda prokurorluq orqanlarında fəaliyyət göstərən prokurorluq işçilərinin böyük əksəriyyəti gənc prokurorluq əməkdaşlarından təşkil olunmuşdur.

Müstəqilliyin ilk illərində ictimai münasibətlərin əhəmiyyətli dəyişməsi yeni qanunların qəbul edilməsini zəruri etsə də, bu prosesin qısa bir zamanda və ələlxüsus da, əlverişsiz ictimai-siyasi bir şəraitdə baş tutması mümkün olmadığı üçün, müvəqqəti olaraq əvvəlki qanunlardan istifadə edilməsi labüd olduğundan, 18 oktyabr 1991-ci il tarixdə qəbul edilmiş “Azərbaycan Respublikasının dövlət müstəqilliyi haqqında” Konstitusiya Aktının 4-cü maddəsində müvafiq qanunlar qəbul edilənədək keçmiş SSRİ qanunlarının respublikanın suverenliyinə və ərazi bütövlüyünə zidd gəlməyən həddə Azərbaycan Respublikasında qüvvəsini saxlamasına dair müddəalar təsbit edildi. Ulu Öndər Heydər Əliyevin xalqın israrlı tələbi ilə növbəti dəfə hakimiyyətə qayıdışından sonra respublikamızda bütün sahələrdə olduğu kimi, məhkəmə-hüquq sistemində də köklü islahatlar həyata keçirilməyə başlandı. Hər kəsə məlumdur ki, prokurorluq orqanlarında aparılan hərtərəfli islahatların əsasını və onun hüquqi bazasının təməlini Ulu Öndərimizin təşəbbüsü əsasında 12 noyabr 1995-ci il tarixdə ümumxalq səsverməsi yolu ilə qəbul edilmiş müstəqil Azərbaycan Respublikasının ilk Konstitusiyası təşkil etmiş və ali qanunda ilk dəfə olaraq cinayət mühakimə icraatında mühüm funksiyaları yerinə yetirməsi nəzərə alınmaqla ölkəmizin məhkəmə hakimiyyəti sistemində prokurorluğun layiqli yerinin müəyyənləşdirilməsi, onun statusu, təşkili və fəaliyyət prinsipləri, funksiyaları və səlahiyyət dairəsi qanunvericilik qaydasında təsbit olunmuşdur. Bir müddət sonra Ulu Öndər Heydər Əliyevin təşəbbüsü əsasında qəbul edilmiş 7 dekabr 1999-cu il tarixli “Prokurorluq haqqında” Azərbaycan Respublikasının Qanunu qarşıda duran bu və ya digər vəzifələrin uğurla həyata keçiril-

məsinə imkan yaratmaqla, prokurorluq orqanlarının daha da demokratikləşdirilməsini, onun qanunçuluğun və insan hüquqlarının aliliyinin real təminatçısına çevrilməsini təmin etdi. Beynəlxalq hüquq normalarına və demokratik prinsiplərə uyğun hazırlanmış “Prokurorluq orqanlarında qulluq keçmə haqqında”, “Prokurorluq işçilərinin xidməti vəsiqəsi haqqında”, “Prokurorluq orqanları işçilərinin fərqlənmə nişanları və xüsusi geyim forması haqqında”, “Prokurorluğun rəsmi emblemi haqqında” Azərbaycan Respublikası qanunlarının və digər hüquqi aktların qəbul olunması ilə prokurorluğun fəaliyyətini tənzimləyən hüquqi baza dövrün tələblərinə və beynəlxalq standartlara uyğun formalaşdırıldı. Xüsusi vurğulanmalıdır ki, Ulu Öndər Heydər Əliyevin 19 iyun 2001-ci il tarixli fərmanı ilə təsdiq edilmiş “Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında” Əsasnamənin qəbul edilməsi və onun icraya yönəldilməsi Azərbaycan Prokurorluğunda aparılan islahatların ən böyük uğurlarından olmaqla, prokurorluğun kadr tərkibinin yenidən formalaşdırılması kimi əhəmiyyətli məsələnin hüquqi əsasını təşkil etmişdir. Prokurorluq orqanlarına işə qəbulun demokratik prinsiplər rəhbər tutularaq, şəffaf proseduralarla müsabiqə yolu ilə həyata keçirilməsi nəticəsində prokurorluğun kadr tərkibinin yüksək mənəvi keyfiyyətlərə və dərin biliyə malik, geniş dünyagörüşü olan, vətənpərvər, dövlətçilik prinsiplərinə sadiq, bir sözlə, püxtələşmiş gənc hüquqşünaslardan formalaşdırılmasına və mütəmadi olaraq yenilənməsinə müyəssər olunmuşdur. 19 sentyabr 2002-ci il tarixdə qüvvəyə minmiş “Azərbaycan Respublikasının Konstitusiyasına dəyişikliklər edilməsi haqqında” Referendum Aktı ilə Azərbaycan Respublikası Prokurorluğuna qanunvericilik təşəbbüsü hüququnun verilməsi prokurorluğun əhəmiyyətini daha da artırdı. Beləliklə, ölkədə görülən nəhəng işlər çərçivəsində həyata keçirilən mütərəqqi islahatlar sayəsində və təməl prinsiplərin mövcud tələblərlə uzlaşdırılması ilə hazırlanmış hüquqi baza əsasında struktur və mahiyyət baxımından tamamilə yenidən qurulmuş, yüksək nəzəri bilikli və peşəkar kadrlarla komplektləşdirilmiş, fəaliyyəti, eləcə də vəzifələri və səlahiyyətləri beynəlxalq standartlara uyğun və müasir tələblərə cavab verən Azərbaycan Prokurorluğu formalaşdırıldı. Göründüyü kimi, Azərbaycanı bütün bəlalardan və çətinliklərdən məharətlə qorumaqla, qısa zaman ərzində ölkəsini olduqca çətin vəziyyətdən yüksək peşəkarlıqla çıxarmış müdrik lider Heydər Əliyevin rəhbərliyi ilə dövlət qurumlarının, o cümlədən prokurorluğun müasir dövlət təsisatına çevrilməsi istiqamətində görülən əhəmiyyətli işlərin nəticəsində prokurorluq demokratik orqan kimi tamamilə yenidən təşkil olunaraq, dövlət orqanları sırasında öz layiqli yerini tutdu və bununla da, dövlətçiliyimizin əsas sütunlarından birinə çevrildi.

Heydər Əliyev çıxışlarında qanunun aliliyini yüksək dəyərləndirərkən, prokurorluqda da bu prinsipə dönmədən əməl olunmasının zəruriliyini xüsusi vurğulayır, qurumun fəaliyyətini mühüm dövlət təsisatı kimi yüksək qiymətləndirirdi. Ulu Öndər Heydər Əliyevin Azərbaycan Prokurorluğuna inamını və əminliyini çıxışlarında da vurğulamışdır. Ulu Öndər Heydər Əliyev 28 noyabr 1998-ci ildə Prokurorluq orqanlarının yaranmasının 80 illik yubileyi münasibəti ilə keçirilmiş tədbirdəki çıxışında bildirmişdir: *“Azərbaycan Prokurorluğunun inkişaf etməsində dövlət qayğısı bu gün də, gələcəkdə də olacaqdır. Buna əmin ola bilərsiniz. Azərbaycan Prezidenti kimi, mən Azərbaycan Prokurorluğuna inanıram, güvənirəm və arxalanıram”.* Bu sözlər prokurorluq işçilərində hər zaman böyük ruh yüksəkliyi yaratmaqla, onları gündəlik işlərində daha böyük əzm və məsuliyyətlə çalışmağa sövq edib, insan hüquq və azadlıqlarının təmin olunmasında, cəmiyyətin inkişafına maneə törədən halların aradan qaldırılmasında, ədalət mühakiməsinin beynəlxalq tələblərə cavab verən səviyyədə formalaşmasında mühüm rol oynayıb. Ulu Öndərin Azərbaycan Prokurorluğuna etimadı və qayğısı müasir Azərbaycan Respublikasının qanunvericiliyinin əsasını təşkil edən Konstitusiyada da öz əksini tapmışdır. Belə ki, Heydər Əliyevin təşəbbüsü və rəhbərliyi ilə Azərbaycanın ümumbəşəri ideya və dəyərlərini əks etdirən, 1995-ci il noyabrın 12-də keçirilən ümumxalq səsverməsi – Referendumda qəbul edilən yeni Konstitusiyada Respublika Prokurorluğuna xüsusi maddə



həsr edilərək dövlət idarəetmə sistemində bu təsisatın yeri məhkəmə hakimiyyəti orqanları sırasında müəyyənləşdirilməklə prokurorluq orqanlarına ilk dəfə olaraq konstitusion status verilib. Beləliklə, prokurorluğun məhkəmə hakimiyyətinə aid edilməsi ilə onun dövlət idarəetmə mexanizmində roluna və iştirakına dair məsələlərə Konstitusiya səviyyəsində aydınlıq gətirilməsi ilə bərabər, eyni zamanda, müasir Azərbaycan Respublikası prokurorluq orqanlarının 1918 – 1920-ci illərdə Şərqdə ilk demokratik dövlət olan Azərbaycan Xalq Cümhuriyyətinin hüquqi varisi olmasını təsdiq

edib. Bu isə Ümummilli Liderin xalqımızın tarixi irsinə diqqət və qayğı ilə yanaşmasının parlaq ifadəsi, eyni zamanda, prokurorluğun dövlət idarəetmə mexanizmində yerinin və rolunun dəqiq müəyyənləşdirilməsi demək idi. Heydər Əliyev məhkəmə-hüquq islahatlarını demokratik, hüquqi dövlət quruculuğundan ayrılmaz hesab edir, bu iki prosesin birgə aparılması istiqamətində ciddi tədbirlər həyata keçirirdi. Məhkəmə-hüquq islahatlarının mühüm əhəmiyyətini vurğulayan Ulu Öndər deyirdi: *"Ölkəmizdə demokratik, hüquqi dövlət quruculuğu prosesi, təbii ki, məhkəmə-hüquq sisteminin islahatları ilə bərabər aparılmalıdır. Çünki bu amillər bir-birindən çox asılıdır. İndi Azərbaycanda həm siyasi, həm də iqtisadi islahatlar çox uğurla gedir. Ölkəmiz müasirləşir, yeniləşir, dünya birliyinin çox fəal və dəyərli üzvünə çevrilir, Əlbəttə ki, məhkəmə-hüquq islahatları da ölkəmizin ümumi inkişafına öz töhfəsini verməlidir".*

Dərin minnətdarlıq hissləri ilə qeyd olunmalıdır ki, Ulu Öndərin hakimiyyətə qayıdışından bu günədək olan dövr ərzində prokurorluğa olan dövlət qayğısı hər zaman hiss edilmiş, bu da prokurorluq işçilərini həvəsləndirməklə bərabər, onların xidməti vəzifələrinin icrası zamanı daha məsuliyyətli olmaları ilə nəticələnmişdir. Qeyd etmək zəruridir ki, bütün hüquq-mühafizə orqanlarına, həmçinin prokurorluğa hərtərəfli diqqət və dövlət qayğısı göstərilməsi ənənəsi, bu gün də davam etdirilir. Müdrik rəhbər cənab İlham Əliyevin mütəmadi olaraq verdiyi səmərəli tövsiyələr əsasında Azərbaycan Respublikası Prokurorluğu orqanlarında yeni müstəvidə və yüksək intensivliklə davam etdirilən hərtərəfli islahatlar nəticəsində prokurorluğun fəaliyyətinin təkmilləşməsi və bunun üçün zəruri normativ-hüquqi bazanın yaradılması, kadrların seçilməsinin yeni mütərəqqi formalarının tətbiqi təmin edilmiş, dövlətçiliyin, milli maraqların, insan hüquq və azadlıqlarının etibarlı qorunması, cinayətkarlığa qarşı mübarizə yüksək səviyyədə təşkil olunmuşdur. İftixar doğuran haldır ki, Azərbaycana Ümummilli Lider Heydər Əliyevin zəngin dövlət idarəçiliyi təcrübəsinin əsaslarını dərindən mənimsəmiş, Ulu Öndərin siyasətinə sadiqliyini öz müstəsna xidmətləri ilə əyani şəkildə sübuta yetirmiş, özünü xalqın birinci xidmətçisi hesab etməklə millətinə xidməti həyat amalına çevirmiş İlham Əliyev kimi aqil lider, dünya şöhrətli şəxsiyyət və peşəkar siyasətçi rəhbərlik edir. Məhz möhtərəm Prezident cənab İlham Əliyevin hərtərəfli elmi biliyi, uzaqgörən düşüncəsi, mükəmməl rəhbərlik qabiliyyəti və misilsiz xidmətləri sayəsində ölkəmiz dünyada böyük nüfuz qazanaraq ən qüdrətli dövlətlər sırasında özünəməxsus yerini müəyyən etməklə söz sahibinə çevrilmişdir. Möhtərəm Prezidentin vətəndaşların müraciətlərinə xüsusi həssaslıqla yanaşması, onların ciddi problemləri ilə bağlı məsələləri nəzarətə götürməsi, bir çox hallarda şəxsən qərar qəbul etməklə üzləşdikləri bütün çətinlikləri aradan qaldırması dövlətin və rəhbərinin vətəndaşa verdiyi yüksək dəyərin təcəssümüdür. Uzaqgörən strateji inkişaf kursunu müasir müstəvidə zənginləşdirməklə dövrün tələblərinə uyğun şəkildə reallaşdıran cənab İlham Əliyev təvazökarlığı, sadəliyi və verdiyi vədləri mütərəqqi əməllərlə doğrultmağı ilə xalqın sonsuz rəğbətini qazanmışdır. Bütün bunlar əminliklə onu deməyə əsas verir ki, müdrik liderimizin analoqu olmayan siyasəti alternativi istisna edir. Hər kəsə məlumdur ki, Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin möhkəm siyasi iradəsinin, sarsılmaz qətiyyətinin və yorulmaz fəaliyyətinin xalqın mübarizliyi ilə sıx vəhdəti dövlətimizin qüdrətlənməsinə, ölkəmizin hərtərəfli, dayanıqlı inkişafına və qazanılan ardıcıl uğurlara əlverişli zəmin yaratmış, Azərbaycan Respublikasının dönməz müstəqilliyinin qorunmasına, müstəqil dövlət siyasətinin həyata keçirilməsinə və regionda, o cümlədən beynəlxalq arenada söz sahibi olmasına əvəzedilməz töhfələr vermişdir. Ümummilli Lider Heydər Əliyevin layiqli davamçısı olan Azərbaycan Respublikasının prezidenti cənab İlham Əliyevin çıxışlarında Azərbaycan Prokurorluğu və prokurorlar haqqında sərf etdiyi sözlər Ulu Öndər Heydər Əliyev tərəfindən Azərbaycan Prokurorluğuna göstərilmiş etimadın, əminliyin və inamın prokurorluq orqanları tərəfindən doğruldulmasını göstərməklə yanaşı, dövlət başçısının da prokurorluq orqanları və prokurorluq orqanlarının əməkdaşları barəsində olan müsbət fikirləri vurğulamışdır: *"Prokurorlar demokratik cəmiyyətdə prokurorluğa xas olan funksiyaları yerinə yetirərkən cəmiyyətimizin və dövlətimizin qorunmasında prinsipiallıq və peşəkarlıq nümayiş etdirir, cinayətkarlıqla mübarizədə, qanunçuluğun təmin edilməsində, bütövlükdə hüquq sisteminin inkişafında əhəmiyyətli rol oynayırlar".*



**Behruz İbrahimov**
**Yardımlı rayon prokuroru,**
**baş ədliyyə müşaviri**

# Dövlətçiliyin keşiyində durmaq, cəmiyyətdə qanun-qaydanın qorunmasını təmin etmək çox şərəfli vəzifədir



*Azərbaycan Prokurorluğunun inkişaf etməsində dövlət qayğısı bu gün də, gələcəkdə də olacaqdır. Azərbaycan Prezidenti kimi, mən Azərbaycan Prokurorluğuna inanıram, güvənirəm və arxalanıram.*

***Heydər Əliyev***

Ulu Öndər Heydər Əliyev tərəfindən əsası qoyulan siyasi strategiyanın Prezident İlham Əliyev tərəfindən uğurla davam etdirilməsi bu gün Azərbaycanı dünyanın inkişaf etmiş dövlətləri sırasına qoşub. Xatırladaq ki, Azərbaycan dövlət müstəqilliyini bərpa etdikdən sonra ilk illər ölkədə yaranmış hakimiyyətsizlik, özbaşınalıq və anarxiya müstəqilliyimizi məhv olmaq həddinə çatdırmışdı. Ziyalılar, tanınmış ictimai – siyasi xadimlər, mədəniyyət və incəsənət ustaları respublikanı tərk edir, daxildə isə qarşıdurma getdikcə güclənirdi. Həmin vaxt hakimiyyəti ələ keçirənlər ziyalıları, tanınmış ictimai-siyasi xadimləri özlərinə yaxın buraxmır, ölkəni kor-koranə idarə edirdilər. Korrupsiya hallarının qarşısının alınmasında hüquq-mühafizə orqanı əməkdaşlarına lazımı şərait yaradılmırdı. Dövlət müstəqilliyinin ilk illərində – 1991-ci ildən 1993-cü ilin iyununa qədərki mərhələdə ölkəyə rəhbərlik edənlərin dövlət idarəçiliyindəki səriştəsizliyi vəziyyəti getdikcə gərginləşdirmişdir.

Ağır sosial-iqtisadi böhran, hərc-mərclik, anarxiya təsdiqlədi ki, dövlət müstəqilliyinin qorunub saxlanılması onun qazanılmasından qat-qat çətindir. Həmin dövrdə Azərbaycan müstəqil respublika sayılsa da, əslində, bu müstəqillik formal xarakter daşımışdı. Çünki respublikaya rəhbərlik edənlərin müstəqil qanunlar qəbul etməyə cəsarətləri çatmır, ölkəni sovet qanunvericiliyi ilə idarə edirdilər. Xalqımızın sivil, hüquqi, dünyəvi, demokratik dövlətdə yaşamaq arzusunun gerçəkləşdirilməsinə problemlər yaradılırdı. Hakimiyyətdə xalqın güvəndiyi, etimad göstərdiyi siyasi qüvvənin, insanları arxasınca apara biləcək liderin olmaması dövlət idarəçiliyi mexanizmlərinin formalaşmasında ciddi maneə yaradırdı.

Bununla yanaşı, qanunçuluğun və hüquq qaydalarının təmini, vətəndaşların azad, təhlükəsiz yaşamaq hüququnun, ictimai asayişin qorunması, talançılığın, soyğunçuluğun qarşısının alınmasında heç bir əsaslı tədbir görülməmişdi. Ölkə rəhbərliyinin yarıtmaz fəaliyyəti nəticəsində hüquq-mühafizə orqanlarının üzərinə düşən qanuni vəzifələri həyata keçirə bilməməsi özbaşınalığın, quldurluğun, hərc-mərcliyin baş alıb getməsinə rəvac vermişdi. Bundan istifadə edən cinayətkar ünsürlər öz çirkin məqsədlərini asanlıqla həyata keçirir, qanunsuz silahlı qruplaşmalar soyğunçuluq edir, daxildə qeyri-sabit və təhlükəli vəziyyət getdikcə daha geniş vüsət alırdı. Belə şəraitdə hüquqi dövlətdən, demokratiyadan, hətta insanların təhlükəsiz yaşamaq kimi əsas hüququndan danışmaq belə mümkün deyildi. Məhz bunların nəticəsi idi ki, 1992-ci ildə Azərbaycanda cinayətkarlığın səviyyəsi, demək olar ki, ən yüksək dərəcəyə gəlib çatmışdı. Bir ildə 22 min 440 cinayət baş vermişdi. Bu, əvvəlki illərlə müqayisədə bütün illərin hamısından çox olmuşdur.

Kifayət qədər mürəkkəb və qorxulu bir vaxtda, müstəqilliyimizin məhvə doğru getdiyini hiss edən xalq vəziyyətdən yeganə çıxış yolunu Ulu Öndərin ölkəyə rəhbərliyində gördü. Həmin vaxt Naxçıvan Ali Məclisinin Sədri vəzifəsində çalışan Heydər Əliyev respublikamızda baş verən proseslərdən məlumatlı idi. Xalqın təkidli xahişlərindən sonra Ulu Öndər respublikaya rəhbərlik etməyə razılıq verdi. Həmişə Vətənini, xalqını, millətini azad, suveren, müstəqil görmək arzusunda olan, Azərbaycanın beynəlxalq aləmdə əlaqələrinin genişləndirilməsinə çalışan Heydər Əliyev xalqın xahişini qəbul etdi.

Ulu Öndərin ölkə rəhbərliyinə qayıdışından sonra qısa müddətdə ictimai-siyasi sabitliyin, qanunçuluğun, hüquq qaydalarının möhkəmləndirilməsinə nail oldu, hüquqi dövlət quruculuğu və vətəndaş cəmiyyəti is-

tiqamətində cəsarətli addımlar atdı, ölkədə qanunçuluğun təmin olunmasının əsaslarını formalaşdırdı. Müdrik şəxsiyyətin dövlət idarəçiliyindəki zəngin təcrübəsi və dünya miqyasındakı yüksək nüfuzu qısa zamanda özünü büruzə verdi. Ulu Öndərin rəhbərliyi altında dövlət idarəçiliyindəki boşluq tədricən aradan qaldırıldı, cinayətkarlığın qarşısının alınması yolunda qətiyyətli addımlar atıldı və dövlətçiliyə qəsdlər təşkil edən cinayətkar ünsürlər xalqın dəstəyi ilə zərərsizləşdirildi. Bütün bunlar Azərbaycanda ardıcıl və sistemli olaraq, hüquqi dövlət quruculuğu və vətəndaş cəmiyyətinin formalaşdırılması prosesinə başlamaq imkanı yaratmışdır.

1993-cü ildən Azərbaycanda aparılan işlər birinci növbədə respublikamızda daxili ictimai-siyasi vəziyyəti sabitləşdirməyə və bunun üçün də cinayətkarlıqla mübarizəni gücləndirməyə yönəldilmişdir. Bütün bu işlərdə hüquq-mühafizə orqanlarının hamısı, o cümlədən Azərbaycan prokurorluğu fəal iştirak etmişdir. Aparılan işlərin nəticəsi olaraq, diqqətə çatdırmaq istərdim ki, 1997-ci ildə cinayətkarlıq 1992-ci ilə nisbətən xeyli azalmışdır. Qeyd etdiyim kimi, 1992-ci ildə 22 min 440 cinayət hadisəsi baş vermişdirsə, 1997-ci ildə bu göstərici 16 min 400 olmuşdur.



Ölkədə ciddi qayda-qanunun yaradılması, ictimai-siyasi sabitliyin tam bərqərar olunması, hüquq qaydalarının möhkəmləndirilməsi müstəqil Azərbaycanın Konstitusiyasının yaradılması zərurətini daha da gücləndirdi. Bu amillər Ulu Öndər Heydər Əliyevə Konstitusiyanın qəbulu istiqamətində real addımlar atmaq imkanı yaratdı. Ümummilli Liderin rəhbərliyi altında hazırlanaraq 1995-ci il noyabrın 12-də müstəqil Azərbaycanın ilk Konstitusiyası ümumxalq səsverməsi (referendum) yolu ilə qəbul olundu. Əsas Qanunun qəbulu Azərbaycanın demokratik, hüquqi, dünyəvi dövlət quruculuğu ideallarına sadiqliyini bir daha təsdiqlədi. Bundan sonra ölkəmizdə hüquqi islahatların yeni mərhələsinin əsası qoyuldu və həmin dövrün tələblərinə cavab verən qanunvericilik aktları hazırlanaraq qəbul olundu. Bütövlükdə, Konstitusiyamız respublikamızda hüquq sisteminin bünövrəsini yaratmış, qanunvericilik sisteminin əsasını təşkil etmişdir.

Müstəqil Azərbaycanın tarixinə Heydər Əliyev Konstitusiyası kimi həkk olunan Əsas Qanunumuzda prokurorluğun fəaliyyətinə xüsusi bir maddə həsr edilmişdir. Həmin vaxtdan başlayaraq, prokurorluq orqanlarında əsaslı islahatlara start verildi. Ulu Öndər prokurorluq orqanlarına güvəndiyini və etimad göstərdiyini açıq şəkildə bəyan edərək demişdir: “Azərbaycan Prezidenti kimi, mən Azərbaycan Prokurorluğuna inanıram, güvənirəm və arxalanıram. ...Mən prokurorluqda işləyən insanların əksəriyyətini sədaqətli və peşəkar işçi hesab edirəm. Təbiidir ki, belə adamlara etimad göstərmək, etibar etmək lazımdır”.

Onu da qeyd edim ki, Ulu Öndər Heydər Əliyevin hakimiyyətə qayıdışından sonra prokurorluq orqanlarının da fəaliyyətində yeni bir dövr başlanmışdır. Respublikanın prokurorluq işçiləri dövlət başçısının göstərdiyi yüksək etimada cavab olaraq, qarşıya qoyulan vəzifələrin yerinə yetirilməsində böyük əzmkarlıq göstəriblər. Həyata keçirilən hüquqi islahatlar nəticəsində məhkəmə-hüquq sistemi tamamilə yenilənmiş, demokratik və sivil bir təşkilata çevrilmişdir. Prokurorluq orqanları Ulu Öndərin inam və etimadını əməli fəaliyyətdə doğrultmaq, tapşırılan işi layiqincə yerinə yetirmək üçün bütün imkanlarından səmərəli istifadə etmişdir.

Bütün bunlardan sonra Heydər Əliyev prokurorluq orqanlarının işini yüksək qiymətləndirərək demişdir: “Prokurorluq orqanı hüquq-mühafizə orqanlarının içərisində xüsusi yer tutur. Prokurorluq istintaqın əsas hissəsini aparır. İstintaq isə cinayəti açmaq üçün və qanun əsasında cinayətkarın cinayətkar olduğunu sübut etmək üçün, yaxud da ki, edilmiş cinayətin məzmununu aşkar etmək üçün əsas vasitədir. Ötən beş il müddətində Azərbaycanda istintaq işlərinin çoxu bu cinayətlərlə əlaqədar aparılıbdır və bu gün məmnuniyyətlə demək olar ki, bunların nəticəsində cinayətlər açılıb, edilən cinayətlərin məzmunu aşkar olunub, ictimaiyyətə göstərilib və aparılan istintaq işləri nəticəsində çıxarılan məhkəmə hökmləri cinayətkarların cinayət etdiklərini sübut edib və beləliklə də cəmiyyətimiz, vətəndaşlarımız belə cinayətkarlardan xilas olublar. Bunlar hamısı çox əhəmiyyətli işlərdir və mən bu işlərdə prokurorluğun xidmətlərini yüksək qiymətləndirirəm”.



Müdrik şəxsiyyət Heydər Əliyev prokurorluq orqanlarının fəaliyyətinin təkmilləşdirilməsini, bu istiqamətdə yeni qanunvericilik aktlarının qəbul edilməsini daim diqqət mərkəzində saxlayıb. Bunu bir-birinin ardınca qəbul edilən qanun və məcəllələr də təsdiqləyir. "Prokurorluq haqqında", "Prokurorluq orqanlarında qulluq keçmə haqqında", "Əməliyyat-axtarış fəaliyyəti haqqında" qanunların, Cinayət, Cinayət-prosessual, Cəzaların İcrası, İnzibati xətalar məcəllələri və bir sıra mühüm normativ-hüquqi aktların qəbul olunması hüquqi bazanı daha da zənginləşdirdi. Bu qanunvericilik aktlarının qəbulundan sonra prokurorluq orqanları demokratik cəmiyyətə uyğun yenidən qurulmuşdur.

Heydər Əliyev çıxışların birində səsləndirdiyi fikri: "Azərbaycan Prokurorluğunun inkişaf etməsində dövlət qayğısı bu gün də, gələcəkdə də olacaqdır" və 17 iyul 1998-ci il tarixli Sərəncamı ilə "1 oktyabr – Prokurorluq işçilərinin peşə bayramı günü" elan etməsi prokurorluq orqanlarının əməyinə verilən yüksək dəyərin göstəricisi idi. Ulu Öndər prokurorluq peşəsini hörmətli şərəfli peşə adlandıraraq demişdir: *"Müstəqil dövlət kimi, Azərbaycan keçmiş tarixindən, ənənələrindən istifadə edərək yeni dövlət quruculuğu prosesini həyata keçirir. O cümlədən, müstəqil Azərbaycanın prokurorluğu yaranır və inkişaf edir. Bu orqanın inkişaf etməsində xidmət göstərən hər bir Azərbaycan vətəndaşı şərəfli iş görür. Mən arzu edirəm ki, hər bir prokurorluq işçisi öz peşəsinin hörmətini yüksək saxlasın, öz peşəsinin adını qorusun. O, öz peşəsinin adını qoruyaraq öz şəxsi adını qoruyacaqdır. Arzu edirəm ki, müstəqil Azərbaycanın prokurorluğu və hər bir prokuroru cəmiyyətdə ən hörmətli, ən layiqli adam sayılsın".*

Ümummilli Liderin prokurorluq qurumlarında uğurlu kadr islahatı bu sahədə çalışan hər bir əməkdaşın ürəyincə olmuşdur. Bu islahatlar yüksək səviyyəli prokurorluq əməkdaşlarının yetişdirilməsində hüquqi baza yaratmışdır. Kadr islahatlarındakı keyfiyyət dəyişikliyi prokurorluq orqanlarının dövrün tələblərinə uyğun yeni inkişaf mərhələsinin əsasını qoydu. Düşünülmüş şəkildə həyata keçirilən islahatlar prokurorluq orqanlarının inkişafına təkan verdi. Heydər Əliyevin 19 iyun 2001-ci il tarixli fərmanı ilə "Prokurorluğa işə qəbul olunmaq üçün namizədlərlə müsabiqə keçirilməsi qaydaları haqqında Əsasnamə" təsdiq edilmişdir. Bundan sonra prokurorluq orqanlarına işə qəbulun demokratik prinsiplər əsasında, şəffaflığın təmin olunması əsas götürülərək, müsabiqə yolu ilə həyata keçirilməsinin əsası qoyuldu. Hərtərəfli biliyə malik savadlı hüquqşünasların, xüsusilə, gənclərin dövlət idarəetməsində iştirakının təmin edilməsi demokratik prinsiplərin inkişafında mühüm rol oynadı.

Ulu Öndər Heydər Əliyevin siyasi kursunu layiqincə davam etdirən Prezident İlham Əliyev bütün sahələrdə olduğu kimi, prokurorluğun inkişafını da daim diqqət mərkəzində saxlayıb. Dövlət başçımızın "Bizim siyasətimizin mərkəzində Azərbaycan vətəndaşı dayanır. Prokurorluq orqanları üçün də bu, əsas məqsəd, həmişə bütün işlərdə əsas amil kimi dəyərləndirilməlidir" deməsi prokurorluq orqanlarına verilən dəyərin bariz nümunəsidir. Prezident İlham Əliyev 2020-ci il mayın 1-də Baş prokuroru Kamran Əliyevi videoformatda qəbul edərkən prokurorluq orqanları qarşısında mühüm vəzifələr qoyaraq demişdir: "Bütün sahələrdə olduğu kimi, prokurorluq orqanlarında da daha genişmiqyaslı islahatlara ehtiyac var. Bu gün Azərbaycanın hər sahəsində islahatların nəticələri vətəndaşlar tərəfindən yüksək qiymətləndirilir. İslahatlar yeniləşmə, yeni yanaşma, müasir şəraitə uyğunlaşma deməkdir. Biz islahatlar aparmaqla ölkəmizi gücləndiririk və ölkəmizin gələcək dayanıqlı inkişafını şərtləndiririk. Tərəqqi islahatlarsız mümkün deyil. Ona görə hüquq mühafizə orqanlarında da digər sahələrdə olduğu kimi, islahatlara böyük ehtiyac var. Ümid edirəm ki, Azərbaycan Respublikasının Prokurorluğu bu islahatların aparılmasında uğurlar qazanacaq".

Həmin vaxtdan başlayaraq, Azərbaycan Prokurorluğu yeni inkişaf mərhələsinə qədəm qoydu. Prokurorluqda islahatların uğurla davam etdirilməsi və beynəlxalq standartlara uyğunlaşdırılması istiqamətində qətiyyətli addımlar atıldı və prokurorluq orqan-



larının fəaliyyəti daha da təkmilləşdirildi. Prezident İlham Əliyevin qarşıya qoyduğu vəzifələrin layiqincə yerinə yetirilməsi sayəsində prokurorluq orqanlarının kadr tərkibi yeniləşdirilmiş, cinayətkarlığa, korrupsiyaya qarşı mübarizə metodları təkmilləşdirilmiş, maddi-texniki bazası möhkəmləndirilmişdir.

Prezident İlham Əliyevin 29 sentyabr 2022-ci il tarixli sərəncamı ilə Azərbaycan Respublikasında 2023-cü il "Heydər Əliyev İli" elan edilib. Hazırda ölkəmiz, bütövlükdə, dünya azərbaycanlıları Ulu Öndər Heydər Əliyevin 100 illik yubileyinin təntənəli keçirilməsinə böyük hazırlıq işlərini davam etdirir. Ümummilli Lider Heydər Əliyevin 100 illik yubileyinin dövlət səviyyəsində qeyd olunması hər bir soydaşımız tərəfindən böyük rəğbətlə qarşılanıb. Baş Prokurorluğun təşəbbüsü ilə 2023-cü ilin "Heydər Əliyev İli" elan edilməsi ilə əlaqədar silsilə tədbirlər keçirilir. Həmin tədbirlərdə Ulu Öndər Heydər Əliyevin rəhbərliyi ilə korrupsiyaya qarşı aparılan sistemli mübarizə, həyata keçirilən əsaslı islahatlar, görülən təşkilati və preventiv tədbirlər, habelə korrupsiyaya qarşı ciddi mübarizənin aparılmasında prokurorluq orqanlarının üzərinə düşən vəzifələr barədə ətraflı məlumat verilir. Korrupsiyaya qarşı mübarizə istiqamətində Heydər Əliyevin qəti siyasi iradəsi Prezident İlham Əliyev tərəfindən davam etdirilməklə həyata keçirilən mövcud siyasətin əsas istiqamətini təşkil edir.

Hazırda Azərbaycanın adının dünyanın inkişaf etmiş dövlətləri ilə bir sırada çəkilməsi hər birimiz üçün qürurverici haldır. Prezident İlham Əliyevin rəhbərliyi ilə qəhrəman ordumuzun öz gücü ilə Ermənistanın 30 illik işğalına son qoyaraq tarixi Qələbə qazanması və ərazi bütövlüyümüzü təmin etməsi ölkəmizin dünya birliyindəki nüfuzunu daha da artırmış, mövqeyini möhkəmləndirmişdir. İndi Azərbaycan dünyada qalib ölkə kimi tanınır. Şanlı Zəfərdən bir həftə sonra Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın işğaldan azad edilmiş ərazilərimizə səfərləri və səfər çərçivəsində yenidənqurma, tikinti-abadlıq işlərinin əsasını qoymaları dünyaya bir daha bəyan etdi ki, "Qarabağ Azərbaycandır!" Bu uğurlar və ölkəmizin dünya miqyasında reytinqinin getdikcə yüksəlməsi əsası Ulu Öndər Heydər Əliyev tərəfindən qoyulmuş siyasi kursa Prezident İlham Əliyevin sadiqliyinin bariz nümunəsidir. Ulu Öndər Azərbaycana rəhbərlik etdiyi illərdə həyatını Vətəninə, xalqına, millətinə həsr edib. Azərbaycan xalqı yeni əsrə və yeni minilliyə məhz Heydər Əliyev zəkasının işığında qədəm qoymuşdur. Hazırda bütün sahələr üzrə yüksəliş yolunda inamla irəliləyən müasir Azərbaycan Heydər Əliyevin həyat amalının təntənəsidir.

**Əli Babayev**
**Gədəbəy rayon prokuroru,**
**kiçik ədliyyə müşaviri**




*Mənim həyatımın məqsədi*
*Azərbaycandır, Azərbaycan xalqıdır,*
*Azərbaycan Respublikasıdır,*
*Azərbaycan vətəndaşıdır.*
*Əgər mən buna nail ola bilsəm,*
*ən xoşbəxt adam kimi həyatımı*
*başa çatdıracağam.*
*Buna da nail olmağa çalışıram*
*və çalışacağam.*

***Heydər Əliyev***

# Böyük ömrün 100 illik dastanı

Həmişə işə gələndə diqqəti cəlb edən bir guşənin önündə qeyri-ixtiyari ayaq saxlayıram. Bu elə bir guşədir ki, hər bir azərbaycanlıya həyat dərsi ola bilər. Mən də hərdən Ümummilli Lider Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirən bu guşədən öyrənir və düşünürəm: "Doğma vətənini, elini, qəlbən sevən, cəmiyyəti öz zəka nuru ilə işıqlandıran dahilər tarixə çox nadir hallarda bəxş olunur. Mən o dahinin memarı olduğu dövlətin vətəndaşıyam ki, onun fəaliyyəti, əqli və dühası özündən sonrakı nəsillərin gələcəyinə çıraq olmuş, qeyri-mümkün məfhumunu cılızlaşdırmış, əbədilik zirvəsinə ucalmışdır".



Dünyaya gəlişinin 100-cü baharını qarşıladığımız müstəqil Azərbaycanın banisi Ümummilli Lider Heydər Əliyevin şərəfli ömür yolu bütün azərbaycanlılar üçün parlaq həyat nümunəsidir. O deyirdi: "Həyatın mənası çox və yaxud az yaşamaqdan ibarət deyil. Onun əsas mənası bu həyatda öz yerini tutmaq, mövqeyini müəyyən etmək, ləyaqət göstərmək və başqaları üçün nümunə olmaqdır". Belə ki, yer üzünün əşrəfi insanı var edən, bəzən sonsuz ümmanlara aparan onun əməlləri və gördüyü işlərdir. Əlbəttə dünyada silinməz izlər qoymuş, yaşadığı dövrün önündə gedən çox insanlar, çox dahilər olmuşdur. Dahilik zirvəsinin fatehləri arasında, öz möhtəşəmliyi ilə daha ucada duran dövlət, siyasət və parlaq zəka nəhəngləri içərisində Azərbaycan xalqı üçün daha nəhəng sayılan Heydər Əliyevdir.

Azərbaycanın milli varlığının qoruyucusu Heydər Əliyev sadə, zəhmətkeş bir azərbaycanlı ailəsində dünyaya göz açmışdır. Yüksək təhsil almış və tarixi biliklərə dərindən yiyələnmişdir. Tükənməz fitri istedada sahib Heydər Əliyev hələ gənc yaşlarından xalqının dərdinə bələd olmuş, məkrli qonşularımızın min bir hiyləsini gözləri ilə görmüşdür.

1969-cu il Azərbaycan xalqının həyatına əbədi həkk olunan milli ruhun tərəqqisi dövrü başladı. Heydər Əliyevin müdrikliyi, nadir siyasətçi istedadı xalqımızı həmin dövrün mənəvi sarsıntılarından xilas etdi. Dahi şəxsiyyət yeni Azərbaycanı – Müstəqil Azərbaycanı hələ birinci katib işlədiyi vaxtlardan qurmağa başlamışdı. Heydər Əliyev sərt totalitar rejimin verdiyi imkanlardan maksimum istifadə edərək, bəzən isə məhdudlaşdırıcı qanunlardan məharətlə yan keçərək xalqının, Vətəninin həyatın bütün sahələrində inkişafını təmin etmək üçün mümkün olan hər şeyi etdi. Heydər Əliyev Azərbaycana rəhbərlik etdiyi 1969 – 1982-ci illərdə Sovet İttifaqı çərçivəsində gələcək müstəqil Azərbaycan dövləti üçün zəruri addımlar atmağa nail oldu. Onun Azərbaycanın siyasi rəhbərliyinə gəlişi ölkənin göz önündə ildən-ilə həm mədəni, həm də iqtisadi cəhətdən dəyişməyinə şərait yaratdı. O, ölkəyə birinci dəfə rəhbərlik etdiyi dövrdə Azərbaycanda ye-

ni fabrik və zavodlar tikildi, iqtisadiyyat dirçəldi, yeni yaşayış sahələri salındı. Ulu Öndərin xalqımıza qarşı ən böyük, ən dəyərli xidmətlərindən biri doğma dilimizin inkişafı və yüksəlişi uğrunda apardığı mübarizə olmuşdur. Ulu Öndərin sarsılmaz iradəsi və ciddi səyləri ilə "Azərbaycan SSR-nin dövlət dili Azərbaycan dilidir" maddəsi 1978-ci il Azərbaycan SSR-nin Konstitusiyasına daxil edildi. Keçmiş Sovet İttifaqında bu cür ciddi məsələni qoymaq və ona nail olmaq heç də asan iş deyildi. Ümummilli Lider Heydər Əliyev itib batmış tariximizi, yasaq olmuş bayramlarımızı, ədəbiyyat nümunələrimizi üzə çıxardı, Cabbarlara, Cavidlərə, Vaqiflərə yeni ruh verdi, xalqının arxası və dayağı oldu.




Hələ o dövrdə Heydər Əliyev müstəqil yaşadığımız bu günləri görürdü, xalqını, vətənini bu günlər üçün hazırlayırdı. Ulu şəxsiyyət kommunist rejiminin ağalığı dövründə Azərbaycan xalqına qarşı üz vermiş haqsızlıqlar əleyhinə özündən başqa heç kəsin apara bilmədiyi mübarizəni aparmışdı. Kremlin ağır təqibləri şəraitində xalqının çəkdiyi əzablara cavab olaraq Azərbaycanın bu günü və gələcəyi naminə uzaqgörən və cəsarətli addımlar atmışdı. Lakin 1987-ci ildə Heydər Əliyevin Sovet İKP MK Siyasi Bürosu üzvlüyündən istefa verməsi ilə Azərbaycan xalqına üz vermiş faciələr və itkilər məhz bundan sonra başladı. Onun Sovet adlı dövlətin rəhbərlərindən biri olduğu dövrdə Azərbaycana qarşı hansısa addımı atmağa cəsarəti çatmayan qüvvələr fəallaşdılar. Azərbaycanda baş qaldırmış azadlıq hərəkatını boğmaq məqsədilə Sovet ordusu tərəfindən törədilmiş qanlı 20 Yanvar gecəsinin səhəri günü Heydər Əliyevin Moskvadakı Azərbaycan Nümayəndəliyinə gələrək xalqına qarşı törədilmiş bu ağır cinayətə kəskin etirazını bildirməsi, nəhəng imperiyanı ittiham edərək ifşa etməsi bir tərəfdən öz şəxsi həyatı daim təhlükədə olan Ümummilli Liderin böyük cəsarət, qətiyyət sahibi olmasının və xalqına bağlılığının nəticəsi idisə, digər tərəfdən də informasiya blokadasına alınmış Azərbaycanda nələrin baş verdiyini dünyaya çatdırmaqla öz xalqının haqq səsinin carçısı olmasının nümunəsi idi.

Həmin dövrdə siyasi arenaya yeni-yeni simalar gəlməyə başladı. Populist çıxışları ilə xalqa vədlər verən qüvvələr Heydər Əliyevin siyasətə qayıtmasına əngəl törətməyə çalışırdılar. Heydər Əliyev Siyasi Büro üzvlüyündən istefa verdikdən sonra Bakıya qayıtdı. Burada təqiblərə məruz qaldığından doğma yurdu Naxçıvana üz tutdu. 1991-1993-cü illərdə Azərbaycanın iqtisadi vəziyyəti tamamilə dağıdılmış, ictimai-siyasi sabitlik pozulmuşdu. Bundan istifadə edən erməni daşnakları Azərbaycan torpaqlarının bir hissəsini işğal etmişdi. Artıq 1993-cü ilin ortalarına doğru ölkə vətəndaş müharibəsinin və parçalanmanın tam astanasında idi. Xalq yaranmış bu vəziyyətdən çıxmaq üçün çıxış yolunu Heydər Əliyevdə görüb onu köməyə çağırdı. Azəbaycan xalqı Heydər Əliyevə müraciət edərək ondan Bakıya qayıdıb respublikaya rəhbərlik etməsini istəmişdi. Xalqın müxtəlif təbəqələrinin neçə-neçə nümayəndə heyəti Naxçıvana gəlib onunla görüşürdü.

Heydər Əliyev xalqının səsinə səs verdi, onu düşdüyü ağır vəziyyətdən xilas etdi. O, 1993-cü ilin iyununda Bakıya gəldi. Bu bir xilaskarın gəlişi idi. Xalqımız məhz həmin tarixi günü Milli Qurtuluş Günü kimi qeyd edir. 1993-cü il oktyabr ayının 3-də Heydər Əliyev böyük səs çoxluğu ilə prezident seçildi. Bu Azərbaycan xalqı üçün tarixin dönüş nöqtəsi oldu.

Hakimiyyətə gəldiyi ilk gündən Ulu Öndər Ermənistan tərəfindən zorla zəbt olunmuş torpaqlarımızın geri qaytarılması, məcburi köçkünlərin doğma yurdlarına qayıtması üçün əlindən gələni əsirgəmədi. Məhz Ümummilli Liderin gərgin səyi və zəhməti nəticəsində cəbhədə atəşkəs elan olundu, dünya dövlətləri Ermənistanı işğalçı dövlət kimi tanıdı. Ölkəmiz sülh danışıqlarının, əməkdaşlığın mərkəzinə çevrildi. Ulu Öndərin iti zəkası sayəsində Azərbaycanın dumanlı taleyi qara buludlardan təmizləndi. Taleyüklü sazişlər



bağlandı, böyük layhələrə start verildi. Müstəqil dövlətimiz nüfuzlu beynəlxalq təşkilatların üzvü oldu.

Məhz onun Azərbaycana rəhbərlik etdiyi illərdə güclü iqtisadiyyatın təməli qoyudu. Heydər Əliyevin təşəbbüsü ilə bir çox beynəlxalq müqavilələrə imza atıldı və onların həyata keçirilməsinə başlandı. Onun rəhbərliyi altında böyük siyasi məna kəsb edən bir çox dünya miqyaslı iqtisadi proqramların həyata keçirilməsində Azərbaycan aparıcı mövqe tutdu.

Böyük coğrafi məkanda region qüvvələrinin birləşməsində Heydər Əliyevin danılmaz xidmətləri olmuşdur. Onun daxili siyasət məsələlərinə mühüm əhəmiyyət verməsi, beynəlxalq miqyasda etiraf olunan uğurlu və cəsarətli addımlar atması, xalqının maraqları naminə ən nüfuzlu tribunalardan bacarıq və məharətlə istifadə etməsi Azərbaycan dövlətçiliyinin bu günü və gələcəyi baxımından olduqca əhəmiyyətli olmuşdur.

*Xalqı zirvələrə qaldırmaq üçün*
*Sevgi şahlığının taxtına çıxdın.*
*Oğul xalq üçündür, zirvə dağ üçün*
*Nə yaxşı bu xalqın baxtına çıxdın.*

Dahi liderin vətənsevər siyasətinin zirvəsində dünyanın müxtəlif ölkələrinə səpələnmiş azərbaycanlıların birlik və həmrəyliyinin təmin edilməsi yolunda gördüyü işlər durur. Ulu Öndər dünya azərbaycanlılarının təşkilatlanması və onların bir mərkəzdə – Müstəqil Azərbaycan ətrafında birləşməsi üçün mümkün olan hər şeyi etmişdir. Ən önəmlisi isə, qəlbi vətən eşqi ilə döyünən Güney Azərbaycanda olan soydaşlarımızın sökdüyü tikanlı sərhəd məftillərini gül çələnginə çevirib Dünya Azərbaycanlılarının Həmrəyliyi Günü kimi bütün dünya azərbaycanlılarına ərmağan etməsidir.

*Ucaltdı hər yerdə bayrağımızı,*
*Yazdı tarixlərə ad-sanımızı,*
*Tanıtdı dünyada varlığımızı*
*Ulu bir sərkərdə, Ulu bir öndər.*

Heydər Əliyevin Azərbaycana rəhbərlik etməsi ilə güclü dövlətçilik məktəbinin əsası qoyuldu. Konstitusiyanın qəbulu Azərbaycanda demokratik quruluşun və hüquqi dövlətin möhkəm təməlini qoydu, hüquqi islahatların dərinləşdirilməsinə zəmin yaratdı. Heydər Əliyev tərəfindən əsası qoyulan bu islahatların mühüm komponentlərindən biri də qərəzsiz, ədalətli, aşkar və səmərəli ədalət mühakiməsinin formalaşdırılması məqsədi ilə qurulan məhkəmə-hüquq sistemi olmuşdur. Belə ki, müstəqil Azərbaycanın ali qanununda ilk dəfə olaraq prokurorluğun layiqli yerinin müəyyənləşdirilməsi, onun statusu, təşkili və fəaliyyət prinsipləri, səlahiyyət dairəsi və vəzifələrinin qanunvericilik qaydasında təsbit edilməsi Ümummilli Liderin bilavasitə adı ilə bağlıdır.

Bəşəriyyət var olduğu gündən heç bir dövlət 10 ildə əsrə bərabər inkişaf yolu keçməyib. Lakin Azərbaycan Ulu Öndərin misilsiz xidmətləri sayəsində bu tarixi nailiyyətə imza atıb. Müstəqil Azərbaycanı sağlam özüllər üzərində quran müdrik lider dövlətin strateji fəaliyyətinin əsaslarını milli adət-ənənələrimizin, dərin tarixi köklərimizin fonunda yaradıb. Böyük Azərbaycanlı Heydər Əliyevin 100 illiyinin qeyd olunduğu bu günlərdə onun əziz xatirəsinin qəlbimizdə əbədiyaşar olduğunu bir daha duyuruq. Ulu Öndərin Azərbaycan Respublikası və xalqı üçün etdiklərini yada salır və fəxr edirik ki, onun siyasəti və arzusunu İlham Əliyev indi uğurla həyata keçirir. Bu gün Ulu Öndərin siyasi varisi, cənab prezident İlham Əliyevin Ümummilli Liderin ideyalarını həyata keçirdiyinin şahidiyik. Bu gün xalqımıza öz xoşbəxt günlərini yaşadan möhtərəm Prezidentimiz Ali Baş Komandan İlham Əliyev ata vəsiyyətini gerçəkləşdirməklə, tarixi Qarabağ torpağını düşmən tapdağından azad etməklə yurdumuza azadlıq və sülh gətirdi. İlham Əliyev Şuşanın azad edilməsi ilə bağlı xalqa müraciətində belə demişdi: *“Mən bu gün Ulu Öndər Heydər Əliyevin məzarını ziyarət etdim, onun ruhu qarşısında baş əydim. Ürəyimdə dedim, xoşbəxt adamam ki, ata vəsiyyətini yerinə yetirdim: Şuşanı azad etdik! Bu, böyük Qələbədir! Bu gün şəhidlərimizin, Ulu Öndərin ruhu şaddır! Gözün aydın olsun, Azərbaycan! Gözünüz aydın olsun, dünya azərbaycanlıları!”.*

Ölkə prezidentinin rəhbərliyi altında Ümummilli Lider Heydər Əliyevin təməlini qoyduğu yolda parlaq gələcəyə doğru irəliləyirik. Yolumuz onun yolu, işimiz haqq işidir. Andımız bu torpaq, qibləgahımız Vətəndir. Çünki biz Heydər Əliyev məktəbinin davamçılarıyıq. Andımızla, inamımızla, bütün varlığımızla sevdiyimiz bu vətənə bağlıyıq. Çünki ondan – dünyanın ən böyük azərbaycanlısından əsl azərbaycanlı olmağı öyrənmişik.

**Aytən Hacıyeva**
**Goranboy rayon prokurorunun köməkçisi vəzifəsi üzrə stajor**